İLHAM ƏLİYEV

TƏLTİFLƏR

Bakı-2011

9414

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

67.401(5Aze) + 66.3(5Aze)8
Ə 65

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli dövlət xadimi və ictimai-siyasi xadim kimi genişmiqyaslı, çoxşaxəli və səmərəli fəaliyyətinə, misilsiz rəhbərlik keyfiyyətlərinə və liderlik xüsusiyyətlərinə, siyasi, iqtisadi və humanitar sahələrdə əvəzsiz xidmətlərinə görə dünyanın bir çox ölkələrinin ali dövlət ordenləri, medalları və fəxri nişanları ilə təltif edilmiş, ən mötəbər beynəlxalq və ictimai qurumların, elm, təhsil, idman təşkilatlarının yüksək mükafatlarına, çoxsaylı fəxri elmi adlara layiq görülmüşdür.

Bu kitab Prezident İlham Əliyevin orden və medallar, fəxri adlar və mükafatlar ilə təltiflərinə həsr olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev

İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur.

1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxumuşdur.

1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olmuşdur. MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olmuşdur.

1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi dərəcəsi almışdır.

1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləmişdir.

1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışmış və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir.

Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

İki dəfə, 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir.

1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidentidir.

1999-cu ildə hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir.

2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.

2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir.

2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76 faizindən çoxu İlham Əliyevin lehinə səs vermişdir. O, 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır.

2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88 faizindən çoxunun səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 2008-ci il oktyabrın 24-də vəzifəsinin icrasına başlamışdır.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.

Evlidir. Üç övladı, iki nəvəsi var.

Ordenlər

Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeni

2005-ci il aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Azərbaycanın ən ali mükafatı, Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun şərəfinə təsis edilmiş "Heydər Əliyev" ordeni və onun bir nömrəli vəsiqəsi təqdim edilmişdir.

Prezident İlham Əliyevə "Heydər Əliyev" ordeninin təqdimat mərasimində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri **Fərhad Abdullayev** dövlət başçısına müraciətlə dedi:

- Zati-aliləri cənab Prezident!

Bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin layiqli davamçısı, öz fəaliyyəti ilə tanınmış siyasi və dövlət xadimi kimi dünya ictimaiyyətinin rəğbətini qazanmış möhtərəm Prezidentimiz İlham Əliyevə Azərbaycanın ali mükafatı olan "Heydər Əliyev" ordeninin təqdim edilməsinin Konstitusiya Məhkəməsinin sədri kimi mənə nəsib olmasından hədsiz şərəf və iftixar hissi keçirir, bu hadisəni həyatımın ən unudulmaz və əlamətdar məqamı hesab edirəm.

"Heydər Əliyev" orde-ninin statutunda müəyyən edilmişdir ki, o, Azərbaycan Respublikasının Prezidentinə onun statusuna görə verilir. Bu, qanunun tələbidir. Möhtərəm Prezidentimiz, eyni zamanda, Sizin həyat yolunuza, siyasi fəaliyyətinizə nəzər salınsa, aydın görünər ki, ordenin statutunda müəyyən edilmiş digər müddəalar da Sizin çoxşaxəli fəaliyyətinizi məhz bu ordenlə qiymətləndirmək üçün tam əsas verir.

Azərbaycan xalqına qarşı törədilmiş Qanlı yanvar faciəsinə öz qəti etirazını bildirmək üçün 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyevi müşayiət etməklə Siz xalqımızın bu ağır günündə siyasi mövqeyinizi, ümummilli liderimizlə siyasi həmfikir olduğunuzu nümayiş etdirərkən artıq öz siyasi platformanızı müəyyən etdiyinizi göstərdiniz. Bu, Azərbaycan xalqının haqq işinin müdafiəsinə, onun hüquqlarının qorunmasına xidmət edən prinsipləri əhatə edən bir platforma idi. Siz həmin prinsiplərə sonralar da sadiq qalaraq, bir siyasi xadim kimi öz məfkurənizi konkret fəaliyyətinizdə parlaq surətdə nümayiş etdirməyə başladınız.

Möhtərəm Prezident, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda rəhbərliyə qayıdışı ilə ölkəmizdə başlanan böyük quruculuq işləri Sizin öz bilik və bacarığınızı Azərbaycanın mənafeyinə daha səmərəli sərf etməyiniz üçün imkan yaratdı.

1994-2003-cü illərdə Azərbaycan Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra birinci vitse-prezidenti kimi Sizin fəaliyyətinizin ölkəmizin iqtisadi dirçəlişində mühüm rol oynadığını desək, yanılmarıq. Heydər Əliyevin böyük müdrikliklə hazırladığı neft strategiyasının gerçəkləşməsində fəal iştirak edərək, "Əsrin müqaviləsi"nin ərsəyə gətirilib həyata keçirilməsində müstəsna xidmətləriniz danılmazdır.

Bu il mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmə-rinin Azərbaycan hissəsinin istifadəyə verilməsini biz hamımız böyük bayram kimi qeyd edəcəyik.

Azərbaycan üçün tale-yüklü əhəmiyyəti olan bu layihənin həyata keçirilməsi Sizin daxili və xarici siyasətinizin böyük uğurudur. Budur siyasətdə varislik, budur ölkənin iqtisadi inkişafına xidmət, budur dünya iqtisadiyyatına inteqrasiya!

Möhtərəm cənab Prezident!

1995 və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilməyiniz Sizin siyasi fəaliyyət dairənizi daha da genişləndirdi. Xüsusilə Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı kimi Azərbaycanın mənafelərinin müdafiəsinə yönəlmiş fəaliyyətiniz nəinki xalqımız tərəfindən, eləcə də bu nüfuzlu beynəlxalq təşkilat tərəfindən yüksək qiymətləndirilmişdir. Sizin Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və Büro üzvü seçilməyiniz bunun parlaq təzahürüdür. Avropa ideallarına nümayiş etdirdiyiniz sadiqliyə görə 2004-cü ildə Avropa Şurası Parlament Assambleyasının medalı ilə təltif olunmağınız bu uğurlarınızın beynəlxalq miqyasda tanınması demək idi.

1997-ci ildən Milli Olimpiya Komitəsinin prezidenti kimi ölkəmizdə olimpiya hərəkatının görünməmiş miqyasda vüsət almasına təkan vermiş fəaliyyətinizi xüsusilə qeyd etmək lazımdır. Ölkəmizdə idmanın və olimpiya hərəkatının qısa müddət ərzində belə sürətlə inkişafı məhz Sizin yüksək təşkilatçılıq və məqsədyönlü iş aparmaq bacarığınıza dəlalət edir. İdmanın və olimpiya hərəkatının inkişafındakı xidmətlərinizə görə beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilməyiniz Sizin bu sahədəki fəaliyyətinizin beynəlxalq miqyasda yüksək qiymətləndirildiyini nümayiş etdirir.

2003-cü il avqustun 4-də Siz Azərbaycan Respublikasının Baş naziri təyin olundunuz. Bu vəzifədə az müddət işləsəniz də, qəbul etdiyiniz qərarlarla, həyata keçirməyə başladığınız işlərlə ölkəyə rəhbərlik etmək bacarığına və səriştəsinə malik olduğunuzu bir daha sübut etdiniz.

Cənab Prezident, xalqımız Sizi 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçdi. Elə ilk bəyanatlarınızda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi xəttinə sadiq qalacağınızı bildirərək, bu xəttin uğurlu davamçısı olduğunuzu öz əməli fəaliyyətinizdə nümayiş etdirdiniz.

Sizin Prezidentliyə başladığınız vaxtdan bəri həyata keçirdiyiniz işlər göz qabağındadır. Təməli Heydər Əliyev tərəfindən qoyulmuş geniş islahatlar xəttinin uğurla davam etdirilməsi, demokratikləşmə prosesinin geniş vüsət alması, ölkədə vətəndaş cəmiyyətinin bərqərar edilməsi yolunda atılan addımlar dövlət quruculuğu sahəsində qazandığınız nailiyyətlərin bir qismidir. Ölkə regionlarının inkişafını xüsusilə qeyd etmək lazımdır. Rəsmi statistikanın rəqəmləri dediklərimizi təsdiq edərək, bunların obyektiv qiymət olduğunu sübut edir.

Siz andiçmə zamanı bəyan etdiyiniz prinsiplərə sadiq qaldığınızı bütün fəaliyyətinizlə sübuta yetirirsiniz. Bu, həm də bölgələrə səfərlər zamanı əhali ilə son dərəcə səmimi ünsiyyətinizdə, bütün problemləri yerindəcə həll etməyinizdə öz parlaq əksini tapır.

Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, ölkəmizin mənafeyinin müdafiəsinə, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli işinə xidmət edən xarici siyasət xəttinizi xüsusi vurğulamaq istəyirəm. Xarici ölkələrə işgüzar və rəsmi səfərləriniz, müxtəlif ölkələrin rəhbərləri, siyasi xadimləri, beynəlxalq qurumların tanınmış nümayəndələri ilə Azərbaycandakı görüşləriniz zamanı xalqımızın milli mənafeyinin müdafiəsi işinə yönəldilmiş tarazlaşdırılmış xarici siyasət xəttiniz yüksək qiymətə layiqdir.

Möhtərəm cənab Prezident!

Azərbaycanın hərtərəfli inkişafı yolunda göstərdiyiniz xidmətlərin siyahısını daha da artırmaq olar. Lakin mən buna ehtiyac duymuram. Belə ki, bu fəaliyyət hamımızın gözü qarşısında həyata keçir və biz hamımız onun uğurlu nəticələrinin canlı şahidləriyik. Görülmüş işləri obyektiv qiymətləndirə bilən hər bir sağlam düşüncəli insan bu uğurları lazımınca dəyərləndirməlidir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev öz sağlığında Azərbaycanın hər hansı dövlət ordeni və medalı ilə təltif edilməsinə razılıq verməmişdir. Hesab edirəm ki, dahi rəhbərin adını daşıyan bu ordenin onun layiqli davamçısı olduğunu artıq sübut etmiş İlham Əliyevə verilməsi təkcə Sizin Azərbaycan Respublikasının Prezidenti olduğunuza, eləcə də ordenin statutunda deyildiyi kimi, Azərbaycanın tərəqqisinə, əzəməti və şöhrətinin artmasına töhfə verən müstəsna xidmətlərinizə görə verilən ali mükafat deyil, həm də Heydər Əliyev tərəfindən əsası qoyulmuş və hazırda uğurla həyata keçirilən siyasi xəttə verilən yüksək qiymətdir.

Zati-aliləri, bu yüksək mükafat münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycanın tərəqqisi naminə göstərdiyiniz fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

İndi isə icazə verin, "Heydər Əliyev" ordenini və onun bir nömrəli vəsiqəsini Sizə təqdim edim.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev "Heydər Əliyev" ordenini və onun bir nömrəli vəsiqəsini Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Bu gün mənim həyatımda tarixi bir gündür. Azərbaycan Respublikasının ən ali mükafatı, xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan orden mənə təqdim edildi. Sizin qeyd etdiyiniz kimi, bu orden Azərbaycan Respublikasının Prezidentinə onun statusuna görə verilir. Ancaq, əlbəttə, mənim üçün xüsusi əhəmiyyət kəsb edən odur ki, son müddət ərzində Azərbaycanda aparılmış siyasət, iqtisadi-siyasi sahələrdə əldə edilmiş uğurlar Azərbaycanın hərtərəfli inkişaf etdirilməsi üçün gözəl şərait yaradıbdır.

Bu gün Azərbaycanda Heydər Əliyev siyasəti bütün istiqamətlərdə öz əksini tapır. Mən Prezident vəzifəsinə seçiləndə bəyan etmişdim ki, bu siyasətə sadiq qalacağam. Heydər Əliyev siyasətini Azərbaycanda bütün istiqamətlərdə həyata keçirəcəyəm. Çox şadam ki, son ilyarım ərzində əldə olunmuş uğurlar Azərbaycanın düzgün istiqamətdə inkişaf etdiyini deməyə əsas verir. Azərbaycan həm öz xarici siyasətinin aparılmasında, həm də iqtisadi islahatların həyata keçirilməsində böyük uğurlar əldə edibdir. Ölkəmiz artıq dünya miqyasında böyük hörmətlə qarşılanır və Azərbaycanın xarici siyasəti çox uğurludur.

Bizim üçün bir nömrəli problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində də Azərbaycanın mövqeyi daha da möhkəmlənir, danışıqlar prosesində müsbət meyillər güclənibdir. Artıq beynəlxalq ictimaiyyət daha da aydın görür ki, bu münaqişənin həlli yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında mümkün ola bilər. Bu məsələdə Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və olmayacaq da. Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Azərbaycan öz torpaqlarını azad edəcəkdir. Mən ümid etmək istəyirəm ki, sülh danışıqları nəticə verəcək və beynəlxalq hüquq normalarına əsaslanmış müqavilə imzalana bilər.

İqtisadi islahatların daha da dərinləşdirilməsi sahəsində böyük addımlar atılır. Bu islahatlar 1995-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmışdır. Bu gün sadəcə olaraq, onların növbəti mərhələsi başlanmışdır. Görülən işlər Azərbaycanı regionda iqtisadi cəhətdən lider dövlətə çeviribdir. Beynəlxalq maliyyə qurumlarının verdiyi bəyanatlara görə, bu il Azərbaycan ümumi daxili məhsulun artım sürətinə görə dünyada lider ölkə olacaqdır. Əlbəttə, bu, bizim hamımızın uğurudur. İlk növbədə, Azərbaycanda 1993-cü ildən başlanmış siyasətin təzahürüdür.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın müstəqil dövlət kimi yaşamasında müstəsna xidmətləri olubdur. Həm xarici siyasətdə, həm də daxili siyasətdə, iqtisadi islahatların aparılmasında, Azərbaycanda sabitliyin qorunmasında, vətəndaşlarımızın təhlükəsizlik şəraitində yaşamasında Heydər Əliyevin xidmətləri əvəzsizdir. Bizim isə borcumuz ondan ibarətdir ki, bu siyasəti davam etdirək, müsbət meyilləri daha da gücləndirək və Azərbaycanı qüdrətli dövlətə çevirək.

Mən şübhə etmirəm ki, gələcəkdə bizi böyük uğurlar gözləyir. Heydər Əliyevin adını daşıyan, Azərbaycanın gələcəyini böyük dərəcədə müəyyən edəcək Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsindən sonra ölkə vətəndaşları daha da yaxşı yaşayacaqlar. Aparılmış islahatların nəticəsində sosial məsələlərə daha da böyük diqqət göstəriləcəkdir. Ən çətin, ən ağır vəziyyətdə yaşayan soydaşlarımız - qaçqınlarımız, köçkünlərimiz də bundan faydalanmalıdır. Bildiyiniz kimi, indi biz xüsusi proqramlar üzərində işləyirik. Mən prezident seçkiləri ərəfəsində də, seçkilərdən sonra da bəyan etmişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Bu gün çadır şəhərciklərinin ləğvi üçün işlər görülür. Yeni qəsəbələr, şəhərciklər salınır ki, bizim soydaşlarımız müvəqqəti olaraq normal şəraitlə təmin edilsinlər. Təbii ki, torpaqlarımız azad olunandan sonra biz onlar üçün azad edilmiş torpaqlarda yeni binalar, evlər və digər infrastruktur obyektləri tikəcəyik.

Bir sözlə, mən demək istəyirəm ki, bu gün Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır. Bu siyasət davam etdirilir və ona alternativ siyasət yoxdur. Alternativ siyasət aparmaq istəyənlər iflasa uğradılar. Həm özlərini, həm də ölkəmizi uçurum kənarına gətirib çıxardılar. Biz buna yol verə bilmərik. Azərbaycanın qarşısında gözəl perspektivlər var. Çox aydın üfüqlər var. Biz hamımız elə etməliyik ki, ölkəmiz müasir dövlətə çevrilsin. Azərbaycanda demokratikləşmə prosesləri daha geniş vüsət almalıdır, insan hüquqlarının qorunması sahəsində daha fəal işləməliyik.

Azərbaycan dünya birliyinə sürətlə inteqrasiya edir və biz hamımız bu prosesin nəticələrini görürük. Həm qanunvericilik yeniləşir, həm də müasir tələblərə uyğun olan qərarlar qəbul edilir. Mən şübhə etmirəm ki, ölkəmiz ildən-ilə öz siyasi və iqtisadi potensialını gücləndirəcəkdir. Buna nail olmaq üçün cəmiyyətdə birlik olmalıdır, səfərbərlik olmalıdır, xalqla iqtidarın birliyi olmalıdır. Mənim bölgələrə etdiyim səfərlər, Bakıda keçirdiyim görüşlər, digər tədbirlər onu göstərir ki, bunların hamısı var. Bu gün Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün çox gözəl şərait var. Biz bundan sonra da fəal işləməliyik. Hərə öz üzərinə düşən vəzifə borclarını şərəflə və vicdanla yerinə yetirməlidir.

Heydər Əliyevin Azərbaycan tarixində rolu müstəsna əhəmiyyət daşıyır. Əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda rəhbərliyə gəlməsəydi, bilmək olmazdı ki, Azərbaycanın taleyi necə olacaqdı, ümumiyyətlə, ölkəmiz müstəqil dövlət kimi qalacaqdı, yoxsa yox. Xüsusən də nəzərə alsaq ki, dünyada bizim düşmənlərimiz də az deyil və Azərbaycanın normal inkişafını istəməyən qüvvələr də var və əlbəttə, bizim əleyhimizə dünya ermənilərinin çox güclü lobbisi işləyir. Bəlkə də biz dünyada çox az ölkələrdən idik ki, əleyhimizə mütəmadi qaydada, bütün istiqamətlərdə güclü beynəlxalq qüvvə işləyirdi. Əlbəttə, belə şəraitdə Heydər Əliyevin qətiyyəti, müdrikliyi, siyasi təcrübəsi, cəsarəti, xalqın ona olan inamı Azərbaycanı bəlalardan xilas etdi və bu gün ölkəmiz normal inkişaf edir.

Əlbəttə, mənim üçün çox önəmli və həm də çox əzizdir ki, Heydər Əliyevin adını daşıyan orden mənə təqdim edilibdir. Mən bu yüksək etimadı bundan sonra da doğrultmağa çalışacağam və var gücümlə Azərbaycanın xoşbəxt gələcəyi naminə çalışacağam. Sizə təşəkkür edirəm.

Rumıniyanın "Rumıniya Ulduzu" ordeni

2004-cü il oktyabrın 11-də Rumıniyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Rumıniya Prezidenti İon İliyeskuya ali dövlət ordenlərinin təqdim olunması mərasimi keçirilmiişdir.

Bu münasibətlə keçirilən mərasimdə Rumıniya Prezidenti İon İliyeskunun Azərbaycan Prezidentinin "Rumıniya Ulduzu" ordeni ilə təltif edilməsi haqqında Fərmanı oxundu. Fərmanda deyilir:

"Rumıniya-Azərbaycan əlaqələrinin inkişafında göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyanın yüksək dövlət mükafatı - "Rumıniya Ulduzu" ordeni ilə təltif olunsun".

Cənab İliyesku Prezident İlham Əliyevə "Rumıniya Ulduzu" ordenini təqdim etdi.

Sonra Rumıniya Prezidenti İon İliyeskunun "İstiqlal" ordeni ilə təltif olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı oxundu.

Prezident İlham Əliyev "İstiqlal" ordenini dost ölkənin Prezidenti İon İliyeskuya təqdim etdi.



Rumıniyanın "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqı

2011-ci il aprelin 18-də Azərbaycanda rəsmi səfərdə olan Rumıniya Prezidenti Trayan Beseskuya və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ali dövlət ordenlərinin təqdim olunması mərasimi keçirilmiişdir.

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli dostlar!

Cənab Prezident, Siz Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilirsiniz.

Rumıniya-Azərbaycan əlaqələri strateji xarakter daşıyır və bu gün imzalanmış sənəd bunu bir daha təsdiq edir. Siz bu əlaqələrin inkişafı üçün böyük xidmətlər göstərmisiniz və Azərbaycan xalqı Sizi çox yaxşı tanıyır. Sizin Azərbaycan ilə bağlı mövqeyinizi ürəkdən alqışlayırıq.

İki ölkə arasındakı əlaqələrin inkişafı üçün göstərdiyiniz böyük xidmətlərə görə bu yüksək mükafatı mən bu gün Sizə təqdim edirəm.

Azərbaycan Prezidenti İlham Əliyev "Heydər Əliyev" ordenini Rumıniya Prezidenti Trayan Beseskuya təqdim etdi.

Prezident Trayan Besesku Azərbaycanın dövlət başçısının Rumıniyanın "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqı ilə təltif edilməsi barədə qərar qəbul etdiklərini bildirdi. O qeyd etdi ki, bu, dövlət başçılarına verilən ali mükafatdır. Trayan Besesku xüsusi vurğuladı ki, Prezident İlham Əliyev bu mükafata layiq görülən yalnız ikinci dövlət başçısıdır.

2004-cü ildə Rumıniyaya rəsmi səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev bu ölkənin ali mükafatı "Rumıniya Ulduzu" ordeni ilə təltif olunmuşdur. Rumıniya qanunvericiliyinə görə, "Sadiq Xidmət" milli ordeni bundan əvvəl "Rumıniya Ulduzu" ordeni ilə təltif edilən şəxslərə təqdim olunur.

Prezident Trayan Besesku "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqını Azərbaycanın dövlət başçısına təqdim etdi.

Səudiyyə Ərəbistanı Krallığının "Kral Əbdüləziz" ordeni

2005-ci il martın 8-də Səudiyyə Ərəbistanında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Fəhd bin Əbdüləziz Al Səuda ali dövlət ordenlərinin təqdim olunması mərasimi keçirilmişdir.

Səudiyyə Ərəbistanı Kralının Əl-Yamama sarayında Azərbaycan Prezidentini İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanın Kralı Fəhd bin Əbdüləziz Al Səud böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Azərbaycan Prezidenti ilə Səudiyyə Ərəbistanının Kralı arasında təkbətək görüş oldu.

Görüşdə ikitərəfli münasibətlər haqqında fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev rəsmi səfərə dəvətə görə minnətdarlığını bildirdi və Azərbaycanın ali mükafatını - "İstiqlal" ordenini İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd bin Əbdüləziz Al Səuda təqdim etdi.

Prezident **İlham Əliyev** iki ölkə arasında münasibətlərin çox yüksək səviyyəyə çatdığını vurğulayaraq dedi:

- Bu münasibətlərin daha da genişləndirilməsi üçün yaxşı perspektivlər mövcuddur. Azərbaycan münasibətlərimizin bundan sonra da yüksək sürətlə inkişafına çalışacaqdır.



İki Müqəddəs Ocağın Xadimi, Kral **Fəhd bin Əbdüləziz Al Səud** səmimi sözlərə və dəvətini qəbul edib səfərə gəldiyinə görə Azərbaycan Prezidentinə dərin təşəkkürünü bildirərək dedi:

- Biz Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Azərbaycanın ümummilli lideri, dünya şöhrətli siyasi xadim, Sizin atanız Heydər Əliyevin dövlətlərimiz arasında əlaqələrin inkişafındakı tarixi xidmətlərini və onun 1994-cü ildə ölkəmizə rəsmi səfərini yaxşı xatırlayır və Allahdan ona rəhmət diləyirik.

Sizə Səudiyyə Ərəbistanı Krallığının ali dövlət mükafatı olan "Kral Əbdüləziz" ordenini təqdim edərək bildirirəm ki, bu orden ilə dünyanın ən nüfuzlu, ən görkəmli siyasi xadimləri təltif olunur.

Prezident İlham Əliyev yüksək dövlət mükafatına görə minnətdarlığını bildirdi.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirildi, ikitərəfli münasibətlərlə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Fransa Respublikasının "Fəxri Legionun Böyük Xaç Komandoru" ordeni

2007-ci il yanvarın 29-da Fransada dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Fransa Respublikasının Prezidenti Jak Şiraka ali dövlət ordenlərinin təqdim olunması mərasimi keçirilmişdir.

Mərasimdə Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva, Fransa Prezidenti Jak Şirakın xanımı Bernadet Şirak, habelə Azərbaycanın dövlət başçısını müşayiət edən nümayəndə heyətinin üzvləri iştirak edirdilər.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev Fransa Prezidenti Jak Şiraka üzərində onun portreti toxunmuş xalça hədiyyə etdi. Dövlət başçıları xalçanın önündə xatirə şəkli çəkdirdilər. Sonra Fransa Prezidenti Jak Şirak Azərbaycanın dövlət başçısına xatirə hədiyyəsi təqdim etdi.

Prezident **Jak Şirak** Fransanın ən yüksək ordenini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edərək dedi:

- Əziz dost, bildiyiniz kimi, 2004-cü ildə mən atanızın təltif olunduğu "Fəxri Legion" ordenini Sizə verdim. Siz bilirsiniz ki, mən ona böyük hörmət və böyük dostluq hissləri bəsləyirdim. Mən həmin mükafatı Sizə təqdim edərkən çox böyük həyəcan hissi keçirirdim. İndi isə Siz ölkəmizə ilk dövlət səfərinə gəlmisiniz. Ona görə də böyük məmnuniyyətlə Sizi Fransanın yüksək mükafatı - "Fəxri Legion" ordeninin ən yüksək dərəcəsi ilə təltif etmək istəyirəm.

Bildiyiniz kimi, bu orden Napoleon tərəfindən təsis olunmuşdur və bütün fransızlar öz ölkəsinin fərqlənmə nişanlarına və medallarına çox sadiqdirlər. Bəzən əcnəbilər bizə gülərək deyirlər ki, iki fransız görüşdükdə, əgər bir-birini tanımırlarsa, ilk növbədə, butonyörə və fərqlənmə nişanlarına baxırlar.

Bu mükafatı böyük məmnunluqla Sizə təqdim edirəm.

Sonra Azərbaycan Prezidenti **İlham Əliyev** Fransa Prezidenti Jak Şiraka "Heydər Əliyev" ordenini təqdim edərək dedi:

- Hörmətli cənab Prezident, bu gün mənim üçün çox əziz bir gündür. Fransanın ən yüksək ordenini almaq çox böyük şərəfdir. Siz qeyd etdiniz ki, üç il bundan əvvəl mən Fransada rəsmi səfərdə olarkən Prezident Heydər Əliyevin təltif edildiyi ordeni almaq mənə nəsib olmuşdur. Prezident Heydər Əliyev Fransa-Azərbaycan münasibətlərinin inkişafında xüsusi rol oynamışdır. Məhz Sizin birgə fəaliyyətiniz nəticəsində Fransa-Azərbaycan münasibətləri sürətlə inkişaf etmişdir və bu gün ən yüksək zirvəyə qalxmışdır. Bütün sahələrdə - siyasi, iqtisadi, mədəni sahələrdə biz çox uğurlu əməkdaşlıq edirik, Fransa bizim üçün dost ölkədir, çox yaxın tərəfdaşdır.

Biz bir-birimizə dost deyirik və bu, sözün əsl mənasında, böyük dostluğun nümunəsidir.

Bu gün Sizin tərəfinizdən Fransa dövlətinin ən yüksək ordeni ilə təltif olunmaq, əlbəttə ki, böyük xoşbəxtlikdir. Demək istəyirəm ki, bundan sonra da iki ölkə arasında olan münasibətlərin inkişafında öz səylərimi göstərəcəyəm.

Mən bu gün böyük məmnunluq hissi ilə Sizi Azərbaycan dövlətinin ən yüksək ordeni olan "Heydər Əliyev" ordeni ilə təltif edirəm. Bu orden çox nadir hallarda təqdim olunur. Bu, üçüncü ordendir və mən onu bu gün Sizə təqdim edirəm. Bu, həm Azərbaycanın ən yüksək mükafatıdır, eyni zamanda, Heydər Əliyevin adını daşıyan ordendir. Sizi təbrik edirəm.

Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Xaç ordeni

2008-ci il fevralın 26-da Polşada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Polşa Respublikasının ali mükafatı - "Xidmətlərə görə" Böyük Xaç ordeninin təqdim olunması mərasimi keçirilmişdir.

Mərasimin aparıcısı dedi:

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Polşa Respublikasının Prezidenti Zati-aliləri cənab Lex Kaçinski!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, sizi səmimiyyətlə salamlayım.

Böyük məmnuniyyət hissi ilə Sizə məlumat vermək istəyirəm ki, Polşa Respublikası Konstitusiyasının 138-ci maddəsini rəhbər tutaraq, ali medallarla təltif olunma haqqında Polşa Respublikasının Qanununa və Polşa Respublikasının Prezidenti cənab Lex Kaçinskinin imzaladığı Sərəncama uyğun olaraq, Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında əməkdaşlığın inkişafı və daha da genişləndirilməsi sahəsində misilsiz xidmətlərinə görə Polşa Respublikasının ali mükafatı – "Xidmətlərə görə" Böyük Xaç ordeni Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə təqdim olunur.

Polşa Prezidenti **Lex Kaçinski** ordeni Azərbaycanın dövlət başçısına təqdim etdi və Prezident İlham Əliyevi təbrik edərək dedi ki, cənab Prezident, icazə verin, mən ürək sözlərimi ifadə edim:

- Mənim hörmətli həmkarım!

Azərbaycan nümayəndə heyətinin hörmətli üzvləri!

Hörmətli xanımlar və cənablar!

Mən Polşa Respublikasının ali ordenini Azərbaycan Respublikasının Prezidentinə təqdim etməkdən böyük şərəf hissi duyuram. Təbii ki, ordenin təqdim olunmasının rəsmi hissəsi artıq başa çatmışdır. Bu ali orden məhz Sizin iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsində göstərdiyiniz səylərə görə verilir. Lakin şəxsən mənim fikrimcə, Sizin bu cür ali mükafatla təltif olunmağınız mənə dost olan ölkənin rəhbərinə, dövlət başçısına göstərdiyim rəğbət və hörmətin əlamətidir.

Siz ölkənizin əbədi və dönməz suverenliyi və müstəqilliyi yolunda xidmətlər göstərmisiniz. Siz ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafındakı xidmətlərə görə bu ali ordenlə təltif olunmusunuz.

Cənab Prezident, xahiş edirəm, bu ordeni məhz belə bir ruhda qəbul edəsiniz. Bu, eyni zamanda, o ölkəyə, o millətə verilən ali bir ordendir ki, onilliklər, əsrlər boyu öz müstəqilliyi uğrunda mübarizə aparmışdır. Sizi bir daha təbrik edirəm.

Azərbaycan Prezidenti **İlham Əliyev** təşəkkür edərək dedi:

- Hörmətli cənab Prezident, məni Polşa dövlətinin yüksək ordeni ilə təltif etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu, mənim üçün çox böyük şərəfdir. Mən Sizi əmin etmək istəyirəm ki, fəaliyyətimdə bundan sonra da Polşa-Azərbaycan münasibətlərinin inkişafında çox fəal rol oynayacağam. Eyni zamanda, mən bu ordeni Sizin Azərbaycan xalqına və suveren Azərbaycan dövlətinə olan hörmətinizin əlaməti kimi qəbul edirəm.

Siz çox düzgün qeyd etdiniz ki, əsrlər boyu Azərbaycan xalqı müstəqillik arzusu ilə yaşamışdır və nəhayət, bu arzuya çatmışdır. Bizim üçün müstəqillik, suverenlik ən böyük nemətdir. Müstəqil ölkə kimi bizim üçün Polşa ilə münasibətlərimiz xüsusi əhəmiyyət kəsb edir. Bizim aramızda münasibətlərin hərtərəfli inkişafı milli maraqlarımıza cavab verir və mən əminəm ki, əlaqələrimiz bundan sonra da uğurla davam edəcəkdir.

Hörmətli cənab Prezident, bu yüksək mükafata görə Sizə öz adımdan və bütün Azərbaycan xalqı adından bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Ukraynanın I dərəcəli Knyaz Yaroslav Mudrı ordeni

2008-ci il mayın 22-də Ukraynada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Ukraynanın Prezidenti Viktor Yuşşenkoya ali dövlət ordenlərinin təqdim olunması mərasimi keçirilmişdir.

Ukrayna-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə verdiyi mühüm şəxsi töhfəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynanın ən yüksək ordeni olan I dərəcəli Knyaz Yaroslav Mudrı ordeni ilə təltif olunması haqqında Ukrayna Prezidentinin Fərmanı oxundu.

Ukrayna Prezidenti Viktor Yuşşenko ordeni Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Sonra Ukrayna Prezidenti Viktor Yuşşenkonun Azərbaycan Respublikasının ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Prezidentinin Sərəncamı oxundu.

Azərbaycan Prezidenti İlham Əliyev ordeni Ukrayna Prezidenti Viktor Yuşşenkoya təqdim etdi.



Küveyt Dövlətinin "Mübarək əl-Kəbir" ordeni

2009-cu il fevralın 10-da Küveytdə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Küveyt Dövləti Əmiri şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha ali dövlət ordenlərinin təqdim olunması mərasimi keçirilmişdir.

Əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah Prezident İlham Əliyevə ölkəsinin ən ali mükafatı olan "Mübarək əl-Kəbir" ordenini təqdim etdi.

Prezident İlham Əliyev əmir şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha Azərbaycanın ali mükafatını - "Heydər Əliyev" ordenini təqdim etdi.

Mərasimdə Küveytin vəliəhdi şeyx Nəvvaf əl-Əhməd əs-Sabah və digər rəsmi şəxslər, Azərbaycan nümayəndə heyətinin üzvləri iştirak edirdilər.

POLICE

Latviya Respublikasının "Üç Ulduz" ordeninin "Böyük Xaç Kavaleri" dərəcəsi

2009-cu il avqustun 10-da Azərbaycanda rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti Valdis Zatlersə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ali dövlət ordenlərinin təqdim edilməsi mərasimi keçirilmişdir.

Prezident İlham Əliyev Latviya Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə Prezident Valdis Zatlersə "Heydər Əliyev" ordenini təqdim etdi.

Prezident Valdis Zatlers iki ölkə arasında ikitərəfli münasibətlərin inkişafındakı müstəsna xidmətlərinə görə Prezident İlham Əliyevə "Üç Ulduz" ordeninin "Böyük Xaç Kavaleri" dərəcəsini təqdim etdi.

Bolqarıstan Respublikasının "Stara Planina" ordeni

2011-ci il noyabrın 14-də Azərbaycanda rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ali dövlət ordenləri ilə təltif olunma mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- Hörmətli cənab Prezident!

Mən bir daha Sizi səmimiyyətlə salamlayıram.

Bu gün Bolqarıstan-Azərbaycan münasibətlərinin tarixində çox əlamətdar bir gündür. Siz ölkəmizdə rəsmi səfərdəsiniz və çox vacib sənədlər imzalanmışdır. Bir dost kimi bu əlamətdar gündə Sizin Bolqarıstana rəhbərlik etdiyiniz dövrdə gördüyünüz işlərlə bağlı bir neçə kəlmə demək istərdim.

Siz on ildir ki, Bolqarıstana rəhbərlik edirsiniz. Sizin rəhbərliyiniz altında ölkəniz böyük və uğurlu yol keçmişdir. Ölkənizdə aparılan siyasi və iqtisadi islahatlar Bolqarıstanın inkişafını şərtləndirən amillər olmuşdur.

Bu illər ərzində Sizin ölkəniz həm NATO-ya, həm Avropa İttifaqına üzv olmuşdur. Hesab edirəm ki, ölkəniz üçün bu, tarixi nailiyyətlərdir. Bolqarıstan dünyada çox etibarlı dost və tərəfdaş ölkə kimi tanınır. Siz də dövlət xadimi kimi dünyada çox böyük nüfuza maliksiniz.

Qeyd etməliyəm ki, bu illər ərzində bizim ikitərəfli münasibətlərimiz də çox uğurla inkişaf etmişdir. Biz Sizinlə, demək olar ki, hər il görüşürük və şəxsi dostluq əlaqələrimiz ikitərəfli əlaqələrin inkişafına da müsbət təsir göstərir. Son illər ərzində münasibətlərimiz, yəni Bolqarıstan-Azərbaycan münasibətləri çox yüksək səviyyəyə qalxmışdır. Bolqarıstan-Azərbaycan əlaqələrinin inkişafında göstərdiyiniz xidmətlərə və verdiyiniz töhfəyə görə Siz Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilirsiniz.

İcazə verin, bu yüksək mükafatı Sizə təqdim edim.

Azərbaycan Prezidenti İlham Əliyev "Heydər Əliyev" ordenini Bolqarıstan Prezidenti Georgi Pırvanova təqdim etdi.

Prezident **Georgi Pırvanov** minnət-darlığını bildirərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli nazirlər, xanımlar və cə-nablar. Apardığım fəaliyyətə və göstər-diyim xidmətlərə verdiyiniz belə bir yüksək qiymətə görə Sizə təşəkkürümü bildirirəm.

Bəli, bu, həqiqətdir ki, iki xalqın arasında tarixən ənənəvi dostluq müna-sibətləri mövcud olubdur. Lakin qeyd etmək istəyirik ki, son on il ərzində ikitərəfli əlaqələrimiz ən yüksək səviyyəyə qalxıb.

Mən bu ali mükafatı böyük minnət-darlıq hissi ilə qəbul edirəm, eyni zamanda, mənə verilən bu ordeni həmçinin Bolqarıstan Respublikasının, bolqar xalqının keçdiyi şanlı yola və bizim son illər ərzində apardığımız gərgin fəaliyyətin nəticəsinə verilən qiymət kimi qəbul edirəm.

Digər tərəfdən, hörmətli cənab Prezident, biz Sizin də bu istiqamətdə göstərdiyiniz səyləri, Azərbaycanın rəhbəri kimi apardığınız fəaliyyəti də yüksək dəyərləndiririk. Mən Azərbaycana tez-tez səfər edirəm, Siz də Bolqarıstana dəfələrlə səfər etmisiniz. Hər dəfə gələndə görürəm ki, ölkənizdə dəyişikliklər baş verib. Mən görürəm

ki, müasir Azərbaycan necə inkişaf edir. Mən deyərdim ki, bu inkişaf illərlə deyil, hətta saatlarla baş verir. Qeyd etmək istəyirik ki, şəxsən mən və Bolqarıstanın bir çox qurumları Sizin Avropa miqyasında qazandığınız nüfuzu bilirik, bunu alqışlayırıq və eyni zamanda, ölkənizin Avropa təsisatlarına daha da yaxınlaşması istiqamətində göstərdiyiniz səyləri olduqca mühüm hesab edirik.

Burada şəxsən Sizin qarşınızda bəyan etmək istəyirəm ki, Bolqarıstanda mövcud olan bütün təsisatlar, Bolqarıstan cəmiyyəti Sizi bolqar xalqının ən yaxın dostu hesab edir.

İndi isə mən Sizin apardığınız fəaliyyətə minnətdarlıq əlaməti olaraq Bolqarıstanın ali mükafatı olan "Stara Planina" ordenini Sizə təqdim edirəm.

Cənab Prezident, Sizi təbrik edirik.

Prezident Georgi Pırvanov Bolqarıstan Respublikasının ən ali mükafatını - "Stara Planina" ordenini Azərbaycan dövlətinin başçısına təqdim etdi.

Prezident **İlham Əliyev** minnətdarlığını bildirərək dedi:

- Çox sağ olun, hörmətli cənab Prezident!

Bu yüksək mükafata görə Sizə minnətdaram. Bolqarıstan dövlətinin yüksək mükafatını almaq mənim üçün böyük şərəfdir. Siz də qeyd etdiyiniz kimi, biz Bolqarıstana, bolqar xalqına böyük rəğbətlə yanaşırıq. Bolqarıstan bizim üçün dost ölkədir, yaxın ölkədir. Mən çalışacağam ki, bundan sonra da Bolqarıstan-Azərbaycan əlaqələrinin inkişafı üçün öz səylərimi əsirgəməyim. Bir daha Sizə minnətdaram.

Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının I dərəcəli Aleksandr Nevski ordeni

2005-ci il aprelin 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının I dərəcəli Aleksandr Nevski ordeni təqdim edilmişdir. Orden Prezident İlham Əliyevə görkəmli veteranlardan - Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanlarından ibarət mötəbər nümayəndə heyəti ilə görüşündə təqdim olunmuşdur.

Prezident **İlham Əliyev** qonaqları salamladı və onların Bakıya gəlişindən məmnunluğunu bildirərək dedi:

- Böyük Qələbənin 60 illiyinin bayram edildiyi ildə biz ancaq tarixdən bildiyimiz o günlərin qəhrəmanlığını bir daha xatırlayırıq. Hər bir insan silaha sarılaraq öz ölkəsini müdafiə etmiş, dünyada və Avropada azadlığı qorumuş adamlara dərin ehtiramını bildirməlidir. Azərbaycanda veteranlara böyük qayğı göstərilir. Biz bu tarixlə və 600 min azərbaycanlının Böyük Vətən müharibəsində vuruşması ilə fəxr edirik. Təəssüf ki, onların yarısı həlak olmuşdur. Azərbaycanın hər yerində o illərin hadisələrini xatırlayır, qəhrəmanlıq göstərmiş insanların xatirəsini anırlar.

Dövlət başçısı Qələbənin 60 illiyi ilə əlaqədar Azərbaycanda beynəlxalq forum keçirilməsi faktından məmnunluq duyduğunu bildirərək dedi ki, ölkəmizdə bu hadisəni yaxşı qeyd etməyə hazırlaşırlar.

O vurğuladı ki, Azərbaycanın müasir tarixində, müstəqillik əldə edildikdən dərhal sonra Böyük Vətən müharibəsinə və Qələbə gününə aid hadisələrə başqa münasibət göstərildiyi dövr olmuşdur. Ölkənin o vaxtkı rəhbərliyi belə istəyirdi və bu, onların yeganə səhvi deyildi. Lakin Heydər Əliyev yenidən Azərbaycana rəhbərliyə gəldikdən sonra bu ədalətsizlik aradan qaldırıldı və Qələbə günü Azərbaycanın rəsmi bayramı elan edildi. Veteranlarla görüşlər keçirilməyə başlandı, dövlət veteranlara qayğı göstərilməsi, onların sosial təminatı vəzifəsini öz üzərinə götürdü və bu siyasət davam etdirilir.

Sovet İttifaqı Qəhrəmanı, Moskvanın və Moskva vilayətinin Sovet İttifaqı Qəhrəmanları, Rusiya Federasiyası Qəhrəmanları və "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif olunanlar Klubu idarə heyətinin sədri, general-polkovnik Nikolay Antoşkin beynəlxalq forumda iştirak etmək dəvətinə görə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasına və Azərbaycan veteranlarına təşəkkürünü bildirdi. O, Azərbaycan Prezidentinə faşist Almaniyasının məğlubiyyətə uğradılması işinə müstəsna töhfə vermiş Bakıya qəhrəman şəhər adı verilməsi haqqında tarixi həqiqətin bərpa olunması xahişi ilə müraciət etdi. Daha sonra **Nikolay Antoşkin** dedi:

- Bakı nefti olmasaydı, Qələbə də olmazdı. Biz bunu çox gözəl başa düşürük.

Rusiyalı veteran Azərbaycan veteranlarına qayğı və diqqətə görə dövlətimizin başçısına təşəkkür etdi.

Sosialist Əməyi Qəhrəmanı, Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin prezidenti **Nikolay Baybakov** Bakıya Qəhrəman şəhər adı verilməsi məsələsinə həsr olunmuş bu forumda iştirak etmək dəvətinə görə təşəkkürünü bildirərək dedi:

- Bu ad çoxdan verilməli idi, çünki faşizm üzərində qələbə qazanılmasında Bakının çox böyük töhfəsi olmuşdur. Azərbaycan düşmən üzərində qələbədə çox böyük, hətta deyərdim, həlledici

РОССИЙСКАЯ ФЕДЕРАЦИЯ
АКАДЕМИЯ ПРОБЛЕМ БЕЗОПАСНОСТИ, ОБОРОНЫ И ПРАВОПОРЯДКА
ГРАМОТА
АЛИЕВ
ИЛЬХАМ ГЕЙДАРОВИЧ
ЗА ЗАСЛУГИ В РАЗВИТИИ ДРУЖБЫ МЕЖДУ РОССИЕЙ И РЕСПУБЛИКОЙ АЗЕРБАЙДЖАН

rol oynamışdır. Axı, müharibə illərində SSRİ-də çıxarılan neftin üçdə iki hissəsi Azərbaycanın payına düşürdü. Azərbaycan nəinki cəbhəni yanacaqla təmin edir, həm də öz fəaliyyətinə yenicə başlayan "İkinci Bakı"ya kömək edirdi.

Nikolay Baybakov müharibə illərində Bakı neftinin rolu haqqında yazdığı "Neft cəbhəsi" kitabını Azərbaycanın dövlət başçısına təqdim etdi.

Rusiya Jurnalistlər İttifaqının sədri Vsevolod Boqdanov Prezident İlham Əliyev ilə keçirilən bu görüşü yüksək qiymətləndirdi. Azərbaycanda gedən demokratikləşmə prosesinin ölkənin inkişafına xidmət etdiyini bildirdi, respublikada fəaliyyətə başlayacaq İctimai televiziyanın bazasında Böyük Vətən müharibəsi illərində Bakının xidmətləri haqqında serial çəkilməsinə dair təşəbbüs irəli sürdü. Daha sonra **Vsevolod Boqdanov** dedi:

- Öz keçmişinə, valideynlərinə məhəbbət hissləri bəsləmədən vətəndaş cəmiyyəti qurmaq mümkün deyildir. Siz atanızın layiqli oğlusunuz. Biz onun xatirəsinə hörmət edirik.

Nikolay Antoşkin "Sovet İttifaqı Qəhrəmanından"rəmzi saatı Azərbaycan Prezidentinə təqdim etdi. Eyni zamanda, Bakıda keçirilən forumda iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun muzeyinin yaradılmasını təklif etdiklərini söylədi. Dövlət başçısı bu təklifi dəstəklədiyini bildirdi.

Daha sonra Sovet İttifaqı Qəhrəmanı, Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının birinci vitse-prezidenti, general-polkovnik **Nikolay Kizyun** dedi:

- Akademiyanın rəyasət heyəti partiya, dövlət xadimi kimi, Sovet İttifaqının təhlükəsizliyinin təmin olunması keşiyində dayanmış insan kimi Prezident Heydər Əliyevin böyük xidmətlərini qeyd edərək, ölümündən sonra onu Yuri Andropov ordeni ilə mükafatlandırmağı qərara almışdır. Akademiya Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişafına töhfəyə görə Prezident İlham Əliyevi birinci dərəcəli Aleksandr Nevski ordeni ilə mükafatlandırmışdır.

Hər iki orden Azərbaycan dövlətinin başçısına təqdim olundu.

Nikolay Kizyun daha sonra bildirdi ki, Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının qərarı ilə müharibə illərindəki böyük xidmətlərinə görə Bakı şəhəri I dərəcəli Böyük Pyotr ordeninə layiq görülmüşdür. Bu orden də Azərbaycan Prezidentinə təqdim edildi.

Prezident İlham Əliyev xoş sözlərə və yüksək mükafatlara görə təşəkkürünü bildirərək, görüş iştirakçılarını əmin etdi ki, o, keçmiş haqqında xatirənin indiki və gələcək nəsillərin qəlbində yaşaması üçün hər şey edəcəkdir. Daha sonra Prezident **İlham Əliyev** dedi:

- İndi tamamilə yeni mühitdə yaşayan və formalaşan gənclərin öz babalarının xatirəsini yaşatması, sırf insani münasibətlərə əsaslanan dostluqdan xəbərdar olması çox vacibdir. Həlak olanların xatirəsinin qorunub saxlanılması, veteranlara qayğı göstərilməsi hər hansı cəmiyyətin inkişaf səviyyəsinin göstəricisidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan dövlətçiliyini onilliklər ərzində yaratmışdır, müstəqil Azərbaycan dövlətinin təşəkkülü çox ağır şəraitdə keçmişdir. Lakin indi biz bu müsbət təcrübə əsasında inkişaf edirik. İndi müxtəlif dövlətlərdə yaşamağımıza baxmayaraq, yaşlı nəsillər arasında olmuş əlaqələr bizim nəslə də, gələcəyə də ötürülməlidir. Əlaqələri, ünsiyyəti kəsməmək vacibdir. Bizi ümumi dəyərlər, ümumi tarix birləşdirir. Biz istəyirik ki, gələcəkdə bu əlaqələr inkişaf etsin, bütün nailiyyətlərimiz xalqlarımıza xidmət etsin.

Prezident İlham Əliyev görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

Qafqaz Müsəlmanları İdarəsinin Şeyxülislam ordeni

2005-ci il dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qafqaz Müsəlmanları İdarəsinin Şeyxülislam ordeni təqdim edilmişdir. Orden Prezident İlham Əliyevə Qafqaz Müsəlmanları İdarəsinin Sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə və bir qrup din xadimi ilə görüşündə təqdim olunmuşdur.

Şeyxülislam **Allahşükür Paşazadə** Azərbaycanın dövlət başçısına dedi:

- Bismillahir-rəhmanir-rəhim!

Hörmətli cənab Prezident həzrətləri!

Bu gün bizim üçün həqiqətən də xoş gündür. Sizin iltifatınız, dini-mənəvi dəyərlərə verdiyiniz qiymət, Sizin xalqımızın milli ənənələrinə verdiyiniz qiymət göstərir ki, inşaallah, Azərbaycanın mənəvi dəyərləri get-gedə daha da yüksələcəkdir. Azərbaycan həm iqtisadi, həm mənəvi və həm də tarixi baxımdan yüksəlişdədir və deyə bilərəm ki, MDB dövlətləri arasında zirvədədir. Ulu öndərimiz Heydər Əliyevə Allah rəhmət eləsin, biz onu yaddan çıxara bilmərik.

Allah-taalanın köməyi ilə Azərbaycanı bu səviyyəyə gətirib çıxaran o olmuşdur və indi Siz, İlham Əliyev həzrətləri bu işi uğurla və şərəflə davam etdirirsiniz. Azərbaycan xalqı, onun əksəriyyətini təşkil edən müsəlmanlar, eləcə də din xadimləri, mənəviyyat sahibləri, elm sahibləri Sizdən çox razıdırlar və Sizə, Azərbaycanın parlaq gələcəyinə inanırlar. Ona görə də mən elə bilirəm ki, bizim bugünkü gəlişimiz bir neçə cəhətdən önəmlidir.

Heydər Əliyev həzrətləri ilə bizim görüşlərimiz çox olub, xaricdə çox olmuşuq. Deyə bilərəm ki, onun mənim həyatımda və Şeyxülislamlığın tarixində çox böyük rolu olmuşdur. İnanın, mən bilirəm və bunu dəfələrlə demişəm, sovet dövlətinin dağıldığı dövrdə mənim Qafqazda Şeyxülislamlığı bacarmağım, ancaq və ancaq onun siyasəti, uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Əvvəllərdə də və sonrakı dövrlərdə də onun mənə tövsiyələri olmuşdur. Mən çox fəxr edirəm ki, həmişə ulu öndərlə bir cəbhədə olmuşam, bir yerdə olmuşam və ondan bəhrələnmişəm. Bundan sonra da onun tövsiyələrini axıra qədər yerinə yetirəcəyəm.

Bu gün o, həyatda bizimlə bərabər deyil, amma onun davamçısı İlham Əliyev həzrətləri bizimlədir. Əgər mən bir saat, beş saat onun yanında olmuşamsa, Siz onun yanında böyümüsünüz, ondan bəhrələnmisiniz. İndi görün, biz Sizdən nə qədər bəhrələnməliyik, nə qədər öyrənməliyik. Çünki o, bir dərya idi, biz onun yanında bir damlayıq. Siz də o dərya ilə damlanın arasındasınız. Ona görə biz də Sizdən öyrənməyi bacarmalıyıq və öyrənirik.

Onu da deyə bilərəm ki, Heydər Əliyev həzrətləri mənə tövsiyə etdi ki, Ruhani İdarəsini bir az elmiləşdir, müasirləşdir, oraya elmi bir nəfəs gətir. Onun tövsiyəsi ilə mən Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şura yaratdım. Bizim Elmi-Dini Şurada din xadimləri də var, çox görkəmli alimlər var, filosoflar da var. Onun beş nəfəri Sizin prezident seçkilərindəki vəkillərinizdir. Bütün vəkilləri götürəndə onun iyirmi faizi bizim Elmi-Dini Şuranın payına düşür. Amma biz o dövrdə də hesab edirdik və indi də hesab edirik ki, biz hamımız Sizin vəkillərinizik və əlbəttə, indi də bunu davam etdiririk. Həqiqətən də bunun bəhrəsini görürük. Qafqaz Müsəlmanları İdarəsinin bütün dünyada məşhur olması da bunu göstərir. Mənim şeyxülislamlıq fəaliyyətimin 25 illiyində həqiqətən çox fərəhləndim ki, çağırılmayan insanlar da gəldi. Yəni mən yüz əlli adam çağırmışdım, amma səkkiz yüz adam gəldi. Yəni özləri bildilər, gəldilər. 35 dövlətdən nümayəndələr gəldi və mən bilirəm ki, heç dəvət olunmamış, eşidib gəldilər. Bu özü bir daha göstərir ki, bu gün mənəviyyatımız sağlamdır, göstərilən yol doğru yoldur və inşallah, bu tolerantlıq yolu ilə də gedəcəyik. Oradakıların hamısı müsəlman deyildi, xristianların, yəhudilərin də nümayəndələri, katolik kilsəsi rəhbərinin nümayəndəsi də vardı. Bu tolerantlığın bünövrəsini qoyan da Sizin atanızdır və bu gün də Siz davam etdirirsiniz.

Əlbəttə, mən Sizin məktubunuza görə də öz minnətdarlığımı bildirmək istəyirəm. Siz hər dəfə mənə müraciət edəndə, hər dəfə məktub göndərəndə daha çox məsuliyyət hiss edirəm. Daha çox fikirləşirəm ki, Allah-taala mənə daim imkan yaratsın ki, Azərbaycanın bütövlüyü üçün, müstəqilliyi üçün və dini-mənəvi dəyərlərin saxlanması üçün əlimdən gələni edəm. Onun üçün də biz bu gün buradayıq. Şeyxülislamlar çox olub, amma bugünkü, bəhrələnmiş şeyxülislamlığın bünövrəsini qoyan Heydər Əliyev həzrətləri olubdur. Əlbəttə, mən çox arzu edirdim ki, bizim də bir rəmzimiz olsun ki, o, daim yaşasın və dünyada bilinsin ki, şeyxülislamlıq daimidir, inşallah, daim də davam edəcəkdir. Hələ Heydər Əliyev həzrətlərinin dövründə, onun məsləhəti ilə mən Şeyxülislam ordenini yaratmışdım. Əlbəttə, bu ordeni ona təqdim etmək nəsib olmadı. Siz bilirsiniz, Elmi-Dini Şura və Qazılar Şurası belə qərara aldılar ki, vəfatından sonra bu ordenlə təltif edilsin.

İkinci bir məclisimiz oldu, bu məclisdə qəti şəkildə bildirildi ki, bu ordeni yalnız İlham Əliyev həzrətlərinə verəndən sonra başqalarına verəcəyik. Bu ordeni ona görə veririk ki, biz Sizinləyik, Sizə yaxınıq, bizi Sizdən ayırmaq olmaz. Ona görə ki, Siz həqiqət carçısısınız, biz də Sizə kömək edən adamlarıq. Müsəlmanlar həmişə Sizinlədir. Başqa dindarlar da Sizinlədir, həqiqətən, onlar da Sizi çox istəyirlər.

Sizi təkcə müsəlmanlar deyil, Azərbaycanda yaşayan başqa dinlərdən olanlar, başqa millətlər də çox istəyir. Əgər xalq bir adamı istəyirsə, həmişə Allah da onu çox istəyir. Mən Sizin bu yaxınlarda Kəəbə evində elədiyiniz niyyətləri, elədiyiniz ibadətləri də görmüşəm. Siz özünüz üçün dua etmirdiniz, Siz xalq üçün dua edirdiniz. Mən eşidirdim ki, Qarabağın azad olunması üçün dua

edirdiniz. Ona görə də mən bir daha Sizə təşəkkürümü bildirirəm və Allaha dua edirəm ki, İlahi Sizin kimi bir Prezidenti bizə bəxş etmişdir, Allah-taala onu saxlasın, ailəsini saxlasın. Gələcəkdə onun rəhbərliyi ilə Azərbaycanı biz xoşbəxt görək, azad görək.

İndi də icazə verin, mən Sizə ünvanlanan qərarı oxuyum:

"Bismillahir-rəhmanir-rəhim!

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şurası qərara alır:

İlham Heydər oğlu Əliyev ulu öndər Heydər Əliyev həzrətlərinin tarixi ənənələrini uğurla davam etdirərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin edilməsi, dini, milli-mənəvi dəyərlərin dirçəldilməsi, ölkədə tolerantlığın bərqərar olunması sahəsində göstərdiyi dəyərli xidmətlərinə görə Şeyxülislam ordeni ilə təltif edilsin.

Şeyxülislam Allahşükür Paşazadə".

Sonra Hacı Allahşükür Paşazadə Prezident İlham Əliyevə Şeyxülislam ordenini təqdim etdi.

Prezident **İlham Əliyev** görüş iştirakçılarına müraciətlə dedi:

- Çox sağ olun, hörmətli Şeyx həzrətləri, əziz dostlar. Bu yüksək mükafata görə, yüksək ordenə görə, məni təltif etdiyinizə görə sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Həqiqətən, Azərbaycanda gedən proseslər, hökm sürən sabitlik, milli birlik, tolerantlıq bizim ölkəmizi daha da gücləndirir. Siz ulu öndər Heydər Əliyevin fəaliyyəti haqqında öz fikirlərinizi ifadə etdiniz. Bu, həqiqətən də belədir. Azərbaycanda normal cəmiyyətin yaranmasında onun müstəsna xidmətləri olmuşdur. Bütün sahələrdə - istər iqtisadi potensialın inkişafında, istər xarici siyasətimizin möhkəmlənməsində və uğurla aparılmasında, istərsə də ölkəmizin, xalqımızın dini-mənəvi ənənələrinin inkişafında, onların qorunub saxlanmasında onun çox böyük xidmətləri olmuşdur. Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişdim, demişdim ki, hörmətli Şeyx həzrətləri, ulu öndərlə Sizin şəxsi dostluğunuz, şəxsi əlaqələriniz Azərbaycanda bu gözəl ab-havanın yaranmasında çox mühüm rol oynamışdır. Biz bu şəraitdə yaşayırıq və bizə bu, bir növ təbii görünür. Amma başqa ölkələrin təcrübəsinə, tarixinə, bu gününə nəzər salanda görürük ki, Azərbaycanda hökm sürən milli birlik, vətəndaş birliyi, tolerantlıq başqa ölkələrdə çox nadir hallarda müşahidə olunur.

Azərbaycan bu baxımdan bir örnək olmalıdır, bir nümunə olmalıdır. Bizdə bütün xalqlar, bütün konfessiyaların nümayəndələri özlərini çox rahat hiss edirlər, eyni, bərabər hüquqa malikdirlər. Təbii ki, bu, bizim Konstitusiyamızda təsbit olunubdur. Amma ən önəmlisi odur ki, real həyatda da biz bunu görürük. Heydər Əliyev siyasi xəttinin davamçısı kimi mən əlimdən gələni edirəm ki, onun siyasəti, onun müəyyən etdiyi istiqamətlər Azərbaycanda davam etdirilsin. Böyük qürur hissi ilə deyə bilərəm ki, bütün istiqamətlərdə biz buna nail olduq. İqtisadi inkişaf baxımından, siyasi proseslərin inkişafı baxımından, sabitliyin, milli birliyin möhkəmləndirilməsi baxımından Azərbaycanda bu siyasət davam etdirilir.

Əlbəttə ki, həyat yerində durmur, qarşımıza yeni vəzifələr, yeni çağırışlar çıxır. Dünya dəyişir, bölgəmiz də dəyişir. Məsələn, son iki il ərzində bizim bölgəmizdə və dünyada çox ciddi proseslər, ciddi hadisələr baş verir. O hadisələr ki, ölkələrin inkişafına, onların təhlükəsizliyinə təsir göstərir. Bu baxımdan Azərbaycanda bu gözəl ab-havanı qoruyub saxlamaq, Azərbaycanı, sözün əsl mənasında, əmin-amanlıq, əməkdaşlıq məkanına çevirmək və bunu qoruyub saxlamaq, bu, əlbəttə ki, hesab edirəm ki, böyük uğurlardır, böyük nəticələrdir. Tutaq ki, Azərbaycandan, Bakıdan hansı tərəfə - istər şimala, istər cənuba, istər qərb istiqamətinə, - baxsaq, görərik ki, bütün istiqamətlərdə yeni təhlükələr ortaya çıxır. Yeni münaqişə ocaqları yaranır. Azərbaycanın coğrafi və geosiyasi vəziyyəti elədir ki, bölgədə gedən proseslər bizim təhlükəsizliyimizə və inkişafa təsir edə bilər. Ona görə bu mümkün olan risklərin azaldılması, bölgədəki bütün ölkələrlə normal əlaqələrin qurulması və davam etdirilməsi bizim təhlükəsizlik şəraitində yaşamağımızı təmin edir. Ölkə Prezidenti kimi mənim əsas vəzifəm budur ki, Azərbaycanda sabitlik davam etsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın və bizim milli maraqlarımız təmin olunsun və ölkəmiz möhkəmlənsin, güclənsin. Bu da var, bunu bütün istiqamətlərdə müşahidə edirik. Yenə də deyirəm, mən çox şadam ki, bizim nəzərdə tutduğumuz bütün proqramlar öz həllini tapır.

Hər bir ölkənin normal inkişafı üçün, bütün siyasi, iqtisadi və başqa amillərlə yanaşı, milli-mənəvi dəyərlər də çox əhəmiyyətli yer tutur. Ulu öndər Heydər Əliyev istər 1970-ci illərdə, istərsə də 1990-cı illərdə müstəqil Azərbaycanın Prezidenti kimi öz fəaliyyətində milli-mənəvi dəyərlərə həmişə böyük diqqət göstəribdir. Çünki çox gözəl başa düşürdü ki, ölkəmizin inkişafı məhz dərin tarixi, mədəni və dini köklər üzərində qurulmalıdır. Müstəqil Azərbaycanın uğurları, bu istiqamətdə atılmış addımlar ölkəmizi daha da möhkəmləndirir. Biz öz tariximizə qayıtdıq. Öz ənənələrimizi davam etdiririk və mənəvi cəhətdən bizim cəmiyyətimiz çox sağlamdır. Bizim millətimizə xas olan bu gözəl ənənə davam etdirilir. Bizim xalqımız, Azərbaycanın bütün vətəndaşları bundan bəhrələnirlər.

Bu baxımdan, əlbəttə ki, Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyəti, bütün Qafqazın Şeyxi kimi Sizin fəaliyyətiniz bizim ölkəmizi daha da gücləndirir. Eyni zamanda, Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirir.

Bu günlərdə Sizin fəaliyyətinizin 25 illik yubileyi qeyd olunurdu.

Əfsuslar olsun ki, o gün mən Naxçıvanda idim. İran İslam Respublikasının Prezidenti oraya səfər edirdi. Ona görə mən Naxçıvana səfəri təxirə sala bilmədim. Ancaq məktubumda öz ürək sözlərimi ifadə etdim. Ondan sonra, axşam Naxçıvandan qayıdarkən Sizinlə görüşdük, mən Sizi təbrik etdim və qonaqlarla da görüşdüm. Məni də həm sevindirir, həm də bütövlükdə gözəl bir göstəricidir ki, dünyanın müxtəlif ölkələrindən çox dəyərli insanlar, böyük dini rəhbərlər Sizi təbrik etmək üçün Azərbaycana gəlmişdilər. Bu, Sizə olan böyük hörmətin nəticəsidir, böyük məhəbbətin əlamətidir. Əlbəttə ki, bu, bizim ölkəmizə də çox böyük bir dayaqdır. Bizim ölkəmizin mövqelərini möhkəmləndirir.

Mən Gürcüstan Patriarxı və Rusiya Müftilər Şurasının rəhbəri ilə görüşlərimdə onu vurğuladım ki, biz fəxr edirik ki, bütün Qafqazın Şeyxi azərbaycanlıdır, Azərbaycan nümayəndəsidir. O görüşlər əsnasında bir daha gördüm ki, onlar Sizə lider kimi, mənəvi rəhbər kimi baxırlar. Bunu mən başqa tədbirlərdə də müşahidə etmişəm. Biz Sizinlə birlikdə bir neçə beynəlxalq tədbirlərdə iştirak etmişik. Vatikanda, ondan sonra Səudiyyə Ərəbistanında səfərlərdə, son İslam Konfransı Təşkilatının Məkkə şəhərində keçirilmiş zirvə görüşündə yenə birlikdəydik. Orada mən müxtəlif dinlərin nümayəndələrinin Sizə olan hörmət və ehtiramını gördüm. Bu, böyük bir nailiyyətdir. Əlbəttə ki, həm Sizin şəxsi nailiyyətinizdir, həm də bütün Azərbaycan xalqının nailiyyətidir. Çünki bu, bizim ölkəmizi, millətimizi daha da gücləndirir. Ona görə mən bir daha Sizi yubiley münasibətilə təbrik etmək istəyirəm.

Bizim gələcəkdə çoxlu işlərimiz var. Bilirsiniz ki, bu son müddət ərzində bir neçə layihə üzərində birlikdə işləyirik. Həm Bibiheybət məscidinin tikintisi başa çatdırılmalıdır, həm də Təzəpir məscidi əsaslı təmir olunmalıdır və artıq bu yaxınlarda işlər başlanacaqdır. Biz mart ayında Məkkədə olarkən, müqəddəs Kəəbədə dua edərkən, - Siz onu bilirsiniz, - niyyət eləmişdim ki, Bakıda yeni, böyük, əzəmətli məscid tikilsin. Artıq ilkin işlər başlanmışdır, yer müəyyən edilmişdir, indi orada hazırlıq işləri gedir, layihə üzərində işləyirlər. Mən tapşırıq verdim ki, o, Sizə də təqdim olunsun. Ondan sonra birlikdə baxarıq və Elmi-Dini Şura ilə bərabər öz iradlarınızı verərsiniz. Mən istəyirəm ki, çox möhtəşəm, əzəmətli, yeni məscid tikilsin və bütün müsəlmanlar bundan bəhrələnsinlər.

Yenə də bu yüksək mükafata görə Sizə təşəkkür edirəm.

Rus Pravoslav Kilsəsinin I dərəcəli Müqəddəs Sergi Radonejski ordeni

2005-ci il sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Rus Pravoslav Kilsəsinin I dərəcəli Müqəddəs Sergi Radonejski ordeni təqdim edilmişdir. Orden Prezident İlham Əliyevə Moskvanın və Bütün Rusiyanın Patriarxı II Aleksi və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə təqdim olunmuşdur.

Prezident **İlham Əliyev** qonaqları salamlayaraq dedi:

- Zati-müqəddəsləri, mən Sizi, habelə Sizinlə birlikdə gəlmiş bütün qonaqları Azərbaycanda səmimi qəlbdən salamlamaq istəyirəm. Xoş gəlmisiniz! Ölkəmizə səfərinizin bizim üçün çox böyük əhəmiyyəti var. Biz hamımız Sizin 2001-ci ildəki səfərinizi xatırlayırıq, indiki gəlişinizi də səbirsizliklə gözləyirdik. Bu, mehriban qonşuluq münasibətlərimizin inkişafı üçün, daha böyük dostluq, qardaşlıq, səmimilik ab-havası yaradılması üçün çox mühümdür. Biz Azərbaycanda fəxr edə bilərik ki, ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri böyük bir ailə kimi yaşayırlar. Bizdə tam qarşılıqlı anlaşma, milli həmrəylik var. Bu, ölkəmizin uğurlu inkişafı üçün başlıca zəminlərdən biridir. Əlbəttə ki, Rus Pravoslav Kilsəsinin və Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri arasında əlaqələr də çox vacibdir. Zənnimcə, biz ölkəmizdə milli həmrəyliyə nail olmuşuq, bütün dinlərin nümayəndələri bərabər hüquqlara malikdir və özlərini eyni cür hiss edirlər.

Sizin səfəriniz ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi baxımından çox əhəmiyyətlidir. Son illər bu münasibətlərin və qarşılıqlı iqtisadi əlaqələrin, siyasi əlaqələrin,

sadə vətəndaşlar səviyyəsində əlaqələrin inkişafı üçün çox möhkəm zəmin yaranmışdır. Bunlar ölkələrimizə daha fəal əməkdaşlıq etməyə, həm iqtisadiyyatı, həm də siyasi prosesləri inkişaf etdirməyə imkan verir.

Biz ikitərəfli münasibətlərin səviyyəsindən çox razıyıq. Bu münasibətlərin inkişafında Sizin rolunuz da çox böyük və əhəmiyyətlidir. Bunu nəzərə alaraq, Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin inkişafına şəxsi töhfənizi yüksək qiymətləndirərək, Azərbaycan dövləti Sizi yüksək mükafatla - "Şöhrət" ordeni ilə təltif etmişdir. Mən onu Sizə böyük məmnuniyyətlə təqdim etmək istərdim.

Rus Pravoslav Kilsəsinin başçısı **II Aleksi** onun fəaliyyətini yüksək qiymətləndirdiyinə görə Azərbaycan Prezidentinə təşəkkür edərək dedi:

- Zati-aliləri, icazə verin, yüksək mükafata görə Sizə ürəkdən təşəkkür edim. Bu, mənim üçün gözlənilməzdir. Çünki mənə elə gəlir ki, ölkələrimiz arasında münasibətlərin inkişafına verməli olduğum böyük töhfəni verməmişəm. Lakin dini baxımdan artıq neçə illərdir, hələ xalq deputatları qurultaylarının deputatları olduğumuz vaxtdan şeyxülislam Allahşükür Paşazadə ilə bizim aramızda yaxşı əməkdaşlıq mövcuddur.

Keçən il biz MDB Ölkələri Dini Liderləri Şurasının həmsədrləri seçildik. Biz bu Şurada əməkdaşlığı inkişaf etdirəcək və möhkəmləndirəcəyik, çünki din xadimlərinin sülhyaratma işinə töhfəsi həmişə böyük olmuşdur, xüsusən və indi, dünyanın din xadiminin sözünə, sülhə, əməkdaşlığa çağırışa ehtiyacı olduğu bir vaxtda. Düşünürəm ki, biz işimizi gücləndirməliyik.

Zati-aliləri, Böyük Vətən müharibəsində Qələbənin 60 illiyinin bayram olunduğu vaxtda məni Azərbaycana dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edərək, qardaşımızın yüksək vəzifədə - Qafqaz Müsəlmanları İdarəsinin sədri vəzifəsində fəaliyyətinin bu ilin sentyabrında 25 ili tamam olmasından istifadə edərək, təbrikimizi bildirmək üçün səfərimizi həmin vaxta salmağı və eyni zamanda, Azərbaycana ikinci səfərimizi həyata keçirməyi qərara aldıq, çünki birinci səfərdən məndə ən xoş, işıqlı xatirələr qalmışdır.

Mən həmin səfər zamanı bizə göstərilmiş qonaqpərvərliyi minnətdarlıqla xatırlayıram. Həqiqətən, görkəmli dövlət xadimi, müdrik xadim olan mərhum valideyniniz müstəqil Azərbaycanın təşəkkülü üçün çox işlər görmüşdür, hələ Sovet İttifaqı vaxtında insanların həmrəylik, əmin-amanlıq və əməkdaşlıq şəraitində yaşaması üçün çox işlər görmüşdür. Odur ki, bu gün biz hava limanından birbaşa mərhum Prezidentin memorialını ziyarət etdik, Heydər Əlirza oğlu Əliyevin xatirəsinə ehtiramımızı bildirdik. Çünki ölkəmizdə, Rusiyada ona, həqiqətən, dərin hörmət bəsləyirdilər. Ona görə biz də bu dərin hörmət hisslərini Azərbaycana gələn kimi ifadə etməli idik.

Valideyninizin ölçülüb-biçilmiş və müdrik siyasətini davam etdiriyinizə və öz xidməti ilə yetirdiyi bəhrələri artırdığınıza görə Sizə ürəkdən təşəkkür edirəm. Azərbaycanın din xadimlərini, o cümlədən pravoslav rus icmasını, Bakı yeparxiyasını dəstəklədiyinizə görə Sizə təşəkkür etmək istərdim. Mən birinci səfərimdən də bilirəm ki, Azərbaycanın rus icmasının nümayəndələri burada özlərini əsla ikinci dərəcəli adamlar kimi hiss etmirlər, əksinə, ölkənin digər sakinləri ilə birlikdə bərabər hüquqlara malikdirlər.

Son iki əsr ərzində xalqlarımız arasında təşəkkül tapmış möhkəm mənəvi və mədəni əlaqələr, Tanrının ölkələrimiz üçün buyurduğu kimi, ötən ildə də bütün sınaqlardan uğurla çıxmışdır. Xalqlarımız və dövlətlərimiz uydurma dini ekstremizmə, davakar separatizmə qarşı birlikdə çıxış edirlər. Ölkənizin siyasi təbəqələşmə, iqtisadi böhran zolağından keçərək, hazırda Avrasiyada və dünyada layiqli yer tutmasını, beynəlxalq proseslərdə getdikcə daha böyük rol oynamasını görmək xoşdur. Biz belə bir faktı xüsusilə qiymətləndiririk ki, rus icması yerli əhali arasında özünü bərabərhüquqlu hiss edir. Dinlərarası əməkdaşlığın və dialoqun inkişaf etdirilməsi sahəsində mövqelərimizin uyğun gəldiyini xüsusi vurğulamaq istərdim.

Pravoslavlar da, müsəlmanlar da yekdil fikirdədirlər ki, islam terrorçuları deyilən terrorçuların və onların əlaltılarının əməlləri ən sərt şəkildə pislənilməlidir. Kimliyindən, harada olmasından və nə kimi şüarlarla pərdələnməsindən asılı olmayaraq, onlara haqq qazandırmaq olmaz. Beslanda baş vermiş faciəyə münasibətdə nümayiş etdirdiyiniz prinsipial mövqeni ayrıca vurğulamaq istərdim. Çox hörmətli İlham Heydər oğlu, bu, məni terror təcavüzü ilə əlaqədar Rusiya xalqı üçün o ağır günlərdə söylədiyiniz sözlərə görə Sizə səmimi təşəkkürümü bildirməyə vadar edir.

Rus Pravoslav Kilsəsi Qarabağ münaqişəsinin qurbanlarına görə kədərlənir və döyüş əməliyyatları zamanı əzizlərini, ev-eşiyini itirmiş insanların halına dərindən acıyır. Ümidvarıq ki, Dağlıq Qarabağ problemi həll olunacaqdır. Biz, Qafqazın din xadimləri də Qarabağ

probleminin həllinə kömək etmək üçün Moskvada mənimlə birlikdə dörd dəfə toplaşmışıq. Bu görüşlərdə həmişə fəal iştirak etdiyinə görə şeyx Paşazadəyə çox minnətdaram. Həmin görüşlərdə iştirak etmiş bütün ermənilərin ali katolikosuna da minnətdaram. Din xadimləri olaraq, biz görürük ki, bu problemi hərbi yolla deyil, ancaq dialoq yolu ilə, danışıqlar yolu ilə həll etmək lazımdır.

Zati-aliləri, çox hörmətli İlham Heydər oğlu, səmimi qəlbdən Sizə, gözəl Azərbaycan torpağına, vətəndaşlarınıza dövlətin və cəmiyyətin həyatında firavanlığın bərqərar olması yolunda sülh və əmin-amanlıq arzulayıram.

Dediyim kimi, biz Azərbaycanda fəaliyyət göstərən, bütün problemlərin sülh yolu ilə həllində Sizə kömək edən və dinc quruculuğa yardımçı olan din xadimlərinə kömək və dəstəyinizi yüksək qiymətləndiririk. Azərbaycan xalqı üçün etdiyiniz bütün işlərə görə Sizə "Sağ olun!" deyirik. Sağ olun ki, mərhum valideyninizin işlərini belə səylə davam etdirirsiniz. Ümidvarıq ki, Azərbaycan xalqı bunu qiymətləndirir və ölkənizdə yaşayan bütün xalqlar arasında sülh və həmrəylik olacaqdır.

Bilmirdim ki, Siz mənə Azərbaycanın yüksək ordenini təqdim edəcəksiniz. İcazə verin, hörmətimizin əlaməti olaraq, təkcə Azərbaycan xalqı qarşısında deyil, həm də rus xalqı qarşısında xidmətlərinizin qiymətləndirilməsi əlaməti olaraq, mərhum valideyniniz kimi, Sizə də Rus Pravoslav Kilsəsinin ordenini - I dərəcəli Müqəddəs Sergi Radonejski ordenini təqdim edim. Belə ki, son bir ildə Siz Rusiya ilə Azərbaycan arasında əməkdaşlığı geniş inkişaf etdirirsiniz, Rusiyanın bir çox dövlət xadimləri Azərbaycana gəlmişlər, Siz Moskvada dəfələrlə rəsmi və işgüzar səfərlərdə olmusunuz, müxtəlif məsul vəzifələrdə çalışan adamlar da gəlmişlər və bütün bu görüşlər xalqlarımız arasında əməkdaşlığın möhkəmlənməsinə xidmət etmişdir. Biz bütün bunları yüksək qiymətləndiririk. Müqəddəs Sergi Radonejski Rus elinin böyük zahidi idi, Yer kürəsində yaşayan bütün xalqlara duaçı idi.

İlham Əliyev: Zati-müqəddəsləri, bu yüksək mükafata görə Sizə təşəkkür edirəm. Bu, mənim üçün böyük şərəfdir və mükafatı Sizdən qəbul etmək ikiqat xoşdur. Sizi əmin etmək istəyirəm ki, Azərbaycanda xalqlar arasında sülhün qorunub saxlanması və möhkəmlənməsi üçün, ölkələrimiz arasında indi qarşılıqlı etimadın və dəstəyin tamamilə yeni səviyyəsinə çıxan münasibətlərin inkişafı üçün gələcəkdə də var qüvvə ilə səy göstərməyə hazıram. Mən ikitərəfli münasibətlərimizə verdiyiniz qiymətlə tamamilə razıyam. Münasibətlərimiz möhkəm təməl, çox mehriban, səmimi hisslər üzərində qurulmuşdur. Əlbəttə ki, biz bu münasibətlərin inkişaf etməsi üçün bundan sonra da var qüvvə ilə çalışacağıq.

Mənim haqqımda, ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə də Sizə təşəkkür edirəm. Əlavə etmək istərdim ki, cari il Rusiyada Azərbaycan ilidir. Bu ilin əvvəlində biz Moskvada onu təntənəli şəraitdə açdıq və gələn il Azərbaycanda Rusiya ilinin keçirilməsini səbirsizliklə gözləyirik. Biz onu da uğurla keçirəcəyik. Əsla şübhəm yoxdur ki, bütün səviyyələrdə münasibətlərimiz dinamik şəkildə, ölkələrimizin və xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir. Yüksək mükafata görə Sizə bir daha təşəkkür edirəm.

II Aleksi: Din xadimləri də, öz növbəsində, bu münasibətləri inkişaf etdirəcəklər. Çünki dindarlarımız çox vaxt diqqət yetirirlər ki, əgər din rəhbərləri arasında yaxşı qarşılıqlı münasibətlər varsa, deməli, bu münasibətlərə qoşulmaq lazımdır.

İlham Əliyev: Azərbaycanın kifayət qədər mütəşəkkil və fəal olan rus icmasının fəaliyyəti də, Rusiyada, onun müxtəlif şəhər və vilayətlərində yaşayan azərbaycanlıların fəaliyyəti də bu işdə çox mühüm rol oynayır. Bu faktlar əlaqələrimizin möhkəmlənməsinə kömək edir. Biz bütün səviyyələrdə müsbət, fəal dinamika görürük və bu, bizi çox sevindirir. Azərbaycana bir daha xoş gəlmisiniz!

Rus Pravoslav Kilsəsinin "I dərəcəli Şöhrət və Şərəf" ordeni

2010-cu il aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Rus Pravoslav Kilsəsinin "I dərəcəli Şöhrət və Şərəf" ordeni təqdim edilmişdir. Orden Prezident İlham Əliyevə Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşündə təqdim olunmuşdur.

Prezident **İlham Əliyev** Patriarx Kirilli səmimiyyətlə salamlayaraq dedi:

- Zati-müqəddəsləri, Sizi Azərbaycanda ürəkdən salamlamaq istəyirəm. Ölkəmizə xoş gəlmisiniz.

Nisbətən qısa müddətdə bu, Sizin Azərbaycana ikinci səfərinizdir. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, Sizin ölkəmizə xeyirxah münasibətinizin əyani göstəricisidir. Biz sizi Azərbaycanın böyük dostu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına layiqli töhfə verən insan kimi tanıyırıq. Sizin Rusiyanın rifahı naminə, xalqlar arasında qlobal miqyasda əməkdaşlıq naminə fəaliyyətinizi izləyirik. Əlbəttə, ölkəmizə Sizin növbəti səfəriniz geniş spektrli məsələlər barəsində fikir mübadiləsi aparmaq üçün növbəti imkandır.

Rusiya ilə Azərbaycan arasında münasibətlər çox uğurla, dinamik inkişaf edir. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq

münasibətləri kimi səciyyələndirir və bu ifadə bütün çoxşaxəli müştərək fəaliyyət sahəsini əhatə edir. Əlbəttə, bu münasibətlərdə xüsusən xalqlarımızın yanaşı yaşamasının, müştərək fəaliyyətinin, rus və Azərbaycan xalqları arasında ənənəvi dostluq münasibətlərinin çoxəsrlik tarixini nəzərə alsaq, xalqlar arasında münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Biz çox şadıq ki, ciddi bu ənənələr möhkəmlənir, davam edir və Sizin bu işə böyük töhfənizi bir daha qeyd etmək istərdim.

Azərbaycan dövləti bunları, eləcə də dünyada bütün konfessiyalar arasında dialoqun inkişafı işində böyük xidmətlərinizi nəzərə alaraq Sizi yüksək dövlət ordeni – "Şərəf" ordeni ilə təltif etmişdir. İndi mən böyük məmnunluqla bu ordeni Sizə təqdim etmək istərdim.

Prezident İlham Əliyev patriarx Kirillə "Şərəf" ordenini təqdim etdi. Rus Pravoslav kilsəsinin başçısı bu ordenə Azərbaycan və Rusiya arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə layiq görülmüşdür.

Moskvanın və Bütün Rusiyanın Patriarxı **Kirill** Azərbaycan dövlətinin başçısına təşəkkürünü bildirərək dedi:

- Zati-aliləri, çox hörmətli cənab Prezident!

Mənə Azərbaycanın dövlət ordenini təqdim etməklə məni layiq gördüyünüz bu yüksək şərəfə, həmişə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Lakin ən başlıcası, Azərbaycan xalqının və MDB xalqlarının rifahı naminə əməyinizə görə Sizə təşəkkür etmək istərdim.

Mən Moskvadan gəlmişəm və buna görə əlbəttə, Rusiya-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsinin vacibliyini xüsusi vurğulamaq istərdim. Bu sahədə Sizin töhfəniz olduqca qiymətlidir. Siz rəhmətlik valideynlərinizin, Rusiyanın böyük dostunun yeritdiyi xətti davam etdirirsiniz və biz bu münasibətlərin necə sürətlə inkişaf etdiyini görürük. Bu münasibətlərdə yeni dinamizm Sizin adınızla bağlıdır və mənim fikrimcə, xalqlarımız arasında tərəfdaşlıq, dostluq münasibətləri həm Qafqaz regionunda, həm də bütün dünyada sülhün qorunub saxlanması üçün çox böyük əhəmiyyət kəsb edir.

Mən dinlərarası münasibətlərdə Sizin rolunuzu xüsusi vurğulamaq istərdim. Azərbaycan dövlətində insanların əksəriyyəti islam dininə etiqad edir. Lakin burada pravoslav və yəhudi icmaları da ənənəvi olaraq mövcuddur və Azərbaycanda heç vaxt dinlərarası münaqişələr olmamışdır. Müasir terminologiyadan istifadə etsək, bu gün tolerantlığın yüksək səviyyədə olduğunu deyərdik. Əvvəllər insanlar bu cür qəliz sözlər işlətmir, daha sadə danışırdılar. Biz birgə yaşayırıq, bayramlarımızı birgə qeyd edirik, bir-birimizin sevincini və kədərini bölüşürük.

Mən Azərbaycanın pravoslav icması adından Sizin xalqınızın həyatına xas olan bu sülhsevərlik ruhuna görə, həm Azərbaycanın daxili həyatı üçün, həm də Azərbaycanın onu əhatə edən ölkələrlə, zənnimcə dünyanın bütün ölkələri ilə münasibətlərinin qurulması üçün çox böyük əhəmiyyət kəsb edən mehriban dinlərarası münasibətlərə görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Mən həm də Sizə Rus Pravoslav Kilsəsi tərəfindən dərin təşəkkürümü və minnətdarlığımı bildirmək və teleqramı oxumaq istərdim:

"Xeyirxah əməl sahibi olan hər kəsə eşq olsun.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikasında dinlərarası sülhün və həmrəyliyin möhkəmlənməsinə sanballı töhfə verdiyinə görə Rus Pravoslav Kilsəsinin "I dərəcəli Şöhrət və Şərəf" ordeni ilə təltif edilir".

Mən ordeni Sizə təqdim edirəm.

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ordeni Prezident İlham Əliyevə təqdim etdi.

İlham Əliyev: Çox sağ olun, Zati-müqəddəsləri. Bu cür yüksək ordenlə təltif edilməyim mənim üçün böyük şərəfdir. Bu ordeni şəxsən Sizin əlinizdən qəbul etmək mənim üçün ikiqat xoşdur. Sizi, Azərbaycanın bütün vətəndaşlarını, ölkəmizdə yaşayan bütün millətlərin və xalqların nümayəndələrini, bütün dinlərin nümayəndələrini əmin edə bilərəm ki, mən bundan sonra da öz fəaliyyətimdə ölkəmizdə millətlərarası, konfessiyalararası dialoq işinə töhfə verməyə çalışacağam. Əminəm ki, ölkəmizdə bizim fəxr etdiyimiz dinc yanaşı yaşamaq ənənələri davam etdiriləcək, ölkəmizin bütün vətəndaşları sülh, qardaşlıq, dostluq şəraitində yaşayacaq və ümumi rifah naminə fəal işləyəcəklər. Sağ olun.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirilli salamladı.

Rus Pravoslav Kilsəsinin başçısı Mehriban xanımı görməyə şad olduğunu dedi. O, Azərbaycanın birinci xanımına gül dəstəsi və hədiyyə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin adından Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin şərəfinə şam yeməyi verildi.

Medallar və fəxri nişanlar

Ümumdünya Rus Mətbuatı Assossasiyasının fəxri nişanı

2004-cü il fevralın 7-də Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə İTAR-TASS agentliyində Ümumdünya Rus Mətbuatı Assosiasiyasının fəxri nişanı təqdim edilmişdir.

Prezident İlham Əliyev İTAR-TASS agentliyində Rusiyanın aparıcı mətbuat orqanlarının baş redaktorları və televiziya kanallarının rəhbərləri ilə görüşdü.

Ümumdünya Rus Mətbuatı Assosiasiyasının prezidenti, İTAR-TASS-ın baş direktoru Vitali İqnatenko və Assosiasiyanın vitse-prezidenti, Kanadanın "Horizont" qəzetinin naşiri Semyon Pinçuk rusdilli mətbuatın inkişafına töhfəsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə Ümumdünya Rus Mətbuatı Assosiasiyasının fəxri nişanını təqdim etdilər.

Prezident İlham Əliyev Azərbaycanda müxtəlif sahələrdə islahatların həyata keçirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması prosesi, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması istiqamətində görülən işlər, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikintisi, beynəlxalq və regional məsələlər haqqında görüş iştirakçılarını maraqlandıran suallara ətraflı cavab verdi.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin "Gömrükdə beynəlxalq əməkdaşlığa görə" döş nişanı

2006-cı il fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin "Gömrükdə beynəlxalq əməkdaşlığa görə" döş nişanı təqdim edilmişdir. Döş nişanı Prezident İlham Əliyevə Ümumdünya Gömrük Təşkilatı Avropa regionu gömrük xidməti rəhbərlərinin Bakıda keçirilən beynəlxalq konfransının iştirakçıları ilə görüşündə təqdim olunmuşdur.

Dövlət başçısı Avropa regionu gömrük xidməti rəhbərlərinin konfransının Bakıda keçirilməsini əlamətdar hadisə kimi səciyyələndirdi, bunu Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzla və ölkənin gömrük orqanlarının kifayət qədər təcrübə toplaması ilə əlaqələndirdi.

Prezident İlham Əliyev qonaqlara Azərbaycanın sosial-iqtisadi inkişaf dinamikası barədə məlumat verərək dedi ki, təkcə ötən il ümumi daxili məhsulun həcmi 26 faizdən çox, sənaye məhsulu istehsalı isə 33 faizdən çox artmışdır. Bazar iqtisadiyyatının qanunlarına uyğun olaraq, sahibkarlığın inkişafına dövlət qayğısının səmərəli nəticələrindən söhbət açan Azərbaycan Prezidenti ötən il ümumi daxili məhsulda özəl bölmənin payının 75 faiz olduğunu bildirdi. Bu iqtisadi nailiyyətlərin 2006-cı ildə də davam etdiriləcəyini vurğulayan dövlət başçısı dedi ki, iqtisadiyyatın belə sürətli inkişafı gömrük orqanlarının işinin daha da gücləndirilməsini həyati zərurətə çeviribdir. Bu mənada gömrük orqanları öz işlərini daha yüksək səviyyədə qurmalıdır. Bundan əlavə, Azərbaycan keçid dövrünü yaşayır və sosial problemlərin heç də hamısı öz həllini tapmayıbdır. Bu isə gömrük orqanlarının öz işinə daha məsuliyyətli və yaradıcılıqla yanaşmasını tələb edir. Prezident İlham Əliyev uğurla həyata keçirilən neft və qaz layihələri reallaşdıqca, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istismara verildikdən sonra gömrük orqanlarının üzərinə düşən vəzifələrdən də danışdı.

Dövlət başçısı Azərbaycanın gömrük orqanlarının tarixini də xatırladaraq bildirdi ki, müstəqillik əldə etdikdən sonra Azərbaycanda gömrük sistemi öz işinə sıfırdan başlayıbdır. Müstəqillik dövründə dövlət üçün yeni olan bu qurum qısa vaxtda kifayət qədər təcrübə toplayıb və Ümumdünya Gömrük Təşkilatı ailəsində özünəməxsus yer tutubdur. Prezident İlham Əliyev bu irəliləyişdə Ümumdünya Gömrük Təşkilatının müntəzəm olaraq verdiyi məsləhət və tövsiyələrə, habelə gömrük orqanlarına xidmət edən infrastrukturların qurulmasına göstərdiyi yardımlara görə Ümumdünya Gömrük Təşkilatına və onun Baş katibi Mişel Daneyə təşəkkürünü bildirdi.

Dövlət başçısı konfransın işinə uğurlar arzuladı.

Ümumdünya Gömrük Təşkilatının Baş katibi Mişel Dane vaxt tapıb konfrans iştirakçılarını qəbul etdiyinə və xoş sözlərə görə Azərbaycan Prezidentinə minnətdarlıq etdi. 40 ölkədən nümayəndənin, o cümlədən 25 ölkənin gömrük xidməti rəhbərinin iştirak etdiyi Bakı konfransının çox böyük əhəmiyyəti olduğunu vurğulayan cənab Mişel Dane dedi ki, konfrans iki mövzu ətrafında davam etdirilir. Birincisi, kommersiya mübadilələrinin təhlükəsizlik şəraitində aparılması, ikincisi isə, gömrük orqanlarının mövcud imkanlarını genişləndirməklə onların əlaqələrinin daha da artırılması məsələləridir. Avropa Komissiyasının və İnterpolun nümayəndələrinin konfransda iştirakı bu tədbirə verilən əhəmiyyətin daha bir nümunəsidir.

Ümumdünya Gömrük Təşkilatının Baş katibi Azərbaycanda gömrük orqanlarının yaranması və formalaşmasında dünya şöhrətli siyasi xadim Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusi vurğuladı, sonrakı illərdə Azərbaycanın gömrük orqanlarının işinin daha da təkmilləşməsinə Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğını yüksək dəyərləndirdi. Cənab Mişel Dane indiki konfransın Azərbaycanda keçirilməsini dəstəklədiyinə və tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə iştirakçılar adından minnətdarlığını çatdırdı, dövlət başçısına xatirə hədiyyəsi təqdim etdi.

Macarıstanın gömrük xidmətinin rəhbəri Yanoş Nac Avropa ölkələrindən olan həmkarları ilə təcrübə mübadiləsi aparmaq, qabaqcıl təcrübəni öyrənmək baxımından Bakıda keçirilən tədbirin əhəmiyyətli cəhətlərindən danışdı. Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Aleksandr Jerixov Azərbaycan Prezidentinə məlumat verdi ki, iki həftə əvvəl Sankt-Peterburqda MDB ölkələri gömrük xidməti rəhbərlərinin görüşü olmuşdur. Həmin görüşdə Ümumdünya Gömrük Təşkilatının ötən il keçirilmiş sessiyasında bazar iqtisadiyyatı şəraitində gömrük işinin təhlükəsizliyi və səmərəli təşkili ilə bağlı qəbul olunmuş qərar müzakirə edilmişdir. Bakı konfransında həmin müzakirələr ümumiləşdiriləcəkdir. Aleksandr Jerixov Azərbaycanla Rusiya arasında əməkdaşlığın bütün sahələrdə genişləndiyini xatırlatdı, Prezidentlər İlham Əliyevin və Vladimir Putinin iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə verdiyi töhfələrdən danışdı. Eyni zamanda, gömrük orqanlarının bu əlaqə-

lərin inkişafına yardım etməyə borclu olduğunu vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanda gömrük işinin təkmilləşdirilməsində və Dövlət Gömrük Komitəsinin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində Ümumdünya Gömrük Təşkilatının rolunu nəzərə alaraq təşkilatın Baş katibi Mişel Danenin "Şöhrət" ordeni ilə təltif edilməsi barədə Sərəncam imzaladığını bildirdi və Azərbaycanın yüksək mükafatını ona təqdim etdi.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov Prezident İlham Əliyevə "Gömrükdə beynəlxalq əməkdaşlığa görə" döş nişanını təqdim etdi.

Azərbaycan dövlətinin başçısı görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

Dövlətlərarası Aviasiya Komitəsinin qızıl medalı və fəxri diplomu

2006-cı il iyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Dövlətlərarası Aviasiya Komitəsinin qızıl medalı və fəxri diplomu təqdim olunmuşdur. Bu münasibətlə Prezident İlham Əliyev Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodinanı qəbul etmişdir.

Tatyana Anodina Azərbaycan Prezidentinə müraciət edərək dedi:

- Hörmətli cənab Prezident!

Mənə çox yüksək şərəf – xoş bir vəzifəni yerinə yetirmək və yüksək beynəlxalq mükafatı, aviasiyanın inkişafına xüsusi töhfəyə görə qızıl medalı və fəxri diplomu Sizə təqdim etmək nəsib olmuşdur. Xüsusi Beynəlxalq Şuranın qərarı ilə bu mükafatla görkəmli alimlər, ictimai xadimlər, dünya şöhrətli şəxslər təltif edilir. Siz mülki aviasiyanın dinamik, davamlı inkişafının təmin edilməsinə müstəsna şəxsi töhfənizə görə təltif olunmusunuz. Bu töhfəyə görə şəxsən Sizə, Azərbaycan hökumətinə ürəkdən minnətdaram və təşəkkür edirəm. Zənnimcə, hamıya, ilk növbədə, xalqa, hər bir dövlət xadiminə tamamilə məlum və aydındır ki, aviasiya iqtisadiyyatın inkişafının da, bütövlükdə, ölkənin və beynəlxalq əlaqələrin inkişafının da başlıca əsaslarından biri olmuşdur, əsasıdır və olacaqdır. Aviasiya həmişə sülh işinə və xalqların yaxınlaşmasına xidmət etmişdir.

Bu gün Heydər Əlirza oğlunu, aviasiyanı həmişə sevmiş, həmişə ona xüsusi hörmətlə, çox böyük tələbkarlıqla yanaşmış insanı xatırlamaq istərdik. Biz onun sözlərini yadda saxlayırıq. O, harada, hansı vəzifədə olmasından asılı olmayaraq deyirdi: "Aviasiya, hər şeydən əvvəl, təhlükəsizlik deməkdir". Siz Heydər Əlirza oğlunun - çox müdrik siyasətçinin, öz xalqına hədsiz dərəcədə sədaqətli olmuş, fəaliyyəti təkcə öz ölkəsinin iqtisadiyyatının inkişafına deyil, həm də beynəlxalq əməkdaşlığın çoxşaxəliliyinə yönəldilmiş insanın xəttini davam etdirirsiniz. O bildirirdi ki, hər bir dövlət dünyanın digər ölkələri ilə sülh və həmrəylik şəraitində inkişaf etməlidir. Düşünürəm ki, bu mükafat Sizin xidmətlərinizi göstərən kiçik bir əlamətdir. Rəmzi haldır ki, biz bu mükafatı Sizə məhz aviasiya bayramı günündə təqdim edirik.

Bu gün biz aviatorlar üçün və bütün Azərbaycan xalqı üçün əziz olan və həmişə xatirəmizdə yaşayacaq insanın – Heydər Əlirza oğlunun məzarı önünə əklil qoyduq. Demək istərdim ki, aviatorlar öz bayramını böyük ruh yüksəkliyi ilə qeyd edirlər. Bu gün Sizin Sərəncamınız dərc olunmuşdur. Ona görə də icazə verin, aviatorların adından Sizə minnətdarlığımızı, təşəkkürümüzü bildirim, çox mürəkkəb, vacib siyasi, dövləti işinizdə uğurlar, bizim sevdiyimiz Azərbaycana və Azərbaycan xalqına isə tərəqqi arzulayım.

Prezident **İlham Əliyev** yüksək mükafata görə minnətdarlıq edərək dedi:

- Əməyimə verilən belə qiymətə görə çox təşəkkür edirəm. Bu

mükafatı qəbul etmək mənə çox xoşdur. Həqiqətən, Azərbaycanda aviasiyanın inkişafı üçün bütün istiqamətlərdə - maddi-texniki baza məsələsində də, yeni hava limanlarının tikintisində və yeni təyyarələr alınmasında da çox işlər görülmüşdür. Ümumən, ölkəmizdə nəqliyyat infrastrukturu çox dinamik inkişaf edir.

Ancaq aviatorların bayramı yox idi. Belə təşəbbüs irəli sürüldü. Biz Azərbaycan aviasiyasının əsası qoyulduğu tarixi günü müəyyən etdik – 2 iyun. Cari ildən başlayaraq, bu günü hər il qeyd edəcəyik. İndi aviatorların da öz peşə bayramı var. Dünən mən onlardan bəzilərini dövlət mükafatları ilə təltif etdim. Əlbəttə ki, iqtisadiyyatın gələcək inkişafı bu sektorun inkişafı ilə bilavasitə bağlıdır. İndi biz regionların inkişafı üçün çox fəal siyasət aparırıq. Regionlara normal gediş-gəliş, o cümlədən hava yolu olmadan bu siyasəti həyata keçirmək çətin olacaqdır. Ölkəmiz ərazicə böyük olmasa da, sovet dövründə çoxlu hava limanı vardı, lakin sonra onlar fəaliyyətini dayandırdı. Əslində, cəmi üç hava limanı – Bakı, Gəncə və Naxçıvan aeroportları qaldı. Onların ikisi, hətta hər üçü yenidən tikildi – aerovağzal binaları da, uçuş-enmə zolaqları da. Biz infrastrukturun bərpasında daha uzağa getdik, onu modernləşdirdik. Hazırda tikilən hava limanları artıq dünya standartları səviyyəsində olacaqdır. Sizinlə əməkdaşlıq bizim üçün də çox vacibdir. Bilirəm ki, biz sizin təşkilatınızla çox səmərəli əməkdaşlıq edirik, siz bizə çox kömək edirsiniz. Buna görə sağ olun.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) medalı və Məzunlar Assosiasiyasının qızıl nişanı

2006-cı il noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Rusiya Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) medalı, habelə MDBMİ(U)-nun Məzunlar Assosiasiyasının qızıl nişanı təqdim olunmuşdur. Bu münasibətlə Prezident İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, professor Anatoli Torkunovu qəbul etmişdir.

Dövlət başçısı Moskva şəhərində yaşadığı illərin əksər hissəsinin MDBMİ ilə bağlı olduğunu vurğulayaraq bildirdi ki, vaxtilə təhsil aldığım və dərs dediyim ali təhsil ocağının rektorunu qəbul etmək mənim üçün çox xoşdur.

Prezident İlham Əliyev professor Anatoli Torkunovun səfərinin Azərbaycanın və Rusiyanın xarici işlər nazirlikləri, tədris ocaqları və müxtəlif təşkilatları, Azərbaycanda yeni yaranmış Diplomatik Akademiya ilə MDBMİ arasında əməkdaşlığın genişlənməsi baxımından böyük əhəmiyyət daşıdığını bildirdi.

Budəfəki səfəri zamanı Azərbaycanda çox böyük inkişafın əldə edildiyinin şahidi olduğunu bildirən Anatoli Torkunov insanların çöhrəsində sevinc, fərəh hisslərini görməkdən çox məmnun qaldığını söylədi. Prezident İlham Əliyevi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda daim xatırladıqlarını bildirən qonaq dedi ki, institutda 19 nəfərdən ibarət Fəxri doktorlar klubu yaradılmışdır. İnstitut fəxr edir ki, həmin 19 nəfərdən biri də siyasi xadim və dövlət xadimi kimi dünyada məşhur olan Prezident İlham Əliyevdir. Fəxri doktorlar klubunun üzvlərindən yalnız Prezident İlham Əliyev MDBMİ-nin məzunudur.

Anatoli Torkunov Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Elmi Şurasının təsis etdiyi mükafatı - bu ali məktəbin inkişafındakı xidmətlərinə və diplomatik kadrların hazırlanmasına töhfələrə görə medalı, habelə MDBMİ-nin Məzunlar Assosiasiyasının idarə heyətinin mükafatını - elmi-siyasi və biznes fəaliyyətində yüksək nəticələr əldə etmiş insanlar üçün qızıl nişanı Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycanın dövlət başçısı mükafatlara görə minnətdarlığını bildirdi.

Azərbaycan Rəssamlar İttifaqının qızıl medalı

2006-cı il dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Azərbaycan Rəssamlar İttifaqının qızıl medalı təqdim edilmişdir. Qızıl medal Prezident İlham Əliyevə Dövlət İncəsənət Muzeyində Azərbaycanın tanınmış rəssamları ilə görüşündə təqdim olunmuşdur.

Dövlət başçısı görüşdən əvvəl Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirə otağında müasir Azərbaycan rəssamlarının ulu öndərə həsr etdikləri rəngkarlıq əsərlərinə, habelə görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın abidəsinə baxdı. Bu abidə xalq rəssamı, akademik Ömər Eldarovun ən gözəl əsərlərindən biridir.

Rəssamlar İttifaqının 65 illik yubileyi ilə əlaqədar muzeyin sərgi salonunda artıq həyatdan getmiş görkəmli fırça ustalarının əsərlərindən ibarət retro sərgi təşkil edilmişdir. Prezident İlham Əliyev bu sərgi ilə də tanış oldu. Məlumat verildi ki, burada qrafika və boyakarlıq janrında çəkilmiş 25 əsər nümayiş etdirilir. Eksponatlar arasında Əzim Əzimzadənin "Arvad toyu", Səttar Bəhlulzadənin "Kəpəzin göz yaşları", Mikayıl Abdullayevin "Uzaq çaypur", Vəcihə Səmədovanın "İmtahandan qabaq", Elmira Şaxtaxtinskayanın "Nəsirəddin Tusi", Ələkbər Rzaquliyevin "Aşıq Ələkbər", Tağı Tağıyevin "Qız portreti", Salam Salamzadənin "İpəyrici fabrikində", Mahmud Tağıyevin "Bağçada yaz günləri", Baba Əliyevin "Qız şərbət ilə", Nadir Qasımovun "Xəzərdə səhər", Qəzənfər Xalıqovun "Qadınlar Şurası", Hüseyn Əliyevin "Güllər və külək" və digər məşhur əsərlər var.

Sonra Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov vaxt ayırıb onlarla görüşə gəldiyinə görə dövlət başçısına dərin minnətdarlığını bildirdi və dedi ki, bu görüş bizim xatirəmizdə əbədi qalacaqdır. O, Azərbaycanda sənətə göstərilən diqqəti örnək kimi dəyərləndirərək dedi ki, keçmiş SSRİ respublikalarının heç birində bu cür işlər görülmür. Dövlət səviyyəsində qəbul olunan qanunları, o cümlədən yaradıcılıq emalatxanalarının xərclərinin ev xərcləri ilə bərabərləşdirilməsi, kommunal xərclərin azaldılması xarici qonaqlar tərəfindən də böyük maraqla qarşılanmışdır, onlar bunu yaradıcılığa verilən ən yüksək qiymət hesab edirlər.

Rəssamların dostu ulu öndər Heydər Əliyevin xidmətlərini məmnunluqla xatırladan ittifaqın sədri dedi ki, cənab Prezident, ulu öndərdən qalan gözəl ənənələr bu gün də yaşadılır. Siz bu gün sübut etdiniz ki, ölkəmizdə rəssamlara, sənətkarlara nə qədər böyük diqqət və qayğı vardır. Bizim 65 illik yubileyimizlə əlaqədar yüksək səviyyəli qərarın verilməsi böyük sevinc hissi ilə qarşılanmışdır. Rəssamlara emalatxana tikmək, onlara kömək etmək tarixi xidmətlərdir.

Müasir İncəsənət Muzeyinin tikilməsi ilə bağlı qərarın hazırda icra olunduğunu, bunun müasir sənətin mərkəzi rolunu oynayacağını bildirən Fərhad Xəlilov qısa zaman ərzində ölkədə baş verən iqtisadi dirçəlişdən, regionlardakı inkişafdan, yeni müəssisələrin işə düşməsindən bəhs etdi, bunun xalqımız üçün faydalı olduğunu vurğulamaqla yanaşı, incəsənətin gələcəyi baxımından da yeni imkanlar açdığını vurğuladı. O, rəssamların adından Prezidentə təşəkkür edərək dedi ki, Sizin simanızda ulu öndərin qoyub getdiyi ənənə uğurla davam etdirilir, daha da genişləndirilir və bunun gələcəyinə inanırıq. Bütün rəssamların, sənət adamlarının dostu olan Heydər Əliyevi biz heç vaxt yaddan çıxara bilmərik. Biz bu salonda onunla dəfələrlə görüşmüşük, bizlərə dəfələrlə yaxşılıqlar edibdir. Tanınmış sənətkarlara, ehtiyacı olan istedadlı rəssamlara daim maddi və mənəvi kömək göstərilmişdir. Ulu öndər bu sənəti daxilən sevirdi. Biz bunun canlı şahidləri olmuşuq. Siz bu yolu davam etdirirsiniz.

Fərhad Xəlilov ulu öndərin 80 illiyi ilə əlaqədar "Azərbaycanın müstəqilliyi və Heydər Əliyev" beynəlxalq sərgi-müsabiqənin keçirildiyini və bu tədbirə 27 ölkənin rəssamlarının gəldiyini bildirdi və həmin sərgi-müsabiqədə nümayiş etdirilən əsərlərin fotoşəkillərindən ibarət albomu xatirə olaraq Prezident İlham Əliyevə təqdim etdi. O dedi ki, bu il ilk dəfə olaraq Rəssamlar İttifaqı qızıl medal təsis etmişdir və tanınmış rəssamlar bu medalla təltif olunacaqlar. Cənab Prezident, Azərbaycanın təsviri sənətinin inkişafına verdiyiniz töhfəyə, onun zənginləşməsinə göstərdiyiniz diqqətə görə Rəssamlar İttifaqının Rəyasət heyəti ilk medalın Sizə verilməsi barədə qərar qəbul etmişdir.

İttifaqın sədri qızıl medalı Prezident İlham Əliyevə təqdim etdi.

Fərhad Xəlilov rəssamların ölkənin ictimai həyatında yaxından iştirak etdiyini vurğulayaraq dedi ki, onlar Azərbaycanın çətin vaxtlarında da kənarda qalmamış, bütün maneələrə baxmayaraq, 20 Yanvar faciəsi zamanı çəkilmiş kasetləri Almaniyaya, Rusiyaya, Baltikyanı ölkələrə və digər yerlərə göndərmişlər. Rəssamlarımız bundan sonra da Azərbaycanın adını daim uca tutacaq, həmişə Sizin yanınızda olacaq, yeni-yeni gözəl əsərlər yaradacaqlar.

Prezident İlham Əliyev görüşdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Çox sağ olun.

Bu gözəl medala görə sizə öz təşəkkürümü bildirmək istəyirəm. Bu medal mənim üçün əzizdir. Mən fürsətdən istifadə edib, hamınızı qarşıdan gələn Yeni il münasibətilə, eyni zamanda, Qurban bayramı, Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Biz bütün bu bayramları yaxın günlərdə qeyd edəcəyik. Arzu edirəm ki, növbəti 2007-ci il bizim üçün uğurlu olsun, Azərbaycan xalqı üçün xoş keçsin, ölkəmizin gələcək inkişafı üçün də yadda qalsın. Əminəm ki, 2006-cı ildəki kimi 2007-ci ildə də biz qarşımıza qoyduğumuz bütün məqsədlərə çatacağıq, buna nail olacağıq.

Rəssamlar İttifaqı bu il 65-ci ildönümünü qeyd edir. Sizi bu gözəl yubiley münasibətilə də ürəkdən təbrik edirəm. Bu yubileylə əlaqədar burada nümayiş etdirilən sərgi də çox gözəl təəssürat bağışlayır. Bu, bir daha göstərir ki, Azərbaycanın incəsənəti, rəssamlıq məktəbi çox zəngindir, çox dərin köklərə əsaslanır və eyni zamanda, indi artıq gənc nəsil də öz yerini tutmaqdadır. Bu da çox vacibdir. Yəni bu əlaqələr qırılmır, bu gözəl ənənələr davam edir. Xüsusilə onu qeyd etmək istəyirəm ki, Rəssamlar İttifaqının fəaliyyəti və peşəkarlığı nəticəsində, rəssamların gördüyü işlərin nəticəsində Azərbaycanda bütövlükdə rəssamlıq məktəbi son illər ərzində xeyli dərəcədə güclənmişdir. Bunu Azərbaycan ictimaiyyəti də görür və xarici mütəxəssislər də qeyd edirlər.

İndi biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və şübhəsiz ki, bu, bütün sahələrə həm müsbət, həm də bəzi hallarda, mənfi təsirini göstərir. Biz çalışırıq ki, mənfi təsirlərin dərəcəsini maksimum səviyyədə azaldaq. Azərbaycanda görülən işlər, həyata keçirilən

sosial proqramlar da məhz bu məqsədi daşıyır ki, bazar iqtisadiyyatı şəraitində insanların bəzi təbəqələrinin çətinliklərinin qarşısı dövlət tərəfindən alınsın və dövlət öz dəstəyini göstərə bilsin. Əlbəttə, rəssamların da bu vəziyyətlə uyğunlaşması asan məsələ deyildir. Siz bu çətin sınaqdan çox şərəflə çıxa bilmisiniz və bu gün Azərbaycan rəssamları dünyada tanınır. Müxtəlif şəxsi kolleksiyalarda, kataloqlarda Azərbaycan rəssamlarının işləri vardır. Siz bizdən də yaxşı bilirsiniz ki, Azərbaycan rəssamları bu gün doğrudan da çox böyük beynəlxalq şöhrət qazanıblar. Bu, çox sevindirici haldır və onu göstərir ki, Azərbaycan hərtərəfli inkişaf edir.

Düzdür, biz indi daha çox iqtisadi uğurlardan danışırıq və hər bir dövlətin, hökumətin fəaliyyəti müəyyən meyarlarla ölçülür: iqtisadi artım, siyasi məsələlərin həlli, təhlükəsizlik məsələlərinin təşkil olunması. Ancaq bununla bərabər, hər bir ölkənin mənəvi, mədəni həyatı da ölkənin səviyyəsini göstərir. Bu sahəyə daha da böyük diqqət göstərilməlidir.

Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır - alimlərimiz, rəssamlarımız, şairlərimiz, yazıçılarımız, bəstəkarlarımızdır. Azərbaycanı bu insanlar tanıdırlar. Bu insanlar Azərbaycan cəmiyyətinin aparıcı təbəqəsidir, cəmiyyətin elitasıdır. Bütün cəmiyyətlərin və ölkələrin inkişafı müəyyən bir qrup insanın fəaliyyəti ilə bağlıdır. İstər siyasi müstəvidə, istərsə də mədəniyyət, incəsənət sahəsində. Bəzi başqa ölkələrin tarixinə nəzər salanda görürük ki, kim yadda qalır. Şəxsiyyətlər yadda qalır. İqtisadi göstəricilər yadda qalmır. Yaxud da hansısa bir konkret xarakter daşıyan uğurlar yadda qalmır. İnsanlar yadda qalır, əməllər yadda qalır.

Azərbaycanın çox nadir imkanları, çox nadir şansı var ki, biz ölkəmizi hərtərəfli inkişaf etdirək, müasirləşdirək. Öz milli ənənələrimizə sadiq qalaraq, dünyada gedən proseslərə açıq gözlə baxaq və ən müsbət, ən mütərəqqi yenilikləri Azərbaycanda tətbiq edək. Bu baxımdan bütövlükdə ölkənin mədəni həyatına çox böyük diqqət göstərilməlidir. Mən Prezident kimi çalışıram ki, bu sahə diqqətdən kənarda qalmasın. Bu sahəyə daim diqqət verilməlidir və son müddət ərzində Azərbaycanın iqtisadi imkanları artdıqca, əlbəttə, biz bunu daha da sürətlə həyata keçiririk. Xoş niyyət ola bilər və bu, bizdə həmişə vardır. Amma bunu həyata keçirmək üçün imkanlar olmalıdır.

Azərbaycan zənginləşməlidir, iqtisadi potensial möhkəmlənməlidir və möhkəmləndikcə, bütün başqa məsələlər öz həllini asanlıqla tapa bilər.

Fərhad müəllim qeyd etdi ki, Azərbaycanın bölgələri də inkişaf edir. Siz də bölgələrdə olursunuz və Azərbaycan rəssamlarının əsas ilham mənbəyi Azərbaycanın təbiətidir, dağlarıdır, Xəzər dənizidir, meşələrimizdir, çaylarımızdır, mənzərələrdir. Əlbəttə, siz bölgələrə tez-tez gedir və bu dəyişiklikləri görürsünüz. Mən də tez-tez oluram, mən də görürəm və çox sevinirəm. Çünki Azərbaycanın inkişafı məhz bölgələrin inkişafından keçir. Ən müasir texnologiyalar Azərbaycanda olmalıdır. Mən istəyirəm ki, dünyada olan ən yüksək səviyyə Azərbaycanda tətbiq edilsin. Azərbaycan xalqı buna layiqdir. Ən qabaqcıl meyarlar və səviyyə Azərbaycanda olmalıdır. Ona görə, o cümlədən mədəniyyət sahəsində indi görülən işlər artan iqtisadi potensialın əsasında daha da sürətlə gedir.

Bir müddət bundan əvvəl mən Azərbaycanın iki muzeyinin bərpası ilə əlaqədar göstəriş verdim və artıq bu işlər uğurla gedir. Azərbaycan Tarixi Muzeyində və Azərbaycan Ədəbiyyatı Muzeyində ikinci ildir təmir-bərpa işləri çox yüksək səviyyədə aparılır. Yəqin ki, gələn il hər iki muzey öz qapılarını açacaqdır. Mən Tarix Muzeyinin bərpası ilə əlaqədar verilmiş qərarı özümə mənəvi bir borc hesab edirdim. Çünki bilirsiniz, o binanı, evi məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tikdirmişdir. Mən bu binaya iki prizmadan yanaşırdım. Bir tərəfdən, ora Azərbaycan Tarixi Muzeyidir, gərək ən yüksək səviyyədə təmir olunsun və istifadəyə verilsin. Digər tərəfdən, mən buna Hacı Zeynalabdinin evi kimi yanaşırdım və hesab edirdim, Azərbaycanın borcudur ki, onun evi bərpa edilsin və biz buna nail oluruq.

Gələn il isə Azərbaycanda çox geniş yenidənqurma-bərpa işləri nəzərdə tutulur. Bütün teatrlar təmir olunacaqdır. Opera və Balet Teatrı, Azərbaycan Milli Dram Teatrı, Rus Dram Teatrı, Kukla Teatrı, Gənc Tamaşaçılar Teatrı, Heydər Əliyev adına Saray tamamilə yenidən qurulacaqdır. Gəncə şəhərində filarmoniyanın, teatrın tikintisi. Bir müddət bundan əvvəl Lənkəranda teatr təmir olundu, Naxçıvanda Heydər Əliyev adına Mədəniyyət sarayının yenidən qurulması, ondan sonra muzeylərin bərpası. Artıq İncəsənət Muzeyində işlər başlanmış, layihələr təqdim edilmişdir. Muğam Mərkəzi tikilir. Xalça muzeyi üçün çox gözəl layihə hazırlanmışdır və mən də onu təsdiq etdim. Yəqin ki, tikinti gələn il başlayacaqdır. Bir müddət bundan əvvəl mən Muzey Mərkəzinə getdim, gördüm təmirə çox böyük ehtiyac var. Xalça Muzeyi faktiki olaraq fəaliyyət göstərmir. Orada anbarlarda yığılan, bizim milli dəyərimiz olan xalçaları tamaşaçı faktiki olaraq görmür. Ona görə həm Muzey Mərkəzi təmir olunur və orada digər ekspozisiyalar nümayiş

etdiriləcək, həm də bununla bərabər, Xalça Muzeyi də tikilməlidir.

Bu yaxınlarda mən İstiqlal Muzeyinin və İstiqlal abidəsinin yaradılmasına dair sərəncamlar imzaladım. Mən çox istəyirəm ki, Azərbaycanda, Bakının ən gözəl yerində çox əzəmətli, möhtəşəm İstiqlal abidəsi ucaldılsın. Azərbaycanın müstəqilliyini əks etdirən əsər hələ ki, yoxdur. Mən bütün rəssamları, heykəltəraşları müsabiqədə iştirak etməyə dəvət edirəm. Açıq müsabiqə elan olunub və əminəm ki, fəal iştirak edəcəksiniz.

Müasir İncəsənət Muzeyinin yaradılması, bilirsiniz ki, çoxdan müzakirə olunan məsələ idi. Bu qərar da verildi. Mən istəyirəm ki, muzeyin binası da müasirliyi əks etdirsin, xarici görünüşü çox gözəl olsun, əlbəttə, daxili tərtibatı da müasir olsun.

Rəssamları, heykəltəraşları narahat edən, maraqlandıran məsələlərdən biri də emalatxana ilə təminatdır. Mən buna bir az daha da geniş kontekstdə baxıram. Əlbəttə ki, emalatxanalar olmalıdır və olacaqdır. İlk növbədə, istər onun yeri, istərsə də dizaynı baxımından, sizin də rəyiniz nəzərə alınmalıdır. Ancaq mən hesab edirəm ki, biz gərək buna bir az daha geniş, bir yaradıcılıq mərkəzi kimi baxaq. Orada təkcə emalatxanalar olmasın, görüşlər, konfranslar keçirmək, istirahət etmək üçün yer olsun.

Rəssamlar yaradıcılıq şəraitində orada işləyə, istirahət edə bilsinlər, qonaqları qəbul edə, müxtəlif tədbirlər keçirə bilsinlər. Ona görə mən öz tərəfimdən qərarları verdim, indi növbə sizindir. Sizdən təklif gözləyirəm. Təklif olan kimi, dərhal bunun maliyyə mənbələrini də həll edəcəyik.

Bir sözlə, bütün bunları deməklə mən heç də bildirmək istəmirəm ki, bu sahədə məsələlərin hamısı öz həllini tapmışdır. Problemlər var, çoxdur və əminəm ki, birgə fəaliyyət nəticəsində biz bunları həll edəcəyik. Eyni zamanda, mən sizdən həm təklif gözləyirəm, həm də bəlkə sizi narahat edən məsələ var. Tutaq ki, biz hansısa məsələni bilmirik, bunu etmək mümkündür, amma hansısa səbəbə görə etmirik. Ona görə istəyirəm ki, siz də öz fikirlərinizi söyləyəsiniz.

Mən bir daha demək istəyirəm, indi Azərbaycan elə inkişaf edir, özünün elə inkişaf dövrünü yaşayır ki, bizim qarşımızda faktiki olaraq, həll edilə bilməyən məsələ qalmır. Biz hər şeyə qadirik. Azərbaycan bir ölkə kimi artıq dünya birliyində özünə layiq yerini tutubdur. Bizim beynəlxalq hörmətimiz artır, təzyiq etmək imkanlarımız da artır. Nəinki biz, artıq regionda gedən bütün işlərlə maraqlanan siyasətçilər, ekspertlər, dövlət xadimləri Azərbaycanı regionun lideri kimi tanıyırlar. Bu, böyük nailiyyətdir. Səmimi deyirəm, mən çox böyük qürur hissi keçirirəm. Bizim ölkəmiz 15 illik müstəqillik dövründə özünü təsdiq edə bilibdir. Bu da çox böyük nailiyyətdir. Yəni şərt deyildi ki, bu, belə olmalı idi. Başqa cür də ola bilərdi. Tam başqa cür ola bilərdi. Fərhad bu gün qanlı 20 Yanvar günlərini xatırlatdı. Faktiki olaraq, Azərbaycana edilən zorakılıq, təcavüz - Azərbaycan xalqının iradəsini qırmaq, əzmək üçün edilən o təcavüz ölkəmizi sarsıtmışdı, insanları sarsıtmışdı. On illər ərzində

insanların şüurunda olan düşüncələri darmadağın etmişdi. İnsanlar çox ağır vəziyyətdə idi, pərişan idi. O vəziyyətdən çıxmaq, özünü toplamaq və bir ölkə kimi özünü təsdiq etmək çox böyük məsələdir. Xatırlayırıq ki, 1993-cü ilə qədər Azərbaycanda gedən çətin proseslər faktiki olaraq, ölkəmizi siyasi səhnədən silirdi. Azərbaycan olmaya da bilərdi, parçalana da bilərdi. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri heç vaxt unudulmur. Bu gün 15 il müstəqil ölkə kimi yaşayan Azərbaycan özünü təsdiq edə bilibdir.

Biz uzun illər, əsrlər boyu müstəqillikdən məhrum idik, müstəqil dövlət kimi yaşamırdıq. Bəzi hallarda müstəmləkə kimi, bəzi hallarda müttəfiq respublika kimi, demək olar ki, heç bir dövrdə Azərbaycanda siyasi sistem mövcud deyildi, müstəqil iqtisadi siyasət, təbii ki, yox idi. Bütün bunları yaratmaq, bərpa etmək, sıfırdan ölkəni yaratmaq

böyük nailiyyətdir. Xüsusilə indi biz görürük, ölkəmiz həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən, həm də regional çərçivədə qabaqcıl mövqelərdədir. Bu, bizi, ölkə rəhbərlərini, əlbəttə, yeni işlərə sövq edir. Əldə edilən uğurlar ruhlandırır, mövcud olan qüsurlar, çətinliklər bizi daha da fəal edir və etməlidir. Mən də bu görüşü çoxdan arzulayırdım. Çoxdan istəyirdim ki, rəssamlarla görüşüm. İndi yaxşı fürsət yarandı və biz görüşürük. Bir daha demək istəyirəm, mən öz tərəfimdən çalışacağam ki, gələcəkdə bu sahəyə diqqət daim artsın. Sizi narahat edən problemlərin həlli üçün çalışacağam. Amma yaxşı olardı, bilim ki, sizi ən çox narahat edən məsələlər hansılardır və biz onları operativ qaydada həll edə bilərik.

Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov dövlət başçısına təşəkkürünü bildirdi, onu doğum günü münasibətilə təbrik etdi, cansağlığı, ailə səadəti, xoşbəxtlik arzuladı və ulu öndərin ən çox sevdiyi rəssamlardan olan Səttar Bəhlulzadənin əsərini yadigar olaraq Prezidentə təqdim etdi.

Prezident İlham Əliyev dəyərli hədiyyəyə görə təşəkkür etdi, Səttar Bəhlulzadənin Azərbaycan rəssamlıq məktəbinin ən dəyərli nümayəndələrindən biri olduğunu söylədi, rəssamlara bir daha uğurlar arzuladı.

Dövlət başçısı görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

Misir Ərəb Respublikası Xalq Məclisinin xüsusi qızıl medalı

2007-ci il mayın 7-də Misirdə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Misir Ərəb Respublikası parlamentinin - Xalq Məclisinin xüsusi qızıl medalı təqdim edilmişdir.

Xüsusi qızıl medal Prezident İlham Əliyevə Xalq Məclisinin üzvləri ilə görüşü zamanı təqdim olunmuşdur.

Misir Xalq Məclisinə gələn Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Xalq Məclisinin üzvləri ilə görüşdə Azərbaycan Prezidentinin Misirə səfəri yüksək qiymətləndirildi, iki ölkə arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, elm və digər sahələrdə əlaqələrin artdığı, bununla yanaşı, parlamentlərarası əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirildi.

Prezident İlham Əliyev Azərbaycanın əldə etdiyi iqtisadi uğurlardan, beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsindən danışdı. Dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq dedi ki, Ermənistan ölkəmizə qarşı işğalçılıq siyasəti həyata keçirərək, torpaqlarımızın bir hissəsini zəbt etmişdir.

Misir Xalq Məclisinin üzvləri görüşdə çıxış edərək, Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasının, bu problemin tezliklə həll olunmasının, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının zəruriliyini vurğuladılar.

Prezident İlham Əliyevə Azərbaycan Prezidentinin adı yazılmış xüsusi medal təqdim olundu və qeyd edildi ki, qızıldan hazırlanmış bu medal Misir Xalq Məclisinin ali qonaqlarına təqdim edilir.

Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfransın "Qızıl Ulduz" medalı

2007-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Azərbaycanın sərhəd xidmətinin qısa müddətdə yüksək səviyyədə qurulmasında xidmətlərinə görə Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfransın "Qızıl Ulduz" medalı təqdim edilmişdir.

Medal Prezident İlham Əliyevə Bakıda sərhəd məsələləri üzrə keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul edərkən təqdim olunmuşdur.

Prezident **İlham Əliyev** qonaqlara müraciətlə dedi:

- Sizi Azərbaycanda salamlayıram və görməyimə çox məmnunam. Ölkəmizdə təhlükəsizlik mövzusunda keçirilən beynəlxalq konfrans bu cür ilk tədbir deyil. Biz öz qonaqlarımız və dostlarımızla görüşməyə hər zaman şadıq. Siz sərhədlərin təhlükəsizliyinə dair olduqca vacib məsələləri müzakirə etmək imkanı əldə etmişdiniz. Bu cür problemlər bizim hamımıza yaxşı məlumdur. Sərhədlərin təhlükəsizliyi ölkənin təhlükəsizliyi deməkdir. Xüsusən də indiki vaxtda, regionda bir çox təhdidlərin, o cümlədən terrorçuluq təhlükəsinin olduğu zaman sərhəd xidmətləri arasında səylərin əlaqələndirilməsi, məsləhətləşmələrin aparılması, eləcə də təhdidlərə çevik reaksiyanın verilməsi olduqca böyük əhəmiyyət daşıyır.


For the outstanding contribution to enhancement and Improvement of border security and assistance in realization of events of the International Border Police Conference

His Excellency
The President of the Republic of Azerbaijan
Mr. ILHAM ALIYEV

is awarded by

GOLDEN LEVEL

INTERNATIONAL BORDER POLICE CONFERENCE STAR

Baky, September 25, 2007

Lieutenant General Yoszef Bendek
The Chairman of the International
Border Police Conference

Prezident İlham Əliyev vurğuladı ki, əvvəllər Azərbaycan başqa bir dövlətin tərkibində idi. Müstəqillik əldə olunduqdan sonra sərhədlərimizin möhkəmləndirilməsi zərurəti yarandı. Biz hər şeyə sıfırdan başladıq və ötən illər ərzində ölkəmizin mükəmməl sərhəd infrastrukturu yarandı, ən müasir texnika və avadanlıqla təchiz olundu. Dövlət başçısı bildirdi ki, Azərbaycan potensial təhlükələrə çevik reaksiya vermək üçün qonşu ölkələrlə tərəfdaşlığa xüsusi önəm verir. Regionda hələ də müxtəlif təhdidlər və hədələr mövcuddur. Aydındır ki, heç bir ölkə təhlükəsizlik problemini təkbaşına tam həll etmək iqtidarında deyildir. Buna görə də bütün ölkələr təhlükəsizlik məsələlərində regional əməkdaşlığı möhkəmləndirməlidir.

Avropa İttifaqının genişləndiyini və sərhədlərinin regionumuza yaxınlaşdığını xatırladan Azərbaycan Prezidenti dedi ki, bu amil məsuliyyətimizi daha da artırır. İqtisadi inkişaf və enerji təhlükəsizliyi baxımından təkcə regionda deyil, dünyada önəmli mövqe tutan Azərbaycan bütün ölkələrlə fəal əməkdaşlıq edir. Sərhəd məsələlərinə dair mötəbər tədbirin növbəti dəfə Azərbaycanda keçirilməsi də ölkəmizin müxtəlif dövlətlərlə bu sahədə tərəfdaşlığa əhəmiyyət verməsinin təzahürüdür.

Sərhəd məsələləri üzrə beynəlxalq konfransın sədri, Macarıstan Sərhəd Mühafizəsinin rəisi, general-leytenant **Yozef Bendek** belə tədbirin üçüncü dəfə keçirildiyi Bakıda konfransın yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına təşəkkürünü bildirərək dedi:

- Sərhəd xidmətlərinin təcrübə mübadiləsi baxımından bu cür tədbirlərin böyük əhəmiyyəti vardır. Azərbaycanın sərhəd xidmətinin qısa müddətdə yüksək səviyyədə qurulmasında, cənab Prezident, Sizin xidmətlərinizdən konfrans iştirakçıları xəbərdardırlar. Biz Azərbaycan Prezidentinin tez-tez sərhəd zastavalarında olmasından, sərhədçilərlə görüşlərindən, sərhədlərin etibarlı mühafizəsi üçün gördüyü tədbirlərdən,

sərhədçilərin sosial-məişət problemlərinin həllinə xüsusi diqqət yetirməsindən xəbərdarıq. Sərhədçilər üçün yeni salınmış istirahət mərkəzində yaradılan şərait də ən yüksək qiymətə layiqdir. Sərhəd xidmətlərinin birgə fəaliyyəti ilə bağlı yeni ideyalar işləmək baxımından Bakı konfransının müstəsna əhəmiyyəti var.

XV sessiyada biz təşkilatımızın 3 dərəcədə - bürünc, gümüş və qızıl ulduzlarını təsis etmişik. Təşkilatın ümumi qərarına əsasən Azərbaycan Prezidenti "Qızıl Ulduz" medalı ilə təltif olunmuşdur.

General Yozef Bendek mükafatı Azərbaycanın dövlət başçısına təqdim etdi.

Prezident **İlham Əliyev** mükafatı qəbul edərək dedi:

- Sərhədlərin təhlükəsizliyinə verdiyim töhfəni bu cür qiymətləndirdiyinizə görə Sizə olduqca minnətdaram. Siz tamamilə düzgün qeyd etdiniz ki, mən zabit və əsgər sərhədçilərlə, yəni Azərbaycanın birbaşa sərhədlərində xidmət edənlərlə bir çox görüşlər keçirirəm. Onlar olduqca çətin iqlim şəraitində vətənə qulluq edirlər. Məsələn, dağ yüksəkliklərində şərait çox mürəkkəbdir. Lakin ölkə vətəndaşlarının həyatını qoruyan şəxslərə dövlətin gündəlik qayğı göstərməsi olduqca vacibdir. Biz sərhəd xidmətinin inkişafı proqramını davam etdirəcəyik, sərhədçilərin yaşayış şəraitlərini yaxşılaşdıracağıq, məvaciblərini artıracağıq, istirahət və asudə vaxt yerlərini təkmilləşdirəcəyik.

Dövlət başçısı daha sonra vurğuladı ki, Azərbaycan bundan sonra da regional və beynəlxalq təhlükəsizlik tədbirlərində yaxından iştirak edəcəkdir. Eyni zamanda, ölkəmiz belə tədbirləri keçirməyə də həmişə hazırdır.

Yunanıstan Respublikası parlamentinin "Şərəf" medalı

2009-cu il fevralın 17-də Yunanıstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Yunanıstan Respublikası parlamentinin qızıl medalı – "Şərəf" medalı təqdim olunmuşdur.

Yunanıstan parlamentinin Sədri Dimitris Siufas Azərbaycan Prezidenti İlham Əliyevi səmimiyyətlə qarşıladı.

Dimitris Siufas Azərbaycanın dövlət başçısına müraciətlə dedi:

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Sizi və parlament üzvlərini bütün deputatlar adından Yunanıstan parlamentinin binasında salamlamaqdan məmnunluq duyuram.

Cənab Prezident, bu, bizim artıq üçüncü görüşümüzdür. Birinci görüşümüz 2007-ci il avqustun 2-də olmuşdu. Həmin vaxt mən ölkənizdə səfərdə idim. Səfərim zamanı tərəfinizdən qəbul edilmək şərəfinə nail oldum. Sonra isə sizin iqtisadi inkişaf nazirinizlə əməkdaşlıq haqqında saziş imzaladıq. İkinci görüşümüz 2007-ci ilin noyabr ayında baş tutdu. Görüş Evros rayonunda yerləşən sərhəd məntəqəsində keçirildi. Həmin tədbir Azərbaycan qazının Türkiyədən Yunanıstana çatdırılması münasibətilə təşkil olunmuşdu. Təbii ki, bu hadisə nəinki Yunanıstan və Türkiyə üçün, o cümlədən Azərbaycan və İtaliya üçün də önəmli idi. Həmin vaxt Azərbaycan qazının Yunanıstan vasitəsilə İtaliyaya və digər Avropa ölkələrinə çatdırılması üçün şərait yarandı.

Cənab Prezident, nazirinizlə imzaladığımız saziş Azərbaycanla Yunanıstan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair sənəd idi. Cənab Prezident, Bakıda söylədiyim fikirlərimizi bir daha xatırlatmaq istəyirəm ki, dördtərəfli, yəni Azərbaycan, Türkiyə, Yunanıstan və İtaliya arasında sazişin imzalanması vacibdir. Çünki bu saziş əsasında Azərbaycan qazı Türkiyə və Yunanıstan ərazisindən tranzit olaraq İtaliyaya və Avropaya çatdırılacaqdır. Bu çox mühümdür, çünki Xəzər dənizində hasil olunan təbii qaz ilk dəfədir ki, Avropaya daxil olur.

Cənab Prezident, həyata keçirdiyiniz dövlət səfəri Yunanıstanla Azərbaycan arasındakı münasibətləri daha da möhkəmləndirəcəkdir. Yunanıstan Prezidenti, Baş nazirlə, müxalifət partiyasının sədri ilə keçirdiyiniz və keçirəcəyiniz görüşlər Azərbaycanla Yunanıstan arasında nəinki enerji sahəsində, həm də tədqiqatlar, texnologiyalar, sənayelər, ticarət sahələrində münasibətlərin yeni mərhələsini açır. Bu münasibətlər hər iki tərəfin – Yunanıstan və Azərbaycan xalqlarının marağına cavab verəcəkdir.

Cənab Prezident, Sizi Yunanıstan parlamentində bir daha salamlayıram. Burada ölkələrimizin səfirləri də iştirak edirlər. Sizi burada görməkdən çox məmnunuq. Fürsətdən istifadə edərək, icazə verin, Yunanıstan parlamenti sədrinin müavininin və Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədrinin iştirakı ilə keçirilən bu görüşdə ölkəmizə dövlət səfəriniz münasibətilə Sizə Yunanıstan parlamentinin qızıl medalını – "Şərəf" medalını təqdim edim. Medalın üzərində yunan demokratiyasının banisi Peristoklun portreti əks olunmuşdur.

Cənab Prezident, digər bir rəmzi hədiyyəmiz də var. Bu, eramızdan əvvəl VI əsrə aid piyalənin dəqiq surətidir. Onun üzərində həyatın mənbəyi sayılan günəş təsvir olunmuşdur.

Azərbaycan Prezidenti **İlham Əliyev** təşəkkür edərək dedi:

- Hörmətli cənab Sədr!

Yüksək mükafata görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bundan sonra da Yunanıstan-Azərbaycan ikitərəfli münasibətləri uğurla inkişaf edəcəkdir. Siz qeyd etdiyiniz kimi, bu səfər bizim ikitərəfli münasibətlərin tarixində Azərbaycan Respublikası Prezidentinin Yunanıstana ilk dövlət səfəridir. Mən çox şadam ki, bu səfər çox uğurlu keçir. Tam əminəm ki, səfərin nəticələri də çox yaxşı olacaq və iki ölkə arasında münasibətlər yeni pilləyə qalxacaqdır.

Bizim müxtəlif sahələrdə əməkdaşlığımız həm iki ölkə üçün, həm region üçün, həm geniş coğrafiya üçün çox böyük əhəmiyyət kəsb edir. Siz bizim bundan əvvəlki görüşlərimizi xatırlatdınız. Mən də o görüşləri yaxşı xatırlayıram. Məhz Sizin iştirakınızla Yunanıstanla Azərbaycan arasında enerji sahəsində ilk addımlar atılmışdır. Sizin bu sahədəki fəaliyyətinizi biz çox yüksək qiymətləndiririk.

Qısa müddət ərzində biz artıq konkret layihələr üzərində çalışırıq və əminəm ki, bu səfər çərçivəsində aparılan danışıqlar Yunanıstanla Azərbaycan arasında qaz sahəsindəki əməkdaşlığın dərinləşməsi üçün çox mühüm addım olacaqdır. Yunanıstan Avropa İttifaqının birinci ölkəsidir ki, bu ölkəyə Azərbaycan qazı daxil olubdur. Hələ ki, məhdud həcmdədir, ancaq mən ümid edirəm ki, yaxın zamanlarda həcm baxımından daha da böyük müqavilə imzalana bilər. Hesab edirəm, bu, Yunanıstanın, eyni zamanda Azərbaycanın və Avropanın marağındadır ki, bizim ölkələrimiz arasında ikitərəfli əsasda enerji sahəsində müqavilə tezliklə imzalansın. Bu sahədə

əməkdaşlıq, əlbəttə ki, öz müsbət təsirini bütün digər sahələrə də göstərəcəkdir. Siyasi, iqtisadi, mədəniyyət sahəsindəki əməkdaşlığın da çox gözəl perspektivləri, çox gözəl gələcəyi vardır.

Mənə verilən yüksək mükafata görə sizə bir daha təşəkkürümü bildirmək istəyir və Sizə yeni-yeni uğurlar arzulayıram.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Yunanıstan parlamentinin Sədri Dimitris Siufas ilə görüşü oldu.

Azərbaycan ilə Yunanıstan arasında münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunan görüşdə parlamentlərarası əlaqələrin əhəmiyyəti vurğulandı və bu sahədəki əməkdaşlığın qarşılıqlı münasibətlərə töhfə verdiyi bildirildi.

Rus Pravoslav Kilsəsinin "Müqəddəs Apostol Varfolomey" qızıl medalı

2010-cu il sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dinlərarası dialoqun möhkəmləndirilməsinə verdiyi töhfələrə görə Rus Pravoslav Kilsəsinin "Müqəddəs Apostol Varfolomey" qızıl medalı təqdim edilmişdir. Mükafat Prezident İlham Əliyevə Qafqaz Müsəlmanları İdarəsinin Sədri Şeyxülislam Hacı Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında açdığı iftar mərasimində təqdim olunmuşdur.

Mərasimi Şeyxülislam **Hacı Allahşükür Paşazadə** açaraq dedi:

- Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri, möhtərəm cənab Prezident!

Möhtərəm səfirlər və əziz din qardaşlarım!

Hörmətli qonaqlar!

Bugünkü məclisimizdə əziz qonaqlarımıza, xüsusən dövlətimizin başçısı möhtərəm cənab İlham Əliyevə ən səmimi salamlarımı yetirir, islam aləminin müqəddəs mərasiminə göstərdiyiniz ehtirama və dəvətimizi qəbul etdiyinizə görə Qafqaz müsəlmanları adından və şəxsən öz adımdan Sizə dərin minnətdarlığımı bildirirəm.

Hər il mübarək Ramazan ayında möhtərəm Prezidentimizlə iftar süfrəsində görüşmək artıq ənənə halını alaraq dövlətimizin tarixində çox vacib bir reallığa çevrilir. Biz dindarlar üçün bu məclis yalnız iftar süfrəsi deyil, həm də birliyimizin, tolerantlığımızın, Prezidentimizlə həmrəyliyimizin nümunəsidir. Şükr edirəm ki,

Allah-taala hər il bizə dövlətimizin başçısı ilə görüşün səadətini və müqəddəs Ramazanın nemətini bəxş edir. Əminəm ki, inşallah, biz hamımız gələcəkdə də bu nemətdən yenə də faydalana biləcəyik.

Hər il keçirilən Ramazan görüşlərimizin bir özəlliyi də il ərzində dini mühitimizdə, dindarların həyatında baş verən hadisələr barədə məlumat verməkdir. Bu müddət ərzində əlamətdar tədbirlərin sırası böyük bir tarixi salnaməni xatırladır. Bu salnamə həqiqətən çox zəngin və təqdirəlayiqdir. Hər şeydən əvvəl, mənim 60 illik yubileyimin yüksək səviyyədə keçirilməsi, dünyanın nüfuzlu din xadimlərinin, dövlət rəhbərlərinin bu tədbirdə iştirakı ölkəmizin dini həyatında mötəbər hadisəyə çevrildi. Mən hər zaman fəxr etmişəm ki, həyatımın 30 ilindən çoxu bir Şeyxülislam kimi böyük qardaşım, fenomen şəxsiyyət, ulu öndərimiz mərhum Heydər Əliyevlə birgə olub və onun dəyərli tövsiyələri ilə milli mənəviyyatımızın formalaşmasına, islamın tərəqqisinə və Azərbaycan dövlətçiliyinə xidmətdə keçib. Uzun illik dostluğumuz və səmimi ünsiyyətimiz dövlət və din münasibətlərinin təməl əsaslarını möhkəmlədib, müstəqil Azərbaycanın dünyaya bəyan etdiyi yeni tolerant imicini formalaşdırıb. Mən bu müddətdə layiq görüldüyüm ali təltifləri bir dini rəhbərin dövlət qarşısında fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirirəm. Ötən ilin noyabr ayında keçirilən təntənəli mərasimdə mənə "Şərəf" ordenini Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri İlham Əliyevin şəxsən təqdim etməsini həyatımın ən gözəl məqamlarından sayıram və düşünürəm ki, bu orden təkcə mənə yox, Qafqaz Müsəlmanları İdarəsinin dövlətçiliyimiz naminə apardığı mənəvi fəaliyyətə verilən ali mükafat kimi bizi öz işimizdə daha da məsuliyyətli olmağa çağırır.

İkinci əlamətdar hadisə bu ilin aprel ayında din xadimlərinin Ümumdünya Sammitinin Bakıda keçirilməsi oldu. Millətlərarası və dinlərarası münasibətlərin bərpası və inkişafına xidmət edən bu tədbirdə Azərbaycanın dünyaya bəyan etdiyi sülh, qlobal dialoq, tolerantlıq və mədəni intibah çağırışları bir daha təsdiqini tapdı. Dünyanın nüfuzlu dini mərkəzlərinin – Moskva və Bütün Rusiya Patriarxının, Gürcüstan Patriarxının, eyni zamanda, Vatikanın, Ecmiədzinin, yəhudi, buddist, induist və digər dini cərəyan nümayəndələrinin iştirakı ilə keçirilən Bakı sammiti hələ uzun illər tarixi fakt kimi diqqət mərkəzində olacaqdır. Əminəm ki, gələcəkdə bir sıra qlobal və regional problemlərin həllində Bakı sammitinin nəticələrindən əsas müddəa kimi istifadə ediləcəkdir.

Sammit çərçivəsində, Bütün Rusiya və Moskva Patriarxı, Zati-müqəddəsləri Kirill ilə Bakıda və son zamanlar Moskvada apardığımız məşvərətlərə, eləcə də Şimali Qafqaz regionu üzrə işgüzar səfərlərdə dövlət və din xadimləri ilə görüşlərimizə əsasən demək olar ki, Qafqaz Müsəlmanları İdarəsi Azərbaycan dövlətinin yürütdüyü uğurlu sülhsevər siyasətin daşıyıcılarından birinə çevrilmişdir. Bildiyiniz kimi, gələcəkdə Qafqaz Müsəlmanları İdarəsinin daimi nümayəndəliyinin BMT nəzdində Dini Məşvərət Şurasında və YUNESKO-da Azərbaycanın dünya müsəlmanlarını təmsil etməsi dövlətlərarası və dinlərarası əməkdaşlığın inkişafına xidmət edəcəkdir.

Bu ilin yaddaqalan hadisələri sırasına ölkəmizin milli mənəvi dəyərlərindən olan qədim tarixi abidələrin təmir və bərpa işlərini də əlavə etmək istərdim. Onu da qeyd etmək istərdim ki, Prezidentimiz cənab İlham Əliyev müsəlman məscid və ziyarətgahları ilə yanaşı, xristian və yəhudi ibadət yerlərinin təmir və inşasına dair sərəncamlara da imza atmışdır. Hər bir azərbaycanlı, hər bir dindar üçün qürur mənbəyinə çevrilmiş bu müqəddəs abidələrin hər naxışında, cənab Prezident, şəxsən Sizin zəhmətiniz və qayğınız vardır.

Bu yaxınlarda Bakıda yeni müqəddəs məkanımız – Dövlət Bayrağı Meydanının təntənəli açılışı mərasimində Prezidentimizin nitqini dinləyərkən bütün Azərbaycan xalqı kimi, mən də çox böyük şərəf və qürur hissi keçirdim. Ulu öndərimiz Heydər Əliyevin milli dövlətçiliyimizin rəmzlərinə - üçrəngli bayrağımıza, himnimizə, gerbimizə verdiyi dəyəri xatırladım və bir daha əmin oldum ki, onun layiqli davamçısı olan cənab İlham Əliyev Azərbaycanı iqtisadi inkişafa, beynəlxalq nüfuzlu ölkəyə yüksəldən bir rəhbər kimi, Vətənimizin azadlıq və zəfər rəmzini, inşallah, işğal altında olan torpaqlarımızda ucaldacaq və sonsuz qürur hissi ilə bütün Azərbaycan xalqı bu böyük zəfərin memarına minnətdar olacaqdır.

Bu gün mədəni irsimizin qorunmasında, milli mənəvi dəyərlərin inkişafında möhtərəm Prezidentimizlə bərabər böyük zəhmətləri olan çox hörmətli Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd olunmalıdır. Allah-taala bu ailənin xalqımızın rifahı, dövlətimizin gələcəyi naminə gördüyü bütün gözəl işlərdə hər zaman yardımçısı olsun! Bu, təkcə mənim yox, bütün Azərbaycan xalqının öz rəhbərinə arzuladığı ən səmimi dualardır. Biz tam əminliklə deyə bilərik ki, xalqımız və dindarlarımız cənab Prezidentimiz İlham Əliyevin nəcib amallarını ürəkdən bəyənir və dövlətimizin başçısına hər zaman dəstək verəcəklərini bəyan edirlər!

Zati-aliləri! Möhtərəm qonaqlar!

Ramazanın hər gəlişi bizim üçün böyük sevincdir. Çünki müqəddəs Qurani-Kərim bu ayda nazil olmuşdur, xeyir-bərəkət də elə bu ayın rəhmətindən sayılır. Bu əziz günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarından keçən qəhrəman övladlarımızın, o cümlədən Qarabağ şəhidlərinin əziz xatirəsini yad edir, ruhlarına dualar oxuyuruq. Mübarək Ramazanda edilən duaların Allah hüzurunda qəbuluna əmin olduğuma görə, mən də Sizin üçün xeyir-dualar edirəm. Çünki bu ayda mənim evimi mənəvi ocaq bilib iftar məclisində iştirak etməyiniz bir Şeyxülislam kimi məni qəlbən sevindirir və bu görüşlərin, inşallah, söz verdiyiniz kimi, hər il davam edəcəyi ümidindəyəm. Mübarək Qurani-Kərimdə buyrulur: "İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran Quran Ramazan ayında nazil edilmişdir" (Bəqərə, 185).

Bu mübarək ayda hamınıza bir daha "Xoş gəlmisiniz!" deyir, ibadətlərimizin qəbul olunması üçün Allahdan xeyir-dualar diləyirəm!

Allah köməyimiz olsun!

Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri Aleksandr Azərbaycanda tolerantlığın hökm sürdüyünü və dövlətlə din arasında münasibətlərin nümunəvi xarakter daşıdığını vurğuladı. O, respublikamızın dinlərarası dialoqa əsaslı töhfələr verdiyini və cari ilin aprel ayında Bakıda keçirilən dünya dini liderlərinin sammitinin bunun əyani təcəssümü olduğunu bildirdi.

Aleksandr həmin mötəbər tədbirin yüksək səviyyədə təşkilinə Prezident İlham Əliyevin hərtərəfli dəstəyini Moskvanın və Bütün Rusiyanın patriarxı Kirill həzrətlərinin də dəfələrlə vurğuladığını diqqətə çatdırdı.

Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri Aleksandr dinlərarası dialoqun möhkəmləndirilməsinə verdiyi töhfələrə görə Rus Pravoslav Kilsəsinin "Müqəddəs Apostol Varfolomey" qızıl medalını Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Semyon İxiilov azərbaycanlılarla yəhudilər arasında tarixən dostluq münasibətlərinin olduğunu dedi. O, Azərbaycanda bütün millətlərin mehriban ailə kimi yaşadığını, heç bir zaman antisemitizmlə qarşılaşmadıqlarını söylədi.

Vətəni Azərbaycana dərindən bağlı olduğunu vurğulayan Semyon İxiilov Azərbaycan xalqını və Prezident İlham Əliyevi müqəddəs Ramazan ayı münasibətilə təbrik etdi və ən xoş arzularını çatdırdı.

Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete Roma Papasının bütün dünya müsəlmanlarını Ramazan ayı münasibətilə təbrik etdiyini, dinlərarası dialoqu və əməkdaşlığı möhkəmləndirməyə çağırdığını xatırlatdı. O, Azərbaycanda tolerantlığın hökm sürməsi ilə bağlı ulu öndər Heydər Əliyevin siyasətinin indi də uğurla davam etdirildiyini dedi və Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi.

Vladimir Fekete müqəddəs Ramazan ayı münasibətilə Roma Katolik Kilsəsinin təbrik məktubunu və şəxsən Papa Şurasının dinlərarası dialoq üzrə nümayəndəsi, kardinal Yan Lui Toranın təbriklərini Azərbaycan dövlətinin başçısına çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev iftar mərasimində çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli Şeyx həzrətləri!

Hörmətli din xadimləri!

Hörmətli xanımlar və cənablar!

Bizim görüşlərimiz artıq gözəl bir ənənədir. Bu ənənə əminəm ki, bundan sonra da davam edəcəkdir. Mübarək Ramazan ayında Şeyx həzrətlərinin dəvəti ilə təşkil olunan bu görüşlərin çox böyük mənası vardır. Burada artıq qeyd olundu ki, Azərbaycanda din ilə dövlət arasında münasibətlər çox sağlam zəmində qurulmuşdur. Dövlətçilik tarixi böyük olan ölkələrdə bu münasibətlər əvvəlki əsrlərdə, əvvəlki dövrlərdə artıq təşkil olunmuşdur. Azərbaycan isə cəmi 20 ilə yaxındır ki, müstəqillik həyatını yaşayır və bizdə dinlə dövlət arasındakı münasibətlərin tənzimlənməsi böyük səylər tələb edir. Mən çox şadam ki, Azərbaycan xalqının və Azərbaycanda əsrlər boyu yaşamış və yaşayan bütün millətlərin nümayəndələrinin həmrəyliyi, birliyi müstəqillik dövründə də özünü büruzə verdi, özünü göstərdi. Müstəqillik dövründə din ilə dövlət arasında yaranan münasibətlər bu gün Azərbaycanın uğurlu inkişafını təmin edir. Bu münasibətlərin möhkəmlənməsində və qurulmasında ulu öndər Heydər Əliyevin böyük səyləri, böyük zəhməti olubdur. Heydər Əliyevin Şeyx həzrətləri ilə şəxsi dostluq əlaqələri də Azərbaycanda din ilə dövlət arasındakı münasibətlərin qurulmasına çox böyük töhfə vermişdir.

Bu gün Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim böyük nailiyyətimizdir, böyük uğurumuzdur. Bizə bəzən elə gəlir ki, hər yerdə belə olmalıdır. Amma əfsuslar

olsun ki, hər yerdə heç də belə deyildir. Bəzi yerlərdə, bəzi ölkələrdə dini zəmində qarşıdurmalar, müharibələr, toqquşmalar baş verir. Azərbaycanda bütün dinlərin nümayəndələri, bir daha demək istəyirəm ki, qardaşlıq, mehribanlıq şəraitində yaşayırlar. Artıq bu ənənələr möhkəmlənir və heç şübhə etmirəm ki, gələcək illərdə və dövrlərdə Azərbaycanda dini münasibətlər lazımi səviyyədə təşkil olunacaqdır.

Biz öz milli dəyərlərimizə sadiq olan xalqıq. Biz öz milli mənəvi dəyərlərimizi hər şeydən üstün tuturuq. Bu dəyərlər Azərbaycan xalqının formalaşmasında həlledici rol oynamışdır. Əsrlər boyu biz başqa ölkələrin tərkibində yaşamışdıq, müstəqillikdən məhrum idik. Amma buna baxmayaraq, öz mənliyimizi, milli mənsubiyyətimizi, dinimizi, dilimizi, adət-ənənələrimizi qoruya bildik və bu amillər bu gün müstəqil ölkənin inkişafı üçün də mühüm rol oynayır.

Son illər ərzində Azərbaycanda bütün dinlərə məxsus olan abidələrdə təmir-bərpa işləri gedir. Yüzlərlə yeni məscid tikilmişdir. Digər dinlərin məbədləri tikilir, təmir olunur və gələcəkdə də tikiləcəkdir. Bu, onu göstərir ki, Azərbaycanda bu sahədə heç bir ayrı-seçkilik yoxdur. Millətini sevən, dininə hörmətlə yanaşan insan başqa millətdən olan insanları da sevməlidir, başqa dinlərə də hörmətlə yanaşmalıdır. Azərbaycanda bax bu əsaslarda güclü dövlət quruculuğu prosesi uğurla davam etdirilir. Təsadüfi deyildir ki, Azərbaycan artıq dünya miqyasında dinlərarası dialoqun inkişafında və təşkil olunmasında mühüm rol oynamağa başlamışdır. Mən çox şadam ki, Azərbaycanda bu sahədə əldə edilmiş nailiyyətlər dünya birliyində də qiymətləndirilir. Bu nailiyyətlərin mövcudluğu bizə imkan verir ki, bu sahədə mötəbər tədbirləri Azərbaycanda keçirək. Bu barədə artıq burada deyildi.

Hörmətli Şeyx həzrətlərinin yubileyi Azərbaycanda geniş qeyd olunmuşdur və müxtəlif ölkələrdən dini rəhbərlər qonaqlarımızın sırasında idi. Eyni zamanda, dünya dinlərinin zirvə görüşü Azərbaycanda ən yüksək səviyyədə keçirilmişdir. Bu zirvə görüşü haqqında təəssüratlar, fikirlər və xatirələr bu günə qədər bizə gəlib çatır. Bu, çox sevindirici haldır. Biz istəyirik ki, gələcəkdə belə tədbirlərin sayı çoxalsın. Çünki Azərbaycan bu mövzuda tədbirlərin keçirilməsi üçün, hesab edirəm ki, məqbul məkandır.

Azərbaycanda vətəndaş birliyi, vətəndaş həmrəyliyi vardır. Azərbaycanda dini, milli məsələlərin həllində çox böyük uğurlar vardır. Bu, bizim böyük sərvətimizdir, böyük nailiyyətimizdir. Biz bunu yüksək qiymətləndiririk. Mən əminəm ki, Azərbaycanda bu sahədə əldə edilmiş nailiyyətlər, təcrübəmiz başqa yerlərdə də öyrənilə bilər və bu proseslər artıq başlanmışdır.

Bir il bundan əvvəl biz bu salonda görüşmüşdük, fikir mübadiləsi aparmışdıq. Bir il çox tez keçdi və Şeyx həzrətləri bu dəfə məni iftar süfrəsinə dəvət edəndə fikirləşdim ki, bir il nə qədər sürətlə keçdi. Nəyə görə? Çünki bu bir il ərzində o qədər hadisələr, o qədər tədbirlər görüldü. Azərbaycanda bütün işlər o qədər sürətlə aparılır ki, bəzən heç vaxtın bu qədər sürətlə keçməsinə də fikir vermirsən. Ancaq bu son bir il ərzində ölkəmizdə bütün sahələrdə çox müsbət proseslər gedib, Azərbaycan daha da möhkəmlənib. Baxmayaraq ki, 2009-2010-cu illərdə dünyada mövcud olan böhran demək olar, bir neçə ölkəni çox ciddi sarsıtmışdır. Biz Azərbaycan əhalisini bu böhranın fəsadlarından qoruya bildik. Azərbaycanın inamlı və sürətli inkişafını təmin edə bildik.

Ölkədə bütün sosial və iqtisadi proqramlar plan üzrə aparılmışdır. Heç bir sahədə yubanma, geriləmə olmamışdır. Nəzərdə tutulmuş bütün layihələr vaxtında və yüksək səviyyədə icra edilmişdir. Bu onu göstərir ki, ölkəmiz artıq o səviyyəyə çatıb ki, hətta dünya miqyaslı problemlər bizə o qədər də böyük təsir etmir. Bunun yeganə səbəbi ondan ibarətdir ki, biz öz siyasətimizi düşünülmüş şəkildə aparırıq. Bizim siyasətimiz həm gələcəyə, eyni zamanda, bu gün ölkə qarşısında duran problemlərin həllinə yönəldilib. Atılan bütün addımlarımız bir məqsədi güdür: Azərbaycanı daha da gücləndirək, Azərbaycan əhalisinin rifah halını yaxşılaşdıraq, ölkədə sabitliyi möhkəmləndirək, təhlükəsizlik tədbirlərini gücləndirək ki, Azərbaycan xalqı rahat, sərbəst, azad və firavan yaşasın. Bunu etmək üçün bizdə bütün imkanlar vardır. Artıq Azərbaycan dövlət quruculuğu işində böyük uğurlara nail olubdur. Bizim artıq güclü dövlətimiz vardır.

Azərbaycanda bütün azadlıqlar vardır. O cümlədən Azərbaycanda vicdan azadlığı yüksək səviyyədə qorunur. Azərbaycanda demokratik azadlıqlar güclənir və bu meyillər möhkəmlənir, bu da çox mühüm amildir. İqtisadi islahatlar düzgün istiqamətdə aparılır. Əldə edilmiş nailiyyətlər bunun ən yaxşı sübutudur. Sosial məsələlər həllini tapır. Azərbaycan təsir imkanlarını genişləndirir. Beynəlxalq müstəvidə nüfuzumuz artır və tərəfdaşlarımızın sayı çoxalır. Azərbaycan artıq uzun illərdir ki, ikitərəfli və çoxtərəfli əsaslarda etibarlı tərəfdaş kimi qəbul edilir. Yəni ölkəmizin hərtərəfli inkişafı təmin edilib. İnkişafın strateji istiqamətləri müəyyən edilib. Hər bir tarixi dövr və gələcək dövr üçün konkret proqramlar tərtib edilib və icra olunur. Məhz buna görə biz nail ola bilmişik ki, ölkə hərtərəfli inkişaf etsin. Ölkəmizin bütün problemləri tədricən həll olunacaqdır.

Qarşımızda duran ən başlıca vəzifə, ən böyük problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Bu istiqamətdə bizim birmənalı mövqeyimiz daha da güclənir. Azərbaycan gücləndikcə, təbii ki, ölkəmizin mövqeyi də güclənəcəkdir. Nəzərə alsaq ki, mövqeyimiz hansısa qeyri-real arzulara deyil, məntiqə, beynəlxalq hüquqa, ən mötəbər beynəlxalq təşkilatların qətnamələrinə, qərarlarına əsaslanır, nəzərə alsaq ki, Azərbaycan bu bölgədə öz fəaliyyəti ilə və irəli sürdüyü təşəbbüslərlə təsir imkanlarını gücləndiribdir, iqtisadi cəhətdən böyük və uğurlu yol keçibdir, mən şübhə etmirəm ki, biz bu məsələni ədalətli, beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edəcəyik. Mən buna şübhə etmirəm.

Biz elə etməliyik ki, hər bir vətəndaş tutduğu vəzifədən asılı olmayaraq, öz sahəsində əməli işləri, fəaliyyəti ilə ölkəmizin güclənməsinə xidmət göstərsin və öz töhfəsini versin. Azərbaycan uzun illərdir ki, bu ədalətsizliklə üzləşibdir. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Vətəndaşlarımız tarixi torpaqlarından didərgin salınmışdır və bu ədalətsizlik əfsuslar olsun ki, bu gün də davam edir. Amma mən tam əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Mən Dövlət Bayrağı Meydanının açılışı mərasimindəki çıxışımı bir daha xatırlatmaq istəyirəm, Azərbaycan bayrağı Dağlıq Qarabağda dalğalanacaqdır!

Bizim işimiz haqq işidir. Azərbaycan sülhsevər dövlətdir. Biz bütün ölkələrlə münasibətlərin qarşılıqlı hörmət əsasında qurulmasına çalışırıq, buna nail oluruq. Ölkədə gedən proseslər, bir daha demək istəyirəm ki, müsbət istiqamətdə davam edir. Bugünkü məclis özlüyündə gözəl bir göstəricidir. Azərbaycanda bütün xalqlar, bütün millətlərin, bütün dinlərin nümayəndələri, sözün əsl mənasında, dostluq, qardaşlıq şəraitində yaşayırlar. Mən şübhə etmirəm ki, bundan sonrakı dövrlərdə də bu gözəl ab-hava Azərbaycanda qalacaqdır. Milli münasibətlər, dinlərarası münasibətlər Azərbaycanda həmişə olduğu kimi, yüksək səviyyədə həll olunacaqdır.

Mən bu gözəl gündə öz dostuma – Şeyx həzrətlərinə bir daha müraciət etmək istəyirəm. Ona minnətdarlığımı bildirmək istəyirəm ki, Şeyx həzrətləri öz fəaliyyəti ilə Azərbaycanın haqq işinin dünya birliyinə çatdırılmasında mühüm işlər görür. Onun beynəlxalq səviyyədəki nüfuzu və ona olan hörmət Azərbaycanı gücləndirir. Şeyx həzrətlərinin təşəbbüsü ilə keçirilmiş gözəl beynəlxalq tədbirlər bunun əyani sübutudur. Həm dünya dini rəhbərləri, eyni zamanda, böyük dövlətlərin başçıları ilə görüşlərdə Şeyx həzrətləri haqqında xoş sözlər eşidəndə çox sevinirəm. Bu, ədalətli qiymətdir və mən çox şadam ki, nəinki Azərbaycanda, Azərbaycandan kənarda da Şeyx həzrətlərini tanıyırlar, ona hörmət edirlər, həm bizim bölgədə, həm Qafqaz bölgəsində, eyni zamanda, qonşuluqda və dünya miqyasında. Mən əziz dostum Şeyx həzrətlərinə gələcək fəaliyyətində uğurlar diləyirəm. Arzu edirəm ki, onun bütün arzuları həyatda öz əksini tapsın və mən bilirəm ki, onun ən böyük arzusu Azərbaycan torpaqlarının işğal altından çıxmasıdır, Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Bir daha əziz dostlar, bu gözəl gündə mən sizi ürəkdən salamlayıram. Qarşıdan Ramazan bayramı gəlir. Bu gözəl bayram ərəfəsində bütün Azərbaycan xalqına xoşbəxtlik, əmin-amanlıq, rifah arzulayıram. Sağ olun.

Şeyxülislam **Hacı Allahşükür Paşazadə** minnətdarlıq edərək dedi:

-Zati-aliləri, bütün Qafqaz müsəlmanları, Azərbaycan müsəlmanları adından mən Sizə minnətdaram. Siz bizə, işlərimizə çox böyük qiymət verdiniz. Biz inşallah gələcəkdə də Sizə xalqımız, cəmiyyətimiz, dinlər arasında dialoqun yaradılması, Azərbaycanın rifahı, Azərbaycan torpaqlarının bütövlüyü üçün əlimizdən gələn köməyi edəcəyik. Biz bütün işlərdə Sizə yardımçıyıq və bundan sonra da belə olacaqdır.

Allah-taala bütün dünyadan gedənlərə bu mübarək Ramazan ayında rəhmət eləsin. Bu gün mən mərhum dostum, qardaşım ulu öndərimiz Heydər Əliyevin, görkəmli alimimiz Zərifə xanımın ruhunu ehtiramla yad eləmək istəyirəm. O cümlədən dünyadan gedənlərin, Vətən uğrunda vuruşub şəhid olanların hamısına - Allah-taala rəhmət eləsin. Bizim ən müqəddəs sözümüz və axırıncı kəlamımız Quran olduğuna görə istərdim ki, bu kitabdan bir neçə ayə oxunsun, onların ruhları şad olsun. Ondan sonra Ramazan duası oxunacaq və iftar süfrəsi açılacaq, inşallah.

Sonra Qurani-Kərimdən ayələr və Ramazan duası oxundu, iftar süfrəsi açıldı.

Fəxri elmi adlar

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) fəxri doktoru

2004-cü il fevralın 7-də Rusiyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Rusiya Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) fəxri doktoru diplomu təqdim edilmişdir. Fəxri doktor diplomu Prezident İlham Əliyevə vaxtilə təhsil aldığı və dərs dediyi bu ali məktəbin professor-müəllim heyəti ilə görüşündə təqdim olunmuşdur.

Azərbaycanın dövlət başçısını bu mötəbər təhsil ocağının binası qarşısında rektor Anatoli Torkunov, müəllimlər və tələbələr böyük səmimiyyətlə qarşıladılar.

Görüşü MDBMİ(U)-nun rektoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü Anatoli Torkunov açdı.

MDBMİ (U)-nun rektoru,
Rusiya Elmlər Akademiyasının müxbir üzvü
Anatoli Torkunovun çıxışı

- Azərbaycan Respublikasının çox hörmətli Prezidenti İlham Heydər oğlu Əliyev!

Çox hörmətli Mehriban Arif qızı!

Hörmətli qonaqlar, əziz dostlar, həmkarlar!

Çox hörmətli cənab Prezident!

MDBMİ(U)-da və əmin olduğumuz kimi, peşəkarlıq və mənəvi cəhətdən, şəxsiyyət kimi formalaşmanızda rolu olmuş doğma universitetin divarları arasında Sizi səmimi qəlbdən salamlamağa şadıq. Bu gün, tələbə kimi auditoriyaya ayaq basdığınız ilk gündən 25 il keçəndən sonra Siz indi doğma universitetinizin qapısından tələbə ikən öyrəndiyiniz dünya siyasi elitasının parlaq nümayəndəsi kimi daxil olursunuz. Əminik ki, Sizin sürətlə artmaqda olan bilik və təcrübəniz Azərbaycanın tərəqqisinə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluğun və əməkdaşlığın, habelə sülhün və beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə kömək edəcəkdir. Universitetimizdən pərvazlananlar arasında həyatda öz layiqli yerini tutmuş, insanların, korporasiyaların, hökumətlərin taleyi etibar edilmiş, beynəlxalq problemlərin həllinin onlardan asılı olduğu xeyli məzun vardır. Bununla belə, hakimiyyətin və məsuliyyətin ən uca zirvəsinə belə sürətlə və belə layiqli yüksəlişin şahidi olmaq bizə az-az nəsib olur. Bunu dərk etmək xüsusilə xoşdur ki, Azərbaycan Respublikasının Prezidenti həyatının MDBMİ(U)-da keçən, təkcə universitetimizin iki diplomuna layiq görülmüş hissəsi barədə səmimi, həsrətli xatirələrini indiyədək davam edən şəxsi, qeyri-formal, mehriban əlaqələri və münasibətləri ilə də qoruyub saxlayır. Biz bir də onunla fəxr edirik ki, indi də Moskvaya gələndə Sizin üçün doğma olan mədəniyyət və dil mühitinin, dostlarınızın, Sizi xatırlayan və sevənlərin hamısının əhatəsində olursunuz.

Bu həm Sizin, həm də bizim xidmətimizdir. Universitetimizin Elmi Şurasının tapşırığını yerinə yetirərək, Sizə MDBMİ(U)-nun fəxri doktoru adının verilməsi haqqında qərarını elan etməkdən xüsusi məmnunluq duyuram. Bu ada layiq görülmüş parlaq şəxsiyyətlər sırasına Sizin simanızda daha bir layiqli insan da əlavə olunur. Şübhə etmirik ki, MDBMİ(U)-nun sadiq olduğu yüksək humanist məqsədlər Sizin həyat fəlsəfənizlə, mənəvi ideallarınızla həmahəngdir.

Bu gün Sizə təqdim etdiyimiz diplom bizim belə bir inamımızın rəmzidir ki, bu ahəngdarlıq XXI əsrdə Azərbaycan-Rusiya münasibətlərində də öz əksini tapacaqdır. Bu münasibətlərin

səviyyəsi, məzmunu, rəngarəngliyi bizim üçün son dərəcə vacibdir. Coğrafi, tarixi baxımdan bizə yaxın olan və mədəni cəhətdən böyük sürətlə inkişaf edən Azərbaycan Rusiyanın ümumi beynəlxalq siyasətində əzəldən öncül mövqe tutur. Belə güman etməyə əsasımız vardır ki, Sizin Prezident vəzifəsinə başlamağınızla həmin ənənə daha da möhkəmlənəcəkdir. Sizə deyə bilərəm ki, Moskvada apardığınız danışıqlar, Vladimir Vladimiroviç Putinlə imzaladığınız sənədlər münasibətlərimizin gələcək inkişafı, dövlətlərimizin əməkdaşlığının möhkəmlənməsi və dünən Kremldə Sizin də, Vladimir Vladimiroviç Putinin də qeyd etdiyi kimi, Azərbaycan və Rusiya vətəndaşlarının bir-birinə daha da yaxınlaşması üçün çox böyük əhəmiyyətə malikdir.

MDBMİ(U)-nun arxivlərində 16 yaşlı İlham Əliyevin qəbul imtahanları zamanı rus ədəbiyyatından yazdığı inşa yazısı durur. Bu yazıda Aleksandr Sergeyeviç Puşkinin Onegini yetişdirmiş cəmiyyətdə "sabah da dünənki kimidir" sözləri sitat gətirilir. Nə bilmək olar, bəlkə bu ibarə sabahın dünənkindən də yaxşı olması üçün zəhmət çəkəcək, qüvvəsini, istedadını, ilhamını əsirgəməyən işləyəcək gələcək Azərbaycan Prezidentinin alın yazısı idi. Atanız və müəlliminiz, qeyri-adi dərəcədə müdrik və uzaqgörən görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyev bütün parlaq, şərəfli həyatını məhz buna - insanlara, böyük ideyalara fədakarlıqla xidmətə həsr etmişdir. Onun çox zəngin tərcümeyi-halı, nəhəng şəxsiyyəti, danılmaz nüfuzu özü-özlüyündə hər bir varis üçün böyük vəsiyyət və çağırışdır. Sizin bəxtinizə təkcə keçmişin nailiyyətlərinin və dərslərinin deyil, həm də Heydər Əlirza oğlunun ölkəniz üçün nəzərdə tutduğu gələcəyin də varisi olmaq düşmüşdür. Biz fəxr edirik ki, Heydər Əlirza oğlu universitetimizin Fəxri doktoru idi və biz iki il bundan əvvəl universitetimizdə bu böyük şəxsiyyətlə görüşmək, onun parlaq nitqini dinləmək şərəfinə nail olmuşduq.

İcazə verin, Sizi əmin edim ki, MDBMİ(U)-nun Fəxri doktoru bu xeyirxah və nəcib işdə bu gün müvafiq şəhadətnaməni ona təqdim edən müttəfiqlərinin, dostlarının sədaqətinə həmişə ümid bəsləyə bilər. Bununla da, biz ağır hakimiyyət yükünü öz çiyinlərinə götürmüş və bu hakimiyyətdən sülh, xoşbəxtlik və xeyirxahlıq naminə istifadə etməyə hazır olan bir siyasətçiyə, insana və onun siyasətinə səmimi rəğbət hisslərimizi ifadə edirik.

Universitetimizin Nizamnaməsinə uyğun olaraq, MDBMİ(U)-nun Fəxri doktoru dərəcəsi verilməsinin dəqiq müəyyən edilmiş qaydası mövcuddur. Statusa uyğun olaraq, bu dərəcə beynəlxalq münasibətlərin inkişafına, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, müxtəlif xalqlar və ölkələr arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə, mədəniyyətin və iqtisadiyyatın inkişafına böyük töhfəsi olan görkəmli siyasi və ictimai xadimlərə, xarici ölkələrin alimlərinə verilir. Çox hörmətli cənab Prezident, Sizə və bu salonda oturanlara böyük məmnuniyyət hissi ilə bildirirəm ki, Elmi Şura universitetin Nizamnaməsini rəhbər tutaraq və öz səlahiyyətlərimə uyğun olaraq, dünyada qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, ölkələrimiz arasında münasibətlərin inkişafına, təhsilin, mədəniyyətin və iqtisadiyyatın inkişafına töhfənizə görə 2003-cü il dekabrın 9-da Sizə MDBMİ(U)-nun Fəxri doktoru adının verilməsi barədə yekdilliklə qərar qəbul etmişdir.

Mən Şuranın iradəsini yerinə yetirərək, bu adın rəmzlərini - MDBMİ(U)-nun fəxri doktoru diplomunu, medalını və mantiyasını Sizə təqdim etmək istəyirəm.

Mövcud prosedura uyğun olaraq, mərasimin rəsmi hissəsi başa çatır və mən sözü fəxri doktora verirəm. Lakin bu gün bizim öz sürprizimiz var. Bu gün biz, ilk dəfə olaraq, Məzunlar Assosiasiyası adından MDBMİ(U)-un Məzunları Assosiasiyasının fəxri üzvü diplomunu İlham Heydər oğlu Əliyevə təqdim edirik. Özü də bu diplomda belə yazılmışdır: "seriya – dövlət başçısı, nömrə - nömrə 1".

Əminik ki, dövlət başçısı nümunəvi tələbə olmuşdur. Biz bu gün böyük məmnuniyyətlə içərisində qiymət kitabçanız və attestatınız olan mücrünü də Sizə təqdim edirik. Qiymət kitabçanızda ancaq beş və dörddür, attestatınızda isə bütün qiymətləriniz beşdir, bir dənə də dördünüz yoxdur. Mənə Sizin tələbə biletinizin də təqdim olunmasını təklif edirdilər. Lakin bu bilet muzeydə saxlanacaqdır. Ancaq Sizə göstərə bilərəm.

Universitetin rektoru Anatoli Torkunov görüş iştirakçılarının gurultulu alqışları altında MDBMİ(U)-nun fəxri doktoru diplomunu, mantiyanı, medalı və içərisində qiymət kitabçası və attestat olan mücrünü Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə söz verildi.

Azərbaycan Prezidenti
İlham Əliyevin çıxışı

- Hörmətli Anatoli Vasilyeviç!

Əziz dostlar!

İcazə verin, ilk növbədə, mənə belə yüksək ad verilməsinə görə sizə təşəkkürümü bildirim. Mən çox gözəl bilirəm ki, bu ada iqtisa-

diyyatın inkişafına böyük töhfə vermiş, siyasi proseslərdə fəal iştirak edən çox məşhur adamlar, böyük təcrübəyə və nailiyyətlərinin böyük tarixi olan insanlar layiq görülürlər.

Mən yeni seçilmiş Prezidentəm. Təbii ki, bütün bu rütbələri və fəxri adları gələcək fəaliyyətim üçün avans kimi qəbul edirəm. Əziz dostlar, sizi əmin edə bilərəm ki, Azərbaycan Prezidenti kimi bütün fəaliyyətimlə doğma institutumuzu layiqincə təmsil etməyə, MDBMİ-nin məzunu adına layiq olmağa çalışacağam və ümidvaram, hətta əminəm ki, bu institutda aldığım biliklər, qazandığım təcrübə, tapdığım dostlar, bir sözlə, burada əldə etdiklərimin hamısı mənim bu fəaliyyətimdə çox mühüm rol oynayacaqdır. Bu gün burada olmaq mənim üçün çox xoşdur. MDBMİ-nin binasına yaxınlaşdıqda məni həyəcanlı hisslər bürüdü. Axı, ömrümün xeyli hissəsi burada keçmişdir. MDBMİ-də təhsil də, aspiranturada təhsil də, sonra universitetdə işləmək də ömrümün o çağlarına daxildir. Bu müddət ərzində mən burada nəinki biliklərə yiyələndim, dünyagörüşümü genişləndirdim, həm də və ən başlıcası, çox etibarlı, sadiq dostlar tapdım. Mən təhsilimi bitirdikdən, MDBMİ-də işdən getdikdən sonra da onlarla uzun müddət ərzində əlaqə saxlayıram. Ümidvaram ki, əlaqələrimiz gələcəkdə də davam edəcəkdir. Mən buna əminəm. Bu gün mən bu salonda çox tanışlarımı və mənə əziz olan simaları görürəm. Çox ümid edirəm ki, mərasim başa çatdıqdan sonra biz görüşüb söhbət edəcəyik. Fürsətdən istifadə edib, bütün dostlarımı, - onlar kimləri nəzərdə tutduğumu bilirlər, - Azərbaycana gəlməyə, qonağımız olmağa dəvət etmək istərdim. Düşünürəm ki, bu, dostluğumuzun yaxşı davamı olardı.

Bu gün mən, Azərbaycan Prezidenti kimi, Rusiyaya rəsmi səfərimi başa çatdırdım. Bu, ilk rəsmi səfər idi və ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün böyük əhəmiyyəti var.

Sovet İttifaqı dağıldıqdan sonra, müstəqil dövlət olaraq, Azərbaycan çox çətinliklərə məruz qaldı, çox mürəkkəb problemlərlə - iqtisadi və siyasi böhranla, cəmiyyətdə xaos və anarxiya, müharibənin nəticələri, vətəndaş müharibəsi ilə qarşılaşdı. Bütün bunları aradan qaldırmaq üçün Azərbaycan rəhbərliyindən, ilk növbədə Prezident Heydər Əliyevdən çox böyük, titanik səylər göstərmək tələb olunurdu. 1993-1996-cı illər dövründə ölkə daim gərgin vəziyyətdə idi – daxili problemlər, sosial məsələlərin həll edilməmiş qalması, Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal olunması. Əlbəttə ki, bütün bunlar vətəndaşlarımızın vəziyyətini ağırlaşdırırdı. Lakin siyasi, iqtisadi və sosial sahələrdə qətiyyətlə islahatlar aparılması sayəsində 1996-1997-ci illərdən başlayaraq, ölkə iqtisadi inkişafın bir çox göstəricilərində nəzərəçarpacaq dərəcədə irəlilədi. 1996-cı ildən iqtisadiyyatımızın artım sürəti ildə orta hesabla 10 faiz təşkil edir, inflyasiyanın səviyyəsi isə 2 faizdən yuxarı deyildir.

Azərbaycan regional layihələrin fəal iştirakçısıdır. Azərbaycan iqtisadiyyatına çox böyük məbləğdə xarici sərmayələr qoyulmuşdur və bu göstəricidə ölkəmiz MDB dövlətləri arasında liderdir. Gələcək üçün çox yaxşı perspektivlərimiz var. Biz həyata keçirilən regional layihələrə böyük əhəmiyyət veririk. İndi Azərbaycanda, ekspertlərin rəyincə, dünyada ən möhtəşəm energetika layihələri çox uğurla həyata keçirilir.

Bütün nailiyyətlərimiz, planlarımız ancaq bir şeyə - Azərbaycan vətəndaşlarına daha layiqli həyat yaratmağa, sosial problemləri, qaçqınların və məcburi köçkünlərin məsələlərini həll etməyə yönəldilmişdir. Bununla da ölkə möhkəmlənmiş olar.

Belə siyasət çərçivəsində Azərbaycanın öz qonşuları ilə münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Ölkələrimiz – Rusiya ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişaf etməsini müşahidə etmək bu gün bizim üçün çox xoş və sevindiricidir. Bəli, ölkələrimizin münasibətləri tarixində mürəkkəb, bəzən də dramatik dövrlər olubdur. Xoşbəxtlikdən, bunların hamısı keçmişdə qalmışdır. Azərbaycan və Rusiya Prezidentlərinin – Heydər Əliyevin və Vladimir Putinin siyasi iradəsi, müdrikliyi və uzaqgörənliyi sayəsində qarşılıqlı anlaşmanın, qarşılıqlı hörmət və etimadın belə yüksək səviyyəsinə nail olmuşuq və indi ikitərəfli əməkdaşlıqda uğurları, əsasən, bu müəyyənləşdirir.

İndiki səfər bir daha aydın göstərdi ki, ölkələrimiz arasında heç bir həll edilməmiş problem yoxdur. Mürəkkəb və həllolunmaz görünən problemlər həll edilmişdir. Bu sıraya Xəzər regionuna, hərbi-texniki əməkdaşlığa dair məsələləri, iqtisadi xarakterli məsələləri də aid etmək olar. Ona görə də biz gələcəyə böyük nikbinliklə baxırıq.

Uğurlarımızı təsdiqləyən bir neçə konkret misal çəkə bilərəm. Bu uğurlar Xəzər dənizinin statusu ilə əlaqədar Rusiya ilə Azərbaycan arasında siyasi qarşılıqlı anlaşma və qarşılıqlı əməkdaşlıq ruhu sayəsində mümkün olmuşdur. Bu məsələ barəsində 1990-cı illərdə, daha dəqiq desək, 1994-1996-cı illərdə ziddiyyətlər, fikir ayrılıqları vardı, beynəlxalq hüquq normaları müxtəlif cür yozulurdu. Lakin tərəflərin səyləri ilə, qarşılıqlı fayda və qarşılıqlı anlaşma zəminində bu məsələ həllini tapdı və indi Rusiya ilə Azərbaycan arasında milli sektorlarımızı müəyyənləşdirən müvafiq saziş imzalanmışdır. Bu sənəd Rusiyanın da, Azərbaycanın da mənafelərinə tam uyğundur.

Regional təhlükəsizliyin təmin edilməsində son dərəcə mühüm rol oynayan Qəbələ radiolokasiya stansiyasının statusu barədə məsələnin həll olunmaması, ümumiyyətlə, əməkdaşlığımızın yolunda çəkindirici amil olan mühüm məsələ idi. Bu məsələ də həllini tapdı və Rusiya ilə Azərbaycan arasında müvafiq saziş imzalandı.

İndi Azərbaycan nefti Rusiyanın Novorossiysk limanına nəql edilir. Ölkəmizə Rusiya ərazisindən qaz və elektrik enerjisi göndərilir. Ölkələrimiz arasında əmtəə bölgəsi xeyli artmışdır. Əmtəə dövriyyəsi 2002-ci ildə 70 faiz, ötən il isə 40 faiz çoxalmışdır. Bu gün iki ölkə arasında əmtəə dövriyyəsi təxminən yarım milyard dollar təşkil edir. Bizim vəzifəmiz bunu iki dəfə artırmaqdır. Bunun üçün potensial mövcuddur, çünki ölkələrimiz iqtisadi cəhətdən uğurla inkişaf edir. Arzu və istək də var, siyasi münasibətlər elə yüksək səviyyədədir ki, bu məqsədlərin həyata keçirilməsi üçün yaxşı zəmin yaradır.

Humanitar sahədə əməkdaşlıq həmişə, hətta iqtisadi əməkdaşlığın yenicə başlandığı dövrlərdə də yüksək səviyyədə olmuşdur. Biz rus mədəniyyətinə, rus dilinə çox böyük əhəmiyyət verir və çox qayğı ilə yanaşırıq. Biz bu ənənəni qayğı ilə qoruyub saxlayırıq.

Sizə deyim ki, indi Azərbaycanda 400-dən çox məktəbdə təhsil rus dilində aparılır. Müstəqillik illərində onlardan heç biri bağlanmamışdır. 21 dövlət ali məktəbindən 20-də təhsil həm də rus dilində aparılır. Bizdə bu baxımdan heç bir məhdudiyyət yoxdur və Azərbaycanda yerli rusdilli mətbuat da çox fəal inkişaf edir.

Sovet İttifaqının dağıldığı vaxtdan bəri Azərbaycanda rus dilində qəzetlərin sayı azalmamış, əksinə, artmışdır. Ümumdünya Rus Mətbuatı Konqresinin ötən ilin sentyabrında məhz Bakıda keçirilməsi faktı daha əyani şəkildə sübut edir ki, bu sahədə çox yaxşı ənənələrimiz var.

Biz ikitərəfli münasibətlərimizi ənənələrimiz, çoxdankı dostluq əlaqələrimiz və əlbəttə ki, qarşılıqlı fayda əsasında qururuq. İndi bütün sahələrdə əməkdaşlıq Rusiyaya da, Azərbaycana da sərfəlidir. Qeyd etdiyim kimi, ikitərəfli əməkdaşlıq məsələlərində bizim aramızda tam qarşılıqlı anlaşma var. Regional siyasət məsələlərində çox fəal qarşılıqlı anlaşma var, beynəlxalq siyasətin bir çox məsələlərində baxışlarımız uyğun gəlir.

Regional layihələr, regional əməkdaşlıq baxımından biz çox istərdik ki, Rusiya bu istiqamətdə aparıcı rolunu davam etdirsin. Biz böyük ümid bəsləyirik ki, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi, Rusiya Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Ermənistanla Azərbaycan arasındakı münaqişənin nizama salınmasında bundan sonra da fəal iştirak edəcəkdir. Bu münaqişə bütün regionda çox böyük təhlükə və gərginlik mənbəyidir. Ona görə də Azərbaycan bu münaqişənin dincliklə nizama salınmasına tərəfdar olduğunu dəfələrlə bəyan etmişdir. Təbii ki, bu nizamasalma beynəlxalq hüququn prinsip və normalarına əsaslanmalıdır. Günün reallığı belədir ki, Azərbaycan ərazisi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır. Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və onun hüdudlarından kənarda olan digər yeddi rayonu 10 ildən çoxdur işğal altındadır. Ölkəmizin ərazisinin bir hissəsinin işğal edilməsi nəticəsində 1 milyon insan öz ev-eşiyini itirmişdir. Təəssüf ki, Azərbaycan əhalinin sayı ilə nisbətdə qaçqın-köçkünlərin sayına görə dünyada birinci yeri tutur – 8 milyon əhalinin bir milyonu qaçqın və məcburi köçkündür. Əlbəttə ki, beynəlxalq birlik bu məsələyə münasibətini dəfələrlə bildirmişdir, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul olunmuşdur. Bu sənədlərdə erməni işğalçı qüvvələrinin ərazimizdən dərhal çıxarılması tələb edilir. Avropa Şurası çərçivəsində də müvafiq sənədlər qəbul olunmuşdur və bu faktlar burada da öz əksini tapır.

ATƏT-in Minsk qrupu həmsədrlərinin bəyanatları var və bu bəyanatlarda ərazilərimizin işğal edilməsi məsələləri öz əksini aydın şəkildə tapmışdır. Təəssüf ki, bu amillərin heç biri hələ də münaqişənin nizama salınmasına gətirib çıxarmamışdır. Ölkəmizə qarşı təcavüzkar siyasət davam edir. Biz münaqişənin sülh yolu ilə həll olunmasını istəyirik. Lakin biz, eyni zamanda, ərazilərimizin işğal altında qalması faktı ilə də razılaşa bilmərik. Ümid edirəm ki, beynəlxalq birliyin, Rusiya, Fransa və ABŞ-ın həmsədrlər olduğu ATƏT-in Minsk qrupunun səyləri ilə münaqişənin beynəlxalq hüquq normaları əsasında ədalətli həlli yolları tapılacaqdır.

Bu məsələdə birtərəfli görünməmək üçün əks tərəfin dəlillərini nəzərinizə çatdıra bilərəm. Onlar isə bundan ibarətdir ki, guya Dağlıq Qarabağın erməni əhalisi öz müqəddəratını təyinetmə hüququna malikdir. Lakin MDBMİ-nin divarları arasında, yəqin, məni başa düşmək sizə asan olar ki, millətlərin öz müqəddəratını təyinetmə hüququ danılmazdır. Amma millət öz müqəddəratını yalnız bir dəfə təyin edə bilər. Bu isə, Ermənistan dövləti çərçivəsində baş vermişdir və bu dövlətin vətəndaşları artıq öz müqəddəratını təyin etmişlər. Əks tərəfin, məntiqə əsaslansaq, öz müqəddəratını təyinetmə prinsipi sonsuzluğadək davam edə bilər.

Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları mövcuddur və bu normalara görə hər bir dövlətin ərazi bütövlüyü toxunulmazdır. Biz bu ərazi bütövlüyünə hörmətlə yanaşırıq və əl-

bəttə, özümüzə qarşı da eyni münasibət gözləyirik. Yenə də təkrar edirəm, biz ümidvarıq ki, sülh prosesi fəallaşacaq və problemin həlli tapılacaqdır.

Əngəl törədən bu çox ağrılı, faciəli amilə baxmayaraq, Azərbaycan bütün bu illər ərzində uğurla inkişaf etmişdir. İndi bizim böyük iqtisadi inkişaf perspektivlərimiz vardır, bu da, ilk növbədə, enerji potensialımızdan tam miqyasda istifadə edilməsi ilə əlaqədardır. Biz Rusiya ilə fəal əməkdaşlıq edirik və işlək Bakı-Novorossiysk boru kəməri bir daha sübut edir ki, bizim niyyətlərimiz bu istiqamətdə əməkdaşlığın fəallaşdırılması ilə bağlıdır.

Xəzər dənizi regionu təbii ehtiyatlarla zəngindir. Əlbəttə, bu ehtiyatları dünya bazarlarına çıxarmaq üçün kommunikasiyalar lazımdır. Belə kommunikasiyalar vardır və biz bu imkanların artırılmasını istəyirik.

Biz regionda gedən proseslərin də fəal iştirakçısıyıq. Bu gün inamla demək olar ki, Azərbaycanın regional miqyasda münasibətləri çox müsbət şəkildə təşəkkül tapır. Biz Böyük İpək Yolu, Şərq-Qərb layihələrinin fəal iştirakçısıyıq, eyni dərəcədə cəlbedici olan Şimal-Cənub layihəsinə də Rusiyanın yaxından dəstəyi ilə fəal surətdə qoşulmaq niyyətindəyik. Biz bu dəstəyi dünən keçirilən görüşlər zamanı aldıq. Başqa sözlə desək, irimiqyaslı regional layihələr ölkəmizin iştirakı ilə həyata keçirilir və bu, dünya miqyasında mövqeyimizi möhkəmləndirir.

Biz beynəlxalq təşkilatların fəaliyyətində də yaxından iştirak edirik. Məmnunluqla deyə bilərəm ki, biz bu təşkilatlarda Rusiya nümayəndələri ilə çox fəal, səmərəli və səmimi əməkdaşlıq edirik. Üç il ərzində mən Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinə başçılıq etmişəm. Bu proseslərin iştirakçısı kimi deyə bilərəm ki, Rusiya və Azərbaycan nümayəndə heyətlərinin ATƏT çərçivəsində qarşılıqlı dəstəyi çox mühüm rol oynamışdır. Elə bir məsələ olmurdu ki, nümayəndə heyətlərimiz birgə mövqedən çıxış etməsinlər. Bizi əsassız olaraq tənqid etməyə cəhd göstərildikdə həmişə bir-birimizi dəstəkləyirdik. Bu ənənə indi də davam edir. Çox sevindirici haldır ki, nümayəndə heyətlərimiz fəal əməkdaşlıq edirlər. Bu, bizim üçün də, digər təşkilatların üzvləri üçün də vacibdir. Çünki onlar bizim həmrəyliyimizi, fəal əməkdaşlıq etdiyimizi görürlər. Bu, digər tərəflər üçün də çox yaxşı işarədir. Belə əməkdaşlıq davam etdiriləcəkdir.

Prezident Heydər Əliyev azad Azərbaycanın siyasətini tam müstəqil surətdə aparırdı. Bu siyasət ölkələrimizin ehtiyaclarını tam dolğunluğu ilə əks etdirirdi və etdirir. Heydər Əliyevin siyasi təcrübəsini və dünyada nüfuzunu nəzərə alsaq, ona manevr etmək, hansısa başqa yollar axtarmaq lazım deyildir. Onun bütün işləri səmimi idi, bu işlərdə özünün haqlı olduğuna inam vardı. O cümlədən, ilk növbədə, ikitərəfli münasibətlərimizin çərçivəsində görülən işlərdə. Rusiya ilə strateji tərəfdaşlığa yönəldilmiş xətt aşkar boyan edildikdə, Azərbaycan xalqı bunu bəyəndi. İndi biz bu strateji tərəfdaşlığın real, əməli bəhrələrini görürük. Bu münasibətlər indiki səfər çərçivəsində də təsdiqləndi. Əminəm ki, bu tərəfdaşlıq bütün istiqamətlərdə davam etdiriləcəkdir.

İki Prezident arasındakı belə yaxşı qarşılıqlı anlaşmadan, mehriban və səmərəli şəxsi əlaqələrdən bütün istiqamətlərdə əməkdaşlığımızı genişləndirmək üçün istifadə etməmək insafsızlıq olardı. Öz tərəfimdən sizə deyə bilərəm ki, biz bu siyasəti həyata keçirəcəyik və Rusiyanın da buna eyni münasibət göstərdiyini və mövqelərimizin oxşarlığını görmək mənim üçün çox xoş idi.

Dünən və bu gün mən Rusiya Federasiyasının, demək olar ki, bütün rəhbərləri ilə görüşdüm. Çox mehriban, səmimi və qonaqpərvər qəbulla yanaşı, - buna görə mən çox minnətdaram, - bizim hamımız belə bir yekdil fikrə gəldik ki, münasibətlərimiz qonşular arasında münasibətlərə, eləcə də böyük və kiçik dövlətlər arasındakı münasibətlərə örnək ola bilər. Bu, çox mühümdür, ərazisinə və əhalisinin sayına görə kiçik olan dövlətlərin bəzən mürəkkəb vəziyyətə düşdüyü bugünkü dəyişən dünyada xüsusilə əhəmiyyətlidir. İndiki halda dövlətlərimiz arasında bərabərhüquqlu münasibətlərin qurulması çox vacibdir. Hesab edirəm ki, burada çox dərin məna və Rusiya rəhbərliyinin çox dəqiq siyasəti özünü büruzə verir. Yalnız hüquq bərabərliyi, qarşılıqlı hörmət əsasında ikitərəfli münasibətlərdə əsl dialoq qurmaq mümkündür. Hazırda bu, baş verir.

Münasibətlərimizin nümunəviliyi, - bu isə gəlişi gözəl sözlər deyil, - reallıqdır. Biz məmnuniyyətlə bildiririk ki, bu gün aramızda fikir ayrılığı doğuran məsələlər yoxdur. Aramızda problem mövcud deyildir. Mən bunu dəfələrlə demişəm, bizim yalnız bir problemimiz vardır – necə edək ki, münasibətlərimiz daha da inkişaf etsin, daha böyük məna kəsb etsin, daha da genişlənsin. Mən əminəm ki, bu, belə də olacaqdır. Bunun üçün yaxşı zəmin vardır.

Müstəqil Azərbaycanın Prezidenti kimi mən dövlətimin mənafelərinə əsaslanan siyasət yeridəcəyəm. Mən məmnunluqla deyə bilərəm ki, bu mənafelər Rusiya ilə ikitərəfli münasibətlərin inkişafı mənafeləri ilə üst-üstə düşür. Bu, bizim üçün çox vacibdir.

Biz bunu çox qiymətləndiririk və düşünürəm ki, gələcəkdə hər iki ölkə bu əlaqələrin daha da dərinləşməsi üçün öz səylərini əsirgəməyəcəkdir.

Dediyim kimi, bu gün çox həyəcanlı gündür. Mən burada olmağımdan qarışıq hisslər keçirirəm. Həyatımın təxminən 15 ilini MDBMİ-də keçirmişəm. Özü də bu illər həyatımın ən yaxşı çağları – tələbəlik illəri, gənclik illəri idi. Bu illərin ən yaxşı illər olduğunu onlar arxada qaldıqdan sonra başa düşürsən. O vaxtlar adama elə gəlirdi ki, həmişə belə olacaqdır. Odur ki, mən o illəri xüsusi səmimiyyətlə xatırlayıram və mənə dərs deyənlərin, mənimlə oxuyanların hamısı, bütün professor-müəllim heyəti yadımdadır. Mən Bakıdan gələndə, - Anatoli Vasilyeviç dedi ki, 16 yaşım vardı, - lakin onda, instituta qəbul olanda cəmi 15 yaşında idim, 16 yaşım iki aydan sonra tamam oldu. Təbii ki, atamın o vaxt da Azərbaycana başçılıq etdiyini nəzərə alaraq, Bakıdan, məktəbdən gəlib tamam başqa bir mühitə düşdükdə, çox tezliklə dərk etdim ki, düzgün seçim edilmişdir. Moskvada, MDBMİ-də təhsil almaq həyat məktəbi idi. Mən burada özümə dostlar, tanışlar tapdım. Artıq 25 ildən çox tarixi olan bu əlaqələr indiyədək mövcuddur. Əlbəttə, bütün bu amilləri nəzərə alaraq, dünən də, bu gün də maşında gedərkən və hər bir tanış evi görərkən Moskvada keçirdiyim illəri xatırlayırdım. Bu illər heç zaman unudulmayacaq, hafizədən silinməyəcək, xüsusən ona görə ki, məni çox səmimi insanlar əhatə edirdilər. Mən instituta, dostlarıma, müəllimlərimə, həmkarlarıma çox minnətdaram ki, ailəmiz üçün hətta ən ağır vaxtlarda, 1980-ci illərin axırlarında da heç bir soyuq münasibət hiss etmirdim. Əksinə, atamın siyasi karyerası ilə bağlı vəziyyət nə qədər ağırlaşırdısa, bu salonda gördüyüm həmkarlarım və dostlarım tərəfindən bir o qədər böyük qayğı və diqqət duyurdum. Bu hissləri heç vaxt unutmaq olmaz, onlar həmişə insanın qəlbində qalır. Bu imkandan istifadə edərək, tələbə olduğum 1977-ci ildən 1982-ci ilədək və sonralar aspiranturada oxuduğum illərdə mənə təhsil verənlərə təşəkkür etmək istərdim. Yeri gəlmişkən, biz Anatoli Vasilyeviçlə bir kafedrada işləyirdik. Eşitdim və mənə bildirdilər ki, demə, mən MDBMİ-nin Prezident seçilən ilk məzunuyam. Əlbəttə, bu, mənim üçün çox xoşdur. MDBMİ-dəki ənənələri və təhsilin səviyyəsini nəzərə alaraq, əmin olduğumu bildirmək istəyirəm ki, bizim hələ çox həmkarlarımız öz ölkələrinə, xalqlarına xidmət edəcəklər və təbii ki, onlardan heç kim burada keçirdiyi illəri unutmayacaqdır.

Mən sizin hamınıza bir daha təşəkkür edirəm. Fürsətdən istifadə edərək, burada rastlaşdığım dostlarımı Azərbaycana gəlməyə, qonağım olmağa dəvət edirəm, qoy, bu əlaqələr heç vaxt qırılmasın. Söz verirəm, Moskvaya gələndə buraya mütləq gələcəyəm, amma öz tərəfimdən, mən də sizi Azərbaycanda görmək istərdim.

Mənə göstərdiyiniz səmimiyyətə, qonaqpərvərliyə, xoş münasibətə görə bir daha təşəkkürümü bildirirəm. Sizi əmin edə bilərəm ki, bu mantiyanı və bu adı bütün ömrüm boyu şərəflə daşıyacağam.

MDBMİ(U)-nun rektoru **Anatoli Torkunov** Azərbaycanın dövlət başçısına müraciətlə dedi:

- Əziz və çox hörmətli Prezident!

Əziz İlham, zənnimcə, parlaq və çox maraqlı, mühüm çıxışınıza görə çox sağ olun. Siz elə mühüm, ciddi məsələlərə toxundunuz ki, bizi mütəəssir etdiniz. Sizin keçmiş, xalqlarımız arasındakı qarşılıqlı anlaşma, dostluq barədə sözləriniz xüsusilə maraqlı idi. Çünki məhz bunlar dövlətlər arasında münasibətlərin, bütövlükdə beynəlxalq münasibətlərin əsasıdır. Deməliyəm ki, bu gün aldığınız diplomun praktik dəyəri vardır. 100 ildən sonra mühüm dövlət işlərindən uzaqlaşdıqda əmin ola bilərsiniz ki, burada professor karyeranızı tapacaqsınız.

Azərbaycan Prezidenti İlham Əliyev MDBMİ(U)-nun professor-müəllim heyəti ilə görüşdən sonra keçmiş həmkarları və dostları ilə mehribancasına və səmimi görüşüb söhbət etdi.

Lev Qumilyov adına Qazaxıstan Dövlət Avrasiya Universitetin fəxri professoru və "Qızıl döyüşçü" medalı

2004-cü il martın 1-də Qazaxıstanda dövlət səfərində olan Azərbaycan Respublşikasının Prezidenti İlham Əliyevə Lev Qumilyov adına Qazaxıstan Dövlət Avrasiya Universitetinin fəxri professoru adı verilmişdir.

Dövlət başçısını universitetin binası önündə bu ali məktəbin rəhbərləri səmimiyyətlə və mehribanlıqla qarşıladılar.

Prezident İlham Əliyev universitetdə türkdilli xalqların mədəniyyəti və əlyazmaları muzeyi ilə ətraflı tanış oldu. Azərbaycan Prezidentinə məlumat verildi ki, muzeydə mədəniyyət nümunələri, o cümlədən əlyazmaları, Qədim Türk Xaqanlığının abidələri toplanmışdır. Muzeyin eksponatları bu mədəniyyət ocağına gələn bir çox dövlətlərin rəhbərlərində böyük maraq doğurur. Belə bir məlumat da verildi ki, Xaqanlığın banilərinin abidəsinin üçüncü nüsxəsini Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə Yaponiya heykəltəraşları yaratmışlar. Bu muzeydə XI əsrin məşhur filoloq-türkoloqu Mahmud Qaşqarinin "Divani-lüğət-it-türk", orta əsrin filosof şairi Yunus Balasaqunlunun əsərləri, habelə müxtəlif dövr əlifbalarının ilkin variantları saxlanılır.

Azərbaycan dövlətinin başçısı bu maraqlı muzeylə tanışlıqdan məmnunluğunu bildirərək qeyd etdi ki, bu qədim ərazilər türk tayfalarının ilk yurdları olmuşdur.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin bu ali məktəbin müəllim və tələbələri ilə görüşü oldu.

Görüşü universitetin rektoru **Sarsenqali Abdımanapov** açdı:

- Hörmətli İlham Heydər oğlu!

Axşamınız xeyir, əziz qonaqlar!

Avrasiya milli universitetinin kollektivi adından Azərbaycan Respublikasının Prezidentini bu tarixi salonda salamlayıram. Burada bir çox dövlət xadimləri və ictimai xadimlər çıxış etmişlər. Biz çox şadıq ki, bu gün qonağımız Sizsiniz - dost və qardaş Azərbaycanın Prezidenti İlham Heydər oğludur. Xoş gəlmisiniz!

Hörmətli İlham Heydər oğlu, Siz universitetlə qısa tanış oldunuz və artıq bilirsiniz ki, Avrasiya Universiteti Qazaxıstan elitasının yeni nəslini hazırlamaq üçün Prezident Nursultan Nazarbayevin fərmanı ilə yaradılmışdır. Universitetimiz bu gün aparıcı ali məktəbdir və burada ölkənin müxtəlif regionlarından istedadlı gənclər təhsil alırlar. Qazaxıstan məktəblərini qızıl medalla bitirənlərin dörddə bir hissəsi Avrasiya Universitetinin tələbəsi olmuşdur. Kollektivimiz bununla fəxr edir. Universitetin fəaliyyətinin əsasını elə əvvəldən Avrasiya ideyası, inteqrasiya ideyası təşkil etmişdir. Prezident universitetimizə Avrasiyanı öyrənən görkəmli alim, tarixçi-türkoloq Lev Nikolayeviç Qumilyovun adını vermişdir. Bu il universitetin 8 yaşı tamam olur. İndi olduğumuz korpus 2000-ci ildə ölkə Prezidentinin iştirakı ilə açılmışdır. Bir il bundan əvvəl yenə də Prezident Nazarbayevin iştirakı ilə daha bir müasir tədris və laboratoriya korpusu istifadəyə verilmişdir. Qazaxıstan hökuməti universitetin maddi-texniki bazasının beynəlxalq standartlara uyğun olmasına çalışır. Bizim üçün hər cür şərait yaradılır.

Hörmətli İlham Heydər oğlu, Sizin zəngin tərcümeyi-halınızda ali məktəbdə - yüksək nüfuzlu Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda iş dövrü də var. Ona görə də müasir təhsil problemləri Sizə tanışdır. Azərbaycan Respublikasının Prezidenti kimi Siz mədəniyyətin, elm və təhsilin inkişafına böyük diqqət yetirirsiniz. 2003-cü il oktyabrın 15-də prezident seçkilərində qazandığınız qələbə bütün qardaş Azərbaycan xalqının qələbəsidir.

Möhtərəm Prezident, icazə verin, xoş bir vəzifəni yerinə yetirim və univresitetin Elmi Şurası adından Sizin Lev Qumilyov adına Avrasiya Universitetinin fəxri professoru adına layiq görüldüyünüzü elan edim.

Universitetin rektoru Sarsenqali Abdimanapov görüş iştirakçılarının alqışları altında fəxri professor diplomunu və mantiyanı Azərbaycanın dövlət başçısına təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar!

İlk növbədə, belə yüksək qiymətə görə - fəxri professor adına layiq görüldüyümə görə Avrasiya Universitetinin rəhbərliyinə təşəkkür etmək istərdim. Qeyd edildiyi kimi, tərcümeyi-halımda ali məktəbdə dərs dediyim dövr olmuşdur və təbii ki, bu dövr mənə əzizdir. Çünki gənc nəsillə ünsiyyət, öz bilik və təcrübəni ona öyrətmək xeyirxah, eyni zamanda, çox xoş işdir. Ona görə də bu gün belə yüksək şərəfə layiq görülməyim mənə ikiqat xoşdur. Sizi əmin edə bilərəm ki, bu fəxri adı doğruldacağam, artıq indən belə bütün işlərimdə Avrasiya Universitetini də layiqincə təmsil edəcəyəm.

Bu gün mənim qardaş Qazaxıstana səfərim başlanmışdır. Mən buna çox böyük əhəmiyyət verirəm. Ölkələrimiz arasında münasibətlər ən yüksək səviyyəyə çatmışdır. Yüksək səviyyədə siyasi məsləhətləşmələr aparılır, ikitərəfli məsələlər, regional siyasət problemləri barəsində qarşılıqlı anlaşma var. Bir çox beynəlxalq məsələlərin həllinə yanaşmalarımız eynidir. Qazaxıstanla Azərbaycan dost, qardaş, tərəfdaşdırlar. Bunun nəticəsi olaraq ölkələrimizin yaxınlığı, regionda səylərimizin əlaqələndirilməsi sabitlik, sülh və xalqlarımızın tərəqqisi üçün möhkəm təminatdır.

Başlıca vəzifə bundan ibarətdir. Biz vətəndaşlarımızın daha yaxşı yaşamasını təmin etməli, müstəqilliyimizi daha da möhkəmlətməli, onu dönməz etməliyik.

Qarşılıqlı iqtisadi fəaliyyət çərçivəsində ölkələrimizi həyata keçirilən və keçiriləcək böyük layihələr bir-birinə bağlayır. Mən məmnunam ki, bu gün hörmətli Qazaxıstan Prezidenti Nursultan Abişeviç Nazarbayevlə keçirdiyimiz görüşlər və danışıqlar çərçivəsində enerji dəhlizi problemləri, neft və qaz layihələri, nəqliyyat və kommunikasiya proqramları sahəsində əməkdaşlıq barədə baxışlarımızda tam uyğunluq əldə edildi. Qazaxıstana dost və qardaş ölkə olan Azərbaycan Qazaxıstanın karbohidrogen ehtiyatlarının nəql ediləcəyi etibarlı və təminatlı məkana çevriləcəkdir. Bu layihələr həm ölkələrimiz üçün, həm də bütövlükdə, region üçün, bəlkə də, bütün dünya üçün əhəmiyyətlidir. Çünki Qazaxıstanda və Azərbaycanda həyata keçirilən layihələr dünyada çox iri energetika layihələridir.

Ölkələrimizi birləşdirən bir də budur ki, iqtisadi islahatların səmərəliliyinin sürəti baxımından, - bugünkü görüşlərimizdə bu da qeyd edildi, - Qazaxıstan və Azərbaycan bütün MDB məkanında, yəqin ki, liderlərdir. İqtisadiyyatda, sosial sahədə, iqtisadi münasibətlərin sərbəstləşdirilməsi çərçivəsində bütün islahatlar artıq çox ciddi nəticələrə gətirib çıxarmışdır. Ölkələrimiz öz iqtisadi potensialını, demək olar, eyni sürətlə artırırlar. Əgər iqtisadiyyatın və ümumi daxili məhsulun artım dinamikası və statistikasını izləsək, görərik ki, Qazaxıstan və Azərbaycan hamıdan öndə, sanki çiyin-çiyinə irəliləyir.

Bu, xarici sərmayəçilərin ölkələrimizə yönəltdikləri birbaşa sərmayələrin adambaşına həcmlərinə də aiddir. Qazaxıstan və Azərbaycan burada da təkcə MDB çərçivəsində deyil, hətta Şərqi Avropanın bir çox ölkələri arasında iki öncül yeri tuturlar. Bu, ilk növbədə, onu göstərir ki, ölkələrimizin rəhbərliyinin iqtisadiyyatı sərbəstləşdirmək xətti artıq öz bəhrələrini vermişdir.

Ən başlıcası budur ki, ölkələrimizdə iqtisadi uğurun əsas amillərindən biri, yəni ictimai-siyasi sabitlik mövcuddur. Sözsüz ki, bu sabitlik olmasaydı, sərmayəçilərdən heç biri öz kapitalı ilə risk etməzdi və ölkələrimizin iqtisadiyyatına milyardlarla dollar qoymazdı. Bunda Qazaxıstan Prezidenti Nursultan Abişeviç Nazarbayevin və Azərbaycan dövlətinin inkişafının ən mürəkkəb dövründə ölkəmizə 10 il başçılıq etmiş Prezident Heydər Əlirza oğlu Əliyevin böyük xidməti var.

Ölkələrimiz bu uğurlara məhz iki liderin səyləri ilə nail olmuşlar. Əlbəttə ki, yeni seçilmiş Prezident kimi mənim vəzifəm bu xətti davam etdirməkdir. Çünki bu, real və yeganə düzgün siyasətdir, öz düzgünlüyünü sözdə deyil, işdə sübut etmişdir.

Ölkələrimiz arasında humanitar sahədə çox sıx qarşılıqlı əlaqələr mövcuddur. Bizi ümumi tarix, mədəniyyət, mənşə, dəyərlər birləşdirir. Əlbəttə ki, bütün bu amillər ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün çox ciddi və möhkəm təməldir. Artıq bu gün mədəniyyət, elm xadimlərinin, digər ziyalıların bir-birinin işlərində daha fəal iştirak etmələri haqqında razılaşmalar əldə olunmuşdur. Qarşılıqlı səfərlər, mədəniyyət günləri nəzərdə tutulur. Düşünürəm ki, onlar xalqlarımızı daha da yaxınlaşdıracaqdır.

Təbii ki, çətinliklər də, həllini gözləyən çoxsaylı məsələlər də var. Azərbaycana gəldikdə, bizim üçün əsas çətinlik Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməmiş qalmasıdır. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində

ölkəmizin ərazi bütövlüyü pozulmuşdur. Azərbaycan ərazilərinin 20 faizi indiyədək Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu təcavüz nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətində yaşayır.

Təbii ki, bu münaqişənin nizama salınması prosesinin uzanması bizi çox narahat edir. Təəssüflər olsun, vasitəçilik fəaliyyəti göstərmək mandatı olan ölkələrin səyləri real nəticələrə gətirib çıxarmamışdır. Ümidvarıq ki, bu münaqişə həll ediləcəkdir, lakin onun həlli ancaq hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normaları gözlənilməklə, yəni Azərbaycanın ərazi bütövlüyünün tamamilə bərpa edilməsi, bütün işğalçı qüvvələrin ərazilərimizdən çıxarılması və qaçqın-köçkünlərin öz daimi yaşayış yerlərinə qayıtması təqdirində mümkündür. Fürsətdən istifadə edərək, bu məsələdə prinsipial mövqe tutduğuna görə, Qazaxıstan rəhbərliyinə bir daha təşəkkür və minnətdarlığımızı bildirmək istəyirəm. Təcavüzkar separatizm siyasəti pisləniliр və Prezident Nursultan Abişeviç Nazarbayevin bugünkü bəyanatı bir daha göstərir ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsində Qazaxıstanın prinsipial mövqeyi dəyişməz qalır. Biz buna görə çox minnətdarıq.

Ölkələrimiz arasında qarşılıqlı münasibətlərin bir cəhəti də vardır və zənnimcə, biz burada, heç də sadə olmayan məsələləri necə həll etməyin mümkünlüyü barədə başqalarına nümunə göstəririk. Qazaxıstanla Azərbaycan arasında Xəzər dənizinin sektorlara bölünməsinə dair saziş əldə olunması iki ölkənin belə məsələləri həll edə bilməsinə sübutdur.

Təəssüf ki, Xəzər dənizinin bölünməsi məsələsinin tammiqyaslı həlli hələlik tapılmamışdır. Lakin əgər Qazaxıstanla Azərbaycan, Qazaxıstanla Rusiya, Rusiya ilə Azərbaycan arasında artıq mövcud olan sazişlər əsas kimi götürülsə, zənnimcə, biz Xəzər dənizinin milli sektorlara bölünməsində tezliklə ümumi razılığa gələ bilərik. Biz bunu istəyirik və düşünürəm ki, Xəzər hövzəsinin bütün qalan ölkələri də istəyir. Bununla belə, əminliklə deyə bilərəm ki, hətta Xəzərin statusunun qlobal planda həll edilməməsi də xarici sərmayəçilərin dənizin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə milyardlarla dollar vəsait qoymasına mane olmamışdır. Lakin əlbəttə, regionda təhlükəsizliyi möhkəmləndirmək üçün Xəzərin statusunun bütün sahilyanı dövlətlər tərəfindən həlli çox müsbət amil ola bilərdi.

Bu gün iqtisadi əməkdaşlığın sürətləndirilməsi məsələləri də müzakirə olundu və bu da, öz növbəsində, ölkələrimiz arasında münasibətlərin daha sıx olmasına gətirib çıxaracaqdır. Artıq konkret təkliflər və layihələr vardır və onlar yaxın vaxtlarda ölkələrimiz arasında əmtəə dövriyyəsini xeyli artırmağa imkan yaradacaqdır. Müvafiq qurumlar bu istiqamətdə fəal işləyirlər və əminəm ki, yaxın vaxtlarda iqtisadi sahədə daha böyük fəallıq baş verəcəkdir. Bir-birimizə təklif etməli çox şey, məsələn, hər iki ölkənin ehtiyac duyduğu mallar vardır. Əminəm ki, lazımi infrastruktur yaradılarsa və müəyyən tədbirlər görülərsə, yaxın vaxtlarda biz bu sahədə də böyük tərəqqinin şahidi olacağıq.

Sizin vaxtınızdan sui-istifadə etmək istəməzdim. Qarşılıqlı münasibətlərimizin hər sahəsində hadisələrin yalnız müsbət inkişafını görürük. Bu gün elə bir məsələ yoxdur ki, ölkələrimizin münasibətləri bir-birindən fərqlənsin, elə bir problem yoxdur ki, bizi onun həlli üzərində fəal surətdə işləməyə vadar etsin. Yalnız bir problem vardır – necə edək ki, bu münasibətlər dolğunlaşsın, möhkəmlənsin və qarşılıqlı surətdə faydalı istiqamətə yönəlmiş yeni qərarların qəbul edilməsinə gətirib çıxarsın.

Əminəm ki, bütün ölkələr arasında münasibətlər Qazaxıstan ilə Azərbaycan arasındakı kimi səmimi dostluq, qardaşlıq münasibətləri olsaydı, dünyada əmin-amanlıq, təhlükəsizlik, firavanlıq hökm sürərdi. Biz istəyirik ki, regionumuz qəti surətdə sülh və təhlükəsizlik zonasına çevrilsin. Biz istəyirik ki, vətəndaşlarımız sülh şəraitində yaşasınlar, ölkələrimizin indiki və gələcək nəsillərini heç nə təhdid etməsin.

Mənə belə yüksək ad verdiyinizə görə bir daha Sizə təşəkkürümü bildirirəm. Burada, Qazaxıstanda yenidən görüşəcəyimizə ümid bəsləyir, universitetin professoru kimi həmkarlarımı Azərbaycana dəvət etmək istəyirəm. Sizinlə görüşməyə və əlaqələrimizi davam etdirməyə çox şad olarıq.

Bir daha çox sağ olun.

Azərbaycan Prezidentinin nitqi böyük diqqətlə dinlənildi və hərarətli alqışlarla qarşılandı.

Sonda universitetin rektoru **Sarsenqali Abdımanapov** dedi:

- Cənab Prezident, maraqlı çıxış üçün çox sağ olun. Biz universitetimizdə yaranmış ənənəni davam etdirərək, digər dövlət başçılarına olduğu kimi, Sizə də Avrasiya Universitetinin medalını təqdim etmək istərdik. "Qızıl döyüşçü" adlanan bu medal Avrasiyanın və daim irəliyə – Şərqdən Qərbə hərəkətin rəmzidir.

Görüş iştirakçılarının gurultulu alqışları altında "Qızıl döyüşçü" medalı Azərbaycanın dövlət başçısına təqdim olundu.

Prezident İlham Əliyev universitetə Azərbaycan rəssamı Mahmud Tağıyevin "Dədə Qorqud" tablosunu hədiyyə etdi.

Türkiyənin Kırıkqala Universitetinin fəxri doktoru

2004-cü il martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin aparıcı təhsil ocaqlarından biri olan Kırıkqala Universitetinin fəxri doktoru adına layiq görülmüşdür.

Türkiyənin müdafiə sənayesi mərkəzi kimi tanınan Kırıkqala şəhərində yerləşən bu təhsil ocağının rektoru Təhsin Nuri Durlunun məktubunda deyilir:

"Universitetin senatının yekdillikl ə qəbul etdiyi qərara əsasən Prezident İlham Əliyev görkəmli siyasi xadim və dövlət xadimi kimi, müstəqil Azərbaycanın inkişafına, dünya siyasətindəki və türk dünyası qarşısındakı böyük xidmətlərinə, Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında sarsılmaz dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsinə, bölgədə sülhün və sabitliyin bərqərar olmasına verdiyi töhfələrə görə beynəlxalq əlaqələr sahəsində fəxri doktor adına layiq görülmüşdür."

Bilkənd Universitetinin fəxri doktoru və İhsan Doğramacı adına Dünya sülh mükafatı

2004-cü il aprelin 14-də Türkiyədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Bilkənd Universitetinin fəxri doktoru diplomunun və İhsan Doğramacı adına Dünya sülh mükafatının təqdim edilməsi mərasimi keçirilmişdir.

Azərbaycanın dövlət başçısı Türkiyənin məşhur Bilkənd Universitetinə gəldi. Prezident İlham Əliyev burada universitetin yaradıcısı professor İhsan Doğramacı ilə görüşdü.

Sonra Prezident İlham Əliyevə Bilkənd Universitetinin fəxri doktoru diplomunun və İhsan Doğramacı adına Dünya sülh mükafatının təqdim edilməsi münasibətilə universitet Senatının təntənəli iclası keçirildi.

Universitetin prorektoru, Senatın elmi katibi Abdullah Atalar Prezident İlham Əliyevin tərcümeyi-halı barədə məlumat verdi. Azərbaycanın dövlət başçısının bu ali təhsil ocağının fəxri doktoru adına layiq görülməsi barədə qərarı oxudu.

Bilkənd Universitetinin rektoru, professor Əli Doğramacı fəxri doktor diplomunu və mantiyanı, cənab İhsan Doğramacı isə öz adını daşıyan Dünya sülh mükafatının medalını Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz və hörmətli İhsan Doğramacı!

Əziz və hörmətli rektor Əli Doğramacı!

Əziz dostlar, bacılar və qardaşlar!

Bu gün mənim həyatımda çox əlamətdar və tarixi bir gündür. Bilkənd Universiteti mənə fəxri doktor adını vermişdir və eyni zamanda, hörmətli İhsan Doğramacının adını daşıyan Dünya sülh mükafatının medalı mənə təqdim edilmişdir. Mən bu münasibətlə Sizə öz dərin təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Mən bu yüksək adı şərəflə daşıyacağam, öz gələcək fəaliyyətimdə çalışacağam ki, Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətləri bundan sonra da inkişaf etsin, daha da güclənsin.

Türkiyə daim Azərbaycanın yanında olmuşdur. Azərbaycanı və Türkiyəni böyük əlaqələr, tarixi köklər bağlayır. Xalqlarımız bütün zamanlarda bir olmuşlar. Düzdür, Azərbaycan uzun illər ərzində Sovet İttifaqının tərkib hissəsində olduğuna görə, Türkiyədən ayrı düşmüşdür. Amma buna baxmayaraq, insanların qəlbindəki duyğular, yaşanan o həsrət bizi rahat buraxmırdı. Biz daim çalışırdıq, istəyirdik ki, Türkiyə ilə bir yerdə olaq, türk xalqı ilə bir yerdə olaq. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan sonra biz buna nail ola bildik. Azərbaycan müstəqil dövlət kimi yaşamağa başladı və dərhal Türkiyədə Azərbaycanı tanıdılar və Türkiyə-Azərbaycan münasibətləri sürətlə inkişaf etməyə başladı.

Bu tarixi dövr ölkəmiz üçün, Azərbaycanda sülhün, əmin-amanlığın bərqərar edilməsi üçün çox önəmli olmuşdur. Bu dövr ərzində Azərbaycanın gənc dövləti böyük sınaqlardan keçmişdir. Böyük problemlər, əziyyətlər ortaya çıxmışdır. Bütün bu problemlərin həllində biz daim qardaş ölkənin – Türkiyənin dəstəyini hiss etmişik və bunu bu gün də hiss edirik.

Mən bu günlərdə Türkiyədə rəsmi səfərdəyəm. Türkiyədə dəfələrlə olmuşam, çoxlu səfərlərim olubdur, amma ilk dəfədir ki, müstəqil Azərbaycanın Prezidenti kimi səfərə gəlmişəm. Deyə bilərəm ki, dünən və bu gün keçirdiyim bütün görüşlərdə, danışıqlarda bir daha əmin oldum ki, Türkiyə-Azərbaycan münasibətləri inkişaf edir, güclənir. İnanıram ki, bu səfərdən sonra münasibətlərimiz yeni pilləyə qalxacaqdır.

Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin

həlli məsələsində daim Azərbaycana siyasi dəstək vermişdir. Biz bunu bu gün də hiss edirik və əminik ki, yaxın zamanlarda münaqişə sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında öz həllini tapacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, işğal olunmuş torpaqlar azad ediləcək və bir milyondan çox qaçqın, köçkün öz doğma torpaqlarına qayıdacaqdır. Bu, zamanın tələbidir. XXI əsrdə ölkələr sülh içində yaşamalıdır. XXI əsrdə beynəlxalq ictimaiyyət Avropada bir ölkənin digər ölkənin torpaqlarını işğal etməsi ilə barışmamalıdır.

Türkiyə-Azərbaycan münasibətlərinin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri çox yüksək olmuşdur. O, 1993-cü ildən 2003-cü ilə qədər Azərbaycanın Prezidenti idi. Ondan əvvəl Naxçıvan Muxtar Respublikasının rəhbəri idi. Bütün bu dövrlərdə onun siyasətinin əsas istiqamətlərindən biri Türkiyə-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi olmuşdur.

Biz yaxşı xatırlayırıq, Heydər Əliyev Naxçıvanın rəhbəri olan dövrdə Naxçıvanla Türkiyə arasında "Ümid" körpüsü salınmış və açılmışdır. O körpü Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan üçün həyati əhəmiyyət kəsb edir. Məhz Heydər Əliyevin və Türkiyə rəhbərlərinin fəaliyyəti nəticəsində o körpü qısa müddət ərzində tikilmişdir və indi insanlar o körpüdən rahat istifadə edirlər.

Bütün başqa dövrlərdə Prezident Heydər Əliyevin siyasətində Azərbaycan-Türkiyə münasibətlərinin xüsusi yeri olmuşdur. Onun məşhur "Biz bir millət, iki dövlətik" kəlamı bu gün də aktualdır, sabah da aktual olacaq, bütün dövrlərdə yaşayacaqdır. Keçmişdə olduğu kimi, bundan sonra da - bütün dövrlərdə bizim xalqlarımız daim birlikdə olacaqlar. Bir-birinə dayaq, arxa olacaqlar.

Bu gün Bilkənd Universitetində olmaq mənim üçün böyük şərəfdir, xoşbəxtlikdir. Mənim bu universitetə böyük hörmətim var. Bu, böyük bir elm, təhsil ocağıdır. Bilirsiniz ki, universitetin qurucusu, Azərbaycan xalqının yaxın dostu hörmətli İhsan Doğramacı Heydər Əliyevin çox yaxın, səmimi dostu olmuşdur. İhsan bəyin Türkiyə qarşısında, bütün böyük türk dünyası qarşısında misilsiz xidmətləri vardır. O, bütün türk dünyasını birləşdirən bir insandır. Türk dünyasını bilən, türk dünyasında böyük nüfuza malik olan bir insandır. İhsan bəyi Azərbaycanda da çox sevirlər, ürəkdən sevirlər, ona böyük hörmət edirlər. O cümlədən bizim ailə üçün İhsan bəy çox doğma, yaxın adamdır.

Prezident Heydər Əliyevin çox dostu yox idi. O, dostluqda da çox diqqətli idi. Amma İhsan bəylə onu ən səmimi tellər, duyğular bağlayırdı. 1999-cu ilin may ayını xatırlayıram. O vaxt Heydər Əliyevin çətin dövrü idi. Onun ürəyində əməliyyat aparılmışdı və Amerikanın Klivlend şəhərində reabilitasiya kursu keçirdi. Bu müddət onun ad gününə təsadüf etdi. Beləliklə, biz onun doğum gününü orada, demək olar ki, xəstəxana şəraitində qeyd edəsi olduq. Bizim üçün çox böyük sürpriz olmuşdu ki, Heydər Əliyevin yaxın dostu, qardaşı İhsan Doğramacı bu münasibətlə xüsusi olaraq Türkiyədən Klivlend şəhərinə gəlmişdi. On min kilometrdən çox məsafəni qət etmişdi ki, öz dostunun yanında olsun. Bəlkə başqa bir vaxtda bunu etməzdi. Amma onun dostu çətin günlər yaşayırdı, çətin əməliyyatdan çıxmışdı.

Əlbəttə, mən xatırlayıram, bundan sonra Heydər Əliyevin əhval-ruhiyyəsi yaxşılaşdı və deyə bilərəm ki, İhsan bəyin gəlişi onun sağalma prosesində də çox böyük rol oynadı. İhsan bəy öz yüksək insani keyfiyyətlərini bir daha ifadə etdi. Əsl dostluğu ifadə etdi. Əlbəttə, bu xatirələr bizim üçün çox əzizdir, unudulmazdır. Bütün dövrlərdə onların – Heydər bəyin və İhsan bəyin dostluğu bizim üçün, ailə üzvləri üçün nümunə olmuşdur, örnək olmuşdur. Biz həyatı onlara baxıb öyrənirik.

Düzdür, insan ixtisası elm ocağında, universitetdə, məktəbdə alır. Sonra digər ixtisaslaşmış qurumlarda alır. Amma o da sirr deyil ki, ailə tərbiyəsi çox önəmli bir amildir. Biz bu tərbiyəni də görə-görə əldə edirik. Əlbəttə, bu dostluq, bu mehribanlıq, bu səmimiyyət bizim hamımızın - mənim, ailəmin, uşaqlarımın qəlbində həmişə yaşayacaqdır. Ona görə bugünkü gün, mənim üçün, bəlkə də, ikiqat, beşqat, onqat əzizdir. Çünki bu mükafatı, bu fəxri adı mən İhsan bəyin əlindən alıram.

Mən bu gün onun surətini əks etdirən medal ilə təltif olunuram.

Mən Azərbaycanda prezident seçkiləri ərəfəsində və ondan sonrakı dövrlərdə etdiyim çıxışlarımda, bəyanatlarımda birmənalı şəkildə bildirmişdim ki, Heydər Əliyevin siyasətini davam etdirmək əzmindəyəm. Mən bu siyasətə sadiqəm. Bu siyasət Azərbaycana böyük uğurlar gətirmişdir. Azərbaycanı böhrandan, xaosdan, anarxiyadan inkişafa, tərəqqiyə, uğurlara gətirmişdir. Azərbaycanın xoşbəxt gələcəyi bu siyasətlə bağlıdır. Azərbaycan xalqı bu siyasətə alternativ görmür. Məhz bunun nəticəsində Azərbaycan xalqı bu siyasətə səs verir. Azərbaycan xalqı rahat yaşamaq istəyir, sülh, əmin-amanlıq, asayiş şəraitində yaşamaq istəyir.

Azərbaycanda böyük quruculuq işləri görülür. Heydər Əliyevin təməlini qoyduğu iqtisadi islahatlar, neft siyasəti, sosial məsələlər öz həllini tapır. Ölkəmizi müasirləşdirmək, yeniləşdirmək,

gücləndirmək, iqtisadiyyatımızı, ordumuzu gücləndirmək - bu gün bizim planlarımız məhz bundan ibarətdir. Azərbaycan xalqı üçün gözəl şərait yaratmaq və Azərbaycanı dünya birliyinə daha da sürətlə, hərtərəfli inteqrasiya etmək bizim əsas, prioritet məsələlərimizdir. Əminəm ki, biz buna nail olacağıq. Azərbaycan xalqının iradəsi, qardaş Türkiyə Cümhuriyyətinin dəstəyi bütün bu məqsədlərə çatmaq üçün bizə kömək edəcəkdir.

Əziz dostlar!

Əziz və hörmətli İhsan bəy!

Hörmətli xanımlar və cənablar!

Mənə göstərdiyiniz bu hörmətə, diqqətə görə sizin hamınıza bir daha minnətdarlığımı bildirirəm. Sizə bir daha bəyan edirəm ki, mən bu fəxri doktor adını şərəflə daşıyacağam. Sağ olun, təşəkkür edirəm.

Azərbaycan Prezidentinin nitqi diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

Azərbaycan Prezidenti İlham Əliyev xatirə olaraq Bilkənd Universitetinə azərbaycanlı rəssamın tablosunu hədiyyə etdi.

Mərasimdən sonra Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri, professor İhsan Doğramacının adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə nahar təşkil olundu.

Cənab İhsan Doğramacı və xanımı Aysel Doğramacı Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı öz evlərində böyük səmimiyyətlə qarşıladılar. Burada Azərbaycanın xalq artisti, professor Sərvər Qəniyevin rəhbərlik etdiyi orkestrin ifasında musiqi nömrələri səsləndirildi.

Prezident İlham Əliyev dünya şöhrətli alimin mənzilindəki xatirə kitabına ürək sözlərini yazdı.

Professor İhsan Doğramacı xatirə olaraq Prezident İlham Əliyevə üzərində Azərbaycanın xəritəsi və ümummilli liderimiz Heydər Əliyevin portreti toxunmuş nəfis xalça təqdim etdi.

Rumıniyanın Ployeşti Neft-Qaz Universitetinin fəxri doktoru

2004-cü il oktyabrın 12-də Rumıniyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bu ölkənin məşhur Ployeşti Neft-Qaz Universitetinin fəxri doktoru adının verilməsi mərasimi keçirilmişdir.

Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və nümayəndə heyətinin üzvləri universitetin foyesində açılmış və ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin fəaliyyətini əks etdirən fotosərgi ilə yaxından tanış oldular. Sonra Yaqub Eyyubov və universitetin rektoru Vlad Ulmanu Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyi ilə təchiz olunmuş laboratoriyanın açılış mərasimində iştirak etdilər.

Neft-qaz sistemləri üzrə müasir avadanlıq quraşdırılmış laboratoriyada tələbələrin təcrübi məşğələləri üçün əlverişli şərait yaradılmışdır.

Rektor və tələbələr laboratoriyanın yüksək səviyyədə təchizatına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Tələbələr qarşısında çıxış edən Yaqub Eyyubov bildirdi ki, Azərbaycan Dövlət Neft Akademiyasının və Ployeşti Neft-Qaz Universitetinin gələcəkdə birgə elmi tədqiqatlar aparmaları üçün gözəl imkan yaranmışdır. O, daha sonra bildirdi ki, Prezident İlham Əliyev keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərindən biri olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil almış, orada dərs demiş və elmi fəaliyyətlə məşğul olmuşdur.

Sonra Ployeşti Neft-Qaz Universitetinin akt salonunda Azərbaycan Prezidenti İlham Əliyevə bu ali təhsil ocağının fəxri doktoru adının verilməsi və ümummilli lider Heydər Əliyevin adına təqaüdün təqdim olunması münasibətilə təntənəli mərasim keçirildi.

Universitetin rektoru Vlad Ulmanu bildirdi ki, neft-qaz sənayesinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Prezidenti İlham Əliyevə bu adın verilməsi barədə qərar Elmi Şuranın oktyabrın 12-də keçirilmiş iclasında yekdilliklə qəbul edilmişdir. O, Prezident İlham Əliyevin tərcümeyi-halı barədə mərasim iştirakçılarına ətraflı məlumat verdi, fəxri doktor diplomunu və mantiyanı Azərbaycan Prezidentinə təqdim etmək üçün Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubova verdi.

Baş nazirin birinci müavini Yaqub Eyyubov mərasimdə çıxış edərək, universitetin kollektivinə təşəkkürünü bildirdi, Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasından, iqtisadi islahatların həyata keçirilməsindən, Azərbaycan-Rumıniya əlaqələrinin inkişafından danışdı.

Sonra Ployeşti Neft-Qaz Universitetinin rektoru Vlad Ulmanu Heydər Əliyevin adını daşıyan ilk təqaüdün təqdimatı və təsis olunması barədə Elmi Şuranın növbəti qərarını elan etdi. Bildirildi ki, Elmi Şuranın 51 üzvü yekdilliklə bu təqaüdün təsis olunmasına səs vermişdir. Çox nadir hallardan biridir ki, xarici ölkənin görkəmli siyasətçisinin adına burada təqaüd təsis olunur. Bu, dahi şəxsiyyət, siyasətçi Heydər Əliyevin xidmətlərinin təsdiqinin əyani sübutudur.

HOTĂRÂRE

RECTOR

Sonra universitetin təhsildə fərqlənən ən yaxşı tələbələrinə Heydər Əliyev adına ilk təqaüd təqdim olundu.

Tələbələr dahi şəxsiyyət, böyük siyasi xadim Heydər Əliyevin adını daşıyan mükafata layiq görüldüklərindən sevinc hissi keçirdiklərini və məmnunluqlarını bildirdilər.

Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru

2005-ci il sentyabrın 23-də Bolqarıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adının verilməsinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı universitetin binası önündə rektor Borislav Borisov ehtiramla qarşıladı. Prezidentə və xanımına gül dəstələri təqdim edildi.

Mərasimdən əvvəl Prezident İlham Əliyev ilə universitetin rektoru Borislav Borisov arasında söhbət oldu. Rektor dövlət başçısına məlumat verərək dedi ki, 1920-ci ildən fəaliyyət göstərən və Bolqarıstanın ən nüfuzlu ali təhsil ocaqlarından olan bu universitetdə 25 min tələbə təhsil alır və 8 min nəfərlik professor-müəllim heyəti çalışır. Bir sıra ölkələrin prezidentləri universitetin fəxri professoru adına layiq görülmüşlər.

Borislav Borisov bildirdi ki, ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsi sahəsində xidmətlərinə görə, Elmi Şuranın qərarı ilə Azərbaycan Prezidenti universitetin fəxri professoru adına layiq görülmüşdür.

Rektor Prezident İlham Əliyevə professor mantiyasını təqdim etdi. Sonra universitetin Elmi Şurası üzvlərinin, professor-müəllim heyətinin iştirakı ilə mərasim keçirildi. Mərasimi rektor Borislav Borisov açdı.

Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetinin rektoru Borislav Borisovun çıxışı

- Hörmətli cənab Azərbaycan Respublikasının Prezidenti!

Sizi elmi ictimaiyyət adından salamlamaqdan və Sizə "Təkcə Bolqarıstanda deyil, həm də bütün Cənub-Şərqi Avropada ən böyük iqtisadi təhsil müəssisəsinə xoş gəlmisiniz!" deməkdən son dərəcə böyük şərəf və məmnunluq duyuram. Bolqarıstanın bir neçə baş naziri, nazirləri, deputatlar, ictimai və dövlət xadimləri bu təhsil ocağının yetirmələridir. Artıq 85 ildir ki, minlərlə müəllim və tələbə universitetimiz üçün yaxşı imic yaradırlar, varislik, həqiqət axtarışı bu imicin tərkib hissələridir.

Siz ölkəniz müstəqilliyə qovuşduqdan sonra Azərbaycan Respublikasının ikinci Prezidentisiniz ki, Bolqarıstana səfər edirsiniz. Atanız 1995-ci ildə Bolqarıstanda olarkən parlamentdə çıxışında vurğulamışdı ki, ölkələrimiz arasında münasibətlərin inkişafı üçün çox böyük potensial var. Əminəm ki, Bolqarıstan və Azərbaycan universitetləri arasında əməkdaşlıq inkişaf edəcək və universitetimizə Sizin gəlişiniz bu istiqamətdə yaxşı başlanğıc olacaqdır.

Rektor fəxri professor diplomunu və medalını Azərbaycanın dövlət başçısına təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli cənab rektor!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlamaq və belə yüksək ada görə təşəkkür etmək istəyirəm. Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru adına layiq görülmək böyük şərəf və böyük məsuliyyətdir. Bilirəm ki, universitet bu regionun - Balkan yarımadasının və Avropanın aparıcı ali təhsil müəssisəsidir. Onilliklər ərzində universitet kadrlar hazırlanması, iqtisadi islahatlar üçün şərait yaradılması, habelə Bolqarıstan cəmiyyəti elitasının hazırlanması işinə böyük töhfə vermişdir. Ona görə də bu, mənim üçün çox xoş hadisədir. Həyatımın bir hissəsi ali təhsil

müəssisəsində işlə bağlı olmuşdur. Mən bir neçə il ərzində ali təhsil müəssisəsində dərs demişəm və ona görə də bu, mənə çox yaxın və əziz işdir. Sizə söz verirəm ki, bu adı şərəflə daşıyacaq və bu yüksək etimadı doğrultmağa çalışacağam.

Mən bu gün səhərdən sizin gözəl ölkənizdə rəsmi səfərdəyəm. Səfər çox uğurlu keçir və Prezidentlə, parlamentin sədri, baş nazirlə keçirilmiş görüşlər bir daha sübut edir ki, ölkələrimiz arasında münasibətlər yüksəlişdədir. Bizim aramızda çox fəal siyasi dialoq var, beynəlxalq məsələlərdə məqsədlərimiz uyğun gəlir. Regional vəziyyətin, ikitərəfli münasibətlərimizin, dünyada baş verən hadisələrin qiymətləndirilməsində ölkələrimizin siyasəti üst-üstə düşür. Əlbəttə ki, siyasi fəallıq və qarşılıqlı anlaşma belə yüksək səviyyədə olduqda, hərtərəfli iqtisadi münasibətlərin inkişafı üçün çox yaxşı zəmin yaranır.

Bolqarıstan Prezidenti cənab Pırvanov keçən il Azərbaycana səfər etdi. Bu il mən Bolqarıstana səfər edirəm. Bu müddət ərzində Bolqarıstanın Azərbaycanda və Azərbaycanın Bolqarıstanda səfirlikləri yaradılmışdır və onlar artıq işləyir. Bütün bunlar qarşılıqlı marağı göstərir, onu sübut edir ki, ölkələrimiz arasında münasibətlər tərəfdaşlığın çox fəal müstəvisinə keçir. Avrointeqrasiya, iqtisadi və siyasi islahatlar aparılması prosesləri çərçivəsində biz fəaliyyətimizi çox sıx şəkildə əlaqələndirəcək və təcrübə mübadiləsi aparacağıq. Ümidvaram ki, bu, çox yaxşı nəticələr verəcəkdir.

Universitetinizin çox geniş profili var və burada müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlanır. Lakin əlbəttə ki, əsas diqqət iqtisadi bloka yönəldilir. Buna görə də mən Azərbaycanda apardığımız iqtisadi siyasətin əsas istiqamətlərindən çox qısaca danışmaq istərdim.

1980-ci illərin axırları – 90-cı illərin əvvəllərində ölkəmiz çox böyük iqtisadi çətinliklərlə qarşılaşdı. İqtisadi tənəzzülün, habelə cəmiyyətimizin məruz qaldığı böhranın sənaye, infrastruktur və bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün çox mənfi nəticələri oldu. Azərbaycan iqtisadi potensial baxımından 1990-cı ilin səviyyəsinə yalnız bu il çata bildi. 1990-cı illərin əvvəllərində ölkəmizə vurulmuş iqtisadi zərər o dərəcədə güclü idi ki, 1990-cı ilin səviyyəsinə gəlib çıxmaq üçün 15 il vaxt lazım oldu.

İndi siyasi islahatlar sayəsində, Azərbaycanda sabitliyin, ictimai və milli həmrəyliyin olması sayəsində çox səmərəli iqtisadi siyasət aparmaq mümkündür. Ölkəmizin iqtisadiyyatı çox yüksək sürətlə inkişaf edir. 1996-cı ildən 2004-cü ilədək ümumi daxili məhsulun həcmi ildə orta hesabla 10 faiz artmışdır. Bu il bizdə iqtisadi sıçrayış

müşahidə olunur. 2005-ci ilin 8 ayı ərzində iqtisadiyyat 20 faiz artmışdır, sənayenin artım sürəti 26 faiz təşkil edir. Həmin dövrdə əhalinin pul gəlirləri 25 faiz, əhalinin banklarda əmanətlərinin həcmi 50 faiz artmışdır. Qarşımızda duran çox mühüm sosial problemlər həll edilir, Azərbaycanda energetika, nəqliyyat sahəsində transmilli laihələr, neft və qaz sahəsində regional əməkdaşlıq uğurla həyata keçirilir.

Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan regionda ilk yerlərdən birini tutur, son 10 ildə ölkəmizə yönəldilən sərmayələrin həcmi 25 milyard dollar olmuşdur. Bu onu göstərir ki, əcnəbi sərmayəçilər Azərbaycanın gələcəyinə inanırlar, iqtisadi inkişafa inanırlar və belə böyük məbləğdə vəsaitlə risk etməkdən çəkinmirlər. Bu da özünü doğruldur. Ölkəmizə yönəldilən hər bir sərmayə yeni iş yerləri yaradır, biznes üçün, özəl sektorun inkişafı üçün yeni imkanlar açır.

Ötən ilin fevralından biz Azərbaycanın regionlarının inkişafı proqramını həyata keçirməyə başlamışıq, diqqəti ilk növbədə yeni iş yerləri açılması üzərində cəmləşdirmişik. İftixarla deyə bilərəm ki, iki ildən də az bir vaxtda Azərbaycanda 300 min yeni iş yeri yaradılmışdır. Əhalisinin 8 milyon nəfərdən bir qədər artıq olmasını nəzərə alsaq, ölkədə yeni iş yerləri açılmasında belə böyük artımın olması çox yüksək göstəricidir.

Bizim qarşımızda yoxsulluğun, işsizliyin ləğv olunması və Azərbaycanın hər bir vətəndaşı üçün normal həyat şəraitinin təmin edilməsi vəzifəsi durur. İqtisadi islahatların səmərəliliyini, avrointeqrasiya məsələlərində fəal tədbirlərimizi, nəqliyyat imkanlarımızı, coğrafi mövqeyimizi, ölkəmizin coğrafi-siyasi əhəmiyyətini nəzərə alaraq şübhə etmirəm ki, biz bütün planlarımızı həyata keçirməyə müvəffəq olacağıq.

İqtisadi göstəricilər, iqtisadi baza hər bir ölkə üçün cəmiyyətin inkişafında başlıca amillərdir. Güclü iqtisadiyyat, güclü sosial siyasət olmadan islahatlar yolu ilə fəal irəliləmək mümkün deyildir. Hər şey bu amilə bağlıdır və ona görə də bütün səylərimiz Azərbaycanın iqtisadi potensialının artırılmasına yönəldilmişdir. Gələn il büdcəmizdə çox böyük, 50 faizdən yuxarı artımın olacağı nəzərdə tutulur. Sonrakı illərdə, 2007-ci, 2008-ci illərdə də iqtisadi artım güclənəcəkdir. Bütün bu amilləri, habelə formalaşmaqda olan çox açıq və səmimi ab-havanı – münasibətlərimizdə hökm sürən ab-havanı nəzərə alaraq, inamla deyə bilərəm ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı üçün çox yaxşı potensial mövcuddur və biz ondan istifadə etməliyik.

Doğrudur ki, Bolqarıstanla Azərbaycan arasında əmtəə dövriyyəsi xeyli dərəcədə artmışdır. Lakin buna baxmayaraq, o, ölkələrimizin real potensialını əks etdirmir. Mənim nümayəndə heyətimə nazirlər, hökumət rəhbərləri, deputatlar, ictimai xadimlər daxildirlər. Nümayəndə heyətinin belə geniş tərkibi ikitərəfli əlaqələrimizə necə böyük əhəmiyyət verdiyimizə daha bir sübutdur. Əminəm ki, bu səfərin nəticələrinin çox tezliklə yaxşı səmərə verməsi üçün nümayəndə heyətimizin üzvlərinin bu gün və sabah bolqarıstanlı həmkarları ilə görüşmək imkanı olacaqdır.

Bizim artıq yaxşı müqavilə-hüquq bazamız var, çoxlu sənəd imzalanmışdır, o cümlədən də bu gün. Daha çox ünsiyyət olması üçün ölkələrimiz arasında müntəzəm aviareyslər açmağı planlaşdırırıq. Bununla da şübhəm yoxdur ki, münasibətlərimizin uğurlu inkişafı mümkün olacaq və regional əməkdaşlığın mühüm amilinə çevriləcəkdir.

Regional əməkdaşlıq baxımından Azərbaycan böyük uğurlara nail olmuşdur. Ölkəmizdə və regionda bizim iştirakımızla dünyada çox böyük energetika layihələri, habelə nəqliyyat-kommunikasiya layihələri – Azərbaycanla region, Mərkəzi Asiya ölkələri, Türkiyə, Avropa arasında dəmir yol tikintisi layihəsi həyata keçirilir.

Əlbəttə, əməkdaşlıq üçün bu müstəvidə yeni perspektivlər açılır. Həmçinin ümidvaram ki, özəl sektor da arxamızca gedəcək və bütün istiqamətlərdə tərəqqi görməyimiz üçün əməkdaşlıq yaradılması işində fəal işləyəcəkdir.

Bir daha əlavə etmək istəyirəm ki, şəxsən mən ölkənizə səfərdən çox dərin məmnunluq duyuram. Səhər tezdən mənə, nümayəndə heyətimizin üzvlərinə çox səmimi, doğma münasibət görürəm. Mən bunu çox yüksək qiymətləndirirəm, çünki ölkələrimiz arasındakı münasibətlər həm də insanlar arasında münasibətlərdir. Bolqarıstan Prezidenti ilə yaranmış şəxsi dostluq da, zənnimcə, ikitərəfli münasibətlərin inkişafı üçün mühüm amildir.

Belə mehribancasına qəbula görə və fəaliyyətimə verilən belə yüksək qiymətə görə bir daha səmimi qəlbdən təşəkkürümü bildirmək və sizi əmin etmək istəyirəm ki, bu yüksək adı şərəflə daşıyacağam və ikitərəfli əlaqələrimizin möhkəmlənməsinə yönəldilmiş öz fəaliyyətimlə onu doğrultmağa çalışacağam.

Təşəkkür edirəm.

Azərbaycan dövlətinin başçısı universitetin professor-müəllim heyəti ilə səmimiyyətlə sağollaşdı, habelə Sofiyanın Amerika Universitetində təhsil alan azərbaycanlı tələbələrlə görüşdü, onların təhsil şəraiti ilə maraqlandı.

Cənubi Koreyanın Kyunq He Universitetinin fəxri doktoru

2007-ci il aprelin 24-də Cənubi Koreyada dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Kyunq He Universitetinin fəxri doktoru adının verilməsinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidentini universitetin qarşısında bu ali məktəbin prezidenti İnvon Çou böyük hörmət və ehtiramla qarşıladı.

Əvvəlcə universitetin prezidenti, rektoru, professor və müəllim heyəti ilə görüş oldu. Məlumat verildi ki, 1949-cu ildə yaradılan özəl universitetin 3 tələbə şəhərciyi, 20 kolleci var. 36 tədqiqat institutunda 2300 nəfər çalışır. Dünyada məşhur olan universitetdə 23 min tələbə təhsil alır. İki muzeyində toplanmış 29 min eksponat Asiyada ən böyük kolleksiya sayılır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevə siyasi elmlər üzrə fəxri doktor adının verilməsi münasibətilə təntənəli mərasim oldu. Azərbaycanın və Cənubi Koreyanın dövlət himnləri, habelə universitetin himni səsləndirildi.

Kyunq He Universitetinin Elmi Şurasının rəhbəri doktor **Pyon Si Pan** mərasimi açaraq dedi:

- Mən böyük məmnunluq və şərəf hissi ilə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri doktor İlham Əliyevi təqdim etmək istəyirəm. Bu gün ona universitetimizin fəxri siyasi elmlər doktoru adı veriləcəkdir.

Zati-aliləri doktor İlham Əliyev 1961-ci il dekabrın 24-də anadan olmuşdur. O, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda elmi dərəcə almışdır və bir çox digər ölkələrin universitetlərinin fəxri doktorudur. Prezident Əliyev, eyni zamanda, 1997-ci ildən etibarən Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidentidir. O, Azərbaycan Respublikasının Baş naziri və Milli Məclisin aparıcı üzvlərindən biri olmuşdur. Əvvəlki vaxtlarda institutda dərs demiş, sonralar isə Dövlət Neft Şirkətinin vitse-prezidenti olmuşdur. Bir çox ölkələrin və beynəlxalq təşkilatların mükafatlarına və fəxri adlarına layiq görülmüşdür. Bir neçə cümlə ilə onun əldə etdiyi bütün nailiyyətlərin hamısını sadalamaq və Azərbaycanın inkişafı naminə fəaliyyətini təsvir etmək çətin olardı.

İndi isə mən böyük şərəf hissi ilə onun Kyunq He Universitetinin fəxri doktoru adına layiq görüldüyünü elan edirəm. Biz Prezident İlham Əliyevə siyasi elmlər üzrə fəxri doktor adının təqdim olunması mərasiminə başlayırıq.

Qəbul edilmiş qaydada uyğun olaraq, biz, Kyunq He Universiteti Elmi Şurasının üzvləri Azərbaycan Respublikasının Prezidenti doktor İlham Heydər oğlu Əliyevə siyasi elmlər üzrə fəxri doktor adını veririk. Doktor İlham Heydər oğlu Əliyev bir siyasi lider kimi enerji resurslarının işlənilməsi sahəsində yorulmaz fəaliyyət göstərmişdir. O, eyni zamanda, sülhün və əmin-amanlığın təşviq olunması işində, idman sahəsinin inkişafında böyük səylər göstərmişdir.

Aparıcı: Kyunq He Universitetinin fəxri doktoru adı Azərbaycan Respublikasının Prezidenti, siyasi elmlər doktoru cənab İlham Heydər oğlu Əliyevə verilir. Kyunq He Universiteti Elmi Şurasının qaydalarına görə, siyasi elmlər üzrə fəxri doktor adı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə 2007-ci il aprelin 24-də verilmişdir. İndi isə fəxri doktorluq adının verilməsi mərasiminə başlayırıq.

Təbii sərvətlərin işlənilməsi sahəsində, habelə sülh və əmin-amanlığın təşviqi sahəsində yorulmaz fəaliyyətinə görə dünyaşöhrətli siyasi lider, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri doktor İlham Əliyevə fəxri doktor adı verilsin. Qərarı 2007-ci il aprelin 24-də Kyunq He Universitetinin prezidenti İnvon Çou imzalamışdır.

Biz Azərbaycan Respublikasının Prezidenti, Kyunq He Universitetinin siyasi elmlər üzrə fəxri doktoru İlham Əliyevi təbrik edirik.

Azərbaycan Prezidenti İlham Əliyevə fəxri doktor mantiyası, orden və medalı, habelə gül dəstəsi təqdim olundu.

Sonra Kyunq He Universitetinin prezidenti İnvon Çou çıxış etdi.

Kyunq He Universitetinin prezidenti İnvon Çounun çıxışı

- Zati-aliləri Prezident Əliyev!

Hörmətli qonaqlar!

Hörmətli Kyunq He Universiteti Elmi Şurasının üzvləri!

Mən sizin hamınızı bu cür yaddaqalan mərasimdə salamlamaq istəyirəm. Biz bu gün Prezident Əliyevin öz ölkəsinə, regiona və bütün dünyaya sədaqətini qeyd etməyə toplaşmışıq. O, təhsil ocağımızın siyasi elmlər üzrə fəxri doktoru adına layiq görülmüşdür. Fəaliyyəti dövründə Prezident Əliyev bir çox sahələrdə əsl rəhbərlik məharətini nümayiş etdirmişdir. Onun ilk nailiyyəti və uğurları məhz elmi sahədə olmuşdur. Daha sonra, o, uğurlu siyasi fəaliyyət apararaq özünün rəhbərlik istedadını göstərdi. Bu, onun Dövlət Neft Şirkətinin vitse-prezidenti olduğu dövrdən hiss edilirdi.

Azərbaycanın Prezidenti kimi dörd il bundan əvvəl fəaliyyətə başladıqdan sonra o, milli iqtisadiyyatın inkişafı naminə düşünülmüş enerji siyasətini həyata keçirmişdir. Onun rəhbərliyi altında ölkə köklü surətdə dəyişmişdir. Ölkənin ümumi daxili məhsulunun istehsalı artmışdır. Xüsusən də marağı cəlb edən odur ki, Prezident Əliyev ümumi siyasətində gənclərin lazımi təhsil almasına xüsusi yer ayırır. O, işi ilə göstərdi ki, insan öz əməyi sayəsində istədiyi nəticələri qazana bilər.

Biz Prezident Əliyevin həyata keçirdiyi missiya ilə Cənubi Koreyanın yeni nailiyyətləri əldə etməsi arasında oxşarlıq olduğunu da görürük. Ölkə rəhbəri kimi fəaliyyətə başladığı ilk vaxtlardan, o, keyfiyyətli təhsilin təmin edilməsi yolu ilə ölkənin inkişafına nail olmağa çalışmışdır. Hazırda onun ölkəsi uzunmüddətli layihələrin həyata keçirilməsi ilə məşğuldur. Təhsil və elmi tədqiqatlar cari qlobal proseslərdə əsas yer tutur. Hesab edirəm ki, bu amil Kyunq He Universitetinin də başlıca vəzifəsidir. Bu, eyni zamanda, təsisat kimi, bizim öhdəliyimizi də nəzərdə tutur. Həmin öhdəliyi tam dərk edərək, Kyunq He Universiteti prezidenti kimi, mən Azərbaycan Prezidenti İlham Əliyevə siyasi elmlər üzrə fəxri doktor adının verilməsindən şərəf hissi duyuram.

Biz ümid edirik və bilirik ki, doktor Əliyev universitetimizin vahid ailəsinin yeni üzvü olacaqdır. Biz isə gələcək işlərində onu dəstəkləyəcəyik.

Çox sağ olun.

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, bu gün mənə sizin tanınmış universitetinizin fəxri doktoru kimi mötəbər adın verilməsinə görə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu, mənim üçün böyük şərəfdir və əminəm ki, gələcək illər ərzində mən Cənubi Koreya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə verdiyim töhfəni davam etdirəcəyəm. Bir neçə illər bundan əvvəl universitetdə dərs demiş bir şəxs kimi belə dərəcənin alınması mənim üçün xüsusi əhəmiyyət daşıyır.

Artıq qeyd edildiyi kimi, bu gün bizim ölkədə təhsil məsələlərinə olduqca böyük diqqət yetirilir, çünki təhsil gələcək və tərəqqi deməkdir. Müxtəlif sahələrdə böyük irəliləyişə nail olmuş ölkələr, o cümlədən sizin ölkəniz təbii sərvətlər sayəsində deyil, - Cənubi Koreyanın da bu cür sərvətləri yoxdur, - məhz insanların biliyi və təhsili, eləcə də elm və texnologiyalar nəticəsində uğurlu addımlar atmışdır.

Bu gün biz dünyanın ən inkişaf etmiş ölkələrinə nəzər yetirsək görərik ki, onların hamısında təhsil ən prioritet məsələ hesab edilir. Biz eyni işləri Azərbaycanda da görməyə çalışırıq və bunun üçün yaxşı imkanlarımız var. Bu yaxınlarda biz gənclərin xaricdə təhsil alması üçün xüsusi Prezident proqramını həyata keçirməyə başlamışıq. Gənc azərbaycanlı tələbələrin sizin universitetdə təhsil almaq imkanlarını artıq müzakirə etmişik. Biz təhsil proseslərinə böyük sərmayələri qoymaqda davam edirik. Təkcə son üç il ərzində Azərbaycanda təqribən 800 yeni məktəb tikilmişdir və bütün yeni məktəblərdə kompyuter sinifləri və internetə çıxış var.

Bəlkə də bu, sizin üçün o qədər mühüm görünmür, çünki siz bunlarla çoxdan tanışsınız. Lakin müstəqilliyini cəmi 15 il bundan əvvəl qazanmış və ilk anlardan bir çox siyasi və iqtisadi çətinliklərlə üzləşmiş bizim ölkə üçün bu, sözün əsl mənasında, böyük nailiyyətdir. Təhsil sahəsinə sərmayənin yatırılması xalqımıza, onun gələcəyinə və tərəqqisinə sərmayə qoymaq deməkdir.

Bizim xüsusi imkanlarımız var. Artıq qeyd edildiyi kimi indi Azərbaycan sürətlə inkişaf edən ölkədir. Artıq üçüncü ildir ki, iqti-

sadiyyatımız dünyada ən yüksək sürətlə inkişaf edir. 2005-ci ildə ÜDM artımı 26 faiz, 2006-cı ildə isə 35 faiz olmuşdur. 2007-ci ilin birinci rübündə iqtisadiyyatımız təqribən 40 faiz artmışdır. Sənaye istehsalının artımı 40 faiz olmuşdur. Son üç il ərzində 500 mindən çox yeni iş yerləri açılmışdır. Ölkədə yoxsulluğun səviyyəsi kəskin şəkildə azalmışdır.

Bütün bunlar iqtisadi islahatlar siyasətinin, siyasi sabitliyin və Azərbaycandakı mühitin nəticəsidir. Lakin Azərbaycan 1991-ci ildə müstəqil olduqdan sonra vəziyyət çox çətin idi və hətta bizim müstəqil ölkə kimi yaşamağımız sual altında idi. Ancaq ümummilli liderimiz Heydər Əliyev ölkənin gələcəyi üçün qapıları açdı və iqtisadi islahatlara başladı, siyasi sabitlik yaratdı. Bu gün isə, biz artıq güclü iqtisadi təməli və olduqca gözəl perspektivləri olan ölkəyik.

Azərbaycanda həyata keçirilən enerji layihələri hazırda bütün regionu əhatə edir və onlar transmilli, transkontinental layihələrinə çevrilməkdədir. Biz hazırda dünyada mühüm neft və qaz hasilatçısı olmaq ərəfəsindəyik. Xəzər regionunu Aralıq dənizi və dünya bazarları ilə birləşdirən nadir boru kəmərləri çəkmişik. Bu, həyatımızın müxtəlif aspektlərinə, yəni təhsil, səhiyyə və sosial problemlərin həlli kimi sahələrə əlavə sərmayə qoymaq imkanları yaradır.

Sizin nümunəniz, Cənubi Koreyanın nümunəsi bizim üçün çox vacibdir, çünki müstəqil olduqdan sonra siz də həmin çətinliklərlə üzləşdiniz. Lakin olduqca qısa müddət ərzində, hər hansı təbii sərvət olmadan və yalnız Koreya xalqının əməyi, biliyi və təhsili sayəsində dünyada aparıcı iqtisadiyyatlardan birinə çevrildiniz.

Bir sözlə, sizin təcrübənizi öyrənməyə imkanlarımız var və ikitərəfli münasibətlərimiz çox müsbət istiqamətdə inkişaf edir. Mən bir daha bildirmək istəyirəm ki, biz Azərbaycanda bir siyasi sistemdən digər sistemə keçid dövrünü başa çatdırmışıq. 70 il ərzində biz Sovet İttifaqının bir hissəsi olmuşuq. Həmin vaxt biz müstəqil deyildik və fərqli siyasi sistemdə yaşamışıq. Yəni totalitar siyasi sistemdə yaşamışıq. Lakin hazırda bazar iqtisadiyyatına və açıq cəmiyyətə keçid artıq başa çatıbdır. Müstəqillikdən 15 il sonra bizim iqtisadiyyatımızın, ÜDM-in 80 faizini özəl sektor təşkil edir. Azərbaycanda 15 il bundan əvvəl həmin rəqəm sıfıra bərabər idi. Hazırda bizim siyasi sistemimiz açıqdır və dünyadakı bütün müsbət təcrübə Azərbaycanda tətbiq edilir. Bütün bunlar gərgin əməyin nəticəsidir. Bunlar bizim güclü ölkə qurmaq arzumuzdan irəli gəlir.

Azərbaycanın çox zəngin tarixi, mədəniyyəti və ənənələri var. Lakin əsrlər boyu biz müstəqillikdən məhrum olmuşuq. Ona görə də indi, müstəqil olduqdan sonra biz güclü dövlət qurmalıyıq. Bütün insanlar üçün yaxşı həyat tərzini təmin etməliyik. Biz ədalətli cəmiyyət formalaşdırmalıyıq və orada bazar iqtisadiyyatı prinsipləri qətiyyətli sosial siyasətlə müşayiət olunmalıdır. Biz məhz bunu edirik. Enerji fəaliyyətindən əldə etdiyimiz vəsaitləri sosial sektora, təhsilin, səhiyyənin, informasiya texnologiyalarının inkişafı və digər sahələrə sərmayə kimi yatırmağa çalışırıq. Bütün bu sahələrə diqqət yetiririk və gələcək üçün çox yaxşı perspektivlərimiz var.

Azərbaycanın nəhəng neft və qaz ehtiyatları var və onlar, ən azı, 100 il üçün kifayətdir. Ölkəmizdə bu yaxınlarda aşkar olunmuş neft və qaz yataqlarında artıq hasilat başlanmışdır. Bu, ən azı, 100 il ərzində öz tələbatımızı ödəməyə, böyük həcmdə neft və qaz ixrac etməyə imkan yaradacaq ki, bu da dostlarımızın, tərəfdaşlarımızın enerji təhlükəsizliyinə töhfə verəcəkdir.

Mən artıq ikinci gündür ki, sizin gözəl ölkənizdəyəm. Dünən mənim Prezidentlə çox səmərəli və konstruktiv danışıqlarım olubdur. Biz ikitərəfli münasibətlərimizin bütün aspektlərini əhatə etdik. Müxtəlif sahələri əks etdirən ondan çox sənəd imzalanmışdır. Bu gün Koreya-Azərbaycan biznes forumu keçirilmişdir və o da çox uğurlu olmuşdur. Biz olduqca geniş sahələrdə işləyirik. Siyasi əlaqələr, iqtisadi əməkdaşlıq və təbii ki, Koreya şirkətləri ilə həyata keçirilməsini planlaşdırdığımız konkret layihələr gündəlikdədir. Biz Koreya şirkətlərinə açığıq və onları sərmayədar və podratçı kimi salamlayırıq. İndi artıq bir neçə konkret layihələr müzakirə olunur. Əminəm ki, çox qısa müddət ərzində müqavilələr imzalanacaqdır. Danışıqlar və müzakirələr mərhələsində olan layihələrin dəyəri 1 milyard dollardan yuxarıdır. Bu, yalnız başlanğıcdır, sadəcə, Koreya Respublikası Prezidentinin ötən il may ayında Azərbaycana səfərindən sonra əldə olunubdur. Biz fəal siyasi və iqtisadi dialoqa başladıq, çox qısa müddət ərzində, yəni bir ildən az müddətdə Prezidentlərin rəsmi səfərlərini həyata keçirdik. Cənubi Koreyanın Azərbaycandakı və Azərbaycanın Cənubi Koreyadakı səfirlikləri artıq fəaliyyət göstərir. Biz artıq neft və qaz, enerji, informasiya texnologiyaları, nəqliyyat, tikinti, təhsil, səhiyyə sektoruna, həyatımızın hər bir aspektinə aid konkret layihələri müzakirə edirik. Əlbəttə ki, bu, münasibətlərimizin ciddiliyinin aydın göstəricisidir. Sizin ölkə ilə münasibətlərin inkişaf etdirilməsində çox maraqlıyıq. Biz güclü tərəfdaşlığın qurulmasını və bundan qarşılıqlı surətdə bəhrələnməyi arzulayırıq.

Artıq qeyd etdiyim kimi, Azərbaycan sürətlə inkişaf edən ölkədir. İqtisadi artım çox sürətlidir. Siyasi vəziyyət çox sabitdir və proqnozlaşdırıla bilər. Bu, həm də bizim uğur səbəblərindən biridir.

çünki xalq bizə etimad göstərir. Xarici şirkətlər ölkəmizdə özlərini rahat hiss edir. Onlar bilir ki, vəziyyəti proqnozlaşdırmaq olar və uzun illər, onilliklər ərzində Azərbaycanda işləyəcəklər. Hazırda biz neft əməliyyatlarından böyük maliyyə resurslarını formalaşdırırıq. Bir neçə infrastruktur layihəsini həyata keçirməyi planlaşdırırıq. Cənubi Koreya şirkətlərini həmin layihələrdə iştirak etməyə və bizimlə işləməyə dəvət edirik.

Regiondakı ümumi vəziyyət regional təhlükəsizlik və sabitliklə bağlıdır. Bizim qonşularımız var və çalışmalıyıq ki, regional təhlükəsizliyə töhfə verək. Çünki təkcə öz ölkənin daxilində təhlükəsiz və proqnozlaşdırılan vəziyyətin olması kifayət deyildir. Eyni zamanda, qonşu ölkələrdə də sabitlik olması vacibdir.

Ən böyük problemimiz Azərbaycan torpaqlarının 20 faizinin Ermənistanın davam edən işğalı altında olmasıdır. On ildən çoxdur ki, həmin işğal davam edir. Ermənistan tərəfindən azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib, lakin onlar yerinə yetirilməyibdir. Bizim fikrimizcə, bu məsələnin yeganə həll yolu hüquqi formata əsaslanmalıdır. Bu baxımdan onu yalnız beynəlxalq hüququn normaları və prinsipləri əsasında həll edə bilərik. Bu o deməkdir ki, Azərbaycanın bütün beynəlxalq ictimaiyyət və BMT tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri torpaqlarımızdan dərhal çıxarılmalıdır və bizim qaçqın və köçkünlərimizə öz yurd-yuvalarına qayıtmaq imkanı verilməlidir. Dağlıq Qarabağın gələcəyi üçün biz müxtəlif ölkələrdə, Avropa ölkələrində mövcud olan muxtariyyət variantlarından istifadə edə bilərik. Bu, məsələnin yeganə həll yoludur. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç vaxt razılıq verməyəcəkdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və həmin ərazi üzərində suverenliyimiz bərpa olunacaqdır. Bunu etmək üçün biz beynəlxalq vasitəçilərlə işləyirik. Biz danışıqlar prosesindəyik, lakin eyni zamanda, bu məsələni güclənməyimiz vasitəsilə həll etmək istəyirik.

Ona görə də biz müasir infrastruktura çox sərmayələr qoyuruq. Öz iqtisadiyyatımızı, ordumuzu gücləndiririk və büdcəmizi artırırıq. Güclü olduğumuz təqdirdə, istənilən məsələni həll edə, təcavüzün və ədalətsizliyin nəticələrini aradan qaldıra bilərik. Əfsuslar olsun ki, bəzən beynəlxalq ictimaiyyət bu həll edilməmiş məsələyə göz yumur. Ona görə, bu məsələni özümüz həll etmək üçün biz güclü olmalıyıq. Bu, bizim ölkəmizin üzləşdiyi əsas maneə və problemdir. Lakin əminəm ki, biz onu həll edəcəyik və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü bərpa edəcəyik. Beynəlxalq səviyyədə çox fəal işimizi davam etdirəcəyik. İqtisadi islahatlar siyasətini davam etdirəcək, tərəfdaşlarımız və dostlarımızla çox fəal işləyəcəyik. İnanıram ki, çox qısa müddət ərzində biz güclü Azərbaycan qurmağa nail olacağıq.

Mən bir daha Cənubi Koreyanın təcrübəsinə istinad etmək istəyirəm. Ölkəniz olduqca qısa müddət ərzində çox böyük uğurlar qazanmışdır. 1945-ci ildə müstəqillik əldə edildikdən sonra sizin çətin anlarınız olub və yalnız 1960-cı illərdən etibarən iqtisadiyyatınızı sürətlə inkişaf etdirməyə başladınız. Tarixən çox qısa müddət ərzində siz bu gün dünyada aparıcı iqtisadiyyatlardan biri sayılan iqtisadiyyatınızı qurdunuz. Bu, yaxşı nümunədir və biz hər zaman müsbət nümunəni götürməyə çalışırıq. Ona görə də sizin təcrübənizi öyrənmək bizim üçün çox vacibdir.

Xalqlarımız da bir-birinə bağlıdır, çünki onların arasında bir çox oxşarlıqlar var. Hər ikimiz öz tariximizə çox sadiqik, zəngin mədəniyyətimiz var. Milli adət-ənənələrimizə çox diqqətliyik. Yaşlı nəslə böyük hörmətlə yanaşırıq. Hər iki xalq üçün ailə dəyərləri çox vacibdir.

Ölkələrimiz diqqəti öz işlərinə yönəldir və digər ölkələrin daxili işlərinə qarışmır. Bütün bunlar xalqlarımız arasında daha yaxşı anlaşmanı yaradan vacib elementlərdir. Bu, təbii ki, ikitərəfli münasibətlərin inkişafı üçün də vacibdir. İkitərəfli əlaqələr, sadəcə, prezidentlər, nazirlər və ya biznes adamları arasında təmaslarla kifayətlənmir. İnsanlar arasında əlaqələr də vacibdir. İnsanlar bir-birini daha yaxşı tanımağa başlayanda, əminəm ki, çox qısa müddət ərzində bizim tərəfdaşlığımız və əməkdaşlığımız çox geniş olacaqdır. Biz indi yalnız başlanğıc mərhələsindəyik. Bu gün biz əməkdaşlıq sahələrini müəyyən etdik. Ümumiyyətlə, ötən il və bu dəfə həyatımızın bütün aspektlərini əhatə edən 15 sənəd imzalamışıq və artıq praktik işlərə başlayırıq. Heç bir şübhə yoxdur ki, bu cür güclü qarşılıqlı marağın sayəsində biz qısa müddət ərzində inkişafın şahidi olacağıq və qarşılıqlı uğurları görəcəyik.

Göstərdiyiniz diqqətə görə mən bir daha minnətdarlığımı bildirmək istəyirəm. Universitetinizin bu yüksək, fəxri doktoru adının verilməsinə görə təşəkkürümü bildirirəm. Əminəm ki, gələcəkdə ölkələrimiz və xalqlarımız arasındakı əlaqələr dövlətlərimizin rifahı naminə uğurla inkişaf edəcəkdir.

Çox sağ olun.

Azərbaycan Prezidentinin nitqi böyük diqqətlə dinlənildi və hərarətli alqışlarla qarşılandı.

Sonra Dünya Taekvondo Federasiyasının prezidenti, universitetin Elmi Şurasının üzvü doktor Çanq Von Çu çıxış etdi.

Dünya Taekvondo Federasiyasının prezidenti, universitetin Elmi şurasının üzvü doktor Çanq Von Çunun çıxışı

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri doktor İlham Heydər oğlu Əliyev!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə, mən Prezident Əliyevə Kyunq He Universitetinin siyasi elmlər üzrə fəxri doktoru adı verilməsi münasibətilə onu təbrik etmək istəyirəm. Onun qətiyyətli iqtisadi və siyasi rəhbərliyi altında Azərbaycan son illər ərzində bütün dünyada ən yüksək iqtisadi artım sürətinə nail olmuşdur. Azərbaycanın tərəqqisi naminə göstərdiyi böyük səyləri yüksək dəyərləndirilərək, Prezident Əliyev Kyunq He Universitetinin fəxri doktoru adına layiq görülmüşdür.

Mən tərəddüd etmirəm ki, gələn illər ərzində biz Prezident Əliyevin öz ölkəsinə daha böyük töhfələr verməsinin şahidi olacağıq. Mən Prezident Əliyevi və onun nailiyyətlərini qısaca təqdim etməkdən şərəf hissi duyuram.

O, 1995-ci ildən etibarən ilk dəfə Azərbaycan Respublikasının parlamentinə seçilmişdir. 2003-cü ilin oktyabr ayında isə ölkə Prezidenti vəzifəsinə seçilmişdir. Heydər Əliyevin müəyyən etdiyi strategiyanı həyata keçirərək, Azərbaycanın sürətli iqtisadi inkişafını təmin etmişdir. Prezident Əliyev siyasi və iqtisadi fəaliyyətlə yanaşı, Azərbaycan idmanının inkişafına da böyük töhfə vermişdir. O, 1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidentidir.

Mənim Prezident Əliyevlə ilk görüşüm 2004-cü ildə Olimpiya oyunları ərəfəsində olmuşdur. Onunla keçirdiyim sonrakı görüşlərdə gördüm ki, o, taekvondonun inkişafını yüksək dərəcədə dəstəkləyir. İnanıram ki, Prezident Əliyev taekvondonun Azərbaycanda və Xəzər dənizi regionunda daha da inkişaf etdirilməsini bundan sonra da dəstəkləyəcəkdir.

Bu cür möhtəşəm mərasim münasibətilə ümid edirəm ki, ölkəniz ilə Kyunq He Universiteti daha sıx əlaqələr quracaq. Cənubi Koreya və Azərbaycan gələcəkdə iqtisadiyyat, idman, təhsil və mədəniyyət sahələrində əməkdaşlığı gücləndirəcəklər.

Zati-aliləri Prezident Əliyev, bizi sevindirən mərasim münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm və Azərbaycanı daha yüksək nailiyyətlərə doğru apardığınız yolda Sizə uğurlar arzulayıram.

Sağ olun.

Aparıcı: Fəxri adı alan ali qonağın nailiyyətlərini yüksək qiymətləndirərək və hörmət əlaməti olaraq, Cənubi Koreyanın tanınmış solisti xanım Yan Tsun Li musiqi proqramı ilə çıxış edəcəkdir.

Mərasim konsert proqramı ilə başa çatdı.

İordaniya Universitetinin fəxri doktoru

2007-ci il iyulun 29-da İordaniyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə İordaniya Universitetinin siyasi elmlər üzrə fəxri doktoru adının verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Dövlət başçısı əvvəlcə universitetin Elmi Şurasının üzvləri ilə görüşdü, burada ali məktəbin fəxri doktoru mantiyasını geyindi.

Azərbaycan Prezidentinin salona gəlişi hərarətli alqışlarla qarşılandı.

Azərbaycanın və İordaniyanın dövlət himnləri səsləndirildi.

Universitetin rektoru, professor **Hani Dumor** mərasimi açaraq dedi:

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev!

Hörmətli mərasim iştirakçıları!

İordaniya Universiteti bu gün xoş bir hadisəni bayram təntənəsi ilə qeyd edir. Bu gün biz akademik bir şəxsiyyət və dövlət xadimi olan Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə fəxri doktor adı verməkdən şərəf duyuruq. Fəxri doktor adının verilməsi ilə bu nüfuzlu şəxsiyyət eyni zamanda bizim universitetin pedaqoji kollektivinin üzvü olur.

Zati-aliləri cənab Prezident, İordaniya Universiteti bu gün Sizə siyasi elmlər sahəsində fəxri doktor adı verməklə sonsuz sevinc hissləri keçirir. Bu, Sizin siyasət və xalqınıza xidmət sahəsində göstərdiyiniz fəaliyyətin nəticəsi də sayılmalıdır.

Mən indi Sizə bu dərəcənin verilməsi haqqında qərarın mətnini oxuyuram.

Zati-aliləri cənab İlham Əliyev beynəlxalq əlaqələr və onun tarixinin öyrənilməsində həm bakalavr, həm də magistr dərəcələrində yüksək nailiyyətlər əldə etmişdir. Sonradan o, tarix sahəsində elmi dərəcə alaraq, ali məktəbdə kadr hazırlığı ilə məşğul olmuş və mühazirələr oxumuşdur. O, həmçinin öz bilik və bacarığı ilə bir sıra sahələrə müvəffəqiyyətlə rəhbərlik etməklə orada istehsalın və keyfiyyətin yüksək dərəcədə artmasına nail olmuşdur.

Cənab İlham Əliyev sənaye, xüsusilə neft sənayesi siyasəti sahəsində apardığı uğurlu tədqiqatları işdə müvəffəqiyyətlə həyata keçirmiş və bu sahədə onun strategiyası xüsusi uğur qazanmışdır. O, parlamentin deputatı kimi fəaliyyət göstərdiyi illərdə ölkə üçün, öz seçiciləri üçün həyati əhəmiyyət kəsb edən məsələlərin həllinə, o cümlədən Avropa ilə və bizimlə olan əlaqələrə əvəzsiz töhfələr vermişdir.

Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyəti dövründə cənab İlham Əliyev idmanın Olimpiya növlərinin və bir çox başqa sahələrinin inkişafında da xüsusi xidmətlər göstərmişdir və ölkə idmanını beynəlxalq səviyyədə tanıtmağa nail olmuşdur.

Azərbaycan Respublikasının Baş naziri kimi o, üzərinə qoyulmuş vəzifənin öhdəsindən yüksək diplomatik bacarığı və xüsusi idarəçilik qabiliyyəti ilə müvəffəqiyyətlə gəlmişdir.

Yeni Azərbaycan Partiyasına rəhbərliyi dövründə cənab İlham Əliyev yüksək təşkilatçılıq məharəti ilə partiyanın fəaliyyətinin daha da təkmilləşdirilməsi və onun Azərbaycanın siyasi həyatındakı rolunun möhkəmləndirilməsində müstəsna rol oynamışdır.

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı kimi o, öz yüksək siyasi bacarığını bir daha nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Baş naziri və sonradan ölkənin Prezidenti kimi cənab İlham Əliyev Azərbaycanın inkişafı və iqtisadi intibahında, ölkənin taleyüklü problemlərinin həllində, o cümlədən beynəlxalq və regional əlaqələrinin möhkəmləndirilməsində müstəsna rol oynamışdır. Bütün bunlarla yanaşı, xalqlar arasında

qarşılıqlı anlaşmaya və sivilizasiyalararası dialoqa dərindən inanan, dünyada və regionda sülhün bərqərar olmasına xüsusi önəm verən bir şəxsiyyət kimi cənab İlham Əliyev bir çox milli və beynəlxalq komissiyalara inamla başçılıq etmişdir. O, ingilis, rus, fransız və türk dillərini mükəmməl bilir. Bir çox beynəlxalq təşkilatlar tərəfindən yüksək mükafatlar, orden və medallarla təltif edilmiş, dünyanın bir sıra tanınmış universitetlərinin, o cümlədən bizim universitetin fəxri doktoru seçilmişdir.

Zati-aliləri İlham Heydər oğlu Əliyevin parlaq siyasi və akademik fəaliyyətini yüksək qiymətləndirərək, İordaniya Universiteti onu siyasi elmlər sahəsində fəxri doktor seçməkdən şərəf duyur.

Mənə verilmiş səlahiyyət çərçivəsində icazə verin, İlham Heydər oğlu Əliyevə fəxri doktor diplomunu təqdim edim.

Rektor Fəxri doktor diplomunu və digər nişanələri Azərbaycanın dövlət başçısına təqdim etdi.

Əziz mərasim iştirakçıları, sözü Əlahəzrət Kral II Abdullah ibn Hüseynin və İordaniyanın ali qonağı Zati-aliləri cənab İlham Əliyevə verirəm.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, bu gün həyatımda mühüm hadisə hesab etdiyim bu toplantıya gəldiyinizə görə hamınıza minnətdarlığımı bildirmək istəyirəm. Mən universitetinizin fəxri doktoru dərəcəsini almaqdan çox məmnunam və böyük şərəf hissi duyuram.

Universitetiniz regionun aparıcı təhsil mərkəzlərindən biridir. Buna görə də bu cür yüksək dərəcəyə layiq görülmək böyük şərəfdir. Mən sizi əmin etmək istəyirəm ki, gələcəkdə İordaniya ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafına verdiyim töhfəni davam etdirəcəyəm.

Bu gün mənim ölkənizə ilk rəsmi səfərimin birinci günüdür. Əminəm ki, bu səfər münasibətlərimizin inkişafında mühüm mərhələ olacaqdır. Ötən il əlahəzrət Kral II Abdullah Azərbaycana rəsmi səfər etmişdir. Bizim çox mühüm danışıqlarımız, fikir mübadiləmiz və müzakirələrimiz olmuşdur. Bu səfər olduqca intensiv dialoqun davamıdır. Səfər zamanı ikitərəfli əlaqələrimizin möhkəm bünövrəsini qoyan bir çox sənədlər imzalanmışdır. Həmin sənədlər birgə fəaliyyətimizin bütün sahələrini əhatə edir. Ümid edirik ki, əla siyasi münasibətlərlə yanaşı, bizim yaxın gələcəkdə gözəçarpan iqtisadi işlərimiz də olacaqdır. Müxtəlif iqtisadi sahələrdə birgə layihələrimiz həyata keçiriləcəkdir. Biz işbirliyini qurmaq məqsədi ilə özəl sektoru həvəsləndirəcəyik. Əlbəttə, bütün bu addımlar münasibətlərimizin gələcək inkişafına töhfə verəcəkdir.

Dövlət rəhbərlərinin qarşılıqlı rəsmi səfərləri ölkələrimiz arasında əlaqələrin inkişafına aydın şəkildə verdiyimiz əhəmiyyətdən xəbər verən çox vacib hadisələrdir. Bu əhəmiyyətin digər vacib elementi Azərbaycanın İordaniyada və İordaniyanın Azərbaycanda səfirliklərinin açılmasıdır. Bütün bunlar həm də ikitərəfli əlaqələrin mühüm elementləridir. Ölkələrimizdə nümayəndəliklərin tam həcmdə olması əməkdaşlıq üçün yeni imkanların araşdırılmasında bizə yardım edəcəkdir. Həmin əməkdaşlıq çox geniş ola bilər.

Əminəm ki, bu gün imzalanmış sənədlər və apardığımız danışıqlar gələcək əməkdaşlıq üçün çox yaxşı zəmin yaradacaqdır. Bunlar siyasi, iqtisadi inkişaf, humanitar, təhsil, səhiyyə, informasiya texnologiyaları və bir çox digər sahələrə aiddir. Qarşımızda eyni gündəlik var: ölkələrimizin müasirləşdirilməsi, xalqın həyat tərzinin yaxşılaşdırılması, mövcud olan sosial problemlərin həlli, iqtisadi inkişaf. Bütün bu məsələlər həm İordaniya, həm də Azərbaycan hökumətlərinin gündəlik diqqət mərkəzindədir.

Biz bir-birimizə kömək üçün qardaşlığın və dostluğun yaratdığı əlverişli imkanlardan istifadə etməliyik. Biz inkişaf sahəsində qarşılıqlı kömək göstəririk, dəstəyimizi davam etdiririk və xalqlarımız üçün daha yaxşı həyat səviyyəsi yaradırıq.

Biz İordaniyanın və Əlahəzrət Kral II Abdullahın Orta Şərqdə sülh və sabitliyin qurulması istiqamətində göstərdiyi səyləri yüksək qiymətləndiririk. Bizim ölkəmizdə də bu cür problem var. Biz də regionumuzda sülh və təhlükəsizliyin bərqərar olunmasına çalışırıq. Əfsuslar olsun ki, uzun illər boyu biz buna nail ola bilməmişik.

Azərbaycan müstəqilliyini qazandıqdan sonrakı ilk illərdə iqtisadi problemlər və sosial çətinliklərlə yanaşı, Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Hazırda ərazimizin 20 faizi Ermənistanın işğalı altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində indi səkkiz milyon yarım əhalimizin bir milyonu qaçqın və məcburi köçkün vəziyyətində yaşayır.

الجامعة الأردنية
THE UNIVERSITY OF JORDAN

Biz bu münaqişəni dinc yolla həll etməyə çalışırıq, lakin əfsuslar ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən, buna nail ola bilməmişik. BMT-nin Təhlükəsizlik Şurası işğalçı qüvvələrin Azərbaycanın zəbt olunmuş torpaqlarından dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Onlar əməl olunmamış qalır. İslam Konfransı Təşkilatı eyni məzmunlu qətnamələri qəbul edibdir. Daha sonra Avropa Şurası və digər beynəlxalq təşkilatlar eyni addımı atıbdır. Lakin əfsuslar olsun ki, bunlar da yerinə yetirilməyibdir. Biz həmin təcavüzə və bu cür ədalətsiz vəziyyətə son qoymaq məqsədi ilə sülh danışıqlarını və bu sahədə səylərimizi davam etdiririk. Biz hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və Azərbaycanın da ərazi bütövlüyünə beynəlxalq ictimaiyyət, Birləşmiş Millətlər Təşkilatı və bütün ölkələr hörmətlə yanaşır. Buna görə də bizim ərazi bütövlüyümüz bərpa edilməlidir, qaçqın və məcburi köçkünlər öz doğma yurd-yuvalarına qayıtmaq hüququna malik olmalıdır. Bundan sonra isə Qafqazda sülh bərqərar ola bilər.

Bu əsas problemdən başqa, biz bu gün və gələcəkdə qarşımızda hər hansı ciddi maneə görmürük. İqtisadiyyatımız çox uğurla inkişaf edir. Artıq növbəti üçüncü ildir ki, Azərbaycan dünyada ən yüksək sürətlə inkişaf edən iqtisadiyyata malikdir. Son üç il ərzində biz ümumi daxili məhsul istehsalını iki dəfə artıra bildik. Əlbəttə, bu, bizə ölkəni inkişaf etdirmək üçün əlavə imkanlar açır. Yəni infrastrukturu, sənayeni və təbii ki, humanitar sahəni inkişaf etdirmək imkanı yaradır. Biz təhsilə çox böyük diqqət yetiririk. Azərbaycanda son illərdə mindən artıq yeni məktəb tikilmişdir. Eyni zamanda, İordaniyada olduğu kimi, informasiya texnologiyalarına olduqca böyük diqqət veririk və bu sahədə regional mərkəzə çevrilməyə çalışırıq. Səhiyyə və digər humanitar sahələr planlarımıza daxildir. Əlbəttə, regional inkişaf, Azərbaycan regionlarının inkişafı bizim üçün əsas prioritetdir.

Bunlara nail olmaq üçün daxildə sülh və sabitlik olmalıdır. Biz buna nail olmuşuq. Lakin həmin sülh və sabitlik hüdudlarımızdan kənarda da olmalıdır. Azərbaycan regional əməkdaşlığın və təhlükəsizliyin qurulması, o cümlədən regional proseslərin proqnozlaşdırılması sahəsində vacib rol oynayır. Biz Xəzər və Qafqazın sülh və sabitlik regionuna çevrilməsi üçün əlimizdən gələni edəcəyik. Ölkəmizdə bir çox mühüm, nəhəng enerji layihələrinin təşəbbüskarı olmuşuq və hazırda onlar region ölkələrini əhatə edir. Biz nəinki özümüz və regionumuz üçün, o cümlədən daha geniş miqyasda mühüm enerji daşıyıcıları hasilatçısına çevrili-

rik. Malların daşınması üçün münasib yolların yaradılması məqsədi ilə regionumuzdakı qonşularımızla daşınma infrastrukturu üzərində işləyirik.

Bir sözlə, ölkə daxilində və xaricində apardığımız işlər daha yaxşı iqtisadi vəziyyətin təmin olunmasına yönəlib, çünki Azərbaycanda baş verən bütün mühüm hadisələr həmin xüsusi məqsədə xidmət edir. Biz yoxsulluğu aradan qaldırırıq. Yeri gəlmişkən, bu sahədə əldə etdiyimiz gözəçarpan uğur ondan ibarətdir ki, Azərbaycanda yoxsulluq həddindən aşağıda yaşayan insanların sayı 20 faizə qədər azalmışdır. Halbuki üç il bundan əvvəl, onların sayı 50 faiz təşkil edirdi. 20 faiz də çoxdur, biz bunu daha da azaltmalıyıq. Yoxsulluğu aradan qaldırmaq, insanların özünü xoşbəxt hiss etdiyi cəmiyyət qurmaq üçün biz iqtisadi məsələlərə diqqətimizi artırmalıyıq. İqtisadi potensial gücü təmin edir. Biz güclənməliyik. Bir müstəqil ölkə kimi tariximizin cəmi 15 ilini yaşamışıq və həmin illər asan olmayıbdır. Biz yalnız indi bütün əsas iqtisadi və sosial çətinlikləri həll edə bilmişik və inkişaf, tərəqqi yoluna qədəm qoyuruq.

Beynəlxalq təşkilatların fəal üzvü olaraq, biz regional təhlükəsizlik və sabitlik işinə töhfəmizi davam etdiririk. Biz İordaniya ilə nəinki ikitərəfli çərçivədə, həm də beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik. Misal üçün, BMT-də biz hər zaman bir-birimizə dəstək veririk. İslam Konfransı Təşkilatı daxilində biz həmişə bir-birimizi dəstəkləyirik. İslam həmrəyliyi məsələsinə çox böyük önəm veririk. Ötən il, İKT-nin nazirləri səviyyəsində iki mühüm tədbiri Bakıda keçirdik.

İndiki mərhələdə sivilizasiyalararası dialoq haqqında danışmaq çox vacibdir. Lakin bəzən biz müxtəlif hadisələri görürük. Təcridolunmanı müşahidə edirik, dinimizə, adət-ənənələrimizə və keçmişimizə olduqca ədalətsiz yanaşmanın şahidi oluruq. Biz bu məsələləri həll etməliyik. Keçmişimizə, ənənələrimizə hörmətlə yanaşaraq

və milli mənsubiyyətimizi qoruyaraq, müvəffəqiyyətlər əldə etməliyik və insanlara cari inkişafdan faydalanmanı təmin edən müasir cəmiyyəti qurmalıyıq. Eyni zamanda, biz öz tarixi irsimizə, dini köklərimizə, milli özünəməxsusluğumuza çox bağlıyıq. Azərbaycan uzun illər, onilliklər və əsrlər boyu dövlətçiliyindən məhrum olmuşdur. Biz digər imperiyaların və ölkələrin bir hissəsi idik. Məhz nə səbəbə görə biz milli özünəməxsusluğumuzu qoruyub saxlaya bildik? Azərbaycan hissəsi olduğu digər ölkələrin tərkibində niyə assimilyasiya olunmadı? Bu, yalnız tarixi irsimiz, tarixi köklərimiz, adət-ənənələrimiz, milli bayramlarımız, dilimiz və ədəbiyyatımız, poeziyamız sayəsində mümkün olmuşdur. Bütün bunlar özünəməxsusluğumuzu qorumağa imkan yaratdı və bu gün biz müstəqil ölkə kimi inkişaf edirik. Etnik, dini mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycanın hər bir vətəndaşı eyni hüquqlara malikdir. Azərbaycandakı dözümlülük inkişafımızın əsas, vacib meyarlarından biridir.

15 illik müstəqilliyimiz dövründə biz tariximizin ən çətin anlarını da yaşadıq. Bəzən Azərbaycanın dövlətçiliyinin taleyi sual altında idi. Hazırda, qarşımızda açıq üfüqlər var. Biz diqqətimizi inkişafa, iqtisadi potensiala, regional əməkdaşlığa, dostlarımız və qonşularımızla siyasi münasibətlərə yetiririk. Bu baxımdan, İordaniya ilə Azərbaycan arasında əlaqələr bizim üçün çox önəmlidir. Bizim aramızda bir çox oxşarlıqlar da var.

Ölkələrimizin sahəsi, demək olar ki, eynidir. Eyni sözləri əhalinin sayı haqqında da demək mümkündür. Hər iki ölkə rəhbərlərinin yaşı da eynidir. Qardaşım Kral Abdullah ilə yaş fərqimiz yalnız bir aydır. Qarşımızda duran gündəlik də eynidir: xalqlarımızın rifahını necə yüksəltmək, iqtisadiyyatı necə möhkəmləndirmək və regionda sülhü necə bərqərar etmək. Bu, bizi birləşdirir. Əminəm ki, ölkələrimiz arasında sıx tərəfdaşlıq Xəzər və Qafqaz, habelə Orta Şərq regionlarındakı işlərə də öz təsirini göstərəcəkdir.

Hörmətli dostlar!

Mənə universitetinizin fəxri doktoru adının verilməsi kimi şərəfə görə sizə bir daha minnətdarlığımı bildirirəm. Əminəm ki, gələn illər ərzində daha çox əməkdaşlığımız, görüşlərimiz, nümayəndə heyətlərinin mübadiləsi olacaq və dövlətlərimiz, xalqlarımız birbirinə daha yaxın olacaqdır.

Mən qədim İordaniya xalqına çiçəklənmə, uğurlar, sülh və xoşbəxtlik arzulayıram.

Çox sağ olun.

Azərbaycan Prezidentinin nitqi böyük diqqətlə dinlənildi və hərarətli alqışlarla qarşılandı.

Universitetin rektoru **Hani Dumor** Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edərək dedi:

- Zati-aliləri cənab Prezident, bu yüksək səviyyəli nitqinizə və İordaniya Haşimilər Krallığının ünvanına söylədiyiniz səmimi qardaşlıq sözlərinə, Əlahəzrət Kralımız II Abdullah ibn Hüseyn ilə olan qardaşlıq və dostluğunuzla bağlı söylədiyiniz fikirlərə görə Sizə dərin təşəkkürümü bildirirəm.

İordaniya Universiteti özünün fakültələri və potensialı ilə Sizin ölkənizlə əməkdaşlıq etməyə və Azərbaycanın xidmətində durmağa hazırdır.

Mən öz adımdan, Elmi Şuranın üzvləri və tədris heyətinin adından Sizə dərin məzmunlu nitqinizə görə bir daha təşəkkür edirəm. Bu görüş bizim xatirələrimizdə əbədi iz qoyacaqdır.

Mərasim başa çatdıqdan sonra dövlət başçısı universitetin professor-müəllim heyəti ilə, eləcə də Ommanda yaşayan azərbaycanlılarla görüşüb söhbət etdi.

Azərbaycan Prezidenti İlham Əliyev universitet binasının qarşısında Elmi Şuranın üzvləri ilə xatirə şəkli çəkdirdi.

Macarıstanın Korvinus Universitetinin fəxri doktoru

2008-ci il fevralın 18-də Macarıstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bu ölkənin nüfuzlu dövlət ali məktəblərindən biri olan Korvinus Universitetinin fəxri doktoru adının verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Ali təhsil ocağına gələn Azərbaycan Prezidenti İlham Əliyevi universitetin rektoru Tamaş Mesaroş binanın önündə hörmətlə qarşıladı.

Əvvəlcə Elmi Şura üzvlərinin iştirakı ilə görüş keçirildi. Tamaş Mesaroş dövlət başçısına təhsil ocağı barədə məlumat verərək bildirdi ki, Mərkəzi Avropada ən böyük ali məktəblərdən sayılan bu universitetin 7 fakültəsində 17 mindən artıq tələbə təhsil alır, 620 nəfərdən çox professor-müəllim heyəti çalışır. Son 5 ildə universitet fəxri doktor adını yalnız Azərbaycan Prezidenti İlham Əliyevə vermişdir. 1919-cu ildə yaradılmış universitet İkinci Dünya müharibəsi zamanı bağlansa da, sonradan öz fəaliyyətini bərpa etmişdir.

Prezident İlham Əliyev fəxri doktor mantiyasını geyindi.

Sonra konfrans salonunda mərasim keçirildi. Salona toplaşanlar Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı alqışlarla qarşıladılar.

Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru Norbert Kiş dövlət başçısını və xanımını, eləcə də Azərbaycan nümayəndə heyətini salamladı, universitetin rəhbərliyini və Elmi Şuranın üzvlərini təqdim etdi.

İctimai elmlər fakültəsinin dekanı, professor **Jolt Rostovani** Prezident İlham Əliyevin tərcümeyi-halını oxuyaraq dedi:

- Xanımlar və cənablar, bu təqdimat qəbul edilmiş qərarın aid olduğu şəxsiyyətə, Azərbaycanın Avropaya inteqrasiyası yolunda atılmış birinci addımların müəllifinə həsr olunur. O, elə bir şəxsiyyətdir ki, Xavyer Solana onu Avropa İttifaqının böyük dostu adlandırmışdır. Çünki o, ölkəsində siyasi və demokratik islahatların həyata keçirilməsi üçün müvafiq əsasları və Avropanın şərq qapısında yerləşən məkanda müasirləşmə və iqtisadi inkişafa şərait yaratmışdır.

Prezident İlham Əliyev ölkədaxili və beynəlxalq məsələlərin həllinə praqmatik yanaşmadan istifadə edir. O, müasir dünyanı çox yaxşı tanıyır və təşəbbüskardır. Cənab Əliyev Qonşuluq siyasəti çərçivəsində tədbirlər planının tərtib olunmasına fəal şəkildə töhfə vermişdir. Çünki bilir ki, Avropa İttifaqının Qonşuluq siyasəti Azərbaycanın siyasi və iqtisadi meyarlarını Avropa standartlarına uyğunlaşdırmaq imkanı yaradacaqdır.

1990-cı illərin əvvəllərində böyük dəyişikliklərlə üzləşmiş Cənubi Qafqaz ölkələrinə gəldikdə, Prezident İlham Əliyev qətiyyətlə inanır ki, islahatlar prosesi davam etməlidir. Hazırda Azərbaycanın həyata keçirdiyi siyasət ölkənin dəyərlərini Avropa dəyərlərinə daha da yaxınlaşdırır. Prezident aydın şəkildə bəyan etmişdir ki, Azərbaycan Avropa İttifaqına olduqca sadiq qalan maraqlı tərəfdaşdır. O bildirir ki, ölkəsi Avropa İttifaqı ilə münasibətlərinə böyük önəm verir.

Prezident Əliyev 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdir. Bundan sonra, o, həmin institutda aspiranturaya qəbul olunmuş və tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1985-1990-cı illərdə cənab İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda mühazirələr oxumuşdur.

Cənab Əliyev siyasi elmlər üzrə ekspertdir. O, beynəlxalq münasibətlər və suveren Azərbaycanın neft strategiyasının geosiyasi aspektləri sahəsində bir çox tədqiqat işlərinin müəllifidir. Onun yazdığı əsas kitablardan ikisi "Azərbaycan nefti dünya siyasətində" və "Azərbaycanın Xəzər nefti" adlanır. 1991-1994-cü illərdə o, özəl sənaye-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

1994-2003-cü illərdə cənab İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. O, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Prezident Əliyev Avropada, o cümlədən Macarıstanda enerji təchizatı mənbələrinin şaxələndirilməsini dəstəkləyir. Onun prezidentliyi dövründə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir. Həmin addımlar Azərbaycanı Avropa ailəsinə inteqrasiya etməkdə yardımçı olmuşdur.

1995-2000-ci illərdə, o, iki dəfə Azərbaycan Respublikasının Milli Məclisinə - parlamentə seçilmişdir.

2001-2003-cü illərdə o, Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın parlament nümayəndə heyətinin rəhbəri olmuşdur. 2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və ASPA-nın büro üzvü seçilmişdir. 2004-cü ilin aprel ayında cənab Əliyev ASPA-nın tədbirlərində fəal iştirakına və Avropa dəyərlərinə sadiqliyinə görə ASPA-nın medalı və fəxri üzvü diplomu ilə təltif olunmuşdur. 1997-ci ildən etibarən cənab İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. İdman və Olimpiya hərəkatının inkişafında göstərdiyi xidmətlərinə görə cənab Əliyev Beynəlxalq Olimpiya Komitəsinin ən yüksək ordeni - Beynəlxalq Hərbi İdman Şurasının Ali ordeni ilə təltif olunmuşdur.

2003-cü ilin oktyabrın 15-də o, Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Prezident Əliyev Macarıstanla əlaqələri olduqca mühüm sayır. Azərbaycan Prezidenti seçildikdən bir neçə ay sonra məhz cənab Əliyev Macarıstanda səfirlik açmaq barədə qərar qəbul etmişdir. Həmin vaxtdan etibarən o, müxtəlif sahələrdə çalışan bir çox macar nümayəndələrini Azərbaycanda qəbul etmişdir.

Prezident Əliyevin ölkələrimiz arasında elmi əlaqələrə dəstəyi sayəsində son iki il ərzində Budapeştdə iki dəfə Azərbaycan-Macarıstan elmi konfransları təşkil olunmuşdur.

Biz həmçinin qeyd etmək istəyirik ki, açıq qapılar siyasətini və yaxşı idarəçiliyi uğurla həyata keçirdiyini nəzərə alaraq, cənab Əliyev ölkəsində dünyada ən yüksək iqtisadi artım sürətinə nail olmuş və beləliklə, Azərbaycanı regionun aparıcı dövlətinə çevirmişdir.

Prezident Əliyev Budapeştin Korvinus Universiteti ilə Azərbaycan universitetləri arasında əməkdaşlığın möhkəmləndirilməsini arzulayır. Təhsil sahəsində əməkdaşlıq sazişi rektor Mesaroş və Bakı Dövlət Universitetinin, Bakı Ali Diplomatiya Kollecinin rektorları tərəfindən artıq imzalanmışdır.

Norbert Kiş: Cənab professor, çıxışınıza görə Sizə minnətdaram.

İndi isə, mən Budapeştin Korvinus Universitetinin rektoru, professor Mesaroşdan fəxri doktor adını namizədə verməsini xahiş edirəm.

Tamaş Mesaroş: Biz - Budaspeştin Korvinus Universitetinin rektoru və Elmi Şurası Sizə, professor İlham Heydər oğlu Əliyevə universitetimizin fəxri doktoru adını veririk. Mənə düşən bu imkandan istifadə edərək, Sizin elmi və peşə işlərinizi yüksək dəyərləndirərək, Mən Sizi fəxri doktor adına layiq görürəm, qanunla və ənənələrlə fəxri doktorlara düşən bütün hüquq və imtiyazları Sizin üzərinizə qoyuram. İndi isə mən ictimai elmlər üzrə fəxri doktor diplomunu Sizə verirəm.

Rektor fəxri doktor diplomunu Azərbaycanın dövlət başçısına təqdim etdi.

Norbert Kiş: İndi isə, mən çıxış etmək üçün yenicə fəxri doktor adını almış İlham Əliyevə söz verirəm. Buyurun, cənab Prezident, söz Sizindir.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli universitet Elmi Şurasının üzvləri!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, Korvinus Universitetinin bu cür yüksək dərəcəsini, fəxri doktor adını mənə verdiyinə görə universitetin Elmi Şurasına dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən Macarıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi üçün öz işimi ən yüksək səviyyədə davam etdirəcəyəm. Əminəm ki, gələn illər ərzində həmin münasibətlər strateji tərəfdaşlığın yeni mərhələsinə qədəm qoyacaqdır. Bu gün Macarıstan Prezidenti tərəfindən və şəxsən mənim tərəfimdən bəyan edilmişdir ki, əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə qaldırılıbdır. İnanıram ki, bu gün mənə göstərilmiş dost münasibəti və hörmət bu siyasətin davam etdirilməsinə təkan verəcəkdir.

Bu gün mən gözəl ölkənizə dövlət səfəri edirəm. Bu, tarixi bir hadisədir, çünki Azərbaycan Respublikasının Prezidenti Macarıstana ilk dövlət səfərini edir. Qeyd olunduğu kimi, mən Prezident

seçildikdən dərhal sonra münasibətlərimizi möhkəmləndirmək məqsədi ilə Budapeşt şəhərində səfirliyin açılması barədə qərar qəbul etdim. Bu, ikitərəfli münasibətlərimizə verdiyimiz əhəmiyyəti göstərirdi. Mən çox şadam, ötən müddət ərzində ölkələrimiz arasında əlaqələr gücləndi. Bu gün isə, olduqca mühüm ikitərəfli sənədlərin imzalanmasından sonra, həmin əlaqələr tərəfdaşlığımızın yeni sahələrini də əhatə edəcəkdir.

Biz Azərbaycanda gənclərin təhsilinə çox böyük diqqət veririk. Bizim yaxşı iqtisadi göstəricilərimiz və olduqca sürətli iqtisadi inkişafımız var və nailiyyətlərimizi insan kapitalına çevirməyə çalışırıq. Biz xüsusi təhsil proqramlarını həyata keçiririk. Hökumətin təhsilə ayırdığı xərclər dövlət büdcəsində ən böyük yer tutur. Təkcə son üç-dörd il ərzində Azərbaycanda 1200 məktəb tikilmişdir. Təhsil siyasəti tədricən daha da güclənir. Biz bütün məktəblərin kompyuterləşdirilməsi və internetə qoşulması proqramını yekunlaşdırırıq. Bir neçə il bundan əvvəl belə imkanlar yox idi. Əminəm ki, ölkələrimiz arasında əməkdaşlığı daha da möhkəmləndirmək üçün biz təhsil sahəsində işbirliyimizi genişləndirməliyik. Gələcək təhsildədir. Təhsil bilik, texnologiyalar deməkdir. Hər bir ölkənin gələcək uğurları məhz onun insanlarının biliyindən, bacarığından və peşəkarlığından asılı olacaqdır.

Azərbaycan zəngin enerji ehtiyatlarına malikdir. Lakin əminəm ki, gələcəyimiz insanlarımızın peşəkarlıq və bilik səviyyəsindən asılı olacaqdır. Ölkəmiz müstəqilliyin ilk illərində ortaya çıxan əsas problemləri aradan qaldırmağa nail oldu. Sosialist sistemindən bazar iqtisadiyyatı sisteminə keçid asan olmamışdır, lakin uğurla getmişdir. 1991-ci ildə müstəqilliyini qazanmış Azərbaycanda bazar iqtisadiyyatını əks etdirən heç bir element və ya meyar yox idi. Bu gün isə iqtisadiyyatımızın 80 faizdən çoxu bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Ötən illər böyük keçid dövrü kimi yadda qaldı. Mühüm iqtisadi və siyasi islahatlar bizə əsas çətinlikləri aradan qaldırmağa imkan verdi. Hazırda Azərbaycan sürətlə inkişaf edən ölkədir. Biz siyasi və iqtisadi islahatları, Avropa strukturlarına inteqrasiyanı davam etdiririk.

Artıq qeyd edildiyi kimi, bu gün Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya siyasəti olduqca aydındır və ardıcıl şəkildə həyata keçirilir. Uzun illər ərzində biz həmin siyasəti aparmışıq. Avropa Şurasına üzvlük, Yeni qonşuluq siyasəti çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlıq, enerji ilə bağlı məsələlər müəyyən vaxt keçdikdən sonra Azərbaycanın hansı nəticələri əldə edəcəyindən xəbər verir. Biz düzgün yoldayıq, yaxşı sürətlə irəliləyirik. Sizə deyə bilərəm ki, siyasi və iqtisadi islahatlar, liberallaşma, ölkədə gedən demokratik proseslər, Avropa İttifaqı ilə və regiondakı müttəfiq ölkələrlə güclü tərəfdaşlıq iqtisadi vəziyyəti gözəçarpan dərəcədə yaxşılaşdırmaq imkanını açdı.

Son dörd il ərzində iqtisadi artım sürətinə görə biz dünyada birinci yer tutmuşuq. Son dörd ildə, iqtisadiyyatımız 96 faiz artmışdır. Biz, demək olar ki, iqtisadiyyatı iki dəfə artırmışıq. Sənaye istehsalı da təqribən eyni sürətlə artmışdır. Yoxsulluq şəraitində yaşayan insanların sayını nəzərəçarpan dərəcədə azalda bildik. Son dörd il ərzində bu göstərici 49 faizdən 16 faizə düşmüşdür. Əminəm ki, yaxın gələcəkdə ölkəmizdə yoxsulluq tam aradan qaldırılacaqdır.

Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır. Onlar bir-birini tamamlayır. Əminəm ki, bu, düzgün siyasətdir. Demokratik inkişaf, siyasi islahatlar, siyasi sistemin təkmilləşməsi, qanunun aliliyinin təmin edilməsi və eyni zamanda, iqtisadiyyatın liberallaşdırılması, özəl sektorun dəstəklənməsi, açıq iqtisadiyyat, xarici sərmayələrin cəlb edilməsi kimi bu və ya digər amillər özümüzə əminliyə və müstəqil olmağa, xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət yürütməyə imkan yaradır.

Ölkəmizin və xalqımızın qədim tarixi var. Lakin əsrlər boyu, bizim dövlətçiliyimiz olmayıb, digər ölkələrin tərkibində yaşamışıq. Yalnız Sovet İttifaqının süqutundan sonra biz müstəqil ölkəyə çevrildik. Lakin bu, kifayət deyildi. Biz əsl müstəqil siyasəti, öz milli maraqlarımıza əsaslanan siyasəti, Azərbaycan xalqına sülh və əmin-amanlıq şəraitində yaşamağa imkan verəcək siyasəti həyata keçirməyə qadir olmalı idik. Sizə deyə bilərəm ki, müstəqilliyimizdən artıq 16 il keçdikdən sonra əsas strateji məqsədlərə nail olmuşuq. Azərbaycan regionda öz mövqeyini qətiyyətlə tutur. Biz tam şəkildə öz tələbatlarını ödəyən ölkəyik. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda lider ölkəyik. Dünyanın əsas şirkətlərini tərəfdaş və sərmayədar kimi cəlb etmək məqsədi ilə ölkəmizdə olduqca cəlbedici sərmayə mühitini yarada bilmişik.

Biz Azərbaycanın nəhəng neft və qaz yataqlarında işlənilməsinə başladıq və bəziləri üçün xülya kimi görünən boru kəmərlərini çəkməyə qadir olduq, bunu reallığa çevirdik. Biz boru kəmərlərimiz vasitəsilə Xəzər dənizini Qara dənizlə, eləcə də Aralıq dənizi ilə birləşdirə bildik. Azərbaycanın böyük həcmdə nefti və qazının Avropa bazarına və beynəlxalq bazarlara çıxarılmasını təmin edən infrastruktur yaratmışıq. Bu, yalnız müstəqil siyasət aparmaq qabiliyyətimiz sayəsində mümkün olmuşdur. Bunsuz həmin

BUDAPESTI CORVINUS EGYETEM
SCIENTIA MEA

layihələrin heç biri reallığa çevrilə bilməzdi. Bunlar olmasaydı, biz indi özümüzə arxayın ola bilməzdik. Regionumuzda Azərbaycan əsas regional layihələrdə iştirak edir və bir çox hallarda, onların təşəbbüskarıdır. Regional miqyaslı layihələr Mərkəzi Asiya, Xəzər dənizi, Qafqaz, Qara dəniz və Baltik dənizi regionları arasında daha fəal əməkdaşlıq etməyə imkan yaradacaqdır.

Əlbəttə ki, enerji amili olduqca mühüm rol oynayır. Hazırda, Azərbaycan gündə 1 milyon barrel neft hasil edən ölkədir. Ölkəmiz bir əsrdən də çox müddət ərzində özümüzün və dostlarımızın tələbatlarını ödəyəcək böyük qaz yataqlarına malikdir. Biz neft və qazı nəinki hasil etməyə, onu nəql etməyə də qadir olduq.

Macarıstanla ikitərəfli məsələlər gündəliyində duran digər bir sahə enerji sahəsindəki əməkdaşlığa aiddir.

Eyni zamanda, Avropa İttifaqı və Azərbaycan strateji enerji tərəfdaşlığı çərçivəsi yaradıblar. Memorandum ilyarım bundan əvvəl imzalanmışdır. Bu, zənnimcə, mühüm praktik nəticələrini verən strateji siyasətimizin aydın göstəricisidir. Azərbaycan neft və qaz sahəsində böyük potensiala, nəqletmə marşrutlarına malik olan və Xəzərdə hasil edilən qazı artıq Avropa bazarına çatdırmış ölkədir. Bu, bir neçə ay bundan əvvəl baş vermiş tarixi hadisə oldu.

Hazırkı mərhələdə biz Avropa İttifaqı və üzv ölkələrlə, eləcə də sizin regionun ölkələri, xüsusən də Macarıstanla əməkdaşlığımızı davam etdirməliyik. Bu, tərəfdaşlığımızın möhkəmləndirilməsinə xidmət edəcəkdir. Enerji ehtiyatlarımız Azərbaycan xalqının rifahına xidmət edir və regionumuzda sülhə, əməkdaşlığa, istehsalçı ilə istehlakçı arasında maraqların tarazlığına töhfə verir. Bu tarazlıq tapılmalıdır, ona görə də biz işimizi davam etdiririk və fikrimcə, artıq yaxşı nailiyyətlər əldə etmişik. Belə olan halda, enerji bazarı və enerji məsələləri bugünkü qədər vacib olmayacaqdır.

Əgər yadımızdadırsa, üç-dörd il bundan əvvəl, enerji təhlükəsizliyi məsələsi gündəlikdə yox idi. Bu mövzu müzakirə obyekti deyildi və narahatlıq doğurmurdu. Lakin bu gün bunlar baş verir. Niyə? Çünki məhdud ehtiyatlar, bazara məhdud çıxış və bəzi hallarda potensial bazarların qeyri-ədalətli bölüşdürülməsi gərginlik yaradır. Lakin əgər enerji siyasəti, enerji amili istehlakçılarla istehsalçıların maraqlarının tarazlığına, azad bazar iqtisadiyyatına, infrastruktura azad çıxışa, əməkdaşlıq və dostluğa, eləcə də qarşılıqlı dəstəyə əsaslanırsa, onda, əminəm ki, enerji təhlükəsizliyi ilə bağlı gərginlik və bu məsələlərin müzakirəsinin təcili olması azalacaqdır. Əminəm ki, gördüyümüz işlər bu sahədə potensial gərginliyin azalmasına yönəlibdir.

Bir daha bəyan etmək istəyirəm, bizim enerji ehtiyatlarımız sülhə, əməkdaşlığa və tərəfdaşlığa xidmət edir. Bu siyasət davam edəcəkdir. Bu baxımdan, Azərbaycan özünün mühüm rolunu davam etdirəcəkdir. Əminəm ki, bu amil bizə Avropa İttifaqı ilə daha geniş münasibətlər qurmağa imkan yaradacaqdır. Azərbaycanın qoşulduğu Avropa İttifaqının Yeni qonşuluq siyasətinin həyata keçirilməsi nəticəsində biz həyatımızın meyarlarını Avropa İttifaqının meyarlarına yaxınlaşdıracağıq. Bunlar bizim planlaşdırdığımız işlərdir.

Yaxşı coğrafi mövqeyimiz var. Şərq ilə Qərbin kəsişdiyi məkanda yerləşirik. Hazırda Asiya ilə Avropa arasında Azərbaycan vasitəsilə müasir nəqliyyat infrastrukturunun yaradılmasına töhfə veririk və mühüm rol oynayırıq. Çünki coğrafi baxımdan bunu Azərbaycanın iştirakı olmadan etmək mümkün deyildir. Biz nəqliyyat sahəsində olduqca ciddi infrastruktur yaradırıq. Zəngin təbii sərvətlərimiz, güclü siyasi iradəmiz və Azərbaycan xalqının apardığımız siyasətə tam dəstəyi var. Xarici siyasətə və enerji siyasətinə, eləcə də yerli proqramlara, yoxsulluğun və işsizliyin azaldılmasına dair atdığımız addımlar Azərbaycan xalqı tərəfindən dəstəklənir. Ölkəmizdə çox sabit və proqnozlaşdırılan vəziyyət mövcuddur.

Artıq qeyd etdiyim kimi, biz ölçatmaz səviyyəyə nail ola bildik. Dörd ildə ümumi daxili məhsulun 96 faiz artımı ciddi nailiyyətdir. Hazırkı mərhələdə biz siyasətimizi davam etdirməyi, qonşuluqda və Avropa İttifaqında olan dostlarımızla yeni razılaşmalar əldə etməyi və tərəfdaşlıq təşəbbüslərinə qoşulmağı planlaşdırırıq. Bu halda biz yenə də Macarıstanın dəstəyinə arxalanırıq. Biz həmin dəstəyi hər zaman, xüsusən də Avropa İttifaqının Yeni qonşuluq siyasəti ilə bağlı hiss etmişik. Əminəm ki, gələcəkdə təşəbbüslərimiz və birgə fəaliyyətimiz davam edəcəkdir.

Bütün bunlar Azərbaycanın mühüm rol oynadığı regiondakı müsbət inkişaf prosesləridir. Lakin eyni zamanda, regionda narahatlıq doğuran məsələlər də var. Yeni nail olmağa və yerinə yetirməyə planlaşdırdığımız işlər Azərbaycanın və keçmiş SSRİ-nin bəzi digər ölkələrinin uzun illər üzləşdiyi təhlükəli meyillər nəticəsində şübhə altına düşə bilər. Bu, separatizm siyasəti, ölkəmizə qarşı Ermənistanın təcavüzü, torpaqlarımızın 20 faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğalıdır.

Azərbaycana qarşı təcavüz hətta müstəqillikdən öncə, Sovet İttifaqı vaxtlarında başlamışdır. Həmin dövrdə, Sovet İttifaqının o vaxtkı rəhbərliyinin Dağlıq Qarabağdakı separatçılara birtərəfli dəstəyi nəticəsində, ərazilərimiz Ermənistan silahlı qüvvələrinin təcavüzünə məruz qaldı. Torpaqlarımızın işğalı etnik təmizləmə ilə

nəticələndi. Bir milyon azərbaycanlı doğma yurdundan qovulmuşdur. Hazırda həmin insanlar çətin şəraitdə yaşayırlar. Biz onlara yardım etməyə, həyat şəraitini yaxşılaşdırmağa çalışırıq. Lakin ən vacibi ondan ibarətdir ki, onlar öz doğma yurd-yuvalarına qayıtmaq hüququna malik olmalıdırlar.

Bu gün Dağlıq Qarabağ tanınmamış, qeyri-qanuni qurumdur, orada heç bir beynəlxalq nəzarət və ya monitorinq yoxdur. Siz burada, Avropada beynəlxalq nəzarətdən kənar olan heç bir belə məkan tapa bilməzsiniz. Təhlükə məhz bundadır. Bu, bütün regiona təhlükədir. Ermənı silahlı qüvvələrinin torpaqlarımızdan çıxmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, Avropa Şurası Parlament Assambleyasının və ATƏT-in oxşar qətnaməsinə baxmayaraq, münaqişə hələ də həll olunmayıbdır. Sülh danışıqlarına sadiq qalmaq məqsədi ilə biz maksimum şəkildə konstruktiv yanaşmanı nümayiş etdiririk. Lakin hamı başa düşməlidir ki, bu, daim davam edə bilməz. Atəşkəs rejimi yarandıqdan sonra artıq 14 ildir ki, biz danışıqlar prosesindəyik. Lakin praktik nəticələr yoxdur. Bu, elə bir məsələdir ki, beynəlxalq ictimaiyyət, xüsusən də Avropa strukturları ona daha fəal mövqedən yanaşmalıdırlar.

ATƏT nizamlama mandatına malikdir, lakin bu o demək deyil ki, Avropanın qalan hissəsi buna laqeyd baxmalıdır. Bu, təhlükədir və bizə qarşı ədalətsizlikdir. Öz torpaqlarına qayıda bilməyən bir milyon vətəndaşın insan hüquqlarının pozulmasıdır. Nəinki Dağlıq Qarabağın özü, həm də onun hüdudlarından kənarda yerləşən və ermənilərin heç vaxt yaşamadığı yeddi rayon da işğal altındadır. Bu, təhlükədir. Biz məsələnin həllinə çox çalışırıq. Lakin həll variantı kiminsə arzularına deyil, beynəlxalq hüquq normalarına, ədalətə və dünyada mövcud olan çərçivəyə əsaslanmalıdır. Belə olmasa, dünyanın quruluşu bundan əziyyət çəkəcəkdir. Belə olmasa, bu ədalətsizlik digər yerlərdə də ədalətsizliyə zəmin yaradacaqdır. Bilirik ki, dünyada və Avropada separatizm təhlükəsi olan bir çox yerlər var. Əgər bu başlasa, onun sonu olmayacaq və bizi uçuruma, düşmənçiliyə və gözlənilməyən nəticələrə aparacaqdır.

Bir sözlə, bu, bütün planlarımıza və layihələrimizə olan yeganə təhlükədir. Mən bir daha demək istəyirəm ki, biz həll yolunu tapmaq məqsədi ilə əlimizdən gələni edəcəyik. Lakin eyni zamanda anlayırıq ki, beynəlxalq hüquq normalarına əsaslanan ədalətli həll yolu üçün özümüz güclü olmalıyıq. Ona görə biz siyasi və iqtisadi islahatların aparılması, ölkənin müasirləşdirilməsi, ölkədəki meyarların beynəlxalq meyarlara yaxınlaşdırılması baxımından çox çalışırıq.

Biz təhsil, informasiya texnologiyaları, yeni texnologiyalar sahəsinə, iqtisadiyyatın enerji ilə bağlı olmayan sektorlarının inkişafına böyük sərmayələr yatırırıq ki, Azərbaycanın iqtisadiyyatını daha da şaxələndirək. Bu sahədə macar dostlarımızla əməkdaşlıq üçün bir çox imkanlar var. Enerji sahəsində tərəfdaşlıq uğurla gedir. Enerji şirkətlərimiz qarşılıqlı maraq doğuran məsələlər üzrə çox fəal ünsiyyət saxlayırlar. Biz bu tərəfdaşlığı neftlə bağlı olmayan sahələrə qədər genişləndirmək arzusundayıq. Bundan əlavə, humanitar aspekt var. Təhsil sahəsində əməkdaşlıq, tələbə-müəllim mübadiləsi, mədəni əlaqələr vacibdir. Biz bir-birimizi daha yaxşı tanımalıyıq, təmaslarımızı səfərdən-səfərə yox, dövri olaraq qurmalıyıq.

Bu səfərim son 16 il ərzində Azərbaycanın dövlət başçısının Macarıstana ilk dövlət səfəridir. Mən Macarıstan Prezidentini ölkəmizə səfərə dəvət etdim və ümidvaram ki, o, dəvətimi qəbul edib Azərbaycana gələcəkdir.

Mən Universitetin Elmi Şurasının üzvlərini, həmkarlarımı da Azərbaycana səfərə dəvət edirəm. Beləliklə, siz azərbaycanlı həmkarlarınız və tələbələrlə təmaslar qura bilərsiniz. Bu yaxınlarda biz gənc tələbələrin xaricdə, dünyanın aparıcı universitetlərində təhsil alması ilə bağlı Prezident proqramını qəbul etmişik. Ötən il mən xüsusi fərman imzalamışam və bu ildən etibarən, biz ilk 60 tələbəni dünyanın aparıcı universitetlərinə göndərəcəyik. İlbəil həmin tələbələrin sayını artıracaq və onların sayını 100-ə çatdıracağıq. Tələbələr digər ölkələrdə həm də dostluq münasibətləri yaradacaqlar. Hesab edirəm ki, tələbələrimizin yollanacağı ünvanlardan biri də Macarıstan və sizin universitetiniz ola bilər. Nəzərə alsaq ki, mənim artıq bu universitetlə əlaqəm yaranıb, mən tələbələri sizin təhsil ocağınızda oxumaq üçün bu imkandan istifadə etməyə dəvət edəcəyəm.

Hörmətli dostlar, vaxtınızı çox almaq istəmirəm. Sıralarınıza qoşulmaq şərəfinə görə sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Siz mənə yüksək fəxri doktor adını verdiniz. Bir daha bildirmək istəyirəm, gələcək fəaliyyətim zamanı ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırmaq və Macarıstan ilə Azərbaycan xalqlarının maraqlarına xidmət edəcək strateji tərəfdaşlıq qurmaq üçün əlimdən gələni edəcəyəm.

Sizə bir daha çox minnətdaram.

Azərbaycan Prezidentinin nitqi böyük diqqətlə dinlənildi və hərarətli alqışlarla qarşılandı.

Norbert Kiş: Professor İlham Əliyev, sağ olun.

Xanımlar və cənablar, mən bütün iştirakçıları bir daha salamlayır, bugünkü mərasimi bağlı elan edirəm.

Moskva Dövlət Universitetinin fəxri professoru

2008-ci il fevralın 21-də Rusiyada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəxri professoru adının verilməsi münasibətilə universitetin Elmi Şurasının təntənəli iclası olmuşdur.

MDU-nun rektoru akademik Viktor Sadovniçi Azərbaycan dövlətinin başçısını, onun xanımı Mehriban Əliyevanı və qızını - Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanı universitetin əsas giriş qapısının yanında səmimiyyətlə qarşıladı.

Elmi Şuranın iclasının iştirakçıları salona daxil olan Azərbaycan Prezidentini hərarətlə qarşıladılar.

Viktor Sadovniçi təbrik sözü söylədi.

MDU-nun rektoru, akademik
Viktor Sadovniçinin çıxışı

- Hörmətli həmkarlar!

İcazə verin. Elmi Şuranın Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə Moskva Dövlət Universitetinin fəxri professoru adı verilməsinə həsr edilmiş təntənəli iclasını açıq elan edim.

Hörmətli İlham Heydər oğlu!

Hörmətli qonaqlar, əziz həmkarlar!

Bu gün biz Azərbaycan Respublikasının Prezidenti, tanınmış siyasi xadim, görkəmli insan, siyasi elmlər doktoru və MDU-nun böyük dostu İlham Heydər oğlu Əliyevi Moskva Dövlət Universitetinin Elmi Şurasının iclas salonunda salamlayırıq.

İlham Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə o, Bakı şəhərində orta məktəbdə oxumuşdur. 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna (MDBMİ) daxil olmuş, 1982-ci ildə oranı bitirərək, elə həmin ali məktəbin aspiranturasında təhsilini davam etdirmişdir. 1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1985-1990-cı illərdə İlham Əliyev MDBMİ-nin Avropa və Amerika ölkələrinin tarixi və siyasəti kafedrasının müəllimi işləmişdir.

1994-cü ildən 2003-cü ilin avqust ayına qədər İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, daha sonra birinci vitse-prezidenti olmuşdur. O, Heydər Əliyevin irəli sürdüyü, respublika iqtisadiyyatını möhkəmlətmək və ölkəni dünyada layiqli səviyyəyə çatdırmaq məqsədi daşıyan neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Bu vəzifədə işlədiyi dövrdə o, suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işləri dərc etdirmiş və siyasət elmləri sahəsində doktorluq dissertasiyası müdafiə etmişdir. İlham Əliyev iki dəfə - 1995-ci və 2000-ci ildə Azərbaycan Respublikasının parlamentinin - Milli Məclisin deputatı seçilmişdir. 1999-cu ildə o, respublikanın iqtidar partiyası olan Yeni Azərbaycan Partiyasının sədr müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə bu partiyanın sədri seçilmişdir.

2001-2003-cü illərdə İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası parlamentinin nümayəndə heyətinin rəhbəri olmuşdur. İlham Əliyev 2003-cü il avqustun 4-də, parlament tərəfindən təsdiqləndikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir. 2003-cü il oktyabrın 15-də İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmiş və oktyabrın 31-də bu vəzifədə işə başlamışdır. Prezident seçkilərində seçicilərin 76 faizdən çoxu ona səs vermişdir.

Bu gözəl insanın maraq dairəsi heyrətamiz dərəcədə çoxcəhətli və geniş, onun hərtərəfli istedadının tətbiq sahələri müxtəlifdir. İlham Əliyev 1997-ci ildən indiyə qədər Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və olimpiya hərəkatının inkişafına böyük töhfələrinə görə o, Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif olunmuşdur.

2003-cü ilin yanvar ayında İlham Heydər oğlu Avropa Şurası Parlament Assambleyasının sədr müavini və Büro üzvü seçilmişdir. Assambleyanın işində fəal iştirakına, Avropa ideallarına sadiqliyinə görə 2004-cü ilin aprel ayında o, Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomu və medalı ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Prezidenti rus, ingilis, fransız və türk dillərini də mükəmməl bilir. İlham Heydər oğlu çoxsaylı xarici mükafatlarla təltif olunmuşdur. O, bir sıra ölkələrdə müxtəlif universitetlərin fəxri titullarına layiq görülmüşdür.

Moskva Dövlət Universiteti Azərbaycanın ali məktəbləri ilə fəal əməkdaşlıq edir. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və başqaları ali məktəblərarası əməkdaşlıqda bizim aparıcı tərəfdaşlarımızdır.

Ölkələrimizin universitetlərinin müxtəlif fakültələri çoxtərəfli və səmərəli əməkdaşlıq edir. Hazırda MDU-nun 18 fakültəsində Azərbaycandan olan 70-ə yaxın tələbə müqavilə əsasında təhsil alır, ümumiyyətlə isə bizdə 200-dən çox Azərbaycan vətəndaşı oxuyur. Qeyd etmək istərdim ki, onların bir qismi Azərbaycan Prezidenti

tərəfindən təsdiq edilmiş 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması üzrə Dövlət proqramı sayəsində biliklərə yiyələnir. Ötən ilin oktyabr ayında bizim tələbələr Bakı ilə telekörpü yaratmış, bu telekörpüdə İlham Heydər oğlu Əliyev də iştirak etmişdi.

Hörmətli İlham Heydər oğlu, bu gün Moskva Universiteti ilə Azərbaycan Respublikasının qarşılıqlı münasibətlərindən söhbət açanda mən Sizin atanız Heydər Əlirza oğlu Əliyevlə dostluğumun tarixini xatırlamaq istərdim. Bizim ilk görüşümüz 80-ci illərin axırlarında olmuşdu. O, Moskva Universitetinə gələndə mən hələ MDU-nun birinci prorektoru idim. SSRİ-nin birinci rəhbərlərindən olan Heydər Əlirza oğlu o vaxt Nazirlər Sovetinin sosial məsələlər bürosuna rəhbərlik edirdi və MDU-nun əmək kollektivi ilə görüşlər keçirmək və ünsiyyətdə olmaq üçün buraya gəlirdi. O vaxt Heydər Əliyevlə həmin görüşdə qəbul edilmiş Moskva Universitetinin inkişaf proqramının həyata keçirilməsi mənə tapşırılmışdı. Sonralar biz Moskvada və Azərbaycanda keçirilən müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşdük. 2000-ci ildə Bakıda, Bakı Universitetinin 80 illiyi bayram edilərkən bizim görüşümüzdən aldığım dərin təəssürat hələ də yadımdadır. Əvvəlcə qısa söhbət şəklində planlaşdırılan bu görüş iki saatdan çox davam edən dostcasına söhbətə çevrildi. Yadımdadır, Heydər Əliyev bütün adamları, onlarla nə vaxt görüşdüyünü yada salır, onların indi harada işlədikləri, nə ilə məşğul olduqları ilə maraqlanır, Moskva Universitetinin taleyi barədə suallar verirdi.

Bir məqamı da xatırlatmaq mənə çox xoşdur ki, 2002-ci ildə Heydər Əlirza oğlu Əliyev artıq Prezident kimi Moskva Universitetinə gəlmiş və bizim universitetdə bayram kimi qeyd edilən Tatyana gününə həsr olunmuş təntənəli iclasda iştirak etmişdi. Həmin gün ona MDU-nun fəxri professoru adı verilmişdi.

Heydər Əliyev görkəmli insan idi, onun məhsuldar həyatı həm SSRİ-nin, həm də yeni Rusiyanın və yeni Azərbaycanın tarixi ilə sıx bağlı idi. O, Moskva Universitetinə dəfələrlə ən müxtəlif sahələrdə kömək və dəstək göstərmişdi.

Bu günün hadisələrinə qayıdaraq, Azərbaycana son səfərim barədə söhbət açmaq istərdim. Keçən il may ayında biz Bakı Dövlət Universitetində olduq, rektor Məhərrəmovla Azərbaycanda MDU-nun filialının yaradılması məsələsini müzakirə etdik. Bu səfərin gedişində biz İlham Heydər oğlu ilə görüşmək şərəfinə də nail olduq. Həmin görüşdə MDU-nun filialının yaradılması ideyası səsləndi və qəbul edildi. Biz bu niyyətin həyata keçirilməsi perspektivlərini və planlarını müzakirə etdik.

Qeyd etmək istəyirəm ki, Prezident bu ideyanı dərhal hərtərəfli dəstəklədi və mən burada iştirak edənlərin hamısına bunu bildirməyi özümə şərəf sayıram ki, 2008-ci il yanvarın 15-də Azərbaycan Prezidenti Bakı şəhərində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması barədə Sərəncam imzalamışdır. Hörmətli İlham Heydər oğlu, mən bu hadisələr arasında müəyyən paralel aparmaqla demək istəyirəm ki, Siz atanızın işini davam etdirərək, uzaqgörən və müdrik siyasət yeridir, ölkənizdə və onun hüdudlarından kənarda təhsilin və elmin inkişafı naminə universitetlərin fəaliyyətinə böyük dəstək verirsiniz. Siz yüksək hazırlıqlı mütəxəssislərin hər bir dövlətin inkişafında və tərəqqisində böyük rol oynadığını bilir, ölkənin böyük gələcəyinin təşəkkülünə öz töhfələrini verməyə çalışan gəncləri fəal dəstəkləyirsiniz.

Əlbəttə, mən bizim planlarımız haqqında, birgə işimizin səmərəli olması barədə hələ çox danışmaq istərdim, lakin təəssüf ki, bu mərasimin vaxtı məhduddur. Ona görə də icazə verin, buraya toplaşanların qarşısında Moskva Universitetinin Elmi Şurası tərəfindən qəbul olunmuş qərarı elan edim.

Möhtərəm İlham Heydər oğlu, mən böyük məmnuniyyətlə bildirmək istəyirəm ki, Rusiya ilə Azərbaycan arasında əlaqələrin möhkəmlənməsinə, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə elmin və təhsilin inkişafına görkəmli töhfənizi nəzərə alaraq və Moskva ilə səmərəli əməkdaşlığınıza görə MDU-nun Elmi Şurası Sizə Moskva Universitetinin fəxri professoru adı verilməsi barədə qərar qəbul etmişdir.

İcazə verin, MDU-nun fəxri professoru diplomunu Sizə təqdim edim.

Viktor Sadovniçi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Elmi Şurasının qərarını oxudu:

"Rusiya ilə Azərbaycan arasında əlaqələrin möhkəmlənməsinə, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə elmin və təhsilin inkişafına görkəmli töhfələrinə və Moskva Universiteti ilə səmərəli əməkdaşlığına görə İlham Heydər oğlu Əliyevə Moskva Universitetinin fəxri professoru adı verilsin. Bu ad ona qanunla və adətlərlə müəyyən olunmuş bütün şərəf və imtiyazlar hüququnu təmin edəcəkdir".

Rektor Azərbaycan Prezidenti İlham Əliyevə MDU-nun fəxri professoru diplomunu və medalını təqdim etdi.

Sonra söz Rusiya Elmlər Akademiyasının akademiki, MDU-nun kimya fakültəsinin dekanı Valeri Luninə verildi.

MDU-nun kimya fakültəsinin dekanı, akademik Valeri Luninin çıxışı

- Çox hörmətli İlham Heydər oğlu!

Əziz qonaqlar, əziz həmkarlar!

Bu gün Moskva Universitetində çox parlaq və təmtəraqlı bir hadisə baş verir - görkəmli dövlət xadimi, bizim böyük dostumuz İlham Heydər oğlu Əliyevə MDU-nun fəxri professoru diplomu və medalının təqdim olunması mərasimi keçirilir.

Moskva Universitetini Azərbaycan elmi və təhsili ilə çox sıx tellər bağlayır. Lap bu yaxınlarda, iki il əvvəl biz Azərbaycanda kimya elmi və təhsilinin banilərindən biri Yusif Heydər oğlu Məmmədəliyevin 100 illik yubileyinə həsr olunmuş birgə konfrans keçirdik. O, Moskva Universitetinin kimya fakültəsinin ilk azərbaycanlı məzunu, böyük müəllimi Nikolay Dmitriyeviç Zelinskinin sevimli şagirdi idi. Bütün sarsıntılara baxmayaraq, o vaxtdan əlaqələrimiz kəsilməmişdir. Mən Bakıda çox olmuşam, bu şəhəri çox sevirəm. Biz Bakıda Mendeleyev adına beynəlxalq olimpiada təşkil etmişdik, orada 16 dövlətin nümayəndələri iştirak edirdi və azərbaycanlı uşaqlar çox yaxşı çıxış etmişdilər. İndi bizim universitetdə Azərbaycandan gələn uşaqlar təhsil alır, onlar Mendeleyev adına beynəlxalq olimpiadanın qalibləri və mükafatçılarıdır. Mən deməliyəm ki, onların böyük əksəriyyəti diplom almaqla təhsilini başa vurmur. Adətən onlar təhsillərini aspiranturada davam etdirir və uğurla dissertasiya müdafiə edirlər. Bu mərhələdə də Sizin köməyiniz çox əhəmiyyətlidir. Onlar Azərbaycan Prezidentinin təqaüdünü alır və təhsillərinin bu çox mühüm hissəsini davam etdirə bilirlər. Düşünürəm ki, bunu layiqincə qiymətləndirmək çətindir.

Son illər bir neçə kimya elmləri doktoru MDU-da dissertasiya müdafiə etmişdir, başqa sözlə, bizim fəaliyyətimiz, bizim qəlbimiz və ürəyimiz Azərbaycan Respublikası ilə bağlıdır. Özü də kimya Azərbaycan cəmiyyətində həm biliyin, həm də fəaliyyətin əsas sahəsidir. Ona görə də bu gün bu yüksək adın verilməsi münasibətilə Sizi təbrik etməkdən şərəf duyuram və mənim üçün çox xoşdur. Siz bu ada tamamilə layiqsiniz, hamımıza xoşdur ki, Siz kollektivin, buraya toplaşanların münasibətini hiss edirsiniz. Düşünürəm ki, yaradılan filial gələcəkdə konkret məzmunla dolğunlaşacaqdır. O, Sizin fəal dəstəyiniz və iştirakınızla yaradılmışdır, bizim alimlər və müəllimlər isə əllərindən gələni edəcəklər ki, o, Moskva Universitetinin Azərbaycan Respublikasında layiqli nümayəndəsi olsun. Bakı Universitetinin rektoru isə kimya fakültəsinin yetirməsi, bizim böyük dostumuz Abel Məhərrəmovdur.

Çox sağ olun.

Viktor Sadovniçi: İlham Heydər oğlu, mən artıq qeyri-rəsmi olaraq demək istəyirəm ki, Şuranın iclasının gedişindən görünəcək ki, Moskva Universitetində bütün əsas vəzifələri ya azərbaycanlılar, ya da Azərbaycandan olanlar tuturlar. Ona görə də bundan sonra çıxış edənlərin hamısının Sizin ölkənizlə əlaqəsi var.

Mən çıxış etmək üçün sözü Moskva Universiteti Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri, professor, MDU-nun kafedra müdiri İqor Borisoviç Kotlobovskiyə vermək istərdim.

MDU Birləşmiş Həmkarlar İttifaqi Komitəsinin sədri, professor İqor Kotlobovskinin çıxışı

- Çox hörmətli İlham Heydər oğlu!

Çox hörmətli Viktor Antonoviç!

Bu gün əlamətdar hadisə münasibətilə buraya toplaşmışıq. Bu, mənim üçün ikiqat əlamətdardır, çünki mənim məktəb illərim Bakıda keçmişdir. Mən orada 153 nömrəli orta məktəbi bitirmiş və Moskva Universitetinə daxil olmuşam. İndiyədək bu gözəl şəhəri, onun insanlarını böyük səmimiyyətlə xatırlayıram. Mən müəllimlərimi minnətdarlıq hissi ilə xatırlayır, Azərbaycanda və Bakıda baş verən hadisələri izləməyə çalışıram. Düşünürəm ki, Azərbaycan çox şeylə fəxr edə bilər. Hazırda o, ən dinamik inkişaf edən ölkədir. Siz MDB ölkələri arasında ən sürətli inkişaf nümayiş etdirirsiniz. Özü də beynəlxalq təşkilatlar gələcəkdə bu meylin təkcə dünyada neftin və qazın qiymətlərinin artması hesabına deyil, həm də sənaye, xidmət sahələri hesabına saxlanacağını proqnozlaşdırır. Əlbəttə, bu, ölkədə bir çox irimiqyaslı məsələləri həll etməyə, o cümlədən təhsili, səhiyyəni, mənzil tikintisini inkişaf etdirməyə imkan verir.

Mənə elə gəlir ki, son illər Bakı dünyanın idman mərkəzinə çevrilir. Çox böyük beynəlxalq yarışlar, dünya birinciliklərı, dünya kuboku yarışları keçirilir. Bu, Azərbaycanın artan nüfuzundan xəbər verir və ölkədə siyasi sabitliyin olduğunu göstərir. Başqa sözlə, idman vasitəsilə beynəlxalq aləmə çox böyük çıxışa nail olunur. Əlbəttə, bu, Milli Olimpiya Komitəsinin prezidenti kimi Sizin xidmətinizdir və artıq deyildiyi kimi, Olimpiya hərəkatına töhfəniz yüksək qiymətləndirilir. Bu töhfəniz 2016-cı ilin Olimpiya oyunlarının keçirilməsi ilə bağlı Bakının namizədliyinin irəli sürülməsi kimi cəsarətli təklifinizdən sonra xüsusilə yüksək qiymətləndirilir. Bu, çox iddialı təklifdir, çünki dünyada belə genişmiqyaslı beynəlxalq tədbirləri keçirmək məsuliyyətini üzərinə götürə bilən çox az ölkə var. Siz bu cəsarətli addımı atdınız. Əlbəttə, Bakının rəqibləri güclüdür, ancaq biz inanırıq ki, Odlar yurdu adlandırılan Azərbaycanda Olimpiya məşəli də alovlanacaqdır.

Mənə Moskva Universitetinin nümayəndə heyətinin tərkibində Bakı Universitetinin yubileyi ilə bağlı təntənələrdə iştirak etmək xoşbəxtliyi nəsib olmuşdur. Biz şəhərin necə gözəlləşdiyini, şəhər infrastrukturunun necə inkişaf etdiyini, necə gözəl binaların tikildiyini öz gözlərimizlə gördük. Biz təhsilin inkişafına ən yüksək dövlət səviyyəsində necə böyük diqqət yetirildiyini gördük. Heydər Əlirza oğlu özü Bakı Universitetinin, Rusiya və Azərbaycan universitetləri arasında əməkdaşlığın necə inkişaf etdiyini diqqətlə izləyirdi. Bu yolun davamçısı kimi, Siz MDU-nun filialının yaradılmasının təşəbbüskarı oldunuz. Şübhəsiz ki, bu, əməli nəticə verəcək, çünki Rusiya Federasiyası ilə Azərbaycan arasında dərin iqtisadi, mədəni əlaqələr var və bu əlaqələri yeni səviyyəyə qaldıracaq mütəxəssislər lazımdır. Digər tərəfdən, əlbəttə, bu, siyasi səviyyədə dostluğun təzahürüdür.

Biz Bakı Universitetindən olan həmkarlarımızla şəxsi ünsiyyətdə, ictimai təşkilatlarımız səviyyəsində bu dostluq hisslərinin şahidi oluruq. Bakı Universitetinin həmkarlar ittifaqı təşkilatı Universitetlərin Həmkarlar İttifaqları Təşkilatlarının Avrasiya Assosiasiyasının fəaliyyətinə çox böyük töhfə verir. Bu assosiasiyaya MDB-nin, demək olar, bütün klassik universitetləri daxildir. Biz qurultaylardan birinin Bakıda, Bakı Universitetində keçirmək barədə qeyri-rəsmi təklif almışıq və bu təklifi minnətdarlıqla qəbul etmişik. Mənə elə gəlir ki, bu dostluq və sədaqət hissi Azərbaycan xalqının qanındadır. Təsadüfi deyil ki, hələ XII əsrdə dahi Azərbaycan şairi Nizami Gəncəvi də bu barədə yazmışdır.

Əminəm ki, Moskva Universiteti, onun filialının fəaliyyətində iştirak edəcək professor-müəllim heyəti Nizaminin nəsihətlərinə əməl edərək, öz işinə çox məsuliyyətlə yanaşacaqdır. Sonda Sizi Moskva Universitetinin bu ən yüksək mükafatını almağınız münasibətilə təbrik etmək, Sizə, ailənizə xoşbəxtlik, cansağlığı və Azərbaycanın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulamaq istərdim.

Çox sağ olun.

Sonra söz MDU-nun hesablama riyaziyyatı və kibernetika fakültəsinin üçüncü kurs tələbəsi Ülfət Əliyevə verildi.

MDU-nun hesablama riyaziyyati və kibernetika fakültəsinin III kurs tələbəsi Ülfət Əliyevin çıxışı

- Çox hörmətli cənab Prezident!

Çox hörmətli Viktor Antonoviç!

Əziz dostlar!

Hesablama riyaziyyatı və kibernetika fakültəsinin III kurs tələbəsi, MDU-nun Azərbaycan klubunun sədri kimi bu gün mənə dünyanın ən nüfuzlu ali məktəblərindən biri olan M.V.Lomonosov adına Moskva Dövlət Universitetində təhsil alan 200-ə yaxın azərbaycanlı tələbə adından Sizi salamlamaq şərəfi nəsib olmuşdur. MDU-nun tələbəsi olmaq çox böyük şərəf və məsuliyyətdir və biz təhsil ocağımızda bunu hiss edirik.

Cənab Prezident, Azərbaycanda keyfiyyətli təhsilə, o cümlədən xaricdə təhsil almağa çox böyük əhəmiyyət verilir. Bildiyimiz kimi, ümummilli liderimiz Heydər Əliyev bu proqramla şəxsən məşğul olurdu, hər il azərbaycanlı gəncləri təhsil almaq üçün Rusiyaya göndərirdi. Bu gün biz Sizin proqramınızın, azərbaycanlı gənclərin xaricdə təhsil almasına dair 2007-2015-ci illər üçün nəzərdə tutulmuş proqramın şahidiyik. Artıq 2007-ci ildə universitetimizə dövlət xətti ilə Azərbaycan gəncləri daxil olmuşlar.

MDU-da hər bir azərbaycanlı özünü təkcə tələbə deyil, həm də öz ölkəsinin nümayəndəsi hesab edir. Hər birimiz əcnəbi qonaqları, dostlarımızı Azərbaycanın mədəniyyəti, tarixi, adət və ənənələri ilə tanış etməyə çalışırıq. Buna görə də MDBMİ tələbələrinin Azərbaycan klubu yaratmaq təşəbbüsünü dəstəkləyərək, biz MDU-da da belə bir klub yaratmaq qərarına gəldik. Klub fəal inkişaf edir, burada keçirilən intellektual şənbələrdə arzu edən hər kəs Azərbaycan haqqında məruzə edə bilər. Öz internet saytımız var. Moskva Dövlət Universiteti rəhbərliyinin və şəxsən Viktor Antonoviçin, Azərbaycan Respublikasının səfirliyinin, cənab Polad Bülbüloğlunun və Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin sayəsində biz Azərbaycan Mədəniyyəti Mərkəzi layihəsi üzərində fəal işləyirik. Burada hər bir tələbə və sadəcə, arzu edən hər kəs milli tariximiz, mədəniyyətimiz, coğrafiyamız, gələcəkdə isə rəqslərimiz və musiqimizlə tanış ola bilər.

Çox hörmətli cənab Prezident!

Bu gün Sizin həyatınızda çox əlamətdar hadisədir. Bizim üçün, MDU-nun tələbələri üçün bu gün ikiqat əlamətdardır, çünki bu gündən biz Sizi, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi də MDU-nun fəxri professoru kimi öz müəllimimiz hesab edə bilərik.

İcazə verin, MDU-nun Azərbaycan klubu adından Sizə xoşbəxtlik, cansağlığı və Azərbaycan ilə Rusiya arasında dostluq əlaqələrinin inkişafı və möhkəmlənməsi, əlbəttə, Vətənimiz Azərbaycanın rifahı naminə fəaliyyətinizdə tükənməz qüvvə arzulayım. Cənab Prezident, Sizi təbrik edirəm.

Viktor Sadovniçi: İcazənizlə, Moskva Unversitetinin fəxri professoru, Azərbaycan Prezidenti İlham Əliyevdən çıxış etməsini xahiş edirəm.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli Viktor Antonoviç!

Hörmətli Elmi Şura üzvləri!

Əziz dostlar!

Əvvələn, Viktor Antonoviç, Sizə və mənə MDU-nun - dünya şöhrətli, mövcud olduğu bütün illər ərzində təhsilin yüksək markasını qoruyub saxlamış ali məktəbin fəxri professoru kimi yüksək ad verilməsi barədə qərar qəbul etmiş Elmi Şuranın üzvlərinə ürəkdən təşəkkür etmək istərdim.

Rusiya ilə Azərbaycan arasında münasibətlərin, o cümlədən humanitar sahədə münasibətlərin inkişafına verdiyim töhfəyə görə bu adı almağım mənə ikiqat xoşdur. Hazırda bizim münasibətlərimiz, həqiqətən, çox dinamik və səmərəli inkişaf edir. Bu münasibətlər mehriban qonşuluq, qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır. Əgər bu münasibətlərin tarixinə nəzər salsaq görərik ki, 2000-ci illərdən başlayaraq, yeni mərhələyə qədəm qoymuşdur.

Bu mərhələni həm Rusiya Prezidenti, həm də mən strateji tərəfdaşlıq mərhələsi kimi səciyyələndiririk. Bu isə mahiyyət etibarilə həm ölkələrimiz arasında münasibətlərin ruhunu və xarakterini, həm də həmin münasibətlərin gələcək inkişafını necə təsəvvür etdiyimizi əks etdirir. Bizim münasibətlərimiz çoxtərəfli, çoxcəhətlidir. Onlar ölkələrimizdə siyasi və iqtisadi islahatları fəal surətdə həyata keçirməyimizə imkan verir. Artıq indi bir çox cəhətdən Qafqaz və Xəzər regionunda vəziyyətə təsir edir. Bu münasibətlər gələcəkdə nə qədər möhkəm olsa, bizim regionda təhlükəsizlik tədbirləri sistemi də bir o qədər möhkəm olacaqdır.

Biz mürəkkəb bir dövrdə və təhdidlərin, risklərin mövcud olduğu mürəkkəb bir regionda yaşayırıq. Ona görə də ölkələrimizi bir-birinə bağlayan məsələlərin bütün spektri üzrə Rusiya ilə Azərbaycanın fəal əməkdaşlığı sülhün, təhlükəsizliyin və sabit inkişafın təminatıdır. Ölkələrimiz çox dinamik inkişaf edir. İqtisadi artım sürətinə görə yaxşı göstəricilərimiz var. Beləliklə, mən şübhə etmirəm ki, həm ölkələrimizin daha da artan nüfuzu, həm müstəqil siyasət yeritmək imkanı, həm də iqtisadi azadlıq, təbii ki, gələcəkdə regionda hadisələrin inkişafını əvvəlcədən müəyyənləşdirəcək və artıq dediyim kimi, yalnız müsbət mənada kömək edəcəkdir.

Fəxri professor diplomunda qeyd edilmiş humanitar sahədə əməkdaşlıq da çox vacibdir. Azərbaycanda biz hələ bir ölkədə yaşadığımız dövrdə mövcud olmuş bütün mehriban münasibətləri, əlaqələri, ünsiyyətləri qoruyub saxlamışıq. Hazırda Rusiya ilə Azərbaycan arasında humanitar əməkdaşlıq müxtəlif parametrlərlə və müxtəlif formalarla müəyyən edilir. Təkcə bunu demək kifayətdir ki, Azərbaycanda rus dilində təhsil verən 350-dən artıq məktəb vardır. Azərbaycanın dövlət universitetlərinin üçündə rus dili və ədəbiyyatı fakültələri vardır. Rus dili və ədəbiyyatı məsələləri ilə, həmçinin bütün slavyan ölkələrinin mədəniyyətinin öyrənilməsi ilə məşğul olan Bakı Slavyan Universiteti fəaliyyət göstərir. Azərbaycanın məktəblərində yüz mindən çox insan rus dilində təhsil alır. Milliyyətindən asılı olmayaraq, bizim ölkədə bütün insanların, bütün vətəndaşların dövlət dilində danışması, yüksək keyfiyyətli təhsil alması üçün də hər cür imkan mövcuddur.

Biz bunu çox yüksək qiymətləndiririk. Hesab edirik ki, bu, bizim uğurlu inkişafımızın ən mühüm elementlərindən biridir. Ölkənin inkişaf səviyyəsini təkcə iqtisadi göstəricilərlə və ya təbii ehtiyatların olması ilə ölçmək mümkün deyildir.

Ölkənin inkişafı həm intellektual potensial, həm tolerantlığın səviyyəsi, həm də ölkədə millətlərarası, dinlərarası həmrəyliyin səviyyəsi deməkdir. Bu, ölkənin əsas millətinə mənsub olmayan insanların özlərini nə dərəcədə rahat hiss etməsi deməkdir. İctimai-siyasi formasiyadan asılı olmayaraq, Azərbaycan üçün həmişə səciyyəvi olmuş, hamıya məlum olan müsbət beynəlmiləlçilik ənənələri bütün bu istiqamətlərdə indi də qorunub saxlanmışdır və daha da artırılır. Beləliklə, bu, Azərbaycanın bütün vətəndaşlarına bizim ölkədə özlərini öz evində olduğu kimi, bir ailə kimi hiss etməyə

imkan verir və bu da Rusiya ilə bizim ikitərəfli əməkdaşlığımızın mühüm elementidir.

Bəlkə də kiməsə qəribə görünəcək, amma hazırda Azərbaycanda rus dilində nəşr edilən qəzetlərin sayı sovet dövründə olduğundan bir neçə dəfə çoxdur. Bu onu göstərir ki, həmin qəzetlərə tələbat var. Azərbaycanda rus dili yaşayır və yaşayacaqdır. Heç şübhəsiz, Azərbaycanda MDU-nun filialının açılması, burada tamamilə haqlı olaraq deyildiyi kimi, həm siyasi xarakterli addımdır, həm də ikitərəfli münasibətlərin möhkəmlənməsinə yönəlmiş addımdır. Bu, həm də bizim nəzərdə tutduğumuz bütün işlər üçün lazımi kadrları daha fəal surətdə və səmərəli şəkildə hazırlaya bilməyimiz üçün ölkəmizdə dünyanın aparıcı ali məktəblərindən birinin filialının yaradılmasına yönəlmiş addımdır.

Burada həm mənim haqqımda, həm də ölkəmiz haqqında çoxlu xoş sözlər deyildi, buna görə mən çox minnətdaram. Bu gün Viktor Antonoviç Heydər Əlirza oğlu Əliyevlə görüşlərini də xatırladı. Burada deyildi ki, onun təşəbbüsü ilə Azərbaycandan hər il minlərlə gənc müsabiqədənkənar şərtlərlə, - yəni onlar qəbul imtahanlarını Bakıda verirdilər, - SSRİ-nin, o cümlədən Moskvanın aparıcı ali məktəblərinə göndərilirdi. İndi biz müstəqil dövlət olaraq, həmin qərarın nə qədər müdrik olmasını və bizim potensialımızı nə qədər zənginləşdirdiyini hər gün görürük. Moskva ali məktəblərinin məzunları indi Azərbaycanda həm biznesdə, həm dövlət strukturlarında, həm də idarəetmə orqanlarında kifayət qədər möhkəm mövqe tuturlar. Təvazökarlıqdan bir qədər uzaq səslənsə də, deməliyəm ki, ən ali dövlət vəzifəsində də Moskva ali məktəbinin məzunu işləyir.

İndi biz bütün bunları artıq yeni şərait nəzərə alınmaqla bərpa etmək istəyirik və bərpa edirik. Prezidentin təsdiq etdiyi proqram bizim tələbələrin dünyanın aparıcı ölkələrində təhsil almasına yönəlmişdir və ilk növbədə, həm də Rusiyanın aparıcı ali məktəblərini əhatə edir. Biz gələcəkdə səmərəli əməkdaşlığa ümid edirik. Ümid edirik ki, gənclərimiz bundan sonra da MDU-ya daxil olacaq, burada oxuyacaq və ən yaxın vaxtlarda birlikdə istifadəyə verməyi planlaşdırdığımız filial da ölkəmizdə güclü intellektual baza olacaqdır.

Hər bir ölkənin, hər bir millətin gələcəyini iqtisadiyyat deyil, təbii ehtiyatlar və hər hansı başqa sahələr deyil, təhsil müəyyən edir. Müxtəlif dövrlərdə dövlətlərin inkişafına nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarını müəyyən edən təhsil, bilik, intellekt olmuşdur. Bu gün Rusiyada təhsilə yetirilən diqqət də sizin ölkənizin bir neçə onillikdən sonrakı uğurlarının rəhnidir. Bəli, hamının çətinlikləri olmuşdur, SSRİ dağılandan sonra biz hamımız mürəkkəb dövr yaşamışıq. İqtisadi kollaps, xüsusilə Azərbaycanda, kifayət qədər ağır və ağrılı hiss olunmuşdur. Lakin indi, əsas iqtisadi və sosial çətinliklərin artıq geridə qaldığı və maliyyə imkanları yarandığı bir şəraitdə biz Azərbaycanda məhz təhsilə çox böyük sərmayələr qoyuruq.

Deməliyəm ki, son 3-4 ildə Azərbaycanda 1200 ümumtəhsil məktəbi tikilmişdir. Yəqin ki, Rusiya miqyasında bu, böyük göstərici deyil, lakin bizdə cəmi dörd min beş yüz məktəb olduğunu nəzərə alsaq, bu, ümumiyyətlə, mühüm göstəricidir. Özü də onların hamısı kompyuterləşdirilmişdir, indi hamısı internetə birləşdirilir və şagirdlər lap uşaqlıq dövründən gələcəyə yönəldilir.

Bizim büdcədə təhsil xərcləri ikinci yeri tutur. Ona görə ikinci yeri tutur ki, təəssüflər olsun, biz hələ də müharibə vəziyyətindəyik və müdafiə xərcləri üstünlük təşkil edir. Lakin dövlət büdcəsinin 12 milyard dollara bərabər olan xərclərinin 1 milyard dolları təhsilə sərf edilir. Biz gələcəkdə də bu həcmi artıracağıq, çünki bu, gələcəyə qoyulan sərmayədir, xalqımızın uzunmüddətli gələcəyinə sərmayədir.

Rusiya və Azərbaycan enerji ehtiyatları ilə zəngin ölkələrdir və əlbəttə, əhalinin maddi rifahına, iqtisadiyyatın tərəqqisinə və ölkələrimizin siyasi imkanlarına təsir müəyyən dərəcədə bu amillə şərtlənmişdir. Lakin bütün bunlar müvəqqətidir. Təbii ehtiyatlar gec-tez tükənəcək və biz hətta yüz ildən sonra da olsa, bunun baş verəcəyi vaxta hazır olmalıyıq. Biz gələcəyə baxmalıyıq, ölkəmizin 20-30 ildən sonra, 50 ildən sonra necə olacağı barədə indidən düşünməliyik. Bundan ötrü ən başlıcası, intellektual səviyyə və təhsilin səviyyəsidir. İnanın, indi mən bu sözləri bu cür yüksək mükafat aldığıma görə və MDU-nun tribunasından çıxış etdiyimə görə demirəm. Mən bunu həmişə deyirəm. Bunu Bakıda da deyirəm, ölkəmizin kəndlərində və qəsəbələrində də, Nazirlər Kabinetinin iclaslarında da deyirəm. Çünki əminəm ki, bu, ölkəmizin inkişafının əsasıdır.

Bu gün bu mükafatı almaq mənə çox xoşdur. Mən 15 il Moskvada olmuşam, ailəmlə birlikdə, ondan əvvəl isə tələbə ikən burada yaşamışam. O dövr yaxşı illər idi, gənclik illəri idi. Mənim burada dostlarım çoxdur, sevdiyim və hörmət etdiyim insanlar çoxdur və hər dəfə Moskvada olmaq məndən ötrü xüsusi bir hadisədir. Azərbaycanın Prezidenti kimi mən ildə bir neçə dəfə Rusiyada, Moskvada oluram və bu səfərlər, görüşlər, əlaqələr sayəsində bizim münasibətlərimiz daha da möhkəmlənir.

Bu gün, ölkələrimiz iqtisadi asılılıq və siyasi asılılıq dövrünü müəyyən dərəcədə aradan qaldırdıqdan sonra, biz, necə deyərlər, ayağa qalxandan sonra gələcəyə daha böyük nikbinliklə baxırıq. Burada bizim həmyerlimiz, bakılı öz çıxışında Azərbaycanın iqtisadi sahədə qazandığı uğurlardan da danışdı. Bu, doğrudan da, belədir. Son üç ildə biz iqtisadiyyatın inkişaf sürətinə görə dünyada birinci yeri tuturuq, bu göstərici ildə 20-30 faiz təşkil edir. Dörd ildə - 2004-2007-ci illərdə Azərbaycanda ümumi daxili məhsulun həcmi 96 faiz, demək olar, iki dəfə artmışdır. Çox güman ki, bu il də artım göstəricisi təxminən eyni səviyyədə olacaqdır. Sənaye istehsalının həcmi də iki dəfəyə qədər artmışdır. Azərbaycanda 650 min iş yeri yaradılmışdır. Əhalisinin sayı səkkiz milyon yarım olan ölkə üçün bu, mühüm göstəricidir.

Dörd ildə biz yoxsulluğa qarşı mübarizə proqramını uğurla həyata keçiririk. Yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2008-ci ilin əvvəlində 16 faizə düşmüşdür. Əminəm ki, lap yaxın illərdə biz bu biabırçı vəziyyətə, bütün iqtisadiyyatın kollaps vəziyyətində, ölkənin hərtərəfli – həm siyasi, həm iqtisadi, həm də sosial böhran içində olduğu, istehsalın tənəzzül etdiyi və açığını deyək ki, bütövlükdə ölkəmizin müstəqil dövlət kimi gələcəyi sual altında olduğu 90-cı illərin bu ağır mirasına son qoyacağıq.

1990-cı illərin əvvəli və müstəqillik əldə edildiyi vaxt Azərbaycan üçün son dərəcə ağrılı dövr idi. Biz 1991-ci ildə müstəqillik əldə etdik və 1993-cü ildə onu az qala itirəcəkdik. Ölkədə vətəndaş müharibəsi və Ermənistan tərəfindən təcavüz başlanmışdı və bütün bu amillər, əslində, Azərbaycanın müstəqil dövlət kimi inkişaf edib-etməyəcəyi məsələsini sual altında qoymuşdu.

Ulu öndərimiz Heydər Əliyevin böyüklüyü məhz ondadır ki, 1993-cü ildə hakimiyyətə gəlməklə o, ölkəni bu bəladan xilas etdi, onu inkişaf və sabitlik yoluna çıxardı. Artıq qeyd etdiyim kimi, indi Azərbaycan iqtisadi artım sürətinə görə dünyada liderdir.

Əlbəttə, hələ problemlər çoxdur, insanların həyatını yaxşılaşdırmaq üçün hələ çox iş görmək lazımdır. İndiyə qədər əldə etdiyimiz nailiyyətlər bizi qane edə bilməz. Hətta iqtisadiyyatın sürətlə inkişaf etməsinə və insanların maddi rifahının yaxşılaşmasına baxmayaraq, sosial problemlər kifayət qədər çoxdur. Keçmiş SSRİ-nin bütün başqa ölkələrində olduğu kimi. Lakin əsas odur ki, həmin məsələlərin həll edilməsi siyasəti var, hansı istiqamətdə hərəkət etdiyimizi və necə inkişaf etməli olduğumuzu nəinki qarşıdakı bir il üçün, hətta onilliklər üçün də əvvəlcədən təsəvvür edirik. Güclü intellektual potensial yaradılır. İndi burada oxuyan gənclər isə, hətta qalıb Moskvada işləsələr belə, yenə də bizim elçilərimiz olacaqlar.

Mən prezident proqramımı həyata keçirməyə başlayanda, - deyəsən, bu o qədər də düzgün olmadı, daha doğrusu, Heydər Əliyevin 70-ci illərdə həyata keçirdiyi proqramı indi, yeni şəraitdə bərpa edərək, gəncləri xaricdə təhsil almağa göndərəndə müxtəlif təkliflər daxil olmağa başladı: dövlət onlar üçün pul ödəyəcək, onlar isə Avropaya, Rusiyaya gedəcək və sonra qayıtmayacaqlar, buna görə də gəlin onlardan nəinki iltizam, lap girov alaq. Qoy onlar sonradan qayıtmaq üçün nəyisə girov qoysunlar. Amma, açığını deyim ki, məsələyə bu cür yanaşma məni şoka saldı. Biz gənclərə şərait yaratmaq istəyirik ki, onlar yaxşı təhsil alsınlar. Əgər bugünkü gənc təhsil alandan sonra hesab edərsə ki, təhsil aldığı yerdə qalıb yaşaması və işləməsi daha yaxşı olar, deməli, belə də olmalıdır, onu zorla geriyə çəkmək, onun həyatını qırmaq və planlarını pozmaq yalnız mənfi nəticələrə gətirib çıxarar.

Biz Azərbaycanda elə şərait yaratmalıyıq ki, gənc özü Vətəninə qayıtmaq istəsin. Vətəndə həyat şəraiti, əmək haqqı, xidmətlərin, infrastrukturun, rahatlığın səviyyəsi xaricdəki kimi olsa, əlbəttə qayıdacaqlar, çünki bizim gənclərin hamısı kifayət qədər vətənpərvərdir. Ona görə də hətta kimsə dərhal qayıtmasa belə, hər halda, nə vaxtsa qayıdacaq, harada yaşamasından asılı olmayaraq, hər halda, öz xalqına, öz ölkəsinə xidmət edəcəkdir. Ola bilsin ki, bu, Azərbaycanı məhz başqa ölkələrdə, o cümlədən Rusiyada yaşayan nümayəndələrimiz hesabına heç də az möhkəmlətməyəcəkdir. Bu, Azərbaycanı möhkəmlədəcək və ona kömək edəcəkdir. Biz xaricdə yaşayan azərbaycanlılara necə kömək ediriksə, onlar da öz fəaliyyətləri ilə bizə o cür kömək edəcəklər. Rusiyada da artıq bir neçə ildir ki, Ümumrusiya Azərbaycan Konqresi mövcuddur, tələbə klubları var və yəqin ki, gələcəkdə Ümumrusiya Azərbaycan Konqresinin gənclik təşkilatları da inkişaf edəcəkdir.

Beləliklə, bütün bunlar yalnız müsbət işlərə, yalnız xeyirxahlığa xidmət edəcəkdir. Bu, praktiki təhsil sahəsində də belədir, əlaqələr baxımından da. Xalqlarımız arasında əlaqələr qorunub saxlanacaqdır. Axı, sirr deyil ki, 16 il ərzində çox şeyi qoruyub saxlaya bilsək də, bəzi şeyləri itirmişik. Yeni nəsil, indi 15-20 yaşı olan gənclər bir ölkədə yaşamayıblar. Deməli, onların MDB-nin başqa ölkələrindəki yaşıdları ilə qarşılıqlı münasibətlərinin səviyyəsi, istər-istəməz, bizim dövrdəki kimi ola bilməz. Bundan ötrü məhz əlaqələr, birgə təhsil, birgə layihələr, konfranslar, seminarlar olmalıdır. Mən fürsətdən istifadə edib dostlarımızı – həmyerlilərimizi də, başqalarını da Bakıya tez-tez gəlməyə dəvət etmək istəyirəm. Mən bu gün Viktor Antoniçi də dəvət etmişəm və bu dəvətimi bir daha təsdiqləyirəm. Bu cür əlaqələr nə qədər tez-tez olsa, biz nə qədər çox görüşsək, işlərimiz bir o qədər yaxşı gedəcək, münasibətlərimiz bir o qədər möhkəmlənəcək və hər şey qat-qat səmərəli olacaqdır. Ona görə ki, ölkələr arasında münasibətləri formalaşdıran təkcə prezidentlər deyil, hərçənd, ən böyük məsuliyyət onların üzərinə düşür. Bu münasibətlər həm də vətəndaş cəmiyyəti tərəfindən, professorlar, ziyalılar, cəmiyyətin elitası tərəfindən formalaşır. Professorlar, müəllimlər hər bir cəmiyyətin elitasıdır, bu insanlar ölkənin inkişafını, onun gələcəyini müəyyən edirlər.

Ona görə də bir daha demək istəyirəm, bu gün burada olmaq mənə çox xoşdur, bu fəxri diplomu almaq çox böyük şərəfdir. Sizi əmin etmək istəyirəm ki, bu şərəfə layiq görülməyimə əsas verən amillər mənim fəaliyyətimdə həmişə olacaqdır və mən Rusiya ilə Azərbaycan arasında münasibətlərin möhkəmlənməsi üçün, ölkələrimiz arasında humanitar əməkdaşlığın davam etməsi üçün bundan sonra da səy göstərəcəyəm.

Mənə ünvanlanmış xoş sözlərinizə görə sizə bir daha təşəkkür edirəm və sizin hamınıza ən xoş arzularımı bildirir, firavanlıq və səadət diləyirəm.

Prezident İlham Əliyevin nitqi böyük diqqətlə dinlənildi və gurultulu alqışlarla qarşılandı.

Viktor Sadovniçi: Hörmətli İlham Heydər oğlu, Sizə artıq hörmətli professor deyə müraciət etmək olar, Sizin çıxışınızı, əlbəttə, hamı maraqla dinlədi. Moskva Universitetində bu parlaq, ibrətamiz çıxışınıza görə sağ olun. Mən bilirəm ki, gənclər Sizə suallar vermək istəyirlər, bu, belə də olmalıdır, lakin bizdə protokol qaydası var. Hörmətli İlham Heydər oğlu, əgər etiraz etməsəniz, Sizə bir neçə sual verərdilər.

İlham Əliyev: Xeyr, xeyr, buyursunlar.

Sual: Hörmətli İlham Heydər oğlu, Sizin fikrinizcə, qloballaşma prosesi və ona xas olan təhdidlər dünyada sabitlik və təhlükəsizlik üçün qorxuludurmu? Azərbaycan bu təhdidlərin aradan qaldırılmasında və həllində hansı strategiyanı əsas götürür?

İlham Əliyev: Son vaxtlar bu barədə çox danışılır və mühakimələr çox ziddiyyətlidir. Hər şey bizim qloballaşma anlayışına verdiyimiz mənadan asılıdır. Əgər biz qloballaşma dedikdə daha səmərəli əməkdaşlığı, qarşılıqlı fəaliyyəti, əlaqələri, mədəniyyətlərin bir-birinə təsirini, elm, təhsil, mədəniyyət vasitəsilə qarşılıqlı zənginləşməni nəzərdə tuturuqsa, bütün bunlar müsbət nəticələrə gətirib çıxaracaqdır.

Lakin əgər, bəzən olduğu kimi, qloballaşma dedikdə hansısa müdaxilə, təzyiq, o qədər də məqbul olmayan dəyərlərin və məhdudiyyətlərin zorla qəbul etdirilməsi nəzərdə tutulursa, onda, əlbəttə, bunun heç bir yaxşı nəticəsi olmayacaqdır. Biz də bu problemə belə yanaşırıq. Əməkdaşlığa, mehriban qonşuluğa, kooperasiyaya və risklərin minimuma endirilməsinə kömək edən hər şeyi biz dəstəkləyirik və üstəlik, çox vaxt iri regional layihələrin təşəbbüsçüsü kimi çıxış edirik.

Lakin biz hiss etməyə başlayanda ki, qloballaşma adı ilə müəyyən ənənələrə, həyat tərzinə və dövlətinizin siyasi xəttinə görə Azərbaycan cəmiyyətinin qəbul edə bilməyəcəyi nəyisə bizə zorla qəbul etdirməyə çalışırlar, onda, əlbəttə, biz bunu qəbul edə bilmərik. Onu da deməliyəm ki, Azərbaycan öz ərazisinə və əhalisinə görə böyük ölkələr sırasına aid olmasa da biz xalqımızın mənafelərinə, tərəfdaşlarımız və qonşularımızla əməkdaşlığa əsaslanan müstəqil xarici siyasət xəttini təmin edə bilmişik.

Sual: Cənab Prezident, MDU-nun Tələbələr İttifaqının həm Moskvadakı, həm də Azərbaycan Respublikasının özündəki azərbaycanlı tələbələrlə yaxşı dostluq münasibətləri yaranmışdır. Biz çox ümid edirik ki, MDU-nun Bakıdakı filialının tələbələri də bizim təşkilata qoşulacaqlar. Biz buna çox şad olarıq. Hazırda biz bütün MDB məkanı üçün çoxlu tədbirlər, məsələn, Lomonosov forumu, eləcə də müxtəlif yaradıcılıq festivalları keçiririk. Siz gənclərin bu cür beynəlxalq tədbirlərinin keçirilməsinə necə yanaşırsınız?

İlham Əliyev: Mənim bu gün bu barədə danışdıqlarıma əsasən, siz özünüz bu suala mənim əvəzimdən cavab verə bilərsiniz. Mən buna müsbət yanaşıram və hesab edirəm ki, bu, əməkdaşlığın çox səmərəli formasıdır. MDU-nun Bakı filialında oxuyacaq tələbələrə gəldikdə isə mən bu diplomu almadan da onlara kömək edirdim, lakin indi onlar sizin həmkarınız kimi, professor kimi mənə tamamilə bel bağlaya bilərlər.

Sual: Salam, hörmətli İlham Heydər oğlu, oktyabr ayında keçirilmiş telekörpü zamanı demişdiniz və bu gün də təkrar etdiniz ki, bütün azərbaycanlı tələbələr haçansa Vətənə qayıdacaqlar. Biz azərbaycanlı tələbələrin iddialı layihələri var. Məsələn, "Formula-1" avtoyürüş trassası tikintisi layihəsi. Siz belə bir layihənin həyata keçirilməsinə və Azərbaycanın onu reallaşdırmaq imkanlarına necə baxırsınız?

İlham Əliyev: Mən bunu dəstəkləyirəm. Bu gün burada deyildi ki, biz idman məsələlərinə böyük əhəmiyyət veririk. Əlbəttə, hər şey bizim iradəmizdən asılı deyil, bu qəbildən olan yürüşlərin təşkil edilməsi üçün, yəqin ki, müəyyən meyarlar və müəyyən normativlər var. Lakin mən düşünürəm ki, əgər təşkilatçılar tərəfindən belə bir arzu olarsa, biz dünya səviyyəsinə uyğun olan bir yenilik yaratmağa həmişə çalışacağıq. Burada düzgün olaraq qeyd edildiyi kimi, Azərbaycanda Olimpiya oyunları keçirmək arzumuz dövlətimizin bərqərar olmasının göstəricisidir. Azərbaycan dövləti təkcə bərqərar olmamışdır, o, dünya səviyyəli oyunlar keçirilməsini özünə rəva görmək iqtidarındadır. Axı bu həm təşkilati, həm də maliyyə baxımından böyük məsuliyyət deməkdir və bu gün biz buna hazırıq.

Son dövrdə Azərbaycanda 13 müasir olimpiya kompleksi tikilmişdir və demək olar ki, hamısı da regionlardadır. Hazırda Azərbaycanın bütün regionlarında mehmanxanaları, üzgüçülük hovuzları olacaq, yəni istənilən beynəlxalq yarışların keçirilməsi üçün daha 23 müasir idman-olimpiya kompleksi tikiləkdədir. Bakıda bu səviyyəli tədbirlər nə qədər çox keçirilsə, bizim vətəndaşlar üçün də yaxşı olacaq, bu yolla Azərbaycan daha çox təbliğ ediləcəkdir. Biz müasir dövlət qururuq. Mədəniyyətimizə, ənənələrimizə, həyat tərzimizə əsaslanaraq, ölkəni modernləşdirməyə çalışırıq və bu istiqamətdə müəyyən təşəbbüsləri həyata keçiririk.

Azərbaycanın maliyyə imkanlarına gəldikdə isə, deyə bilərəm ki, Dünya Bankının proqnozlarına görə, neftin bir barrelinin qiyməti 50 dollar olarsa, 2020-ci ilə qədər enerji layihələrinin həyata keçirilməsindən Azərbaycana 200 milyard dollar vəsait daxil olacağı gözlənilir. Bu gün neftin bir barrelinin qiyməti 100 dollara yaxındır, ona görə də bu məbləği cəsarətlə ikiyə vurmaq olar. İstər bu gün, istərsə də gələcəkdə ölkəmizin qarşısında maliyyə problemləri olmayacaqdır. Bizə müasir texnologiyalar lazımdır, müasir infrastruktur lazımdır, insanların gündəlik həyatı ilə əlaqədar olan təhsil, tibb, infrastruktur, nəqliyyat, yollar, ekologiya, içməli su və başqa şeylər lazımdır ki, Azərbaycanda insanlar, həqiqətən, getdikcə daha yaxşı yaşasınlar.

Sual: Hörmətli cənab Prezident, Azərbaycan 2016-cı ilin Yay Olimpiya Oyunlarının Bakıda keçirilməsi üçün rəsmi müraciət etmişdir. Biz Moskvada yaşasaq da, Bakının qalib gəlməsini istəyirik. Siz Milli Olimpiya Komitəsinin rəhbərisiniz, Sizcə, Bakının qalib gəlmək şansı necədir və Sizin müraciətinizdə tələbələrin rolu nədən ibarətdir?

İlham Əliyev: Tələbələrin və ümumiyyətlə, vətəndaşların rolu, əlbəttə, çox əhəmiyyətli olacaqdır, çünki Beynəlxalq Olimpiya Komitəsi hansı şəhərin seçilməsi barədə qərar qəbul edərkən bu və ya digər şəhərdə yaşayan insanların məsələyə necə münasibət bəsləməsini hökmən nəzərə alır. Deməliyəm ki, bütün başqa namizədlər arasında Azərbaycanı fərqləndirən cəhət ictimai dəstəyin ən yüksək səviyyədə olmasıdır. Əlbəttə, cəmiyyətin əsas fəal hissəsi kimi tələbələr bu məsələdə çox böyük rol oynayırlar və ümid edirik ki, onlar bundan sonra da bizim təşəbbüslərimizi fəal surətdə dəstəkləyəcəklər.

Şans məsələsinə gəldikdə isə, bu barədə danışmaq çətindir. Hərçənd Olimpiya oyunlarının keçirilməsi tarixindən bilirik ki, ölkə heç vaxt birinci dəfədən belə hüquq qazanmamışdır. Azərbaycan belə müraciəti ilk dəfə etmişdir. Bizim rəqiblərimiz kifayət qədər ciddidir. Söhbət dünyada məşhur olan altı şəhərdən gedir və əlbəttə, rəqabət asan olmayacaqdır. Yəni belə deyək, güclü rəqabət və ilk dəfə müraciət etməyimiz bizim xeyrimizə olmayan amillərdir. Lakin bizim xeyrimizə olan amillər də var. Buraya ilk növbədə çox əlverişli coğrafi mövqe, ölkənin sahəsinin kiçik olması, artıq bu gün mövcud olan və nəinki bir, hətta bir neçə ən iri dünya birinciliyi keçirməyə imkan verən infrastrukturun olması, dünya çempionatları keçirilməsi sahəsində təcrübəyə malik olmağımız, Olimpiada keçirilməsi ilə bağlı olmadan olimpiya obyektlərinin tikilməsi faktları aiddir. Soçi ilə bağlı da belə olmuşdu. Axı, hər halda, orada da olimpiya obyektləri tikilmişdi.

Qitələrin növbələşdirilməsi qaydası da namizədin seçilməsinə müəyyən dərəcədə təsir göstərir. İndiki halda Azərbaycanın üstünlüyü bu məsələyə hansı tərəfdən baxmaqdan asılıdır: əgər Şərqdən baxsaq, biz Avropayıq, əgər Qərbdən baxsaq, biz Asiyayıq. Yəni burada Olimpiya oyunlarının keçirilməsi üçün amillər çoxdur: gözəl iqlim şəraiti, ilıq dəniz, təhlükəsizlik. Bakı dünyanın ən təhlükəsiz şəhərlərindən biridir və orada olanlar bilir ki, gündüz də, gecə də rahat gəzmək olar və bizim adamlar elə belə də edirlər.

Beləliklə, müsbət amillər də var, mənfi amillər də, lakin son qərarı, əlbəttə, Beynəlxalq Olimpiya Komitəsinin üzvləri qəbul edəcəklər. Bu ilin ortalarında ilkin qərar qəbul ediləcək, bir neçə şəhər ələnəcəkdir. Biz ümid edirik və çalışırıq ki, Bakı həmin şəhərlərin sırasına düşməsin. Bundan sonrası isə, əlbəttə, bizim hazırlığımızdan və başqa amillərdən asılı olacaqdır.

Lakin sizin sualınıza qayıdaraq, bir daha demək istəyirəm ki, biz

öz vətəndaşlarımızın və ilk növbədə ən fəal tələbələrin, o cümlədən Moskvada yaşayan sizin kimi tələbələrin güclü ictimai dəstəyinə ümid edirik.

Sual: Hörmətli İlham Heydər oğlu, Siz Moskvada, MDBMİ-də oxumusunuz. İndi Sizin qızınız, Leyla xanım da MDBMİ-də oxuyur. Sizin fikrinizcə, bu nəsillər, Sizin nəsil və bizim nəsil bir-birindən nə ilə fərqlənir? Bir faktı Siz artıq dediniz: biz eyni ölkədə doğulmamışıq. Şəxsi xarakterli daha bir sualım var. Təsəvvür edək ki, zaman maşını var və Siz öz gəncliyinizə, lakin indiki tarixi şəraitdə qayıtmısınız. Siz MDU-nun hansı fakültəsini seçərdiniz?

İlham Əliyev: Mən elə bir mühüm fərq görmürəm. Siz Leylanın adını çəkdiniz, o, artıq böyük qızdır, burada oxuyur. Biz öz aramızda nəsillərin hər hansı fərqini hiss etmirik. Mən ona baxanda özümün tələbəlik illərini xatırlayıram və bütün bunlar mənə çox tanışdır, tələbəliyin ruhunu heç nə ilə müqayisə eləmək olmaz. Bu, yəqin ki, yaxşı illərdir, insanların həyatında ən yaxşı illərdəndir. Sadəcə olaraq, son gənc və tələbə olanda bəzi şeyləri başa düşmürsən, sənə elə gəlir ki, bu həmişə belə olacaq. Tələbəlik ruhu, dostluq, təhsil, dünyanın aparıcı ali məktəblərində oxumaq, görkəmli professorların mühazirələrini dinləmək imkanı böyük səadətdir. Tələbəlik illərində bundan yaxşı heç nə ola bilməz. Ona görə də mən elə hesab etmirəm ki, indiki nəsil bizim nəsildən necəsə fərqlənir, hərçənd belə düşünənlər var. Lakin bu fikirlər ənənəvidir – yaşlı nəsil həmişə deyir ki, bəs bizim vaxtımızda belə idi, biz daha yaxşı yaşayırdıq, onlar isə belə deyillər. Biz tələbə olanda da eyni vəziyyət idi. İndi də belədir. Lakin mənim nəzərimcə, burada prinsipial fərq yoxdur. Əgər mən MDU-da oxumalı olsaydım, yəqin ki, birinci dəfə olduğu kimi bir humanitar sahəni seçərdim, bu, mənə daha yaxındır və daha böyük maraq doğurur.

Viktor Sadovniçi: Hörmətli İlham Heydər oğlu, bununla mərasimi tamamlamaq olardı, amma biz Sizə bir musiqi hədiyyəsi hazırlamışıq. Lakin onu elan etməzdən əvvəl mən bir ideyaya qayıtmalıyam ki, MDU-da bütün rəhbər vəzifələri Azərbaycandan olan adamlar tuturlar. Bizim akademik xor məşhur kollektivdir. Bu kollektivin rəhbəri ölkəmizdəki bütün mükafatları almış Mirzə Əsgərovdur. Sizin həmyerliniz. İlham Heydər oğlu, lakin məsələ bununla da bitmir. İndicə deyəcəyim xəbər, yəqin ki, Sizi heyrətləndirəcəkdir. Bizim öz milis bölməmiz var, yəni bizi öz milisimiz qoruyur, tələbələrin rahatlığının, təhlükəsizliyinin keşiyini çəkir. Bu bölmədə 100-dən çox adam var. Lap bu yaxınlarda bizə bir polkovnik təyin ediblər. O da Sizin adamdır. Mənə belə gəlir ki, bu, uzaqgörənliklə edilib. Edita Stanislavovna Maqdiç, milis polkovniki. Qalır bircə rektor.

Mirzə Əsgərov: Möhtərəm İlham Heydər oğlu, möhtərəm Viktor Antonoviç. Bu gün Sizi MDU-da salamlamaq Moskva Universitetinin qocaman həvəskar kollektivi - akademik xoru üçün böyük şərəfdir. İcazə verin, Sizə MDU-nun fəxri professoru kimi yüksək ad verilməsi münasibətilə xor adından Sizi təbrik edim, cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayım. Biz Sizdən və burada iştirak edənlərdən ötrü məxsusi olaraq bu görüş üçün hazırladığımız Azərbaycan dilində bir mahnı ifa etmək istərdik.

Mirzə Əsgərovun rəhbərlik etdiyi akademik tələbə xorunun ifasında "Almanı atdım xarala" Azərbaycan xalq mahnısı və "Uzun illər" adlı ənənəvi təbrik mahnısı səsləndi.

Viktor Sadovniçi: Hörmətli həmkarlar, bununla da Elmi Şuranın təntənəli iclası bağlı elan edilir. Mən təklif edirəm, korporasiyamızın yeni üzvünü, fəxri professor, Azərbaycan Respublikasının Prezidentini bir daha təbrik edək.

Prezident İlham Əliyev MDU-nun fəxri qonaqlar kitabına ürək sözlərini yazdı, xatirə şəkli çəkdirdi.

Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru

2008-ci il mayın 22-də Ukraynada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru adının verilməsinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Mərasim iştirakçıları Azərbaycan dövlətinin başçısını hərarətlə qarşıladılar.

Universitetin rektoru vəzifəsini icra edən akademik Leonid Quberski Azərbaycan Prezidenti İlham Əliyevin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verdi. O, Azərbaycanın dövlət başçısının təhsilin inkişafında rolu barədə danışarkən vurğuladı ki, Azərbaycan Prezidentinin fəal dəstəyi sayəsində Azərbaycan və Ukrayna ali məktəbləri arasında dostluq əlaqələri və əməkdaşlıq genişlənmiş və dərinləşmişdir. Bu böyük və mühüm işdə Kiyev Universiteti də fəal iştirak edir. Vaxtilə burada təhsil almış Azərbaycan vətəndaşları hazırda ölkənin ictimai-siyasi həyatında mühüm yer tuturlar.

Akademik Quberski dedi ki, Azərbaycan Prezidenti beynəlxalq siyasi səhnədə müdrik dövlət başçısı, nüfuzlu siyasi xadim, Heydər Əliyevin böyük işlərinin layiqli davamçısı kimi imic qazanmışdır. O, ölkənin sosial-iqtisadi tərəqqisi naminə Azərbaycana və regiona yeni, müasir siyasət təklif etmiş dövlət başçısı kimi tanınmışdır.

Leonid Quberski vurğuladı ki, strateji tərəfdaşı və müttəfiqi, onun yaxın dostu kimi Ukrayna Azərbaycanın beynəlxalq aləmdə qazandığı böyük uğurlara sevinir, regional və beynəlxalq layihələrin həyata keçirilməsi üçün Azərbaycanın atdığı qətiyyətli addımları yüksək qiymətləndirir. Son illərdə həyata keçirilmiş iri beynəlxalq iqtisadi layihələr, uğurlu xarici siyasət Azərbaycanın nəinki regionda, hətta bütün dünyada yüksək nüfuza malik olan bir ölkə kimi tanınmasına kömək etmişdir.

Akademik Leonid Quberski bildirdi ki, Taras Şevçenko adına Kiyev Milli Universitetinin Elmi Şurası Azərbaycan Prezidenti İlham Əliyevə bu ali məktəbin fəxri doktoru adı verilməsi barədə qərar qəbul etmişdir. O, fəxri doktor diplomunu və mantiyasını Azərbaycan Prezidentinə təqdim etdi.

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar!

Hörmətli rektor, mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə sağ olun. Dünyanın aparıcı ali məktəblərindən birinin - Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru adına layiq görülmək mənim üçün böyük şərəfdir.

Mən bu adı ölkələrimiz arasında çox dinamik, səmərəli şəkildə inkişaf edən, yeni formalar kəsb edən, son nəticədə təkcə ikitərəfli münasibətlərin möhkəmlənməsinə deyil, həm də iri regional layihələrin həyata keçirilməsinə gətirib çıxaracaq dostluq, qardaşlıq münasibətlərinin inkişafı və möhkəmlənməsi işində fəaliyyətimin qiymətləndirilməsi hesab edirəm.

Mən bilirəm ki, bu gün Ukraynanın tarixində xüsusi bir gündür. Mənə dedilər ki, bu gün Taras Şevçenkonun nəşinin yenidən dəfn edildiyi gündür. Ukrayna xalqının bu görkəmli oğlunun xatirəsinə Azərbaycanda da böyük hörmətlə yanaşırlar. Fürsətdən istifadə edib sizə bildirmək istəyirəm ki, lap yaxın vaxtlarda Bakıda, şəhərimizin mərkəzi rayonlarının birində Taras Şevçenkonun abidəsinin açılışı olacaqdır. Bu da dövlətlərimiz arasında olan dostluq və qardaşlıq münasibətlərinin nümunəsidir.

Artıq qeyd etdiyim kimi, bu münasibətlər çox səmərəli və dinamik şəkildə inkişaf edir və bu gün biz həmin münasibətlərin keyfiyyətcə tamamilə yeni səviyyəsinin şahidiyik. Bu gün mən Ukraynada rəsmi səfərdəyəm. Bu, son dörd ildə sizin ölkənizə mənim dördüncü səfərimdir və bunun özü ölkələrimiz arasında sıx əlaqələrin göstəricisidir.

Bugünkü səfər bizim münasibətlərimizin inkişafında yeni mərhələdir. Ölkələrimiz arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirəcək çox mühüm sənədlər imzalanmışdır. Bu sənədlər bizim həyatımızın bir çox sahələrini əhatə edir, lakin ölkələrimiz arasında Dostluq və strateji tərəfdaşlıq haqqında bəyannaməni xüsusi vurğulamaq istərdim. Bu sənədin elə adı bizim münasibətlərimizin xarakterini və ruhunu, yəni dostluq və strateji tərəfdaşlığı əks etdirir. Əminəm ki, gələcəkdə bizim münasibətlərimiz daha səmərəli inkişaf edəcək, həyatımızın yeni sahələrini, iqtisadiyyatın, humanitar sahənin yeni sektorlarını əhatə edəcəkdir. İki qardaş dövlət kimi həm Ukrayna, həm də Azərbaycan islahatları uğurla həyata keçirəcək, ölkələrimizi demokratiya və tərəqqi yolu ilə irəli aparacaqlar.

Bu gün dünyanın aparıcı ali məktəblərindən birinin belə yüksək fəxri adını almaq mənə çox xoşdur. Vaxtilə mənim də müəllimlik fəaliyyətim olub və həyatımın bu dövrü mənə çox əzizdir. Bu gün də Azərbaycanın Prezidenti kimi təhsil sisteminin inkişafına böyük diqqət yetirməyə çalışıram. Hər bir ölkənin, hər bir xalqın gələcəyi təhsillə bağlıdır.

Əlbəttə ki, zəngin təbii ehtiyatlara malik olan Azərbaycan iqtisadi islahatları səmərəli şəkildə həyata keçirir. Lakin mən tam əminəm ki, yüksək təhsil səviyyəsi olmasa, peşəkarlıq olmasa, gənclər ən mütərəqqi texnologiyalara yiyələnməsələr, həqiqətən inkişaf etmiş dövlət qurmaq mümkün deyildir. Buna görə də təhsil bizim üçün prioritet sahədir. Son vaxtlarda Azərbaycanda bu istiqamətdə çox iş görülmüşdür. Bu sahəyə xərclər ilbəil artır.

Deməliyəm ki, Azərbaycan büdcəsinin maddələri arasında təhsil sahəsi ikinci yer tutur. Son 3-4 ildə Azərbaycanda 1300-dən çox məktəb tikilmiş, onlar hamısı internet şəbəkəsinə qoşulmuş kompyuterlərlə təchiz olunmuşdur.

Biz gənclərimizin dünyanın aparıcı ali məktəblərində təhsil alması üzrə proqramı həyata keçirməyə başlayırıq. Mənə çox xoşdur ki, bizim gənclər sizin universitetdə təhsil alırlar. Rektorun artıq qeyd etdiyi kimi, bu sahədə yaxşı ənənə də mövcuddur. Kiyev Milli Universitetinin məzunlarının çoxu bu gün hakimiyyət strukturunda mühüm mövqelər tutur və ictimai həyatda əhəmiyyətli rol oynayırlar.

Bütövlükdə Azərbaycanın bugünkü inkişafını səciyyələndirərək deməliyəm ki, ölkəmiz siyasi və iqtisadi islahatlar yolu ilə inamla irəliləyir. İslahatlar paralel şəkildə həyata keçirilir, hüquqi dövlət qurulması, cəmiyyətin demokratikləşməsi məsələlərinə çox böyük əhəmiyyət verilir. Güclü siyasi sistem yaradılması bizim bütün gələcək uğurlarımızın rəhnidir, çünki möhkəm demokratik təsisatları olmayan heç bir cəmiyyət inkişaf edə bilməz.

Bu istiqamətdə çox böyük iş görülmüşdür, hələ çox işlər də görülməlidir. Bununla paralel olaraq, çox ciddi və əsaslı iqtisadi islahatlar həyata keçirilir. Bütün bunlar əhalinin maddi rifahının yüksəlməsinə, habelə iqtisadi potensialımızın möhkəmlənməsinə, bütövlükdə beynəlxalq aləmdə ölkəmizin mövqelərinin möhkəmlənməsinə öz təsirini göstərir.

İqtisadi və siyasi islahatlar nəticəsində son dörd ildə Azərbaycanda iqtisadi artım 96 faiz olmuşdur. Son üç ildə biz ÜDM-in artım sürətinə görə dünyada ən yüksək nəticələr əldə etmişik, artım hər il 20-30 faiz olur. Sənaye istehsalının artımı da təxminən iqtisadi artım səviyyəsindədir. Biz irimiqyaslı sosial islahatlar həyata keçiririk, bunun nəticəsində yoxsulluğun səviyyəsi bir neçə dəfə azalmışdır və bu gün həmin göstəriciyə görə Azərbaycan dünya miqyasında layiqli yerdədir. Bizim vəzifəmiz sosial hadisə kimi yoxsulluğun kökünü tamamilə kəsməkdir və mən əminəm ki, yaxın vaxtlarda biz buna nail olacağıq.

Biz Azərbaycanın regionlarının inkişafına çox böyük diqqət yetiririk, çünki regional inkişaf ölkəmizin hərtərəfli inkişaf yoludur. Bu, yeni iş yerləri, müasir infrastruktur, o cümlədən təhsil və səhiyyə infrastrukturu yaradılması deməkdir. Ölkəmizdə bütün bunların həyata keçirilməsi mümkündür və bizim reallaşdırdığımız proqramlar, əslində, həyatımızın bütün sahələrini əhatə edir.

Azərbaycan zəngin təbii ehtiyatlara malik olan ölkədir. Əlbəttə, burada əsas rolu təbiət oynamışdır. Lakin biri var həmin təbii ehtiyatlar suyun dərin qatları altında qalsın, biri də var ki, onlar hasil edilsin, boru kəmərləri tikilsin və həmin resurslar dünya bazarlarına çatdırılsın. Biz 1990-cı illərin ortalarından başlayaraq, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə enerji sektorunda irimiqyaslı əsaslı islahatlar həyata keçirməyə nail olmuşuq. 1990-cı illərin ortalarında qarşıya qoyulmuş bütün vəzifələr hazırda uğurla yerinə yetirilmişdir.

Azərbaycan enerji ehtiyatlarının iri hasilatçısına və onları Avropa

və dünya bazarlarına çatdıran dövlətə çevrilmişdir. Azərbaycan qədim ölkədir. Dünyada ilk dəfə sənaye üsulu ilə neft 1847-ci ildə Azərbaycanda çıxarılmışdır. Lakin o vaxt Azərbaycan xalqı öz sərvətlərinin sahibi deyildi. O dövrdə və sonrakı illərdə Azərbaycan müstəqil dövlət deyildi. Yalnız müstəqillik əldə edəndən sonra Azərbaycan xalqı özünün təbii sərvətlərindən birbaşa istifadə etmək imkanı qazanmışdır və indi bizim təbii sərvətlərimiz ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Biz öz təbii resurslarımızdan dövlətimizin rifahı naminə istifadə edirik və bunun da nəticəsində enerji resurslarının satışından əldə edilən gəlir müntəzəm və ədalətli qaydada bölünür. Biz hasilat sahəsində şəffaflığın maksimum səviyyəsinə nail olmuşuq və bu göstərici üzrə dünya miqyasında liderik. Bunu aparıcı beynəlxalq təşkilatlar da etiraf etmişdir. Keçən il Birləşmiş Millətlər Təşkilatı neft gəlirlərinin xərclənməsində şəffaflığın yüksək səviyyəsinə görə Azərbaycanı mükafatlandırmışdır.

Biz boru kəməri siyasətini və Azərbaycanın enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasının şaxələndirilməsini uğurla həyata keçirmişik. Hazırda nefti üç istiqamətdə nəql edirik, bunlardan ikisi Qara dəniz hövzəsi, biri Aralıq dənizi hövzəsidir. Biz yeni enerji dəhlizlərinin yaradılması məsələsində öz tərəfdaşlarımızla, o cümlədən Ukrayna ilə fəal əməkdaşlıq edirik. Sizə məlum olduğu kimi, sabah Kiyevdə energetika məsələlərinə həsr edilmiş sammit açılacaqdır. Həmin sammitdə müzakirə ediləcək məsələlərdən biri Odessa-Brodı-Plotsk-Qdansk boru kəməri layihəsinin həyata keçirilməsi məsələsi olacaqdır. Azərbaycan lap əvvəldən bu layihəni siyasi cəhətdən dəstəklədiyini bildirmişdir və indi də bu fikirdədir. Bizim neft şirkətimiz həmin layihəni həyata keçirən "Sarmatiya" şirkətinin səhmdarlarından biridir və ümid edirik ki, enerji sammitinin nəticələri həm bu layihənin həyata keçirilməsi yolunda, həm də bütövlükdə Xəzər dənizini Qara dəniz və Baltik dənizi ilə birləşdirən etibarlı enerji dəhlizi yaradılmasında irəliyə doğru daha bir addım olacaqdır.

Biz Xəzər hövzəsində yataqlarımızın işlənilməsinə xarici şirkətləri dəvət etmiş ilk ölkə olmuşuq. Bu gün Azərbaycan nefti dünyanın bütün guşələrinə, bütün qitələrə nəql edilir. Biz qarşımızda duran əsas strateji məsələləri uğurla həll etmişik və indi gələcəyə baxırıq. Enerji resurslarımızla regional əməkdaşlıq, regionumuzda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi işinə daha çox töhfə vermək üçün nə edə biləcəyimiz barədə fikirləşirik. Biz gələcəkdə də bu istiqamətdə səylərimizi artırmaq və qarşıya qoyulmuş bütün vəzifələri yerinə yetirməyə çalışmaq əzmindəyik.

Bu yaxınlarda Azərbaycan qaz hasil edən və dünya bazarına qaz göndərən ölkəyə çevrilmişdir. Əvvəllər bu, belə deyildi. Lakin qazla bağlı ən mühüm layihələri uğurla həyata keçirən Azərbaycan artıq indi Avropa İttifaqı bazarlarına qaz nəql edir. Gələcəkdə isə, bildiyiniz kimi, enerji təhlükəsizliyi məsələləri beynəlxalq münasibətlərin gündəliyində üstünlük təşkil edəcəkdir. Artıq bu gün enerji təhlükəsizliyi məsələlərinə ölkənin milli təhlükəsizliyi kontekstində yanaşırlar. İndiki halda Xəzərin və ilk növbədə Azərbaycanın enerji resursları bu məsələdə artıq müsbət rol oynayır. Biz öz enerji ehtiyatlarımızdan regionda etimadın möhkəmlənməsi, regional əməkdaşlığın möhkəmlənməsi üçün istifadə edirik. Enerji ehtiyatlarından bizim dostlarımız və tərəfdaşlarımız arasında, strateji münasibətlərə malik olduğumuz ölkələr arasında dostluğu möhkəmlətmək üçün istifadə edirik.

Beləliklə, dünya enerji bazarı üçün, qlobal təhlükəsizlik məsələləri üçün Azərbaycanın dünya siyasətində rolu və yeri möhkəmlənir. Bu, əlbəttə, bizə yeni imkanlar verir, lakin həm də bizim üzərimizə əlavə məsuliyyət qoyur. Hazırda dünyada hər şey - istehlakçıların enerji təhlükəsizliyi məsələləri də, resursların satışından alınan səmərənin hasilatçılar üçün faydası məsələləri də bir-biri ilə qarşılıqlı surətdə bağlıdır. Bunlar vəhdət halında maraqların tarazlığını formalaşdırmalıdır. Biz belə tarazlığın tərəfdarıyıq və bu proseslərin müsbət məcrada getməsi üçün, enerji resurslarının mübahisə və münaqişə predmetinə çevrilməməsi üçün öz tərəfimizdən nə lazımdırsa edəcəyik. Bu gün bu məqsədə nail olmuşuq, belə ki, həmişə etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət etmişik.

Ölkəmizdə müxtəlif sahələrdə görülən işlər barədə çox danışa bilərəm. Artıq qeyd etdiyim kimi, bütün sahələr üzrə konkret proqramlar həyata keçirilir. Bizim xeyli maliyyə ehtiyatlarımız yaranmışdır və çoxsaylı sosial proqramlar həyata keçirirk. Sadəcə olaraq, vaxtın məhdudluğu üzündən yalnız bizi narahat edən əsas məqamlar üzərində dayanmalı olacağam.

Bizim uğurlarımızla, gələcəyə böyük nikbinliklə baxmağımızla yanaşı, regionda sabitliyin pozulması, qarşıdurma təhlükələri də mövcuddur. Əslində, onlar həmişə olmuşdur və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi kontekstində görürük ki, bu proses dondurulmuş hesab edilə bilməz.

Məsələ həll edilməmiş qaldıqda, münaqişənin daim yenidən alovlanması qorxusu var. Azərbaycanın bu məsələyə münasibətdə mövqeyi birmənalıdır və bu mövqe beynəlxalq hüququn prinsip və normalarına əsaslanır, yəni Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasətindən zərər çəkmiş bir milyon azərbaycanlı özlərinin daimi yaşayış yerlərinə qayıtmalıdır. Azərbaycanın ərazilərinin işğalına son qoyulmalıdır və yalnız o vaxt regionda sülh bərpa olunacaqdır. Bizim mövqeyimiz istər tarixi baxımdan, istərsə də hüquqi, siyasi, iqtisadi baxımdan, qüvvələr balansı, - o cümlədən hərbi sahədə, - baxımından möhkəmdir.

Dağlıq Qarabağın ərazisində tarixən həmişə Azərbaycan xalqının nümayəndələri yaşamışdır. 1828-ci ildə həmin əraziyə erməni xalqının nümayəndələri köçürülmüş, sonradan onlar orada çoxluq təşkil etmiş və bu, separatçılıq təzahürlərinin başlanmasına təkan vermişdir.

Bu gün Dağlıq Qarabağ rejimi heç kim tərəfindən tanınmamışdır. O, əslində, kriminal rejimin idarə etdiyi qanunsuz, qeyri-leqal qurumdur. Orada heç bir qanun işləmir, orada beynəlxalq monitorinq keçirilmir, orada kriminallaşma, narkotrafik, terrorizm kimi çox təhlükəli proseslər baş verir və bunların hamısı bütün qitə üçün təhlükədir. Ona görə ki, indi dünyada, xüsusən Avropada nəzarətsiz zonaların sayı o qədər də çox deyildir. Bu, bütün regionda sabitliyin pozulmasına gətirib çıxara biləcək böyük təhlükədir.

Beynəlxalq hüquq normaları baxımından BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin bizim ərazidən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, lakin onlara əməl olunmur. Bu yaxınlarda BMT-nin Baş Məclisi işğalçı qüvvələrin ərazimizdən çıxarılmasını tələb edən yeni qətnamə qəbul etmişdir. Biz Ukraynaya çox minnətdarıq ki, o, BMT-də səsvermə zamanı Azərbaycanı dəstəklədi, əslində, ədaləti dəstəklədi və beynəlxalq hüquq normalarının bərqərar olmasına tərəfdar çıxdı.

Mən bu məsələnin siyasi tərəfi barədə danışanda qeyd etməliyəm ki, bu gün, heç şübhəsiz, regional əməkdaşlıq, qlobal enerji təhlükəsizliyi məsələlərində Azərbaycanın əhəmiyyəti və rolu artır. Azərbaycanın iqtisadi potensialı çox sürətlə artır və indi bizim iqtisadiyyatımız hələ də beynəlxalq hüququn norma və prinsiplərinə riayət etmək istəməyən həmin ölkənin iqtisadiyyatından, demək olar ki, 7 dəfə artıqdır. Münaqişənin həlli bizim üçün bir nömrəli problem və ölkəmizin qarşısında duran ən ciddi problemdir. Bu, bizim yeganə problemimizdir, çünki iqtisadi islahatlar, siyasi islahatlar, sosial proqramlar – bütün bunlar ona doğru aparır ki, biz Azərbaycanın sözün tam mənasında inkişaf etmiş dövlətə çevrilməsinə nail olacağıq.

Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi bütün regionun təhlükəsizliyi üçün təhdiddir. Bir daha demək istəyirəm ki, bizi dəstəklədiyinə görə qardaş Ukraynaya minnətdarıq və gələcəkdə də diplomatik və siyasi səylərimizi artırmağa çalışacağıq və əlbəttə, müdafiə qabiliyyətinin artırılmasını da unutmayacağıq. Son vaxtlar bu istiqamətdə az iş görülməmişdir. Qısaca onu deyə bilərəm ki, hazırda Azərbaycanın müdafiə xərcləri təxminən iki milyard dollara bərabərdir, bu isə Ermənistanın illik büdcəsi ilə müqayisə edilə bilər.

Vaxtın məhdud olması ilə əlaqədar mən öz çıxışımı tamamlamağa məcburam. Bir daha demək istəyirəm ki, bu gündən etibarən Kiyev Milli Universitetinin fəxri doktoru adını daşımaq mənim üçün böyük şərəfdir. Mən gələcək fəaliyyətimdə çalışacağam ki, Ukrayna ilə Azərbaycan arasında münasibətlər daim inkişaf etsin, yeni formalarla, yeni layihələrlə zənginləşsin. Bizim ölkələrimizin xalqları arasında tarixən yaxınlıq vardır. Bu gün bir-birimizə strateji tərəfdaşlar kimi baxdıqda, təbii ki, ölkələrimiz arasında münasibətlərin keyfiyyəti tamam başqadır.

Əminəm ki, gələcəkdə biz bütün sahələri – təkcə energetikanı deyil, iqtisadiyyat, nəqliyyat sahələrini, humanitar əməkdaşlığı və sairi də əhatə edən bütün planları və layihələri reallaşdıracağıq. Onda, təbii ki, ölkələrimizin potensialı xeyli artacaqdır. Biz artıq indi görürük ki, möhkəm siyasi əlaqələr keçən il əmtəə dövriyyəsinin 40 faizdən çox artmasına gətirib çıxarmışdır. Bu, yalnız başlanğıcdır. Biz öz ölkələrimizin – müstəqil Ukraynanın və müstəqil Azərbaycanın, müstəqil siyasət yeridən ölkələrin inkişafının keyfiyyətcə yeni mərhələsindəyik. Xalqlarımız əsrlər boyu öz taleyimizi özümüzün müəyyənləşdirəcəyi günün həsrətini çəkmişdir. Bizim nəslin xoşbəxtliyi ondadır ki, həmin günü gördük və ən başlıcası, bu müstəqilliyi möhkəmlətmək və gələcək nəsillərimiz üçün qoruyub saxlamaq imkanımız vardır.

Universitetin Elmi Şurasına, mənə bu fəxri adın verilməsi barədə qərar qəbul edənlərin hamısına təşəkkür etmək, qardaş Ukrayna xalqına öz dərin hörmət və məhəbbətimi ifadə etmək, sizin bütün planlarınızın həyata keçməsini və gələcəkdə Ukraynaya bütün işlərində böyük uğurlar diləmək istəyirəm.

Sağ olun.

Universitetin rektoru vəzifəsini icra edən akademik Leonid Quberski Azərbaycan dövlətinin başçısını Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru adına layiq görülməsi münasibətilə bir daha səmimi təbrik etdi, ona cansağlığı və Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, xoşbəxtlik və tərəqqi arzuladı.

Mərasimdən sonra Prezident **İlham Əliyev** universitetdə təhsil alan azərbaycanlı tələbələrlə söhbət etdi:

- Mən sizin hamınızı salamlayıram. Şadam ki, Azərbaycanın gəncləri burada oxuyurlar. Bu universitetin dünyanın aparıcı ali məktəblərindən biri olduğunu qeyd etdim, çox şadam ki, Azərbaycanın Ukraynada oxuyan tələbələrinin sayı artır. Siz gərək təhsili bitirəndən sonra Vətənə qayıdasınız. Xüsusilə indi Azərbaycanda işlər çoxdur. Sizin kimi gənc mütəxəssislər istənilən sahədə çox lazımdır. Azərbaycan inkişaf edir. Bilirsiniz ki, xaricdə tələbələrin təhsil alması ilə bağlı proqram da hazırlanıbdır. Amma mən artıq bu gün təsəvvür edirəm ki, təhsil yaxşı olacaq və siz yaxşı biliklərlə Vətənə qayıdacaqsınız. Ukrayna dilini də bilirsiniz?

Tələbə: Bəli, cənab Prezident, Ukrayna dilində təhsil alırıq!

İlham Əliyev: Ukrayna dilində oxuyursunuz? Ukrayna bizim üçün dost ölkədir. Mən bu gün də dedim, bu dostluğu möhkəmləndirmək üçün bütün imkanlardan istifadə edəcəyəm. Siz isə, necə deyərlər, təbii olaraq Ukraynada Azərbaycanın səfirlərisiniz. Siz gələcəkdə də, yəqin ki, öz işinizdə Ukrayna ilə bağlı olacaqsınız. Bir halda ki, Ukrayna dilini bilirsiniz, bu, bizim dostluğumuzu daha da möhkəmləndirəcəkdir. Mən qeyd etdim, bu universiteti bitirmiş insanlar Azərbaycanda müxtəlif sahələrdə və məsul vəzifələrdə çalışırlar.

Sizə də uğurlar arzulayıram. Yaxşı bilik sahibi olmalısınız ki, Azərbaycanda yaxşı yer tuta biləsiniz. Bu gün, doğrudan da, ölkəmizə istənilən sahədə yaxşı mütəxəssislər lazımdır. Sizə uğurlar arzulayıram.

Tələbələr gənclər üçün yaradılmış şəraitə görə dövlət başçısına təşəkkür etdilər, Azərbaycanı başqa ölkələrdə həmişə ləyaqətlə təmsil etməyə çalışacaqlarını vurğuladılar.

Prezident İlham Əliyev tələbələrlə xatirə şəkli çəkdirdi.

Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin fəxri professoru

2008-ci il noyabrın 28-də Türkmənistanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin fəxri professoru adının verilməsinə həsr edilmiş mərasim keçirilmişdir.

Türkmənistanın təhsil naziri Məhəmmədgəldi Annaamanov, universitetin rektoru Çaryad Tugiyev universitetin qarşısında Azərbaycan Prezidentini səmimiyyətli qarşıladılar. Dövlət başçısına gül dəstəsi təqdim edildi.

Prezident İlham Əliyev əvvəlcə universitetin foyesində açılmış, Türkmənistanın tarixini və bugünkü həyatını əks etdirən fotosərgi ilə tanış oldu. Azərbaycan Prezidentinə məlumat verildi ki, 1931-ci ildə pedaqoji institut kimi yaradılmış bu universitet hazırda Türkmənistanın ən nüfuzlu ali məktəbidir. Onun bazasında bir sıra ali məktəblər yaradılmışdır. İndiyə qədər burada 55 mindən artıq mütəxəssis hazırlanmışdır. Universitetin kitabxanasında 600 min nüsxədən çox kitab vardır.

Universitetin akt salonunda keçirilən mərasimə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi sürəkli alqışlarla qarşıldılar.

Universitetin rektoru **Çaryad Tugiyev** mərasimi açaraq dedi:

- Cənab Prezident! Hörmətli İlham Heydər oğlu!

Azərbaycan hökumət nümayəndə heyətinin hörmətli üzvləri!

Əziz həmkarlar!

Ali qonağımızı – Azərbaycan Respublikasının Prezidentini Məxdumqulu adına Türkmənistan Dövlət Universitetində salamlamaq bizim üçün böyük şərəfdir.

Bugünkü gün ali məktəbin tarixinə çox mühüm bir hadisə kimi daxil olacaqdır. Bu hadisə ikitərəfli münasibətlərin yüksələn xətlə inkişafının rəmzidir, cari ilin may ayında bizim çox hörmətli Prezidentimiz Qurbanqulu Berdiməhəmmədovun Azərbaycan Respublikasına rəsmi səfərinin gedişində bu münasibətlərə yeni təkan verilmişdir.

Bakıda yüksək səviyyəli Türkmənistan-Azərbaycan danışıqları xalqlarımızın tarixi dostluq və qardaşlıq ənənələrinə sadiqliyini, hər iki ölkənin səmərəli dialoq qurmağa hazır olmasını təsdiq etdi. Çox hörmətli Prezidentimiz Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədovun fəxri doktoru olduğu Bakı Dövlət Universitetində həmkarlarımızla səmimi görüş də yadımızdadır.

Bu gün isə Aşqabad azərbaycanlı yüksək qonaqları qəbul edir. Yüksək səviyyədə danışıqlar indicə uğurla başa çatmışdır və dövlət başçıları arasında əldə edilmiş razılaşmalar Türkmənistan-Azərbaycan əməkdaşlığının hər iki ölkənin potensialına və xalqlarımızın mehriban qonşuluq münasibətlərini inkişaf etdirmək istəklərinə cavab verən yeni səviyyəsindən xəbər verir. Humanitar sahədə, ilk növbədə, Türkmənistanın dövlət siyasətinin strateji prioritetlərindən biri olan təhsil və elm sahəsində əlaqələr Türkmənistanla Azərbaycanın əməkdaşlığının mühüm tərkib hissəsidir. Çox hörmətli Prezidentimiz Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədov bu siyasəti belə ifadə etmişdir: Dövlət insan üçündür.

Bizim ali məktəbdə keçirilən indiki görüş də bunu sübut edir. Məxdumqulu adına Türkmənistan Dövlət Universiteti ölkəmizin ən qocaman və ən nüfuzlu ali məktəblərindən biridir. Burada seçdikləri sahənin əsl ustaları olan onlarca elmlər doktoru və elmlər namizədi çalışır. Hazırda bizim ali məktəb özünün ikinci həyatını yaşayır. Çox hörmətli Prezident Qurbanqulu Berdiməhəmmədov məhz burada, bu divarlar arasında ölkəmizin elm və təhsil sahəsində əsaslı dəyişikliklərin təməlini qoymuş ən mühüm sənədləri elan etmiş və imzalamışdır.

Dövlətimizin başçısının rəhbərliyi altında böyük dirçəliş dövründə millətin intellektual potensialını maksimum reallaşdırmaq üçün bütün zəruri şərait yaradılır. Bu gün Türkmənistan Dövlət Universiteti millətimizin liderinin təşəbbüsü ilə başlanmış elm və təhsil sahəsində islahatın uğurla həyata keçirilməsinə ən parlaq nümunələrdən biridir.

Təkcə son iki ildə bizdə təhsil alan tələbələrin sayı xeyli artmışdır. Yeni vəzifələrə müvafiq olaraq, tədris proqramları və planlarına təzədən baxılmış, yeni ixtisaslar açılmışdır, elmi kadrların, aspirantların və doktorantların hazırlanması sahəsində fəal iş gedir. Ali məktəbdə qabaqcıl texnologiyaların tətbiqi məsələlərinə xüsusi diqqət yetirilir. Məsələn, universitetin fizika-riyaziyyat mərkəzində fundamental və tətbiqi xarakterli elmi tədqiqat işləri aparılır. Mərkəzin alimləri ultrabənövşəyi və görünən diapazonda şüalanma spektrinin yüksək effektivliyə malik fotoqəbuledicilər yaradırlar. Onların əsasında kənd təsərrüfatı, ekologiya və təbabət sahəsində qarşıya çıxan məsələlərin həlli üçün uğurla tətbiq edilən ölçmə cihazları hazırlanmışdır.

Burada Elmi Tədqiqat Neft və Qaz İnstitutu ilə birlikdə layların neft və qaz verməsinin artırılması probleminə dair aktual araşdırmalar aparılır. Cari tədris ilinin əvvəlində Türkmənistan Dövlər Universitetinin fizika-riyaziyyat fakültəsinin yeni korpusu açılmışdır. Elmin və texnikanın son nailiyyətləri səviyyəsində təchiz olunmuş bu korpus müəllimlərin və tələbələrin çox mürəkkəb

tədqiqatlar, elmi təcrübələr və eksperimentlər aparmasına imkan verir. Fakültənin güclü teleskopla təchiz olunmuş rəsədxanası isə səma cisimlərini dərindən və ciddi şəkildə öyrənməyə şərait yaradır.

Bizim ali məktəbin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri beynəlxalq əməkdaşlığı genişləndirmək, dünyanın aparıcı elm və təhsil mərkəzləri ilə, başqa ölkələrdən olan həmkarlarımızla təcrübə mübadiləsi aparmaqdır. Avropa İttifaqı ölkələri ilə müştərək proqramların həyata keçirilməsi təhsil sahəsində uğurla həyata keçirilən beynəlxalq əməkdaşlığa misaldır. Bu proqramlardan biri - "Avropa təcrübəsi, ali təhsilin vəziyyəti və onun keyfiyyətinin artırılması istiqamətləri" layihəsi Kataloniya Politexnik Universitetinin, Qrenobldakı Milli Politexnik İnstitutunun və Türkmənistan Dövlət Universitetinin müəllimlərinin birgə işinin yekunudur.

Hazırda Rusiya və Türkiyə alimləri ilə əlaqələrimiz səmərəli inkişaf edir. Amerika Birləşmiş Ştatlarının ali məktəbləri – Kolumbiya və Texas universitetləri ilə sıx elmi əlaqələr yaradılmışdır. Bu işin əsas məqsədi beynəlxalq təcrübəni dərindən mənimsəmək, ölkəmizin və dünya elminin son nailiyyətlərini, qabaqcıl informasiya texnologiyalarını öyrənmək və tədris prosesinə tətbiq etmək, öz milli metodikamızı dünyada tanıtmaqdır.

Hörmətli İlham Heydər oğlu!

Türkmənistan Prezidenti yanında Elm və Texnika üzrə Ali Şura Sizin Türkmənistan-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə, müasir elmin və təhsilin inkişafına böyük töhfənizi nəzərə alaraq, Məxdumqulu adına Türkmənistan Dövlət Universiteti Elmi Şurasının təqdimatına əsasən, sülhün və siyasi sabitliyin möhkəmlənməsinə, Türkmənistanla Azərbaycan arasında dostluq, qardaşlıq münasibətlərinin inkişafına, Türkmənistanla Azərbaycan Respublikası arasında humanitar sahədə, təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə böyük şəxsi töhfənizə görə Sizə Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin fəxri professoru adı verilməsini qərara almışdır.

Hörmətli İlham Heydər oğlu, icazə verin, Sizə yüksək elmi ad - Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin fəxri professoru adı verilməsi haqqında diplomu təqdim edim.

Rektor Azərbaycan Prezidenti İlham Əliyevə universitetin fəxri professoru diplomunu və milli türkmən geyimini təqdim etdi.

Prezident İlham Əliyev universitetin professor-müəllim kollektivi qarşısında nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar!

Mən, ilk növbədə, əməyimi yüksək qiymətləndirdiyinə, mənə bu universitetin fəxri professoru kimi yüksək ad verilməsinə görə Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinə dərin minnətdarlığımı bildirmək istərdim.

Sizi əmin etmək istəyirəm ki, mən bundan sonra da öz fəaliyyətimdə iki qardaş xalq – türkmən və Azərbaycan xalqları arasında əlaqələrin möhkəmlənməsinə, ölkələrimizin münasibətlərinin bugünkü kimi dinamik inkişaf etməsinə çalışacağam.

Qonaqpərvər Türkmənistan torpağında olmağıma çox şadam. Bu gün mənim rəsmi səfərim başlanmışdır. Bu səfərin ilk dəqiqəsindən etibarən mən səmimi, mehriban qonaqpərvərliyi hiss edirəm. Bu gün biz çox hörmətli Türkmənistan Prezidenti Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədovla ölkələrimiz arasında ikitərəfli münasibətlərin geniş spektrini müzakirə etdik. Biz həmçinin regional məsələləri, öz həllini tələb edən məsələləri müzakirə etdik və əlaqələrimizin inkişafından ümumi razılığımızı bildirdik.

Bizim münasibətlərimizin inkişafı üçün çox möhkəm təməl mövcuddur. Bu təməl bizim ortaq tariximiz, bizim mədəniyyətimizdir. Türkmən və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq, mehriban qonşuluq şəraitində yaşamışlar. Biz iki müstəqil dövlət arasında münasibətləri bu möhkəm tarixi təməl üzərində qururuq.

Ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkülü dövrü çox uğurlu olmuşdur. Bu gün sözün tam mənasında deyə bilərik ki, həm Türkmənistan, həm də Azərbaycan özlərinin müstəqil dövlətlər kimi təşəkkülü yolunda əsas məsələləri həll etmişdir. Bu gün ölkələrimizdə ictimai-siyasi sabitlik, xalqla iqtidar arasında birlik, çox möhkəm iqtisadi zəmin mövcuddur. Biz özümüzü təmin edən ölkələrik və bizi birləşdirən daha bir amil müstəqil siyasət, müstəqil xətt yeritməyə qadir olmağımız, bunun üçün iradəmizin olmasıdır. Bizim münasibətlərimizin möhkəmlənməsində çox böyük rol oynayan əsas prinsiplər bunlardır.

Bu gün biz həm siyasi, həm iqtisadi əlaqələri, humanitar sahədə, nəqliyyat və energetika sahələrində əlaqələri, bizi birləşdirən çoxsaylı başqa mövzuları müzakirə etdik. Əməkdaşlığımızla bağlı çox

məsələlərin həllinə yanaşmalarımız tamamilə eynidir. Əmtəə dövriyyəsi artır, son dövrdə o, bir neçə dəfə artmışdır. Çox qısa müddətdə iqtisadi xarakterli bir sıra məsələlər həll olunmuşdur. Biz beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirik. Energetika sahəsində əməkdaşlıq üçün də yaxşı potensial mövcuddur. Ölkələrimiz özlərinin enerji təhlükəsizliyini tam təmin etmişdir və başqa dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edir.

Bu amillər ölkələrimiz arasında münasibətlərdə mühüm rol oynamaqla bərabər, həm də bizim regionda – Mərkəzi Asiya, Qafqaz, Xəzər hövzəsi regionunda proseslərə müsbət təsir göstərir. Buna görə də mən dərin məmnunluq hissi ilə qeyd edirəm ki, son bir neçə ayda Türkmənistan və Azərbaycan rəhbərliyi arasında siyasi təmaslar tamamilə yeni səviyyəyə çıxmışdır. Bu gün mən artıq bu barədə demişəm və bir daha demək istəyirəm ki, bu ilin mayında Türkmənistan Prezidentinin ölkəmizə rəsmi səfəri, aparılmış danışıqlar, imzalanmış sənədlər bu əlaqələrə güclü təkan vermişdir. Ən başlıcası isə odur ki, imzalanmış sənədlər artıq reallaşdırılır və bu gün biz nəzərdə tutduğumuz, qərara aldığımız məsələlərin praktik şəkildə gerçəkləşməsini görürük.

Bunlar bir daha göstərir ki, münasibətlərimizin möhkəmlənməsi üçün çox güclü siyasi iradə vardır. Bir daha vurğulamaq istəyirəm ki, bunun üçün çox möhkəm, güclü tarixi təməl mövcuddur. İndi ölkələrimizin sosial-iqtisadi inkişafı ilə bağlı bir sıra məsələlərin uğurla həll edildiyi bir vaxtda biz gələcəyə baxırıq ki, ölkələrimizi daha da yaxınlaşdırmaq, iqtisadi inteqrasiyanı, siyasi dialoqu daha da möhkəmlətmək üçün, ölkələrimizin vətəndaşlarının bir-birini daha yaxşı tanımaları üçün daha nə etmək lazımdır.

Bu məqsədlə gələcəkdə insanlarımızın bir-birini daha yaxşı tanıması, dostlaşması üçün bu gün müxtəlif mədəni tədbirlər, mədəni mübadilələr, ölkələrimizin mədəniyyət xadimlərindən ibarət nümayəndə heyətlərinin mübadiləsini təşkil etmək qərara alınmışdır. Mən xalqlarımızın dillərində oxşar cəhətlərin lap çox olmasını qeyd etmək istəyirəm.

Əlbəttə, mən bunu bilirdim, təbii ki, bu barədə eşitmişdim və bu gün buna şəxsən əmin oldum. Aşqabadda obyektlərin, binaların üzərindəki yazıları oxuyanda tərcüməçi lazım deyil. Bu gün, biz bu salona daxil olandan əvvəl universitetin gənc tələbələri mənə kompyuter proqramlarını göstərdilər. Orada türkmən dilində yazılmış mətni başa düşmək üçün də mənə tərcüməçi lazım deyildi, hər şeyi başa düşürdüm. Bu, çox böyük sərvət, çox böyük dəyərdir. Bu, bizim xalqlarımızın bir-birinə nə qədər yaxın olmasını, ünsiyyət saxlamağımızın nə qədər asan olmasını göstərir. Ona görə də biz bu münasibətləri öz əməllərimizlə, konkret addımlarımızla, təşəbbüslərimizlə möhkəmlətmək üçün hər şeyi etməliyik. Bir daha demək istəyirəm, bu münasibətlər bizim xalqlarımız üçün, tariximiz üçün vacibdir, bu, həm də əsrlər boyu dost və qardaş kimi birgə yaşamış əcdadlarımızın ruhuna ehtiram əlaməti olacaqdır. Bu, həm də regional əməkdaşlıq üçün yaxşı amil olacaqdır.

Regionda müsbət proseslər də gedir, müəyyən narahatlıq ocaqları da var. Qafqaz regionunda hələ tam sabitlik bərqərar olmamışdır. Regionumuzda etimad tədbirlərini möhkəmlətmək üçün hələ çox iş görülməlidir. Bizim yerləşdiyimiz region son vaxtlar get-gedə dünya üçün daha böyük maraq doğurur. Mərkəzi Asiya, Qafqaz, Xəzər hövzəsi zonası bu gün həm geosiyasi, həm iqtisadi, həm də enerji baxımından, enerji ehtiyatlarının nəqlinin şaxələndirilməsinin, enerji müstəqilliyinin və enerji təhlükəsizliyinin təmin edilməsi baxımından böyük maraq doğurur.

İndiki halda Türkmənistanın və Azərbaycanın zəngin təbii ehtiyatları, ölkələrimizin öz enerji potensialını müstəqil şəkildə reallaşdıra bilməsi, əlbəttə, ölkələrimiz qarşısında yeni perspektivlər açır, habelə əməkdaşlıq, iqtisadi əlaqələrin möhkəmlənməsi üçün, həm regionda, həm də dünyada mövqelərimizin möhkəmlənməsi üçün yeni imkanlar yaradır. Əminəm ki, gələcəkdə bizim regionda, həm də təkcə burada yox, onun hüdudlarından kənarda da inteqrasiya, energetika, nəqliyyat layihələri, başqa layihələr və proseslər xeyli dərəcədə Türkmənistan ilə Azərbaycan arasında münasibətlərin səviyyəsindən asılı olacaqdır. Bizim münasibətlərimizdə olan müsbət ovqat, birgə işləmək, birgə təşəbbüsləri həyata keçirmək, əməkdaşlıq etmək arzumuz və ən başlıcası, bu əməkdaşlığın konkret nəticələri nikbinlik doğurur.

Mən əminəm ki, Türkmənistanla Azərbaycan arasındakı qardaşlıq, dostluq münasibətləri gələcəkdə daha da möhkəmlənəcək, xalqlarımız bir-birinə daha yaxın olacaq, bu isə həm ölkələrimizin inkişafına, həm də regional əməkdaşlığa kömək edəcəkdir.

Mən bu gün bu ali məktəbdə ölkələrimizin gələcəyi üçün təhsilin əhəmiyyəti barədə də bir neçə söz demək istərdim. Bu gün Türkmənistanda sizin ölkənin rəhbərliyinin və şəxsən Prezidentin təhsillə bağlı məsələlərə qayğı göstərməsini görmək mənim üçün çox xoş oldu. Təhsil gələcək deməkdir, təhsil intellektdir, təhsil inkişafdır. Dünyanın heç bir ölkəsi öz intellektual potensialını reallaşdırmadan uğurla inkişaf edə bilməz.

Əgər biz dünyanın inkişaf etmiş ölkələrinin tarixinə və təşəkkül yoluna nəzər salsaq görərik ki, inkişaf üçün əsas təkan məhz intel-

lektual potensial, təhsilin inkişaf səviyyəsi, müasir texnologiyaların inkişaf səviyyəsi olmuşdur. Bu gün Türkmənistanda təhsil məsələlərinə çox böyük əhəmiyyət verildiyini görmək mənə çox xoşdur. Bizim ölkədə də eyni hadisələr baş verir. Bizdə də bu məsələ prioritet məsələdir, çalışırıq ki, Azərbaycanın bütün vətəndaşlarının, gənclərin keyfiyyətli təhsil almaq, yaxşı mütəxəssis kimi yetişmək imkanı olsun, onlar öz əməli işləri ilə ölkəmizin inkişafına töhfə versinlər.

Biz məktəb tikintisi ilə əlaqədar çox böyük bir proqram həyata keçiririk. Son beş ildə Azərbaycanın müxtəlif bölgələrində ən müasir avadanlıqla təchiz edilmiş 1600 müasir məktəb tikilmişdir. İslahatlara və təhsil prosesinin keyfiyyətinə xüsusi diqqət yetiririk ki, bu proses müasir tələblərə tam uyğun olsun, eyni zamanda, xalqımızın ənənələrinə əsaslansın.

Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli, mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk. Bu, bizim inkişafımızın əsası, hər bir xalqın inkişafının əsasıdır. Ölkələrimiz son 17 ildə müstəqildir. O vaxta qədər, əsrlər boyu bizim öz taleyimizi müstəqil şəkildə müəyyən etmək imkanımız olmamışdır. Lakin biz öz milli ləyaqətimizi, milli identikliyimizi və milli ruhumuzu qoruyub saxlamışıq. Bu, çox cəhətdən bizim tariximiz, mədəniyyətimiz, ədəbiyyatımız, bizim dilimiz, bizim böyük alim və mütəfəkkirlərimiz sayəsində mümkün olmuşdur. Bu, çox böyük, heç bir şeylə müqayisə edilə bilməyəcək sərvətdir.

Mən qəti əminəm ki, hər bir ölkənin gələcəyi daha çox təhsilin keyfiyyətindən asılıdır. Ona görə də bu gün bu yüksək mükafatı – Türkmənistan Dövlət Universitetinin fəxri professoru diplomunu almaq mənə çox xoşdur və əməyimi bu cür qiymətləndirdiyinizə görə sizin hamınıza bir daha dərin

təşəkkürümü bildirmək istəyirəm.

Mən bizi dəvətə görə, səmimi qəbula görə, Türkmənistan Prezidentinə, bizə göstərilən qonaqpərvərliyə görə qardaş Türkmənistanın bütün vətəndaşlarına təşəkkür etmək istəyirəm. Əminəm ki, ölkələrimizin gələcəyi də bugünkü günümüz kimi gözəl və xoşbəxt olacaqdır. Öz tərəfimdən sizin hamınızı bir daha əmin etmək istəyirəm ki, mən öz fəaliyyətimdə Türkmənistanın və Azərbaycanın qardaş xalqlarının bundan sonra da dostluq, həmrəylik şəraitində yaşaması, əlbir işləməsi, ölkələrimizin və xalqlarımızın inkişafı üçün yeni şərait yaranması naminə əlimdən gələni edəcəyəm.

Diqqətinizə görə təşəkkür edirəm.

Çaryad Tugiyev: Hörmətli İlham Heydər oğlu!

İcazə verin, bu yüksək ada layiq görülməyiniz münasibətilə Sizi Məxdimqulu adına Türkmənistan Dövlət Universitetinin professor-müəllim heyəti, aspirantları və tələbələri adından, Türkmənistanın bütün elmi ictimaiyyəti adından səmimi qəlbdən təbrik edim, Sizə möhkəm cansağlığı və iki dost dövlətin daha da yaxınlaşması işində böyük uğurlar arzulayım. Qoy Türkmənistan-Azərbaycan dostluğu möhkəmlənsin!

Bakı Dövlət Universitetinin fəxri doktoru

2009-cu il noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Bakı Dövlət Universitetinin fəxri professsoru adı verilmişdir. Prezident İlham Əliyevə Bakı Dövlət Universitetinin fəxri professoru diplomu universitetin 90 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdə təqdim olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmək üçün universitetə gəldilər. Dövlət başçısını və xanımını binanın önündə BDU-nun rektoru Abel Məhərrəmov qarşıladı. Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.

Salona toplaşanlar dövlət başçısını və xanımını hərarətli alqışlarla qarşıladılar.

Əvvəlcə BDU-nun tələbə xorunun ifasında universitetin himni oxundu.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Mən sizin hamınızı Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə ürəkdən təbrik etmək istəyirəm, universitetin bütün kollektivinə xoşbəxtlik və yeni-yeni uğurlar arzulayıram.

Bakı Dövlət Universitetinin çox gözəl və böyük tarixi vardır. 1919-cu ildə təsis edilmiş universitet 90 il ərzində Azərbaycanın hərtərəfli inkişafında çox mühüm rol oynamışdır. Bakı Dövlət Universiteti Azərbaycan müstəqilliyini əldə edəndən bir il sonra Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən təsis edilmişdir. Bu çox düşünülmüş və uzaqgörən bir addım idi. O vaxt ölkəmiz çox gənc idi. Buna baxmayaraq, əhalinin maarifləndirilməsi, Azərbaycanda savadsızlığın aradan qaldırılması və intellektual potensialın gücləndirilməsi üçün universitetin yaradılması çox mühüm hadisə olmuşdur. Bildiyiniz kimi, Azərbaycan Xalq Cümhuriyyəti iki il yaşadı, onun ömrü uzun olmadı, iki ildən sonra süqut etdi. Ancaq Bakı Dövlət Universiteti yaşadı. Düzdür, o zamanın müəyyən ideoloji çərçivələri daxilində fəaliyyət göstərmişdir. Ancaq buna baxmayaraq, Bakı Dövlət Universiteti Azərbaycanın inkişafı, Azərbaycanda təhsilin inkişafı, elmi potensialın gücləndirilməsi üçün çox mühüm rol oynamışdır. Bu rol bu gün də davam edir. Çox sevindirici haldır ki, Bakı Dövlət Universiteti bütün bu illər ərzində Azərbaycanda təhsil sahəsində öz aparıcı rolunu qoruyub saxlaya bilmişdir və bu gün bu rol daha da güclənir. Bu, bir daha onu göstərir ki, universitetin çox zəngin ənənələri, çox böyük potensialı, professor-müəllim heyətinin təcrübəsi, tələbələrin oxuması və təhsilə verdikləri önəm vardır. Xüsusilə indiki şəraitdə hər şey təhsilin səviyyəsi ilə ölçülür. Hər bir insanın gələcəyi, hər bir gəncin taleyi onun biliyindən, təcrübəsindən, savadından asılıdır.

Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının öz qanunları vardır. Hər bir insan qarşısında eyni imkanlar, bərabər imkanlar yaradılır. O imkanlardan faydalanmaq, xüsusilə Azərbaycanın indiki inkişaf dövrünü yaşadığı bir vaxtda yaradılan bu imkanlardan faydalanmaq üçün ilk növbədə gənclər bilikli, savadlı olmalıdırlar.

Bakı Dövlət Universiteti müxtəlif dövrlərdə Azərbaycanın hərtərəfli inkişafı üçün öz dəyərli töhfəsini vermişdir. Bakı Dövlət Universitetinin məzunları öz fəaliyyəti ilə ölkəmizin çiçəklənməsinə dəyərli töhfələrini vermişlər. Ulu öndər Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi və bütün dövrlərdə - 1970-80-ci illərdə və müstəqil Azərbaycanın Prezidenti kimi Bakı Dövlət Universitetinin inkişafı üçün çox böyük səylər göstərmişdir. Həmişə universitetə çox böyük diqqət göstərmişdir, universitetin tədbirlərində iştirak etmişdir və Bakı Dövlət Universitetinin belə yüksək səviyyəyə qalxması üçün əməli işlər görmüşdür.

1970-80-ci illərin əvvəllərində və 1990-cı illərdə ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan çox böyük və uğurlu yol keçmişdir. 1970-ci ildə Azərbaycan müttəfiq respublikalar arasında ən axırıncı yeri tuturdu. Ancaq 1982-ci ildə Azərbaycan müttəfiq respublikalar arasında birinci sıralarda idi. O illər ərzində sənaye potensialının, intellektual potensialın inkişaf etdirilməsi, gənc nəslin maarifləndirilməsi və Sovet İttifaqının aparıcı ali məktəblərinə onların imtahansız qəbulu sayəsində Azərbaycanın elmi potensialı böyük dərəcədə gücləndirilmişdir. Azərbaycanın ali məktəblərində aparılan islahatlar və görülən işlər bu gün ölkənin intellektual potensialını müəyyən edir.

Müstəqilliyin ilk dövründə - 1993-cü ildə Azərbaycanın qarşısında duran çağırışlar demək olar ki, müstəqilliyimizi sınağa çəkirdi, çox ciddi böhran - həm iqtisadi, həm siyasi böhran yaşanırdı. Buna baxmayaraq, 1993-cü ildən başlayaraq 2003-cü ilə qədər Azərbaycanda təhsilin inkişafı üçün köklü islahatlar aparıldı, lazımi qərarlar verildi. Azərbaycan təhsilinin maddi-texniki bazasının gücləndirilməsi işində çox vacib addımlar atılmışdır. Bu siyasət bu gün davam etdirilir. Bu gün Azərbaycanın, demək olar ki, bütün ali məktəblərinin maddi-texniki bazası ən yüksək standartlara cavab verir. Demək olar ki, bütün dövlət ali məktəblərində əsaslı təmir işləri aparılmışdır. Ali məktəblərin maddi-texniki bazası böyük dərəcədə gücləndirilmişdir. Bu onu göstərir ki, Azərbaycan dövləti həmişə olduğu kimi, təhsilin inkişafına çox böyük əhəmiyyət verir. Bu, həqiqətən də, belədir. Bunu görmək üçün ancaq Azərbaycanın dövlət büdcəsinə baxmaq kifayətdir.

Təhsil xərcləri ordu xərclərindən sonra dövlət xərclərimizdə ikinci yerdədir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçılardan hərbi yolla azad edək.

Ancaq hərbi xərclərdən sonra ikinci yerdə təhsilə ayrılan xərclərdir. Bu, Azərbaycan dövlətinin prioritetlərini göstərir və bizim siyasətimizin ən bariz nümunəsidir. Çünki hər bir ölkənin inkişafı üçün ən başlıca şərt o ölkənin təhsilinin səviyyəsidir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, İkinci Dünya müharibəsindən sonra və bəzi ölkələrdə ondan əvvəl elmi-texniki tərəqqi olan yerlərdə ölkələr inkişaf edib və bu gün dünyanın inkişaf etmiş ölkələri kimi tanınır. Nə təbii resurslar, nə coğrafi vəziyyət, - halbuki bu amillər də çox önəmlidir, – bu şərti təmin etmir. Ancaq təhsilin səviyyəsi, elmi-texniki tərəqqi, təhsilə verilən önəm və təhsil sahəsində aparılan islahatlar əsas şərtlərdir. Biz də bu yolu seçmişik. Biz də təhsildə islahatların aparılması ilə bərabər, bizim üçün ənənəvi olan təhsil formalarını saxlayırıq, öz ənənələrimizi qoruyuruq, bütün mütərəqqi təcrübələrə qoşuluruq və ali məktəblərimiz beynəlxalq müstəvidə çox fəal iştirak edirlər.

Bir sözlə, təhsil sisteminin təkmilləşdirilməsi, təhsilin səviyyəsinin qaldırılması üçün bundan sonra da lazımi tədbirlər görüləcəkdir. Son altı il ərzində Azərbaycanda 1800 yeni məktəb tikilibdir. Yüzlərlə məktəbdə yeni korpuslar tikilib, təmir aparılıbdır. Bu nəyi göstərir? Bu onu göstərir ki, bu sahə prioritet sahədir. Bütün orta məktəblərdə kompyuter sinifləri yaradılır, informasiya-kommunikasiya texnologiyaları tətbiq edilir. Bütün məktəblərin internetə qoşulması prosesi uğurla davam edir. Belə olan halda gənclərimiz, uşaqlarımız, yeniyetmələrimiz bilikli və savadlı olacaqlar, həyatda özlərinə layiq yeri tutacaq, eyni zamanda, gələcəkdə - 10 ildən, 20 ildən, 50 ildən sonra Azərbaycanın uğurlu inkişafını təmin edəcəklər. Çünki bir daha demək istəyirəm ki, təbii sərvətlər tükənən dəyərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amillərdir.

Son illər ərzində təhsilin səviyyəsinin qaldırılması işində vacib addımlar atılır, "Təhsil haqqında" qanun uzun müzakirələrdən sonra qəbul edilibdir. Ancaq bu sahədə inkişaf üçün hələ çox iş görülməlidir. Bir daha demək istəyirəm ki, dünyanın ən mütərəqqi təcrübəsi öyrənilməlidir, eyni zamanda, Azərbaycan gəncləri milli ruhda tərbiyə olunmalıdır. Biz əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq. Ancaq öz milli dəyərlərimizi, ənənələrimizi qoruya bilmişik, saxlaya bilmişik. Öz ana dilimizi saxlaya bilmişik. Nəyin hesabına?! Ona görə ki, Azərbaycan xalqında milli ruh həmişə çox yüksək səviyyədə olmuşdur.

Bu gün qloballaşan dünyada bəlkə də buna daha da çox diqqət verilməlidir. Qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Xüsusilə belə olan halda

milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir.

Əlbəttə, təhsil bu işlərdə ən prioritet məsələdir. Eyni zamanda, bizim mədəni irsimizin öyrənilməsi, ədəbiyyatımızın təbliği, xalq musiqimizin təbliği və öyrənilməsi böyük əhəmiyyət daşıyan məsələlərdir. Azərbaycanda bütün bu sahələrə çox böyük əhəmiyyət verilir.

Biz öz iqtisadiyyatımızı inkişaf etdiririk. Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Müxtəlif hesablamalara görə Azərbaycan postsovet məkanında iqtisadi islahatlar və iqtisadi inkişaf baxımından birinci yerdədir. Mən hesab edirəm ki, artıq bu sahədə keçid dövrü başa çatıbdır. Dünya İqtisadi Forumu - dünyanın ən mötəbər qurumlarından biri olan bu təşkilat rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı dünya miqyasında 51-ci yerdə görür və bütün MDB məkanında biz bu sahədə birinci yerdəyik. Dünya Bankı 2008-ci ilin hesablamalarına görə Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıdı. Bu, bir daha onu göstərir ki, bizim uğurlarımızın əsas səbəbi ölkədə aparılan siyasi və iqtisadi islahatlardır. Hasilat sənayesi sahələrində şəffaflığın təmin edilməsi ilə əlaqədar Azərbaycan təcrübəsi dünya miqyasında öyrənilir. Birləşmiş Millətlər Təşkilatı Azərbaycanı bu sahə üzrə mükafatlandırıbdır.

Ona görə biz gələcəyə bu prizmadan yanaşmalıyıq. Azərbaycan üçün ən ağır, ən çətin dövr artıq arxada qaldı. Sabitlik dövrü tam bərqərar olundu və biz irəliyə baxmalıyıq. Azərbaycan 20 ildən, 50 ildən sonra necə inkişaf edəcək, hansı resurslar bunu təmin edəcək?! Əlbəttə ki, təbii resurslarımızın mövcudluğu bizə əlavə güc verir. Xüsusilə müstəqilliyimizin ilk illərində və bu gün müstəqil siyasət aparmaq üçün, öz taleyimizin özümüz tərəfindən həll edilməsi üçün çox mühüm rol oynayır. Əlbəttə ki, uzun illər bundan sonra bu amillər nəinki ölkəmizin inkişafına, eyni zamanda regional vəziyyətə mühüm təsirini göstərəcəkdir.

Ancaq biz elə etməliyik ki, Azərbaycan uzun illər, onilliklər bundan sonra, əsrlər boyu müstəqil ölkə kimi yaşasın və nəinki yaşasın, yaxşı yaşasın.

Dünyada müstəqil sayılan ölkələr çoxdur. Ancaq əgər biz bir az dərinə baxsaq görərik ki, onların heç də hər biri müstəqil siyasət

aparmaq iqtidarında deyildir. Bunun müxtəlif səbəbləri vardır və bu, təkcə bugünkü siyasi mənzərə deyil, bu, əsrlər boyu belə olubdur. O ölkələr dünyada özünə layiq yeri tutar ki, o ölkələr öz hesabına yaşaya bilsinlər, başqa ölkələrin yardımına onların ehtiyacı olmasın – nə siyasi, nə iqtisadi cəhətdən, nə də ölkələrin ehtiyaclarının ödənilməsi baxımından. Azərbaycan bu ölkələrdəndir. Baxmayaraq ki, biz müstəqilliyi əldə edəndə, bəlkə də Azərbaycan ən ağır vəziyyətdə idi. Çünki ölkə iqtisadiyyatı dağılmışdı, ölkədə siyasi proseslər, faktiki olaraq ölkəni uçurum kənarına qoymuşdu. 1990-cı illərin əvvəllərində yaşanan siyasi, iqtisadi, hərbi böhran faktiki olaraq müstəqilliyimizi təhlükə altına qoymuşdu. Ancaq buna baxmayaraq, Azərbaycan o dövrdən, xüsusilə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra uğurla çıxa bilmişdir və bu gün uğurla inkişaf edir. Yəni bu tarix hamımızın yadındadır və biz elə etməliyik ki, uzun illər bundan sonra da Azərbaycan öz müstəqil siyasətini apara bilsin. Bunu etmək üçün müxtəlif amillər lazımdır. İlk növbədə, siyasi iradə lazımdır. Digər tərəfdən xalqla iqtidar arasında birlik, sabitlik, əmin-amanlıq, inkişaf, iqtisadi canlanma, siyasi islahatların, demokratiya proseslərinin sürətləndirilməsi lazımdır. Bütün bu amillər Azərbaycanda vardır.

Bu il bütün dünya böhran içindədir və biz dünyada gedən proseslərə bələdik. Azərbaycan iqtisadiyyatı doqquz ayda 6,1 faiz artıbdır. Bütün bu nəticələr onu göstərir ki, biz sözün əsl mənasında, müstəqil dövlətik, müstəqilliyimizi hər şeydən uca tuturuq, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimizdən gələni edirik. Bu müstəqilliyi əbədi, dönməz etmək üçün mən bir daha vurğulamaq istəyirəm, hesab edirəm ki, təhsilin səviyyəsi ən vacib rollardan birini oynayır. Azərbaycanda bu istiqamətdə çox vacib işlər görülüb. Bütövlükdə təhsil sahəsində görülən işlər müsbət qiymətləndirilə bilər. Çatışmayan cəhətlər vardır. Biz də onları bilirik. Onları aradan qaldırmaq üçün biz daha da fəal işləməliyik.

Azərbaycanı irəliyə aparan çox gözəl və milli ruhda böyüyən gənc nəsil yetişir. Müəllimlərin, əlbəttə ki, bu işdə rolu, bəlkə də ən önəmli roldur. Çünki müəllimlər həm tələbələrə öz biliyini çatdırırlar. Eyni zamanda, gənc nəslin hansı formada böyüməsinə də müəllimlərin böyük təsiri vardır. Mən bu fürsətdən istifadə edərək Bakı Dövlət Universitetinin bütün professor-müəllim heyətinə uzun illər çox vacib funksiya daşıdıqlarına görə öz minnətdarlığımı bildirmək istəyirəm. Onlara gələcəkdə yeni uğurlar arzulamaq istəyirəm. Tələbələrə isə yaxşı oxumağı, yaxşı biliyə malik olmağı və gələcəkdə Azərbaycanın dövlət müstəqilliyinə öz töhfəsini verməyi arzulayıram. Əziz dostlar, bu gözəl yubiley münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı və yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun çıxışı

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Hörmətli qonaqlar!

Əziz müəllimlər və tələbələr!

Xanımlar və cənablar!

İcazə verin, ilk növbədə sizin hamınızı Azərbaycanın ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetində salamlayım və qonaqlarımıza bu qocaman elm və təhsil məbədinə "Xoş gəlmisiniz!" deyim.

Möhtərəm cənab Prezident, artıq biz Sizin nitqinizi dinlədik. Bu proqram xarakterli tarixi bir çıxış idi. Buna görə universitetimizin kollektivi adından Sizə öz minnətdarlığımızı bildiririk. Siz çıxışınızda universitetin kollektivinin ünvanına çox xoş sözlər dediniz. Biz bunu məmnuniyyətlə qəbul edirik və öz əməli fəaliyyətimizdə həmişə rəhbər tutacağıq.

Hörmətli tədbir iştirakçıları, iki gün bundan öncə, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən Bakı Dövlət Universitetinin bir qrup aliminə - 107 nəfərə Azərbaycanın ən böyük mükafatları, fəxri adları verilmişdir. Bu, universitetə olan böyük diqqətdir, böyük qayğıdır. Nəinki universitetə, mən hesab edirəm ki, Azərbaycan elminə, Azərbaycan təhsilinə böyük diqqət və qayğıdır. Ona görə, cənab Prezident, icazə verin, bütün təhsil işçiləri adından, o cümlədən Bakı Dövlət Universitetinin kollektivi adından Sizə dərin minnətdarlığımızı bildirək.

Bu gün biz çox şadıq ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev ilə birlikdə Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva da burada iştirak edir. Onun bütün fəaliyyəti həmişə bizi şərəfləndiribdir. O, bizim qürur yerimiz olubdur. Bütün sahələrə kömək və dəstək veribdir. İcazə verin, bu tarixi fəaliyyətinə görə hörmətli Mehriban xanıma da öz təşəkkürümüzü bildirək.

Bakı Dövlət Universitetinin şanlı yubileyində Avropadan, Asiyadan, ümumiyyətlə, dünyanın ən aparıcı universitetlərinin



rektorları, nümayəndə heyətləri iştirak edir. İcazə verin, bütün kollektiv adından, bütün tədbir iştirakçıları adından qonaqlarımızı bu qocaman elm və təhsil məbədində bir daha salamlayaq.

Mən çıxışımı ümummilli liderimiz Heydər Əliyevin tarixi sözləri ilə başlamaq istəyirəm: "Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir". Universitetimiz bu milli sərvət adını qazanmaq yolunda hansı acılı-ağrılı günlərdən keçib, hansı nailiyyətlər əldə edib və bu gün gələcək haqqında nə düşünür – bu istiqamətdə qısa çıxışımı sizin nəzərinizə çatdırmaq istəyirəm.

Bakı Dövlət Universiteti hər zaman xalqın milli şüurunun, milli özünüdərkinin yetkinləşməsi, maarifçilik ideologiyasının bərqərar olması, elm və təhsilin inkişafı, Azərbaycan dili və tarixinin sistemli şəkildə tədqiqi və Azərbaycançılıq ideologiyasının formalaşmasında əvəzsiz rol oynamışdır. Hələ 90 il bundan əvvəl, universitetin ilk rektoru Vasili İvanoviç Razumovski demişdir: "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni bir parlaq səhifə yazıldı. Avropa və Asiyanın qovuşuğunda yeni məşəl yandı. Mən Bakı Dövlət Universitetinin parlaq gələcəyinə inanıram".

Yarandığı gündən indiyə qədərki bütün fəaliyyəti ilə Bakı Dövlət Universiteti həmin sözləri həqiqətə çevirmişdir. XX əsrin əvvəllərində Azərbaycanda demokratik respublika qurmaqla xalqımız Şərq dünyasına respublika məfkurəsini və demokratik idarə üsulunu gətirdi. Mövcud olduğu qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də müsəlman Şərqində ilk Avropa tipli ali məktəbin – Bakı Dövlət Universitetinin yaranması oldu. Xalqın maariflənməsini və təhsilin

inkişafını düşünən Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin – Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayev, Behbud xan Cavanşir və başqalarının başlıca arzularından biri universitet açmaq idi. Qeyd etmək istəyirəm ki, Bakı Dövlət Universitetinin yaradılmasında tarixi xidmətlər göstərmiş bu vətənpərvər ziyalıların əksəriyyəti Avropanın qabaqcıl universitetlərində təhsil almışdılar. Parlamentdə 10 ay sürən gərgin mübahisə və müzakirələrdən sonra onlar həyatlarının bəlkə də ən böyük arzusuna qovuşdular. Müstəqil dövlətin müstəqil ali təhsil ocağını - Bakı Dövlət Universitetini yarada bildilər.

Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı bir çox təsisatlar, dövlət rəmzləri ləğv edilmiş, ilk müstəqil dövlətimizin özü kimi onlar da yalnız arxiv sənədlərində qalmış, vətənpərvər insanların xatirələrində yaşamışdır.

Xalq Cümhuriyyətinin yaratdığı möhtəşəm elm abidəsi – Bakı Dövlət Universiteti isə təzyiqlərə davam gətirmiş, uzun illər sınaqdan alnıaçıq, şərəflə çıxmış, vətən övladlarına ziya vermək amalını qoruyub saxlamışdır. Azərbaycan mədəniyyəti, elmi, ziyalılığı tarixinə qanlı hərflərlə yazılan 1937-ci il özündə milli təəssübkeşliyi təcəssüm etdirən Bakı Dövlət Universitetinə ağır zərbələr vurdu. 90 illik yubiley ərəfəsində arxiv materiallarını araşdırarkən belə bir acınacaqlı fakt da aşkarlandı ki, təkcə 1937-ci ildə 2 dekan, 2 dekan müavini, 4 kafedra müdiri, kitabxananın direktoru, elmi katib, xüsusi hissənin müdiri, partiya və komsomol təşkilatlarının rəhbərləri, 8 professor, həmçinin universitetin rektoru olmuş dörd görkəmli ziyalı – Tağı Şahbazi, Maqsud Məmmədov, Məmmədkərim Ələkbərli, Balabəy Həsənbəyov ən ağır cəzaya – güllələnməyə məhkum edilmişlər. Bu insanların hər birinin Azərbaycan ziyalılığının formalaşmasında və təşəkküldə müstəsna xidmətləri olmuşdur.

1930-cu illərin repressiyalarına, İkinci Dünya müharibəsi illərindəki itkilərə baxmayaraq, artıq 1945-1950-ci illərdə Bakı Dövlət Universiteti Azərbaycanda elmi məktəblərin formalaşmasında, fundamental elm sahələrinin əsaslı inkişafında əvəzsiz rolu olan yüzlərlə dəyərli alim yetişdirə bilmişdir. Böyük şərəf hissi duyuruq ki, elmin yüksək zirvələrini fəth etmiş dünya şöhrətli alimlər – Yusif Məmmədəliyev, Abdulla Qarayev, Cəfər Xəndan Hacıyev, Şəfayət Mehdiyev, Zahid Xəlilov, Həsən Əliyev, Murtuza Nağıyev, Mircəlal Paşayev, Musa Əliyev, Həmid Araslı, Bəkir Çobanzadə, Nəsir İmanquliyev, Feyzulla Qasımzadə, Heydər Hüseynov, Bəxtiyar Vahabzadə, Mirəli Qaşqay və bir çox başqaları Bakı Dövlət Universitetində çalışmışlar.

Universitet bugünkü fəaliyyətinə görə məhz yuxarıda adlarını çəkdiyim, həmçinin burada vaxt məhdudiyyəti üzündən adlarını çəkə bilmədiyim yüzlərlə elm və təhsil fədaisinin həyatlarının ən mənalı hissəsini bu möhtəşəm elm və təhsil ocağına həsr edən təkrarsız insanlara borcludur.

Universitetin inkişafında yeni keyfiyyət mərhələsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyev məzunu olduğu elm, təhsil və mədəniyyətimizin möhtəşəm məbədinə - Bakı Dövlət Universitetinə xüsusi həssaslıqla yanaşır, ona hər cür qayğı göstərirdi. Heydər Əliyev cəmiyyətin tərəqqisi, elm, mədəniyyət və mənəviyyatın inkişafında təhsilin qüdrətli vasitə olduğunu bilirdi, ona diqqət və qayğını dövlət səviyyəsində prioritet prinsip kimi ön plana çəkirdi. Bu amil Azərbaycanda 1970-ci illərdən başlayaraq Heydər Əliyev epoxasının, ölkəmizin mənəvi yüksəliş tarixinin inkaredilməz reallığıdır.

Əlamətdar haldır ki, düz 40 il bundan əvvəl – 1969-cu il noyabr ayının 1-də Heydər Əliyev məhz Bakı Dövlət Universitetinin 50 illik yubileyində yubiley komissiyasının sədri kimi Azərbaycan elminin və təhsilinin inkişaf strategiyasını müəyyənləşdirən möhtəşəm bir nitq söyləmişdir. Onu da xüsusi vurğulamaq istərdim ki, sovet rejiminin bütün qadağalarına baxmayaraq, ulu öndər o dövr üçün inqilaba bərabər bir addım atmış - ana dilində nitq söyləmiş və bu, bütün Azərbaycan cəmiyyəti üçün milli ruha və özünüdərkə qayıdış anı olmuşdur.

Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də gənclərimizi keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə təhsil almağa göndərməsi idi. Bu yolla həm Azərbaycanın elmi və kadr potensialı yüksəlir, həm də xalqımızın milli mənəvi, əxlaqi dəyərlərinin təbliği həyata keçirilirdi. 1969-1982-ci illərdə 15 minə yaxın istedadlı gənc Moskva, Leninqrad, Kiyev, keçmiş Sovetlər Birliyinin başqa böyük şəhərlərinin aparıcı universitetlərinə oxumağa göndərilmişdir. İndi həmin gənclər respublikamızda ziyalı təbəqəsinin, elmin, təhsilin və ictimai həyatın digər sahələrinin aparıcı şəxsləri, dövlət idarəçiliyində ali struktur rəhbərləridirlər. Müxtəlif universitetləri bitirdiklərinə baxmayaraq, mən onları Heydər Əliyev universitetinin yetişdirmələri adlandırıram.

Yeri gəlmişkən deyim ki, bu gün həmin siyasəti Prezidentimiz

İlham Əliyev qlobal cəmiyyət müstəvisində uğurla davam etdirir. Prezidentin 5 min nəfər istedadlı gəncin dövlət vəsaiti hesabına Avropa və Asiyanın aparıcı ali məktəblərinə təhsil almağa göndərilməsi barədə qəbul etdiyi qərar və bununla bağlı imzaladığı sərəncamlar Azərbaycanın qlobal cəmiyyət məkanına inteqrasiyası prosesində çox uğurlu addımdır.

1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdan Heydər Əliyev Bakı Dövlət Universitetini yaddan çıxarmadı, dövlətin yaradılıb möhkəmlənməsində onun rolunu çox yüksək qiymətləndirdi. Həmin dövrdə Bakı Dövlət Universiteti çox acınacaqlı durumda idi. Tədrisin səviyyəsi aşağı düşmüş, kollektivdə gələcəyə inam hissi qalmamışdı. Təkcə bizim universitet deyil, respublikanın digər təhsil müəssisələri, Milli Elmlər Akademiyası da dağılmaq təhlükəsi ilə üzləşmişdi.

Bir məsələ xüsusi vurğulanmalıdır ki, həmin dövrdə respublikanın üzdə olan bir çox alimləri xarici ölkələrdə çalışmaq məcburiyyətində qalmışdılar. Məhz Heydər Əliyevin qayıdışı və "Təhsil xalqın gələcəyidir" tarixi çağırışı bütün elmi və pedaqoji ictimaiyyətdə, o cümlədən Bakı Dövlət Univesitetinin kollektivində gələcəyə inam hissi oyatdı və bundan sonra alimlərimizin də Vətənə qayıdışı prosesi başlandı.

Bu gün də biz həmin siyasətin davamının şahidiyik. Cəmiyyətin inkişaf konsepsiyasını dəqiq müəyyənləşdirən Prezidentimiz İlham Əliyev bu gün həmin çağırışı qlobal müstəviyə keçirərək, ölkənin iqtisadi potensialını intellekt kapitalına çevirmək istiqamətində Azərbaycan üçün taleyüklü addım atır. Çünki müasir dünyada dövlətlərin mövqeyini əhalisinin sayı, ərazisi, hərbi qüdrəti yox, yalnız intellektual inkişafı, yəni elm və təhsilin səviyyəsi müəyyənləşdirir. Biz ziyalılar hesab edirik ki, çox da uzaq olmayan gələcəkdə əsgərlərin süngülərini qələm əvəz edəcək və qələmdən məharətlə istifadə edən insanlar ölkənin, cəmiyyətin inkişafında daha da həlledici rol oynayacaqlar.

Bu istiqamətdə inkişafa böyük diqqət və qayğı göstərən möhtərəm Prezidentimizin apardığı məqsədyönlü və ardıcıl siyasət elm və təhsil sahəsində 26 dövlət proqramının qəbulu, nou-hau tipli innovasiya texnologiyalarının respublikaya transferi və başqa taleyüklü qərarlarla səciyyələnir. Bu siyasətin ən bariz nümunələrindən birini Bakı Dövlət Universitetinin timsalında əyani şəkildə görmək olar. İnkişafının yeni mərhələsini yaşayan universitetimizdə məhz Prezidentin qayğısı və birbaşa dəstəyi ilə yalnız son bir ildə 4 min tələbənin təhsil aldığı ən müasir texniki avadanlıq və ləvazimatla təchiz edilmiş yeni tədris binası, yeni idman kompleksi, 500 əməkdaş üçün 2 müasir yaşayış kompleksi tikilib istifadəyə verilmişdir.

Hörmətli yubiley iştirakçıları, möhtərəm Prezidentimiz İlham Əliyevin tarixi xidmətlərini yalnız universitetlə məhdudlaşdırmaq olmaz. Onun ümumilikdə Azərbaycan elmi və təhsili qarşısında müstəsna xidmətləri vardır. Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsində, beynəlxalq nüfuzunun yüksəldilməsində, ölkə iqtisadiyyatının sürətli inkişafında, siyasi sabitliyin qorunub saxlanmasındakı misilsiz xidmətlərini nəzərə alan universitetin Elmi Şurası son iclasında Prezident İlham Əliyevə Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi barədə qərar qəbul etmişdir.

Hörmətli toplantı iştirakçıları, icazə verin, sonda bu şanlı yubiley münasibətilə bir daha hər birinizi təbrik edim və dediyim tarixi missiyanı həyata keçirmək üçün möhtərəm Prezidentimizi səhnəyə dəvət edim.

BDU-nun rektoru Abel Məhərrəmov Prezident İlham Əliyevə fəxri doktorluq mantiyasını və diplomunu təqdim etdi.

Prezident **İlham Əliyev** təşəkkür edərək dedi:

- Sağ olun. Bakı Dövlət Universitetinin fəxri doktoru adının verilməsi mənim üçün böyük şərəfdir. Mən müxtəlif universitetlərin fəxri doktoruyam. Ancaq, əlbəttə ki, mənim üçün ən doğma olan Bakı Dövlət Universitetinin fəxri doktoru adını almaq xüsusi məmnunluq hissləri oyadır. Mənim fəaliyyətimə verilən bu yüksək qiymətə görə sizə bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, Bakı Dövlət Universitetinin hərtərəfli inkişafı üçün bundan sonra də əlimdən gələni əsirgəməyəcəyəm.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik **Viktor Sadovniçi** çıxış edərək dedi:

- Möhtərəm İlham Heydər oğlu, icazə verin, bütün nümayəndə heyətləri adından, Moskva Dövlət Universiteti adından Bakı Dövlət Universitetinin fəxri doktoru kimi çox yüksək ada layiq görülməyiniz münasibətilə Sizi təbrik edim.

Hörmətli Prezident!

Hörmətli həmkarlar!

Əziz rektor!

Bu gün biz, həqiqətən, çox əlamətdar bir tədbirdə - universitetin

yubileyində iştirak edirik. Universitetin yubileyi hər bir ölkə üçün əlamətdar hadisədir. Çünki məhz universitetlər ölkənin gələcəyinin cəmləşdiyi məkandır. Ölkənin gələcəyinin necə olacağı məhz universitetlərdən asılıdır. Biz hamımız böhran adlandırılan dəhşətli dövrü yaşadıq. Lakin həm böhran, həm də cəmiyyətdəki digər təzahürlər adətən texnoloji sistemlərin dəyişməsi ilə əlaqədardır. Texnologiyalar dəyişir, - bəşəriyyətin bütün tarixi boyu çox texnologiyalar dəyişmişdir, - insanlar stress keçirir, bu və ya digər sarsıntılara məruz qalırlar. Yalnız güclü elmə malik olan və təhsili dəstəkləyən ölkə bu sarsıntılardan tez və itkisiz çıxa bilər. İndi demək olar ki, bütün alimlər belə bir suala cavab axtarırlar: Yeni texnoloji sistem necə olacaq, bəşəriyyəti nə gözləyir?. Mənasız sual deyil, çünki bu, faktdır ki, bizi əhatə edən materiyanın yalnız 5 faizini anlayırıq, 95 faizinin isə mənşəyindən xəbərsizik. Hər şey hələ irəlidədir. Alimlərin əksəriyyətinin fikrincə, yeni texnoloji sistem nanotexnologiyalar, biotexnologiyalar, koqnitiv adlanan elmlərin, insan haqqında, beyin haqqında, psixologiya haqqında elmlərin məcmusu olacaqdır. Təbii ki, buna görə də ölkələrimiz yeni texnoloji sistemi qəbul etməyə hazır olmalıdırlar. Mən çox şadam ki, Azərbaycan universitetinin ölkə üçün belə mütəxəssislər hazırlamaqdan ötrü yetərincə bazisi və imkanları vardır. Çünki universitet şərəfli tarixə malikdir. Bütün 90 il ərzində universitet digər universitetlərin ən yaxşı nümunələrini əxz etmişdir. İndi bu mərasimdə iştirak edən rektorların əksəriyyəti deyə bilərlər ki, biz də universitetlə əməkdaşlıq etmişik. Moskva Universitetinin rektoru kimi mən də deyə bilərəm ki, biz də Bakı Dövlət Universiteti ilə əməkdaşlıq etmişik.

Dəfələrlə Bakıya müxtəlif konfranslarda, dissertasiyalara opponentlik etmək üçün gəldiyim illəri xatırlayıram. Bəlkə də 10-dan çox dissertasiyaya opponentlik etmişəm, rəy yazmışam. Mən, Azərbaycan xalqının ölkədə elmin inkişafı üçün çox işlər görmüş görkəmli nümayəndələrini, ilk növbədə, mənə daha yaxın olan riyaziyyatçıları xatırlayıram. Bu, Elmlər Akademiyasının prezidenti Xəlilov, Elmlər Akademiyasının prezidenti Maqsudov, gözəl alimlər Rəsulov, Allahverdiyev, - bəlkə də o, indi buradadır, - və onlarla başqalarıdır. Salona daxil olmazdan əvvəl dəhlizdə çox insanlarla söhbət etdim. Onlar bu və ya digər kafedra, bu və ya digər professor barədə soruşur, harada müdafiə etdiklərindən danışır, qonaq gələcəklərini deyirdilər. Hörmətli dostlar, Bakı Universitetinin professorları, bu, o deməkdir ki, tariximizin və ənənələrimizin ümumi cəhətləri çoxdur.

Mən tariximizin Heydər Əlirza oğlu Əliyev ilə bağlı səhifələrini xüsusilə xatırlamaq istərdim. İş elə gətirmişdir ki, Heydər Əlirza oğlu SSRİ Nazirlər Sovetində işləyərkən Moskva Universitetinə kuratorluq edirdi. O zaman Moskva Universiteti çətin vəziyyətə düşmüşdü. O vaxtkı nazir, - bu, həmişə belə olur, bütün ölkələrdə olduğu kimi, nazirlər aparıcı universitetlərə bir qədər ehtiyatla yanaşırlar, - Moskva Universitetinə təzyiq göstərməyə başlamışdı. Elə onda Heydər Əlirza oğlu Moskva Universitetinin inkişaf proqramını yaratdı. Gənc ictimai xadim kimi mənə bu proqramın həyata keçirilməsinə kuratorluq etmək tapşırılmışdı. Sonralar Heydər Əlirza oğlu ilə dəfələrlə görüşərək ona universitetdəki vəziyyət barədə məlumat verirdim, o, isə bütün soyadları xatırlayırdı və məndən kimin nə ilə məşğul olduğunu, Moskva Universitetində görüşdüyü bütün professorları soruşurdu. Mən Azərbaycan xalqının görkəmli oğlunun Moskva Universitetinin inkişafına töhfələrindən danışdım. Ölkə üçün görülən işlərdən burada danışılmışdır və hələ çox danışılacaq, çünki Heydər Əlirza oğlu Azərbaycan xalqının tarixində, həqiqətən, dönüş mərhələlərinin əsasını qoymuşdur.

Nəhayət, bugünkü gün. Bilirsiniz, mən çox şadam. Düşünürəm ki, biz hamımız taleyə, tarixə minnətdar olmalıyıq ki, indi dövləti layiqli Prezident İlham Heydər oğlu Əliyev idarə edir. Bunu ona görə deyirəm ki, Prezidentin təhsilin - həm ali, həm də orta təhsilin dəstəklənməsinə dair göstərişinə əsasən görülən böyük işlərdən və onların nəticələrindən xəbərim vardır. Düşünürəm ki, heç bir ölkə Azərbaycanda olduğu kimi, məktəblərə dəstək üzrə belə göstəricilər ortaya qoya bilməz. Praktiki olaraq bütün məktəblər təmir edilmişdir, avadanlıqla təchiz olunur və ən başlıcası məktəb proqramı daim Prezidentin və onun hörmətli həyat yoldaşının, ölkənin birinci xanımının diqqət mərkəzindədir. Buna görə təkcə azərbaycanlılar deyil, biz hamımız minnətdar olmalıyıq. Çünki universitetlərin, məktəblərin himayə olunması beynəlmiləl məsələdir, bəşəriyyətin ümumi inkişafıdır. Əgər bir ölkədə universitetlərə və məktəblərə kömək göstərilirsə, bu, bütün dünyaya xidmət deməkdir. Buna görə, İlham Heydər oğlu, Sizə həqiqətən çox-çox minnətdarıq.

Tarixin daha bir səhifəsi barədə danışmaq istəyirəm. İki il bundan əvvəl Prezident tərəfindən qəbul edilmək şərəfinə nail oldum və həmin görüşdə Moskva Universitetinin Bakıda filialının yaradılması ideyası meydana gəldi. Bilirsiniz, bu ideya Prezident tərəfindən dəstəkləndi və görünməyən sürət və keyfiyyətlə həyata keçirildi. İndi Bakıda Moskva Universitetinin filialı fəaliyyət

BAKI DÖVLƏT UNİVERSİTETİ

göstərir. Orada 200-ə yaxın tələbə təhsil alır. Həmin filialda dörd fakültə - riyaziyyat, kimya, filologiya, psixologiya fakültələri yaradılmışdır. Bu filialın gözəl perspektivləri vardır. Filialın möhtəşəm kampusunun tikintisi nəzərdə tutulur. Hesab edirəm ki, Moskva Universiteti Bakıda belə elmi bazanın yaradılması üçün hər şeyi edəcəkdir. Biz çalışacağıq ki, gənclər müxtəlif universitetlərdə təhsil alsınlar, mobil imkanları olsun. Bizim filial isə onların kosmik ənginliklərə uçuşları üçün start meydançası, bir növ Baykonur olacaqdır. Filiala kömək göstərdiyinizə görə Sizə "Sağ olun!" deyirəm.

Nəhayət sonda demək istəyirəm ki, Bakı Universiteti mənim üçün əzizdir. Universitet həyatımla bağlı müxtəlif səbəblərə - burada çox olmağıma, opponentlik etdiyimə, çoxlarını tanıdığıma görə mənə əzizdir. Doktorluq dissertasiyamı müdafiə etdiyim gün, bu çoxdan olmuşdur, mən Bakıya gəldim. Biz burada, dənizin sahilində, Zuğulbada yaşayırdıq. Bu hadisə ilə əlaqədar orada kiçik konfrans keçirildi. Bu, həyatımın ən parlaq səhifələrindən biridir. Təsəvvür edirsiniz, insan 30 yaşında doktorluq dissertasiyasını müdafiə edib, dostlarının yanına gəlib, konfrans keçirilir. Bu, qəlbimə həkk olunub. Buna görə də mən Bakı Universitetini, onun rektorunu, yeri gəlmişkən, Moskva Universitetinin məzununu səmimi qəlbdən təbrik edirəm. Zalda rektor Abel Məmmədəli oğlu Məhərrəmovun müəllimi, dünyanın görkəmli kimyaçısı, akademik Nikolay Serafimoviç Zefirov, habelə kimya fakültəsinin dekanı, görkəmli kimyaçı, akademik Lunin əyləşmişlər. Biz gəlmişik ki, - burada Moskva Universitetindən 40 nəfər – filialda dərs deyənlər və qonaqlar vardır, - Abel Məmmədəli oğlu, Sizi gözəl yubileyiniz münasibətilə təbrik edək. Xahiş edirik, bizim kiçik hədiyyələrimizi qəbul edəsiniz. Gətirdiyimiz kitabların bir hissəsini Sizə təqdim etmək istəyirik. Bu, nadir nəşrlərdir – klassik universitet dərslikləridir. Bu, klassik universitet fənlərinin dərsliklərdir. Bütün 250 dərslik Bakı Universitetinə hədiyyə ediləcəkdir.

İlham Heydər oğlu, Siz Moskva Universitetinin fəxri professorusunuz, bir neçə il bundan əvvəl bu yüksək ada layiq görülmüsünüz. Sizə nadir hədiyyə təqdim etməyi məndən xahiş etmişlər. Bu, Moskva Universitetinin minadan hazırlanmış rəmzidir və ən başlıcası yeganə nüsxədə hazırlanmışdır. İcazə verin onu Sizə təqdim edim.

Akademik Viktor Sadovniçi hədiyyəni Prezident İlham Əliyevə təqdim etdi.

Türkiyənin Atatürk Universitetinin rektoru **Hikmət Koçak** ulu öndər Heydər Əliyevin və Atatürkün Azərbaycan-Türkiyə münasibətlərinə verdiyi mühüm töhfələri xatırladaraq dedi:

- Mərhum Prezident Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün "Sizin kədəriniz bizim kədərimiz, sizin sevinciniz bizim sevincimiz" ifadələrinin təcəssüm tapdığı yerlərdən biri də Ərzurumdur. Biz Türkiyəni və Azərbaycanı belə görürük. Bu duyğular içərisində olan Atatürk Universiteti də daha əvvəl qəbul etdiyi qərarı, hörmətli Prezident İlham Əliyevə Atatürk Universitetinin fəxri doktoru adını təqdim etmək istədiyimizi və qəbul edərsə bizi sevindirəcəyini bildirmişdik. Bu gün fəxri doktor adını Bakı Dövlət Universitetindən aldınız. İnşallah, biz fəxri doktor adını Zati-alilərinə özünün münasib bildiyi bir vaxtda təqdim etmək istəyirik. Çünki mərhum Prezident Heydər Əliyev də bizim universitetin fəxri doktoru adını almış böyüklərimizdən biri idi.

Atatürk Universiteti olaraq və Türkiyədən gələn dostlarım adından neçə belə müvəffəqiyyətli 90 illər keçirməyiniz diləyi ilə öz adımdan və dostlarım adından hamınızı hörmətlə salamlayıram.

Tbilisi Dövlət Universitetinin rektoru professor **Giorgi Xubua** da mərasim iştirakçılarına təbriklərini çatdıraraq bildirdi:

- Cənab İlham Əliyevə Tbilisi Dövlət Universitetinin fəxri doktoru adının verilməsi haqqında qərar qəbul edilmişdir. Cənab Prezident, ümidvarıq ki, tezliklə Sizi Tbilisi Dövlət Universitetinin qonağı kimi salamlamaq və fəxri doktor adı almağınız barədə diplomu Sizə təqdim etmək imkanımız olacaqdır.

Azərbaycan və Gürcüstan təkcə qonşu deyildir. Biz çox böyük dostlar, strateji tərəfdaşlarıq. Qonşuluq bir-birimiz haqqında çoxlu biliklərə malik olmağımızı tələb edir və bu baxımdan, universitetlərimizin xüsusi missiyaları vardır. Biz istəyirik ki, Gürcüstanda Azərbaycan haqqında, Azərbaycan mədəniyyəti, Azərbaycan tarixi haqqında bilsinlər. Bu baxımdan, universitetimiz, həqiqətən, fəxr edə bilər. İki il əvvəl biz Azərbaycanşünaslıq üzrə yeni akademik kurs yaratmışıq və tələbələrimiz bu kursa böyük maraq göstərirlər. Universitetimizdə Azərbaycan auditoriyası da uğurla fəaliyyət göstərir. Yeri gəlmişkən, bu auditoriya Azərbaycanın Gürcüstandakı səfirliyinin dəstəyi ilə açılmışdır. Azərbaycan auditoriyasının ideyası və fəlsəfəsi bundan ibarətdir ki, auditoriyaya daxil olan hər bir tələbə Azərbaycanın ruhunu hiss etsin. Mən çox şadam ki, tələbələrimiz arasında belə bir deyim yaranmışdır - onlar Azərbaycan ədəbiyyatına dair mühazirələri

dinləməyə gedəndə söyləyirlər: "Gəl, azərbaycanlıların yanına gedək". Bunu eşitmək çox xoşdur. Düşünürəm ki, universitetlərimiz regional inteqrasiya baxımından çox işlər görməlidir.

Azərbaycan-Gürcüstan dostluğunun bundan sonra da möhkəmlənəcəyinə əminliyini vurğulayaraq bir daha Bakı Dövlət Universitetini şanlı yubiley münasibətilə təbrik edirəm. Bakı Dövlət Universitetinin bütün professorlarını, bütün tələbələrini, bütün nəsillərdən olan məzunlarını yubiley münasibətilə təbrik edirəm. Bir daha sizə böyük uğurlar arzulayıram.

Tehran Universitetinin rektoru professor **Nəsrətollah Zanqham** da BDU-nun yubileyi münasibətilə təbriklərini çatdıraraq dedi:

- Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan və İran universitetləri arasında həm mədəni, həm də digər göstəricilər baxımından iki əsas oxşarlıq vardır. İranın Kiş beynəlxalq kampusu ilə Bakı Dövlət Universitetinin çox uzun təhsil və tələbə mübadiləsi əlaqələri vardır. Biz belə düşünürük ki, bir çox sahələr üzrə faydalı əməkdaşlıq edə bilərik. İki qonşu dövlət arasında bu sahədə görüləcək işlər vardır. Biz böyük həvəs hissi ilə universitetlərimiz arasında əməkdaşlığın daha da genişləndirilməsini istəyirik və bunun əzmindəyik.

Fürsətdən istifadə edərək, mən hamınıza uğurlar arzu etmək istəyirəm. Təşəkkür edirəm.

Ölkəsi ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən Lev Qumilyov adına Qazaxıstan Avrasiya Milli Universitetinin rektoru **Baxitjan Abdraimov** Bakı Dövlət Universitetinin mənəvi dəyərlərin təbliğindəki rolunu vurğulayaraq dedi:

- Həm universitetlərimiz, həm də xalqlarımız arasında hazırkı münasibət çox yüksək səviyyədədir. Qazaxıstanda, Almatıda və digər şəhərlərimizdə sülh şəraitində yaşayan 100 mindən çox azərbaycanlının öz ana dillində təhsil almaq imkanları vardır. Azərbaycan ilə Qazaxıstanın qardaşlıq münasibətləri çox böyük tarixi köklərə malikdir. Tarix boyunca bu qardaşlıq münasibətinə ləkə gətirən, kölgə salan elə bir hadisə olmamışdır. Bu gün də münasibətlərimiz Prezidentlər səviyyəsində təşəkkül tapır. Prezident İlham Əliyev bu münasibətlərin inkişafına çox böyük töhfə vermişdir. Müstəqillik dövründə dövlətlərimiz arasında 65 rəsmi sənəd imzalanmışdır. Onlardan biri bu yaxınlarda imzalanmış Naxçıvan Bəyannaməsidir. Həmin bəyannamə türkdilli dövlətlər üçün çox vacibdir. Burada aydın bildirilmişdir ki, bu münasibətlər nə qədər vacibdir.

Avrasiya Milli Universiteti haqqında danışarkən demək istərdim ki, universitetimizdə Heydər Əliyev guşəsi vardır. Məncə, bu da xalqlarımız arasındakı sıx əlaqənin bir nümunəsidir. Guşədə tələbələr Azərbaycanın ümummilli liderinin həyatı və fəaliyyəti, həmçinin qardaş Azərbaycan xalqının milli adət-ənənələri haqqında zəngin məlumat əldə edə bilərlər.

Avrasiya Universitetləri Assosiasiyasının XI konqresində Bakı Dövlət Universiteti və Avrasiya Milli Universiteti qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum imzalamışlar. Avrasiya məkanında əməkdaşlıq çox vacib və labüddür. Bir halda ki, xalqlarımız ümumi tarixə malikdirlər, qardaşlıq münasibətləri vardır və biz xalqlarımıza bu varis ənənələri inkişaf etdirmək fürsəti və imkanları yaratmalıyıq. Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətləri bundan sonra daha da inkişaf edəcəkdir. Arzu edirik ki, xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələri daha da möhkəmlənsin və ölkələrimiz daha da inkişaf etsin.

Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunan mərasimdə iştirak edən Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bu təhsil ocağındakı Heydər Əliyev Muzeyinə baxdılar. 1996-cı ildə yaradılmış muzeydə universitetin dünya şöhrətli məzunu, ümummilli lider, bu ali təhsil ocağının fəxri doktoru və qayğıkeşi olan dahi şəxsiyyət barədə tarixi sənədlər və materiallar toplanmışdır. Həmin materiallar universitetdə təhsil alan hər bir tələbə üçün örnəkdir.

Sonda xatirə şəkli çəkdirildi.

Belarus Dövlət Universitetinin fəxri professoru

2009-cu il noyabrın 12-də Belarusda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Belarus Dövlət Universitetinin fəxri professoru adının verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Belarus Dövlət Universitetində salona toplaşanlar - universitetin professor-müəllim heyəti və tələbələri Azərbaycan Prezidentini sürəkli alqışlarla qarşıladılar.

Elmi Şuranın iclasını açan Belarus Dövlət Universitetinin rektoru **Sergey Ablameyko** dedi:

- İcazə verin, Belarus Dövlət Universitetinin müəllimləri, əməkdaşları və tələbələri adından Azərbaycan Respublikasının Prezidenti, siyasi elmlər doktoru, professor İlham Heydər oğlu Əliyevi universitetimizdə salamlayım. Bu gün mənə Azərbaycan Respublikasının Prezidentinə, qonaqlarımıza belə bir məlumat çatdırmaq şərəfi qismət olmuşdur ki, Belarus Dövlət Universitetinin Elmi Şurasının bu ilin 30 oktyabr tarixli qərarı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə Belarus Dövlət Universitetinin fəxri professoru adı verilmişdir.

İcazə verin, İlham Heydər oğlu Əliyevin qısa tərcümeyi-halını oxuyum.

Sonra universitetin rektoru Sergey Ablameyko Azərbaycan Prezidentinin tərcümeyi-halını oxudu.

Rektor Belarus ilə Azərbaycan arasında münasibətlərin inkişafına, tarix və siyasi elmlərə töhfəsinə görə Prezident İlham Əliyevə layiq görüldüyü ad ilə əlaqədar Belarus Dövlət Universitetinin fəxri professoru diplomunu, mantiyasını və digər nişanlarını təqdim etdi.

Milli geyimli qızlar Azərbaycan dövlətinin başçısına gül dəstələri təqdim etdilər.

Prezident **İlham Əliyev** universitetin professor-müəllim heyəti və tələbələri qarşısında mühazirə ilə çıxış edərək dedi:

- Əziz dostlar!

İlk növbədə, fəaliyyətimə verilən belə yüksək qiymətə, mənə BDU-nun fəxri professoru adının verilməsinə görə Belarus Dövlət Universitetinin rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Bu, mənim üçün böyük şərəfdir. Buna görə, ölkələrimiz arasında ikitərəfli əlaqələri möhkəmləndirmək üçün gələcəkdə də fəal işləməyi özümə borc bilirəm.

Son bir neçə ildə Belarus ilə Azərbaycan arasında münasibətlər çox sürətlə inkişaf etmiş, qarşılıqlı iqtisadi fəaliyyətdə böyük uğurlar qazanılmış, ölkələrimizi bir-birinə daha da yaxınlaşdıran çoxlu müştərək layihələr həyata keçirilmişdir. Mən üç il bundan əvvəl sizin ölkənizə özümün ilk rəsmi səfərimi böyük səmimiyyətlə xatırlayıram. Həmin səfər vaxtı, habelə 2007-ci ildə Belarus Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana səfəri dövründə əldə etdiyimiz razılaşmalar uğurla həyata keçirilir. Biz nəzərdə tutduqlarımızın hamısını yerinə yetirmişik. Bu gün, sizin ölkəyə mənim ikinci rəsmi səfərimin gedişində biz, bir tərəfdən, görülmüş işləri təhlil etdik, ən başlıcası isə, münasibətlərimizin gələcək inkişaf yollarını müəyyənləşdirdik.

Üç ildə Azərbaycan Prezidentinin Belarusa ikinci dəfə rəsmi səfər etməsi faktının özü bizim münasibətlərin səviyyəsinə, xarakterinə, onların dinamizminə və intensivliyinə dəlalət edir. Təbii ki, bunlar ölkələrimiz arasında bütün sahələrdə fəal qarşılıqlı əlaqələr fonunda baş verir. Çox fəal siyasi dialoq aparılır. Həm rəsmi səfərlər, həm də müxtəlif beynəlxalq forumlar çərçivəsində yüksək səviyyədə müntəzəm görüşlər keçirilir. Hökumətlərarası komissiya ölkələrimiz arasında fəal iş aparır. Bu komissiya çərçivəsində iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə dair çox mühüm məsələlər həll edilir. Humanitar sahədə əməkdaşlıq çox intensiv inkişaf edir. Bu gün biz həm Belarusda, həm də Azərbaycanda təhsil məsələlərinə çox böyük diqqət yetirildiyini nəzərə alaraq, həmin sahədə münasibətlərin daha da inkişaf etdirilməsi imkanlarını müzakirə etmişik.

Beləliklə, biz ikitərəfli münasibətlərimizdə çox geniş spektrli məsələləri əhatə edirik və ən başlıcası, bütün qərarları operativ həyata keçiririk. Bu əməkdaşlığın əyani nümunələrindən biri kimi, Gəncədə traktor zavodu – Belarus ilə Azərbaycan arasında müştərək istehsalat yaradılmasını tez-tez misal çəkirik. Bu layihə barədə qərar qəbul edilməsi ilə onun həyata keçirilməsi cəmi bir neçə ay çəkmişdir. Artıq iki ildən çoxdur ki, zavod uğurla fəaliyyət göstərir, gözəl məhsul istehsal edir, Azərbaycan fermerlərini zəruri kənd təsərrüfatı texnikası ilə təmin edir. Biz artıq, başqa ölkələrin bazarlarına birlikdə çıxmaq barədə də fikirləşirik.

Bu, xüsusi, lakin çox əyani misaldır. Bu misal, əvvələn, ölkələrimiz arasında iqtisadi münasibətlərin nə qədər əhəmiyyətli olmasını və ikincisi, hər iki ölkədə qərarın qəbul edilməsi ilə onun icrası arasında dəqiq əlaqə olmasını göstərir. Çox vaxt belə də olur ki, yaxşı qərarlar qəbul edilir, lakin onların icrası ya illər boyu yubadılır, ya da ümumiyyətlə, yerinə yetirilməmiş qalır. Bizə gəldikdə isə, nəzərdə tutduqlarımızın hamısını həyata keçirmişik.

Bu gün biz artıq mövcud olan bazada, habelə fəaliyyətimizin digər sahələrində, iqtisadiyyat sahəsində yeni layihələrdən danışırıq. Kənd təsərrüfatı, turizm, sənaye istehsalı, nəqliyyat, energetika ilə bağlı məsələlər bu gün ətraflı müzakirə olunmuş, nümayəndə heyətlərimizin üzvlərinə müvafiq tapşırıqlar verilmişdir. Ümidvaram ki, Belarus Prezidentinin Azərbaycana növbəti səfərinədək əldə edilmiş razılaşmalar çərçivəsində yeni nəticələrimiz olacaqdır. Başqa sözlə, münasibətlərimizin necə inkişaf etməsindən çox razıyam. Onlar çox nümunəvidir. Onlar, həmçinin regional münasibətlərin inkişafına da kömək edir. Biz bir-birimizə çox yaxın yerləşməsək də, Belarusun öz regionunda və Azərbaycanın Cənubi Qafqaz və Xəzər regionunda fəal rolu həm siyasi sabitliyin, həm də iqtisadi sahədə qarşılıqlı fəaliyyətin mühüm amilidir.

Beləliklə, bu gün ölkələrimiz arasında ikitərəfli münasibətlərdən danışarkən biz uğurlar görürük, nəticələr görürük, habelə perspektivləri dəqiq görürük. Bununla əlaqədar, ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkələrimiz arasında humanitar sahədə əlaqələr müvəffəqiyyətlə inkişaf edəcəkdir. Mən artıq qeyd etdim ki, bu gün biz həmin mövzunu müzakirə etdik, habelə tələbələrimizin hər iki ölkənin ali məktəblərində təhsil alması imkanlarını da müzakirə etdik.

Azərbaycanda tələbələrimizin dünyanın aparıcı ali məktəblərində təhsil almasına dair Dövlət Proqramı həyata keçirilir. Bu məqsədlər üçün Dövlət Fondundan vəsait ayrılır və beləliklə, ölkəmizin bir neçə min gənc vətəndaşı keyfiyyətli təhsil almaq imkanı qazanır. Bu, peşəkar kadrlar hazırlığı istiqamətində mühüm addımlardan biridir, lakin təbii ki, biz ölkəmizdə təhsilin səviyyəsinin ehtiyaclarımıza, Azərbaycanın inkişaf edən iqtisadiyyatının ehtiyaclarına, həmçinin dünya standartlarına uyğun olmasına çalışmalıyıq. Bu baxımdan, əlbəttə, ölkələrimiz arasında bu sahədə ikitərəfli münasibətlərin mühüm əhəmiyyəti vardır. Müəllimlik fəaliyyəti ilə bağlı olduğum üçün, - ömrümün çox hissəsi ali məktəblə bağlı olmuşdur, - mən ali məktəbin problemlərini, habelə hər bir ölkənin inkişafı üçün təhsilin əhəmiyyətini yaxşı bilirəm. Bu gün keyfiyyətli təhsil olmadan heç bir ölkənin uğurlu inkişafı mümkün deyildir. Çünki yaxşı biliklər, vərdişlər, peşəkarlıq olmadan, bu gün həyatda öz yerini tapmaq çətindir. Buna görə də dövlət yaxşı şərait yaratmağa, gənclər isə, əlbəttə, təhsilə məsuliyyətlə yanaşmağa çalışmalıdırlar. Çünki bu, təkcə diplom və ali təhsilli insanın hər hansı statusu deyildir, bu, zərurətdir, həyatda böyük uğurlar qazanmağın əsas şərtidir.

Biz Azərbaycanda bu məsələyə çox böyük diqqət yetiririk. Azərbaycanda təhsil üçün xərclər ilk yerlərdən birini tutur. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün də tədbirlər görülür, onun maddi-texniki bazası təkmilləşdirilir. Son beş ildə Azərbaycanda ən müasir standartlara uyğun 1800 yeni məktəb tikilmiş, onlar kompyuterləşdirilmiş, internet şəbəkəsinə qoşulması üçün fəal iş aparılır. Artıq virtual təhsilin yeni formaları tətbiq edilməyə başlanmışdır. Başqa sözlə desək, fikrimcə, ölkələrimiz arasında bu istiqamətdə müzakirələr aparmağa, təcrübə mübadiləsinə və gələcək qarşılıqlı fəaliyyətimizin yollarının müəyyən edilməsinə ehtiyac vardır.

Əlbəttə, bu barədə danışarkən ölkələrimizi bir-birinə bağlayan bütün başqa əməkdaşlıq sahələrini də yaddan çıxarmaq olmaz. Əməkdaşlıq olduqca çoxşaxəlidir və qeyd etməliyəm ki, biz nisbətən qısa müddətdə çox şeyə nail ola bilmişik. 2006-cı ilə qədər bizim Belarusda, Belarusun isə Azərbaycanda səfirliyi yox idi. 2006-cı il bizim münasibətlərin inkişafında bir növ dönüş ili oldu və biz qısa müddətdə dinamik inkişafın şahidi olduq. Bu gün Belarus Prezidenti ilə görüşdə də qeyd etdik ki, iqtisadi böhrana baxmayaraq, ölkələrimiz arasında əmtəə dövriyyəsi artır. Bu, çox nadir hallardan biridir: 2009-cu ildə ikitərəfli ticarətdə əmtəə dövriyyəsi azalmır, əksinə, artır. Bu, yaxşı potensial olduğunu göstərir.

Ümumiyyətlə, ölkəmiz haqqında danışarkən qeyd etməliyəm ki, son illərdə Azərbaycan böyük yol keçmişdir – modernləşmə yolu, inkişaf yolu, bu gün ölkəmizin gələcəyə inamla baxmasına imkan vermiş yol. Biz özümüzü təmin etmək iqtidarında olan ölkəyik. Son illərdə iqtisadi inkişaf bir sıra sosial problemləri həll etməyə imkan vermişdir. Qeyd etməliyəm ki, 2004-2008-ci illərdə Azərbaycanda iqtisadi artım göstəricisi dünyada bəlkə də ən yüksək göstərici olmuşdur. Ölkəmizin iqtisadiyyatı 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə artmışdır. İşsizliyə demək olar ki, son qoyulmuşdur. Özəl sektor çox güclü inkişaf etmişdir və bu gün bizim iqtisadiyyatda özəl sektorun payı təxminən 85 faizə bərabərdir. Sosial infrastruktur, təhsil, səhiyyə üçün olduqca çox vəsait və sərmayə ayrılmışdır. Azərbaycan ordusunun müdafiə qabiliyyətini möhkəmlətmək üçün olduqca çox iş görülmüşdür. Başqa sözlə desək, güclü iqtisadi artım iqtisadiyyatı şaxələndirməyə və çox səmərəli sosial siyasət həyata keçirməyə, habelə, Azərbaycanın iqtisadi təhlükəsizliyini və iqtisadi müstəqilliyini tamamilə təmin etməyə imkan vermişdir.

Təbii ki, iqtisadi müstəqillik dövlətin milli mənafelərə əsaslanan müstəqil kurs, siyasət yeritməsinə imkan yaradan təməldir. Əlbəttə, iqtisadi nailiyyətlər regional əhəmiyyətli məsələləri həll etməyə

imkan verir. Azərbaycan bir çox regional iqtisadi layihələrdə sərmayədar kimi iştirak edir. Artıq ölkəmizdən kənarda sərmayələr yatırırıq və bu gün müxtəlif sahələrə - nəqliyyat, energetika sahələrinə birgə sərmayələrin yatırılması imkanlarını müzakirə etmişik. Beləliklə, son illər görülən böyük işlər hətta böhran şəraitində 2009-cu il üçün nəzərdə tutulmuş bütün planları həyata keçirməyə imkan verir.

Əlbəttə, böhran hamıya təsir etmişdir. Buna baxmayaraq, deməliyəm ki, Azərbaycanda bu il iqtisadiyyatın artımı təmin edilmişdir. 2009-cu ilin ilk on ayının yekunlarına görə, ümumi daxili məhsul 8,4 faiz, sənaye istehsalı 7,3 faiz artmışdır. Əlbəttə, əvvəlki illərin artım sürəti ilə müqayisədə bu, xeyli azdır. Lakin böhran şəraitində yaşamağımızı nəzərə alsaq, zənnimcə, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir.

Biz iqtisadi islahatları, iqtisadiyyatımızın liberallaşmasına kömək edən islahatları fəal həyata keçiririk. Sahibkarlığa kreditlərin müxtəlif növləri ilə, biznesin yaradılması prosedurlarının, müxtəlif icazələrin alınması prosedurlarının sadələşdirilməsi ilə yardım edilir. Azərbaycan iqtisadiyyatı artıq rəqabət qabiliyyətlidir və bu reytinqə görə, biz region ölkələri arasında ön mövqelərdəyik. Əlbəttə, ölkəmizin inkişafında neft-qaz amili mühüm rol oynamışdır. Azərbaycan XIX əsrdə neftin dünyada ilk dəfə sənaye üsulu ilə, habelə dünyada ilk dəfə dəniz yataqlarında hasil edildiyi ölkədir. Bir neçə gün bundan əvvəl biz əlamətdar yubileyi – dənizdə, məşhur Neft daşlarında neft hasilatına başlanmasının 60 illiyini qeyd etdik. Bu, dünyada dəniz yataqlarından çıxarılmış ilk neft idi. Ölkəmizin müstəqilliyinin ilk illərində vəziyyət çox çətin olsa da, iqtisadi, siyasi və hərbi sahələrdə total böhran müşahidə edilsə də, - vətəndaş müharibəsi gedirdi, ərazilərimiz Ermənistan tərəfindən işğal olunurdu, – 1990-cı illərin ortalarından başlayaraq həyata keçirilən fəal neft diplomatiyası və siyasəti, demək olar ki, bütün məsələləri, özümüzün enerji təhlükəsizliyimizin, habelə qonşularımızın və tərəfdaşlarımızın enerji təhlükəsizliyinin təmin edilməsi məsələlərini həll etməyə imkan verdi.

Bu gün bizim ən müasir nəqliyyat infrastrukturumuz, ən müasir neft və qaz kəmərləri şəbəkəmiz, ən müasir neft platformalarımız, neft terminallarımız vardır. "Azəri-Çıraq-Günəşli" yatağı ölkəmizin, habelə regionun ehtiyaclarını tam təmin edən dünyada ən böyük yataqdır. Bu il Azərbaycanda neft hasilatının həcmi təxminən 50 milyon ton, qaz hasilatının həcmi 25 milyard kubmetr olacaqdır. Bu isə əhəmiyyətli iqtisadi resursdur.

Təbii ki, biz nəql marşrutlarının şaxələndirilməsinin tərəfdarıyıq və praktiki olaraq bu məsələni təmin etmişik. Bu gün neft və qaz ehtiyatlarımızı bütün istiqamətlərə nəql edən yeddi neft və qaz kəmərimiz vardır. Başqa sözlə desək, biz hər hansı bir bazardan, yaxud hər hansı bir tranzit ölkədən asılı deyilik. Təbii ki, bizim tranzitə ehtiyacımız vardır. Çünki dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Lakin 1990-cı və 2000-ci illərdə görülmüş işləri nəzərə alsaq, biz enerji nəqlinin tamamilə şaxələndirilməsini təmin etmişik. Bu da iqtisadiyyatı tamamilə şaxələndirməyimizə imkan vermişdir. Beləliklə, hətta son dövrdə neftin qiymətinin çox kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, bu il də Azərbaycan iqtisadiyyatının artımı kifayət qədər sanballı olmuşdur.

Başqa sözlə desək, iqtisadi islahatlar, fəal sosial siyasət, dövlətçiliyin möhkəmləndirilməsi, fəal diplomatiya bizə həm sosial-iqtisadi inkişaf baxımından, həm də xarici siyasətin prioritetləri baxımından nəzərdə tutduğumuz bütün məqsədlərə nail olmağa imkan vermişdir. Təbii ki, əgər ölkədə bütün məsələlərə dair vətəndaş konsensusu, sabitlik olmasaydı, hadisələrin gedişini qabaqcadan duymaq imkanı və bununla yanaşı, hər bir insanın istənilən sahədə öz bacarığını gerçəkləşdirməsi üçün imkan olmasaydı, bütün bunlar mümkün olmazdı.

Bizim qarşılaşdığımız problemlərə gəldikdə isə, iqtisadi və sosial problemlər, dediyim kimi, uğurla həll edilir. Yaxın bir neçə ildə - 2013-cü ilə qədər biz ölkəmizdə mövcud iqtisadi və sosial problemlərin, demək olar ki, hamısını həll etmək niyyətindəyik. Tammiqyaslı regional inkişaf üçün əsas maneə, əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməməsidir. Bizi bu münaqişəyə zorla cəlb ediblər. Bu münaqişəni bizə hələ Sovet İttifaqının dağılması ərəfəsində zorla qəbul etdiriblər. O vaxt Dağlıq Qarabağda separatçı meyillər, təəssüf ki, üstün gəlmiş və Ermənistan tərəfindən fəal hərbi yardım göstərilməklə Azərbaycana qarşı müharibə başlanmış, azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, nəticədə bizim bir milyondan çox həmvətənimiz qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ərazimizin təqribən 20 faizi işğal altındadır. İşğal edilmiş ərazilərdə hər şey – evlər, məktəblər, xəstəxanalar, bizim qəbiristanlar, məscidlər dağıdılmışdır. Bütün tarixi abidələrimiz ya dağıdılmış, ya da oğurlanıb talan edilmişdir və bu, artıq 20 ilə yaxındır ki, davam edir. BMT-nin Təhlükəsizlik Şurasının - bu ali beynəlxalq instansiyanın erməni işğalçı qüvvələrinin bizim ərazilərdən dərhal və danışıqsız çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq,

- həmin qətnamələr 1990-cı illərin əvvəlində qəbul edilmişdir, - onlar yerinə yetirilmir. Beləliklə, beynəlxalq hüququn əsas prinsipi pozulur. Ölkəmizin ərazi bütövlüyü pozulmuşdur və bu məsələni dinc yolla həll etmək üçün göstərilən bütün cəhdlər, təəssüf ki, nəticəsiz qalır. Bu məsələ ilə beynəlxalq vasitəçilər qrupu məşğul olur. Onların bütün fəallığına baxmayaraq, biz nəticə görmürük. Bizim insanlar isə öz yurdlarından məhrum olmuşlar. Onlar ən adi insan hüquqlarının pozulması şəraitində, işğalın, torpaqlarımızın qanunsuz işğalının davam etməsi şəraitində yaşayırlar.

Biz ədalətin, qanunçuluğun bərpa edilməsinə, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsinə nail olmaq və dövlətimizin ərazi bütövlüyünü təmin etmək üçün diplomatik, siyasi, iqtisadi və digər tədbirlərimizi davam etdiririk. Erməni tərəfinin tez-tez istinad etdiyi xalqların öz müqəddəratını təyin etmək hüququ məsələsinə gəldikdə isə, bu hüquq vahid Azərbaycan dövləti çərçivəsində, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində uğurla həyata keçirilə bilər. Başqa sözlə desək, erməni xalqı öz müqəddəratını təyin etmişdir, müstəqil erməni dövləti vardır. Lakin əgər onlar erməni diasporunun yaşadığı yerlərin hamısında öz müqəddəratını təyin etmək istəsələr, onda yəqin ki, dünyada ən azı 20 erməni dövləti olar.

Beləliklə, ən böyük ədalətsizlik olan, yüz minlərlə həmvətənimizi əziyyətə salan bu məsələnin həll edilməsi Cənubi Qafqaz regionunda və daha geniş mənada bizim regionda bir çox

məsələləri tənzimləməyə imkan verər. Bu məsələ tənzimlənmədən regional və ya ikitərəfli xarakterli hər hansı başqa təşəbbüslərin gerçəkləşməsi mümkün deyildir.

Mən bu mövzu üzərində ona görə bir qədər ətraflı dayandım ki, bir tərəfdən, bu məsələlər barəsində öz mövqeyimi və öz baxışımı ifadə edim, habelə bütün Qafqazda, bütün Qafqaz regionunda vəziyyətin sabitləşməsi üçün həmin məsələnin nə dərəcədə vacib olduğunu vurğulayım.

Gələcək planlarımızla əlaqədar deməliyəm ki, biz gələcəyə nikbin baxırıq. Dağlıq Qarabağ məsələsinin həll ediləcəyinə mənim zərrə qədər şübhəm yoxdur. Sadəcə olaraq bu, vaxt məsələsidir. Biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz sülhsevər dövlətik və bunun üçün mümkün olan hər şeyi edirik. Təbii ki, bununla bərabər, biz başa düşürük ki, dövlət nə qədər güclü olsa,

onunla bir o qədər çox hesablaşacaqlar, ona bir o qədər çox hörmət edəcəklər və bu dövlətin öz milli mənafelərini təmin etmək üçün bir o qədər çox imkanı olacaqdır. Buna görə də biz güclü dövlət yaratmaq üçün işləmişik, zəhmət çəkmişik. Bu məsələdə bizə heç kəs kömək etməmişdir. Yəqin ki, biz kənardan ciddi dəstəyə malik olmayan, - mən maliyyə dəstəyini nəzərdə tuturam, - azsaylı ölkələrdən biriyik. Biz nəyə nail olmuşuqsa, Azərbaycan xalqının əməyi ilə nail olmuşuq.

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndə biz Sovet İttifaqqı məkanında ən pis vəziyyətdə idik. İqtisadiyyat tamamilə dağılmışdı. Neft hasilatının həcmi təxminən 10 milyon ton həddində idi. Sənaye praktiki olaraq iflic vəziyyətinə düşmüşdü. Ölkədə vətəndaş müharibəsi gedirdi. İşğalçı erməni qüvvələri fürsətdən istifadə edərək Azərbaycanın əzəli torpaqlarını ələ keçirirdi. Siyasi hərc-mərclik, Konstitusiyaya zidd olan qanunsuz silahlı dəstələrin özbaşınalığı hökm sürürdü. Mahiyyətcə vəziyyət idarəolunmaz idi.

Bu gün bizim dinamik inkişaf edən, özü-özünü təmin etməyə qadir olan, səmərəli iqtisadi islahatlar həyata keçirən, regionda, habelə dünya miqyasında yaxşı mövqelərə malik olan, çoxlu dostları olan, – Belarus da bu dostlar sırasındadır, - gələcəyə nikbinliklə baxan dövlətimiz vardır. Biz bir ölkədə yaşamışıq. Biz hamımız demək olar ki, eyni vaxtda müstəqil olmuşuq və hər şey bizdən, rəhbərlərin müdrikliyindən, xalqların iradəsindən və seçilmiş kursun düzgünlüyündən asılı idi. Bu gün biz Belarusun və Azərbaycanın timsalında görürük ki, hər şey düzgün edilmişdir, hər şey necə lazımdırsa elə edilmişdir. Hərçənd bəzən bunlar kimlərinsə xoşuna gəlməyə bilərdi. Bəzən biz müstəqil ölkələr kimi hələ lap gənc olarkən müəyyən tövsiyələr, müəyyən məsləhətlər eşidirdik. Lakin həmişə onlara öz ölkələrimizin milli mənafeləri baxımından, məqsədəuyğunluq baxımından yanaşırdıq. Biz heç vaxt hər hansı sərəncamlara və ya direktivlərə kor-koranə riayət etməmişik. Xalqlarımızın tarixində belə halların sayı, təəssüf ki, hədsiz çox olmuşdur. Biz özü-özünü təmin etmək iqtidarında olan müasir dövlətlər yaradılması üzərində işləmişik və mənim fikrimcə, Belarus ilə Azərbaycan arasında bu cür yüksək səviyyəli etimad və qarşılıqlı rəğbətin olmasının bir səbəbi də ondan ibarətdir ki, biz müstəqilliyimizi çox yüksək qiymətləndiririk və bu müstəqilliyi möhkəmlətmək üçün, o cümlədən ikitərəfli əlaqələri inkişaf etdirməklə hər şeyi edirik.

Fürsətdən istifadə edib Belarus xalqına, ölkənizin bütün vətəndaşlarına firavanlıq, tərəqqi, Belarus Dövlət Universitetinə yeni uğurlar arzulamaq istəyirəm. İndi mənim də bu ali məktəbə aidiyyətim olduğu üçün öz tərəfimdən bizim təhsil müəssisələri arasında əlaqələrin möhkəmlənməsi, bizim insanların bir-birini daha yaxşı tanımaları, tez-tez bir-birinə qonaq getmələri, gənclərin bizim nəsildən nümunə götürərək dostluq etmələri üçün lazım olan hər şeyi etməyə çalışacağam.

Mənə verdiyiniz yüksək qiymətə görə bir daha sağ olun və sizə ən xoş arzularımı bildirirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra Azərbaycan dövlətinin başçısı Belarus Dövlət Universitetinin tələbələrinin suallarına cavab verdi.

Sual: Cənab Prezident, mənim sualım belədir: bu gün Belarus iqtisadiyyatı xeyli dərəcədə enerji daşıyıcılarının bir mənbədən idxalından asılıdır. Bu isə dövlətin enerji təhlükəsizliyi üçün qorxuludur. Əbəs yerə deyildir ki, Belarus dövlətinin Prezidenti Lukaşenko enerji təhlükəsizliyi məsələlərini bilavasitə ölkəmizin suverenliyi və müstəqilliyi ilə bağlayırdı. Eyni zamanda, Azərbaycanın nəinki onun daxili tələbatını ödəməyə, həmçinin onu xarici bazara çıxarmağa imkan verən yanacaq-energetika xammalı ehtiyatları vardır. Zəhmət olmasa deyin, Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında energetika sahəsində, hasilat, tranzit, yanacaq-energetika emalı məsələləri ilə bağlı əməkdaşlığın hansı perspektivləri vardır?

İlham Əliyev: Biz bu gün və əvvəllər də bu mövzunu, təbii ki, müzakirə etmişik və belə rəyə gəlmişik ki, energetika sahəsində əməkdaşlığı inkişaf etdirməliyik. Sizin dediyiniz kimi, tələbat da və təklif də vardır. Başlıca vəzifə əməkdaşlığın daha səmərəli olması üçün bu iki məqamı birləşdirməkdir. Mən çıxışımda qeyd etdim ki, bizim çox geniş neft və qaz kəmərləri şəbəkəmiz vardır. Neft kəmərlərinə gəldikdə isə, neftimiz xammal şəklində üç boru kəməri ilə nəql edilir. Onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə gedir. Təbii ki, biz istehlakçılarımızın əhatə dairəsinin maksimum artmasının tərəfdarıyıq. Hazırda Azərbaycan nefti həm Asiyada, həm Latın Amerikasında, həm ABŞ-da, həm də onlara yaxın regionlarda satılır. Düşünürəm ki, səmərəlilik baxımından nəqliyyat şəbəkəsi bunu məqsədəuyğun edəcəkdir. Əgər biz Aralıq dənizinə, Amerika qitəsinə neft satırıqsa, onda, təbii ki, onu Qara dənizdən, Qara dənizdəki terminallarımızdan Avropa qitəsinə də səmərəli şəkildə sata bilərik. Avropanın bir çox ölkələri bizim istehlakçılarımızdır. Azərbaycan neftinin çox hissəsi Avropa İttifaqı ölkələrinə, Avropa ölkələrinə satılır.

Biz bu məsələni ətraflı müzakirə etdik və energetika nazirlərinə onun üzərində ətraflı işləmək və bu əməkdaşlığı hansı formada qurmağın mümkün olduğunu araşdırmaq barədə müvafiq tapşırıqlar verdik. Biz şaxələnmədə də maraqlıyıq. İstehlakçı bir mənbədən asılı olmaq istəmədiyi kimi, istehsalçı da bir tranzitçidən, yaxud bir yoldan asılı olmaq istəmir. Odur ki, burada əməkdaşlıq perspektivləri vardır və bu baxımdan, konkret tapşırıqlar verilmişdir. Biz nəticələri gözləyirik və düşünürəm ki, nəyə nail olduğumuz yaxın vaxtlarda bilinəcəkdir.

Sual: Siz və ölkəniz "Şərq tərəfdaşlığı" proqramının həyata keçirilməsindən nə gözləyirsiniz? "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycan ilə Belarus hansı sahələrdə əməkdaşlıq edə bilər?

İlham Əliyev: Düzdür, bu, nisbətən yeni təşəbbüsdür. Lakin Avropa İttifaqı ilə bizim region arasında layihələrin həyata keçirilməsi meyilləri müəyyən müddət mövcud olmuşdur. 2006-cı ildən Azərbaycan Avropa İttifaqının "Yeni qonşuluq" proqramının iştirakçısıdır. Beləliklə, "Şərq tərəfdaşlığı" proqramı müəyyən mənada həmin meyilin davamıdır. Biz onu alqışlayırıq. Artıq qeyd etdiyim kimi, bizim Avropa İttifaqı ölkələri ilə çox sıx iqtisadi əlaqələrimiz vardır. Onlar bizim enerji ehtiyatlarının neft sarıdan əsas istehlakçılarıdır. Qaza gəldikdə isə, biz qaz nəqlinin də şaxələndirilməsi üzərində işləyirik və bu gün öz qazımızı xarici bazarlara satırıq. Lakin təbii ki, biz qazın nəqlini genişləndirmək istəyirik, xüsusən ona görə ki, həm qonşu ölkələrdə, həm də Avropa İttifaqı ölkələrində bizim qaza tələbat vardır.

Avropa İttifaqına daxil olan bütün ölkələrlə münasibətlərimiz siyasi baxımdan çox yaxşıdır, uzunmüddətli və səmərəlidir. Əlbəttə, "Şərq tərəfdaşlığı" proqramının üzvü olan hər bir ölkənin nəticə kimi nə əldə etmək istədiyi barədə öz təsəvvürü və öz planları vardır. Bizə gəldikdə, mən belə deyərdim: bu, iqtisadi amillərlə bağlı deyildir, bizim iqtisadi köməyə ehtiyacımız yoxdur. Bizim ölkədə daxili siyasi vəziyyətə gəldikdə isə, deyirəm, bu vəziyyət sabitdir, ölkəmizin inkişafı məsələsində cəmiyyətdə həmrəylik vardır.

Buna görə də biz məhz insanlar arasında əlaqələrin möhkəmlənməsində daha çox maraqlıyıq. Əlbəttə, enerji amili həmişə mühüm rol oynayacaqdır və bu mənada da bizim maraqlarımız üst-üstə düşür. Çünki Avropa enerji ehtiyatlarının böyük istehlakçısıdır. Azərbaycan çox böyük neft-qaz ehtiyatlarına malikdir. Bu ehtiyatlar ən azı yaxın yüz ildə regionun enerji təhlükəsizliyini təmin edəcəkdir. Bu məlumatlar ehtiyatların təsdiqlənmiş minimal həcminə əsaslanır. Buna görə də enerji amili mühüm rol oynayacaqdır. Biz buna hazırıq və buna şadıq. Lakin biz istərdik ki, energetika çərçivələrindən kənarda inteqrasiya təşəbbüsləri ilə əlaqədar proseslər daha çox olsun. Buraya mədəni mübadilə, Avropa İttifaqı ölkələrinə gediş-gəlişin nisbətən asan olması, viza rejimi ilə bağlı məsələlər daxildir. Hesab edirəm ki, həmin məsələlər artıq "Şərq tərəfdaşlığı" səviyyəsində daha fəal həll edilməlidir.

"Şərq tərəfdaşlığı" çərçivəsində bizim ölkələr arasında münasibətlərə və qarşılıqlı fəaliyyətə gəldikdə isə, mən elə güman etmirəm ki, "Şərq tərəfdaşlığı" ikitərəfli əlaqələr üçün ən mühüm formatdır. Hər halda biz "Şərq tərəfdaşlığı"nda iştirak məsələsini Azərbaycan ilə "Şərq tərəfdaşlığı"nın digər üzvləri arasında deyil, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq imkanı hesab edirik. Bizim ikitərəfli münasibətlərimiz isə hər hansı beynəlxalq təşkilatların hər hansı çərçivələri ilə məhdudlaşmamalıdır. Mənim fikrimcə, ölkələrimiz arasında yaranmış siyasi və iqtisadi münasibətlərin səviyyəsi bu tezisin doğruluğunu sübut edir. Biz ikitərəfli planda işləməli, hər iki ölkənin mənafelərini ikilikdə təmin etməli və ölkələrimizin daha da yaxınlaşması istiqamətində çalışmalıyıq.

Fəxri adlar və mükafatlar

Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü və medalı

Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün Fransanın Strasburq şəhərinə gəlmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə 2004-cü il aprelin 29-da bu qurumun fəxri üzvü diplomunun və medalının təqdimat mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi Avropa Şurasının iqamətgahında – Avropa sarayında Avropa Şurasının Baş katibi Valter Şvimmer, Avropa Şurası Parlament Assambleyasının Sədri Piter Şider, AŞPA-nın Baş katibi Bruno Haller və digər yüksək vəzifəli şəxslər səmimiyyətlə, mehribanlıqla qarşıladılar. Sarayın qarşısında Azərbaycan Respublikasının bayrağı dalğalanırdı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin AŞPA-nın Sədri Piter Şider ilə görüşü oldu.

Cənab Piter Şider Prezident İlham Əliyevi Avropa Şurasında bir daha salamlamaqdan qürur duyduğunu, dəvəti qəbul edib Avropa Şurasına gəldiyinə görə dövlət başçısına təşəkkürünü bildirdi. O dedi ki, biz ən fəal deputat və nümayəndə heyətinin rəhbəri, habelə AŞPA-nın ən fəal rəhbərlərindən biri, nəhayət, ən fəal dövlət başçısı kimi qiymətləndirdiyimiz Azərbaycan Prezidenti İlham Əliyevi yenidən öz yanımızda görməkdən fərəh hissi keçiririk. Sizin Avropa dəyərlərinə, Avropa Şurasına xüsusi diqqətiniz hamımızda minnət - darlıq hissi doğurmuşdur. Piter Şider dövlət başçısının Azərbaycanda demokratiyanın inkişafı, insan hüquqlarının qorunması və vətəndaş cəmiyyətinin qurulması sahəsində fəaliyyətini yüksək dəyərləndirdi. O, indiyədək yalnız iki ölkənin – Finlandiyanın və Azərbaycanın AŞPA-dakı nümayəndə heyətləri rəhbərlərinin sonradan dövlət başçısı seçildiyini xatırlatdı və bundan şərəf duyduğunu söylədi.

Avropa Şurasına növbəti dəfə gəlməsindən məmnunluğunu vurğulayan Prezident İlham Əliyev AŞPA-dakı fəaliyyətini həyatının ən gözəl illəri kimi qiymətləndirdi. Avropa Şurasının rəhbərliyinə təşəkkürünü bildirən dövlət başçısı dedi ki, bu qurumun üzvü olduğu müddətdə Azərbaycan demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, vətəndaş cəmiyyəti qurulması istiqamətində böyük yol keçmişdir. Ötən müddətdə Azərbaycanın Avropa ailəsinə daha sıx inteqrasiyası üçün əlindən gələni əsirgəmədiyini bildirən İlham Əliyev dedi ki, dövlət başçısı vəzifəsində də bu xətti ardıcıl surətdə davam etdirəcək, ölkəmiz Avropanın demokratik dəyərlərinə daim sadiq olacaqdır.

Sonra Prezident İlham Əliyev Avropa Şurasının fəxri qonaqları kitabına ürək sözlərini yazdı:

"Üç ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Bu illər ərzində ölkəmiz Avropaya inteqrasiya yolunda böyük uğurlar əldə etmişdir.

Çox məmnunam ki, 2001-2003-cü illərdə Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etmişəm. Bu illər həyatımda çox önəmli rol oynamışdır. Əminəm ki, Avropa Şurası ilə Azərbaycan arasında aparılan əməkdaşlıq uğurla davam etdiriləcəkdir.

Avropa Şurasındakı dostlarımıza cansağlığı və uğurlar arzulayıram.

Böyük hörmətlə,

İlham Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti.
29 aprel 2004-cü il".

Sonra ASPA-nın Sədri Piter Şider Azərbaycan Prezidenti İlham Əliyevə Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomunu və medalını təqdim etdi, Azərbaycan ilə AŞ arasında əlaqələrin gələcəkdə daha da sıx olacağına əminliyini söylədi.

Prezident İlham Əliyev ona göstərilən səmimi münasibətə və yüksək etimada görə təşəkkür etdi. Azərbaycanın Avropa Şurası ilə əlaqələrinin daim diqqət mərkəzində olacağını bildirdi.

"Çernobıl İttifaqı" beynəlxalq təşkilatının fəxri üzvü

2004-cü il oktyabrın 2-də "Çernobıl İttifaqı" beynəlxalq təşkilatının əlaqələndirmə şurasının Kiyevdə keçirilən iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təşkilatın fəxri üzvü seçilmişdir. 18 ölkənin nümayəndələrinin iştirak etdiyi bu iclasda Azərbaycan Prezident İlham Əliyev Çernobıl əlillərinə sosial yardım işində xidmətlərinə, Azərbaycanda Çernobıl əlillərinin hüquqlarının qorunmasına sanballı töhfəsinə görə bu ada layiq görülmüşdür.

Azərbaycan Çernobıl Əlilləri İttifaqının prezidenti Mirhəsən Həsənov çıxışında bildirdi ki, Çernobıl AES-də qəza zamanı əlil olmuş Azərbaycan vətəndaşlarının sağlamlığının mühafizəsi və onlara maddi yardım göstərilməsi üçün ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində lazımi hüquqi baza yaradılmışdır. Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlara, o cümlədən dünyada ən dəhşətli texnogen fəlakətinin nəticələri aradan qaldırılarkən sağlamlığını itirmiş Azərbaycan vətəndaşlarına hərtərəfli dəstək və yardım göstərilməsinə yönəldilən bu siyasəti uğurla davam etdirir.

"Çernobıl İttifaqı" təşkilatının prezidenti Qleb Malyutin Azərbaycan rəhbərinin bu ada layiq görülən yeganə dövlət başçısı olduğunu bildirdi.

Rumınyanın İnsan Hüquqları Təşkilatının mükafatı və "Pol Polidor" Mədəniyyət Fondunun fəxri üzvü

2004-cü il oktyabrın 12-də Rumıniyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkənin İnsan Hüquqları Təşkilatının mükafatı ilə təltif ediməsi mərasimi keçirilmişdir.

Bu münasibətlə Prezident İlham Əliyev Rumıniyadakı Azərbaycan diasporunun nümayəndələri və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin, digər qurumların üzvləri ilə görüşmüşdür.

Görüşü giriş sözü ilə açan Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri **İoan Pop De Popa** dedi:

- Zati-aliləri hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Bizim cəmiyyətimiz Rumıniya ilə Azərbaycan arasındakı dostluğun bütün sahələrdə - mədəni, iqtisadi, elmi sahələrdə inkişaf etməsi üçün böyük işlər görmüşdür. Cəmiyyətimiz parlament üzvləri, dövlət xadimləri, akademiklər, mədəniyyət xadimləri və yazıçılardan ibarətdir və onlar bu qurumda tutduqları yeri artıq öz işləri ilə sübut etmişlər.

İcazə verin, cəmiyyətimizin əldə etdiyi nailiyyətlər haqqında məlumat üçün sözü professor Dimitru Balanuya verək.

Professor **Dimitru Balanu** Azərbaycan Prezidentinə müraciətlə dedi:

- Zati-aliləri hörmətli cənab Prezident!

İcazə verin, Sizi və Sizi müşayiət edən nümayəndə heyətinin üzvlərini cəmiyyətimiz adından salamlayım. Azərbaycan və rumın xalqları arasında dostluq telləri öz kökləri ilə uzaq keçmişə gedib çıxır. Bu dostluğa dərin ehtiramımı ifadə edərək demək istəyirəm ki, Rumıniya Türkiyədən sonra Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ikinci dövlət olmuşdur. Sonralar daha da möhkəmlənmiş dostluq əlaqələri və beynəlxalq aləmdə iki ölkənin bir-birini dəstəkləməsi sübut etdi ki, bu fakt heç də təsadüfi deyildir.

Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti 2001-ci ildə yaradılmışdır. Təşkilatın məqsəd və vəzifələri ənənəvi dostluq əlaqələrinin daha da genişlənməsi və dərinləşməsinə kömək etməkdən, hər iki ölkənin ictimaiyyətinin və gənclərinin ölkələrimizin tarixi, mədəniyyəti ilə yaxından tanış olmasına şərait yaratmaqdan ibarətdir.

Cəmiyyətin idarə heyətinə Rumıniyanın görkəmli şəxsləri - siyasi partiyaların nümayəndələri, parlament fraksiyalarının başçıları, elm və mədəniyyət xadimləri, milli azlıqların təmsilçiləri, məşhur biznesmenlər daxildir.

Eyni zamanda, 2001-ci ildən Azərbaycan-Rumıniya Gənclər Təşkilatı fəaliyyət göstərir ki, onun tərkibinə iki ölkədən olan tələbələr, habelə dünyanın digər ölkələrindən olan gənclər daxildir. Hər iki təşkilatın idarə heyətinin üzvləri Rumıniya-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə və gələcək inkişafına öz töhfələrini vermək əzmindədirlər. Bu prosesə hər iki ölkənin gəncləri cəlb olunur ki, bu da əlaqələrimizin gələcəyi üçün çox müsbət haldır.

2002-ci ildə Buxarestdə beynəlxalq festivalın keçirildiyi vaxt Cəmiyyətimizin təşəbbüsü ilə tədbirin bir günü Azərbaycana həsr olunmuşdu. Həmin tədbirdə Azərbaycan şairlərinin sözlərinə yazılmış mahnılardan ibarət musiqi diski buraxılmışdır. Səfirliyin yardımı ilə cəmiyyətimiz "Azərbaycanın dirçəlişi və inkişafı" adlı kitab hazırlayıb nəşr etmişdir. Bu kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yorulmaz fəaliyyətinə həsr olunmuşdur. Cəmiyyətin köməyi ilə Buxarest Universitetinin professorları türk folklorunun incisi sayılan "Dədə Qorqud" dastanını, habelə Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadənin və Elçin Əfəndiyevin kitablarını rumın dilinə tərcümə etmişlər. Bundan başqa,


ORGANIZAȚIA PENTRU APĂRAREA DREPTURILOR OMULUI

DIPLOMA
DE EXCELENȚĂ

Se acordă

Excelenței Sale Dl. ILHAM ALIYEV President of Republic of Azerbaijan

PREZENTA DIPLOMĂ ȘI PLACHETĂ JUBILIARĂ
CA RECUNOAȘTERE A CONTRIBUȚIEI DEOSEBITE ADUSE
ACTIVITĂȚII DE APĂRARE, RESPECTARE ȘI PROMOVARE
A DREPTURILOR ȘI LIBERTĂȚILOR FUNDAMENTALE ALE OMULUI,
PENTRU DEZVOLTAREA ȘI CONSOLIDAREA DEMOCRAȚIEI.

PREȘEDINTE
Prof. univ. dr. FLORENTIN SCALEȚCHI

Data: 12.10.2004

yazıçı Anarın və Çingiz Abdullayevin də əsərləri rumın dilinə çevrilmişdir. Cəmiyyətin və səfirliyin təşəbbüsü və hər iki ölkənin ekspertlərinin köməyi ilə müqəddəs Quran da rumın dilində nəşr olunmuşdur.

Cəmiyyətin və gənclər təşkilatının Rumıniyanın, Azərbaycanın və Türkiyənin ayrı-ayrı nəşrləri, televiziya kanalları və jurnalist təşkilatları ilə sıx əlaqələri vardır. Xüsusilə təşkilatımız Azərbaycanda iqtisadi, sosial, mədəni sahələrdə baş verən böyük tərəqqi və inkişaf barədə kütləvi informasiya vasitələrinə düzgün və dolğun məlumatlar verir. Biz Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycan torpaqlarının işğalı, bir milyondan çox qaçqın və köçkün haqqında ətraflı məlumat yaymışıq. Əlbəttə, bütün bunlar Azərbaycan səfirliyinin bizə göstərdiyi yardım olmadan mümkün olmazdı. Cənab səfir və onun əməkdaşları öz ölkələrini layiqincə təmsil etmək üçün əllərindən gələni edirlər.

Cənab Prezident, Azərbaycanın ümummilli lideri Heydər Əliyev və Rumıniya Prezidenti İon İliyesku bizim ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin, qarşılıqlı anlaşmanın möhkəm bünövrəsini qoymuşlar. Bu, bizim tarixi sərvətimizdir. Siz əmin ola bilərsiniz ki, Şərqi Avropanın mərkəzi olan Rumıniyada güclü diaspor vardır, Azərbaycanın buradakı dostları Sizin yürütdüyünüz düzgün siyasəti dəstəkləyirlər və həmişə dəstəkləyəcəklər.

Sonra Rumıniya İnsan Hüquqları Təşkilatının sədri **Fiorentin Skaretski** Azərbaycan Prezidenti İlham Əliyevə bu təşkilatın mükafatını təqdim edərək dedi:

- Mən İnsan Hüquqları Təşkilatının sədriyəm və Azərbaycanda iki dəfə olmuşam. Dağlıq Qarabağ və işğal olunmuş digər yeddi rayondan didərgin düşmüş insanların vəziyyəti ilə tanış olmuşam və onların vəziyyətini dünya ictimaiyyətinə çatdırmışam. İkinci dəfə isə, Zati-aliləri Azərbaycanda prezident seçkilərində iştirak edərkən ATƏT-in nümayəndəsi kimi gəlmişəm. Mən cəmiyyətinizin inkişafının və tərəqqisinin şahidi olmuşam. Habelə şahidi olmuşam ki, Azərbaycan Prezidenti öz ölkəsində demokratiyanın bərqərar olunması və inkişafı yolunda böyük səylər göstərir. Qeyd edə bilərəm ki, Azərbaycanda cəmiyyət sürətlə inkişaf edir. Biz Azərbaycan xalqını dəstəkləyirik və yəqin ki, bu yaxınlarda edəcəyimiz səfər zamanı Azərbaycanda qaçqın-köçkünlərin vəziyyəti ilə tanış olacağıq. Bu qısa çıxışımı Azərbaycan səfirinə təşəkkürlə başa çatdırmaq istəyirəm. Arzu edirəm ki, əlaqələrimiz gələcəkdə də inkişaf etsin və yeni formalarla zənginləşsin. Bir daha

təşəkkür edirəm və Rumıniyaya xoş gəlmisiniz.

Rumıniya-Türkiyə Ticarət və Sənaye Odasının başçısı **Tamer Atalay** çıxış edərək dedi:

- Hörmətli Prezident!

Ticarət və Sənaye Odasının üzvləri Sizi Rumıniyada görməkdən böyük sevinc hissi duyurlar. Rumıniyaya xoş gəlmisiniz və bizlərə şərəf verdiniz. Rumıniya həm Türkiyə, həm də Azərbaycan üçün çox önəmli ölkədir. Azərbaycanın müstəqilliyini Türkiyədən sonra tanıyan ikinci ölkə Rumıniyadır. Balkanlarda həm Türkiyənin, həm də Azərbaycanın əsil dostu olan, ikitərəfli əlaqələrdə və beynəlxalq aləmdə ölkələrimizi dəstəkləyən bu ölkədə çoxlu türk iş adamları vardır. Balkanlarda 30 min türk və yüzlərlə azərbaycanlı iş adamı fəaliyyət göstərir. Siz təqribən 100 mindən çox türkün yaşadığı ölkədəsiniz. İnanıram ki, qardaş bir ölkədə olmaqdan xoşbəxtlik və rahatlıq duyursunuz. Rəhmətlik atanız, Azərbaycanın ümummilli lideri, türk dünyasının hörmət və sevgi bəslədiyi Heydər Əliyevin vəfatı ilə əlaqədar bu ölkədə bizlər də yas saxladıq, Quran oxutduq və mövlud verdik. Türk icması olaraq, biz də Sizin kədərinizi bölüşdük. Biz Sizin atanız Heydər Əliyevin və Sizin ideyalarınızı burada yaşadan, Azərbaycanı ən yüksək səviyyədə təmsil edən hörmətli səfir Eldar Həsənov kimi bir insanın və səfirliyin digər əməkdaşlarının türk icmaları arasında dostluğun və qardaşlığın təmin olunmasındakı fəaliyyətlərini xüsusi qeyd edirik.

Bizim təşkilatın idarə heyətinin üzvləri və sədri Azərbaycanda oldular və rəhmətlik atanızın məzarını ziyarət etdik. Biz Bəxtiyar Vahabzadə ilə və digər insanlarla da görüşdük. Şahidi olduq ki, Azərbaycanda yüksək inkişaf prosesləri gedir, insanların gözlərində xoşbəxtliyi ifadə edən işığı gördük. Biz Sizin atanızdan miras aldığınız bayrağı daha yüksəyə qaldırmaq əzmini gördük. Bunun üçün Sizi ürəkdən təbrik edir və özümüzü xoşbəxt hiss edirik. Çünki rəhmətlik atanızın dediyi kimi, bir millət, iki dövlətik və bu gün Heydər Əliyevin büstünün açılışında türk toplumlarının başçıları da iştirak edəcəklər. Biz əvvəllər burada Atatürkün heykəlini ucaltmışdıq və bu gün Atatürklə Heydər Əliyev Avropa torpaqlarında - Rumıniyada görüşür və türk toplumlarına Avropaya inteqrasiya olunmaqla sülhü və dostluğu təmin etmək sahəsində nümunə olacaqlar və yenə öndərlik edəcəklər. Bir daha Sizə "Xoş gəlmisiniz!" deyirəm və icazənizlə, Odamızın rəhbərliyi adından Sizə xatirə hədiyyəsi - plaket təqdim etmək istəyirəm.



Hörmətli cənab Prezident, indi isə icazənizlə, Müqəddəs Quranın rumın dilinə tərcümə edilməsinə və türklük atamızı - "Dədə Qorqud"un rumın dilinə çevirilməsinə yardım edən hörmətli səfirə də bir plaket təqdim edərdim.

Sonra Türk İş Adamları Dərnəyinin başçısı **İsmət İsmayil Bayandur** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, Sizi Rumıniyada görməkdən xoşbəxtlik hissi duydum. Azərbaycan və Türkiyə xalqlarının dostluğu sərhəd tanımır. Biz Rumıniyada azəri qardaşlarımızla ələlə çalışırıq. "Bir millət, iki dövlət" sözlərini yaşadaraq, türk dünyamızın böyük lideri mərhum Prezidentimiz hörmətli Heydər Əliyevi hüzurunuzda ehtiramla anırıq. Hörmətli cənab Prezident, səfir Eldar Həsənov və səfirliyin işçiləri bizimlə sıx əməkdaşlıq edirlər. Biz Rumıniyadakı Azərbaycan səfirliyini öz evimiz kimi hiss

edirik. Siz qısa müddət ərzində çox böyük işlər görmüsünüz. Zati-alilərinizin Rumıniyaya səfəri iki ölkənin əlaqələrinin inkişafı baxımından çox faydalı olacaqdır. Biz bu sahədə üzərimizə düşən hər bir vəzifəni yerinə yetirməyə hazırıq. Zati-alilərinizə ən dərin hörmətimizi bildirir və əmrlərinizi gözləyirik. İcazənizlə, mən də Sizə bir plaket təqdim etmək istəyirəm.

Rumıniyanın "Pol Polidor" Mədəniyyət Fondunun sədri **Pol Polidor** çıxış edərək dedi:

- Zati-aliləri hörmətli cənab Prezident İlham Əliyev!

Bizim mədəniyyət fondu adından Sizi Rumıniyada salamlayıram. Birincisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Rumıniya ilə Azərbaycan arasında əlaqələrin inkişafına verdiyi misilsiz töhfəni qeyd etmək istəyirəm. Biz həm də bu əlaqələrin inkişafında Sizin böyük səylərinizi alqışlayırıq. Bununla əlaqədar fondun idarə heyəti adından Sizə fəxri üzv diplomunu, Heydər Əliyevə həsr olunmuş kompakt disk və medalı təqdim etmək istəyirəm. Rumıniyaya xoş gəlmisiniz!

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış etdi.

Azərbaycan Prezidenti
İlham Əliyevin çıxışı

- Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Sizin hamınızı ürəkdən salamlayıram və mənə göstərilən yüksək qonaqpərvərliyə, deyilən xoş sözlərə görə Sizə minnətdarlığımı bildirirəm.

Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin fəaliyyəti iki ölkə arasında əməkdaşlıq üçün çox böyük əhəmiyyətə malikdir. Çox şadam ki, Rumıniya ilə Azərbaycan bütün sahələrdə əməkdaşlıq edirlər və bunun nəticəsində ölkələrimiz siyasi, iqtisadi və digər sahələrdə əlaqələrini gücləndirirlər. Mənim bu rəsmi səfərim də gələcək əməkdaşlığımız üçün yeni bir addımdır, yeni bir mərhələdir və şübhə etmirəm ki, bu səfərdən sonra əlaqələrimiz bütün sahələrdə daha da genişlənəcəkdir.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra daim Rumıniyanın dəstəyini görmüşdür və bunu bu gün də hiss edirik. Buna görə bir daha sizə və bütün rumın xalqına öz dərin minnətdarlığımı bildirirəm.

Müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox ağrılı keçmişdir. Ölkədə xaos, anarxiya, hərc-mərclik hökm sürürdü, vətəndaş müharibəsi başlanmışdı, iqtisadi böhran yaşanırdı. Bir sözlə, Azərbaycanın müstəqil dövlət kimi yaşaması təhlükə altında idi. Yalnız Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xalqın tələbi ilə ölkəyə rəhbərliyə gəlməsindən sonra vəziyyət dəyişdi, sabitlik yarandı, böhrana son qoyuldu və bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Ölkəmiz çox sürətlə beynəlxalq təşkilatlara inteqrasiya edir.

Ölkəmizdə həm siyasi, həm də iqtisadi sahələrdə çox ciddi islahatlar aparıldı. Bu islahatların nəticəsində dünyada və regionda Azərbaycanın mövqeyi möhkəmləndi və indi iqtisadi inkişaf baxımından ölkəmiz bütün postsovet məkanında qabaqcıl yerlərdədir.

Ötən il keçirilmiş prezident seçkilərində də xalqımız son illər ərzində ölkədə aparılmış siyasətə öz dəstəyini bir daha bildirərək, yenidən Heydər Əliyev siyasətinə, Heydər Əliyev siyasi xəttinə səs verdi. Bu dövr ərzində ölkəmizin iqtisadiyyatı daha da güclənmişdir. Ümumi daxili məhsulun orta illik artımı on faizə bərabərdir. Azərbaycanda həyata keçirilən regional sosial-iqtisadi inkişaf proqramı nəticəsində ölkədə 70 mindən çox iş yeri açılmışdır. Dünyanın ən böyük enerji layihəsi uğurla həyata keçirilir - region və bütün dünya üçün böyük əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla inşa edilir və yaxın zamanlarda biz onun açılışını qeyd edəcəyik. Bu, Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsinin bariz nümunəsidir. Çox əlamətdar hadisədir ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinə və Türkiyənin Ceyhan şəhərində tikilən böyük terminala ümummilli liderimiz Heydər Əliyevin adı verilmişdir.

Azərbaycan beynəlxalq aləmdə də öz mövqelərini möhkəmləndirir. Bizim NATO və Avropa Birliyi ilə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Azərbaycan NATO-ya fərdi tərəfdaşlıq planını təqdim edən ilk ölkələrdəndir. Avropa Birliyinin ölkəmizi yeni qonşuluq siyasətinə daxil etməsi də çox mühüm hadisədir və Azərbaycanın Avropaya inteqrasiyası istiqamətində gələcəkdə atılacaq addımlar üçün böyük bir zəmindir.

Əlbəttə, bizim müxtəlif ölkələrlə ikitərəfli əlaqələrimiz də sürətlə inkişaf edir və genişlənir. Bu baxımdan Rumıniya ilə Azərbaycan arasında olan əlaqələrə xüsusi əhəmiyyət veririk və deyə bilərəm ki, Azərbaycanın bu regionda ilk səfirliyi məhz Rumıniyada açılmışdır. Mən çox şadam ki, bu səfirlik uğurla işləyir, bütün aidiyyəti orqanlarla əlaqədədir. Bu da bizə imkan verir ki, Azərbaycan haqqında həqiqətlər, reallıqlar geniş rumın ictimaiyyətinə dolğun şəkildə çatdırılsın.

Mən bu səfərdən çox razıyam. Əminəm ki, bu səfərdən sonra bizim əlaqələrimiz daha da güclənəcəkdir. İmzalanmış sənədlər bunu deməyə əsas verir.

Bilirsiniz ki, ölkəmiz və region üçün ən təhlükəli, ən ağrılı problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsidir.

Biz tələb edirik ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Bizim üçün çox vacibdir ki, Rumıniya dövlətinin mövqeyi də məhz bundan ibarətdir və hörmətli cənab Prezident İon İliyescu dünən mətbuat konfransında və digər çıxışlarda bu mövqeyi açıq şəkildə bəyan etmişdir. O demişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Sizin ölkənizin bu açıq bəyanatı və bizə açıq dəstəyi bizim üçün çox vacibdir və mən əminəm ki, münaqişənin nizama salınması istiqamətində öz rolunu oynayacaqdır.

Biz bütün dövlətlərin ərazi bütövlüyünü tanıyırıq. Əlbəttə, tələbimiz ondan ibarətdir ki, bizim də ərazi bütövlüyümüz bərpa edilsin. Ermənistan öz işğalçı siyasətindən əl çəksin, işğal olunmuş torpaqlardan çıxsın və bir milyondan artıq qaçqın və köçkün öz doğma torpaqlarına qayıda bilsin. Onu da qeyd etmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair dörd qətnamə qəbul edibdir və bu qətnamələrdə deyilir ki, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Biz istəyirik ki, dünyada ikili standartlar siyasətinə son qoyulsun və Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş qərarlar icra olunsun. Bu məsələ ilə əlaqədar Rumıniyanın birmənalı mövqeyi və digər Avropa ölkələrinin bizə verdiyi dəstək münaqişənin həllində böyük rol oynaya bilər. Bu münaqişə öz həllini taparsa, regionda sülh bərqərar olunar, təhlükəsizlik möhkəmləndirilər və bütün maneələr aradan qaldırılar. Biz istəyirik ki, regiondakı bütün xalqlar əmin-amanlıq şəraitində yaşasınlar.

Əziz dostlar, bir daha qeyd etmək istəyirəm ki, mənim Rumıniyaya rəsmi səfərim çox mühümdür. Mən bu səfərə böyük əhəmiyyət verirəm və şadam ki, o, çox uğurlu keçir. Qeyd etdiyimiz kimi, ölkələrimiz arasında əlaqələr çox yüksək səviyyədədir. Çox şadam ki, insanlarımız arasında da mehriban münasibət vardır. Mən Rumıniyaya böyük nümayəndə heyəti ilə gəldim. Burada aparılan danışıqlar, söhbətlər və imzalanmış sənədlər gələcək əməkdaşlığımız üçün çox gözəl şərait yaradır. Biz istəyirik ki, əlaqələrimiz bütün sahələrdə və bütün səviyyələrdə inkişaf etsin. Hökumətlərarası birgə komissiya daha fəal işləməlidir, parlamentlərarası əlaqələr güclənməlidir, humanitar sahədə əməkdaşlıq da yeni mərhələyə çıxmalıdır. Mən ümid etmək istəyirəm ki, bu səfər bütün sadaladığım məsələlərə təkan verəcəkdir.

Əlbəttə, mənim üçün çox önəmli və əzizdir ki, burada, Rumıniya torpağında xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ucaldılmışdır. Bu, iki ölkə arasında olan əlaqələrə çox müsbət təsir göstərəcəkdir. Bunun Azərbaycan və rumın xalqları arasında mehriban və səmimi münasibətlərə də güclü təsiri olacaqdır. Buna görə mən Rumıniya dövlətinə və hökumətinə, şəxsən cənab İon İliyeskuya öz minnətdarlığımı bildirirəm. Çox istərdim ki, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri də tez-tez Azərbaycana gəlsinlər, biz daha da sıx əlaqədə, təmasda olaq və cəmiyyətin fəaliyyəti bundan sonra da xalqlarımızın yaxınlaşmasına xidmət etsin.

Verilən ödüllərə və dediyiniz xoş sözlərə görə sizin hamınıza bir daha öz dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, Rumıniya ilə Azərbaycan arasında olan əlaqələr yüksələn xətt üzrə davam edəcəkdir.

Sonra Prezident İlham Əliyev müxtəlif cəmiyyətlərin və qurumların rəhbərləri və üzvlərinin hər biri ilə görüşərək, səmimi söhbət etdi və onlarla xatirə şəkli çəkdirdi.

İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) baş mükafatı



2005-ci il mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatına - İSESKO-ya göstərdiyi köməyə görə bu təşkilatın baş mükafatı təqdim edilmişdir.

Bu münasibətlə Prezident İlham Əliyev İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycrini qəbul etmişdir.

Azərbaycanın bu təşkilatla yaxşı əməkdaşlıq etdiyini bildirən Prezident İlham Əliyev doktor Əbdüləziz bin Osman Əl-Tuveycrinin rəhbərlik etdiyi nümayəndə heyətinin səfərini elm, təhsil və mədəniyyət sahəsində fikir mübadiləsinin aparılması, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, həmçinin birgə proqramların həyata keçirilməsi işində mühüm rol oynayacağını vurğuladı.

Azərbaycanda təhsilin, elmin, mədəniyyətin inkişafına böyük əhəmiyyət verildiyini nəzərə çarpdıran Prezident İlham Əliyev bu sahələrdə ölkəsinə göstərdiyi köməyə görə təşkilata minnətdarlığını bildirdi.

Səudiyyə Ərəbistanına səfərini məmnunluqla xatırlayan dövlət başçısı orada Kralla və yüksək vəzifəli digər rəsmi şəxslərlə keçirdiyi görüşlərin, apardığı danışıqların iki ölkə arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət göstərdiyini vurğuladı.

Cənab Əbdüləziz bin Osman Əl-Tuveycri bundan iki gün öncə - mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verildiyi günlərdə və 28 May – Respublika günü ərəfəsində Prezident İlham Əliyev ilə görüşməyindən şərəf duyduğunu bildirdi. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ehtiramla ziyarət etdiyini söylədi.

Qonaq Azərbaycanda bütün sahələrdə, o cümlədən elm, təhsil və mədəniyyət sahəsində böyük inkişafın şahidi olduğunu bildirdi. Ölkənin sürətli inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna rolu olduğunu söyləyən cənab Əbdüləziz bin Osman Əl-Tuveycri Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini vurğuladı.

İki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söyləyən qonaq dövlət başçısının Səudiyyə Ərəbistanına səfərinin bu əlaqələrin daha da inkişaf etməsi işində böyük rol oynadığını bildirdi.

Doktor Əbdüləziz bin Osman Əl-Tuveycri Azərbaycan Prezidenti İlham Əliyevə İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatına – İSESKO-ya göstərdiyi köməyə görə bu təşkilatın baş mükafatını təqdim etdi.



Amerika-Azərbaycan Ticarət Palatasının "Görkəmli rəhbərlik" xüsusi mükafatı

2006-cı il aprelin 27-də ABŞ-da rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika-Azərbaycan Ticarət Palatasının "Görkəmli rəhbərlik" adlı xüsusi mükafatı ilə təltif olunması mərasimi keçirilmişdir.

Amerika-Azərbaycan Ticarət Palatasının həmsədri Ceremi Beyker çıxış edərək, Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfərinin uğurlarından danışdı.

ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Rino Harniş, Azərbaycanın bu ölkədəki səfiri Hafiz Paşayev Amerika-Azərbaycan əməkdaşlığından bəhs etdilər.

Qəbulda Xarici Özəl İnvestisiyalar Şirkətinin prezidenti Rob Mosbeyker çıxış edərək bildirdi ki, ABŞ ilə Azərbaycan arasında münasibətlər günbəgün genişlənir. Azərbaycan terrorizmə qarşı mübarizədə etibarlı tərəfdaşdır. Eyni zamanda, Azərbaycan Xəzərin enerji ehtiyatlarının tranziti baxımından vacib ölkədir. Amerika Azərbaycana böyük imkanları olan bir ölkə kimi baxır. Azərbaycan Prezidenti İlham Əliyev enerji sektoruna xarici sərmayələrin cəlb olunması üçün böyük işlər görmüş və nəticədə ölkəsinin bugünkü və gələcək inkişafının əsasını qoymuşdur. Rob Mosbeyker dedi ki, cənab İlham Əliyev Prezidentliyindən əvvəl, parlamentin deputatı və Baş nazir olarkən də xalqına sədaqətlə xidmət etmişdir.

Prezident İlham Əliyev qəbulda nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar, xanımlar və cənablar!

Sizi yenidən salamlayır və ABŞ-a səfərim ilə bağlı dərin məmnunluğumu bir daha ifadə edirəm.

Səfər artıq başa çatmaq üzrədir. Sabah ABŞ-ın Prezidenti, Vitse-prezidenti və müdafiə naziri ilə görüşlərim olacaqdır. Lakin artıq indidən deyə bilərəm ki, səfər çox uğurlu keçmişdir. Bu səfər qarşılıqlı maraq doğuran məsələlər üzrə fikir mübadiləsi aparmaq, ikitərəfli münasibətlərə yenidən nəzər salmaq, münasibətlərimizin gələcək perspektivləri barədə danışmaq üçün gözəl imkanlar yaratdı. Əminəm ki, indi strateji əhəmiyyətə malik olan ABŞ-Azərbaycan münasibətləri bundan sonra da inkişaf edəcək və həyatımızın, əməkdaşlığımızın bütün sahələrini əhatə edəcəkdir.

Bu səhər Amerika-Azərbaycan Ticarət Palatasının təşkil etdiyi konfransın açılışında olarkən mən keçmiş və gələcək barədə düşünürdüm. Keçən dövr ərzində böyük nailiyyətlər əldə edilmişdir. Ticarət palatasının on illik fəaliyyəti dövründə ABŞ və Azərbaycan iki müttəfiqə, dosta, regional və dünya əhəmiyyətli çox mühüm layihələrin həyata keçirilməsi üçün birgə çalışan ölkələrə çevrilmişlər.

Ümid edirəm ki, əməkdaşlığımız gələcəkdə də bu səviyyədə davam etdiriləcəkdir. Çünki əldə olunan nailiyyətlər yalnız başlanğıcdır. Bizim nəhəng enerji inkişafının, sadəcə, ilk mərhələsi gedir. Ölkələrimiz regional və qlobal təhlükəsizlik məsələləri, terrorizmlə mübarizə, Azərbaycanda iqtisadi və siyasi islahatların həyata keçirilməsi, regionumuzu daha təhlükəsiz və sabit etmək sahəsində əməkdaşlıq edir.

Xəzər hövzəsində enerji təhlükəsizliyi və enerji inkişafı məsələlərində ABŞ hökumətinin oynadığı rol həlledici olmuşdur. Ümid edirəm ki, bu rol gələcəkdə də davam etdiriləcəkdir. Belə ki, bu, bütün planlarımızın və ideyalarımızın həyata keçirilməsi üçün zəruridir. Bu planlar, ideyalar ilk baxışdan real görünməyə bilərdi. On il bundan qabaq bir çox insanlar Bakı-Tbilisi-Ceyhan boru kəmərinin reallığa çevriləcəyinə, Azərbaycanın "Şahdəniz" yatağından hasil ediləcək qazın Avropa istehlakçıları üçün əhəmiyyət kəsb edəcəyinə inanmırdılar. Bunları əvvəlcədən görmək çox çətin idi. Lakin bizim qarşımızda duran məqsədlərimiz var idi və bu məqsədlərə doğru birgə hərəkət edirdik. Əminəm ki, Azərbaycan və ABŞ-ın, tərəfdaşlarımız və müttəfiqlərimizin birgə səyləri regionda tamamilə fərqli bir vəziyyətin yaranmasına gətirib çıxaracaq, regionun ümumi inkişafına təsir göstərəcək, geniş siyasi islahatların həyata keçirilməsinə kömək edəcəkdir. ABŞ hökuməti bu məsələlərə böyük diqqət yetirir.

Eyni zamanda, Azərbaycanda da bu məsələlərə önəm verilir. Biz bunların həyata keçirilməsi üçün birlikdə çalışmalıyıq. Siyasi və iqtisadi islahatlar, enerji inkişafı sahəsində layihələr, regionu daha təhlükəsiz və sabit etmək istiqamətindəki birgə səylərimiz ikitərəfli əlaqələrimizin, regional sabitliyin və inkişafın elementləridir. Bütün bu məsələlərdə Azərbaycanın rolu getdikcə artır. Xəzər dənizinə xarici sərmayələrin cəlb edilməsi sahəsində öncül bir ölkə kimi Azərbaycanın fəaliyyəti regionda tamamilə yeni bir vəziyyətin yaranmasına gətirib çıxarmışdır.

Təsəvvür edin ki, 1994-cü ildə "Əsrin müqaviləsi" bağlanmasaydı və sonrakı dövrdə enerji layihələrinin inkişafında uğur əldə edilməsəydi, nə baş verə bilərdi?! Regiondakı bütün vəziyyət tamamilə fərqli olardı. Bu gün biz birgə səylərin nəticələrindən faydalanırıq. Biz xalqlarımız üçün daha yaxşı həyat şəraiti, bütün regionda sabitlik və firavanlıq yaratmaq naminə səylərimizi davam etdirmək əzmindəyik.

Cənubi Qafqaz regionu illər, əsrlər boyu müharibələrdən, hərbi əməliyyatlardan, münaqişələrdən əziyyət çəkmişdir. Bizim böyük mədəniyyətimiz, tariximiz, ənənələrimiz var, lakin əsrlər boyu müstəqilliyimizdən məhrum edilmişdik. Müstəqillik bizim üçün böyük məna kəsb edir. Bu, Azərbaycan xalqı üçün ən böyük dəyərdir. Bu müstəqilliyi necə dönməz və güclü etmək, ölkənin mövqeyini necə gücləndirmək olar? Bu məsələlərlə gündəlik məşğul olmalıyıq.

Tarixdən alınan dərslər bizim üçün önəmlidir. Ona görə də biz güclü dövlət qurmaq, insanların həyat səviyyəsini daha da yaxşılaşdırmaq, qanunun aliliyinə, bütün siyasi azadlıqlara və geniş demokratiyaya malik tam sərbəst cəmiyyətə nail olmaq üçün çox çalışmalı, dostlarımız və müttəfiqlərimiz ilə daim təmasda olmalıyıq. Bu baxımdan Ticarət Palatasının rolu çox önəmli olmuşdur. Onun fəaliyyəti bizə ABŞ-la əlaqələri yaxşılaşdırmaq, sözlərimizi çatdırmaq, ölkənin problemləri, istəklərimiz barədə məlumat vermək, birgə əməkdaşlıq imkanlarından istifadə etmək fürsəti vermişdir.

Mən Ticarət Palatası tərəfindən təşkil edilmiş bir çox konfranslarda iştirak etmişəm. Hər dəfə qarşımızda fərqli məsələlər dururdu. Lakin ümumi meyil heç zaman dəyişməmişdir: məqsəd ABŞ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, əməkdaşlıq üçün yeni əsasların yaradılması olmuşdur. İndi münasibətlərimizin necə inkişaf etdiyini görürük. On il bundan əvvəl gündəlikdə bir məsələ dururdusa, indi əməkdaşlığımız geniş aspektdə həyata keçirilərək energetika, təhlükəsizlik, siyasi və demokratik islahatlar, iqtisadiyyat, regional təhlükəsizlik sahələrini əhatə edir. Bütün bu məsələlərə dair bu gün ABŞ və Azərbaycan arasında açıq, səmimi və dostcasına müzakirələr aparılır və bizim fikirlərimiz üst-üstə düşür.

Ona görə də fürsətdən istifadə edərək, Ticarət Palatasının rəhbərliyini, palatanın işində fəal iştirak etmiş bütün insanları, onun tədbirlərini dəstəkləmiş və indi də dəstəkləyən bütün şirkətləri təbrik etmək istəyirəm. Bu, böyük nailiyyətdir. Bunu ona görə demirəm ki, palatanın yubileyidir və yaxşı sözlər söyləmək lazımdır. Bu, bir reallıqdır. Mən palatanın ABŞ-Azərbaycan ikitərəfli münasibətlərinə böyük töhfəsinin daim şahidi olmuşam.

ABŞ-la ikitərəfli münasibətlər Azərbaycan üçün prioritet xarakter daşıyır. Ölkəmizin mövqeyi çox açıq və səmimidir. Bu mövqeyə hər hansı bir təsir göstərmək və ya onu dəyişdirmək mümkün deyildir.

Biz siyasətimizi milli maraqlarımıza uyğun, əsl müstəqil dövlət kimi həyata keçiririk. Özünü müstəqil hesab etmək üçün, sadəcə, milli himnə və bayrağa malik olmaq kifayət deyildir. Elə ölkələr var ki, müstəqilliyin bu atributlarına malik olsalar da, müstəqil siyasət həyata keçirə bilmir. Biz sözün həqiqi mənasında müstəqil olduğumuz üçün çox xoşbəxtik və bundan qürur duyuruq. Bu istiqamətdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əməyi böyük olmuşdur. Onun səylərinin nəticəsidir ki, indi Azərbaycan öz milli maraqlarına uyğun siyasət həyata keçirə bilir. Bu siyasətin məqsədi ABŞ və Qərbdəki digər müttəfiqlərimiz ilə əlaqələri gücləndirməkdən ibarətdir. Biz əməkdaşlıq üçün açığıq, ölkəmizdə ən böyük sərmayədarlar olan ABŞ şirkətləri ilə yaxşı iqtisadi əməkdaşlıq göstəricilərimiz mövcuddur.

Hazırda Azərbaycanda daha yaxşı sərmayə mühiti yaratmaq istəyirik və əminik ki, bu gün keçirilmiş konfrans bu istiqamətdə mühüm rol oynayacaqdır. Konfransda iqtisadi və siyasi əməkdaşlığın müxtəlif aspektləri müzakirə edilmişdir və nəticələr çox müsbətdir.



Hesab edirəm ki, bir neçə aydan sonra konfransın real nəticələrini görəcəyik.

Son on ildə Ticarət Palatası ilə müxtəlif səviyyələrdə, hazırda isə suveren dövlətin Prezidenti kimi birgə fəaliyyət göstərməkdən şərəf duyuram. Nailiyyətlərin əldə olunması üçün birgə çalışdığımız dostlarımızı burada görməkdən çox məmnunam. Bir zamanlar xülya, əfsanə kimi görünən əməkdaşlıq səviyyəsi və layihələrimiz bu gün reallıqdır. Bu, o deməkdir ki, hər şeyə nail olmaq mümkündür. Xüsusilə çox mürəkkəb yerlərdə də həyata keçirilməsi qeyri-real, qeyri-mümkün hesab olunan layihələr gerçəkləşdirilə bilər. Bunun üçün sadəcə iradə, qətiyyət, cəsarət və əməkdaşlıq olmalıdır. Bütün bu cəhətlər bizdə var və münasibətlərimizi gələcəkdə də inkişaf etdirmək əzmindəyik.

Ümid edirəm ki, ABŞ ilə Azərbaycan arasında mövcud olan strateji tərəfdaşlıq yalnız xalqımıza deyil, bütün regiona fayda gətirəcəkdir. Region daha təhlükəsiz, daha sabit olacaq, nəhayət, ölkəmizdə və bütövlükdə regionda sülh bərqərar ediləcəkdir. Bu yubiley münasibətilə sizi bir daha təbrik edir, sizə xoşbəxtlik və uğurlar arzulayıram.

Çox sağ olun.

Azərbaycanın dövlət başçısının nitqi böyük diqqətlə dinlənildi və sürəkli alqışlarla qarşılandı.

Amerika-Azərbaycan Ticarət Palatasının həmsədri Ceremi Beyker dəyərli və uzaqgörən fikirlərə görə Azərbaycan Prezidentinə minnətdarlıq etdi. O, "Görkəmli rəhbərlik" adlı xüsusi mükafatı Prezident İlham Əliyevə təqdim edərək bildirdi ki, bu mükafat yalnız bir dəfə, palatanın fəaliyyətinin ilk ilində Prezident Heydər Əliyevə təqdim edilmişdir. İndi isə palata onun işinə verdiyi dəstəyə və Azərbaycana etdiyi gözəl rəhbərliyə görə Prezident İlham Əliyevi bu mükafata layiq görmüşdür.

Prezident İlham Əliyev mükafata görə təşəkkür edərək dedi ki, bu, mənim üçün çox dəyərli mükafatdır. Söz verirəm ki, gələcək fəaliyyətimdə də palatanı dəstəkləmək üçün əlimdən gələni edəcəyəm. Vaşinqtonda, ABŞ-ın digər şəhərlərində, bəlkə də Bakıda daha çox konfranslar keçiriləcək, sizinlə daha tez-tez görüşəcəyəm.

Türkiyənin İpək Yolu Vəqfinin fəxri üzvü

2003-cü il noyabrın 1-də Türkiyənin İpək Yolu Vəqfinin İdarə heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vəqfin fəxri üzvü seçilməsi barədə qərar qəbul etmişdir. İdarə heyəti bu qərarı qəbul edərkən vəqfin ənənələrinə əsaslanmış və Nizamnaməsinə uyğun olaraq Azərbaycanın dövlət başçısını özünün fəxri üzvü seçmişdir.

Vəqfin idarə heyətinin sədri doktor Hasan Moğolun bu barədə məktubunda deyilir ki, Azərbaycanın dövlət başçısı İlham Əliyev tarixi Böyük İpək yolunun bərpası sahəsində xidmətlərinə görə təşkilatın idarə heyətinin yekdilliklə qəbul etdiyi qərara əsasən bu fəxri ada layiq görülmüşdür.

Türkiyənin İpək yolu Vəqfinin "2004-cü ilin siyasətçisi" mükafatı

2005-ci il fevralın 28-də Türkiyənin İpək Yolu Vəqfinin İdarə heyəti Azərbaycan Respublikasının Prezidenti, vəqfin fəxri üzvü İlham Əliyevə "2004-cü ilin siyasətçisi" mükafatının verilməsi haqqında qərar qəbul etmişdir.

Vəqfin bununla bağlı mətbuat üçün bəyanatında deyilir ki, Prezident İlham Əliyev Azərbaycanın işğal altındakı ərazilərinin azad edilməsi üçün göstərdiyi qətiyyətə, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin tamamlanmasındakı iradəsinə, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin gerçəkləşdirilməsindəki əzmkarlığına, Böyük İpək Yolunun canlandırılması sahəsində səyləri davam etdirməsinə, Prezident Heydər Əliyevin dünyada yüksək qiymətləndirilən siyasətini inkişaf etdirərək Azərbaycanın gələcəyinə təminat yaratmasına, "Bir millət, iki dövlət" kəlamını rəhbər tutmaqla Türkiyə ilə əlaqələrin və əməkdaşlığın davamlı inkişafında qətiyyətli fəaliyyətinə görə bu ada layiq görülmüşdür.

Türkiyənin "Ekovitrin" jurnalının "Avrasiyada ilin siyasət adamı" mükafatı

2006-cı il iyulun 12-də Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə İstanbulun "Qrand cəvahir" mehmanxanasında bu ölkənin ən nüfuzlu media qruplarından biri olan "Ekovitrin" jurnalının "Avrasiyada ilin siyasət adamı" mükafatı təqdim edilmişdir.

"Ekovitrin" media qrupu iqtisadiyyat sahəsində müxtəlif proqramlar hazırlayaraq, Türkiyənin televiziya kanallarında nümayiş etdirir, ölkənin iqtisadi uğurlarını həm türk, həm də dünya ictimaiyyətinə çatdırır. Bu media qrupunun 2000-ci ildən buraxılan "Ekovitrin" aylıq jurnalı nüfuzlu əməkdaşları, ətraflı materialları sayəsində Türkiyənin ən sanballı nəşrlərindən birinə çevrilmişdir. Türkiyə ilə yanaşı, Asiya regionunda da geniş yayılan "Ekovitrin" jurnalı ənənəvi olaraq iqtisadiyyat, biznes, sənaye, ixracat, maliyyə, investisiya, siyasət və yerli idarəçilik sahələrində ilin adamlarını seçir. 2005-ci ildə Türkiyədə və xaricdə yaşayan 9 minə yaxın oxucunun iştirakı ilə keçirilən sorğunun nəticələrinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Avrasiyada ilin siyasət adamı" elan olunmuşdur. Azərbaycan Prezidenti bu mükafata bir sıra sahələrdə səmərəli fəaliyyətinə və qazandığı uğurlara görə layiq görülmüşdür.

Mərasimi "Ekovitrin" media qrupunun rəhbəri Kamuran Abacıoğlu açdı.

"Ekovitrin" media qrupunun rəhbəri Kamuran Abacıoğlunun çıxışı

- Hörmətli Prezidentim!

Hörmətli Baş nazir müavinləri, hörmətli İslam Konfransı Təşkilatının Baş katibi!

Dəyərli qonaqlar və hörmətli mətbuat nümayəndələri!

Mən qısa çıxış edəcəyəm. Bir ingilis yazıçısı demişdir ki, xoşbəxt olmağın ən yaxşı yolu bir insanı xoşbəxt etməkdir. Mən inanıram ki, hazırda bu salonda olanların hamısı çox xoşbəxtdirlər. Xoşbəxtliyi birlikdə bölüşdüyümüz üçün qürur hissi keçiririk. 14 ildir ki, müstəqil qəzetçilik anlayışı ilə öncə Anadolu aslanlarını, daha sonra avropalı türkləri, sonra Orta Asiyada uğur qazanan türkləri, Amerikadakı, Uzaq Şərqdəki türkləri, dünyanın harasında türk varsa, onların uğurlarını Türkiyədəki, demək olar ki, bütün televiziyaların ekranlarından türk və dünya insanlarına çatdırmağa çalışdırıq. Öz yolumuzdan heç vaxt sapmadan, müsbət düşüncələri əsas götürərək, tənqidləri ancaq konstruktiv şəkildə səsləndirmək şərti ilə proqramlarımızı və "Ekovitrin" jurnalımızın fəaliyyətini davam etdiririk. Bu il "Ekovitrin"in ilin ulduzları mükafatı 5-ci dəfə təqdim edilir. Qarşıdakı illərdə mühüm bir hədəfimiz var. Bu mərasimi beynəlxalq qlobal problemlərin müzakirə ediləcəyi, Türkiyənin gələcəyinə nəzər salan bir foruma çevirməyi ürəkdən arzulayırıq və bunu həyata keçirəcəyimizə inanırıq. Mən bu hisslərlə hamınıza "Xoş gəlmisiniz!" deyir, hörmət və ehtiramlarımı çatdırıram.

Sonra "Ekovitrin" jurnalının baş redaktoru Şərəf Özataya söz verildi.

"Ekovitrin" jurnalının baş redaktoru Şərəf Özatayanın çıxışı

- Hörmətli Prezident!

Hörmətli Baş nazir müavinləri, hörmətli nazirlər, səfirlər, İslam Konfransı Təşkilatının dəyərli Baş katibi!

Hörmətli mətbuat nümayəndələri və qonaqlar!

"Ekovitrin"in ənənəvi ilin ulduzları mərasiminə hamınız xoş gəlmisiniz. "Ekovitrin" jurnalı işıq üzü gördüyü 2000-ci ildən bu yana toxunduğu iqtisadi mövzular və xüsusi materiallar ilə

mətbuatda özünəməxsus bir yer tutdu. Jurnal qısa bir müddət ərzində Türkiyənin sərhədlərini aşaraq, Avropadan Orta Asiya türk cümhuriyyətlərinə qədər uzanan geniş bir coğrafiyada iqtisadi əlaqələrin inkişafına mühüm töhfələr vermişdir. Prodüserlərimizin hazırladıqları və müxtəlif yerli kanallarda nümayiş etdirilən proqramlarımız ən mühüm yerli və xarici film və seriallarla rəqabət apardı, ən çox baxılan 100 proqram arasına daxil oldu. İndi daha geniş kütlələrə öz sözümüzü demək üçün peyk vasitəsilə yayımlanacaq tematik bir televiziya layihəmiz üçün mühüm addımlar atmağa başlamışıq. "Ekovitrin"in məzmununu zənginləşdirməklə yanaşı, qarşıdakı aylarda Türkiyənin ilk beynəlxalq jurnalını türk və ingilis dillərində dərc etməyə başlayacağıq. Eyni zamanda, xarici bir yayım qrupu ilə apardığımız danışıqlar nəticəsində güclü xarici sərmayə dəstəyi əldə edirik. "Ekovitrin"ə dəstək verən bütün dostlarımıza, əməkdaşlarımıza minnətdarlığımı bildirirəm. Hamınız xoş gəlmisiniz.

Sonra Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gül çıxış etdi.

Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gülün çıxışı

- Hörmətli Prezident İlham Əliyev!

Hörmətli qonaqlar!

Bu gün, həqiqətən, mühüm bir görüşdür. Bu görüşün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimi ərəfəsinə təsadüf etməsi böyük bir məna daşıyır. Bu baxımdan Kamuran bəy başda olmaqla, "Ekovitrin"in bütün əməkdaşlarını təbrik edirəm. Bu təşəbbüslərin, toplantıların daimi olacağını gördük. Gözəl bir platformadır. Bu platformada Türkiyənin və dünyadakı bütün türklərin uğurları təbliğ edilir. Bunun üçün də daim təşviqedici, uğurları daim ön plana çıxarılan platformalardan biridir. Bu münasibətlə sizi təbrik edirik.

Hörmətli Prezidentin bu toplantını şərəfləndirməsi, şübhəsiz, buna ayrı bir dəyər əlavə etmişdir. Buradakı bütün qonaqlar adından hörmətli Prezidentə təşəkkür edirəm. Cənab Prezident bu axşam və sabah bir çox mühüm toplantılarda iştirak edəcəkdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, həqiqətən, əsrin ən mühüm layihələrindən biridir. Sadəcə, Qafqaz neftinin Aralıq dənizi vasitəsilə ixrac edilməsi ilə kifayətlənilməyəcəkdir. Bir müddət əvvəl hörmətli Prezident İlham Əliyevin Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə imzaladıqları müqaviləyə əsasən, Qazaxıstan nefti bu kəmərlə bütün dünyaya ixrac ediləcəkdir. Bu, çox böyük bir uğurdur. Bildiyiniz kimi, Bakı-Tbilisi-Ərzurum qaz kəməri də inşa edilir. İnşallah bu ilin axırına qədər başa çatdırılacaqdır. Bu da xüsusi strateji əhəmiyyət daşıyan bir layihədir. Əminəm ki, bu kəmər vasitəsilə "Şahdəniz" qazı ilə yanaşı, Orta Asiyanın qaz ehtiyatları da ixrac ediləcək və bütün bu uğurları birlikdə görəcəyik.

Bu mərasimi təşkil edənlərə təşəkkür edirəm. Burada iştirak etdiyi üçün hörmətli Prezidentə ehtiramlarımı bildirirəm. Sağ olun.

Sonra Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri **Abdullah Gül** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Avrasiyada ilin siyasət adamı" mükafatını təqdim edərək dedi:

- Doğrusu, bu mükafatı təqdim etmək mənim üçün böyük bir şərəfdir. Hörmətli Prezident Azərbaycana çox böyük məharətlə rəhbərlik edir. Seçkilərdən sonra Azərbaycan çox böyük sıçrayışlar edir. Bir tərəfdən, iqtisadi uğurlar qazanır, digər tərəfdən isə, Avropa Şurasının bir üzvü olan Azərbaycan demokratiya sahəsində də sürətlə inkişaf edir. Bunları prioritet sahələr kimi gördüyünüz üçün Sizi türk milləti adından, bütün türklər adından təbrik edirik. Türkiyənin bütün gücü, bütün dəstəyi Azərbaycanın arxasındadır. Bu ölkənin uğurları bizim üçün böyük bir qürur mənbəyidir. Bütün türk milləti bundan böyük sevinc hissi keçirir. İnanırıq ki, qarşıdakı illərdə Azərbaycanın bir çox uğurlarına birlikdə şahid olacağıq. Bütün türk milləti adından Sizi bir daha təbrik edirəm.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar, əziz bacı-qardaşlarım!

Bu gün mənim üçün çox gözəl bir gündür, çox həyəcanlı bir gündür. Mən yüksək mükafata layiq görüldüm və bu gün əziz dostum, hörmətli Abdullah Gül bu gözəl mükafatı mənə təqdim etdi. Bu, bir tərəfdən, mənim xidmətlərimin tanınması deməkdir, digər tərəfdən və bəlkə də, ən önəmlisi isə, Azərbaycanın son illər ərzində uğurlu inkişafından irəli gəlir. Həqiqətən, bizim ölkəmiz çox qısa müddət ərzində çox böyük inkişaf yolunu keçmişdir. Əgər nəzərə alsaq ki, yalnız 15 il bundan əvvəl Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi və müstəqil ölkə kimi fəaliyyətə başladı, onda görərik ki, bu qısa müddət ərzində ölkəmiz çox böyük sınaqlardan şərəflə çıxdı. 1991-ci ildə Sovet İttifaqı dağılanda Azərbaycan başqa sovet respublikaları ilə müqayisədə, bəlkə də, ən ağır durumda, ən çətin vəziyyətdə idi. Çünki ölkədə hökm sürən böhran, demək olar ki, bütün sahələri iflic vəziyyətinə salmışdı. Azərbaycanda iqtisadiyyat böyük sürətlə tənəzzülə uğrayırdı, siyasi proseslər böyük gərginliklər yaratmışdı, vətəndaş qarşıdurması artıq reallığa çevrilmişdi, insanların həyat səviyyəsi günü-gündən pisləşirdi. Beləliklə, ölkənin müqəddəratı sual altında idi. Əgər Ermənistanın Azərbaycana təcavüzünü də əlavə etsək, görərik ki, vəziyyət çox acınacaqlı idi.

Azərbaycanın uğurlu inkişafı məhz 1993-cü ildən sonra başlanmışdır. 1993-cü ildə Azərbaycan xalqı öz liderinə üz tutdu, Heydər Əliyevi hakimiyyətə dəvət etdi və ondan sonra Azərbaycanda vəziyyət normallaşdı, sabitləşdi. Siyasi proseslər normal məcraya düşdü, iqtisadi tənəzzülün qarşısı alındı və tədricən inkişaf başlandı. Bu inkişaf bütün sahələri əhatə etməyə başladı, Azərbaycan dünya birliyində özünə layiq yerini tutdu. Azərbaycanda aparılan cəsarətli iqtisadi islahatlar qısa müddət ərzində ölkə iqtisadiyyatına böyük təkan verdi. 1996-cı ildən 2003-cü ilə qədər Azərbaycanın iqtisadiyyatı ildə təxminən 10 faiz artırdı. 2004-cü ildən sonra isə bu artım daha da yüksək olmuşdur.

Azərbaycanda siyasi proseslər normallaşdı, demokratikləşmə prosesləri daha da geniş vüsət aldı. Söz azadlığı, fikir azadlığı, azad cəmiyyətin yaranması, qanunun aliliyinin bərpa olunması - bütün bunlar hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Bu gün Azərbaycanın uğurlu inkişafı onu göstərir ki, seçdiyimiz yol düzgün yol olmuşdur.

Keçən iki il ərzində Azərbaycan iqtisadiyyatı daha da sürətlə inkişaf etdi. 2005-ci ildə iqtisadi artım 26 faiz, 2006-cı ilin 5 ayı ərzində təxminən 40 faiz olmuş, sənaye istehsalı 43 faiz artmışdır. Azərbaycanda son iki il yarım ərzində 400 mindən çox yeni iş yeri açılmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı 20 faiz azalmışdır. Əhalinin gəlirləri 25 faiz artmışdır. Bu iqtisadi göstəricilər özlüyündə sübut edir ki, Azərbaycanın iqtisadi cəhətdən möhkəmlənməsi artıq reallıqdır. Nəzərə alsaq ki, bizim əsas iqtisadi nailiyyətlərimiz hələ irəlidədir, görərik ki, qısa müddət ərzində Azərbaycan iqtisadi cəhətdən çox inkişaf etmiş zəngin dövlətə çevriləcəkdir. Bu da bizim məqsədimiz, amalımızdır. Biz istəyirik ki, ölkəmiz daha da möhkəmlənsin, müasirləşsin, yeniləşsin, iqtisadi cəhətdən qüdrətlənsin və insanlarımız daha da yaxşı yaşasınlar.

Sabah biz tarixi mərasimi birlikdə keçirəcəyik. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimi sabah Ceyhanda nəzərdə tutulubdur. Bu, böyük bir tarixi hadisədir. Dünyanın ən böyük enerji layihəsidir.

Bu layihə təkcə bizə iqtisadi gəlirlər deyil, eyni zamanda, bölgəyə sülh, sabitlik gətirəcək, təhlükəsizlik tədbirləri daha da möhkəmlənəcək və bu layihədə iştirak edən bütün ölkələrdə yaşayan insanlar bu işdən çox böyük fayda götürəcəklər. Türkiyə, Gürcüstan, Azərbaycan artıq beynəlxalq müstəvidə bu böyük enerji layihəsini və siyasi layihəni həyata keçirməklə bütün dünyaya sübut etmişlər ki, əgər birlik olsa, qarşılıqlı inam olsa və münasibətlər düzgün qurularsa, istənilən məsələ öz həllini tapa bilər. Bəziləri Bakı-Tbilisi-Ceyhan layihəsini bir əfsanə kimi qəbul edirdilər. İnanmırdılar ki, bu, reallaşa bilər, gerçəkləşə bilər. Amma həm siyasi, həm iqtisadi baxımdan çox çətin, ağır şəraitdə olsa da, bu, reallaşdı, gerçəkləşdi. Əgər kəmərin keçdiyi əraziyə nəzər salsaq görərik ki, orada çox böyük texniki çətinliklər də mövcud idi. Dağlar, çaylar - bu, böyük bir səfərbərlik tələb edirdi və biz bunu etdik. Biz bu əfsanəni gerçəyə çevirdik. Nəyin hesabına? Ortaya güclü iradə, iqtisadi imkanlar qoyuldu, beynəlxalq maliyyə qurumları bu işə maraq göstərdilər və öz üzərinə maliyyə öhdəlikləri götürdülər. Bir də ki, üç ölkənin cəsarətli siyasəti. Sabah qeyd edəcəyimiz mərasim, əminəm ki, bu bölgənin uzunmüddətli inkişaf yollarını müəyyən edəcəkdir. Xalqlarımız bundan fayda götürəcək, bizim dövlətlərimizin bölgədə və dünyada önəmi artacaq, bir sözlə, Türkiyə və Azərbaycan daha da böyük imkanlara malik olacaqdır.

Bunun ardınca gələn "Şahdəniz" layihəsi də çox böyük strateji əhəmiyyət daşıyır. Bəlkə də, bir neçə il bundan əvvəl onun strateji əhəmiyyəti o qədər də dərk olunmurdu. Amma son müddət ərzində hamı üçün aydın oldu ki, bu layihə böyük əhəmiyyət daşıyır. Biz bu ilin sonuna qədər onu gerçəkləşdirəcəyik və Azərbaycan qazı Türkiyəyə və ondan sonra başqa ölkələrə nəql ediləcəkdir.

Bu, bir daha onu göstərir ki, bizim işlərimiz düzgün qurulur. Bizim bütün siyasətimiz, atdığımız bütün addımlar bir məqsədi güdür - ölkəmizi gücləndirmək, zənginləşdirmək. Azərbaycanın mövqelərini möhkəmləndirmək və bölgədə sülh, barış içində yaşamaq. Bu məsələdə Türkiyə-Azərbaycan birliyi ən böyük əhə-

miyyət daşıyan bir amildir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Türkiyə dərhal onu müstəqil dövlət kimi tanıdı və ondan sonra Azərbaycandan öz yardımını əsirgəmədi, ona öz əlini uzatdı. Biz bu yardımı hiss edirik. Həmişə hiss etmişik, xüsusilə müstəqilliyimizin ilk illərində, Azərbaycan çox çətin vəziyyətdə olarkən. Bu gün də bu dəstək bizim üçün çox önəmlidir. İndi Türkiyə və Azərbaycan bir-birinə dəstək verərək bölgədə, dünyada öz mövqelərini möhkəmləndirir. Bizi birləşdirən enerji layihələri, müştərək tariximiz, milli köklərimiz, eyni baxışlarımız, birliyimizdir. Budur ölkələrimizin inkişafını, gələcəyini müəyyənləşdirən amillər.

Bu gün İstanbulun gözəl yerlərindən biri olan Sarıyer rayonunda ulu öndər Heydər Əliyevin abidəsinin açılışı olmuşdur. Bu, böyük hadisədir və mən orada çıxış edərkən bir daha Heydər Əliyevin o məşhur kəlamını xatırlatdım: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir!". Bu, həm həqiqətdir, çünki doğrudan da belədir, eyni zamanda, bu, bizim siyasətimizdir. Bu siyasət yaşayır və yaşayacaqdır. Bizim xoşbəxtliyimiz, normal yaşamağımız bundan asılıdır. Biz bu gün bir-birimizə çox yaxınıq. Demək olar ki, Türkiyə-Azərbaycan münasibətləri indi ən yüksək zirvədədir. Biz gərək bunu qoruyaq, bunu yeni formalarla daha da zənginləşdirək, yeni işbirliyi layihələri üzərində işləyək ki, bu meyllər davam etsin.

Türkiyə-Azərbaycan birliyindən artıq bölgədə çox şeylər asılıdır. Əlbəttə ki, Avropada müəyyən işlər asılı olacaqdır və getdikcə bizim önəmimiz artacaqdır. Azərbaycan nefti artıq Türkiyə limanına çatdırılıbdır. İki ildən, üç ildən sonra Azərbaycan ildə 65 milyon ton neft hasil edəcəkdir. Bu, çox böyük rəqəmdir. Bu gün hörmətli nazir Abdullah Gül qeyd elədi ki, artıq Qazaxıstanla Azərbaycan arasında müqavilə imzalanıb və Qazaxıstan neftinin də bu yolla nəql edilməsi, təbii ki, kəmərin işinə daha da böyük dəstək verəcəkdir. Biz gələcəkdə əlavə neftin daşınması haqqında düşünürük və bu, gerçəklik ola bilər. Biz indi bu işlər üzərində çalışırıq.

Bakı-Tbilisi-Qars dəmir yolunun yaranması işində biz Türkiyə ilə çox fəal çalışırıq və əminəm ki, bu layihəni də biz həyata keçirəcəyik. Əgər bu olarsa, onda Türkiyə Azərbaycanla dəmir yolu ilə birləşəcək, Türkiyə Orta Asiya ilə dəmir yolu ilə birləşəcək, Orta Asiya Avropa ilə birləşəcəkdir. Bu, dəmir yolu həm Azərbaycanı Türkiyə ilə birləşdirəcək, eyni zamanda, Avropanı Asiya ilə birləşdirəcəkdir. Yəni bu layihənin çox böyük əhəmiyyəti var. Bütün bu işlərin mərkəzində Türkiyə və Azərbaycan dayanır. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə həyata keçirilə bilməz.

Biz bütün layihələrin fəal iştirakçıları, onların təşəbbüskarıyıq və belə olan halda, əlbəttə ki, dünyada bizim çəkimiz artacaqdır. Türkiyənin uğurları bizi çox sevindirir, bizi daha da ruhlandırır. Eyni zamanda, bilirəm ki, Azərbaycanın uğurlu inkişafı türk qardaşlarımıza da böyük sevinc gətirir. Bizim birliyimiz bizim gələcəyimizdir.

Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır və mən şübhə etmirəm ki, gələcəkdə bu meyllər ancaq və ancaq güclənəcəkdir. Amma bununla yanaşı, problemlər də az deyildir. İlk növbədə, bu, Azərbaycanın torpaqlarının işğal altında qalmasıdır. Bilirsiniz ki, uzun illərdir Azərbaycan xalqı bu işğaldan, Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasətindən əziyyət çəkir. Bir milyondan artıq qaçqın-köçkünümüz var, torpaqlarımızın 20 faizi işğal altındadır. Ermənistanın qeyri-konstruktiv mövqeyi imkan vermir ki, bu məsələ sülh yolu ilə həll olunsun. Azərbaycan öz hərəkətləri ilə, öz siyasəti ilə artıq sübut edib ki, biz sülh prosesinə sadiqik. Baxmayaraq ki, 12 ildir atəşkəs rejimi elan olunub, danışıqlar aparılır, ancaq bunun heç bir nəticəsi yoxdur. Yəni bu 12 il ərzində Azərbaycan özünü kifayət qədər konstruktiv göstərib, öz sülh məramını ifadə edib və artıq bu, reallıqdır. Amma biz nə vaxta qədər gözləməliyik? Bizim səbrimiz əbədi deyil, tükənməz deyildir. Biz bütün imkanlardan istifadə etməliyik. Siyasi, diplomatik, iqtisadi, hərbi - bütün imkanlardan. Bu gün Azərbaycanın artan imkanları deməyə əsas verir ki, biz Qarabağ məsələsini də öz xeyrimizə həll edəcəyik, ədalətli həll edəcəyik və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Əziz dostlar, əziz bacılar və qardaşlar, bu yüksək mükafatı mənə verdiyiniz üçün sizə bir daha təşəkkürümü bildirirəm, bir daha qardaş Türkiyədə olmağımdan öz məmnunluğumu bildirmək istəyirəm və bütün türk xalqına dərin hörmət və məhəbbətimi ifadə edirəm. Çox sağ olun!

Azərbaycan Prezidentinin nitqi böyük diqqətlə dinlənildi və hərarətli alqışlarla qarşılandı.

Prezident İlham Əliyev "Ekovitrin" jurnalının "Türkiyədə ilin iş adamı" və " Türkiyədə ilin iş qadını" adına layiq gördüyü şəxslərə mükafatları təqdim etdi və onlarla xatirə şəkli çəkdirdi.

İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumunun mükafatı

2006-cı il sentyabrın 3-də Türkiyədə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə İslam Konfransı Təşkilatının (hazırda - İslam Əməkdaşlıq Təşkilatı) Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumunun mükafatı təqdim edilmişdir.

Mükafat təşkilatın İstanbul Dünya Ticarət Mərkəzində yerləşən Daimi qərargahının təntənəli açılış mərasimində təqdim olunmuşdur.

Forumun prezidenti Əli Sarıkaya və baş katibi Elşad İsgəndərov ali qonaqlara məlumat verdilər ki, 2005-ci ilin iyununda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin Yəmənin paytaxtı Sənada keçirilən iclası zamanı Foruma üzv qurum statusu verildikdən sonra, həmin ilin dekabrında Türkiyə hökuməti Sənа qətnaməsinin tələblərinə uyğun olaraq, təşkilat üçün İstanbul Dünya Ticarət Mərkəzində daimi əsaslarda fəaliyyət göstərən qərargah verilməsi haqqında qərar qəbul etmişdir.

Həmin il sentyabrın 3-də Forumun Daimi qərargahının açılış mərasimini birgə keçirmək üçün Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın adından Azərbaycan Prezidenti İlham Əliyevə dəvət göndərilmişdir. Tədbirdə həmçinin İslam Konfransı Təşkilatının Baş katibi, İKT-nin üzvü olan, habelə Avropanın bir sıra ölkələrinin hökumət nümayəndələri, BMT, Avropa Şurası, İSESKO və digər beynəlxalq təşkilatların təmsilçiləri iştirak edirdilər.

İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu ilə İstanbul Dünya Ticarət Mərkəzi arasında Daimi qərargah haqqında saziş imzalandı, qərargahın rəmzi açılışını bildirən lent kəsildi, iştirakçılar onunla tanış oldular.

Fasilədən sonra mərasim İstanbulun Dolmabaxça sarayında davam etdirildi.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin Sədri Büləndd Arınç, Pakistanın Baş naziri Şövkət Əziz, İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlu, habelə digər yüksək vəzifəli qonaqlar iştirak edirdilər.

Əvvəlcə müqəddəs Qurani-Kərimdən ayələr oxundu.

Forumun prezidenti Əli Sarıkaya, baş katibi Elşad İsgəndərov Forumun yaranma tarixindən, gördüyü işlərdən, gələcək planlarından danışdılar. Bildirildi ki, İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu Azərbaycan gənclərinin təşəbbüsü və Azərbaycan hökumətinin dəstəyi ilə 2004-cü ilin dekabrında Bakı şəhərində təsis edilmişdir. Təşkilat İKT-yə üzv olan 35 ölkədə fəaliyyət göstərən 40-dək aparıcı gənclər təşkilatını özündə birləşdirir. Xarici işlər nazirlərinin 33-cü konfransının qərarı ilə İKT-nin son 20 illik tarixində ilk dəfə olaraq bu Foruma təşkilatın üzv qurumu statusu verilmişdir. Forumun fəaliyyətinin əsas istiqamətləri sırasında İKT ölkələrinin üzləşdiyi işğal, təcavüzlər haqqında həqiqətlərin dünyada geniş yayılması mühüm yer tutur. Bu ilin iyun ayında Forum İKT ölkələrində yaymaq məqsədi ilə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti haqqında ilk dəfə olaraq ərəb dilində "Qarabağ: faktlar və nəticələr" adlı kitabı çap etdirmiş və İKT xarici işlər nazirlərinin Bakı konfransı zamanı onun beynəlxalq təqdimatını keçirmişdir.

İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri Kadir Topbaş, İKT-nin Baş katibi Ekmələddin İhsanoğlu, Türkiyə Böyük Millət Məclisinin Sədri Büləndd Arınç, İKT-nin üzvü olan digər ölkələrin rəsmi nümayəndələri belə bir forumun keçirilməsinin xüsusi əhəmiyyətini vurğuladılar. Bildirildi ki, qloballaşan dünyada müxtəlif sahələrdə ölkələrarası əlaqələri inkişaf etdirməyə bu gün həmişəkindən daha çox ehtiyac vardır. Gənclərin əməkdaşlıq naminə

bir araya gəlməsi zamanın tələbidir. Natiqlər müasir dünyada islam ölkələrinin üzləşdiyi problemlərin həllində Forumun qarşısında duran vəzifələrdən də danışdılar.

Pakistanın Baş naziri Şövkət Əziz bildirdi ki, gələcək dünyanın sağlam müstəvidə inkişafı həm də gənclər arasında qurulacaq möhkəm işbirliyindən asılıdır. O, ayrı-ayrı bölgələrdə baş verən münaqişələrlə, Yaxın Şərqdəki vəziyyətlə bağlı ölkəsinin mövqeyini də açıqladı və dedi ki, Pakistan bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir, terror hadisələrini qətiyyətlə pisləyir. Pakistanın Baş naziri Forumun fəaliyyətinə bundan sonra da kömək göstəriləcəyini bildirdi.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin bu tədbirin baş tutmasını dəstəkləməsinin xüsusi əhəmiyyət daşıdığını bildirdi. O dedi ki, ilk gündən bu Forumun yaradılmasını dəstəklədiyinə görə dəyərli qardaşım, dost Azərbaycanın hörmətli Cümhurbaşqanı İlham Əliyevə hamınızın qarşısında öz adımdan, ölkəm, millətim və gənclər adından dərin təşəkkürümü bildirirəm. Baş nazir vurğuladı ki, milli, bəşəri dəyərlərlə zəngin olan islam mənəviyyatı dünyada sülh tərəfdarıdır. Yalnız sülh, əməkdaşlıq və dialoq narahat dünyanın sabahına təminat verə bilər.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli Türkiyə Böyük Millət Məclisinin Sədri!

Hörmətli Baş nazirlər!

Əziz qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, qardaşım, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana məni Gənclər Forumunun açılış mərasiminə dəvət etdiyinə görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Doğma Türkiyədə yenidən olmağımdan çox böyük məmnunluq hissi keçirirəm.

Mən buraya gələrkən ay yarım bundan əvvəl Türkiyədə baş vermiş buna bənzər mərasimi xatırladım. Ay yarım bundan əvvəl biz İstanbulda, boğazda və ondan sonra Ceyhanda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsini bərabər qeyd edirdik. Bu gün isə İslam Konfransı Təşkilatı Gənclər Forumunun açılış mərasimini qeyd edirik. Bəlkə də bu iki hadisə arasında bilavasitə bağlantı yoxdur. Ancaq mən hesab edirəm ki, iki hadisənin qısa müddət ərzində baş verməsi çox böyük rəmzi xarakter daşıyır.

Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin fəaliyyətə başlaması bizim iqtisadi gücümüzü, bölgədəki mövqelərimizi daha da möhkəmləndirəcəkdir. Bizi bir-birimizə daha da sıx bağlayacaq və nəticədə ölkələrimizin iqtisadi və siyasi çəkisi artacaqdır. İslam Konfransı Təşkilatı Gənclər Forumunun uğurlu fəaliyyəti, eyni zamanda, humanitar sahədə bizim mövqelərimizi daha da möhkəm edəcəkdir. Sirr deyil ki, möhkəm iqtisadiyyat, güclü potensial hər bir işin görülməsi üçün əsas şərtdir və möhkəm zəmindir. Bu gözəl möhkəm zəmində biz maddi dəyərləri insani dəyərlərə çevirməliyik. Bu baxımdan İslam Konfransı Təşkilatı Gənclər Forumunun fəaliyyətə başlaması çox böyük əhəmiyyət kəsb edir və hesab edirəm ki, bu, müsəlman aləmində son illər ərzində baş vermiş hadisələrdən çox önəmlisidir.

Təşkilat fəaliyyətə çox uğurla başlamışdır. Qısa müddət ərzində bütün təşkilatı məsələlər öz həllini tapmış və artıq Gənclər Forumu çox fəal işlərə başlamışdır. Bu gün Forumun fəaliyyəti və gələcək planları haqqında burada kifayət qədər söhbət açıldı. Çox gözəl proqramlar var, planlar var. Mən şübhə etmirəm ki, bütün planlar həyata keçiriləcəkdir. Bununla bərabər, qeyd etmək istəyirəm ki, müsəlman gənclərinin birgə fəaliyyəti bizim gələcəyimiz üçün də çox önəmli əhəmiyyət daşıyan məsələdir.

İslam Konfransı Təşkilatına üzv olan ölkələrin əhalisinin böyük hissəsini gənclər təşkil edir. Gənclər cəmiyyətin ən fəal təbəqəsidir və böyük qüvvədir. Bizim ölkələrimizin gənclərinin indidən bir-biri ilə təmasda olması, əlbəttə ki, gələcəkdə fəaliyyətimizi daha da yüksək pilləyə gətirib çıxaracaqdır. İslam həmrəyliyinin möhkəmlənməsinə çox mühüm töhfəsini verəcəkdir. Biz özümüzü dünyaya daha da geniş şəkildə, olduğumuz kimi təqdim etməliyik. Bəzi hallarda islam ölkələri və islam dini haqqında dünyada çox yanlış və deyə bilərəm ki, təhlükəli rəylər formalaşdırılır. Biz belə cəhdlərin bəzən bilərəkdən, bəzi hallarda bilməyərəkdən edildiyini müşahidə edirik, amma bu, faktdır. Biz özümüzü təqdim etməliyik, dünyaya nümayiş etdirməliyik ki, islam dini sülh dinidir. İslamı heç vaxt terrorla eyniləşdirmək olmaz. Terrora biz məruz qalmışıq.

Azərbaycanda 1990-cı illərin əvvəllərində erməni terrorist təşkilatları tərəfindən 30-dan yuxarı terror aktı törədilmişdir və onların nəticəsində 2 mindən çox günahsız insan həlak olmuşdur. Azərbaycan uzun illərdir ki, Ermənistan tərəfindən təcavüzə məruz

qalmışdır. İşğal olunmuş torpaqlarda bizim bütün tarixi abidələrimiz dağıdılıbdır. Məscidlərimiz, məktəblərimiz, tarixi binalarımız yerlə-yeksan edilibdir. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycana qarşı təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altında qalır və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın-köçkün şəraitində yaşayır. Bütün bunlar reallıqdır, faktlardır. Biz həmişə terrora məruz qalmış tərəfik. Biz istəyirik ki, ədaləti bərpa edək. İstəyirik ki, ərazi bütövlüyümüzü bərpa edək və buna nail olacağıq. Çünki beynəlxalq hüquq normaları, haqq-ədalət bizim tərəfimizdədir. Biz daha da fəal olmalıyıq, bütün imkanlardan istifadə etməliyik. Siyasi, iqtisadi, diplomatik, bütün başqa imkanlardan istifadə edib ədaləti bərpa etməliyik. Bu işlərdə gənclərin rolu çox böyükdür.

Mən böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, artıq qısa müddət ərzində Gənclər Forumunun təşəbbüsü ilə Qarabağ münaqişəsinə dair kitab çapdan çıxmışdır və ilk dəfə olaraq, ərəb dilinə də tərcümə edilmişdir. Yəni bu, onu göstərir ki, Forumun fəaliyyəti artıq praktik nəticələrə gətirir. Bu, çox təqdirəlayiq bir hadisədir. Bütövlükdə, gənclərin təşkilatlanması, maarifləndirilməsi bütün islam dünyası üçün çox böyük önəmli məsələdir. Bizim gənclərimiz dünyada gedən bütün proseslərdə fəal iştirak etməlidirlər. Bütün mütərəqqi işlərdə fəal iştirak etməlidirlər. Yaxşı təhsil almalı, yaxşı oxumalıdırlar. Mövcud olan bütün yeni texnologiyalara yiyələnməlidirlər.

Biz Azərbaycanda bu məsələyə böyük diqqət göstəririk. Azərbaycanın bütün orta məktəblərində kompyuter sinifləri yaradılır və onlar birbaşa internetə qoşulacaq ki, gənclərimiz, uşaqlarımız dünyada gedən bütün prosesləri izləsinlər və bu proseslərin iştirakçıları olsunlar. Biz yeni, güclü gənc nəslin formalaşmasında çox mühüm rol oynamalıyıq, çox böyük işlər görməliyik. Bu sahədə bir tərəfdən təhsil, ikinci tərəfdən idman, sağlamlıq, sağlam həyat tərzi, üçüncü tərəfdən, gənclərin fəal olması, bizim ictimai-siyasi həyatımızda onların fəal iştirakı - bütün bunlar ölkələrimizi möhkəmləndirəcəkdir. İslam Konfransı Təşkilatına üzv olan ölkələr arasında həmrəyliyi daha da gücləndirəcəkdir.

Bir müddətdən sonra indiki gənclər bizim ölkələrdə rəhbər vəzifələrə gələcəklər, ölkələrimizi idarə edəcəklər. Onların fəaliyyətindən ölkələrimizin müqəddəratı asılı olacaqdır. Çox vacibdir ki, gənclərimiz həm bilikli, savadlı olsunlar, həm müasir olsunlar, eyni zamanda, bütün milli və dini ənənələrə sadiq olsunlar, vətənpərvərlik ruhunda böyüsünlər ki, bizim ölkələrimiz gələcəkdə

də inkişaf etsin və möhkəmlənsin.

Mən Forumun yaradılmasını alqışlayıram. Bunu çox böyük hadisə kimi qiymətləndirirəm və əminəm ki, Forumun fəaliyyəti nəticəsində görüləcək işlər bizi daha da sıx birləşdirəcək, bütövlükdə, İslam Konfransı Təşkilatının möhkəmlənməsinə gətirib çıxaracaqdır.

Azərbaycan İslam Konfransı Təşkilatının çox fəal üzvüdür. Biz bu yaxınlarda Bakıda üzv ölkələrin xarici işlər nazirlərinin toplantısını keçirmişdik. Bir neçə gündən sonra Bakıda üzv ölkələrin turizm nazirləri yığışacaqlar. Bir sözlə, hesab edirəm, bu istiqamətdə bizim fəaliyyətimiz çox önəmlidir və çalışırıq ki, ölkələrimiz bir-biri ilə daim sıx təmasda olsunlar. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Çox vacibdir ki, bizim ölkələr iqtisadi sahədə bir-biri ilə daha da sıx əməkdaşlıq etsinlər.

Əziz dostlar, mən əminəm ki, Gənclər Forumunun fəaliyyətində böyük işlər görüləcəkdir, böyük nəticələr olacaqdır. Biz bu gün Forumun fəaliyyətinə öz xeyir-duamızı veririk, onu dəstəklədiyimizi göstəririk. İstərdim ki, bu dəstək, eyni zamanda, Forumun təşkilatlanma prosesinə öz müsbət təsirini göstərsin. Bu məqsədlə Azərbaycan dövləti Forumun büdcəsinə 100 min dollar köçürülməsi haqqında qərar qəbul edibdir. Əminəm ki, bu kiçik töhfə sizin işlərinizin daha da yaxşı getməsi üçün əlverişli zəmin yaradacaqdır. Əlbəttə ki, gələcəkdə Forumun maddi-texniki bazasının möhkəmlənməsində bizim bütün ölkələrimiz fəal iştirak edəcəkdir.

Mən bu gözəl hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Qardaş türk xalqına öz sevgi və məhəbbətimi ifadə edirəm. Sağ olun.

Azərbaycanın dövlət başçısının nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

Mərasim çərçivəsində müxtəlif dövlət qurumlarından və beynəlxalq təşkilatlardan daxil olmuş təbrik məktubları oxundu. Bundan əlavə, Forumun Avropa Şurası, Birləşmiş Millətlər Təşkilatı və İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) ilə birgə "Gənclər sivilizasiyaların alyansı uğrunda" təşəbbüsünün təqdimatı da oldu. Xatırladıldı ki, Türkiyə və İspaniya Baş nazirlərinin təklif etdiyi bu ideya 2005-ci ilin iyun ayında BMT-nin Baş katibi Koffi Annan tərəfindən BMT-nin beynəlxalq proqramı kimi qəbul edilmiş "Sivilizasiyaların alyansı" təşəbbüsünün həyata keçirilməsində gənclərin rolunu gücləndirmək məqsədi ilə irəli sürülmüşdür.

Mərasim zamanı Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu, İslam Ticarət və İnkişaf Palatası, Avropa Şurası, BMT-nin İnkişaf Proqramı, İSESKO və İslam İnkişaf Bankı ilə əməkdaşlıq haqqında sənədlər imzalandı.

Məlumat verildi ki, 2007-ci ilin mayında İstanbul şəhərində dünya sənətçilərinin iştirakı ilə "Dialoq, hörmət, musiqi vasitəsilə anlaşma" devizi altında beynəlxalq sülh konsertləri təşkil ediləcəkdir.

Sonra Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun dəstəklənməsində xidmətləri olan şəxslərə bu qurumun mükafatları təqdim olundu.

Forumun prezidenti Əli Sarıkaya ilk mükafatı Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi. Prezident İlham Əliyev isə Türkiyə Böyük Millət Məclisinin Sədri Bülənd Arınça, Pakistanın Baş naziri Şövkət Əzizə, Türkiyə Sənaye Palataları Federasiyasının başçısı Rifat Hisarciklioğluna, İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri Kadir Topbaşa, Türkiyə Baş nazirinin baş müşaviri Əhməd Davudoğluna mükafatları təqdim etdi.

Forumun baş katibi Elşad İsgəndərov Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana, Baş nazir isə İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğluna mükafatları təqdim etdi.

İslam Ticarət və İnkişaf Palatasının prezidenti Şeyx Saleh Kamilə Gənclər Forumunun fəxri mükafatı təqdim edildi.

Ukrayna Ümummilli Proqramının Ali Akademik Şurasının "2006-cı ilin adamı" mükafatı

2006-cı il noyabrın 9-da Kiyevdə "İlin adamı" Ukrayna Ümummilli Proqramının Ali Akademik Şurası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ictimai-siyasi fəaliyyət sahəsində "2006-cı ilin adamı" nominasiyasının qalibi elan etmişdir.

2007-ci il martın 17-də Kiyevin "Ukrayna" sarayında Şərqi Avropa ölkələrinin "2006-cı ilin adamı" nüfuzlu mükafatının təqdim olunmasına həsr edilmiş mərasim keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəxri mükafata layiq görülməsi haqqında qərarın elan edilməsini salondakılar sürəkli alqışlarla qarşıladılar. Səhnədə qoyulmuş iri ekranda Azərbaycanın dövlət başçısının əks olunduğu videokadrlar göstərildi.

Ukraynanın xalq deputatı Mixail Pojivanov Prezident İlham Əliyevin layiq görüldüyü "Prometey" heykəlciyini Azərbaycanın Kiyevdəki səfiri Tələt Əliyevə təqdim etdi. Deputat xüsusi vurğuladı ki, 200-dən çox ekspertin daxil olduğu Ali Akademik Şura "İlin adamı" adının Azərbaycan rəhbərinə verilməsi haqqında qərarı yekdilliklə qəbul etmişdir. Azərbaycan Prezidentinin dünya və Avropa siyasətinə sanballı töhfəsi, Ukrayna-Azərbaycan münasibətlərinin inkişafında və möhkəmlənməsində çox böyük xidmətləri yüksək qiymətləndirilmişdir.

Səfir Tələt Əliyev Prezident İlham Əliyevin fəaliyyətinin yüksək qiymətləndirildiyinə görə onun adından "İlin adamı" proqramının rəhbərliyinə dərin təşəkkürünü bildirdi. Səfir əmin olduğunu söylədi ki, Azərbaycanın dövləti başçısının belə nüfuzlu mükafata layiq görülməsi iki dost dövlət və xalqın qarşılıqlı münasibətləri tarixində əlamətdar hadisə olacaq, onların əməkdaşlığının və qarşılıqlı anlaşmasının daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Almaniyanın Mixael Zukkov Fondunun ali mükafatı

2006-cı il noyabrın 15-də Bakıda, "Hyatt-Regensy" hotelinin "Quba" zalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Azərbaycanda təbiəti mühafizə sahəsində həyata keçirdiyi uğurlu siyasətə görə Almaniyanın dünyada çox böyük nüfuza malik Mixael Zukkov Fondunun ali mükafatının təqdim olunmasına həsr edilmiş mərasim keçirilmişdir.

Mərasimdə fondun idarə heyətinin üzvü Martin Oppenbrinq çıxış edərək təşkilatın fəaliyyəti, onun yaradıcısı və sədri Mixael Zukkov barədə məlumat verdi. O dedi ki, Mixael Zukkov 35 ildir həyatını və ömrünü təbiətə, insanlara həsr edir. 1997-ci ildə xidmətlərinə görə İsveç parlamenti onu alternativ Nobel mükafatına layiq görmüşdür. Qonaq bildirdi ki, Azərbaycan biomüxtəlifliyə görə dünyanın ən nadir bölgələrindən biridir və bu fondun maraq göstərdiyi ölkələrdəndir.

Mərasimdə çıxış edən fondun sədri Mixael Zukkov ilk dəfə 30 il bundan əvvəl Azərbaycana gəldiyini söylədi, Qobustan qayaları ilə tanışlıq zamanı respublikamızı qədim insan məskəni və əsrarəngiz təbiəti olan bir diyar kimi tanıdığını bildirdi. Azərbaycan müstəqillik qazandıqdan sonra 1990-cı illərin ortalarında ölkəmizə yenidən gəldiyini vurğulayan Zukkov ümummilli lider ilə görüşdüyünü və Prezident Heydər Əliyevdə ətraf mühitin mühafizəsi ilə bağlı son dərəcə maraqlı fikirlərin olduğunu diqqətə çatdırdı. O, ulu öndər Heydər Əliyevin sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılmasını Azərbaycanda bu sahədə atılan ən mühüm addım kimi dəyərləndirdi və dedi ki, məhz Heydər Əliyevin müdrik və düzgün siyasəti nəticəsində Azərbaycanda milli parkların və qoruqların yaradılması istiqamətində ciddi nailiyyətlər əldə edilmişdir. Keçid dövrü yaşayan ölkələrin heç birində Azərbaycandakı qədər uğurlar qazanılmadığını xatırladan natiq bu sahədə Azərbaycanın, demək olar ki, lider olduğunu söylədi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərə toxunan **Mixael Zukkov** son üç ildə qəbul olunan proqramların ekologiya və ətraf mühit üçün son dərəcə əhəmiyyətli olduğunu vurğulayaraq dedi:

- Əgər 2003-cü ilə qədər xüsusi mühafizə olunan ərazilər 5 faiz təşkil edirdisə, Prezident İlham Əliyevin qətiyyətli səyləri nəticəsində Azərbaycanda xüsusi mühafizə olunan obyektlərin sahəsi ölkə ərazisinin 8 faizinə çatmışdır. Ölkənin müxtəlif regionlarında 6 milli park yaradılmışdır. Yaxın gələcəkdə yaradılacaq yeni milli parkları nəzərə alsaq, onda Azərbaycan ərazisinin 12 faizi təbii irs kimi qorunub saxlanacaqdır. Bu, çox böyük göstəricidir.

Sonra "Azərbaycanın mühafizə olunan təbiəti" adlı film nümayiş etdirildi.

Fondun prezidenti Mixael Zukkov ətraf mühitin mühafizəsi ilə bağlı göstərdiyi xidmətlərə görə fondun ali mükafatını Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli cənab Zukkov!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar, əziz qonaqlar!

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Mixael Zukkov Fondu tərəfindən mənə verilmiş bu yüksək mükafat, əminəm ki, Azərbaycanda son illər ərzində görülən işlərə verilən mükafatdır. Bu mükafat mənim üçün çox əzizdir, çox qiymətlidir.

Zukkov Fondu dünyada çox böyük hörməti olan qeyri-hökumət təşkilatıdır. Dünyanın müxtəlif ölkələrində çox böyük işlər görür və təbiətin qorunması işində bu fondun çox böyük xidmətləri vardır. O cümlədən Azərbaycanda biz Zukkov Fondunun fəaliyyətini çox yüksək qiymətləndiririk. Ona görə Zukkov Fondu kimi mötəbər beynəlxalq təşkilatın mükafatını almaq, əlbəttə ki, böyük şərəfdir. Eyni zamanda, - yəqin cənab Zukkovun çıxışından da bunu gördünüz, - Mixael Zukkov Azərbaycanın böyük dostudur, Azərbaycanı sevən bir insandır. Onun Azərbaycan cəmiyyətini belə gözəl bilməsi, kağıza baxmadan bütün milli parkların adlarını sadalaması, nəinki sadalaması, o milli parklardakı mövcud vəziyyətlə tanışlığı, əlbəttə, bizim hamımızı çox sevindirir. Ancaq təbiətin dostu, ancaq insanların dostu, ancaq xeyirxah insanlar bu yüksək keyfiyyətlərə malikdirlər. Ona görə, bu baxımdan da fondun mükafatı mənim üçün çox əziz və qiymətlidir. Sizi əmin etmək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşması, ətraf mühitin qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Azərbaycan indi inkişaf mərhələsindədir. Bizim iqtisadi inkişafımız çox sürətlidir. Azərbaycanda bütün sahələrdə böyük işlər görülür. Bu yaxınlarda Avropa Yenidənqurma və İnkişaf Bankının hesabatında Azərbaycan iqtisadi artım sürətinə görə dünyada birinci ölkə kimi qeyd olundu. Biz ümumi daxili məhsulun artımına görə dünyada lider dövlətik. Əlbəttə, biz bunu çox böyük qürur hissi ilə deyirik. Çünki dünyada hansısa sahədə birinci olmaq böyük nailiyyətdir. Xüsusilə iqtisadiyyatın əsas göstəricisi olan ümumi

daxili məhsulun artımına görə. Bu onu göstərir ki, ölkənin həm bugünkü iqtisadi durumu müsbətdir, eyni zamanda, böyük perspektivləri var. Nəzərə alsaq ki, biz yüksək iqtisadi inkişaf sürətini gələcəkdə də saxlamaq niyyətindəyik, əlbəttə, qısa müddət ərzində, növbəti bir neçə il ərzində Azərbaycan hərtərəfli inkişaf edəcəkdir.

Sənaye istehsalının artımına görə də, məncə, Azərbaycan dünyada lider dövlətdir. Bu il sənaye istehsalı təxminən 40 faiz artıbdır. Ancaq bununla bərabər, təbii ki, müsbət tərəflər ilə yanaşı, müəyyən narahatlıq doğuran cəhətlər də var. Çünki hər bir sürətli inkişaf istər-istəməz ətraf mühitin qorunmasına mənfi təsir göstərə bilər. Sənayeləşmə prosesi gedəndə, əlbəttə ki, yeni müəssisələr fəaliyyətə başlayır, yeni iş yerləri açılır. Bunlar bizim üçün çox vacib məsələlərdir. Ancaq eyni zamanda, gərək elə edək ki, bizim təbiətimizə minimum zərbə dəysin. Məhz buna görə biz çalışırıq ki, öz ekoloji tədbirlərimizi geniş kontekstdə həyata keçirək.

Azərbaycanın böyük ehtiyacları var. Biz insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün müxtəlif tədbirlər görürük - iqtisadi islahatlar, infrastruktur layihələrinin həyata keçirilməsi, yeni iş yerlərinin açılması və digər məsələlər. Ancaq bununla bərabər, ekoloji məsələlərə çox böyük diqqət göstərilir. Yeni milli parkların, qoruqların, yasaqlıqların yaradılması bu məqsədi güdür. Bu yaxınlarda Azərbaycanda çox böyük və konkret ekoloji proqram qəbul edilibdir və mən xüsusi sərəncam imzalamışam. Proqramda müəyyən olunan bütün tədbirlər Azərbaycanda ətraf mühitin qorunmasına xidmət göstərir.

Bir daha demək istəyirəm ki, proqram çox konkretdir, çox dəqiqdir, icrası üçün maliyyə mənbələri də müəyyən olunubdur. Azərbaycanın dövlət büdcəsindən bu işlərə maliyyə vəsaiti ayrılacaq və Azərbaycanda ən böyük narahatlıq doğuran ekoloji məsələlər qısa müddət ərzində öz həllini tapmalıdır.

Nəzərə alsaq ki, Azərbaycan dünyada neft-qaz hasil edən ölkə kimi tanınır və dünyada sənaye üsulu ilə ilk neft hasilatı məhz Azərbaycanda başlanmışdır, o cümlədən dünyada dənizdə mövcud olan yataqlarda ilk quyular Azərbaycanda, Xəzər dənizində qazılmışdır, təsəvvür etmək çətin deyil ki, bu, ekoloji vəziyyətə çox mənfi təsir göstərmişdir. Sovet İttifaqı zamanı neft-qaz hasilatında, təbii ki, ekoloji məsələlərə o qədər də böyük diqqət göstərilmirdi. Ona görə bizim qarşımızda çox böyük vəzifələr durur. Biz, ilk növbədə, neftlə çirklənmiş əraziləri, xüsusilə Abşeron yarımadasında yerləşən köhnə mədənləri təmizləməliyik. Neft gölməçələrini təmizləməliyik. Xəzər dənizinin ekoloji vəziyyətini normallaşdırmalıyıq. Düzdür, bu, təkcə bizdən asılı deyil, çünki Xəzər dənizinin sahillərində beş ölkə yerləşir. Amma əgər hər bir ölkə öz üzərinə düşən vəzifəni ləyaqətlə icra etsə, Xəzər dənizinin ekoloji vəziyyəti xeyli dərəcədə yaxşılaşacaqdır.

Bakı buxtasını təmizləməliyik. Yəni bizim qarşımızda çox böyük vəzifələr dayanır, bunları həyata keçirmək üçün böyük maliyyə vəsaiti lazımdır. Biz də artıq bunu ayırırıq və əminəm ki, Azərbaycanı, ölkəmizi, insanlarımızı narahat edən ekoloji məsələlər çox qısa müddət ərzində, beş il ərzində öz həllini tapacaqdır. Bu, çox böyük proqramdır. Çox ciddi vəzifələr qoyulubdur. Ancaq mən şübhə etmirəm ki, biz buna nail olacağıq. Bunu etmək üçün bütün vasitələr var. İlk növbədə, siyasi iradə var və bu iradə bizim qərarlarımızda, qəbul edilmiş proqramlarda öz əksini tapıbdır. Digər tərəfdən, Azərbaycanın maliyyə vəziyyəti, maddi imkanları yaxşılaşdıqca, əlbəttə, bu işlərə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunması məsələsi həll ediləcəkdir.

Mən bu gün Almaniyadan gəlmiş nümayəndə heyətinin üzvləri ilə görüşmüşəm və geniş fikir mübadiləsi olmuşdur. Qeyd etdim ki, biz uzun illər ərzində ekoloji məsələlərin həlli üçün lazım olan vəsaitin ayrılmasına dair beynəlxalq təşkilatlarla danışıqlar aparmışdıq. Bəzi hallarda danışıqlar həddindən artıq çox çəkmişdir. Xüsusilə nəzərə alsaq ki, neft-qaz sahəsində görülən işlərə Azərbaycan milyardlarla dollar kreditlər almışdır və bu kreditlərin alınmasında heç bir problem, çətinlik olmamışdır. Lakin ekoloji məsələlərə ayrılan vəsaitə böyük ehtiyatla yanaşılır. Çünki ekoloji məsələlərə qoyulan vəsait qısa müddət ərzində xeyir gətirmir. Ona görə biz qərara gəldik ki, bu məsələləri daxili imkanlarımız hesabına həll edək və proqram da qəbul olundu. Proqram qəbul olunandan demək olar ki, dərhal sonra beynəlxalq maliyyə təşkilatları - Dünya Bankının nümayəndələri, digər beynəlxalq təşkilatlar Azərbaycana gəlmişlər. Bir tərəfdən, proqramın qəbul olunmasını alqışlamışlar, digər tərəfdən, bizimlə bərabər bu işlərdə iştirak etmək arzularını bildirmişlər.

Bu, bizim üçün çox önəmlidir. Bu gün Almaniyadan gələn dostlarımızla fikir mübadiləsi əsnasında mən bunu qeyd etdim. Çünki indi bizə müasir ekspertiza, Almaniyanın, dünyanın, Avropanın inkişaf etmiş ölkələrinin təcrübəsi lazımdır, məsləhətlər lazımdır. Biz ayrılan vəsaitdən maksimum dərəcədə səmərəli istifadə etməliyik ki, bu məsələlər məqsədyönlü şəkildə öz həllini tapsın. Çox şadam ki, bizim təşəbbüslərimizə çox böyük dəstək var.

Almaniyadan böyük nümayəndə heyətinin, Zukkov Fondunun rəhbərinin Azərbaycana gəlməsi və bu yüksək mükafatı Azərbaycan Prezidentinə təqdim etməsi - bunlar hamısı bir-biri ilə bağlıdır.

Bir daha demək istəyirəm ki, Zukkov Fondu dünyada çox böyük nüfuza malik olan təşkilatdır və onun verdiyi mükafatlar, bir tərəfdən, görülmüş işlərə verilən qiymətdir, digər tərəfdən isə, gələcək fəaliyyətə verilən avansdır. Mən əminəm ki, biz gələcəkdə birlikdə çalışaraq, Azərbaycanda ətraf mühitin qorunması sahəsində çox böyük işlər görəcəyik.

Azərbaycanın böyük təbii sərvətləri var və bu təbii sərvətlər hesabına, onların səmərəli işlənilməsi hesabına indi ölkəmiz dünyada analoqu olmayan sürətlə inkişaf edir. Ancaq bizim təbii sərvətlərimiz təkcə neft-qaz deyildir. Bizim təbiətimiz, çaylarımız, Xəzər dənizimiz, dağlarımız, havamız bizim təbii sərvətimizdir. Bu amillər ölkəyə özünəməxsus imic gətirir, insanların sağlamlığına müsbət təsir göstərir. Ekologiya, sağlamlıq, sosial məsələlər – bütün bunlar bir-biri ilə sıx bağlıdır. Biz bu məsələlərə yanaşanda çalışırıq ki, bunları kompleks şəkildə həll edək.

Azərbaycanın böyük imkanları var və daha da böyük olacaqdır. Ən böyük sərvət insanların sağlamlığıdır, insanların normal həyat səviyyəsidir, normal şəraitidir. Bu məqsədlə indi Azərbaycanda müxtəlif bölgələrdə 10 müasir diaqnostika və müalicə mərkəzləri tikilir, ən yeni avadanlıqla təchiz olunur. Bu məqsədlə Azərbaycanda son üç il ərzində 700-dən çox məktəb tikilib ki, bizim uşaqlarımız kiçik yaşlarından normal şəraitdə oxusunlar, böyüsünlər, tərbiyə alsınlar. Bu məqsədlə Azərbaycanın şimal-qərbindən Bakıya və ətraf rayonlara böyük su kəməri çəkilir. Bu da rəmzi xarakter daşıyır.

Biz uzun illər üzərində çalışdığımız Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə nail olduq. Bu, həm böyük iqtisadi, həm siyasi, həm də regional məna daşıyan böyük layihədir, dünyada analoqu olmayan layihədir. Bu kəmərin fəaliyyəti nəticəsində əldə olunan və olunacaq gəlirləri biz insan kapitalına çeviririk. Biz ilk növbədə hansı layihələri həyata keçirməyə başladıq?! Bakıya su kəmərinin çəkilməsi, xəstəxanaların tikintisi, müasir infrastrukturun yaradılması, ən çətin vəziyyətdə yaşayan soydaşlarımızın, yəni qaçqınlar və məcburi köçkünlərin problemlərinin həlli. İndi onlar üçün böyük işlər görülür, ən yüksək səviyyəyə uyğun şəkildə yeni şəhərciklər, qəsəbələr salınır.

Biz bu gün öz siyasətimizi çox açıq şəkildə həm bəyan edirik, həm də aparırıq. Bizim sözümüzlə əməlimiz arasında heç bir ziddiyyət yoxdur. Hər şey insanlar üçün, hər şey ölkənin güclənməsi üçündür. Nə lazımdırsa, onu da edirik və edəcəyik.

Bu işlərdə, əlbəttə, ekoloji məsələlər ön planda olmalıdır. Təbii ki, ölkənin çox böyük sosial problemləri, iqtisadi çətinliklər olduğu zaman bəzən ekoloji məsələlərə böyük diqqət göstərilmir. Ancaq harada diqqət göstərilir? İnkişaf etmiş ölkələrdə. İnkişaf etmiş ölkələrlə az inkişaf etmiş, yaxud inkişaf etməmiş ölkələr arasında olan fərqlər müxtəlifdir. Bu da təbiidir. Ancaq bir fərq mütləqdir. O da ekoloji məsələlərə münasibətdir. İnkişaf etmiş ölkələrdə ekoloji məsələlərə münasibət ən yüksək səviyyədədir. Bu, ölkələrin səviyyəsini, siyasətini, mədəniyyətini əks etdirir. Azərbaycan öz qarşısında vəzifə qoyub ki, biz də inkişaf etmiş ölkəyə çevrilməliyik. Bunu etmək üçün bütün imkanlar var və bu barədə çox danışmaq istəmirəm. Bunu edəcəyik.

Ekoloji məsələlərə diqqət, münasibət, eyni zamanda, ölkənin ümumi siyasətinin, ümumi mədəniyyətinin təzahürüdür. Son nəticədə ən önəmli sahə budur. Neft-qaz tükənən sərvətlərdir. Onların müvəqqəti önəmi var. Ancaq təbiət, ətraf mühit - bu, daimi sərvətdir. Əsrlər boyu, minilliklər boyu təbiət olub, kainat olub, dünya olubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, bunu qoruyaq. Özümüz üçün, gələcək nəsillər üçün, ölkəmizin yaşaması üçün qoruyaq. Ona görə biz bu məsələlərə çox böyük önəm veririk. Çalışırıq ki, ekoloji proqramların icrasında Azərbaycan qabaqcıl yerlərdə olsun.

Eyni zamanda, bizi narahat edən məsələlər də kifayət qədərdir. Onlardan ən başlıcası Azərbaycanın böyük ərazisinin işğal altında olmasıdır. Ərazimizin 20 faizi Ermənistanın işğalı altındadır və uzun illər ərzində o ərazilərdə ekoloji vəziyyət çox acınacaqlıdır. O torpaqları zəbt edən işğalçı qüvvələr orada nəinki bizim tarixi, mədəni, dini abidələrimizi darmadağın, yerlə-yeksan ediblər, onlar bizim təbiətimizə də qəsd ediblər. Orada bizim ağaclarımız kəsilir, torpağımız qəsdən yandırılır və bunu sübut edən kifayət qədər dəlillər var.

Bir müddət bundan əvvəl ATƏT-in faktaraşdırıcı missiyası monitorinq aparmaq üçün Azərbaycanın işğal olunmuş torpaqlarına gəlmişdir. Onların məruzəsi çox dəhşətli bir məruzə idi. Hər şey - bütün evlər, binalar, bizim tarixi abidələrimiz dağılıbdır. Eyni zamanda, qiymətli ağaclar kəsilir və məhz bu ağacların qırılması hesabına işğal olunmuş ərazilərdə bir neçə böyük mebel fabriki tikilibdir. O fabriklər ki, onlar məhz Azərbaycanın, bizim təbiətimizin, kəsilən ağacların hesabına fəaliyyət göstərir. Onlardan əldə olunan gəlir heç vaxt heç kimə xeyir gətirməyəcəkdir. Çünki

o, Azərbaycanın qanı hesabına, təbiətimizə qəsd hesabına əldə olunur. Vəhşi qəsbkarlar təbiətimizə də təcavüz ediblər. Son müddət ərzində Ermənistan tərəfindən törədilən yanğınlar onların iç üzünü bir daha bütün dünyaya göstərdi. Onlar bilirlər ki, gec-tez o torpaqlardan çıxacaqlar, anlayırlar ki, artıq o vaxt uzaqda deyildir. Bizim oradakı bütün binalarımızı söküb-dağıtdıqları azmış kimi, torpağımızı da yandırırlar. İndi bir neçə illər lazım olacaq ki, biz o torpaqları bərpa edək. Ona görə Azərbaycan bu məsələni beynəlxalq təşkilatlarda qaldırıbdır. Birləşmiş Millətlər Təşkilatında biz bu məsələni qaldırırıq və rica edirik ki, bütün təşkilatlar, qeyri-hökumət təşkilatları da buna çox böyük diqqət göstərsinlər. Çünki bu, dözülməz bir faktdır. Bu, XXI əsrdə yaşayan insanlara xas olan əməllər sayıla bilməz!

Əziz dostlar, bir daha qeyd etmək istəyirəm ki, mənim üçün çox əlamətdar gündür. Mən bu mükafatı çox yüksək qiymətləndirirəm. Əminəm ki, Zukkov Fondu ilə uzun illər davam edən əməkdaşlığımız daha da möhkəmlənəcəkdir. Avropa ölkələri ilə bütün sahələrdə, o cümlədən ekologiya, ətraf mühitin qorunması sahəsində əməkdaşlığımız daha da möhkəmlənəcəkdir. Biz artıq dünəndən Avropaya qonşu olmuşuq. Dünən Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında qonşuluq siyasətinə dair tədbirlər planı imzalanıbdır. Biz siyasi cəhətdən qonşuyuq və gələn ilin əvvəlindən Bolqarıstan Avropa İttifaqına üzv olandan sonra, demək olar ki, coğrafi cəhətdən də qonşu olacağıq.

Mənim bu yaxınlarda, keçən həftə Avropa İttifaqında çox uğurlu görüşlərim olubdur. Bu, qarşımızda yeni imkanlar, yeni üfüqlər açır. Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq çoxşaxəlidir. Ümid edirəm ki, ekoloji məsələlər bu əməkdaşlığın önəmli hissəsini təşkil edəcəkdir.

Mənim fəaliyyətimi belə yüksək qiymətləndirdiyinizə görə sizə bir daha öz təşəkkürümü bildirirəm və hamınıza uğurlar arzulayıram. Azərbaycana tez-tez gəlin. Siz Azərbaycanın dostlarısınız və bu dostluq bundan sonra da davam edəcəkdir.

Cənab Zukkov mükafatla bərabər mənə çek də təqdim etdi. Burada 15 min avro məbləğində pul mükafatı da nəzərdə tutulubdur. Mən də bu məbləği Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşmasına yönəldirəm. Sağ olun, təşəkkür edirəm.

Azərbaycan Prezidentinin nitqi böyük diqqətlə dinlənildi və hərarətli alqışlarla qarşılandı.

Ərəb Dövlətləri Cəmiyyətinin mükafatı

2007-ci il mayın 7-də Misirdə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Azərbaycan ilə Ərəb Dövlətləri Cəmiyyəti arasındakı əməkdaşlığa verdiyi yüksək töhfəyə görə bu təşkilatın mükafatı təqdim edilmişdir.

Qahirədə ƏDC-nin iqamətgahına gələn Azərbaycanın dövlət başçısını ƏDC-nin Baş katibi Əmr Musa böyük ehtiramla qarşıladı.

Prezident İlham Əliyevin Baş katib Əmr Musa ilə təkbətək görüşündə Azərbaycan ilə ƏDC arasında əməkdaşlığın vəziyyəti, bu əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə olundu. Bildirildi ki, Azərbaycan ƏDC ilə yaxşı əməkdaşlıq edir, təşkilata üzv ölkələrin 7-də səfirliyini açmışdır və gələcəkdə digər ölkələrdə də diplomatik nümayəndəliklər yaradılacaqdır.

Görüşdə regional məsələlərlə bağlı geniş fikir mübadiləsi aparıldı.

ƏDC-nin Baş katibi Əmr Musa Azərbaycan ilə Ərəb Dövlətləri Cəmiyyəti arasındakı əməkdaşlığa verdiyi yüksək töhfəyə görə Prezident İlham Əliyevə Ərəb Dövlətləri Cəmiyyətinin mükafatını təqdim etdi.

Azərbaycanın dövlət başçısı təşkilatın fəxri qonaqlar kitabında öz xatirə sözlərini yazdı.

Görüşün sonunda Prezident İlham Əliyev və ƏDC-nin Baş katibi Əmr Musa jurnalistlərin suallarına cavab verdilər.

Türkdilli Dövlətlərin və Cəmiyyətlərin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Fondunun "Orxon-Yenisey" mükafatı

2007-ci il noyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə türkdilli dövlətlər və xalqlar arasında dostluq, qardaşlıq və əməkdaşlıq münasibətlərinin inkişafı sahəsindəki xidmətlərinə görə Türkdilli Dövlətlərin və Cəmiyyətlərin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Fondunun (TÜDEV) "Orxon-Yenisey" mükafatı təqdim edilmişdir.

"Orxon-Yenisey" mükafatının təqdimatı Türkdilli Dövlətlərin və Cəmiyyətlərin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Fondu (TÜDEV) və Türkiyə Respublikasının Baş Nazirliyi yanında Türk İşbirliyi və İnkişaf Agentliyi (TİKA) tərəfindən Bakıda keçirilən XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının rəsmi açılış mərasimində olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi, TÜDEV və TİKA tərəfindən keçirilən qurultayda 30-dan çox ölkədən 800 nümayəndə və qonaq iştirak edirdi.

Sarayın foyesində tarix boyu türkdilli xalqlara, o cümlədən azərbaycanlılara qarşı törədilmiş terrorları, soyqırım aktlarını, habelə Xocalı soyqırımını əks etdirən fotosərgi təşkil olunmuşdu.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın, Şimali Kipr türklərinin lideri Mehmet Əli Tələtin və digər türkdilli ölkələrin rəsmi şəxslərini hərarətlə qarşıladılar.

İştirakçılar türk dünyasının görkəmli şəxsiyyətlərinin - Heydər Əliyev, Mustafa Kamal Atatürk, Əhməd Yəsəvi, Ərtoğrul Qazi, Əlişir Nəvai və Alparslan Türkeşin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Qurultayı Təşkilat Komitəsinin Azərbaycan tərəfdən həmsədri, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri **Nazim İbrahimov** giriş sözü ilə açdı:

- Zati-aliləri möhtərəm cənab Prezident!

Zati-aliləri möhtərəm cənab Baş nazir!

Hörmətli qurultay iştirakçıları!

Əziz qonaqlar!

Təşkilat Komitəsi adından sizi - Türk dövlət və cəmiyyətlərinin XI dostluq və əməkdaşlıq qurultayının nümayəndələrini və qonaqlarını salamlayır, bu tarixi toplantının açılışı münasibətilə təbrik edirəm.

Qurultay türk dövlət və cəmiyyətləri üçün böyük mənəvi, siyasi əhəmiyyətə malikdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev türk dünyasının birliyini yüksək qiymətləndirərək demişdir: "Türk cümhuriyyətlərinin bir sırada inamlı addımları, türk dünyasının xoşbəxt sabahından soraq verir. Əminəm ki, türk xalqlarının qurultayları müqəddəs arzu və istəklərimizin həyata keçirilməsində mühüm rol oynayacaqdır".

Hörmətli qurultay iştirakçıları!

Bu gün türk xalqları arasında birliyin və həmrəyliyin daha da möhkəmləndirilməsi qarşımızda dayanan vacib vəzifələrdəndir. Ömrünü türk dünyasının birliyinə həsr etmiş görkəmli ictimai-siyasi xadim İsmayıl bəy Qaspralının "Dildə, fikirdə, əməldə birlik" ideyası xalqlarımızın tərəqqi və rifahının başlıca düsturu olaraq, vahid amal uğrunda birgə fəaliyyətimizin əsasını təşkil edir. Bu məfkurə müasir dövrümüzdə yüz il bundan öncə olduğundan daha vacib, daha aktualdır.

Türkdilli xalqlar mürəkkəb ictimai-siyasi proseslərin cərəyan etdiyi dünyada özlərinin mübarizliyi, çalışqanlığı və intellekti sayəsində qazandıqları yüksək mövqelərini bundan sonra da qoruyub saxlamalı, möhkəmləndirməli, əldə etdikləri nailiyyətləri gələcək nəsillərə ötürməlidirlər. Bunun yolu isə birlikdən və əməkdaşlıqdan keçir. Son illərdə bu birliyin möhkəmləndirilməsinə yönəlmiş səylər gələcəyimizə nikbinliklə və böyük ümidlərlə baxmağa əsas verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə bu ilin mart ayında Bakı şəhərində keçirilmiş Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu türkdilli xalqların birliyi ideyasının dövlətlərimizin xarici siyasətində nəinki prioritet istiqamətlərdən biri olmasının, eyni zamanda, öz tarixi vətənindən kənarda yaşayan milyonlarla türkəsilli soydaşımız üçün ən ali məqamlar sırasında dayanmasının təsdiqi olmuşdur.

Türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları 15 ildir ki, xalqlarımızın qarşılıqlı münasibətlərinin inkişafına öz töhfəsini verməkdədir. 1993-cü ildən etibarən keçirilən və yüksək məramlara xidmət edən bu tədbir cənab İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Türkiyədən kənarda, məhz Azərbaycan Respublikasında təşkil olunur.

Möhtərəm cənab Prezident!

Zati-alinizin bu təşəbbüsü Azərbaycan dövlətinin türk dünyasının sarsılmaz birliyinə, xalqlarımız arasında səmimi dostluq, əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə verdiyi əhəmiyyətin parlaq təzahürüdür. Bu bir daha sübut edir ki, ümummilli lider Heydər Əliyevin türkdilli xalqlar arasında birliyin gerçəkləşdirilməsinə yönəlmiş ideyaları Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərini müəyyənləşdirən başlıca prinsiplərdən biri olaraq qalır və qalacaqdır.

Hörmətli qurultay iştirakçıları!

Əminik ki, türk dünyasının coğrafi mərkəzində yerləşən, qədim mədəniyyət mərkəzlərindən biri olan Bakı şəhərində keçirilən bu mötəbər tədbir xalqlarımızın birlik və qardaşlıq salnaməsində yeni bir səhifə açacaq, qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsi, milli mədəniyyətlərin sıx inteqrasiyası və iqtisadi əməkdaşlığın inkişafında mühüm rol oynayacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, Türkiyə Respublikasının Baş naziri cənab Rəcəb Tayyib Ərdoğanın, Şimali Kipr türk xalqının lideri cənab Mehmet Əli Tələtin qurultayda iştirakı bu inamı daha da möhkəmləndirir, türk dünyasının birliyi naminə bütün imkan və bacarıqlarını səfərbər edənlərə yeni ruh verir.

Türkmənistanın Baş nazirinin müavini cənab Saparlıyevin tədbirdə iştirakı, habelə Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Rusiya Federasiyasının Tatarıstan, Altay, Başqırdıstan və Çuvaşiya respublikalarının, Moldova Respublikasının Qaqauz Muxtar Vilayətinin nümayəndə heyətlərinin qurultaya qatılması bu birliyin coğrafiyasının nə qədər geniş olduğunu göstərir.

Adından göründüyü kimi, məramı dostluq, qardaşlıq və əməkdaşlıq olan bu qurultayın işində dünyanın 30-dan çox ölkəsindən gəlmiş 800 nümayəndə və qonaq iştirak edir. Qurultay çərçivəsində türkdilli xalqlar arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə sahələrində əməkdaşlıq, ortaq mədəni irsimizin öyrənilməsi və təbliği, türk dünyası haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, gənclərimizin milli ruhda və müasir tələblər səviyyəsində təlim-tərbiyəsi, qloballaşma prosesinin ölkələrimizin həyatına təsirinin ən müxtəlif aspektləri ilə bağlı taleyüklü məsələlər müzakirə ediləcəkdir.

Qurultayda türk dünyasını narahat edən bir sıra problemlər - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Şimali Kiprin beynəlxalq təcriddən çıxarılması, İraq və Əfqanıstanda yaşayan türkdilli xalqların vəziyyəti, Axıska türklərinin öz tarixi torpaqlarına qayıdışı ilə əlaqədar olan və qarşıya çıxan çətinliklərlə bağlı ətraflı fikir mübadiləsi aparılacaq, mühüm sənədlər qəbul ediləcəkdir.

Hörmətli qurultay iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

İnanırıq ki, Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı türk dünyasının birliyinin inkişafına layiqli töhfələrini verəcək, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq, dünyanın siyasi xəritəsində türkdilli dövlətlərin mövqelərinin daha möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı açıq elan edilir. Təşəkkür edirəm.

Qurultayın Təşkilat Komitəsinin Türkiyə tərəfdən həmsədri, Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Fondunun İdarə heyətinin sədri **Əbdülxaliq Çay** çıxış edərək dedi:

- Hörmətli Azərbaycan Prezidenti cənab İlham Əliyev!

Hörmətli cənab Baş nazir Rəcəb Tayyib Ərdoğan!

Şimali Kipr türklərinin lideri hörmətli cənab Mehmet Əli Tələt!

Dünyanın 30-dan çox ölkəsinin türk dövlət və cəmiyyətlərindən

zəhmət çəkərək gələn bütün qurultay iştirakçılarını böyük hörmət və ehtiramla salamlayıram.

1990-cı illərdə sovet imperiyasının dağılmasından sonra Allahın izni ilə beş türk cümhuriyyəti meydana çıxdı. Bu cümhuriyyətlər yarandığı zaman Türkiyə bütün dünya dövlətlərindən öncə bu ölkələrin müstəqilliyini tanıdı, gələcək əlaqələri inkişaf etdirmək siyasətini açıqladı. 1992-ci ildə, xüsusilə Azərbaycandan və digər türk respublikalarından dostlarımız Ankaraya gələrək, 1905-ci ildə çar Rusiyasındakı qurultaya bənzər, türk dövlət və cəmiyyətlərinin problemlərinin açıq şəkildə, şayiələrə uymadan müzakirəsi və həlli yollarının axtarılması ilə bağlı qurultayın keçirilməsi barədə təklif səsləndirdilər. Nəhayət, 1992-ci ilin sonunda o dövrdə Baş nazir olan hörmətli Süleyman Dəmirəl və bizim fondumuzun qurucusu hörmətli Alparslan Türkeş bu qurultayın hansı şəkildə keçirilməsi barəsində mənimlə birlikdə beş həmkarımızı təlimatlandırdılar. Biz 35 gün ərzində türk cümhuriyyətləri ilə bağlı toplantılarda iştirak etdik, dövlət rəsmiləri, ziyalılar və mətbuat nümayəndələri ilə görüşlər keçirdik, bu məsələlərin həllinə dair belə bir qurultayın necə keçirilməsini soruşduq və müsbət cavablar aldıq. Ondan sonra, 1993-cü il martın 20-24-də ilk dəfə Antalyada keçirilən qurultayımız fasilə vermədən 2001-ci ilədək davam etdi. Bu qurultaylarda, dəfələrlə dediyimiz kimi, heç bir siyasi sapmalara uymadan hər ölkədən gəlmiş nümayəndə heyəti türk dövlət və cəmiyyətlərinin iqtisadi, siyasi, mədəni inkişafı ilə əlaqədar düşüncələrini sərbəst şəkildə açıqladılar və müzakirə etdilər.

Təbii ki, bu qurultayların məqsədi dövlət rəsmilərinə problemləri çatdırmaq, onların məsələlərin həllinə köməyini əsirgəməmələrinə çalışmaqdır. Bizim fondun və qurultayımızın məqsədi budur. 2001-ci ildə fasilə verən qurultayımızın onuncusu keçən il Baş nazir Rəcəb Tayyib Ərdoğanın himayəsi ilə Antalyada gerçəkləşdirildi. Antalyada bizi sevindirən çox böyük hadisə baş verdi. Hörmətli Cümhurbaşqanımız İlham Əliyev dedi ki, XI qurultay Bakıda keçiriləcəkdir. İnanın, bu, türk dünyası üçün, türk milləti üçün, qəlbi, ürəyi türk dünyası ilə çırpınan insanlar üçün çox böyük bir müjdə idi. Allah bunu bizə qismət etdi, biz burada XI qurultayı keçirməyə nail olduq. Buna görə hörmətli Cümhurbaşqanımız İlham Əliyevə dərin minnətdarlığımı bildirir, sizlərə təşəkkür edirəm. Sağ olun.

Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Şimali Kipr türklərinin lideri Mehmet Əli Tələt qurultayda nitq söylədilər. Açılış mərasimində Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev, Qırğızıstanın təhsil və elm naziri Kanıbek Osmonaliyev, Qazaxıstan mədəniyyət və informasiya nazirinin müavini Askar Buribayev də çıxış etdilər.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Əziz qurultay iştirakçıları!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Bütün qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının Azərbaycanda keçirilməsi bütün türk dünyası üçün çox böyük hadisədir. Qurultaylar, adətən, Türkiyədə keçirilirdi. Mən xatırlayıram, keçən il biz Antalyada qurultayda bərabər iştirak etmişdik. Orada çox vacib, çox önəmli qərarlar qəbul edilmişdi, çox maraqlı müzakirələr keçirilmişdi. Mən çox şadam ki, növbəti qurultayın Azərbaycanda keçirilməsi barədə bizim təklifimiz qəbul olundu və bu gün biz bu gözəl qurultayı Bakıda keçiririk. Bu bir daha onu göstərir ki, bütün türk dünyası birləşməyə doğru daha da sürətlə gedir. Buna çox böyük ehtiyac var.

Bizim müstəqil ölkə kimi yaşamağımız, Sovet İttifaqının dağılmasından sonra 5 türk cümhuriyyətinin meydana gəlməsi nəticəsində yaranmış yeni bir vəziyyət, əlbəttə ki, bizi daha sıx birləşməyə sövq edir. Biz bunu fəal şəkildə edirik. Son qısa müddət ərzində Türkiyədə və Azərbaycanda bizim birliyimizi möhkəmləndirən çox vacib tədbirlər keçirildi. Qeyd etdiyim kimi, ötən il Antalyada qurultay keçirildi. Ondan sonra Antalyada türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü keçirildi. Bu ilin mart ayında Bakıda Azərbaycan və türk diasporları rəhbərlərinin I forumu keçirildi. Bu gün bu gözəl qurultay keçirilir. Gələn il, 2008-ci ildə Bakıda türkdilli dövlət başçılarının növbəti zirvə görüşü keçiriləcəkdir. Yəni bütün bu görüşlər, qurultaylar, tədbirlər bir məqsəd güdür - türk dünyası daha da mütəşəkkil olsun, bir-birilə əlaqələrini və dünyadakı mövqelərini daha da möhkəmləndirsin. Bu, bizim hamımızın marağındadır. Bizim birliyimiz nə qədər güclü olsa, hər bir ölkə öz milli maraqlarını bir o qədər uğurla müdafiə edə bilər.

İndi dünyada gedən qloballaşma prosesləri, əlbəttə ki, bizim ölkələrdən də yan keçmir. Amma bununla bərabər biz milli dəyərlərimiz üzərində dövlətlərimizi qururuq. Müstəqil olmayan dövrdə bizi bir xalq kimi saxlayan, milli mənsubiyyətimizi qoruyan bizim tariximiz olubdur, mədəniyyətimiz olubdur, ana dilimiz olubdur, bizim milli musiqimiz olubdur, ədəbiyyatımız olubdur. Bu sahədə birliyin və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi üçün çox gözəl imkanlar var.

Bu gün bu gözəl gündə türk dünyasının iki dahi şəxsiyyətinin unudulmaz kəlamları yada düşür. Ulu öndər Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın kədəri bizim kədərimiz, Azərbaycanın sevinci bizim sevincimizdir". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu kəlamlar bizim münasibətlərimizin təməl prinsipidir. Bu gün Türkiyə-Azərbaycan münasibətləri məhz bu əsasda qurulur və əminəm ki, bizim uğurlu işbirliyimiz bütün türk dünyasına öz müsbət təsirini göstərir. Bu iki məşhur tarixi kəlamda çox böyük məna var və çox böyük məhəbbət var. Bu, bizi birləşdirir və mən çox şadam ki, bu gün bizimlə bərabər bütün türk dünyasını əhatə edən qonaqlar bu qurultayda iştirak edirlər.

Bu gün Azərbaycanın tarixində də çox əlamətdar bir gündür. Düz 17 il bundan əvvəl, 1990-cı ilin noyabrın 17-də Azərbaycanın milli bayrağı ilk dəfə olaraq, rəsmi bayraq kimi qəbul edilmişdir. O zaman Azərbaycan hələ müstəqil dövlət deyildi. Hələ ki, biz Sovet İttifaqının tərkibində idik. Hələ ki, Bakıda Azərbaycan Kommunist Partiyası iqtidarda idi. Ancaq Azərbaycanın tarixi torpağı, ayrılmaz hissəsi olan Naxçıvanda Muxtar Respublikanın Ali Məclisinin o vaxtkı sədri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, üçrəngli bayraq Ali Məclisin binasında qaldırılmışdır. Əminəm və şübhə yoxdur ki, bu tarixi hadisə Azərbaycanın dövlət müstəqilliyini yaxınlaşdıran bir addım idi.

Bir daha demək istəyirəm ki, o vaxt Azərbaycan müstəqil deyildi. Bizim müstəqilliyə gedən yollarımız müxtəlif istiqamətlərdən keçibdir. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi, bütün cəmiyyətin birləşməsi və əlbəttə ki, dövlət bayrağının, üçrəngli bayrağın qaldırılması bu istiqamətdə çox vacib bir addım idi.

Biz gözəl bir gündə toplaşmışıq. Bu da yəqin ki, rəmzi xarakter daşıyır. Müstəqillikdən keçən dövr ərzində bütün türk dövlətləri güclənmişlər. Əgər 1991-ci ildə bizim ölkələrimizdə, demək olar ki, həm iqtisadi, həm də siyasi problemlər kifayət qədər idisə, bu gün, 16 il keçəndən sonra biz bütün ağır günlərimizi arxada qoymuşuq, biz bütün böhranlardan şərəflə çıxmışıq. Həm iqtisadi artım, həm siyasi sabitlik, həm də dünyadakı mövqelərimizin möhkəmləndirilməsi bizim ölkələrimizi çox qabağa aparıbdır. Tarix baxımından 16 il o qədər də böyük zaman deyil. Ancaq xalqlarımız sübut etdilər ki, biz müstəqil xalqlar kimi yaşaya bilərik.

Müstəqillik ən böyük sərvətdir. Azərbaycan xalqının ən böyük nemətidir. Əsrlər boyu Azərbaycan xalqı müstəqilliyə həsrət qalmışdır. Biz başqa ölkələrin tərkibində yaşayırdıq və müstəqil deyildik. Ancaq bu gün Azərbaycan müstəqil ölkədir. Müstəqilliyimiz bu gün təkcə rəsmi atributlarla deyil, eyni zamanda, bizim siyasətimizlə ölçülür. Azərbaycan müstəqil siyasət aparmaq iqtidarındadır. Nəyin hesabına? Əlbəttə ki, ölkədə gedən iqtisadi, siyasi islahatlar nəticəsində, aparılan böyük quruculuq işləri nəticəsində və eyni zamanda, türk dünyası dövlətlərinin bir-birinə dəstək verməsi nəticəsində.

Mən bizim müstəqil dövlətlərimizin formalaşmasında Türkiyə Cümhuriyyətinin rolunu qeyd etmək istəyirəm. Türkiyə Azərbaycanı müstəqil ölkə kimi tanıyan ilk dövlət olmuşdur. İlk illərdə və bütün dövrlərdə biz Türkiyənin dəstəyini, köməyini hiss etmişik, bu gün də hiss edirik və bu, bizə əlavə güc verir. Biz müstəqil ölkə olanda dünya birliyinə yeni qədəm qoymuşduq. Amma Türkiyə kimi böyük dövlətin, qardaş ölkənin yanımızda olması, əlbəttə, Azərbaycana çox böyük faydalar gətirirdi.

Bu gün isə qarşılıqlı fəaliyyət nəticəsində bizim gücümüz, Azərbaycanın artan gücü eyni zamanda Türkiyəni gücləndirir. Bu gün qarşılıqlı investisiyaların həcmi ildən-ilə artır. Artıq Azərbaycan investisiyaları Türkiyəyə qoyulur. Bu investisiyalar milyardlarla dollar həcmindədir. Azərbaycanın artan iqtisadiyyatı Türkiyəni gücləndirir və əksinə. Bu yaxınlarda Türkiyə-Azərbaycan biznes forumunun keçirilməsi bu istiqamətdə çox önəmli addımdır. Forumda bütün iqtisadi sahədə olan məsələlər müzakirə edildi və gələcək planlar müəyyən olundu. Ölkələrimizin ildən-ilə artan iqtisadi potensialı, əlbəttə, bütün türk dünyasını birləşdirəcəkdir. Biz elə etməliyik ki, qarşılıqlı ticarətin təşviqi ilə bir-birimizi gücləndirək. Bu gün bizim ölkələrimizdə kifayət qədər imkanlar var. Həm təbii sərvətlər, həm inkişaf etmiş sənaye, həm də liberal müasir bazar iqtisadiyyatı. Biz öz resurslarımızı birləşdirib böyük gücə çevrilməliyik.

Yeni yaradılmış, gənc müstəqil türk cümhuriyyətlərində çox

- 2007
İşdə Bir
aspıralı
və CƏMİYYƏTLƏRİNİN
Q. QARDAŞLIQ və
SLIQ QURULTAYI
9 NOYABR - 2007

böyük təbii ehtiyatlar var. Qazaxıstanda, Türkmənistanda, Azərbaycanda birlikdə neft və qazın hasilatı dünyanın ən böyük neft-qaz hasil edən ölkələri səviyyəsindədir. Eyni zamanda, mövcud neft-qaz ehtiyatları dünya enerji bazarına çox böyük təsiretmə gücündə olan həcmdədir.

Biz bunlardan səmərəli istifadə etməklə ölkələrimizi inkişaf etdiririk. Eyni zamanda, qardaş Türkiyənin infrastruktur və tranzit imkanlarından istifadə edərək, öz resurslarımızla dünya bazarlarına çıxırıq. Bu, bizi gücləndirir, əlavə maddi imkanlar yaradır, müstəqil siyasət aparmaq üçün bizə çox gözəl şərait yaradır. Eyni zamanda, bütün türk dünyasını birləşdirir.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri dünya miqyaslı layihələrdir. Bu layihələr bütün bölgədə coğrafi-siyası və iqtisadi vəziyyəti köklü şəkildə bizim xeyrimizə dəyişdirmişdir. Bu layihələr həyata keçdikcə bizim xalqlarımız bundan çox böyük fayda götürür. Biz Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft-qaz yataqlarından səmərəli istifadə etməklə Türkiyə ərazisi ilə dünya bazarlarına çıxırıq. Bu yeni iqtisadi, enerji dəhlizlərinin açılması bizim müstəqilliyimizi daha da gücləndirir. İndi enerji müstəqilliyi ölkələrin müstəqilliyi deməkdir. Biz enerji cəhətdən tam müstəqil ölkəyik. Amma dünya bazarlarına çıxışımız yoxdur. Bu çıxışı bizim üçün qardaş Türkiyə təmin edir və bundan bütün türk dünyası faydalana bilər.

Mən əminəm ki, gələcəkdə bu sahədə mövcud olan əməkdaşlıq daha da dərinləşməlidir, yeni ölkələri əhatə etməlidir. Türkiyə və Azərbaycan uzun illər ərzində bu sahədə çox səmərəli işləyirlər. Vaxtilə əfsanə kimi tanınan layihələri bizim təşəbbüsümüzlə, birgə səylərlə, rəhbərlərin iradəsi və xalqların dəstəyi ilə gerçəkliyə çevirmişik. İndi artıq bu yollar açılıbdır. Bunlar yeni yollardır, gələcəyə aparan yollardır. Bu yollar müstəqilliyin möhkəmlənməsinə gedən yollardır. Mən əminəm ki, bu gözəl imkanlardan bütün türk dünyası istifadə edəcəkdir.

Əlbəttə, bizi birləşdirən bizim tariximizdir, - xalqlarımız əsrlər boyu bir yerdə yaşamış, yaratmışlar, - ənənələrimizdir, bizim mədəniyyətimizdir, dilimizdir, kökümüzdür, etnik mənsubiyyətimizdir. Bu, gələcək inkişaf üçün çox böyük bir əsasdır. Ancaq bununla bərabər onu da bilirik ki, dünyada başqa ölkələr var ki, onlar da etnik cəhətdən bir-birinə yaxındır, onların da etnik mənsubiyyəti birdir, onlar da əsrlər boyu bir yerdə yaşamışlar və bir yerdə olmuşlar. Amma bu heç də o demək deyil ki, onların indiki maraqları və ya siyasi baxışları üst-üstə düşür, yaxud da dostluğu yüksək səviyyədədir.

Yəni bu, çox böyük bir üstünlükdür, çox böyük bir zəmindir. Bu zəmin üzərində qurulan münasibətlər xalqların bir-birinə bağlı olmasından, siyasətçilərin bir-birinə yaxın olmasından, maraqların üst-üstə düşməsindən asılıdır. Bizim aramızda, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri bütün sahələrdə özünü büruzə verir. Həm xalqlarımız birdir, həm xalqlara rəhbərlik edən insanlar dostdur, qardaşdır, həm də qeyri-hökumət sektoru - millət vəkilləri, bütün elm adamları, ziyalılar bir-biri ilə sıx bağlıdır. Bu, bizim birliyimizi daha da gücləndirir. Mən bugünkü qurultaya bu prizmadan baxıram. Bu qurultay, əlbəttə, çox gözəl qərarlar qəbul edəcəkdir. Əminəm ki, burada aparılan müzakirələr həm praktik cəhətdən, həm elmi cəhətdən, həm də bizim bütün sahələrdə işbirliyimiz baxımından çox önəmli olacaqdır. Ancaq bununla bərabər, əminəm ki, Azərbaycanda keçirilən bu qurultay bütün türk dünyasının birləşməsində çox mühüm bir addımdır. Mən şübhə etmirəm ki, qurultayın nəticələri bizim birliyimizi daha da möhkəmləndirəcəkdir.

Biz indi elə bir mərhələdəyik ki, bütün imkanlardan istifadə edib öz mövqelərimizi daha da möhkəmləndirməliyik. Bu sahədə, əlbəttə, xaricdə yaşayan soydaşlarımızın fəaliyyətindən çox şey asılıdır. Təsadüfi deyil ki, bu ilin mart ayında Bakıda Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumu keçirilmişdir. Forum türk və Azərbaycan diaspor təşkilatlarının birləşməsi işində çox mühüm rol oynamışdır. Biz artıq bunun nəticələrini görməkdəyik. Demək olar ki, indi bütün ölkələrdə türk və Azərbaycan diaspor təşkilatları birgə fəaliyyət göstərirlər, birgə işlər görürlər. Bizi narahat edən, bizim əleyhimizə yönəldilən tədbirlərin qarşısını almaqda da birlikdə çıxış edirlər. Bir-birinin imkanlarından, təşkilatlanma imkanlarından istifadə edirlər. Bəzi hallarda bizə qarşı aparılan ədalətsiz kampaniyalara qarşı çox əsaslandırılmış mövqe ortaya qoyurlar. Əvvəllər bizim buna imkanımız yox idi.

Azərbaycan gənc müstəqil ölkə idi. Müstəqilliyimizin ilk illərində bu sahədə o qədər də böyük imkanlarımız yox idi. Amma bu gün bu sahəyə böyük diqqət göstərilir. Türk diaspor təşkilatlarının bütün dünyada çox böyük tarixi var. Azərbaycan diaspor təşkilatları gəncdir. Amma bunlar birləşərək, bir nöqtəyə vuraraq öz məqsədlərinə nail olurlar, ölkələrimizi müdafiə edirlər, ölkələrimizin milli maraqlarını müdafiə edirlər. Biz dövlətlər də öz dəstəyimizlə onları gücləndiririk. Onların orada bütün strukturlarda fəal olması bizim gücümüzdür. Onlar həm iqtisadi sektorda, həm də siyasi müstəvidə - yaşadıqları ölkələrin parlamentlərində təmsil olunmalıdırlar. Onların təsir imkanları daha da güclü olmalıdır. O təsir imkanları ölkələrimizin milli maraqlarına xidmət edəcəkdir.

Biz, Türkiyə və Azərbaycan, bəlkə də, dünyada nadir ölkələrik ki, çox böyük təşkilatlanmış, böyük maliyyə imkanlarına malik olan erməni lobbisi və dünya ermənilərı bizə qarşı kampaniya aparırlar. Başqa ölkələrin belə problemləri yoxdur. Amma bizə qarşı əsassız ittihamlar, əsassız iddialar, düşmənçilik addımları var və əlbəttə, bu, bizi biganə qoya bilməz. Biz buna hazır olmalıyıq. Ermənistanın, erməni lobbisinin və onun himayəsi ilə bəzi inkişaf etmiş ölkələrin riyakar siyasətçilərinin əsassız ittihamlarına qarşı biz öz həqiqətimizi qoymalıyıq. Çünki haqq-ədalət bizim tərəfimizdədir.

Erməni lobbisi və Ermənistan 1915-ci ilin hadisələrinə görə Türkiyəni daim bütün ölkələrdə günahlandırmaq istəyir. Bütün ölkələrin parlamentlərində qondarma "soyqırımı"nı tanıtdırmaq istəyir. Bu, böyük erməni yalanıdır, böyük erməni təxribatıdır. Ermənilər həmişə türklərə, azərbaycanlılara qarşı soyqırımı siyasəti aparmışlar. Keçmiş tarixdə də belə olub, yaxın tarixdə də belə olubdur və Xocalı soyqırımı bunun bariz nümunəsidir. Günahsız insanları, uşaqları, yaşlı qadınları qətlə yetirmək soyqırım deyil, bəs nədir? Ancaq əfsuslar olsun ki, dünya birliyi bunu ya görmür, ya da görmək istəmir, ermənilərin, erməni lobbisinin və dünya ermənilərinin uydurma "faktları" əsasında qərar qəbul edirlər. Biz buna qarşı öz siyasətimizi, öz həqiqətimizi qoymalıyıq, öz təbliğatımızı, öz gücümüzü qoymalıyıq. Əlbəttə ki, həqiqəti çatdırmaq, təbliğ etmək, bütün dünyaya yaymaq bizim işimizdir – dövlətlərin, diaspor təşkilatlarının, hər bir vətənpərvər insanın işidir.

Biz indi bunu edirik və bu sahədə Türkiyə dövlətinin, türk xalqının fəal çalışmaları nəticəsində Amerika Konqresinin Xarici Əlaqələr Komitəsində qəbul edilmiş ədalətsiz qərarın müzakirəsi dayandı və onun davamı olmadı. Yəni bu, Türkiyənin gücü hesabına mümkün oldu. Amma burada, əlbəttə ki, müxtəlif amillərin mövcudluğu vacibdir. Təbliğat, bizim həqiqətə əsaslanmış sözlərimiz və eyni zamanda, bizim gücümüz. Bizim gücümüz isə birliyimizdədir. Biz nə qədər güclü olsaq, bizim həqiqətimiz də bir o qədər üstün olacaqdır. O qədər də bizim sözümüzü eşidəcəklər, bizim sözümüzlə hesablaşacaqlar. Ona görə bir daha mən bu məsələyə qayıtmaq istəyirəm ki, bizim birliyimiz ölkələrimizin gələcəyi üçün başlıca şərtdir və bizim gücümüz bundadır.

Azərbaycana qarşı uzun illər aparılan işğalçı siyasət, əfsuslar olsun ki, dünya birliyi tərəfindən lazımi səviyyədə pislənmir. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox soydaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür. Azərbaycanın işğal olunmuş əraziləri tamamilə dağıdılıbdır. Bizim məscidlərimiz, qəbirlər, bütün binalarımız orada yerlə-yeksan edilibdir. Heç kim buna reaksiya vermir. Heç kim buna görə Ermənistanı cəzalandırmır. Bizim qarşımızda seçim qalmır. Biz nə etməliyik?! Biz artıq 13 ildir sülh danışıqları aparmaqla çalışırıq ki, öz ərazi bütövlüyümüzü danışıqlar yolu ilə bərpa edək. Amma görəndə ki, bu baş vermir, biz başqa üsullara əl atmağa məcburuq.

Yenə də qayıdıram bizim əsas mövzumuza - yenə də birlik, yenə də bizim gücümüz. Biz bütün işlərimizdə öz gücümüzə əsaslanmalıyıq və öz haqqımızı bərpa etməliyik. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Azərbaycanın işğal altındakı bütün bölgələri azad olunacaq və bizim soydaşlarımız oraya qayıdacaqlar və o gün uzaqda deyildir.

Əziz dostlar!

Mən bu gözəl gündə sizi bir daha ürəkdən salamlayıram. Azərbaycana gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Sizə "Xoş gəlmisiniz!" deyirəm. Siz öz gəlişinizlə, burada olmağınızla Azərbaycana böyük sevinc gətirdiniz. Bu gün bütün türk dünyası Azərbaycandadır. Bu gün bütün türk dünyası birdir. Mən arzu edirəm ki, türk dünyası həmişə bir olsun. Həmişə bir yerdə olsun və gələcək işlərimiz nəticəsində bizim gücümüz artsın, imkanlarımız artsın, türk dünyası rifah içində yaşasın və bütün türk dövlətləri çiçəklənsin, inkişaf etsin.

Sağ olun.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nitqi

- Çox hörmətli Cümhurbaşqanlarımız!

Çox hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak etməkdən, çox hörmətli Prezident İlham

Əliyevin qonağı kimi dost və qardaş Azərbaycana gəlməkdən duyduğumuz məmnunluğu xüsusi ifadə edərək sözlərimə başlamaq istəyirəm.

Türk dövlət və cəmiyyətlərinin nümayəndələrini, müxtəlif coğrafi məkanlardan şövq və sevinclə Bakıya gələrək, qardaş xalqlar arasında əməkdaşlığı gücləndirən bu qurultayda iştirak edən bütün dostlarımızı səmimi qəlbdən salamlayıram.

Bu qurultayların keçirilməsinə səbəbkar olan mərhum Heydər Əliyevi, Alparslan Türkeşi rəhmət və ehtiramla anıram.

Buradan Aşqabada, Daşkəndə, Buxaraya, Səmərqəndə, Almatıya,

Bişkekə, Lefkoşaya, Ankaraya, Kərkükə "Salam olsun!" deyirəm. Buradan "Bütün insanların xoşbəxtliyi, səadəti naminə ədalətin, mərhəmətin, haqqın səsi yüksəlsin və inşallah, bu səs bütün insanlığın vicdanında yer alsın!" deyirəm.

Keçən il Antalyada keçirilən X qurultaydan sonra indi XI qurultayın qardaş ölkədə, Azərbaycanda keçirilməsini təmin edən dəyərli qardaşım Cümhurbaşqanı Əliyevə və bu qurultayın gerçəkləşməsində əməyi olan hər kəsə öz adımdan və millətim adından təşəkkür edirəm.

Türkiyə ilə Azərbaycan arasındakı əbədi əlaqələrin memarlarından olan böyük dövlət xadimi və siyasi xadim Heydər Əliyevin Türkiyə və Azərbaycan barədə "Biz bir millət, iki dövlətik" kəlamı bu gün yenidən burada dəfələrlə səsləndirilir. Bu, bizim üçün xüsusi qürur mənbəyidir. Eynilə bizim Cümhuriyyətimizin qurucusu Atatürkün sözləri, bir az əvvəl hörmətli Cümhurbaşqanımızın da dəyərli qardaşlarımızın qarşısında ifadə etdiyi "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" kəlamı dostluğumuza və gələcəyimizə işıq salmaqdadır.

Bunlar bizim əlaqələrimizi möhkəmləndirir, bizi bir-birimizə daha güclü tellərlə bağlayır.

Dəyərli qardaşlarım, dostlarım!

Geniş bir coğrafiyada yerləşən ölkələrimiz və qardaş cəmiyyətlərimiz tarixin dərinliyindən gələn yaxın, güclü və sarsılmaz tellərlə bir-birinə bağlıdır. Bu qardaşlığımız köklərini qədim dəyərlərimizdən, dərin tarixi, mədəni və insani əlaqələrdən almaqdadır. Bizləri birləşdirən bu əlaqələr həm də ölkələrimizə böyük imkanlar bəxş etməkdədir. Tarixi hadisələr keçmişdə bu əlaqələrimizin ortaya çıxmasını əngəlləmiş və aramıza sərhəd qoymuşdursa da, xoşbəxtlikdən, bu gün tarixi imkanlarla üz-üzəyik. Bunları dəyərli qardaşım Əliyev bir az öncə açıqladı.

Əldən verdiyimiz fürsətləri nəzərdən keçirərək, yeni bir dirçəliş məşəli yandırmağımızın qarşısında heç bir əngəlin olmadığını yaxşı bilməli və önümüzdəki tarixi fürsəti tarixi imkana çevirməliyik. Bunun üçün təməlində qardaşlıq duran əlaqələrimizi canlandıraraq əməkdaşlığımıza bərəkət qazandırmalı, xalqlarımız arasındakı yaxınlığı gücləndirərək sosial, mədəni və iqtisadi baxımdan yenidən yüksəlişə nail olmalıyıq.

Dünəndən bu günə, son 15 ildə keçdiyimiz yol açıq şəkildə göstərmişdir ki, bir-birimizə qovuşmağı əngəlləyən maneələrin artıq hamısı aradan qalxmışdır. Birlikdə quracağımız yeni bir dünya və aydın gələcək bizləri gözləyir. Bu gələcəyimizin memarı yenə bizlər olacağıq. Biz hərtərəfli inkişaf və qardaşlıq əlaqələrimizi gücləndirdikcə, yeni və sağlam körpülər yaratdıqca, hər zaman hörmətlə andığımız atalarımızın röyalarını da gerçəkləşdirmiş olacağıq. İndi hamımızı bir araya gətirən, siyasətçisi, sənətçisi, elm adamı və tələbəsi ilə ölkələrimizi əlaqələndirən bu cür qurultaylar ortaq gələcək cəmiyyətimizin yaradılmasında əsas dönüş nöqtəsidir. Xüsusilə burada aparılan müzakirələrə və irəli sürülən birgə fikirlərə, göstərilən hədəflərə böyük dəyər verdiyimizi qarşınızda bir daha söyləməkdən böyük şərəf duyuram.

Əziz qardaşlarım, diqqətinizi xüsusilə yaxın ətrafımızda meydana çıxan hadisələrə yönəltmək istəyirəm. Bütün dünyada siyasi, iqtisadi inkişafla yanaşı, əsasən İraqda, Yaxın Şərqdə yaşananlarla bağlı daha ayıq olmalı, hadisələrdən mühüm nəticələr çıxarmalıyıq. Müştərək yaşadığımız coğrafiyada və ya digər yerlərdə meydana çıxan hadisələr bütün türk dünyasını da maraqlandırmalıdır. Bu hadisələrə münasibət göstərməliyik. Göstərmədiyimiz təqdirdə, bizi ağır nəticələrlə üz-üzə qoyacaq hadisələr baş verə bilər.

Keçən həftə Amerika Birləşmiş Ştatlarına səfərim zamanı da söylədiyim kimi, Qarabağ məsələsi bunların içində, bəlkə də, ən ağır yaralardan biridir. Bəli, Qarabağ hamımızın qanayan yarasıdır. Burada bizlərə ev sahibliyi edən dəyərli qardaşlarımızın torpaqlarının önəmli bir hissəsi qonşu dövlətin işğalı altındadır. 1 milyondan çox qardaş və bacılarımız bu haqsız işğalın nəticəsində öz ölkəsində məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu acı vəziyyət hamımızın ürəyini sızlatsa da, beynəlxalq aləmin biganə qaldığı aşkar bir haqsızlıqdır. Ortada oynanan bir oyun var. Bölgəmizdə sülhün, təhlükəsizliyin, rifahın və əməkdaşlığın hakim olması üçün ən əsas şərtlərdən biri Ermənistanın bu işğala son qoyması, münaqişənin beynəlxalq hüquq normaları əsasında həllidir.

Ortada Amerikanın, Fransanın və Rusiyanın həmsədr olduğu Minsk qrupu var. Yaxşı, indiyə qədər verilmiş mühüm bir qərarı varmı ki, haqlısınız?! Amma yoxdur. Ermənistan beynəlxalq dəyərlərə, insan haqlarına, qonşuluq əlaqələrinə, heç bir hüquqi davranışa sığmayan bu qəbuledilməz vəziyyətə və haqsız işğala dərhal son qoymalıdır. Türkiyə bu məsələdə hər zaman can qardaşı Azərbaycanın yanında olmuşdur. Bundan sonra da yanında olacaqdır.

İraqdakı türkmən qardaşlarımızın da vəziyyəti açıq şəkildə ortadadır. Orada da eyni sıxıntı yaşanmaqdadır. Heç kim oradakı

türkman qardaşlarımızın düşdüyü vəziyyəti gündəmə gətirmir. Şimali Kipr Türk Cümhuriyyətində yaşayan türklər uzun illərdir ədalətli mücadiləsinə, xoşniyyətli çözüm çalışmasına rəğmən blokadaya məruz qalmaqdadır. Bununla bağlı beynəlxalq toplantılarda görüşlər, müzakirələr keçirilmişdir. Bizə söz vermişlər. Elə söz vermişlər ki, - nümunə ən son yaşadığımız zamanda çox açıq və aydındır, - 2004-cü ilin aprel ayında keçiriləcək referendumda müsbət nəticə çıxarın, amma qalan işlərə qarışmayın. Şimali Kipr xalqı bu vədi yerinə yetirmiş, müsbət nəticə çıxarmışdır. Güney Kipr isə "Annan planı"na "yox" demişdir. Amma Güney Kipri mükafatlandırdılar, Şimali Kipri cəzalandırdılar. Baxın, bunların səmimiyyəti, dürüstlüyü budur. Mən bunu özlərinə söylədiyim üçün burada da açıq deyirəm. Yəni burada söyləyirəm, ancaq onların özlərinə söyləmirəm kimi deyil. Məhz onların özlərinə dediyim üçün burada açıq söyləyirəm və hər görüşdə də bunu deyirəm. Deyirəm ki, səmimiyyət üzrə testdə sinifdə qaldınız.

Balkan yarımadasında və ya müştərək coğrafiyamızın müxtəlif bölgələrində yaşayan soydaşlarımızın sıxıntıları hamımızın ümumi dərdidir. Keçən ay Balkan yarımadasında, Rumıniyada idim. Rumıniyada yaşayan soydaşlarımıza baş çəkdim, dağlara qədər getdim, orada onlarla bir yerdə oldum. Gördüm ki, eyni dərd, eyni qəm orada da davam edir. Bütün bu məsələlərin öhdəsindən gəlməyimiz üçün bir yol var. O da hər zaman söylədiyimiz kimi, aramızda daha sıx işbirliyinin, sürətli inkişafın olmasıdır.

Dəyərli Cümhurbaşqanları!

Hörmətli iştirakçılar!

Hörmətli xanımlar və cənablar!

Əsrimiz həmrəylik əsridir. İşbirliyi və həmrəylik bu gün üçün bəlkə də çox artmaqda olan böyük imkanlarımızı həyata keçirmək fürsəti yaradacaqdır. Biz bir-birimizin təbii ortaqlarıyıq. Tariximizə, mədəniyyətimizə, inancımıza söykənərək, aramızdakı əməkdaşlıq potensialını hərəkətə gətirməliyik. Məhz bu qurultay da bu məsələləri hərtərəfli, vahid mövqedən yanaşaraq müzakirə etmək, dəyərləndirmək imkanı yaradacaqdır. Bugünkü dünyada uğur qazanmağın yolu, əsasən əməkdaşlıq və həmrəylik içində yaşamaqdan keçir. Biz həmrəylik içində olmasaq, halımız necə olar?! Bizi parça-parça edərlər. Ona görə də biz həmrəylik içində yaşayacağıq.

Özümüzü dünyadan təcrid etməklə hədəflədiyimiz yerə gəlməyimiz mümkün deyildir. Bu məqsədlə demokratikləşmə, qanunun aliliyi, şəffaflıq, yaxşı idarəetmə, əsas insan hüquq və azadlıqlarının genişləndirilməsi, regional və qlobal inteqrasiya səylərini gücləndirmək gələcək baxışlarımızın təməli olmalıdır. Ortaq bölgəmiz olan Avrasiyanın insan və təbii ehtiyatları bütün problemlərin həllinə imkan verəcək həcmdədir. Rəqabət əvəzinə əməkdaşlıq ruhunun hakim olması hamımızın xeyrinə olacaqdır. Bu günə qədər qardaş xalqlar arasında mühüm addımlar atmağa, əlaqələri irəliyə aparmağa səy göstərmişik. Bu baxımdan Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsinin bir çox cəhətdən nümunə götürülməsinin vacib olduğunu vurğulamaq istəyirəm. Türkiyə ilə Azərbaycan arasında son illərdə həyata keçirilən və bir zamanlar xəyal belə edilməsi mümkün olmayan böyük layihələr hazırda əməkdaşlıq və həmrəyliyin ən parlaq nümunəsidir. Keçən il istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan neft kəməri, yaxın vaxtlarda tam həcmdə fəaliyyətə başlayacaq Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri və indi, inşallah təməlini qoymağa hazırlaşdığımız Bakı-Tbilisi-Qars dəmir yolu xətti - ölkələrimizi yaxınlaşdıran tellərə misal göstərilən bu layihələr Asiya ilə Avropanı, Şərq ilə Qərbi birbirinə yaxınlaşdırmaqla iştirakçı ölkələrin iqtisadi inkişafını gücləndirir və geostrateji önəmlərini artırır.

Eyni zamanda qloballaşmada önəmli olan bu layihələrin daha geniş bir məkanda bütün qardaş xalqlarımızın iştirakına açıq olaraq, bölgəmizin rifahını, əməkdaşlığını və sabitliyini artırmasını birlikdə düşünməyimiz və qiymətləndirməyimiz gərəklidir. Keçirdiyimiz son qurultayda vurğuladığım kimi, necə ki, ingilis dilində danışan ölkələr, fransızca danışan ölkələr, ispanca danışan ölkələr öz aralarında eyni dil və mədəniyyət ətrafında bir araya gəlirlər, bizlər də xarici siyasətdə əlaqəli şəkildə belə bir iş görə bilərik. Gözəl dilimizi danışan türkdilli dövlətlər topluluğu həm beynəlxalq səviyyədə xalqlarımızın mənafelərini daha yaxşı qorumağımıza imkan verəcək, həm də sülh və sabitliyi möhkəmləndirəcəkdir. Bu çərçivədə vahid dil istiqamətində çalışmaları da artırmalıyıq. Ortaq tariximizin yenidən yazılması və bu müştərək tarixin dərslik kimi oxudulması üzərində dayanılmasının bir mövzu olduğunu təkrar xatırlatmaq istəyirəm. Türk cümhuriyyətləri arasında hər cür əməkdaşlığın daha planlı və əlaqəli olmasının, başqa sözlə, təsisatlı hala gəlməsinin vaxtı gəlmişdir. Bu məqsədlə mən türkdilli ölkələrin dövlət başçıları zirvəsinin daimi bir katibliyinin yaradılmasını bu qurultayda təklif edirəm. Bu daimi katiblik nə etdik, nə edirik, nə edəcəyik - bunu daim izləməli və bizləri sonrakı qurultaya hazırlamalıdır. Digər

tərəfdən, Antalyada türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündə Qazaxıstan Prezidenti hörmətli Nursultan Nazarbayev tərəfindən dilə gətirilən parlamentlərarası şuranın və məşvərət şurasının yaradılması istiqamətində də işlərə başlamalıyıq.

Dəyərli dostlar!

Gələcək barədə dəyərli qardaşlarımla paylaşdığım baxışları gerçəkləşdirə bilmək yenə bizlərin əlindədir. Bunu edə bilmək üçün gücümüzün, bacarığımızın və ən başlıcası, iradəmizin olduğuna əminəm. Gələcəkdə bugünkündən daha yaxın, daha güclü və sağlam əlaqələr və əməkdaşlıq içində olacağımıza da eyni şəkildə inanıram. İnanın, bunu gerçəkləşdirə bilməsək, gələcək nəsillərə hesabat verə bilmərik. Ortaq gələcəyimizi qura bilməyimiz üçün bu qurultay kimi ortaq forumlarda qəbul edilən qərarları, bəlkə addım-addım, amma real və qətiyyətli bir şəkildə həyata keçirə bilməliyik. Burada qəbul olunacaq qərarlar, yaradılacaq ortaq baxış biz idarəedənlər üçün yolgöstərici və işıq olacaqdır. Bu müddətdə dəstəyimizi heç bir zaman əsirgəməyəcəyimizi, daim çalışmalarımızda iştirak edəcəyimizi açıq şəkildə bildirməkdən məmnunluq duyuram.

Hörmətli Cümhurbaşqanları!

Dəyərli qardaşlarım!

Hörmətli qonaqlar!

Burada iştirak edən bütün dəyərli qonaqlar bilir ki, başqalarının xəyal belə edə bilmədiyini türk topluluqları gerçəkləşdirməyə qadirdir. Bunu keçmişdə bacardıq, indi də bacara bilərik. Ortaq tariximizdə olduğu kimi, bundan sonra seyr edən və ya izləyən deyil, öndə gedən, təyin edən olmalıyıq, olacağıq. Başqa çarəsi yoxdur.

Yəni bu topluluqlar gündəliyi müəyyən edilən yox, gündəliyi müəyyən edən topluluqlar olmalıdır. Çünki lider ölkələr və ya lider ölkə olmağın yolu buradan keçər. İnşallah bizlər də həsəd aparılan ölkələr olacağıq. Bunu burada iştirak edən və ya burada olmasa da könlü, ruhu və vicdanı bizlərlə olan bütün qardaşlarımız edəcəklər. Bu yöndə qətiyyətli addımlar atdığımız təqdirdə bugünkündən daha gözəl günləri birlikdə yaşayacağıq. Bu arzu və inancımı təkrar vurğulayaraq, sizləri hərarətlə qucaqlayır, sizin vasitənizlə digər türk ellərindəki qardaşlarıma salamlarımı göndərir, ev sahibinə - qardaş Azərbaycanın Prezidentinə və qurultayın gerçəkləşməsinə töhfə verən bütün qardaşlarıma bir daha öz adımdan və millətim adından təşəkkürümü bildirirəm.

Şimali Kipr türklərinin lideri Mehmet Əli Tələtin nitqi

- Hörmətli Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli Türkiyə Respublikasının Baş naziri!

Dünyanın müxtəlif ölkələrindən və guşələrindən gəlmiş və bu qurultayda iştirak edən hörmətli nümayəndələr!

Hamınızı səmimi qəlbdən salamlayır və təbrik edirəm. Şimali Kipr türklərindən sizə sevgi və salamlar yetirirəm.

Hörmətli Prezident və hörmətli Baş nazir türk dünyasının qarşılaşdığı problemləri, onların həlli yollarını çox gözəl şəkildə açıqladılar. Mən bunları təkrarlamayacağam. Amma Şimali Kipr türklərinin qarşılaşdığı problemləri sizin diqqətinizə çatdıracağam. Türk dünyasının dəstəyi ilə bunların həll olunacağına inanıram və bu günə qədər olan dəstəyinizin bundan sonra da davam etməsini rica edirəm.

Bilirsiniz ki, Kipr Türkiyənin cənubunda kiprli türklərin və kiprli yunanların ortaq vətənidir. Onlar uzun illərdir ki, gah dava edərək, gah da sülh içində burada yaşamışlar. 1960-cı ildə Kiprdə ortaq bir respublika - Kipr Respublikası yaradılmışdır. Həmin dövrdə yunanlar və türklər bərabər hüquqlu iki xalq olaraq iqtidarı, ölkə rəhbərliyini paylaşmışlar. Amma 1963-cü ildə kiprli yunanların bütün adada hegemon olmaq səbəbi ilə başladıqları hücumlarla bu respublika yıxılmışdır. Həmin vaxtdan sonra kiprli türklər və yunanlar birbirindən ayrılmışlar. O tarixdən etibarən kiprli türklər yavaş-yavaş öz dövlətlərini təşkil etmişlər. Parçalanma 1974-cü ilə qədər davam etmişdir. 1974-cü ildə Yunanıstan Kipri özünə birləşdirmək istəyəndə, Türkiyə Respublikası adaya zəmanət hüququndan istifadə edərək, məsələyə müdaxilə etmişdir. Yəni Türkiyə beynəlxalq hüquq çərçivəsində, kiprli türklərin çağırışları əsasında adaya girmişdir. O vaxtdan bəri Kipr probleminin həlli üçün böyük səylər göstəririk. Başqa türkdilli dövlətlərin yaşadığı sıxıntıları və bayaq deyildiyi kimi, xüsusilə qardaş Azərbaycan xalqının yaşadığı sıxıntıları, onun oxşarını biz də yaşamaqdayıq.

Beynəlxalq hüquq, beynəlxalq təşkilatların çağırışları və dəstəkləri, təəssüf ki, Kipr problemində də yada düşmür. Eynən Qarabağda olduğu kimi. Biz Qarabağın acısını, Azərbaycan xalqının acısını, Azərbaycanda olan qaçqın-köçkünlərin acısını çox yaxşı başa düşürük. Çünki biz də eyni problemləri yaşayırıq. Əmin olun ki,

bütün kiprli türklər Azərbaycanın bu acısını ürəklərində hiss edirlər.

Dağlıq Qarabağ münaqişəsində olduğu kimi, Kipr məsələsində də Birləşmiş Millətlər Təşkilatının qərarları yerinə yetirilmir. Kipr Respublikası hələ də mötəbər dövlət olaraq qəbul edilir.

Bizim hər hansı bir ölkə ilə əlaqələr qurmağımız, hər hansı bir ölkəyə səfərimiz, eləcə də hər hansı bir ölkədən insanların Şimali Kiprə gəlib bizimlə görüşməsi, yunan tərəfinin səyləri ilə əngəllənməyə çalışılır, buna etiraz edilir. Avropa Şurasının üzvü olmaqdan istifadə edilərək, Avropa İttifaqı ölkələrinin də dəstəyi ilə bizimlə əlaqəsi olan qardaş, dost ölkələrə təzyiqlər edilir. Avropa İttifaqı ilə imzalanacaq müqavilələr bəhanə edilərək, təzyiqlər olunur. Biz bu sıxıntıları illərlə yaşayırıq. Biz böyük fədakarlıq göstərərək, 2004-cü ildə Birləşmiş Millətlər Təşkilatı Baş katibinin təklif etdiyi planı dəstəklədik. Özü də bilirdik ki, bu plan baş tutarsa, Şimali Kipr əhalisinin üçdəbiri yaşayış yerini dəyişdirəcəkdi.

Biz niyə bunu etdik? Çünki demişdilər ki, əgər siz "bəli" desəniz, Kipr problemi həll ediləcək, Kipr bir bütöv olaraq Avropa İttifaqına girəcəkdir. Əgər olmazsa, dünya ilə əməkdaşlıq etməyən

dünya birliyinin istəklərinə zidd davrananlar rahat ola bilməyəcəkdir. Yəni artıq kiprli türklər təcrid edilməyəcəklər, əksinə, Kiprin yunan tərəfi təcrid olunacaqdır. Bunu Amerika, İngiltərə, Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatı dəfələrlə bildirmişdir. Hətta Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası qərar da qəbul etmişdi ki, Kipr probleminin həlli ancaq "Annan planı" çərçivəsində ola bilər. Təhlükəsizlik Şurasının bu qərarı Dağlıq Qarabağ barədə qərarlar kimi bir qərar idi. Ancaq Kiprin yunan tərəfi "yox" dedi. Onun lideri televiziya ilə çıxış edib "güclü bir yox istəyirəm" deməsinə baxmayaraq, Avropa İttifaqı və dünya hələ də onları Kiprin məsul hökuməti kimi qəbul edir.

O dövrdə Avropa İttifaqının genişlənmə məsələlərinə cavabdeh olan komissarı hörmətli Günter Verhoygen "aldadıldığımı hiss edirəm" demişdi. Çünki Kiprin yunan tərəfi ona demişdi ki, narahat olmayın, əgər türklər qəbul edərsə, biz də qəbul etməyə hazırıq. Hörmətli Verhoygen, Avropa İttifaqı və BMT buna inanmışdı. Amma belə olmadı. Belə olmadığı halda, kiprli türklərə qarşı qadağa götürülməli idi. Bununla əlaqədar heç bir addım atılmadı. Birləşmiş Millətlər Təşkilatının Baş katibi bildirdi ki, kiprli türklərin təcridi və lazımsız məhdudiyyətlər götürülməlidir. Avropa İttifaqı kiprli türklərə qarşı iqtisadi təcridin götürülməsi barədə qərar qəbul etdi. Ancaq heç birini yerinə yetirmədilər. Təbii ki, bu gün üzümüzə baxmaqdan bir az utanırlar. Biz onlara tez-tez bu sözlərini xatırladırıq və onların hərəkət etmələrini istəyirik. Əslində çox şey də istəmirik. Biz Təhlükəsizlik Şurasının qərarları çərçivəsində Kipr probleminin həllinə hazır olduğumuza görə, eyni davranışı qarşı tərəfdən də gözləyirik. Əvvəlki günlərdə Kiprin yunan tərəfinə konkret təkliflər etdim. Kiprin yunan lideri, guya Kipr problemini bilmirmiş kimi, dedi ki, hazırlığa ehtiyacımız vardır.

Nə hazırlıqdır? Bəlkə də, haqqında ən çox kitab, məqalə yazılmış, qəzet xəbəri çıxmış mövzu Kipr problemidir. İnternetə girib "Kipr problemi" yazın, minlərcə kitab və məqalə taparsınız. Nəyin hazırlığını edəcəyik? Bu, edilmişdir - BMT-nin cildlərlə sənədləri vardır. Ancaq yenə israr edir, hazırlıq istəyirlər. Biz bunu qəbul etdik. Dedik ki, beş dənə komissiya yaradaq, onlar iki ay yarım hazırlıq işləri görsün. Sonra üzbəüz oturub müzakirələrə başlayaq. 2008-ci ilin sonuna qədər Kipr problemini həll edək. O isə dedi ki, yox, mən müddət məhdudiyyəti qəbul etmirəm. Bu nə deməkdir? Müddət məhdudiyyəti qəbul etməmək məsələni sonsuzluğa qədər uzatmaq deməkdir.

Kiprli türklər fikirlərində qətidirlər, təslim olmaq niyyətində deyillər. Kiprli yunanlar nəyi gözləyirlər, niyə vaxtı uzadırlar? Əslində, səbəbi bəllidir. Onların planları başqadır. Hər işdə bizi dəstəkləyən və hər zaman təşəkkür etdiyimiz Türkiyə Respublikası Avropa İttifaqına doğru irəliləyir. Avropa İttifaqının Türkiyə Respublikasından götürəcəyi çox şey vardır. Buna görə də qapılarını açmış və ya açmaq məcburiyyətində qalmışdır. Kiprin yunan tərəfi də Avropa İttifaqının üzvüdür. Türkiyənin bu yolda irəliləyərkən onlara möhtac olacaqlarını zənn edirlər. Türkiyə bu yolda irəliləyərkən önünə əngəllər çıxaracaqlarını və beləliklə, Kipr məsələsində Türkiyəni güzəştə getməyə məcbur edə biləcəklərini xəyal edirlər. Onların ən çox ümid etdikləri, gözlədikləri Türkiyənin bizə "yunanların istəklərini qəbul edin, artıq sizi dəstəkləyə bilmirik" deməsidir. Bu xəyalla da vaxtı uzatmağa çalışırlar. Təbii ki, bunun bir xəyal olduğunu hər kəs bilir. Türk dünyası da bunu bilir. Kipr məsələsində yunanlarının səhv addım atmış olduqları hər kəsə bəllidir. Ona görə biz kiprli türklər narahat olmuruq. Türk dünyasının dəstəyini bundan sonra da alacağımıza əminik. Türk dünyası birləşdikcə, gücünü bir yerə topladıqca, bizə daha çox dəstək verəcəkdir. Bunu bilirik və görürük. 100 milyonluq bir dünyanın bizə verəcəyi dəstəyin problemlərimizi həll edəcək ən önəmli dəstək olduğunu da bilirik.

Dəyərli qardaşlarım, biz çox şey istəmirik. Haqqımızı istəyirik, haqqımızdan çoxunu istəmirik. Heç kimin də haqqına toxunmuruq. Ona görə də bizə verəcəyiniz dəstək haqsızlığa deyil, haqqa dəstək olacaqdır. Türk dünyasının da şöhrəti bunu tələb edir.

Hamınızı bağrıma basıram.

Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Xıdır Saparlıyevin çıxışı

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

Mən sizə günəşli Türkmənistandan, Türkmənistan Prezidenti cənab Qurbanqulu Berdiməhəmmədovun, bütün türkmən xalqının atəşin salamlarını gətirmişəm.

Türkmənistan Prezidenti adından mən sizi Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının açılışı münasibətilə ürəkdən təbrik edir, türkdilli dövlətlərə və cəmiyyətlərə bu qurultayın işində müvəffəqiyyətlər diləyirəm.

İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə səmimi minnətdarlığımı bildirmək istərdim. Azərbaycan xalqının qonaqpərvərliyinə və bu forumun təşkilatçılarına mənə burada iştirak etmək imkanı verdiklərinə görə öz minnətdarlığımı bildirirəm.

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı dərin tarixi kökləri olan, qocaman ağacın budaqlarını təcəssüm etdirən türkdilli xalqların dostluq və qardaşlıq bayramıdır.

Əziz dostlar, vaxtilə Sovetlər Birliyinin tərkibində olan türkdilli dövlətlərin müstəqillik əldə etdiyi dövrdən cəmi 16 il keçir. Bu qısa vaxt ərzində bizim qardaş dövlətlərimiz sürətlə inkişaf etmiş və nəinki siyasi, həm də iqtisadi müstəqilliklərini möhkəmləndirmişdir. Uzun əsrlər boyu suveren inkişaf etmək hüququ uğrunda mübarizə aparmış türkdilli xalqlar artıq yeni şəraitdə öz aralarında münasibətlərin daha da möhkəmlənməsinə, qarşılıqlı hörmət və etimad əsasında inkişaf etdirilməsinə can atırlar. Bu, müstəqil və bitərəf Türkmənistanın siyasətində də təzahür edir. Türkmənistan cəmi 16 il bundan öncə müstəqil olmuşdur və hazırda Prezident Qurbanqulu Berdiməhəmmədovun dəyərli təşəbbüsləri nəticəsində bizim ölkəmiz işıq saçan dirçəliş və islahatlar yolu ilə əminliklə irəliyə doğru addımlamaqdadır.

Müstəqillik dövrü ərzində Türkmənistan dünya birliyində öz layiqli yerini tutmağa müvəffəq olmuşdur. Ölkəmizin istər siyasət, istərsə də iqtisadiyyatda əldə etdiyi nailiyyətləri, o cümlədən milli mədəniyyətimizin, mənəvi dəyərlərimizin dirçəlişi seçdiyimiz yola sadiq olmağımıza, habelə bütün dünyada tanınmış bu yolun nə dərəcədə mühüm olmasına dəlalət edir. Türkmən cəmiyyətinin hazırkı həyatında milli dəyərlərə daha da önəm verilir, bunlar ümumbəşəri dəyərlərlə uzlaşır və beləliklə, humanizmin bərqərar olunması prosesi gedir.

Türkmənistan və türkmən xalqı bilavasitə dünya dövlətləri və xalqları ilə qardaşlıq münasibətləri saxlamaqdadır. Ölkəmiz müstəqilliyi əldə etdikdən sonra biz bilavasitə açıq qapı siyasətini bəyan etdik. Türkdilli xalqlara gəldikdə, əlbəttə, onlarla münasibətlərimiz xüsusi əhəmiyyət daşıyır. Çünki Türkmənistanın müstəqilliyini ilk növbədə məhz bu dövlətlər tanımışlar və bundan sonra biz Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanla diplomatik münasibətlər yaratmışıq. 2006-cı ildə, məsələn, Türkmənistan ilə Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan respublikaları arasında mal dövriyyəsinin həcmi xeyli artmışdır. Bu ilin doqquz ayının nəticələrinə nəzər salsanız görəcəksiniz ki, bu göstəricilər daha da artmaqdadır.

Hörmətli iştirakçılar, demək istəyirəm ki, Türkmənistan ilə digər türkdilli dövlətlər arasında ikitərəfli münasibətlər səmərəli qaydada inkişaf edir. Bu, təkcə iqtisadiyyat sahəsində deyil, həmçinin elm, təhsil, mədəniyyət sahələrində də özünü göstərir. Bu ölkələrdən olan nümayəndə heyətləri Türkmənistanda, bizim nümayəndələr digər türkdilli dövlətlərdə keçirilən beynəlxalq elmi konfranslarda, festivallarda, seminarlarda və başqa tədbirlərdə iştirak edirlər.

Demək istərdim ki, digər türkdilli xalqlar kimi, türkmən xalqı da ümumi köklərə əsaslanır və eyni tarixi taleyi yaşayan bir xalqdır və biz həmişə öz əcdadlarımızın adət-ənənələrinə sadiq olmuşuq. Əlbəttə, türkdilli xalqların bəşəriyyətin inkişafına verdikləri böyük töhfə bizi sevindirir və bizim qürur hissimizdir. Tarix boyu Avrasiyanın geniş məkanlarında məskunlaşmış bizim əcdadlarımız insanların inkişafı üçün tələb olunan və çox böyük əhəmiyyət daşıyan maddi və mənəvi dəyərlər yaratmışlar. Bu irsi məhz biz onlardan qəbul etmişik və bunlar bilavasitə həm dövlət quruculuğunun, həm də ədalət, humanizm, sülh, dostluq və qardaşlıq prinsiplərinin inkişafına rəvac verən dəyərlərdir. Hazırda türkdilli xalqlar böyük bir mədəniyyətin varisləridir və bu mədəniyyətin kökləri tarixin dərinliklərinə gedib çıxır. Biz, əlbəttə ki, bundan qürur hissi keçiririk. Ona görə də milli mənəvi irsimizi qoruyur və daha da artırırıq. Özünün keçmişini bilmək, bu keçmişdən ibrət götürmək, əcdadların irsinə arxalanmaq və bundan çıxış edərək bilavasitə gələcəyi qurmaq tarixin tələbi və zərurətdir. Hər bir xalq öz tarixini, tarixi və mədəni irsini bilməlidir və buna borcludur. Məhz buna görə digər türkdilli dövlətlər kimi, Türkmənistan da müstəqilliyini əldə etdikdən sonra millətin mənəvi dirçəlişini özünün prioritet istiqaməti kimi müəyyən etdi. Bu, xalqımızın bilavasitə öz milli zənginliyinə, milli dəyərlərinə qayıtması demək idi. Hazırda bütün dünyada insan təfəkküründə inkişafı, elmin, texnologiyaların tərəqqisi baş verir. Bu, həm də qloballaşma dövründə xalqların öz milli irsini qoruyub saxlaması deməkdir. Eyni zamanda, bilavasitə dostluq və qardaşlıq münasibətləri, millətlərarası əməkdaşlıq məsələsi çox böyük əhəmiyyət daşıyır.

Qoy, türkdilli xalqların qardaşlıq və dostluq ağacı həmişə çiçəklənsin!

Sağ olun.

Qırğızıstanın təhsil və elm naziri Kanibek Osmonaliyevin çıxışı

- Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyev!

Hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan!

Xanımlar və cənablar!

Biz çox vacib bir missiya ilə Azərbaycana təşrif buyurmuşuq.

Bizi buraya dəvət etdiklərinə, eyni zamanda, belə qonaqpərvərliyə görə istərdim ki, Qırğızıstan nümayəndə heyətinin adından Azərbaycan Respublikasının Prezidentinə, hörmətli cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirim. Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının belə yüksək səviyyədə təşkili üçün təşəkkür etmək istəyirəm. Eyni zamanda, qeyd etmək istərdim ki, qısa fasilədən sonra qurultayın fəaliyyəti bərpa olunmuşdur. İnanıram ki, bütün dövlətlərimiz bu qurultaylardan faydalanacaqlar.

Belə bir tədbirin keçirilməsi türkdilli dövlətlərin vəhdətinin, birliyinin mövcud olmasını bir daha göstərir. Bu kontekstdə çox vacib məsələ ondan ibarətdir ki, Qırğızıstanla qonşu türkdilli dövlətlər arasında mühüm əlaqələr mövcuddur. Bu əlaqələr tarix, mədəniyyət və dil birliyi əsasında formalaşmışdır. Onlar bir-birinə qarşılıqlı etimad əsasında həyata keçirilir. Bütün sahələrdə bu əlaqələr qardaşlıq ruhunda, bərabərlik və qarşılıqlı hörmət, ümumi maraq ruhunda həyata keçirilir.

Biz bu qurultayın keçirilməsini çox vacib, əhəmiyyətli hadisə kimi qiymətləndiririk. Belə ki, bütün sahələrdə səylərimizi daha canlı şəkildə həyata keçirmək mümkün olsun, daha səmərəli əməkdaşlıq edək, daha sıx dostluğun yaradılması mümkün olsun.

Türkdilli dövlətlərin birliyinin yaradılması, həm ikitərəfli, həm çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün qurultayın çox böyük əhəmiyyəti vardır. Biz başa düşürük ki, mədəniyyətlər arasında dialoqun yaradılmasına çoxdan ehtiyac vardır. Yəni bir-birinə qohum olan bu dövlətlər arasında çox yüksək əlaqələr yaradılmış olsun. Siyasi əlaqələr artıq çox yüksək səviyyədə mövcuddur, bizi regional məsələlər birləşdirir. Eyni zamanda, biz istərdik ki, iqtisadi, ticari, mədəni, humanitar sahələrdə əməkdaşlıq nöqteyi-nəzərindən daha çox nailiyyətlər əldə edilmiş olsun. Bizim ölkələr arasındakı münasibətlərin genişləndirilməsi baxımından qurultayın komissiyalarının işi böyük əhəmiyyət kəsb edir. Onlar öz işləri ilə dostluq və əməkdaşlığın genişləndirilməsinə gələcəkdə daha çox töhfə verməlidirlər. Bu baxımdan inanıram ki, Qırğızıstanın qardaş türkdilli dövlətlərlə əlaqələrinin genişləndirilməsi XXI əsrdə davam edəcəkdir. Bu, qarşılıqlı etimad, qarşılıqlı hörmət əsasında həyata keçiriləcəkdir.

Biz düşünürük ki, gələcəkdə qurultay çərçivəsində əməkdaşlıq getdikcə inkişaf edəcəkdir, genişlənəcəkdir. Buna ölkələrimizin həm iqtisadi potensialı, həm də siyasi əlaqələri kömək etmiş olacaqdır. Biz öz tərəfimizdən qardaş türkdilli dövlətlərin birliyinə xidmət edən bütün layihələrdə iştirak etməyə hazırıq.

Diqqətinizə görə hamınıza təşəkkür edirəm. Hamınıza ən xoş arzularımı ifadə edirəm.

Çox sağ olun.

Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini Askar Buribayevin çıxışı

- Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Əliyev!

Türkiyənin hörmətli Baş naziri cənab Rəcəb Tayyib Ərdoğan!

Xanımlar və cənablar!

Bügünkü Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı xüsusi bir əhəmiyyət kəsb edən hadisədir. Bu tədbirin keçirilməsinə görə təşkilatçılara təşəkkürümüzü bildiririk.

Xanımlar və cənablar!

Son illər ərzində bütün türkdilli dövlətlər arasında mədəni, mənəvi, humanitar və digər sahələrdə əlaqələr getdikcə genişlənməkdədir. Bu dövlətlər ümumi mədəniyyətə, ümumi tarixi köklərə, ümumi dilə malikdirlər. Türk dünyası dünya sivilizsiyasında çox əhəmiyyətli rol oynamışdır. Bizim əcdadlarımız tərəfindən yaradılmış mədəniyyət abidələri hazırda bütün bəşəriyyətə

məxsusdur. Bu nailiyyətləri, bu dəyərləri yeni nəsillərə çatdırmaq bizim qarşımızda duran məqsədlərdən biridir.

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının Bakıda keçirilməsi türkdilli xalqların əməkdaşlığının bariz nümunəsidir. Onlar öz mentalitetinə, dillərinə, tarixi ənənələrinə görə bir-birinə çox yaxındırlar.

Qazaxıstan qardaş Azərbaycanın və digər türkdilli dövlətlərin təşəbbüslərini hərtərəfli şəkildə dəstəkləyir. Növbəti qurultayın keçirilməsi ideyalar mübadiləsi üçün çox gözəl bir imkandır ki, bunun da nəticəsində türk dünyası daha da inkişaf edə bilsin.

Hörmətli dostlar!

Qurulyatın işinə uğurlar arzulayıram. Diqqətinizə görə təşəkkür edirəm.

Çox sağ olun.

Sonra qədim türklərin Ərgənəkondan çıxışı, türk birliyini simvolizə edən dəmirdöymə mərasimi oldu. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Şimali Kipr türklərinin lideri Mehmet Əli Tələt, digər türkdilli dövlətlərin nümayəndələri rəmzi dəmirdöymə mərasimini icra etdilər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevə, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana türkdilli dövlətlər və xalqlar arasında dostluq, qardaşlıq və əməkdaşlıq münasibətlərinin inkişafı sahəsindəki xidmətlərinə görə TÜDEV adından "Orxon-Yenisey" mükafatı təqdim olundu.

Qurultay iştirakçıları birgə xatirə şəkli çəkdirdilər.

Bununla da qurultayın rəsmi hissəsi başa çatdı.

ANS Şirkətlər Qrupu və Çingiz Mustafayev adına Fondun "2007-ci ilin adamı" mükafatı

2008-ci il fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ANS Şirkətlər Qrupu və Çingiz Mustafayev adına Fondun "2007-ci ilin adamı" mükafatının təqdim olunması mərasimi keçirilmişdir.

Bu münasibətlə Bakıda, "Park İNN" mehmanxanasının salonuna toplaşanlar dövlət başçısını hərarətlə qarşıladılar.

Mərasimi ANS Şirkətlər Qrupunun vitse-prezidenti Mirşahin Ağayev açdı.

Ans Şirkətlər Qrupunun vitse-prezidenti Mirşahin Ağayevin çıxışı

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

ANS Şirkətlər Qrupu və Milli Qəhrəman Çingiz Mustafayev adına Fondun təsis etdiyi "2007-ci ilin adamı" mükafatının və diplomunun təqdim olunması mərasimini açıq elan edirəm. Bu mükafat və diplom 2001-ci ildən başlayaraq təqdim olunur və onun qayəsində vətənpərvərlik və millətə göstərilən xidmətlərin dəyərləndirilməsi dayanır.

Azərbaycanın tərəqqisi, yüksək milli-mənəvi xüsusiyyətlərimizin etibarlı surətdə qorunub saxlanılması, müstəqil dövlətimizin imicini yaratmaq kimi böyük amalların təşviqi və bu niyyətə qulluq göstərən insanların təbliği - Çingiz Mustafayev adına Fondun və ANS Şirkətlər Qrupunun təsis etdiyi, artıq ən nüfuzlu ictimai ölçüyə çevrilməkdə olan mükafatın başlıca leytmotivi budur.

Azərbaycan uğrunda şərəfli bir şəhadətlə şəhid olmuş insanın adını daşıyan fondun bu mükafatı, təbii olaraq, öz bacarığını və səylərini Azərbaycanın rifahına yönəldən, ömrünü bu dövlətə, bu xalqa həsr edən şəxslərə verilir. İctimai həvəsləndirmə və təşviq etmənin ciddi atributu kimi etiraf olunmuş bu mükafat bir azdan öz sahibinə - 2007-ci ilin adamına təqdim ediləcəkdir. Biz əminik ki, ünvanı və qiymətləndirilən məqamları düzgün seçmişik. Olduqca mürəkkəb, eyni zamanda, son dərəcə zəngin olan 2007-ci ildə öz məqsədyönlü fəaliyyəti ilə Azərbaycana, onun xalqına xidmət göstərən insanlar arasından ən layiqlisi üzərində dayandığımıza şübhə etmirik.

Elə buradaca mən toplantımıza qatılan mötəbər qonaqları, kütləvi informasiya vasitələrinin nümayəndələrini bir daha salamlayır, sözü ANS Şirkətlər Qrupunun prezidenti Vahid Mustafayevə verirəm.

Ans Şirkətlər Qrupunun prezidenti Vahid Mustafayevin çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

ANS Şirkətlər Qrupu və Milli Qəhrəman Çingiz Mustafayev adına Fond "2007-ci ilin adamı" mükafatı və diplomunun təqdim olunması mərasimində sizi ürəkdən salamlayır.

Müstəqil Azərbaycan dövləti onun hər bir vətəndaşının toxunulmaz sərvətidir. Yerləşdiyimiz mürəkkəb geosiyasi məkan, Azərbaycanın qarşısına qoyduğu ali məqsədlər bu gün ölkəmizi bütün dünyanın diqqət mərkəzinə çıxarıbdır.

Azərbaycanın əldə etdiyi nəticələr onu artıq Cənubi Qafqazın aparıcı dövlətinə çeviribdir. Elə buradaca qeyd edim ki, bu uğurların mühüm bir hissəsi Heydər Əliyev xəttini bacarıqla davam etdirən və onu müasir dövrün hər an dəyişən tələblərinə özünəməxsus şəkildə uyğunlaşdıran Prezident İlham Əliyevlə bağlıdır.

"Mən hər bir azərbaycanlının Prezidentiyəm" deyə dövləti idarə etməyə başlayan İlham Əliyevdən ötrü 2007-ci il bu sözləri əməldə sübut etmək üçün növbəti fürsət oldu. Dövlət başçısı istər daxili, istər xarici siyasəti ilə nümayiş etdirdi ki, onun rəhbərliyi altında görülən işlər heç də konyunktura hesablanmış taktiki gedişlər deyil, daha çox uzaqmənzilli xarakter daşıyır.

2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev region üçün xüsusi əhəmiyyətə malik Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təməlinin qoyulmasına nail oldu. Layihə həm də ona görə xüsusi qiymətə layiqdir ki, Azərbaycan bu işə heç bir iri dövlətin açıq maddi və siyasi dəstəyi olmadan özü imza atdı. Bu isə asan məsələ deyildi.

Layihənin üzləşdiyi çətinlikləri Bakı-Tbilisi-Ceyhan kəmərinin işə düşməsi ərəfəsində ölkəmizin üzləşdiyi təzyiqlərlə müqayisə etmək olar. Uzağa getməyək, Azərbaycanın layihədəki müttəfiqlərindən biri olan Gürcüstanda inqilabi proseslər məhz təməlqoyma ərəfəsinə təsadüf etdi.

ANS şirkətlər qrupu və Çingiz Mustafayev adına Fond bu çox mühüm regional layihəni birmənalı müsbət addım kimi Azərbaycan Prezidentinin aktivinə yazıbdır.

Bu gün beynəlxalq enerji təhlükəsizliyi dünyanın prioritetinə, Azərbaycan bu təhlükəsizlik sisteminin fəal tərkib hissəsinə çevrilibdir. 2007-ci il bu baxımdan çox faydalı oldu. Azərbaycan qazı Avropaya məhz ötən il çıxdı və bununla da İlham Əliyev Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyi sistemindəki rolunu maksimum artırdı.

Çingiz Mustafayev adına Fond və ANS Şirkətlər Qrupu Azərbaycan qazının Avropaya çıxmasını Prezidentin 2007-ci ildə davam etdirdiyi enerji siyasətinin beynəlxalq etirafı kimi dəyərləndiribdir.

Qeyd etmək lazımdır ki, bütün bu nailiyyətlər dünyada gedən dramatik proseslər fonunda baş veribdir. Amerika Birləşmiş Ştatları və İran İslam Respublikası arasında yaşanan gərginlik 2007-ci ildə özünün, az qala, zirvə saatına çatdı.

İlham Əliyev isə xüsusilə gərginləşmiş bu münasibətlər fonunda yürütdüyü tarazlaşdırılmış siyasət nəticəsində Azərbaycanı mümkün təhlükələrdən etibarlı surətdə qorudu.

Biz burada iki faktı xüsusilə qeyd etməliyik. Əvvəla, Azərbaycan antiterror koalisiyasında Birləşmiş Ştatların əsas müttəfiqi və strateji tərəfdaşlarından biridir. Digəri isə, 20 milyondan artıq azərbaycanlının yaşadığı İran İslam Respublikası ilə ölkəmizin tarixi qonşuluq və qardaşlıq ənənəsinin bundan sonra da qorunması məsələsi idi.

Çingiz Mustafayev adına Fond və ANS Şirkətlər Qrupu Prezidentin bu son dərəcə mürəkkəb vəziyyətdən çıxmaq bacarığını da qiymətləndirdi.

2007-ci ildə dövlət başçısının daxili siyasi xətti öz geniş miqyası və rəngarəngliyi ilə diqqəti cəlb edir. Biz Prezidenti hər yerdə görürdük. Bir il ərzində Bakıda neçə-neçə körpü, yolötürücüləri, yeraltı keçidlər tikildi.

Paytaxtda və bölgələrdə yeni iş yerlərinin açılması, ən ucqar rayonlara belə qaz xətlərinin çəkilməsi İlham Əliyevin Prezident kimi içdiyi anda qoyduğu hörmətin təsdiqi oldu.

Azərbaycanda yoxsulluq həddində yaşayanların səviyyəsinin 16 faizə enməsi barədə rəsmi məlumat da dövlət başçısının ilin adamı elan olunması ərəfəsinə təsadüf etdi.

Bu il Azərbaycanda son çadır şəhərciyi ləğv olundu. Məcburi köçkünlərin güzəranı xeyli yaxşılaşdı. İlham Əliyevi ilin adamı elan edərkən bütün bunlar da nəzərə alınıbdır.

Azərbaycan varlandıqca, dövlətləndikcə onun ordusu da qüdrətlənir. Ordunun saxlanmasına ayrılan vəsait ötən il bölgədə rekord həddə çatdı: 812 milyon manat.

Prezidentliyin keçən ili Azərbaycanda artıq ilk hərbi məhsulların istehsal edilməsi, milli silahlı qüvvələrin NATO standartlarına bütünlüklə keçməsi ilə əlamətdar oldu. Müharibə vəziyyətində olan bir ölkənin bu istiqamətdə qazandığı hər bir uğur Azərbaycanın ərazi bütövlüyünün tez bir zamanda bərpa ediləcəyinə olan inamı artırır.

Dövlət başçısı bu yaxınlarda ön xətdəki əsgərlərin yanında da oldu. Bu sadə bir həqiqət idi ki, Ali baş komandan öz hərəkəti ilə deyirdi: "Əsgər, mən sənin yanındayam!"

Nəhayət, Çingiz Mustafayev adına Fond və ANS Şirkətlər Qrupu Azərbaycanın ilk müstəqil teleradio şirkətinin ətrafında 2006-cı ilin sonu-2007-ci ilin əvvəlində yaşanan böhranın və gərginliyin aradan qaldırılmasında, daha doğrusu, ANS-in fəaliyyətinin bərpası və lisenziya müddətinin uzadılmasında Prezident İlham Əliyevin həlledici rolunu, habelə bir qrup jurnalisti həbsdən azad etməsini qiymətləndirməyə bilməzdi. Prezident bu addımı ilə bir daha sübut etdi ki, demokratiya və söz azadlığının yanındadır.

DÖYÜŞ ALNINIZA YAZ
2
ANS
Çinqiz Mustafayev
2007-ci İLİN ADAMI
www.an
ANS ŞİRKƏTL

Möhtərəm Prezident!

Xanımlar və cənablar!

İndi isə Sizi, 2007-ci ilin adamının nailiyyətlərini əks etdirən videoçarxa baxmağa dəvət edirəm.

Videoçarxın nümayişindən sonra Vahid Mustafayev elan etdi ki, Prezident İlham Əliyev bu mükafata bir sıra aparıcı dövlətlərin müqavimət və təzyiqlərinə baxmayaraq, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təməlinin qoyulmasında, Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyi sistemində yerinin möhkəmlənməsinin tərkib hissəsi olaraq ölkə qazının Avropa bazarına çıxmasında, Amerika Birləşmiş Ştatları və İran İslam Respublikası arasında xüsusilə gərginləşmiş münasibətlər fonunda yürütdüyü tarazlaşdırılmış siyasət nəticəsində Azərbaycanın mümkün təhlükələrdən qorunmasında, ölkədə və paytaxtda infrastruktur layihələrinin uğurla həyata keçirilməsində və yeni iş yerlərinin açılmasında, habelə Azərbaycan ərazisindəki son çadır düşərgəsinin ləğv olunması - vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasında, ordu quruculuğunun uğurla davam etdirilməsində, hərbi sənaye kompleksinin işə düşməsi və ilk hərbi məhsulların əldə edilməsində, Azərbaycan silahlı qüvvələrinin ən müasir standartlara cavab verməsi məqsədi ilə orduya ayrılan vəsaitin kəskin şəkildə artırılmasında, Azərbaycanın ilk müstəqil teleradio şirkəti olan ANS-in fəaliyyətinin bərpası və lisenziyasının uzadılmasında oynadığı müstəsna rola, habelə həbsdə olan jurnalistlərin azadlığa buraxılmasına görə layiq görülmüşdür.

Ənənəyə uyğun olaraq, Prezident İlham Əliyevə xüsusi diplom, Çingiz Mustafayev Fondu adından 5000 manat məbləğində pul mükafatı, ANS Şirkətlər Qrupu adından isə məxsusi hazırlanmış, tam əl işi olan Glashüttü qol saatı təqdim edildi.

Dövlət başçısına diplomu Milli Qəhrəman, telejurnalist Çingiz Mustafayevin oğlu Fuad Mustafayev təqdim etdi.

Prezident İlham Əliyev mərasimdə geniş nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar,

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mənim fəaliyyətimə verilən bu yüksək qiymətə görə Milli Qəhrəman Çingiz Mustafayev adına Fonda və ANS Şirkətlər Qrupuna öz minnətdarlığımı bildirmək istəyirəm. Qeyd etmək istəyirəm ki, bundan sonrakı fəaliyyətimdə də mən çalışacağam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim. Bu pul mükafatını isə mən Silahlı Qüvvələrə Yardım Fonduna köçürürəm.

Bu gün mənim ünvanıma səslənən bütün xoş sözlərə görə sizin hamınıza və Vahid Mustafayevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bu videoçarxda göstərilən kadrlar Azərbaycanın uğurlarını əks etdirir. Həqiqətən, 2007-ci ildə ölkəmiz daha da güclənmişdir, öz mövqelərini möhkəmləndirmişdir. Deyə bilərəm ki, 2007-ci il Azərbaycanın müasir tarixi üçün çox önəmli il olmuşdur. Bu ildə ölkəmizin gələcəyi üçün çox mühüm hadisələr baş vermişdir və bunların nəticəsində Azərbaycan daha da güclənmiş və inkişaf etmişdir. Amma onu da bilirik ki, əldə edilmiş bu nailiyyətlərin təməli 1990-cı illərin ortalarında qoyulmuşdur. Məhz o illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış "Əsrin müqaviləsi" bütün bu sahədəki - enerji və nəqliyyat sahəsindəki başqa layihələrə güclü təkan vermişdir. Təsəvvür etmək çətindir ki, əgər o zaman bu cəsarətli addım atılmasaydı, Azərbaycanın indiki durumu necə olacaqdı və şübhə yox ki, Azərbaycan öz müstəqil siyasətini aparmaqda böyük çətinliklər çəkə bilərdi. Bu gün isə biz, sözün əsl mənasında, müstəqil dövlətik. Bizim xalqımız əsrlər boyu başqa ölkələrin tərkibində yaşamışdır – müstəqillikdən məhrum idi, azadlıqdan məhrum idi, bu və ya digər formada müstəmləkə kimi yaşamışdır. Azərbaycan xalqının ən böyük xoşbəxtliyi ondadır ki, biz indi müstəqilik. Bizim də ən böyük xoşbəxtliyimiz ondadır ki, bu müstəqilliyi görmüşük. Nəsillər gəlibdir, gedibdir, müstəqillik həsrətində olublar, ancaq onu görə bilməmişlər. Bizim nəslimiz bunu görür və öz əməli işlərimizlə bu müstəqilliyi möhkəmləndiririk və bundan sonra da möhkəmləndirəcəyik.

Enerji sahəsindəki səslənən fikirlərə gəldikdə, əlbəttə ki, bu işlər Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün çox böyük imkanlar açır. Bizim maddi imkanlarımız artır, maliyyə resurslarımız güclənir. Azərbaycanın dövlət büdcəsi son dörd il ərzində 10 dəfə artmışdır ki, bunun da təməlində, ilk növbədə, enerji amili dayanır. Biz keçən il, 2007-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tam gücü ilə işləməsinə nail ola bilmişik. Hamımız yaxşı xatırlayırıq ki, bir vaxt bu layihəyə böyük ümidsizliklə yanaşanlar da var idi. Həm ölkə daxilində, həm də xüsusilə xaricdə. Bu layihəyə əngəl törətmək, maneçilik yaratmaq, yaxud da ki, onu hörmətdən salmaq cəhdlərini biz çox yaxşı xatırlayırıq. Belə fikirlər də meydana atılırdı ki, Azərbaycanda kifayət qədər neft yoxdur, bu layihə səmərəsiz layihədir, sadəcə olaraq, siyasi məna daşıyır və Azərbaycan xalqı bundan heç bir fayda görməyəcəkdir. Biz isə bilirdik ki, reallıq tam başqadır. Biz bilirdik ki, bu layihə Azərbaycanı xoşbəxt gələcəyə aparan vasitədir. Azərbaycanda son dörd il ərzində yoxsulluğun 16 faizə düşməsinin başlıca səbəbi 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"dir və ondan irəli gələn inkişaf meyilləridir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri tam gücü ilə işləyir, Azərbaycan neftini dünya bazarlarına daşıyır və heç bir başqa ölkənin neftinə ehtiyacımız da yoxdur. Halbuki, bu fikirlər də, yəqin, yadınızdadır, deyirdilər ki, başqa ölkələrin nefti olmasa, Bakı-Tbilisi-Ceyhan kəməri işləməyəcəkdir. Həqiqət tam başqadır. Biz bunu bilirdik və mən çox şadam və xoşbəxtəm ki, biz bu gözəl hadisəni birlikdə qeyd etdik.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri və "Şahdəniz" layihəsinin işlənməsi işləri müəyyən müddət bir növ Bakı-Tbilisi-Ceyhan kimi nəhəng transmilli layihənin kölgəsində qalmışdı. Dünya birliyi və xüsusilə bu məsələlərlə ciddi məşğul olan qurumlar buna o qədər də böyük önəm vermirdilər. Xüsusilə nəzərə alsaq ki, 1990-cı illərin ortalarında, müqavilə imzalanan zaman və hətta 2000-ci illərin əvvəllərində qaz amilinə dünya enerji məkanında o qədər də böyük önəm verilmirdi.

Halbuki biz özümüz xarici tərəfdaşlarla "Şahdəniz" qaz yatağının işlənilməsi üçün çox vacib addımlar atmışdıq və qaz kəmərinin tikintisi o vaxta təsadüf edirdi ki, dünyada qaz amili enerji sahəsində birinci yerə çıxmışdı. Bu gün Avropanın enerji təhlükəsizliyi məsələləri müzakirə olunanda, ilk növbədə, qaz amilindən söhbət gedir. Azərbaycanda aşkar olunmuş nəhəng qaz ehtiyatları imkan verəcək ki, növbəti 100 il ərzində Azərbaycan həm özünü qazla təmin edəcək, həm də başqa ölkələrə qaz ixrac edəcəkdir. 100 il, yəni bu, ən aşağı həddir və ümid edirəm ki, gələcəkdə daha da böyük yataqlar aşkar olunacaqdır. Bu gün Azərbaycan həm neft, həm də qaz ixrac edən ölkəyə çevrilir və neft hasil edən ölkələr arasında buna tez-tez rast gəlinmir. Daha çox neftlə zəngin olan ölkələr neft ixracı ilə məşğuldur. Azərbaycanda həm neft var, həm qaz var, həm də əlverişli coğrafi vəziyyət var. Həm də ki, biz ölkəmizin güclənməsi üçün, Azərbaycanın beynəlxalq nüfuzunun qaldırılması üçün bütün bu amillərdən çox səmərəli istifadə edirik. Bu gün Azərbaycan qazı artıq bir neçə ölkəyə ixrac olunur. Bu, çox böyük nailiyyətdir, xüsusilə nəzərə alsaq ki, 2007-ci ilin əvvəlinə qədər Azərbaycan xaricdən ildə 4,5 milyard kubmetr qaz alırdı. Biz yüksək qiymətlərə görə nəinki ondan imtina etdik, eyni zamanda, Dövlət Neft Şirkətinin fəaliyyəti nəticəsində daxili hasilatı əhəmiyyətli dərəcədə artıra bilmişik. Ölkəmizdə, demək olar ki, əhalinin və müəssisələrin 80 faizi qazla təmin olunur. Deyə bilərəm ki, bu, qaz hasil edən ölkələrdə, bəlkə də, ən yüksək göstəricilərdən biridir və gələcəkdə Azərbaycanda qazlaşdırmanın davamı nəzərdə tutulubdur. Biz həm xaricə qazı ixrac edəcəyik, həm də ki, daxili tələbatı maksimum dərəcədə təmin edəcəyik. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyi üçün əvəzolunmaz ölkəyə çevrilibdir və biz, xüsusilə bu işlərlə bilavasitə məşğul olan adamlar bunun nəticələrini görürük.

Azərbaycan etibarlı tərəfdaş kimi özünü sübut edə bilmişdir. Azərbaycana inanırlar, bizim sözümüzə inanırlar, bizimlə məsləhətləşirlər, hesablaşırlar. İqtisadi sahədəki uğurlarımız, sənaye istehsalının artımı, uğurlu enerji siyasəti, daxili sabitlik və əməkdaşlığa hazır olmağımız, regional məsələlərdə təşəbbüskar rolunu üzərimizə götürməyimiz, əlbəttə ki, Azərbaycanın nüfuzunu böyük dərəcədə artırmışdır. Sirr deyil ki, enerji amili də bu sahədə çox böyük rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində Azərbaycan nefti dünya bazarına çıxıbdır. Bizim neftimiz nəinki Qara dəniz, Avropa məkanına, artıq Cənubi Amerikaya, Şimali Amerikaya, Uzaq Şərqə göndərilir. Beləliklə, biz artıq dünya enerji balansında mühüm rol oynayırıq və bu rol artacaqdır.

Bir sözlə, enerji sahəsindəki uğurlar Azərbaycanın gələcəyi üçün tarixi məna daşıyır və vaxt keçdikcə bizim mövqelərimiz yalnız və yalnız möhkəmlənəcəkdir. Azərbaycan artıq tam şəkildə özünü təmin edən ölkədir. Heç kimin yardımına ehtiyacımız yoxdur. Biz nəinki özümüzü təmin edirik, başqa ölkələrin inkişafında da rol oynayırıq və bu rol getdikcə artacaqdır. Bizim valyuta ehtiyatlarımız artır. Azərbaycanda istənilən layihə öz həllini tapa bilər və ən önəmlisi ondan ibarətdir ki, bütün bunlarla yanaşı, hər bir sahə üzrə konkret proqramlar var. Bu gün burada göstərilən videoçarxda bizim proqramlarımızın bəzi istiqamətləri öz əksini tapıbdır. ANS Şirkətlər Qrupuna, Milli Qəhrəman Çingiz Mustafayev adına Fonda çox minnətdaram ki, onlar Azərbaycanın gələcəyi üçün və bu günü üçün vacib olan ən önəmli məsələləri burada əks etdiriblər.

Ancaq bizim proqramlarımız daha da genişdir. Onlar ölkənin həyatının, demək olar, bütün sahələrini əhatə edir və bir məqsədi güdür ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, Azərbaycan daha da möhkəmlənsin. Bizim dövlətimiz möhkəm olduqda, əlbəttə ki, insanların rifah halı da yaxşılaşacaqdır.

Çing
Mus
2007-ci İLİN

Bakı-Tbilisi-Qars dəmir yolu haqqında çox danışmaq istəmirəm. Bu məsələni siz yaxşı bilirsiniz. Uzun illər, bəlkə də, on ildən artıq bu məsələ müzakirə predmeti idi. Ancaq əfsuslar olsun ki, beynəlxalq təşkilatlar və beynəlxalq maliyyə qurumları bu layihəyə çox ögey münasibət göstərmişlər. Halbuki, bu, başa düşülən deyil. Bakı-Tbilisi-Qars dəmir yolunun marşrutu Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin marşrutundan o qədər də fərqlənmir. Qarsla Ərzurum arasında məsafə o qədər də böyük deyildir. Ancaq nədənsə, Bakı-Tbilisi-Ərzurum qaz kəməri bütün dünya, xüsusilə Avropa qurumları tərəfindən dəstəklənir və bəyənilir, Bakı-Tbilisi-Qars layihəsi isə yox. Guya ki, bu, Ermənistanı təcrid edir. Belədirsə, onda Bakı-Tbilisi-Ərzurum da Ermənistanı təcrid edir. Aydındır, məsələ nədədir. Əlbəttə ki, Azərbaycanın enerji resursları Avropaya çox lazımdır və məhz buna görə enerji layihələri daha da çox dəstək görübdür. Ancaq onu da deyə bilərəm və gələcək bunu sübut edəcək ki, Bakı-Tbilisi-Qars dəmir yolu Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən az məna daşımır. Bu yol Avropanı Asiya ilə birləşdirəcək, yükdaşımanın həcmini artıracaq və beləliklə, regional əməkdaşlığa daha da böyük təkan verəcəkdir. O ölkə ki, öz işğalçı siyasəti ilə bölgədə gərginlik yaradır, təbii ki, bu layihədən təcrid olunacaqlar. Bu gün Azərbaycanın iştirakı olmadan nəinki bizim bölgədə, həm də geniş mənada bölgədə heç bir layihə reallaşdırıla bilməz. Azərbaycanın mövqeyi isə ondan ibarətdir ki, işğal olunmuş torpaqlar azad edilməyənə qədər işğalçı dövlətlə heç bir işbirliyi, əməkdaşlıq mümkün deyil və olmayacaqdır. Biz bütün imkanlarımızı səfərbər edəcəyik ki, işğal olunmuş torpaqları işğalçılardan azad edək.

O cümlədən ordu quruculuğu sahəsində görülən işlər bu gün bu sujetdə öz əksini tapmışdır. Biz bu sahəyə də böyük diqqət göstəririk. İldən-ilə artan hərbi büdcəmiz, müdafiə sənayesinin yaradılması və artıq ilkin məhsulun buraxılması gələcək planlarımız üçün çox böyük məna daşıyır və bu sahədəki fəaliyyətimiz davam etdiriləcəkdir. Azərbaycan ordusu həm təchizat baxımından, həm də peşəkarlıq baxımından bu bölgədə ən güclü ordudur. Gələcəkdə yenə də texnika, silah-sursat alınacaqdır. Bəzən bizi tənqid edirlər ki, Azərbaycan bölgədə silahlanma siyasəti aparır. Bəli, biz bunu aparırıq və aparacağıq. Bizim torpaqlarımız işğal altındadır. Bu ədalətsizliyə dözmək çox çətindir. Hələ ki, sülh danışıqları aparırıq. Ona görə ki, bizim hələ ümidlərimiz var. Amma bütün Azərbaycan xalqı bilir ki, bu vəziyyətlə barışmaq nə qədər çətindir.

Biz güclü olmalıyıq. Güclü iqtisadiyyat, güclü ordu və güclü hərbi potensial məsələni bizim xeyrimizə həll edəcəkdir və onun artıq ilkin əlamətlərini görürük. Danışıqlar prosesi haqqında, mən hesab edirəm ki, ictimaiyyətə kifayət qədər məlumat vermişdim. Bir daha demək istəyirəm ki, danışıqlar prosesində müşahidə olunan müsbət meyillər, ilk növbədə, Azərbaycanın artan imkanlarından qaynaqlanır. Kim hesab edirsə ki, Ermənistan tərəfi sülhə daha da meyilli olubdur, bu, səhv yanaşmadır. Məhz Azərbaycanın artan imkanları - iqtisadi, siyasi, enerji və hərbi imkanları bu danışıqlarda artıq bizim mövqeyimizi daha da yuxarı pilləyə gətirib çıxarıbdır.

Bir sözlə, bütün bu məsələlər Azərbaycanın güclənməsinə xidmət göstərir. Bununla yanaşı, sosial məsələlərin həllinə böyük diqqət göstərilir və ən çətin vəziyyətdə yaşayan soydaşlarımızın həyat səviyyəsinin, şəraitinin yaxşılaşması üçün atılan bütün addımlar bu məqsədi güdür. Mən çox şadam ki, 2003-cü ildə verilən vəd - Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaq - artıq yerinə yetirilibdir. Bundan sonrakı mərhələdə məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması Dövlət proqramına əlavələr edilməsi hesabına biz yeni işlər görəcəyik. Bu mərhələdə fin qəsəbələrində, məktəblərdə, hərbi hissələrdə yaşayan soydaşlarımızın problemləri həll olunacaqdır. Hesab edirəm ki, bu, ölkəmizin hərtərəfli inkişafı üçün çox vacibdir. Bu, həm iqtisadi, həm sosial, həm də mənəvi məsələdir. Bizim mənəvi borcumuzdur ki, öz əmlakını itirmiş, torpaqlarını itirmiş insanlar, müvəqqəti də olsa, normal şəraitlə təmin olunsunlar.

Əziz dostlar, bir sözlə, bu məsələlərin həlli, əlbəttə ki, böyük səylər tələb edir. Biz bütün səylərimizi birləşdirmişik və Azərbaycan xalqının yaxşı yaşaması üçün, ölkə qarşısında duran problemlərin həlli üçün çox fəal işləyirik. Problemlər hələ çoxdur və onların həlli, əlbəttə ki, hələ müəyyən vaxt aparacaqdır. Amma məqsəd ondan ibarətdir ki, bizi narahat edən əsas məsələlər öz həllini tapsın. Bunu etmək üçün, bir daha demək istəyirəm, bütün imkanlar var: siyasi iradə, xalqla iqtidar arasında olan birlik, bizim proqramlarımızın xalq tərəfindən dəstəklənməsi, maliyyə resurslarımızın olması, Azərbaycanda sabit vəziyyətin olması və cəmiyyətdəki quruculuq əhval-ruhiyyəsi. Bu da çox vacibdir. İndi biz görürük ki, bizim təşəbbüslərimiz, əldə edilən uğurlar daha da böyük işləri görmək üçün gözəl şərait yaradır. İndi Azərbaycan cəmiyyətində birlik çox yüksək səviyyədədir. Xarici siyasətdə, daxili siyasətdə bizim gördüyümüz işlər bəyənilir.

Bu gün qeyd olundu ki, Azərbaycanın yerləşdiyi coğrafi mövqe özünəməxsusdur. Bu vəziyyətdə, əlbəttə ki, Azərbaycanın

təhlükəsizliyini qorumaq, Azərbaycanı rəqabət, qarşıdurma məkanına çevirməmək üçün biz böyük səylər göstərmişik və buna nail olmuşuq.

Mən bir neçə dəfə demişəm və bu gün də demək istəyirəm ki, biz bütün ölkələrlə yaxşı dostluq münasibətləri qurmaq fikrindəyik, bərabərhüquqlu, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar əsasında, birbirinin daxili işlərinə qarışmamaq şərtilə münasibətlər qurmaq fikrindəyik. Azərbaycan heç vaxt başqa ölkələrin daxili işinə qarışmır. Ancaq görəndə ki, kimsə bizim işimizə qarışmaq istəyir, biz buna çox mənfi yanaşırıq və gördüyünüz kimi, belə hallar böyük dərəcədə azalıbdır. Ümid edirəm ki, tamamilə aradan qaldırılacaqdır. Çünki biz müstəqil dövlətik, öz taleyimizi özümüz müəyyən edirik. Azərbaycan xalqı müdrik xalqdır, əgər hansısa məsləhətlər bizə lazım olsa, əlbəttə ki, məsləhətləşmələr aparacağıq. Ancaq əgər kimsə hesab edirsə ki, bizə dərs oxuyacaq, bizə ağıl verəcək, yaxud da hansısa formadasa işimizə müdaxilə edəcək, artıq Azərbaycanın müstəqillik dövrü göstərib ki, bu səylər əbəsdir, onun heç bir mənası yoxdur. Bu səylər, sadəcə olaraq, vəziyyətin gərginləşməsinə gətirib çıxaracaqdır. Biz bu bölgədə sabitliyin qorunması üçün çox vacib rol oynayırıq. Azərbaycan həm Cənubi Qafqaz ölkəsidir, həm də Xəzəryanı ölkədir. Bizim səylərimiz ona yönəlib ki, həm Cənubi Qafqazda, həm Xəzər hövzəsində, həm də Qara dəniz hövzəsində əməkdaşlıq, - Ermənistan istisna olmaq şərtilə, - daha da güclənsin. Bu təşəbbüsləri irəli sürməklə biz əlbəttə ki, ilk növbədə, öz siyasi və iqtisadi maraqlarımızı güdürük. Bununla bərabər, qonşularımız üçün də yaxşı imkanlar yaradırıq. Bu gün Orta Asiya, Xəzər dənizi, Qara dəniz, gələcəkdə Baltik dənizi ölkələrinin birgə layihələrdə iştirak etməsi artıq reallığa çevrilibdir. Bu işlərdə Azərbaycan, deyə bilərəm ki, aparıcı rollardan birini oynayır və bu rol müsbətdir. Yəni bizim iqtisadi və siyasi təşəbbüslərimiz, regionda gedən proseslərə yanaşmağımız nailiyyətlər, müsbət nəticələr gətirir. Əlbəttə, çalışırıq ki, bizim hüdudlarımızın kənarında da vəziyyət sabit olsun, sabitlik pozulmasın, əməkdaşlıq olsun. Nəzərə alsaq ki, qonşu ölkələrdə, bizim sərhədlərin o tərəfində - istər Rusiyada, istər Gürcüstanda, istər İranda, bizimlə həmsərhəd olan bölgələrdə yaşayan insanlar bizim soydaşlarımızdır, azərbaycanlılardır və onların həyatı, yaşayışı, təhlükəsizliyi, əlbəttə ki, bizi biganə qoya bilməz. Bilirsiniz ki, biz xaricdə yaşayan soydaşlarımızla da çox ciddi işlər aparırıq, görüşlər keçiririk və dünya azərbaycanlılarının təşkilatlanmasında Azərbaycan dövlətinin rolu çox böyükdür. Əlbəttə ki, Azərbaycanın siyasi və iqtisadi imkanları artdıqca, bu rol daha da artacaqdır.

Bizim qarşımızda duran vəzifələr, demək olar ki, bunlardır. Bizim bundan başqa hansısa qeyri-real planlarımız, iddiamız yoxdur və dünyadakı reallıqları çox yaxşı başa düşürük. Dünyadakı rolumuzu yaxşı başa düşürük, onu şişirtmirik və alçaltmırıq. İndi bizim mövqeyimiz Azərbaycanın hərtərəfli inkişafı üçün təhlükəsizliyin təmin edilməsi Azərbaycan xalqının yaxşı yaşaması üçün kifayətdir. Bu rol getdikcə artacaqdır. Bir daha deyirəm, bizim xarici siyasətimiz çoxşaxəlidir. Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında sənədlər imzalanmışdır.

Qonşu dövlətlərlə – Rusiya, Gürcüstan, İranla çox işgüzar, dostluq münasibətlərimiz var. Başqa ölkələrlə münasibətdə, yəni ki, xarici siyasətdə heç bir problemimiz yoxdur. Deyə bilərəm ki, son illər ərzində Azərbaycana olan maraq böyük dərəcədə artıb və mən bunun əyani şahidiyəm. Biz bundan, əlbəttə, istifadə etməliyik və edirik ki, ölkəmiz daha da güclü olsun, bizimlə hesablaşsınlar və bizim iştirakımız, razılığımız olmadan bu bölgədə heç bir məsələ həll edilməsin. Bu vaxta qədər biz buna nail olmuşuq.

Bütün bu vacib iqtisadi və siyasi məsələlərlə yanaşı, əlbəttə ki, ölkəmizin gələcəyi təkcə iqtisadi amillərlə ölçülmür. Mən bunu keçmişdə demişəm və bir daha demək istəyirəm ki, əgər Azərbaycanda müasir siyasi sistem yaranmasa, əgər demokratik prinsiplər tam şəkildə bərqərar olunmasa, bizim uğurlarımız mü-vəqqəti xarakter daşıyacaqdır. Bəli, biz bu gün heç kimdən asılı deyilik, müstəqil ölkəyik. Bizim böyük təbii ehtiyatlarımız var, artıq 7 milyard dollardan çox valyuta ehtiyatımız var, hansı ki, bu il, ən azı, 2 dəfə artacaqdır. Sual oluna bilər ki, biz bundan artıq nə istəməliyik?

Ancaq bununla yanaşı, biz ölkəmizi müasirləşdiririk. Bizim təşəbbüslərimiz, xüsusilə təhsillə bağlı, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı təşəbbüslərimiz gələcəyə yönəlib. Biz 10, 20, 50 il qabağa baxmalıyıq ki, Azərbaycan 50 ildən sonra necə yaşayacaq, insanların intellektual səviyyəsi necə olacaqdır. Ekoloji vəziyyət necə olacaq, sağlamlıq necə olacaqdır? Bütün bunlar məni düşündürür. Bəlkə də indi bu, təəccüblü görünə bilər. Çünki indi 50 il qabağa baxmaq, əlbəttə ki, tezdir. Amma bunu etməliyik, biz görməliyik ki, ölkəmiz hansı yolla, haraya gedəcək, hansı ölkəyə çevriləcəkdir. Əlbəttə ki, müasir ölkə olmaq üçün biz istər iqtisadi, istər siyasi sahədə və demokratik inkişaf sahəsində dünyada mövcud olan ən müsbət təcrübəni Azərbaycanda tətbiq etməliyik. Bu işlərdə, deyə bilərəm ki, bizim uğurlarımız var.

Mən hesab edirəm ki, demokratiyanın inkişafı sahəsində

Azərbaycanda bu gün görülən işlər mümkün olan, maksimum səviyyədədir. Azərbaycanda bütün azadlıqlar var – söz azadlığı var, siyasi fəaliyyət sərbəstdir, heç bir məhdudiyyət yoxdur və müasir ölkəyə çevrilmək üçün bu, çox vacibdir. Biz iqtisadi və siyasi islahatları paralel şəkildə aparmalıyıq. Biz keçmiş tarixdən və yaxın tarixdən görürük və MDB məkanında baş verən hadisələri də izləyirik. Deyə bilərəm ki, nəinki izləyirik, həm də daxildən bilirik və görürük ki, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılmadıqda fəsadlar meydana çıxır. Sovet İttifaqının dağılmasının səbəblərindən biri də məhz onda idi ki, siyasi islahatlar heç bir maddi baza ilə tamamlanmamışdı. Beləliklə də ölkə dağıldı. Kim təsəvvür edə bilərdi ki, o boyda ölkə, bütün təbii ehtiyatlarla zəngin olan, Avropanın yarısını nəzarət altında saxlayan və dünyada öz müttəfiqləri kifayət qədər olan ölkə bir vaxt süqut edəcəkdir. Nəyə görə? Çünki ağılsız siyasət aparılmışdı. İslahatlar düzgün istiqamətdə aparılmamışdı. Bəzi hallarda bizi də islahatlar aparmaqda daha da fəal olmağa çağırırlar, buna sövq edirlər. Bəlkə də kənardan belə görünə bilər. Ancaq biz daha yaxşı bilirik nəyi nə vaxt və necə etmək lazımdır ki, Azərbaycanın uğurlu xəttinə zərrə qədər də zərbə dəyməsin. Ona görə bizim şəraitdə aparılan siyasi islahatlar maksimum dərəcədədir. Artıq biz hamımız bilirik, geniş ictimaiyyət də bilir ki, Azərbaycan bu ətrafda, yerləşdiyi bölgədə heç bir başqa ölkədən demokratik inkişaf baxımından geridə deyildir. Baxmayaraq, bizə sübut etmək istəyirdilər ki, biz geridəyik, kimsə bizdən qabaqdadır. Hamı gördü ki, kim kimdən qabaqdadır və vəziyyət nə yerdədir. Ona görə düşünülmüş siyasət aparılmalıdır. Siyasi islahatlar maksimum dərəcədə davam etdirilməlidir.

Biz müxtəlif beynəlxalq təşkilatlara üzv olmuşuq. Özümüz könüllü daxil olmuşuq, heç kim bizi məcbur etməmişdir. Nə üçün? Ona görə ki, Azərbaycanda olan meyarlar dünyanın ən qabaqcıl ölkələrinin meyarlarına uyğun olsun. O sahələrdə ki, bizə sərf edir və bunu edirik, beynəlxalq təşkilatlarla işləyirik.

Beynəlxalq təşkilatlar qarşısında üzərimizə öhdəlikləri könüllü götürmüşük, onları vaxtlı-vaxtında icra edirik. Ancaq heç bir başqa ölkə qarşısında biz heç bir öhdəlik götürməmişik. Bu, mümkün deyil, biz müstəqil ölkəyik. İmkanlarından, güclərindən, siyasi nüfuzundan asılı olmayaraq, bütün ölkələrlə bərabərhüquqlu və qarşılıqlı hörmət əsasında münasibətlər qurulur. Heç bir başqa ölkənin qarşısında Azərbaycanın öhdəliyi olmayıb və olmayacaqdır. İstəyirəm, bunu hamı bilsin. Çünki bəzi mətbuat orqanlarında belə fikirlər səslənir ki, Azərbaycanı kimsə cəzalandıracaq, Azərbaycana qarşı sanksiyalar tətbiq olunacaq, Azərbaycana təzyiq ediləcəkdir.

Bunların hamısı yalan məlumatlardır. Həqiqəti əks etdirməyən məlumatlardır. Azərbaycana sanksiya tətbiq etmək mümkün deyil və hansısa təzyiq etmək də mümkün deyildir. Bizim yaxın keçmişimiz onu göstərir ki, belə cəhdlər hər zaman əks-reaksiya doğurur və münasibətlərə heç də xeyir gətirmir. Biz beynəlxalq təşkilatlarla işləyirik, o təşkilatlara könüllü çıxmışıq, bəzi təşkilatlara biz müstəqillik əldə ediləndən 10 il sonra daxil olmuşuq. O təşkilatlara üzv olmadığımız dövrdə bizə heç nə olmamışdır, yəni biz normal yaşamışıq. Hər bir ölkə hansısa təşkilata daxil olanda müəyyən məqsədləri güdür, o cümlədən Azərbaycan. Bizim başlıca vəzifəmiz torpaqlarımızı işğalçılardan azad etmək, Azərbaycanda müasir quruluş yaratmaq, hüquqi dövlət yaratmaq, demokratiyanı inkişaf etdirmək, iqtisadiyyatı inkişaf etdirməkdir və biz buna nail oluruq.

Hesab edirəm ki, Azərbaycanın təcrübəsi, keçdiyi yol və əldə edilmiş uğurlar başqa ölkələr üçün örnək, nümunə ola bilər. Biz ölkəmizi xaosdan, anarxiyadan, hərc-mərclikdən, vətəndaş qarşıdurmasından, xarici təzyiqlərdən qorumuşuq. Bu şəraitdə Azərbaycan 3 ildir ki, iqtisadi inkişaf baxımından dünyada lider dövlətdir. Siz də bilirsiniz ki, indi müxtəlif reytinqlər mövcuddur, bəzi hallarda o reytinqlər heç bir əhəmiyyət daşımır. Ancaq Davos İqtisadi Forumunun cədvəli çox böyük nüfuza malik sənəddir. O sənəddə Azərbaycan rəqabət qabiliyyətinə görə dünyada 66-cı yerdədir. Tanınmış "Qoldman Saks" beynəlxalq maliyyə qurumunun hesabatına görə 61-ci yerdədir və bütün başqa MDB ölkələrindən qabaqdadır. Budur reallıq. Bu reallıq bizə imkan verir ki, öz siyasətimizi bundan sonra da uğurla davam etdirək. Elə edək ki, Azərbaycanın qarşısında duran problemlər öz həllini tapsın. Sosial problemlər, iqtisadi problemlər, bəzi hallarda ədalətsizliklər, bəzi hallarda məmur özbaşınalığı – bunlar hamısı məni çox üzür, incidir. Çünki bütün işlərə mən cavabdehlik daşıyıram. Yaxşı işlərə görə də, yaxşı olmayan işlərə görə də. Halbuki, bəzən bu, məndən asılı deyil, ancaq bu belədir. Ona görə mən çalışıram və çalışacağam ki, Azərbaycanda insanları narahat edən problemlər tezliklə aradan qaldırılsın və ölkəmiz sürətlə inkişaf etsin.

Bir daha demək istəyirəm ki, bundan sonra öz fəaliyyətimdə - həm iqtisadi məsələlərin həllində, həm də Azərbaycanda demokratiyanın, mətbuat azadlığının təmin olunmasında öz rolumu oynayacağam. Mən hesab edirəm ki, bu iki istiqamət bir-birindən ayrıla bilməz. Məhz o təqdirdə Azərbaycan istədiyinə nail olacaq, güclü, müasir dövlətə çevriləcəkdir. Cəmiyyət bilməlidir ki, planlarımız nədir, biz haraya gedirik, öz işlərimizi hansı istiqamətdə aparırıq. Bəzi hallarda, xüsusilə xarici siyasət məsələlərində bizim atdığımız addımlar bir neçə aydan sonra, yaxud da, bir ildən sonra bəlli olur ki, bu və ya digər addımı nə üçün atmışıq. Xarici siyasətdə məxfilik daha çox saxlanılmalıdır. Daxili siyasətdə hər şey - bütün bizim işlərimiz açıqdır, aydındır. Amma xarici siyasətin öz xüsusiyyətləri var və xarici siyasətlə bağlı görülən bütün işləri və vacib olan məsələləri açıqlamaq da mümkün deyildir. Bunlar, elə bil ki, pərdə arxasında qalır.

Amma ANS telekanalının xüsusiyyətləri belədir ki, ən mənfi məsələni lap yaxşı tuturlar və sonra onları tamaşaçılara təqdim edirlər. Bir neçə dəfə mən bununla rastlaşmışam ki, bizim apardığımız siyasət, ictimaiyyətə aydın, bəlli olmayan məqamlar, yaxud da xarici siyasətdəki addımlarımız ANS teleşirkəti tərəfindən çox düzgün şərh edilir və əlbəttə ki, bu, kanalda olan peşəkarlıq səviyyəsini göstərir.

Bir daha demək istəyirəm ki, xarici siyasətdə ictimaiyyət üçün bəlli olmayan bəzi məqamların mövcudluğu ondan irəli gəlmir ki, biz nəyisə gizlətmək istəyirik, sadəcə olaraq, bu sahənin öz xüsusiyyətləri var.

Bu gün mən Milli Qəhrəman Çingiz Mustafayevin valideynlərinə öz hörmətimi bildirmək istəyirəm. Mən sizi yenidən görməyimə çox şadam. Siz qəhrəman böyütmüsünüz, böyük insan böyütmüsünüz. Çingiz Mustafayev həm peşəkar jurnalist idi, həm də əsl vətənpərvər insan idi. Müharibəyə könüllü getmişdi, heç kim onu məcbur etmirdi. O, tək, bir kamera ilə getmişdi və əlləri Azərbaycan xalqının qanına batmış ermənilərin vəhşiliklərini lentə almışdı. İndi o kadrlar erməni qəsbkarlarına qarşı sənədli ittihamdır. Çingiz Mustafayev kimi insanlar Azərbaycanın milli sərvətidir və onun əziz xatirəsi Azərbaycan xalqının qəlbində yaşayır və yaşayacaqdır.

Əziz dostlar, mən çox danışa bilərəm. Amma bilirəm ki, vaxtımız məhduddur. Bir daha sizə, Çingiz Mustafayev Fonduna, ANS teleşirkətinə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. ANS teleşirkətinin Azərbaycanda vətənpərvərlik məsələlərinə çox böyük münasibəti var, bu sahədə çox böyük rolu var. Mən bunu çox alqışlayıram, bəyənirəm. Azərbaycanda vətənpərvərlik məsələləri çox yüksək səviyyədə olmalıdır. Gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə edilməlidir və ANS-in bu sahədəki fəaliyyəti, hesab edirəm ki, bəzi başqa mətbuat orqanları üçün nümunə olmalıdır. Əfsuslar olsun, biz buna da rast gəlirik ki, bəzi hallarda qondarma, separatçı Dağlıq Qarabağ rejiminin başçıları Azərbaycanda fəaliyyət göstərən bəzi mətbuat orqanları tərəfindən təbliğ olunur, onlara bəraət qazandırılır və onlar tərəfindən törədilmiş cinayətlər ört-basdır edilir və əksinə, Azərbaycan əsgərlərini ittiham etmək istəyirlər. Belə insanlara nəinki jurnalistikada, Azərbaycan cəmiyyətində yer ola bilməz.

Əziz dostlar, sizə bir daha öz minnətdarlığımı bildirmək və fəaliyyətinizdə uğurlar arzulamaq istəyirəm. Sağ olun.

Azərbaycan Prezidentinin nitqi böyük diqqətlə dinlənildi və hərarətli alqışlarla qarşılandı.

Azərbaycan Prezidenti İlham Əliyev mərasim başa çatandan sonra ANS Şirkətlər Qrupunun və Çingiz Mustafayev adına Fondun əməkdaşları, Milli Qəhrəmanın ailə üzvləri ilə xatirə şəkli çəkdirdi.

Kanadanın türkdilli diasporları forumunun "İlin adamı" fəxri adı

2009-cü il oktyabrın 14-də Kanadanın türkdilli diasporlarının Torontoda keçirilmiş forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İlin adamı" seçilmişdir.

Gürcüstan, Latviya, Litva və Estoniya diasporları nümayəndələrinin, habelə Beynəlxalq Niaqara Musiqi Festivalı rəhbərlərinin iştirak etdikləri forum bu qərarı yekdilliklə qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı bu ada Yer üzündə ümumi sülhün bərqərar olması işinə böyük töhfə verən XXI əsrin görkəmli siyasi xadimi kimi layiq görülmüşdür.

Forum iştirakçılarının Prezident İlham Əliyevə ünvanlanmış müraciətində onun çoxmilyonlu türk dünyasında şəksiz lider olması, bütün planetdə sülhü bərqərar etmək, Cənubi Qafqaz regionunda və onun hüdudlarından kənarda siyasi vəziyyəti sabitləşdirmək səyləri vurğulanır.

Müraciətdə deyilir:

"Siz Azərbaycanın qarşısında duran ən ümdə problemləri həll etmək, müasir dövrün aktual geosiyasi məsələləri müzakirə edilərkən müsbət nəticələr əldə edilməsinə kömək göstərmək, siyasi, iqtisadi və mədəni baxımdan optimal həll variantlarını operativ tapmaq bacarığınız sayəsində zəmanəmizin görkəmli dövlət və siyasi xadimləri sırasına çıxmısınız.

Dünyada Sizi tarixi "İpək Yolu" qlobal layihəsinin əsas memarlarından və ideya-siyasi baxımdan bu layihəni həyata keçirənlərdən biri hesab edirlər. Bu layihənin nəcib ideyaları Yer üzündə tərəqqi və sülh naminə sivilizasiyaların hərtərəfli inteqrasiyasına, mədəni sintezə, mənəvi cəhətdən qarşılıqlı zənginləşməyə, qarşılıqlı iqtisadi əlaqələrə xidmət edir."

Kanada forumunun iştirakçıları Azərbaycan Respublikasının rəhbərinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin gözəl ənənələrinin geniş yayılmasına yönəlmiş səmərəli fəaliyyətini vurğulayaraq xüsusi qeyd etmişlər ki, məhz bu fəaliyyət sayəsində Azərbaycan, onun paytaxtı - İslam dünyasının mədəni paytaxtı seçilmiş Bakı Şərqdə Qərb mədəniyyətinin çiçəklənən bölgəsi, Qərbdə isə qədim Şərq sivilizasiyasına xas olan ən yüksək mənəvi və mədəni dəyərlərin mərkəzi hesab edilir.

Kanadanın türkdilli diasporlarının forumunda çıxış edən nümayəndələr Azərbaycan Prezidentinin mükəmməl savada, nadir erudisiyaya malik olmasını da qeyd edərək vurğulamışlar ki, bu keyfiyyətlər onun ən müxtəlif beynəlxalq tribunalardan ən müxtəlif auditoriya qarşısında nitq söyləməsinə, ölkəmiz üçün mühüm mədəni və iqtisadi layihələrə diqqəti cəlb etməsinə, hamıda həmin layihələrə maraq hissi oyatmasına kömək edir.

Kanadadakı türkdilli diasporların forumunun iştirakçıları bütün bunları rəhbər tutaraq, Azərbaycan Prezidenti İlham Əliyevi yekdilliklə "İlin adamı" seçmişlər.

Rusiyanın RBK informasiya agentliyinin "İlin adamı-2009" Qran-pri mükafatı

2010-cu il fevralın 25-də Kremldə keçirilmiş "İlin adamı-2009" illik milli mükafatının təqdim olunması mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İlin adamı-2009" Qran-pri mükafatına layiq görüldüyü elan edilmişdir. Bu mükafat il ərzində öz ölkələrinin ictimai, siyasi və dövlət mənafelərinə xidmət işində ən parlaq nəticələr göstərmiş insanlara verilir.

Rusiyanın RBK informasiya agentliyi tərəfindən təsis edilmiş "İlin adamı"mükafatının laureatları öz ölkəsinin inkişafının mühüm meyillərini təcəssüm etdirən, onun gələcəyini formalaşdıran insanlardır. Mükafatın laureatlarını müəyyənləşdirən nüfuzlu ekspertlər şurasına tanınmış siyasətçilər, ictimai və siyasi xadimlər, ən iri şirkətlərin rəhbərləri, elm və mədəniyyət xadimləri, KİV nümayəndələri daxildir. Ekspertlər şurasının üzvlərinin çoxu öz ölkəsinin inkişafına sanballı töhfə vermiş insanlar kimi "İlin adamı" seçilmiş şəxslərdir. Onların arasında Sergey Lavrov, Arkadi Dvorkoviç, German Qref, Vladimir Yakunin, Aleksey Miller, Aleksandr Şoxin, Yuri Lyubimov, Mark Zaxarov, Qalina Vişnevskaya, İosif Kobzon, Konstantin Ernst, Vladislav Tretyak və başqaları vardır.

İctimai-siyasi və biznes sahələrində, habelə xüsusi nominasiyalarda təqdim edilən "İlin adamı" mükafatının ali dərəcəsi Qran-pridir.

2009-cu il laureatların seçimi iqtisadi böhran fonunda keçirilmiş və qaliblərin tərkibi də çox cəhətdən bu amilə əsasən müəyyən edilmişdir. Laureatların çoxunun qələbəsi məhz onların böhrana qarşı uğurlu mübarizəsi sayəsində təmin edilmişdir.

Rumıniyanın "Balkanlar və Avropa" jurnalının "2010-cu ilin adamı" mükafatı

2010-cu il noyabrın 24-də Cənub-Şərqi Avropanın, eləcə də Rumıniyanın nüfuzlu "Balcanii şi Europa" ("Balkanlar və Avropa") jurnalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi 2010-cu ildə "İlin adamı" elan etmişdir.

"Balkanlar və Avropa" nəşri tərəfindən Azərbaycanın dövlət başçısının "İlin adamı" elan edilməsi barədə jurnalın 2010-cu il dekabr nömrəsində "İlin adamı-2010 - İlham Heydər oğlu Əliyev" sərlövhəli məqalə dərc olunmuşdur.

Siyasi, iqtisadi, sosial, mədəni sahələrdə xüsusi çəkiyə malik olan şəxsiyyətlərdən və ölkənin nüfuzlu qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələrindən, müstəqil ekspertlərdən ibarət münsiflər heyəti 2010-cu ilin yekunlarına görə əsas nominasiya olan "İlin adamı-2010" mükafatının Azərbaycan Prezidenti İlham Əliyevə verilməsi barədə yekdilliklə qərar qəbul etmişdir. Münsiflər heyəti bu addımını Azərbaycan Prezidentinin siyasi, iqtisadi, elmi, mədəni və humanitar sahələrdə əldə etdiyi uğurlara, Rumıniya-Azərbaycan əlaqələrinin, hər iki xalqın və geniş Xəzər dənizi və Qara dəniz bölgələrinin tərəqqisinə göstərdiyi xüsusi diqqətlə əsaslandırmış, regionun və eyni zamanda, gələcəkdə Qərbi Avropanın enerji problemlərinin səmərəli həllinə gətirib çıxaracaq AGRİ (Azərbaycan-Gürcüstan-Rumıniya İnterkonnektor) layihəsinin buna bariz nümunə olduğunu xüsusi qeyd etmişlər.

2000-ci ildən etibarən mütəmadi olaraq hər il siyasət, iqtisadiyyat, ədliyyə, insan hüquqları, mədəniyyət üzrə nominasiyalarda xüsusi xidmətləri olan şəxslər mükafatlandırılır. İndiyədək jurnalın müxtəlif nominasiyaları üzrə Cənub-Şərqi Avropa ölkələrinin dövlət və hökumət başçıları, ictimai-siyasi xadimləri mükafata layiq görülmüşlər.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının "Azərbaycan tələbələrinin dostu" mükafatı

2010-cu il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının "Azərbaycan tələbələrinin dostu" mükafatına layiq görülmüşdür.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının İdarə heyətinin qəbul etdiyi bu qərar qurumun təsis olunmasının birilliyi münasibətilə "Gülüstan" sarayında keçirilən tədbirdə elan olunmuşdur.

ATGTİ-nin sədri Şahin İsmayılov təşkilatın fəaliyyəti və qarşıda duran vəzifələr barədə danışaraq dövlətin gənclərə göstərdiyi diqqət və qayğısından bəhs etdi.

Qeyd olundu ki, 39 ali təhsil müəssisəsinin tələbə gənclər təşkilatlarını ətrafında birləşdirən, təşkilat tələbələri təhsilə və elmi tədqiqat işlərinə həvəsləndirmək üçün müxtəlif tədbirlər həyata keçirmişdir. ATGTİ beynəlxalq əlaqələrin qurulması istiqamətində mühüm irəliləyişlər əldə etmişdir.

Təşkilat fəaliyyəti dövründə 20 Yanvar faciəsinə həsr olunmuş "Mənim 20 yaşım var", Beynəlxalq sülh gününə həsr olunmuş "Sülh içində yaşa!" aksiyaları, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin ictimaiyyətə tanıdılması məqsədi ilə "Qəhrəmanlarımızı tanıyaq və tanıdaq" şüarı altında idman yarışları, milli filmlərin gənc nəsillərin yaddaşında uzun illər həkk olunması üçün "Milli kinolarımızı unutmayaq" mövzusunda layihələr həyata keçirmişdir.

ATGTİ-nin İdarə heyətinin qərarı ilə Prezident İlham Əliyev "Azərbaycan tələbələrinin dostu" mükafatına layiq görülmüşdür. Mükafatı təşkilatın sədri Şahin İsmayılov Prezident Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanova təqdim etdi.

Tədbirdə çıxış edən Elnur Aslanov ATGTİ-nin üzvlərini təbrik edərək onların fəaliyyətini yüksək qiymətləndirdi, dövlətin gənclərə diqqət və qayğısından, Azərbaycanın cari ili də uğurla başa vurduğundan danışdı.

Prezident Administrasiyasının şöbə müdiri bildirdi ki, ATGTİ qısa bir zamanda ölkədə nüfuz qazanmış bir təşkilatdır. Dövlət başçısı İlham Əliyevin ötən il qurumun təsis edilməsi münasibətilə təşkil olunmuş tədbirə məktub ünvanlaması və Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin həmin tədbirdə iştirakı Azərbaycanda tələbə-gənclər təşkilatlarına olan diqqətin bariz nümunəsidir. Azərbaycan gəncləri Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə əhatə olunmuşlar və ölkəmizin gələcəyi məhz onların əlindədir.

Təhsil naziri Misir Mərdanov öz çıxışında vurğuladı ki, təşkilatın yaranması və formalaşması üçün bir il çox az müddətdir. Buna baxmayaraq, təşkilat irəliyə doğru böyük addımlar atmışdır. Nazir qurumun üzvlərinin sayının getdikcə daha da artacağına, onun strukturunun möhkəmlənəcəyinə və Azərbaycanın xoşbəxt gələcəyini təmin edəcək gənclərin məhz bu təşkilatın sıralarından çıxacağına ümidvar olduğunu bildirdi.

Bir ildə ətrafında 120 min gənci toplamağı bacarmış və uğurlu layihələr həyata keçirmiş təşkilata təvsiyələrini verən gənclər və idman naziri Azad Rəhimov Azərbaycanın xoş gələcəyi üçün gənclərin həmrəyliyinin zəruriliyini vurğuladı və dedi ki, ATGTİ-nin üzvləri çox maraqlı təşəbbüslərlə çıxış edirlər və bu, Azərbaycan gəncliyinin yüksək intellektindən xəbər verir.

Təşkilatın ötən dövrdə gördüyü işlər ilə bağlı slaydfilm nümayişin dən sonra tələbə-gənclər təşkilatlarının sədrlərinin fəalları diplomlarla mükafatlandırıldılar.

"RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin "Jurnalistlərin dostu" mükafatı

2010-cu il dekabrın 29-da "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Jurnalistlərin dostu" mükafatının təqdim olunması mərasimi keçirilmişdir.

Mərasim Azərbaycanın dövlət himninin səslənməsi ilə başlandı.

Azərbaycanın mətbuat tarixinə qısa nəzər salındı.

"RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi idarə heyətinin üzvü, Mətbuat Şurasının sədri **Əflatun Amaşov** "Jurnalistlərin dostu" mükafatının əsasnaməsi və mükafatın laureatının müəyyən edilməsi ilə bağlı bu il keçirilən sorğunun nəticələri barədə məlumat verərək dedi:

- Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, əziz qonaqlar, sizləri "Jurnalistlərin dostu" mükafatının təqdimatı mərasimində görməkdən məmnunluq duyur, hər birinizə "Xoş gəlmisiniz!" deyirik. Bugünkü mərasimimizin əlamətdar günlərə təsadüf etməsi xoş ovqatımıza bayram əhval-ruhiyyəsini də əlavə etmişdir. İcazə verin, sizləri Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə ürəkdən təbrik edim, hər birinizə xoş arzularımızı yetirim.

"RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi gördüyünüz bu mükafatı 1997-ci ildə təsis etmişdir. Jurnalistlərlə dövlət məmurlarını, ictimai-siyasi xadimləri dostluğa, sıx əməkdaşlığa səsləyən göyərçin onun daimi simvoludur. Dəyişən isə illərə bələdçilik edən rəqəmlərdir. "Jurnalistlərin dostu" mükafatı medianın inkişafında, onun demokratik təsisat kimi formalaşmasında müstəsna xidmətləri olan şəxslərə, ictimai-siyasi və dövlət xadimlərinə verilir. Qaliblər "RUH"un kütləvi informasiya vasitələri və jurnalist təşkilatları arasında keçirdiyi sorğu vasitəsilə müəyyənləşdirilir.

Hörmətli mərasim iştirakçıları, bu gün biz buraya 2010-cu ilin qalibini təbrik etməyə toplaşmışıq. Qalibi müəyyən etmək üçün bu il dekabrın 1-dən 20-dək keçirilən sorğuda 30 gündəlik, 19 həftəlik qəzet, 13 jurnalist təşkilatı, 11 informasiya agentliyi, 8 xəbər portalı, 7 telekanal, 3 radio və 2 jurnal iştirak etmişdir. Bütövlükdə sorğu 30 minə yaxın media nümayəndəsinin rəyini ümumiləşdirmişdir. Nəticələrə əsasən, mediaya verdiyi dəyərə və bütövlükdə kütləvi informasiya vasitələrinə diqqətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 81 faiz səslə birinci yerə layiq görülmüşdür. İkinci və üçüncü yerləri "Azercell Telekom" MMC-nin prezidenti Əli Ağan, rabitə və informasiya texnologiyaları nazir Əli Abbasov bölüşüblər. Hər üç qalibi təbrik edirik.

2010-cu ildə jurnalistikamızın həyatı əlamətdar hadisələrlə zəngin olub. Cənab Prezident, mətbuatımızın 135 illik yubileyi münasibətilə imzaladığınız sərəncama əsasən Bakıda və bölgələrdə çoxsaylı tədbirlər keçirilmişdir. Təqribən 40 KİV-in hər birinə birdəfəlik yardımlar edilib ki, bunun da ümumi məbləği 1 milyon manata yaxındır. Dövlətimizin başçısının sərəncamları ilə 100-dən çox media təmsilçisi "Əməkdar jurnalist", "Əməkdar mədəniyyət işçisi" fəxri adlarına layiq görülmüş, "Tərəqqi" medalı ilə təltif edilmişdir. İki məsələnin üzərində xüsusilə dayanmaq istərdim. Azərbaycan Mətbuat Şurası müasir tələblərə cavab verən inzibati bina ilə təmin edilmişdir. Jurnalistlərimizin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə Prezident sərəncam imzalamışdır. Bunun sayəsində çoxsaylı media təmsilçiləri yeni mənzillərlə təmin olunacaqlar. Təbiidir ki, bütün bunlar 2010-cu ilin qalibinin seçiminə təsirsiz ötüşə bilməzdi.

Möhtərəm cənab Prezident, Siz "Jurnalistlərin dostu" müsabiqəsinin yeni qalibisiniz. Media təmsilçilərimiz Sizi həmişə özlərinin dostu biliblər, bu mükafatla isə onu sadəcə olaraq rəsmiləşdiriblər. Təqdimata başlamazdan əvvəl "Jurnalistlərin dostu" mükafatının laureatı ümummilli liderimiz Heydər Əliyevin sözlərini xatırlamaq yerinə düşərdi. Ulu öndər "Jurnalistlərin dostu" mükafatını qəbul edərkən demişdi: "Mən bu mükafatı çox yüksək qiymətləndirirəm. Təbiidir ki, mən çox mükafatlara layiq görülmüşəm. Ancaq bu mükafatın xüsusi yeri var. Çünki aldığım mükafatların əksəriyyəti dövlət mükafatlarıdır. Amma bu, jurnalistlər tərəfindən verilən mükafatdır".

Cənab Prezident, əminik ki, Sizə təqdim edəcəyimiz bu mükafat mükafatlar kolleksiyanızda layiqli yerini tutacaq və Siz də daim jurnalistlərin dostu olaraq qalacaqsınız.

Ənənəmizə görə təqdimatdan sonra qalib özünün media ilə bağlı fikir və mülahizələrini bölüşür.

Xahiş edirik, cənab Prezident, fəxri kürsüyə buyurasınız.

Sonra mükafat Prezident İlham Əliyevə təqdim edildi.

Dövlət başçısı mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk öncə mən sizin hamınızı ürəkdən salamlayıram, sizə və bütün Azərbaycan xalqına qarşıdan gələn 2011-ci ildə uğurlar, xoşbəxtlik, cansağlığı arzulayıram.

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Mən bu yüksək mükafata layiq görülmüşəm. İstəyirəm ki, bu kürsüdən bu mükafatı mənə verən, məni bu mükafata layiq görən bütün insanları salamlayım, onlara dərin minnətdarlığımı bildirim və sizi əmin edim ki, bundan sonra da mən öz fəaliyyətimdə çalışacağam ki, Azərbaycanda azad mətbuatın, müstəqil mətbuatın inkişafı üçün söylərimi davam etdirəm, Azərbaycanda bütün demokratik islahatların aparılmasında daha da fəal olam və beləliklə, biz ölkəmizin hərtərəfli inkişafını təmin edə bilək.

Azərbaycanda mətbuat azadlığı, söz azadlığı vardır. Azərbaycanda azad mətbuatın tarixi o qədər də böyük deyildir. Azərbaycanda müstəqil mətbuat Sovet İttifaqının son illərinə təsadüf edir, ilk qəzetlər, müstəqil qəzetlər o vaxt yaranmışdır. Müstəqillik əldə olunandan sonra, əlbəttə ki, azad mətbuatın formalaşması daha da sürətlə getmişdir. Ancaq mən hesab edirəm ki, - bu gün burada artıq qeyd olundu,- bu sahədə əsaslı dönüş 1998-ci ildə baş vermişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda senzuranın ləğvi sözün əsl mənasında azad, müstəqil mətbuatın formalaşması, yaranması üçün həlledici rol oynamışdır. Bildiyiniz kimi, ondan sonrakı dövrdə - 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv edilmişdir, 2003-cü ildə Mətbuat Şurası yaradılmışdır. Yəni bu proseslər onu göstərir ki, Azərbaycan dövlətinin və Azərbaycan iqtidarının niyyəti həmişə birmənalı olmuşdur.

Azərbaycan hüquqi dövlət quruculuğu işində çox böyük nailiyyətlərə çatmışdır. Biz sözün əsl mənasında azad, müasir, demokratik, hüquqi dövlət qururuq. Hüquqi dövləti azad mətbuatsız təsəvvür etmək mümkün deyildir. Məhz buna görə Azərbaycanda söz azadlığı, vicdan azadlığı, pluralizm meyilləri gücləndirilməlidir. Azərbaycan dövləti və Azərbaycan iqtidarı, əlbəttə, bu sahədə öz işini elə qurmalıdır ki, bu azadlıqlar Azərbaycanda tam şəkildə bərqərar olunsun. Son illər ərzində görülmüş işlər onu göstərir ki, biz düzgün yolla addımlayırıq, Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Azərbaycanda yüzlərlə mətbuat orqanı fəaliyyət göstərir. Yüzə yaxın həftəlik, 30-dan çox gündəlik qəzet nəşr edilir, 8 ümumrespublika telekanalı fəaliyyət göstərir. Azərbaycanda internetin yayılması çox sürətlə gedir və əlbəttə ki, bu dövlət siyasəti olmasaydı, proses sürətlə getməzdi. Bu gün artıq internet istifadəçilərinin sayı Azərbaycanda 50 faizə yaxınlaşır. Mən xatırlayıram, Mətbuat Şurasının üzvləri ilə bu ilin yayında görüş əsnasında bu məsələyə də toxundum. O vaxt qeyd etmişdim ki, Azərbaycanda 40 faizdən çox internetdən istifadə edənlər vardır. Mənə verilən son məlumata görə bu insanların sayı artıq qısa müddət ərzində 50 faizə çatmışdır. İKT-nin inkişafı istiqamətində atılmış addımlar nəinki Azərbaycanda təqdirlə qarşılanır, dünya birliyində də bunu yüksək qiymətləndirirlər. Bu, bir də onu göstərir ki, bizim niyyətimiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşları informasiya mənbələrinə çata bilsinlər. Yəni müxtəlif informasiyanı əldə etmək hər bir vətəndaşın təbii hüququdur və Azərbaycan dövləti bu hüquqları təmin etməlidir.

Biz müasir, açıq, demokratik dövlət qururuq. Əlbəttə ki, belə olan halda ictimai nəzarət daha da güclü olmalıdır. İctimai nəzarət azad mətbuatsız mümkün deyildir. Bizim iqtisadi islahatlarımız siyasi islahatlarla tamamlanır. Bu istiqamətdə böyük addımlar atılır. Mən dəfələrlə bunu qeyd etmişəm, bir daha demək istəyirəm və tam əminəm ki, demokratikləşmə prosesi getmədən, siyasi islahatlar aparılmadan biz uzunmüddətli, dayanıqlı iqtisadi inkişafa nail ola bilmərik. İqtisadiyyatımız artıq çoxsaxəli iqtisadiyyatdır, zəngin təbii resurslarımız vardır, Azərbaycan iqtisadi sahədə tam şəkildə özünü təmin edir. Buna baxmayaraq, əgər siyasi islahatlar lazımi səviyyədə aparılmasa, uğurlarımız qısamüddətli ola bilər. Biz isə Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını elə qurmaq istəyirik ki, onilliklər

bundan sonra Azərbaycan güclənsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar və Azərbaycan dünyada yerini daha da möhkəmləndirə bilsin. Bunun üçün siyasi islahatların aparılması mütləq vacibdir və biz bunu edirik.

Demokratiyanın inkişafı istiqamətində mətbuat azadlığının xüsusi rolu vardır. Burada əyləşənlərin əksəriyyəti jurnalistlərdir. Əminəm ki, siz bunu hamıdan yaxşı bilirsiniz. Bayaq qeyd etdiyim kimi, Azərbaycanda azad mətbuatın tarixi o qədər də böyük deyildir, hesab edirəm ki, qısa müddət ərzində - 20 il ərzində Azərbaycanda güclü, müstəqil mətbuat formalaşıbdır. Əlbəttə ki, burada ilk növbədə, mən jurnalistlərin fəaliyyətini xüsusilə vurğulamalıyam. Onların fəaliyyətini, bəzən çətin şəraitdə olan fəaliyyətini yüksək qiymətləndirirəm. Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirirəm. Mətbuat Şurası jurnalistlərlə dövlət qurumları arasındakı münasibətləri çox yaxşı tənzimləyir. Hesab edirəm ki, Azərbaycanda bu sahədə aparılan islahatlar və müsbət istiqamətdə inkişaf edən vəziyyət bunun əyani sübutudur. Mən hesab edirəm ki, bu münasibətlər - dövlət qurumları ilə mətbuat arasındakı münasibətlər daha da möhkəm olmalıdır və öz tərəfimdən çalışacağam ki, biz buna nail olaq.

Azərbaycanda bütün başqa sahələrdə olduğu kimi, siyasi islahatların aparılması bizim şüurlu seçimimizdir. Biz bu işləri şüurlu şəkildə edirik. Yəni hansısa beynəlxalq təşkilat qarşısında öhdəliyin yerinə yetirilməsi üçün etmirik. Biz beynəlxalq təşkilatlara da könüllü üzv olmuşuq, yəni, heç kim bizi məcbur etməyib. Biz istəyirik ki, Azərbaycanda mövcud olan meyarlar, standartlar dünyanın inkişaf etmiş ölkələrinin standartlarından geri qalmasın. Biz istəyirik ki, Azərbaycanda insanlar yaxşı yaşasınlar, Azərbaycanda güclü siyasi sistem formalaşsın, Azərbaycan iqtisadi sahədə daha da böyük uğurlara nail olsun, ölkəmizdə sosial proqramlar daha da sürətlə aparılsın və Azərbaycan çoxşaxəli şəkildə, hərtərəfli inkişaf etsin. Siyasi islahatların aparılması üçün bizdə həm güclü siyasi iradə var, həm də Azərbaycan cəmiyyəti buna hazırdır.

Baxmayaraq ki, əsrlər boyu biz başqa ictimai-siyasi quruluşlar çərçivəsində yaşamışdıq, Azərbaycanda demokratik proseslər getmirdi və gedə də bilməzdi. Sovet İttifaqı zamanında, yaxud da ondan əvvəlki dövrdə ictimai-siyasi quruluşumuz imkan vermirdi ki, Azərbaycanda demokratik proseslər aparılsın. Ancaq bu gün müstəqil dövlət kimi biz bu istiqamətdə, hesab edirəm ki, çox böyük nailiyyətlərə çata bilmişik. Bir daha demək istəyirəm ki, bu bizim strateji və şüurlu seçimimizdir.

Müstəqilliyimizi bərpa etdikdən sonra, əlbəttə ki, ölkə qarşısında müxtəlif istiqamətlərdə yollar açıq idi. Biz başqa yolla da gedə bilərdik. Ancaq ölkəmiz üçün həlledici məqamlarda, xüsusilə 1993-cü ildə Azərbaycan xalqının dəvəti ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkəmizin gələcək inkişaf istiqamətləri müəyyən edildi. İlk növbədə, konseptual çərçivələrdə Azərbaycan hansı yolla inkişaf etməlidir, Azərbaycan hansı seçimi etməlidir məsələləri öz həllini tapmışdır. Əgər bu prinsipial məsələlər həll olunmasaydı, gələcək inkişafımız başqa istiqamətdə də gedə bilərdi. Azərbaycan dövləti 1993-cü ildən başlayaraq dövlət quruculuğu işində öz strateji xəttinə sadiqdir. Bu günə qədər bu siyasət davam etdirilir. Bu gün Azərbaycanın reallıqları bir daha onu sübut edir ki, bu, ən düzgün seçim idi. Azərbaycanda demokratik dövlətin qurulması, bazar iqtisadiyyatının yaradılması, insan hüquqlarının qorunması, beynəlxalq aləmə inteqrasiya siyasətimiz, enerji resurslarından istifadə olunması və investisiyaların cəlb edilməsi məsələləri bir-biri ilə bağlı olan məsələlərdir.

Bazar iqtisadiyyatı prinsipləri ancaq azad rəqabət şəraitində öz nəticələrini verə bilər. Azad rəqabət isə ancaq demokratik şəraitdə mümkündür. Biz başqa ölkələrin təcrübəsini bilirik və tarixdən də öyrənmişik. Sovet İttifaqının mövcudluğu və süquta uğraması hamımızın yadındadır. Yəni biz elə etməliyik ki, ölkəmizin uzunmüddətli inkişaf perspektivlərini müəyyənləşdirək və onları təmin edək. Əgər bu gün Azərbaycanın inkişafına nəzər salsaq, görərik ki, bütün istiqamətlərdə ancaq müsbətə doğru tərəqqi vardır. Azərbaycan iqtisadiyyatı artıq oturuşmuş iqtisadiyyatdır. Azərbaycan iqtisadiyyatı keçid dövrünü başa vurub. Azərbaycan artıq postsovet ölkəsi deyildir. Bəzən bizə belə deyəndə, mən hesab edirəm ki, buna razı olmamalıyıq, çünki postsovet dövrü başa çatıb. Biz müstəqil, güclü, müasir, demokratik ölkəyik. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tam şəkildə bərqərar olunub. İqtisadiyyatımızın 85 faizi özəl sektorda formalaşır. Bununla bərabər, Azərbaycanda sosial proqramlar icra edilir və siyasətimiz sosial yönümlüdür. Nə bu, nə keçən böhran illərində Azərbaycan vətəndaşları böhranın acı nəticələrini hiss etmədilər. Bunun bir səbəbi vardır, o da ondan ibarətdir ki, Azərbaycanda düşünülmüş siyasət aparılır. Biz yaxşı bilirik, iqtisadi sahədə hansı addımları atmalıyıq ki, ölkəmizin dayanıqlı inkişafını və eyni zamanda, sosial müdafiə sahəsində insanların rifah halını maksimum dərəcədə təmin edək.

Biz bu il və keçən il dünyada, Avropa qitəsində gedən prosesləri

yaxşı bilirik. Mətbuatdan izləyirik, görürük meydana hansı problemlər, çətinliklər çıxır. Biz öz hesabımıza yaşayırıq. Məhz buna görə, biz böhranın acı fəsadlarını yaşamamışdıq, Azərbaycanın uğurlu inkişafını təmin etmişik.

Əlbəttə ki, siyasi sahədə aparılan islahatlar, xüsusi ilə bu il keçirilmiş parlament seçkiləri həm ölkəmizin vətəndaşlarına, həm dünya birliyinə bir daha Azərbaycanın uğurlu inkişafını açıq şəkildə göstərmişdir. Mən hesab edirəm ki, bu gün artıq yaranmış bu gözəl meyillər gələn illərdə davam etdiriləcəkdir. Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır. Biz bunu həm gündəlik həyatda, həm də beynəlxalq maliyyə qurumlarının hesabatlarında görürük. Ən önəmlisi ondan ibarətdir ki, biz gələcəyi də çox açıq-aydın görürük, hansı yolla inkişaf edəcəyik. Bəzi hallarda bu suallar verilir ki, Azərbaycan 10 ildən, 20 ildən sonra necə olacaq? Əlbəttə, qabağı görmək yüz faiz əminliklə mümkün deyildir. Amma hər halda bilirik ki, biz hansı yolla gedirik və hara gedirik. Mən heç şübhə etmirəm ki, 5 ildən, 10 ildən sonra və ondan sonrakı illərdə Azərbaycan yalnız inkişaf yolu ilə gedəcəkdir. Çünki bu gün ölkəmizdə yaranmış iqtisadi şərait, maddi resurslar, maliyyə resurslarımız, mövcud olan siyasi və ictimai sabitlik, xalqla iqtidar arasındakı birlik, Azərbaycanda təhlükəsizlik məsələlərinin yüksək səviyyədə həll olunması bizə imkan verir və verəcək ki, bundan sonrakı illərdə də fəaliyyətimizi proqram çərçivəsində quraq və Azərbaycanı həm siyasi, həm regional, həm də iqtisadi risklərdən maksimum dərəcədə qoruyaq. Beləliklə, ölkəmizin uzunmüddətli uğurlu inkişaf strategiyasını müəyyən edək.

Bütün bunları deyərkən, eyni zamanda, onu da qeyd etməliyəm ki, ölkədə problemlər də vardır. Biz bu problemləri bilirik. Bu problemlərin həlli üçün çalışırıq. Həm iqtisadi, həm sosial, həm də siyasi sahədə. Azərbaycan iqtidarı siyasi mübarizənin aparılması qaydalarının təkmilləşdirilməsi sahəsində öz üzərinə düşən vəzifəni icra edir. Hesab edirəm ki, son illərdə bu sahədə də müsbət dəyişikliklər baş verib və biz bunları görürük. Azərbaycanda siyasi mübarizə əksər hallarda mədəni şəkildə aparılır. Siyasi sistem formalaşır. Siyasi münasibətlər normal müstəvidə həllini tapır. Hesab edirəm ki, bunlar ölkəmizin gələcək inkişafı üçün çox vacib amillərdir. Biz bu müsbət meyilləri gücləndirməliyik.

Azərbaycanda, əlbəttə ki, siyasi mübarizə aparılmalıdır və aparılır. Müxtəlif fikirli insanlar, partiyalar, ictimai qurumlar mövcuddur. Mən bunu müsbət hal kimi qiymətləndirirəm. Ancaq diskussiyalar, müzakirələr, ədalətli tənqid sayəsində biz daha da böyük nəticələrə nail ola bilərik. Buna görə hesab edirəm ki, son illərdə bu sahədə müşahidə olunan irəliləyiş təqdirəlayiqdir. Deyə bilərəm ki, Azərbaycan dövləti və iqtidarı siyasi mübarizənin sivil, mədəni qaydalarla aparılması üçün bundan sonra da öz üzərinə düşən vəzifəni icra edəcəkdir.

Eyni zamanda, biz bu mübarizədə ədalətli olmalıyıq və Azərbaycanın ətrafında gedən prosesləri heç vaxt unutmamalıyıq. Müstəqillik böyük dəyərimizdir. Əsrlər boyu Azərbaycan xalqı müstəqillik arzusu ilə yaşamışdır. Bizdən əvvəlki nəsillər bu arzularla yaşamışlar, ancaq müstəqilliyi görmək onlara nəsib olmamışdır. Biz xoşbəxtik ki, müstəqilliyi görürük və nəinki görürük, müstəqilliyin güclənməsində fəal iştirak edirik. Bu, tarixi bir şansdır verilib Azərbaycan xalqına. Biz bu şansı itirməməliyik və əminəm ki, itirməyəcəyik. Biz müstəqilliyimizi hər gün gücləndiririk. Ona görə ölkədə gedən müsbət proseslərlə bərabər, əlbəttə ki, istəyirik ki, hüdudlarımızdan kənarda da əmin-amanlıq, sülh, əməkdaşlıq olsun. Biz qonşularımızla münasibətlərdə bu amilləri əsas götürmüşük. Qonşularla mehriban münasibətləri qurmaq bizim üçün prioritet məsələdir. Deyə bilərəm ki, buna nail ola bilmişik və bu münasibətlər bərabərhüquqlu, qarşılıqlı hörmət və bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurulmuş münasibətlərdir.

Ancaq, əlbəttə, onu da qeyd etməliyik ki, Azərbaycanın müstəqil ölkə kimi yaşamasının ilk illərindən, bəlkə ondan da əvvəl biz informasiya müharibəsi şəraitində yaşayırdıq. Ermənistan və bəlkə daha da çox erməni lobbisi Azərbaycana qarşı informasiya müharibəsini 1980-ci illərin sonlarından başlamışdır. Müstəqilliyin ilk illərində biz, deyə bilərəm ki, bu mübarizədə uduzmuşduq. O bəlkə də təbii idi. Çünki bizim belə xarici resurslarımız yox idi. Ölkə daxilində gedən xoşagəlməz proseslər, hakimiyyət uğrunda mübarizə, vətəndaş müharibəsi və s. problemlər, iqtisadi tənəzzül, əlbəttə, imkan vermirdi ki, biz beynəlxalq aləmdə istədiyimizə nail olaq. Ancaq bu gün mən tam əminliklə deyə bilərəm ki, Ermənistanla və xüsusilə erməni lobbisi ilə informasiya müharibəsində biz qalib gəlirik. Onların son müddətdə müşahidə olunan çox əsəbi və isterik hərəkətləri onu göstərir ki, biz informasiya müharibəsində böyük uğurlara nail ola bilmişik.

Əlbəttə ki, mən bu sahədə dövlət siyasəti ilə bərabər, media qurumlarının fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Biz artıq Azərbaycan haqqında reallıqları dünya ictimaiyyətinə çatdıra bilirik. Bizim artıq mövcud olan mətbuat resurslarımız, Azərbaycanın dünyadakı dostlarının sayının artması buna imkan verir. Bilirsiniz ki,

Azərbaycan indi enerji təhlükəsizliyi, regional təhlükəsizlik üçün çox önəmli ölkədir. Bəzi hallarda bizim fikrimiz, rəyimiz və addımlarımız həlledici xarakter daşıyır. Təsadüfi deyil ki, Azərbaycanla dostluq münasibətləri qurmaq istəyənlərin sayı artmaqdadır. Bu da bizim informasiya resurslarımızdır. Son illərdə onlarla səfirlik açılmışdır. Azərbaycanın dünyada əllidən yuxarı səfirliyi vardır. Bu da bizim informasiya resurslarımızdır. Diaspor təşkilatlarının formalaşması və Azərbaycan tərəfindən onlara dəstəyin verilməsi – bu da bizim resurslarımızdır. Dünyanın istənilən yerində bizim nümayəndələrimiz istənilən aksiyanı keçirə bilərlər və keçirirlər. Biz hücum diplomatiyası aparırıq və resurslarımız da var - həm intellektual, həm də maddi resurslarımız. Ona görə təsadüfi deyil ki, son illərdə biz artıq erməni lobbisi ilə mübarizədə qalib gəlirik. Əlbəttə ki, bu, onları çox narahat edir və vaxt keçdikcə bu mübarizədə biz daha da böyük uğurlara nail olacağıq.

İnformasiya mübarizəsi indiki şəraitdə hesab edirəm ki, prioritet məsələlərdən biridir. Biz internet və qloballaşma dövründə yaşayırıq və bütün müasir imkanlardan maksimum dərəcədə istifadə etməliyik. Onu da qeyd etməliyəm ki, Azərbaycanla bağlı olan bəzi informasiyalar, biz onu yaxşı bilirik, həqiqətə uyğun deyildir. Bəzi hallarda bəzi dairələr, - onların adını çəkmək bəlkə də mənim üçün yaxşı olmaz, onsuz da onları hamımız yaxşı tanıyırıq, - Azərbaycana qarşı böhtan, iftira kampaniyası aparırlar. Bunun da səbəbi var və burada, əlbəttə ki, təkcə erməni lobbisindən söhbət getmir, halbuki bu kampaniyanın arxasında daha çox onların qulaqları görsənir. Ancaq bütövlükdə biz bilirik, kim nə üçün nəyi yazır, hansı məqsədlə və nə vaxt. Əgər ölkəmizin həyatında və ətrafda gedən proseslərə nəzər salsaq görərik ki, artıq Azərbaycanla bağlı olan mənfi məlumat bölgədə gedən müəyyən vacib hadisələrlə uzlaşır. Bunu biz bilirik, görürük və buna qarşı mübarizə aparmalıyıq.

Qeyd etməliyəm ki, Azərbaycana qarşı böhtan kampaniyasının da əsas səbəbi ondan ibarətdir ki, ölkəmiz müstəqil siyasət aparır, heç kimin qarşısında baş əymir, heç kimin sözü ilə oturub-durmur. Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutur. Əlbəttə, elə dairələr var ki, bizim belə açıq hərəkətlərimiz onların xoşuna gəlmir. Ölkə daxilində onların əlində rıçaqların olmaması onları bu çirkin yola getməyə sövq edir. Ancaq biz buna gərək soyuqqanlı yanaşaq. Bu, müasir mübarizənin - siyasi mübarizənin bir üsuludur. Biz emosiyaya qapılmamalıyıq. Ancaq biz öz yolumuzdan da dönməyəcəyik. Bütün bu böhtançı qüvvələrə ən yaxşı cavabımız öz strateji xəttimizə sədaqətimizdir. Azərbaycan bu yoldan dönməyəcək. Azərbaycana təzyiq etmək mümkün deyildir. Bütün təzyiq cəhdləri uğursuzluqla nəticələndi, bizə nə qədər çox təzyiq cəhdləri göstərilirsə, biz o qədər də mətin, dönməz, əyilməz və inadkar oluruq.

Azərbaycan müstəqil ölkədir. Azərbaycanın gələcəyi Azərbaycan xalqının əlindədir. Azərbaycan xalqının iradəsi hər şeydən üstündür və hamımız çalışmalıyıq ki, ölkəmizi qoruyaq. İstisna olunmur ki, gələcəkdə bizə qarşı təzyiqlər daha da güclənsin. Çünki ölkəmizin coğrafi vəziyyəti, bölgədə gedən proseslər, Azərbaycanın güclənməsi və qüdrətli, müasir dövlətə çevrilməsi, əlbəttə, hesab edirəm ki, gələcəkdə bu təzyiqlərin artmasına gətirib çıxara bilər.

Biz xarici tərəfdaşlarla həmişə çox səmimi siyasət aparmışıq. Həmişə çalışmışıq ki, bu münasibətləri dostluq, əməkdaşlıq zəminində quraq və bayaq qeyd etdiyim kimi, dünyadakı dostlarımızın sayı artır. Amma bizi istəməyən qüvvələr də vardır. Qeyd etdiyim kimi, bunun müxtəlif səbəbləri vardır. Bəziləri sadəcə olaraq, Azərbaycanın uğurları ilə barışa bilmirlər, gözəlləşən şəhərlərimizi görəndə paxıllıq, qısqanclıq edirlər. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Hələ ki, mən bu ifadəni işlədirəm. Əminəm ki, vaxt gələcək, biz deyəcəyik ki, Bakı dünyanın ən gözəl şəhəridir. Həm gözəllik, həm rahatlıq, həm şərait, həm təhlükəsizlik, həm iqlim, həm insanlarımızın xoşniyyətli olmaları, qonaqpərvərlik – bütün bunlar hər bir şəhəri, hər bir ölkəni fərqləndirən amillərdir. Biz çalışırıq ki, ölkəmizdə və şəhərlərimizdə çatışmayan cəhətləri aradan götürək, vəziyyəti yaxşılaşdıraq, insanların rahatlığı üçün əlavə tədbirlər görək.

Bir daha qayıdıram bugünkü mövzuya. Bu istiqamətdə mətbuatın rolu əvəzolunmazdır. Mən ədalətli tənqidin tərəfdarıyam. Çünki ədalətli, qərəzsiz tənqid hər bir hökumət, hər bir iqtidar üçün çox vacibdir. İndi biz, əlbəttə, vəziyyətə nəzarət edirik və bilirik ki, ölkədə nələr baş verir. Amma elə sahələr var ki, onlar diqqətdən yayınır və burada mətbuatın rolu həlledici olmalıdır. Mən bu rolu qiymətləndirirəm və ədalətli, lazımlı tənqidə çox dözümlüyəm. Əlbəttə ki, böhtan, iftira, təhqir – onlar yolverilməzdir. Qeyd etməliyəm ki, son illərdə Azərbaycan cəmiyyətində və bayaq qeyd etdiyim kimi, mətbuatda artıq bu cəhətlər azalır. Əminəm ki, getdikcə bu özünü daha da qabarıq şəkildə göstərəcək və Azərbaycanda bütün mübarizə qaydaları mədəni, sivil əsaslar üzərində qurulacaqdır.

Bu gün qeyd etməliyəm ki, jurnalistlərin dostu olmaq mənim üçün böyük şərəfdir. Mən, sözün düzü, bu mükafatı gözləmirdim və sadəcə olaraq çalışırdım ki, öz fəaliyyətimlə ölkəmizin inkişafı üçün vacib olan bu sahəyə dəstəyimi verim. Mən bilirəm ki, jurnalistlərin

list əməyi qeyri-adi, olduqca böyük zəhmətli, çox səylər
ilməsini, hətta cəsurluq, hünər, fədakarlıq,
əsinə vurğunluq tələb edən əməkdir."

Heydər Əliyev

Azərbaycan milli mətbuatı 2010

KİVDF

"Azərbaycan mətbuatı xalqımızın azadlıq arzularının gel
milli şüurunun formalaşmasına böyük töhfələr vermişdi

İlhar

məişət, mənzil problemləri vardır. Jurnalistlər biznesmen deyillər ki, özləri üçün bu şəraiti yarada bilsinlər. Jurnalistlər üçün mənzillərin, evlərin tikilməsi təşəbbüsünü irəli sürəndə heç gözləmirdim ki, - halbuki mən birbaşa bunu bu mükafatla bağlamıram, - mükafata layiq görüləcəyəm. Amma hesab edirəm ki, bu addımın da bu mükafatın mənə verilməsində rolu vardır, gərək biz hər şeyi açıq danışaq, mən bunu təmənnasız edirdim. Çünki bilirdim ki, bu, lazımdır. Mən jurnalistlərin işini yüksək qiymətləndirirəm. Bu, çox çətin işdir. Bu işdə bəzən jurnalistlər haqsızlıqlarla, təzyiqlərlə üzləşirlər. Biz bunu da bilirik. Ona görə jurnalistlərin sosial müdafiəsi, məişət problemləri həllini tapmalıdır. Bu il imzaladığım sərəncam və Prezidentin Ehtiyat Fondundan ayrılmış vəsait sadəcə olaraq birinci addımdır. Mən bu gün demək istəyirəm ki, bununla biz işimizi bitmiş hesab etmirik. Gələcəkdə buna bənzər addımlar atılacaq və yenə də deyirəm, tamamilə təmənnasız atılacaqdır.

Mən o vaxt da jurnalistlər ictimaiyyətinə müraciət etdim və fikrimi söylədim ki, bu mənzillər bölünəndə medianın bütün istiqamətləri, necə deyərlər, bütün düşərgələri bundan bəhrələnə bilsinlər. Yəni burada heç bir ayrı-seçkilik olmamalıdır və ədalət prinsipi əsas olmalıdır.

Bu il Mətbuat Şurasının üzvləri ilə görüşümdə mən Azərbaycanda jurnalistikanın, azad mətbuatın inkişafı ilə bağlı fikirlərimi çox səmimi söylədim. Bu gün də bəzi fikirlərimi sizinlə bölüşürəm. Bir daha demək istəyirəm ki, aldığım bu mükafatdan asılı olmayaraq, mən bundan sonra da çalışacağam ki, Azərbaycanda bu sahədə daha da böyük addımlar atılsın. Azərbaycan dövləti öz dəstəyini göstərsin. Ölkədə müasir jurnalistikanın formalaşması işində Azərbaycan dövləti və Prezident kimi mən səylərimi əsirgəməyəcəyəm.

Əziz dostlar, mənə verilən mükafata görə bu qərarın qəbul olunmasında iştirak etmiş bütün insanlara bir daha minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, mən bu adı – jurnalistlərin dostu adını yüksək qiymətləndirirəm. Mən çalışacağam ki, bu ada layiq olum və bundan sonra da Azərbaycan xalqına sədaqətlə və ləyaqətlə xidmət edim.

Sizi qarşıdan gələn Dünya azərbaycanlılarının həmrəyliyi günü, Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. 2011-ci ildə hər birinizə xoşbəxtlik, cansağlığı, ailə səadəti arzulayıram. Sağ olun.

Krans Montana Forumunun "Prix De La Fondation" ali mükafatı

2011-ci il iyunun 23-də Belçikada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Krans Montana Forumunun ən ali mükafatı - "Prix De La Fondation" mükafatı ilə təltif olunması mərasimi keçirilmişdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva forumun "Azərbaycan: Şərqə doğru Avropanın qabaqcıl mayakı" sessiyasında iştirak etmişlər.

Dövlət başçısı və xanımı əvvəlcə Azərbaycanla bağlı təqdim edilən sərgi ilə tanış oldular.

Sərgidə Azərbaycanda gedən sürətli iqtisadi inkişaf prosesləri barədə ətraflı məlumat verildi. Burada Azərbaycanda enerji, turizm, mədəniyyət, infrastruktur sahələri barədə forum iştirakçılarının diqqətinə zəngin məlumat çatdırılmaqla Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf dinamikası barədə də informasiyalar yer almışdı. Bu da Azərbaycan ilə tanışlıq, ölkədə gedən iqtisadi inkişaf prosesləri barədə məlumat almaq üçün forum iştirakçılarına geniş imkanlar yaratdı.

22-ci dəfə keçirilən Krans Montana Forumunda dünyanın müxtəlif ölkələrindən dövlət başçıları, nazirlər, iri biznes sahibləri iştirak edir. Forum 1986-cı ildə İsveçrə rəsmilərinin dəstəyi ilə yaradılan beynəlxalq təşkilatdır. Qurum beynəlxalq əməkdaşlıq və dialoqa yardımı özünün əsas məqsədləri elan etmişdir.

Forum iştirakçıları salona daxil olan Azərbaycan Prezidentini və xanımını hərarətlə qarşıladılar.

Sonra forum öz işinə başladı.

Mərasimi açan Krans Montana Forumunun təsisçisi və prezidenti Jan Pol Karteron Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, o cümlədən digər qonaqları salamladı, tədbir iştirakçılarına Azərbaycan haqqında məlumat verdi.

Belçika Krallığı Baş nazirinin müavini, maliyyə naziri Didier Reynders Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, enerji sektorunda əldə olunan uğurlar, sərmayə mühiti barədə danışdı. Bu sahədə Prezident İlham Əliyevin xidmətlərini xatırladı və Avropa üçün Azərbaycanın Asiyaya açılan qapı olduğunu diqqətə çatdırdı.

Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger çıxışında diqqəti Azərbaycanın enerji sektorunda əldə etdiyi uğurlara yönəltdi. Dedi ki, indi enerji təhlükəsizliyi Avropa üçün bir nömrəli məsələdir və neft-qaz hasilatında əldə edilən nailiyyətlər Azərbaycanı daha da gücləndirir. Komissar Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun Bakıya səfəri zamanı enerji sahəsində əməkdaşlığa dair imzalanan birgə bəyannamənin əhəmiyyətinə də toxundu.

Albaniyanın Baş naziri Sali Berişa da neft-qaz sektorunda əldə olunan uğurlar münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Əlcəzairin planlaşdırma naziri Həmid Temmar və İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri də mərasimdə çıxış etdilər. İSESKO-nun Baş direktoru rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında yaranan səmərəli əməkdaşlıqdan danışdı. Vurğuladı ki, Azərbaycan həm İSESKO, həm də YUNESKO və digər beynəlxalq təşkilatların dəstəyi ilə keçirilən tədbirləri təşkil etməklə özünün mədəni dəyərlərə sadiqliyini təsdiq edib. O, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın fəaliyyətini vurğuladı və onun xoşməramlı səfir kimi mədəniyyət, elm, təhsil və digər sahələrdə həyata keçirdiyi layihələri yüksək qiymətləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyev forumda nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Xanımlar və cənablar, hörmətli dostlar!

Əvvəlcə mən dəvətə görə bu forumun Sədrinə dərin təşəkkürümü bildirirəm. Bu, əslində ölkəmizin müstəqilliyinin 20-ci ildönümünü qeyd etdiyi tarixə təsadüf edir. Belə bir mötəbər beynəlxalq forumda iştirak etməkdən şərəf hissi duyuram.

Əslində, tariximizdə bu ildönümü çox vacib bir mərhələni təşkil etmişdir. Müstəqillik tariximiz o qədər də uzun deyildir. 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra əslində bu, məhz bizim cəsarətimiz, baxışlarımız və istəklərimizdən irəli gəlirdi ki, müstəqilliyimizi əldə edəndən sonra hədəflərimiz hansılar olacaqdır?!

Bu gün biz fərəh hissi ilə deyə bilərik ki, bütün əsas məqsədlərə nail olduq. Azərbaycan yüz faiz planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçmiş bir ölkəyə çevrildi və iqtisadiyyatımızın 80 faizindən çoxunu özəl sektor təmin edir. Biz elə bir ölkəyə çevrildik ki, bu ölkə demokratik prinsiplər əsasında inkişaf edir, müstəqil siyasi sistemini qurur, beynəlxalq təşkilatlara üzv olur və siyasi islahatları böyük siyasi iradə ilə davam etdirir. Həyatımızın hər bir sahəsində biz tərəqqini görürük. Lakin bu, o demək deyildir ki, biz indi istirahət etməliyik və məqsədlərimizdən bəhrələnməliyik. Biz əslində ürəkdən çalışmalıyıq ki, Azərbaycanı müasir, demokratik, çiçəklənən dövlətə çevirək.

Zənnimcə, bunu etmək üçün bütün imkanlar vardır. Qeyd etdim ki, artıq bizim güclü siyasi iradəmiz var ki, ölkəmizin inkişafı təmin edilsin və müasir cəmiyyət qurulsun. Siyasi islahatlar olduqca vacibdir. Artıq 10 ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür və biz bu təşkilata üzvlüyə qəbul olunanda təşkilat qarşısında götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk.

İndi isə bizim Avropa İttifaqı ilə münasibətlərimiz yeni mərhələyə qədəm qoyur. Bu isə əlavə islahatlar və demokratik proseslər tələb edir. Dünən mənim Avropa təsisatlarının rəhbərləri ilə olduqca konstruktiv, məhsuldar və dostluq mühitində keçən görüşlərim oldu. Mən Avropa Komissiyasının Sədri cənab Barrozu ilə görüşdüm. Eyni zamanda, Avropa İttifaqının Prezidenti cənab Herman Van Rompey, Avropa Parlamentinin Sədri cənab Yeji Buzek və digər Avropa komissarları ilə görüşlərim oldu.

Bu, onu göstərir ki, bizim ümumi maraqlarımız var ki, gələcəkdə bir çox sahələrdə əməkdaşlığımızı genişləndirək. Bizim böyük gözləntilərimiz var ki, "Şərq tərəfdaşlığı" proqramı Azərbaycan ilə Avropa arasında daha sıx əlaqələrin qurulmasına imkan yaradacaq və bunun nəticəsində biz Avropa İttifaqının müsbət təcrübəsindən ölkəmizdə istifadə edəcəyik, həyatımızın meyarlarını Avropa İttifaqının meyarlarına yaxınlaşdıracağıq. Azərbaycanın Avropanın bir hissəsi olmasını, Avropa qitəsinin ifrat sərhədində yerləşməsini nəzərə alaraq ölkəmiz bu sahədə öz rolunu oynamağa hazırdır.

Biz siyasi sahə ilə yanaşı, iqtisadi sahəyə də xüsusi diqqət yetiririk. Çünki qarşımızda duran böyük məsələlər vardır. Bizə şaxələndirilmiş iqtisadiyyat lazımdır. Biz sərmayələr qoymalıyıq və ölkədə canlanma yaratmalıyıq. Əslində müstəqilliyimizin ilk illərindən - 1993-cü ildən etibarən əsas alətlərimiz ondan ibarət idi ki, biz yaxşı, münbit sərmayə mühiti yaradaq və potensial sərmayədarlara nümayiş etdirək ki, Azərbaycan sərmayə üçün müvafiq yerdir.

Zənnimcə, biz bu məqsədə nail olduq. 1995-ci ildən etibarən xarici sərmayələr ölkə iqtisadiyyatına qoyulduqdan sonra bu gün demək olar ki, 100 milyard dollara yaxın vəsait Azərbaycan iqtisa-

diyyatına yatırılıbdır. Əslində təbii ki, bu sərmayələrin aparıcı qüvvəsi Azərbaycanın enerji sektorudur. Biz əslində təbii sərvətlərimizdən istifadə edərək Azərbaycan iqtisadiyyatını şaxələndirməyə başladıq və enerji sektorundan asılılığımızı azaltdıq. Zənnimcə, biz buna nail olduq. Bu misallardan birini gətirərək deyim ki, hətta böhran illərində - 2008-ci, 2009-cu illərdə neftin qiymətlərinin 4-5 dəfə azalmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatı yenə də artmaqda davam etmişdir. Əsasən də bu artım qeyri-neft sektorunda müşahidə edilmişdir.

Ümumiyyətlə, son illərdə Azərbaycanın iqtisadiyyatı çox sürətlə artmışdır. Bizim iqtisadiyyatımız 3 dəfə, ÜDM 300 faiz artmışdır. Sənaye istehsalı, demək olar ki, 3 dəfə artmışdır. Əldə etdiyimiz ən mühüm nailiyyətlərdən biri, təbii ki, 900 mindən artıq iş yerinin xüsusən də rayonlarda açılmasıdır. Bu, o deməkdir ki, rayonlara kapital qoyuluşu davam etmişdir. Təbii ki, yoxsulluğun 2003-cü ildə 49 faizdən 2010-cu ildə 9 faizə qədər azalması onu göstərir ki, islahatlarımızın nəticələri vardır. Təbii ki, neftdən əldə edilən gəlirlərin ədalətli şəkildə istifadə edilməsi, paylanması düzgün yolla aparılmışdır.

Ümumiyyətlə, gələn illər ərzində Azərbaycanın iqtisadi inkişafı əsasən qeyri-neft sektoruna yönələcəkdir. Bu da ölkəmizin iqtisadi inkişafını təmin edəcəkdir. Bu, Azərbaycanda əsasən kənd təsərrüfatının, informasiya texnologiyalarının inkişafı sayəsində olacaqdır. Hazırda biz kosmik sənayemizi yaradırıq. Gələn il Azərbaycan telekommunikasiya sahəsində irəliyə böyük addımlar atacaq, öz peykini buraxacaq və bu, artıq kosmik sənayenin başlanğıcı olacaqdır.

Biz təhsilə çox sərmayələr yatırırıq, səhiyyə sahəsinə diqqət yetiririk, sosial infrastrukturu yaradırıq. Bizim xüsusi proqramlarımız

vardır ki, gənc azərbaycanlılar dünyanın aparıcı universitetlərində, tədris ocaqlarında təhsil alırlar. Onların təhsili dövlət tərəfindən maliyyələşdirilir.

Ölkəmizin müasirləşdirilməsinə gəldikdə, bu, sırf iqtisadi dəyişikliklərlə baş tutmur. Mən artıq bu gün qeyd etdim ki, bizim iqtisadi sektorda hər hansı bir ciddi problemimiz yoxdur. Biz həyatımızın hər bir aspektini müasirləşdirməliyik və müasir, dinamik ölkəyə çevrilməliyik. Buna görə də bir daha qeyd etmək istəyirəm ki, Avropa təsisatları ilə sıx əlaqələrimiz, Avropa İttifaqı ilə bütün sahələrdə əməkdaşlıq bizim üçün cəlbedicidir.

Azərbaycan mədəniyyətlərarası dialoqda öz rolunu oynamaqdadır. Əsrlər boyu ölkəmiz elə bir məkan olub ki, orada müxtəlif etnik, dini köklərə malik xalqlar yan-yana, mehribanlıq şəraitində yaşayıblar. Çox şadıq ki, bu müsbət meyillər müstəqillikdən sonra hətta daha da güclənib. Azərbaycan cəmiyyəti çoxmədəniyyətli cəmiyyətdir, çoxetnik cəmiyyətdir. Müxtəlif millətlərin və dinlərin nümayəndələri mehriban şəraitdə yaşayırlar.

Biz, eyni zamanda, müxtəlif beynəlxalq tədbirlərin keçirildiyi məkanıq. Dialoq sahəsində xüsusi rol oynayırıq. Bu il ölkəmizdə mədəniyyətlərarası dialoq mövzusunda çox mühüm beynəlxalq konfrans keçirildi. Çox tanınmış şəxslər, dostlarımız Karteron, cənab əl-Tüveycri iştirakları ilə həmin konfransa töhfə verdilər. Ötən il biz dünya dini liderlərinin beynəlxalq konfransını keçirdik. Biz bu tədbirləri davam etdirmək fikrindəyik. Çünki biz tam əminik ki, inkişafın bu mərhələsində daha çox ünsiyyət yaratmalıyıq və mədəniyyətlərarası dialoq haqqında daha çox söhbət aparmalıyıq. Hesab edirəm ki, hazırda bunun mühüm əhəmiyyəti vardır. Mən tam əminəm ki, çoxmədəniyyətlilik uğursuzluğa düçar



olmayıb, onun böyük gələcəyi vardır. Çoxmədəniyyətlilik bəşəriyyətin inkişafa aparan yeganə yoludur. Keçmişimizdən irəli gələn təcrübəmizə əsasən deyə bilərəm ki, bu, işləyə bilər. Bu, uğurla baş tuta bilər. Buna görə bu gün müsbət təcrübə, həmçinin bizim dostlarımız üçün vacibdir. Təbii ki, onlar da bu mötəbər mərama öz töhfəsini vermək istəyirlər.

Azərbaycan mühüm coğrafi mövqedə yerləşir. Biz sivilizasiyaların kəsişdiyi məkanda yerləşirik. Eyni zamanda, bizim prioritetlərimiz vardır. Biz Avropa Şurasının, eyni zamanda, İslam Konfransı Təşkilatının üzvüyük. Əslində bu, ölkəmizdə xüsusi bir ab-hava yaradır. Biz söylərimizi davam etdirəcəyik ki, beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqa töhfəmizi verək.

Biz regional təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetiririk. Ən böyük problemlərdən, ən böyük çətinliklərdən və əslində ən böyük hədələrdən biri bu regionda nə hərb, nə sülh vəziyyətidir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Uzun illərdir ki, Azərbaycan əraziləri işğal altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini həyata keçirib və bunun nəticəsində bir milyondan artıq azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün kimi yaşamağa məcbur olub. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri işğal altındadır. Əfsuslar olsun ki, artıq iki onillikdir ki, bu vəziyyət davam edir. Dağlıq Qarabağ münaqişəsi nəinki ən böyük ədalətsizlik, o cümlədən regional təhlükəsizliyə, sabitliyə böyük hədədir. Buna görə münaqişənin həlli, beynəlxalq hüquq normaları əsasında nizamlanması nəinki bizim üçün, bütövlükdə bütün region üçün vacibdir. Beynəlxalq təşkilatlar, BMT-nin Təhlükəsizlik Şurası və digər təşkilatlar bir neçə qətnamə və qərar qəbul ediblər. Həmin qərarlarda erməni işğalçı qüvvələrinin ərazimizdən qeyd-şərtsiz, dərhal çıxarılması tələb edilir. Əfsuslar olsun ki, bu günə qədər Ermənistan bu qətnamələrə heç bir diqqət yetirmir, məhəl qoymur və beynəlxalq hüquq normalarını pozur. Dağlıq Qarabağ münaqişəsinin həlli regionun bütün ölkələrinin marağındadır. Həmçinin vasitəçi kimi bu prosesdə iştirak edən, yardım göstərməyə çalışan ölkələr üçün də vacibdir.

Son vaxtlar ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin rəhbərlərinin verdikləri bəyanat bizi ruhlandırır. Fransa, Rusiya Federasiyası, Birləşmiş Ştatların rəhbərləri qeyd etmişlər ki, status-kvo dəyişdirilməlidir, bu, saxlanıla bilməz. Əslində bu, bizim Sədr Barrozu ilə görüşümüz zamanı da xüsusilə qeyd edildi ki, status-kvo dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi isə öz növbəsində

artıq işğal olunmuş ərazilərin azad edilməsi deməkdir. Biz bunun tərəfdarıyıq, biz buna çalışırıq.

Ermənistan isə əksinə, status-kvonu mümkün qədər uzun müddətdə saxlamağa çalışır. İndi isə əgər status-kvonun dəyişdirilməsindən söhbət gedirsə, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi və sülhün bərqərar olunması vaxtıdır, bu vaxt artıq yetişib. Yəni bu, bizim üçün olduqca vacibdir. Əgər bu problem olmasaydi, siz təsəvvür edin ki, Azərbaycan necə inkişaf edə bilərdi. Hətta demək olar ki, qaçqınlar və məcburi köçkünlərin sayına görə Azərbaycan dünyada ən böyük göstəricilərdən birinə malik olmasına baxmayaraq, yenə də biz özümüzə arxalanan ölkəyik. Biz dinamik ölkəyik, güclü imkanlarımız var, şaxələndirilmiş inkişaf edən iqtisadiyyatımız, siyasi sistemimiz mövcuddur və gələcəyimiz üçün çox aydın planlar vardır. Buna görə də bu münaqişə nə qədər tez həll olunsa, bu, regional əməkdaşlığa, sabitliyə və proqnozlaşdırmaya apara bilər. Bunun nəticəsində region ölkələri Avropa təsisatlarına daha sürətlə inteqrasiya edə bilər.

İnkişafımızın ən vacib elementlərindən biri, əlbəttə ki, enerji sektoru ilə bağlıdır. Mən onu demək istəyirəm ki, ölkəmiz üçün resurslarımız, onlardan düzgün istifadə necə müasir ölkənin qurulması yolunu bizə müəyyən edir. Əslində biz bu fürsətdən düzgün istifadə etdik. Biz enerji layihələrindən əldə edilmiş gəlirlərin ədalətli şəkildə bölüşdürülməsinə nail olduq. Bu gün Azərbaycanın Dövlət Neft Fondu, ola bilsin ki, dünyada ən şəffaf,

suveren fondlardan biridir. Bu, əslində beynəlxalq təşkilatların qiymətləndirilməsində də qeyd edilir. Bu, dünyada ən mühüm təsisatlardan biridir. Bu, əsas səbəblərdən biri idi ki, biz iqtisadiyyatımızı şaxələndirdik. Çünki bu fond beynəlxalq səviyyədə auditdən keçir, daxil olan bütün vəsaitlər şəffaf şəkildə istifadə olunur. Vəsaitlər haqqında informasiya dövri olaraq açıqlanır və biz heç vaxt bunu sirr kimi saxlamırıq ki, fondumuza nə qədər vəsait toplanıb və bu, açıq məlumatdır. Mən deyə bilərəm ki, Azərbaycanın ümumi ehtiyatları 35 milyard dollardan artıqdır. Bu, bizim üçün əlavə imkanlar yaradır ki, ölkəmizi inkişaf etdirək, sosial infrastruktura sərmayə qoyaq, ölkəmizi daha da müasirləşdirək. Bu vəsaitləri xalqın rifahı üçün sərf edək və təbii ki, əhalimizin yaşayış səviyyəsini daha da yaxşılaşdıraq.

Hesab edirəm ki, yeddi il ərzində yoxsulluğun 5 dəfə azalması atdığımız addımların düzgünlüyünü göstərir. Eyni zamanda, enerji siyasətimiz regionda və Avropada enerji təhlükəsizliyi məsələsində mühüm rol oynayır və oynamaqdadır.

Biz 2000-ci illərin əvvəlində başlayanda və 2006-cı ildə boru kəmərlərini istismara verəndə o vaxt hələ böyük həcmdə resurslar ixrac olunmurdu. Bu, əslində bir başlanğıc idi və bir növ enerji dəhlizinin tikilməsi idi. Əslində bu, enerji resurslarının dünya bazarlarına çıxarılması idi ki, Bakı-Tbilisi-Ceyhan 2005-ci ildə istismara verildi. 2007-ci ildə, həmçinin qaz boru kəməri tikildi və Azərbaycandan çəkildi.

Azərbaycan elə bir ölkədir ki, tarixdə ilk dəfə olaraq Xəzər dənizinin resurslarını beynəlxalq bazara çıxardı. Bu gün isə biz neft və qaz sahəsində şaxələndirilmiş təchizat şəbəkəsini yaratmağa nail olmuşuq. Hazırda 7 neft və qaz boru kəməri mövcuddur ki, onlar enerji resurslarını bütün istiqamətlərdə çatdırır. Bütün karbohidrogen resurslarımız ətrafda olan ölkələrə çatdırılır. Zənnimcə, bu sahə gələcəkdə daha çox vəsaitlərin əldə edilməsinə imkan yaradacaqdır. Təbii ki, biz hazırda müzakirələr aparırıq ki, daha geniş regional əməkdaşlıq edək. Cənab Ottingerin bu gün dediyi kimi, biz "Cənub" qaz dəhlizini ciddi şəkildə müzakirə etdik. Əslində Sədr Barrozunun Azərbaycana səfəri zamanı bu haqda birgə bəyannamə imzalandı. Bunun əsasında işçi qrupu yaradıldı və olduqca qısa müddət ərzində - 6 aydan az vaxtda artıq yaxşı nəticələr verir. Biz ilin sonuna qədər fəal şəkildə işləməyi planlaşdırırıq ki, bütün məsələləri həll edək, tranzit sazişlər öz həllini tapsın və beləliklə, Azərbaycanın böyük neft-qaz ehtiyatlarının işlənilməsinə nail olaq.

Təbii ki, neftin nəqli məqsədi ilə yaradılmış bu dəhliz indi qazın çatdırılması üçün şərait yaradır. Bu, həmçinin ünsiyyət alətidir. Hazırda biz dəmir yolu xəttini çəkirik. Bu, Asiya qitəsini Azərbaycandan keçərək Avropa ilə birləşdirəcəkdir. Gələn ilin sonunadək bu dəmir yolunun artıq istismara verilməsi baş tutmalıdır. Bu dəmir yolunun tikintisi nəticəsində bizim malların, on milyonlarla ton yükün Şərqdən Qərbə və geriyə daşınması mümkün olacaqdır.

Buna görə Azərbaycanın enerji strategiyası, irəli sürülən təşəbbüslər və bizim tərəfimizdən başlanmış layihələr bu gün regional əməkdaşlığa aparır və gələcəkdə isə qitələrarası əməkdaşlığa imkan yaradacaqdır. Hazırda biz Avropa tərəfdaşlığı hökumətləri və şirkətləri ilə müzakirələr aparırıq, Azərbaycan artıq nümayiş etdirdi ki, etibarlı tərəfdaşdır.

Azərbaycan elə bir ölkədir ki, şaxələndirmə siyasətinə dəstək verə bilər. Şaxələndirmə siyasəti həm hasilatçılar, həm də istehlakçılar üçün vacibdir. Hasilatçı kimi biz artıq bütün mümkün işləri görmüşük. İndi isə biz istehlakçılara dəstək vermək istəyirik ki, onların da şaxələndirilmiş təchizat marşrutları olsun.

Şaxələndirmə təkcə yeni təchizat yolları demək deyildir. Əslində bu, yeni mənbələrin olması deməkdir. Bu baxımdan Xəzər dənizi, Azərbaycanın Xəzər dənizindəki resursları şaxələndirmə üçün yeni mənbə rolunu oynayır. Çünki Xəzər dənizinin Azərbaycan sektorunda olan ehtiyatlar, xüsusən də qaz ehtiyatları hələ ki tam işlənilməyibdir. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları minimum 2,2 trilyon kubmetrə bərabərdir. Bu il və gələn il ərzində də biz bu sahədə işlərimizi – kəşfiyyat işlərini davam etdirəcəyik. Bu rəqəm daha da artacaqdır. Bu, o deməkdir ki, cənab Ottingerin qeyd etdiyi kimi, Bakıda Sədr Barrozu ilə mənim aramda imzalanmış bəyannamə ilə Azərbaycan mühüm təchizatçıya çevriləcəkdir ki, biz öz qonşularımıza, dostlarımıza bu prosesdə dəstək verməyə hazırıq. Əminəm ki, enerji siyasətinin Azərbaycanda uğurla həyata keçirilməsi davam edəcəkdir. Bir layihə digər layihənin yaradılmasına imkan verir.

Mən ölkəmiz haqqında daha çox danışa bilərdim. Ölkəmizin tarixi haqqında danışa bilərdim. Təbii ki, qeyri-neft sektorunda olan nailiyyətlər burada fotoşəkillərdə öz əksini tapıbdır. Turizm infrastrukturu sahəsində nailiyyətlər vardır. Yalnız bu il Bakıda beşulduzlu altı mehmanxana açılacaqdır. Bu da əslində bizim açıq qapı siyasətimizin, sərmayə mühitimizin təzahürüdür və təbii ki, sərmayədarların Azərbaycanın gələcəyinə verdiyi töhfədir. İqtisadi-sosial vəziyyətin daha da yaxşılaşdırılması Azərbaycana bu marağı daha da artıracaqdır.

Təbii ki, Azərbaycanın özü də artıq sərmayədar ölkəyə çevrilir. Olkə hüdudlarından kənarda qoyulan sərmayələr artıq 3-4 milyard dollara bərabərdir və Azərbaycan artıq bu baxımdan yaxşı nüfuza malikdir.

Mən nitqimi yekunlaşdıraraq burada - Avropanın ürəyində, mərkəzində çalışan, yaşayan işçilərə, əməkdaşlara təşəkkürümü bildirirəm ki, onlar bizim müğənnilərə dəstək vermişlər. Bu, əslində dostluq rəmzidir. Bu, avropalıların bizə olan münasibətidir. Çünki bu mahnı onların xoşuna gəldi, onlar müğənnilərin çıxışını bəyəndilər. Eyni zamanda, Azərbaycana dostluq münasibəti göstərdilər. Bu, Avropadan Azərbaycana olan münasibət idi. Yəni bu, Avropanın ictimai rəyini əks etdirdi. Avropadakı müxtəlif ölkələr Azərbaycanı Avropanın bir hissəsi hesab edirlər. Əslində biz daha ürəkdən işləməliyik və dünən Avropa təsisatlarının rəhbərləri ilə görüşlər bir daha onu nümayiş etdirdi ki, tərəfdaşlığımızı inkişaf və dostluq münasibətlərimizi davam etdirmək üçün bizim güclü iradəmiz vardır.

Çox sağ olun. Mən fürsətdən istifadə edərək sizin hamınızı gələn il Bakıya dəvət edirəm. Biz bu forumu Azərbaycanda keçirəcəyik. "Eurovision" mahnı müsabiqəsi Azərbaycanda olacaqdır. Bir çox maraqlı tədbirlər olacaqdır. Çox şad olardıq ki, sizin hamınızı Bakıda görək. Diqqətinizə görə çox sağ olun.

Sonra çıxış edən Krans Montana Forumunun Prezidenti **Jan Pol Karteron** müasir Azərbaycanın sürətli inkişafının ulu öndər Heydər Əliyevin yaratdığı möhkəm bünövrə sayəsində mümkün olduğunu əsaslandıraraq dedi:

- Biz tam əminik ki, Siz xeyirxah işlərin insanısınız, şəxsiyyətisiniz, cənab Prezident! Xanımlar və cənablar, mən tam əminliklə deyə bilərəm ki, sizlərdən çox az bir qismi hələ ki, Azərbaycana səfər edibdir. Mən sizə demək istəyirəm ki, bu ölkədə çox böyük dəyişikliklər baş verib. Mən, təbii ki, burada güclü iradəyə əsaslanan baxışlar haqqında danışmaq istərdim. Bu, əslində Heydər Əliyevin ölkədə hakimiyyətdə olduğu vaxtdan başlayır. O, Azərbaycan üçün bir çox işlər gördü, Azərbaycanda yüksək makroiqtisadi göstəricilərin təmin edilməsinə nail oldu və bu, dünya səviyyəsində tanındı. Hətta mən sizə deyərdim ki, ötən illər ərzində bir çox ölkələr müflisləşməyə doğru gedərkən, Azərbaycanda yenə də artım 5 faiz olmuşdur. Təbii ki, cənab Prezident, mən bunu Sizinlə görüşümüz zamanı açıqladım. Əslində dedim ki, bu, möcüzədir.

Prezident Heydər Əliyevin siyasi kursu Sizin tərəfinizdən uğurla davam etdirilir, Azərbaycanda iqtisadi inkişaf sahəsində böyük nailiyyətlər əldə olunmuşdur.

Cənab Prezident, Siz bu regionda öz rəhbərlik məharətinizlə

seçilərək, əslində bir kapitan rolunu oynayaraq tam şəkildə, tam surətdə ölkənizin nüfuzunu artırırsınız. Siz islahatlar, struktur islahatları həyata keçirdiniz, bir çox xarici sərmayədarları ölkənizə cəlb etdiniz və fiskal siyasəti düzgün apardınız.

Azərbaycanda gedən proseslər, aparılan struktur islahatları, korrupsiyaya qarşı mübarizə tədbirləri, xüsusilə şəffaflığın təmin olunması məqsədi ilə yaradılan Neft Fondunun fəaliyyəti Avropada diqqətlə izlənilir.

Siz, eyni zamanda, iqtisadi böhran zamanı ölkəni çox düzgün şəkildə idarə etdiniz. Siz qeyd etdiniz ki, neftin qiymətləri aşağı düşürdü və təbii ki, bu halda Siz olduqca müdrik qərarlar qəbul etdiniz. Demək olar ki, Sizin ölkənin beynəlxalq səviyyədə borclarının olmaması, maliyyə böhranından düzgün çıxması və düzgün həll yollarının, variantlarının tapılması xüsusi əhəmiyyət kəsb etdi və təbii ki, artımın nəticələrindən bəhrələnə bildiniz. Sizin xarici siyasətiniz açıqlıq siyasətidir.

Zəngin təbii ehtiyatlara malik olan və bunlardan səmərəli istifadə edən Azərbaycan Avropa İttifaqı ilə əlaqələri genişləndirir. Bu gün Azərbaycan Yaxın Şərqə, Mərkəzi Asiyaya çıxışdır. Azərbaycanda son illər ərzində baş verən hadisələr əsl möcüzədir. Mən Azərbaycanda müşahidə olunan sürətli inkişafın, Azərbaycan xalqının qonaqpərvərliyinin şahidi olmaq üçün hamını Azərbaycana səfər etməyə çağırıram.

Sonra forumun ən ali mükafatı - "Prix De La Fondation" mükafatı Prezident İlham Əliyevə təqdim olundu.

Azərbaycanın dövlət başçısı **İlham Əliyev** ali mükafata görə minnətdarlığını bildirərək dedi:

- Cənab Sədr, bu mükafata görə çox sağ olun. Mənim üçün bu mükafatı almaq böyük şərəfdir və Azərbaycan haqqında söylədiyiniz xoş sözlərə görə təşəkkürümü bildirirəm. Bu, dostumuzun söylədiyi sözlərdir. Mən Sizə ölkəmiz haqqında söylədiyiniz sözlərə və planlarımız haqqındakı fikirlərinizə görə təşəkkürümü bildirirəm.

Qeyd etmək istəyirəm ki, biz işimizi hələ tam bitmiş hesab etmirik, o vaxta qədər ki, öz hədəfimizə yaxınlaşacağıq. Hədəf müasir Azərbaycandır, sülhdür, bütün ölkələrlə sülh münasibətləri və Avropa ölkələri ilə yaxşı münasibətlərdir. Bu, elə bir ölkə olmaqdır ki, orada sosial-iqtisadi sabitlik, qanunun aliliyi vardır, demokratik elementlər mövcuddur, insanlar dinc şəraitdə yaşayır və həyatdan həzz alırlar.

Ola bilsin ki, mən indi ölkənin əslində ideal panoramını təsvir etdim. Amma hesab edirəm ki, buna nail olmaq mümkündür. Çünki son 20 il ərzində işğalla yanaşı, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, inflyasiyanın yüksək səviyyəsindən sonra biz ölkəni yeni dirçəliş yoluna çıxara bildik. Bu, dirçəliş çox qısa müddət ərzində baş verdi. Bu, onu göstərir ki, biz öz məqsədlərimizə nail olduq, bütün resurslarımızı səfərbər etdik və cəmiyyət daha da həmrəy oldu.

Təbii ki, Azərbaycan xalqının fəal iştirakı olmadan buna nail olmaq mümkün olmazdı. Azərbaycan xalqının vətənpərvərliyi vacib idi. Azərbaycan xalqı əsrlər boyu müstəqillik haqqında düşünürdü. Biz keçmişdə digər imperiyaların hissəsi olmuşuq və indiki nəslimiz xoşbəxtdir ki, biz bu müstəqilliyi gördük. Əslində biz ölkəmizi gücləndiririk və ölkəmizin inkişafına töhfə veririk. Bu gün Azərbaycan öz mövqeyinə malik olan ölkədir. Azərbaycan nəinki regionda xüsusi mövqeyə malik olan ölkədir, eyni zamanda, qlobal siyasətdə öz rolunu oynayır, öz sözünü deyir və regional layihələri həyata keçirir. Enerji təhlükəsizliyi ilə bağlı bizim öz rolumuz var və təhlükəsizlik prosesində fəal iştirak edirik. Bütün bunlar Azərbaycanın nailiyyətləridir. Əgər gələcəyimizə inamımız olmasaydı, yəqin ki, qəbul etdiyimiz bəzi mürəkkəb qərarlar da mümkün olmazdı. Bu gün Azərbaycanın mövqeyinin gücləndirilməsi bizə imkan verir ki, regionda müstəqil siyasət yürüdək. Bu siyasət bizim ölkəmizin, xalqımızın və dostlarımızın marağına xidmət edir.

Mən çox şadam ki, ən mühüm regional və qlobal məsələlərdə bizim mövqeyimiz, Azərbaycanın yanaşması avropalı tərəfdaşlarımızın mövqeyi ilə üst-üstə düşür. Avropa İttifaqının rəhbərləri ilə keçirdiyimiz dünənki görüşlər bunu bir daha nümayiş etdirir. Mən bu mükafatı ölkəmizə verilən mükafat kimi qəbul edirəm. Müstəqil Azərbaycanın həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə əldə etdiyi uğurlar Avropaya olan münasibətinin təcəssümüdür. Bu, çox vacibdir və bu gün əslində biz yeni, olduqca perspektivli və eyni zamanda, çox mürəkkəb bir mərhələyə qədəm qoyuruq. Bu, Avropa ilə Azərbaycanın münasibətlərinə aid olan bir mərhələdir. Bu, münasibətlərimizin rəsmiləşdirilməsinə aparan yoldur və tərəfdaşlıq sazişimiz əsasında ölkəmizin, münasibətlərimizin inkişaf perspektivini müəyyən edəcəkdir.

Cənab Sədr, bir daha şəxsən Sizə və Sizin bütün həmkarlarınıza, bu qərarın qəbul edilməsində iştirak etmiş şəxslərə təşəkkürümü bildirirəm və sizin hamınızı Azərbaycana səfərə dəvət edirəm. Gəlin, görün ölkəmiz necə inkişaf edir. Çox sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

Həştərxan şəhərinin fəxri vətəndaşı

2011-ci il sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Həştərxan şəhərinin fəxri vətəndaşı" adı verilmişdir.

Azərbaycan dövlətinin başçısı İlham Əliyevə "Həştərxan şəhərinin fəxri vətəndaşı" adının verilməsi barədə qərar "Həştərxan şəhəri" bələdiyyə qurumunun Şəhər Duması tərəfindən qəbul edilmişdir. Sənədi Şəhər Dumasının sədri Y.Simeonova imzalamışdır.

Azərbaycan dövlətinin başçısı bu fəxri ada əsasi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Rusiya-Azərbaycan dostluğunun və strateji tərəfdaşlığının inkişafı və möhkəmlənməsində xidmətlərinə, Həştərxanda iri sosial-mədəni və iqtisadi layihələrlə bağlı təşəbbüslərinə, bu layihələri və Rusiya Federasiyasındakı Azərbaycan diasporunun fəaliyyətini dəstəkləməsinə görə layiq görülmüşdür.

«Почетный гражданин города Астрахани»

ПРИСВОЕНО

АЛИЕВУ

Ильхаму Гейдар оглы

Президенту

Азербайджанской

Республики

İdman təşkilatlarının mükafatları

Beynəlxalq Olimpiya Komitəsinin "Olimpiya" ordeni

2004-cü il aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "ABU Arena" idman kompleksinin təntənəli açılışı mərasimində Beynəlxalq Olimpiya Komitəsinin ali mükafatı – "Olimpiya" ordeni təqdim edilmişdir.

Kompleksin qarşısına toplaşanlar dövlət başçısını səmimiyyətlə qarşıladılar, ona gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyev və Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnov bu möhtəşəm idman obyektinin rəmzi açılışını bildirən qırmızı lenti kəsdilər, "ABU Arena" oteli və kompleks ilə yaxından tanış oldular.

Azərbaycan Həndbol Federasiyası və "ABU" idman klubu tərəfindən bir il ərzində tikilən bu kompleksdə həndbol üzrə ən yüksək səviyyəli yarışların keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Eyniadlı otel isə dünya və Avropa səviyyəli yarışların iştirakçıları üçün nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev hər iki obyektdə idmançılar üçün yaradılmış yüksək səviyyəli şəraitdən razılığını bildirdi, üzgüçülük hovuzunu, konfrans salonunu, yardımçı otaqları gəzdi, kompleksdə ümummilli lider Heydər Əliyevin idmana göstərdiyi diqqət və qayğını, eləcə də Azərbaycan Həndbol Federasiyasının tarixini, idmançıların beynəlxalq çempionatlarda uğurlarını, Milli Olimpiya Komitəsinin fəaliyyətini əks etdirən foto-guşələrə, qazanılmış kubok və mükafatlara baxdı.

Sonra "ABU Arena" idman kompleksinin təntənəli açılış mərasimi oldu.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin "Ölkəmizdə bədən tərbiyəsi və idmanı ümumxalq hərəkatına çevirməliyik" və Prezident İlham Əliyevin "İndi Azərbaycan idmanı özünün yeni dirçəliş dövrünü yaşayır" kəlamları yazılmış transparantlar asılmış və bayramsayağı bəzədilmiş idman kompleksinə toplaşanlar – idmançılar, paytaxt sakinləri, ictimaiyyətin nümayəndələri dövlət başçısını hərarətli alqışlarla qarşıladılar.



Mərasimdə Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnova söz verildi.

Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnovun çıxışı

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Hər şeydən əvvəl demək istəyirəm ki, bir daha sizin gözəl ölkənizdə olmaq, bu gözəl kompleksin açılışında iştirak etmək mənim üçün böyük şərəfdir. İnanın, mən həyatımda çox şey görmüşəm. Qarşıdakı Olimpiya oyunları mənim həyatımda 21-cisidir, buna görə də mən müqayisə edib deyə bilərəm ki, bunu hondbol üzrə ən yaxşı ixtisaslaşdırılmış saraylardan biri adlandırmaq olar.

Bu gün mənə gözəl idman qurğularını – taekvondo sarayını, tikilməkdə olan otüstü xokkey kompleksini və bir çox digər idman qurğularını görmək şərəfi nəsib oldu. Milli Olimpiya Komitəsinin onilliyini qeyd etdiyimiz vaxtdan çox keçməyib. Heydər Əlirza oğlu Əliyev həmin mərasimdə gözəl nitq söyləmişdi. O zaman mən özözümə demişdim: Təkcə Bakıda yox, rayonlarda da nə qədər idman sarayı tikilmişdir. İndi də əmin oldum ki, bu iş davam etdirilir, biz də idmanın möhkəmləndirilməsi, gənclərin bədən tərbiyəsi ilə məşğul olması üçün görülən bütün işlərə görə ölkənizin Prezidentinə, Olimpiya Komitəsinin prezidentinə minnətdarıq.

Belə bir xəbəri də sizə çatdırmağı özümə böyük şərəf hesab edirəm ki, Beynəlxalq Olimpiya Komitəsi respublikanızın Prezdentinin, Olimpiya Komitəsinin prezidentinin görkəmli xidmətlərini nəzərə alaraq, onun ən ali olimpiya mükafatı - "Olimpiya" ordeni ilə təltif olunması barədə qərar qəbul etmişdir. Mən bu bayram günündə həmin mükafatı Sizə təqdim etmək istərdim.

İcazə verin, Beynəlxalq Olimpiya Komitəsi adından rəsmi sənədin mətnini oxuyum:

"Hörmətli cənab Prezident! Dünya idmanının inkişafı işində xidmətlərinizə və Olimpiya hərəkatının banisi baron Pyer de Kubertenin nümayiş etdirdiyi kimi, Olimpiya ideallarına sədaqətinizə hörmət nişanəsi olaraq, Sizə Beynəlxalq Olimpiya Komitəsinin ali mükafatı – "Olimpiya" ordeni təqdim edilir".

BOK-un vitse-prezidenti Vitali Smirnov "Olimpiya" ordenini Azərbaycan dövlətinin başçısı İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti hörmətli cənab Vitali Smirnov!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Bu gün mənə Beynəlxalq Olimpiya Komitəsinin ən yüksək ordeni təqdim edilibdir. Buna görə, mən istəyirəm ki, ilk növbədə, Beynəlxalq Olimpiya Komitəsinə, onun rəhbərliyinə - Beynəlxalq Olimpiya Komitəsinin prezidenti cənab Jak Roqqa, Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti cənab Vitali Smirnova öz dərin minnətdarlığımı və təşəkkürümü bildirim.

Eyni zamanda, bu gün Azərbaycanın idman həyatında çox mühüm, çox önəmli bir gündür. Bu gün Azərbaycanda yeni idman qurğusu, müasir idman kompleksi açılır və istismara verilir. Bu da məni çox sevindirir. Mən belə kompleksləri görəndə çox sevinirəm. Çox şadam ki, Azərbaycanda son illər ərzində idmanın inkişafı istiqamətində böyük işlər görülübdür. Bakıda və Azərbaycanın digər bölgələrində, müasir, gözəl, bütün dünya standartlarına cavab verən idman kompleksləri açılıbdır.

Çox şadam ki, artıq federasiyalar da komplekslərin yaradılması ilə məşğul olurlar və belə komplekslər açılır, istifadəyə verilir. Deyə bilərəm ki, bu göstəriciyə görə Azərbaycan, bəlkə də, dünyada ön sıralardadır. Son dörd il ərzində Azərbaycanda 10-dan artıq idman kompleksi açılıbdır. Bu gün də həndbol üçün nəzərdə tutulmuş kompleks öz qapılarını açır.

Azərbaycanda idman çox yüksək səviyyədədir, çox yüksək sürətlə inkişaf edir. İdmançılarımız müxtəlif yarışlarda - dünya və Avropa çempionatlarında, olimpiya oyunlarında yüksək nəticə göstərərək, vətənimizi ləyaqətlə təmsil edirlər. Eyni zamanda, Azərbaycanda da beynəlxalq yarışların keçirilməsi artıq ənənəyə çevrilibdir. Son illər ərzində Azərbaycanda dünya, Avropa çempionatları, dünya kubokları yarışları keçirilibdir. Bundan əlavə, Azərbaycanda olimpiya lisenziya turnirlərinin keçirilməsi nəzərdə

ÖLKƏMİZDƏ BƏDƏNTƏRBİYƏSİ VƏ İDMAN
ÜMUMXALQ HƏRƏKATINA ÇEVRİLİYİK.
İNDİ AZƏRBAYCAN İDMANI ÖZÜNÜN
YENİ DİRÇƏLİŞ DÖVRÜNÜ YAŞAYIR.
AZƏRBAYCAN RESPUBLİKASI
GƏNCLƏR İDMAN VƏ
HƏNDBOL
FEDERASİYASI
MİLLİ OLİMPİYA
ABU PETROL
Elite
TİCARƏT
VƏ İƏYLƏNCƏ
MƏRKƏZİ
Agralia

tutulmuşdu. Artıq onlardan ikisi keçirilmiş, biri isə, boks üzrə turnir bu yaxınlarda keçiriləcəkdir. Bu, bir daha göstərir ki, beynəlxalq idman ictimaiyyətinin Azərbaycana münasibəti çox müsbətdir, çox yüksək səviyyədədir. Desəm ki, biz bu münasibəti qazanmışıq, səhv etmərəm. Ardıcıl, məqsədyönlü, fədakar işimizlə, idmançılarımızın qazandıqları uğurlarla Azərbaycan, demək olar ki, idman ölkəsinə çevrilibdir.

Amma, eyni zamanda, Azərbaycan Olimpiya Komitəsinin prezidenti kimi məni sevindirən bir məqam da var. Bu da idmanın kütləviliyidir. Bu, Azərbaycanda artıq çox geniş vüsət alıbdır. İdmanla məşğul olmaq istəyən uşaqlarımızın, yeniyetmələrimizin sayı günü-gündən artır. Bu o deməkdir ki, Azərbaycanda gözəl, fiziki cəhətdən sağlam yeni nəsil yetişir. İdmanla məşğul olan uşaqlar artıq xoşagəlməz hallara yol verməzlər. Onlar idman bölmələrində tərbiyə olunurlar. Fiziki cəhətdən də, mənəvi cəhətdən də güclənirlər. Bu, bizə, ölkəmizə imkan verəcək ki, Azərbaycanın gələcək nəsli də mənəvi və fiziki cəhətdən sağlam olsun.

Azərbaycan olimpiya oyunlarına hazırlaşır. Bir neçə aydan sonra Afinada Olimpiya oyunları keçiriləcəkdir. Deyə bilərəm ki, hazırlıq işləri uğurla davam edir. Hər şey plan üzrə gedir. Əgər yadınızdadırsa, Sidney Olimpiya oyunlarından sonra Azərbaycan Milli Olimpiya Komitəsinin ilk iclasında mən dedim ki, Afinaya cəmi 4 il qalır. Bu 4 il, görün, necə tez keçdi. Artıq Olimpiya oyunlarına üç ay vaxt qalır. Mən əminəm ki, Sidneydə qazandığımız uğurlar Afinada da təkrarlanacaqdır. Azərbaycan idmançıları doğma Vətənimizi ləyaqətlə təmsil edəcəklər və Vətənə qələbə ilə qayıdacaqlar.

Hörmətli Vitali Georgiyeviç, eşidirəm ki, bizim nazir Sizə tərcümə edir. İstərdim, Siz ilk mənbədən də eşidəsiniz. Ölkəmizə gəldiyinizə və bu gün bizimlə birlikdə olduğunuza, bu ordeni mənə təqdim etdiyinizə görə, habelə Azərbaycan Həndbol Federasiyasının təşəbbüsü ilə tikilmiş bu gözəl idman kompleksinin açılışında iştirakınıza görə Sizə çox təşəkkür edirəm. Siz Azərbaycanın - Azərbaycan idmanının və ümumən, Azərbaycanın böyük dostusunuz. Siz ölkəmizdə dəfələrlə olmusunuz və hər gəlişiniz bizi – dostlarınızı sevindirir, hamı Sizi sevir.

Mən Rusiya Federasiyasının Olimpiya Komitəsinə başçılıq etdiyiniz vaxtları xatırlayıram. Biz çox fəal əməkdaşlıq edirdik. İndi Siz Beynəlxalq Olimpiya Komitəsinin əsas rəhbərlərindən birisiniz. Azərbaycanda idmanın, olimpizmin inkişafı işinə çox böyük töhfə verirsiniz. Biz Sizin fəaliyyətinizi yüksək qiymətləndiririk.

Mənim üçün ikiqat xoşdur ki, Beynəlxalq Olimpiya Komitəsinin bu yüksək mükafatını mənə məhz Siz təqdim etdiniz. Bu gün bu salonda olan bütün dostlarınız adından Sizə fəaliyyətinizdə uğurlar arzulamaq, Azərbaycana səmimi münasibətə görə təşəkkürümü bildirmək istəyirəm. Ümidvaram ki, Bakıda da, başqa yerlərdə də görüşlərimiz davam edəcəkdir.

Əziz dostlar!

Mən bu gözəl idman kompleksinin açılışı münasibətilə bir daha sizin hamınızı ürəkdən təbrik edirəm, hamınıza cansağlığı və səadət arzulayıram. Sağ olun.

Rəsmi hissə başa çatdıqdan sonra bədii özfəaliyyət kollektivlərinin və idmançıların çıxışları, eləcə də "ABU" və "Qaradağ sement" həndbol komandaları arasında nümunəvi oyun oldu. Azərbaycan həndbolunun tarixinə dair sənədli kadrlar göstərildi. Federasiya tərəfindən idman kompleksinin açılışı münasibətilə gənc həndbolçulara toplar hədiyyə edildi.

Beynəlxalq yarışlarda çıxışlarını başa vurduqlarına görə Azərbaycan yığma komandasının oyunçuları - Avropa "Çelenc Trofi" turnirinin qalibləri, SSRİ çempionatlarının mükafatçıları, dəfələrlə Azərbaycan çempionatının və kubokunun sahibləri, idman ustaları Reyhan Nəbiyevaya, komandanın kapitanı İrina Françuka və 13 dəfə SSRİ çempionatının mükafatçısı, Beynəlxalq Həndbol Federasiyası kubokunun sahibi, dünya çempionu, beynəlxalq dərəcəli idman ustası Marina Cəfərovaya Azərbaycan Həndbol Federasiyasının rəhbərliyi tərəfindən hədiyyələr verildi.

Azərbaycan Milli Olimpiya Komitəsinin "Olimpiya" ordeni

2007-ci il dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Azərbaycan Milli Olimpiya Komitəsinin "Olimpiya" ordeninin təqdim edilməsinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev əvvəlcə MOK-un inzibati binasının foyesində Beynəlxalq Olimpiya Komitəsinin "Olimpiya, incəsənət və idman" müsabiqəsinin respublika milli mərhələsi üçün təşkil olunan sərgiyə təqdim edilmiş əsərlərə baxdı.

MOK-un birinci vitse-prezidenti Çingiz Hüseynzadə məlumat verdi ki, belə müsabiqələr, adətən, Olimpiya oyunları ərəfəsində təşkil olunur. 2008-ci ildə Pekində keçiriləcək Olimpiya oyunları ilə əlaqədar elan olunan bu müsabiqədə yerli sənətkarlarımızın 30-dan çox rəssamlıq və heykəltəraşlıq əsərləri vardır. Bu müsabiqələr dünya ölkələrinin hər birində təşkil olunur. İki janr üzrə qalib sayılan əsər BOK-un Lozanna şəhərində yerləşən muzeyinə göndərilir və orada yenidən müsabiqəyə təqdim edilir. Orada birinci yeri tutan əsərin müəllifinə 30 min, ikinci yerə 20 min, üçüncü yerə görə isə 10 min dollar mükafat verilir. 2008-ci ilin martında isə Pekində qalib əsərlərdən ibarət sərgi keçiriləcəkdir. Azərbaycanda müsabiqənin münsiflər heyəti 10 gün ərzində qalibi müəyyənləşdirdikdən sonra həmin əsərlər Lozannaya göndəriləcəkdir. Bakıda ilk üç yer üçün müvafiq olaraq 2000, 1700 və 1500 manat məbləğində mükafat təsis edilmişdir.

MOK-un İcraiyyə Komitəsinin iclas salonuna toplaşanlar Prezident İlham Əliyevi alqışlarla qarşıladılar.

Dövlət başçısı mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar!

Yeni il ərəfəsində bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Həm ilin idman yekunları müzakirə edilir, həm də biz görüşürük, birlikdə oluruq. Dünən Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin toplantısında ilin yekunları haqqında geniş müzakirələr aparılmışdır. Bütövlükdə, Azərbaycan idmançıları bu ili uğurla başa vurdular. Beynəlxalq yarışlarda həm olimpiya, həm də qeyri-olimpiya idman növləri üzrə 452 medal qazanılmışdır. Beləliklə, Azərbaycanın idman imkanları daha da geniş şəkildə dünyaya təqdim edilmişdir.

Mən çox sevinirəm ki, ildən-ilə medalların sayı azalmır, artır. Azərbaycanda çox gözəl gənc nəsil yetişir. İdman ənənələri yaşayır, davam etdirilir və Azərbaycan artıq bir neçə ildir ki, dünyada idman dövləti kimi tanınır. İdmançılarımızın uğurları ilə yanaşı, idmanla bağlı bütün başqa sahələrdə də işlər yaxşı gedir. İdman infrastrukturu yaradılır, yeniləşir. Bu il də bölgələrdə olimpiya idman komplekslərinin açılışları olmuşdur. Gələn il də yeni komplekslərin açılışları nəzərdə tutulur. Artıq gələn il və ondan sonrakı illərdə komplekslərin sayı böyük rəqəmlərlə ölçüləcəkdir. Mənim yadımdadır, biz 2000-ci ildə bu təşəbbüslə çıxış edəndə nəzərdə tuturduq ki, Bakıda və böyük şəhərlərdə olimpiya kompleksləri tikilsin. Ancaq ondan sonra gördük ki, buna çox böyük maraq var, bölgələrdə idmançıların, xüsusilə gənc idmançıların, uşaqların idmanla məşğul olmağa çox böyük marağı var. Qərar qəbul etdik ki, Azərbaycanın bütün bölgələrində maksimum dərəcədə gözəl idman qurğuları tikilsin. Bildiyiniz kimi, bu idman mərkəzləri dünyanın ən yüksək standartlarına uyğun şəkildə tikilir.

İndi bütün bölgələrdə bu qurğular var. Növbəti mərhələ, şübhəsiz ki, hər bir rayon mərkəzində belə komplekslərin tikintisinə nail olmaqdır. Buna da biz nail olacağıq. Çünki artıq bizim təcrübəmiz də var, maddi imkanlarımız da artır və idman sahəsinə qoyulan investisiyaların həcmi gələcəkdə davam etdiriləcəkdir. Bu sahəyə qoyulan investisiyalar həm Azərbaycanın idman şöhrətini daha da yüksək zirvələrə qaldıracaq, həm də bu, insanların, uşaqların, gənclərin sağlamlığına qoyulan investisiyalardır. Bu, çox böyük əhəmiyyət kəsb edir. Fiziki sağlamlıq, mənəvi sağlamlıq, gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi – bütün bu amillər idmanda cəmləşir və idman Azərbaycan cəmiyyətinin çox önəmli bir tərkib hissəsidir.

Yəqin bilirsiniz ki, indi dünyada, demək olar, bütün ölkələrdə idmanın inkişafına çox böyük diqqət vardır. Beynəlxalq yarışlarda ölkələr bir-biri ilə yarışırlar. Hər bir ölkənin idman uğurları o ölkənin imicini, şöhrətini artırır, qaldırır. Biz Azərbaycanda bunu çoxdan bilirdik və öz işimizi bu istiqamətdə düzgün qura bilmişik. İdmanla məşğul olan bütün qurumlar bu il səmərəli işləmişlər, yenə də ənənəvi olaraq, vahid konsepsiya çərçivəsində işləmişlər. Həm Olimpiya Komitəsi, İdman və Gənclər Nazirliyi, həm də federasiyalar, idman cəmiyyətləri, klublar. Bir sözlə, bu sahədə fəaliyyətin əlaqələndirilməsi və birgə fəaliyyət planının icra olunması idmanın uğurlarına gətirib çıxarır.

Biz 2007-ci ildə Azərbaycanı dünyaya daha da tanıtmaq üçün iki böyük idman yarışı keçirdik. Daha doğrusu, bu yarışların sayı daha çox idi. Mən yeniyetmələr arasında keçirilən Avropa və dünya birinciliklərini sadalaya bilərəm, lisenziya yarışlarını sadalaya bilərəm. Amma Avropa və dünya çempionatlarının keçirilməsi, əlbəttə, nəinki idman hadisəsi, ümumiyyətlə, böyük beynəlxalq hadisədir.

Biz bu iki tədbiri - həm bədii gimnastika üzrə Avropa çempionatını, həm də güləş üzrə dünya çempionatını uğurla keçirə bilmişik. Bu növlər üzrə bütün Avropa və dünya idmançıları Azərbaycana gəlmişlər. Bu onu göstərir ki, bizim çox gözəl təşkilatçılıq qabiliyyətimiz var. Bu beynəlxalq yarışların keçirilməsi Azərbaycanın şöhrətini, imicini qaldırdı. Bizim təşkilatçılıq qabiliyyətimizi geniş dünya ictimaiyyətinə təqdim etdi.

Güləş üzrə çempionatda rekord sayda idmançılar və ölkələr iştirak etmişdir. Yüzdən çox ölkə Azərbaycana öz nümayəndəsini göndərmişdi. Bu nümayəndələr ölkəmizlə, uğurlarımızla tanış olaraq, əlbəttə ki, Azərbaycan haqqında düzgün, ədalətli həqiqətləri öz yaşadıqları ölkələrə çatdırırlar və çatdıracaqlar. Bu, çox vacibdir. Biz gənc ölkəyik, müstəqilliyimizin cəmi 16 yaşı var. Baxmayaraq ki, Azərbaycan çox böyük mədəni irsə malikdir, bizim çox böyük zəngin mədəniyyətimiz, tariximiz var, yenə də biz hələ ki, dünyaya özümüzü tanıtmalıyıq. Azərbaycanı tanımalıdırlar, Azərbaycanda baş

verən hadisələr bəlli olmalıdır. Azərbaycan həqiqətləri dünyada nə qədər çox yayılsa, bir o qədər də Azərbaycan haqqında müsbət fikir yaradacaqdır. İdman bu sahədə əvəzolunmaz bir vasitədir. Bir daha demək istəyirəm ki, 100 ölkənin nümayəndəsi Azərbaycandakı vəziyyətlə tanış ola bilmişdir.

Bizim beynəlxalq yarışları uğurla keçirməyimiz, əlbəttə, gələcəkdə daha da mötəbər yarışların keçirilməsinə zəmin yaradacaqdır. Artıq dünya çempionatından böyük dünya yarışı yoxdur. Təbii ki, söhbət gələcəkdə Olimpiya oyunlarının Azərbaycanda keçirilməsindən gedə bilər. Biz belə bir təşəbbüsü irəli sürəndə bu, gözlənilməz idi. Ancaq həyat göstərir ki, nə qədər düzgün qərar qəbul etmişik. Bu gün biz bütün dünyaya sübut edirik ki, baxmayaraq, Azərbaycan gənc müstəqil dövlətdir, amma dövlət kimi artıq formalaşmışdır, ayaq üstə möhkəm durur. Dünya miqyaslı mötəbər tədbirləri keçirməyə qadirdir. Buna həm təşkilatçılıq imkanlarımız, həm maliyyə vəsaitlərimiz, həm də bütövlükdə, ölkəmizin gücü, potensialı imkan verir.

Bu gün dünyanın 6 böyük şəhərləri ilə yanaşı, Bakının da adı çəkilir. Bu da çox vacibdir. Bütün kütləvi informasiya vasitələrində, Olimpiya oyunları ilə bağlı olan məlumatlarda Bakının adı gedir. Bizim şəhərimizi tanımayanlar onu tanıyacaqlar. İlk dəfə şəhərimizin adını eşidənlər onu ya internetdən, ya da kitablardan öyrənəcəklər. Biz, istər-istəməz, nəinki bütün idman ictimaiyyətinin, ümumən dünya ictimaiyyətinin diqqətini cəlb edə bilmişik. Çünki siz bunu yaxşı bilirsiniz, Olimpiya oyunları, sadəcə, idman yarışı deyildir. Olimpiya oyunlarını başqa idman yarışlarından fərqləndirən məhz budur ki, o, dünyanın ən böyük beynəlxalq tədbirlərindən biridir. Dünya çempionatı ilə Olimpiya oyunlarının fərqi məhz bundadır. Həm orada, həm də burada eyni idmançılar iştirak edirlər. Qələbəni qazanmaq üçün eyni səylər ortaya qoyurlar. Ancaq beynəlxalq diqqət baxımından bunlar müqayisəolunmaz tədbirlərdir.

Biz Bakını artıq dünyanın tanınmış və aparıcı ölkələrinin əsas şəhərlərinin sırasına sala bilmişik. Yəni biz bu məqsədə nail ola bildik. Ancaq əgər bizim məqsədimiz təkcə bundan ibarət olsaydı, öz işimizi bitmiş hesab edərdik. Mən hesab edirəm ki, biz öz şansımızı axıra qədər sınamalıyıq. İndi geniş təqdimat sənədləri tərtib olunub və beynəlxalq idman federasiyalarının rəhbərləri ilə, digər idman xadimləri ilə bu məsələ ciddi şəkildə müzakirə edilir. Biz çalışmalıyıq ki, öz imkanlarımızı maksimum səfərbər edib Bakının, Azərbaycanın imkanlarını maksimum dərəcədə geniş şəkildə təqdim edək. Əlbəttə ki, bu mübarizə asan olmayacaqdır. Çünki tarixdən görürük ki, adətən, birinci dəfə müraciət edən şəhərə Olimpiya oyunlarının keçirilməsi heç vaxt müyəssər olmamışdır. Adətən şəhərin imkanlarını ikinci, üçüncü dəfədən, bəlkə də ondan bir neçə dəfə çox da sınayırlar. Ona görə biz realist olmalıyıq. Bu məsələyə realist prizmadan yanaşmalıyıq və bilməliyik ki, adətən ilk dəfə müraciət edən şəhərə cavab müsbət olmur. Ancaq bununla bərabər biz bütün lazımi tədbirləri görməliyik.

Biz artıq bilirik və dünya da bilir ki, planetin ən böyük idman tədbirinin Azərbaycanda keçirilməsinə hazırıq. Bizim buna həm iqtisadi, həm təşkilatçılıq, həm də infrastruktur imkanlarımız çatır və 2016-cı ilə qədər Azərbaycanda görüləcək işlər ölkəmizi və əlbəttə, Bakını dünyanın aparıcı ölkəsinə və şəhərinə çevirəcəkdir. Hamımız görürük ki, Bakı necə inkişaf edir. Bakıda böyük infrastruktur layihələri həyata keçirilir, böyük tikintilər gedir, insanların rahatlığı üçün bütün şərait yaradılır. Bizim planlarımız da bu işi davam etdirməkdir. O cümlədən şəhərimizin idman infrastrukturunun yeniləşməsi və yaradılması bizim planlarımızdadır.

Biz artıq bölgələrdə olimpiya komplekslərini kifayət qədər inşa etdik. O komplekslər ki, böyük ölkələrin paytaxtları onlarla fəxr edə bilər. Biz bu işi davam etdirəcəyik. Ancaq hesab edirəm ki, Bakı şəhərində yeni müasir, böyük idman qurğularının tikintisinə də başlamalıyıq. Müvafiq göstərişlər verilibdir və işlər artıq gedir, araşdırmalar aparılır. Mən hesab edirəm ki, ilk növbədə, Bakıda böyük üzgüçülük kompleksi yaradılmalıdır. Biz demək olar ki, bölgələrdə tikilən bütün idman komplekslərində üzgüçülük hovuzunun olmasını da nəzərdə tuturuq. Amma indi gərək açıq danışaq. Bakıda lazımi səviyyədə olan üzgüçülük hovuzu yoxdur. Olan hovuzlar, çox köhnəlib, böyük təmirə ehtiyacları var, lap təmir olunsalar belə, onlar dünya səviyyəsinə uyğun deyildir. Bizim yeniləşən, gözəlləşən şəhərimizə də uyğun deyildir. Ona görə mən göstəriş vermişəm. Gənclər və İdman Nazirliyi indi bu məsələ ilə məşğuldur. Böyük üzgüçülük kompleksi tikilməlidir ki, orada bütün su idmanı növləri üzrə dünya çempionatları və gələcəkdə olimpiya oyunları keçirilə bilsin.

Bununla bərabər, mən hesab edirəm, vaxtı gəlib ki, Bakıda futbol üzrə yeni olimpiya stadionu tikilsin. Tofiq Bəhramov adına stadionumuz uzun illərdir ki, fəaliyyət göstərir, əsaslı təmir olunub, orada müasir avadanlıq quraşdırılır və bu proses davam etdiriləcəkdir. Ancaq əlbəttə, Bakı kimi şəhərə daha müasir stadion lazımdır. Xüsusilə nəzərə alsaq ki, biz futbolun inkişafına çox böyük diqqət göstərəcəyik və xüsusi proqramlar, planlar var. Bu sahəyə

çox böyük investisiya qoyulacaq, böyük şirkətlər sponsorlar kimi cəlb olunacaqdır. Mən ümid edirəm ki, biz futbolda dönüş yaradacağıq. İndiki vəziyyətlə barışmaq çox çətindir, biz hamımız futbol yarışlarına, oyunlara böyük məyusluqla baxırıq. Çünki futbol dünyanın ən populyar idman növüdür və bu idman növündə Azərbaycan oyunçularının belə səviyyədə çıxış etməsi ölkəmizə başucalığı gətirmir. Ona görə dünyanın ən populyar idman növü kimi, futbol Azərbaycanda çox sürətlə inkişaf etməlidir. Biz bilirik ki, bunun üçün nə etmək lazımdır. Həm peşəkar mütəxəssislər dəvət ediləcək, həm də xüsusilə, ilk növbədə, biz uşaq futboluna, yeniyetmə futboluna, gənc nəslin yetişdirilməsi prosesinə ciddi yanaşacağıq. Bu, vaxt tələb edəcəkdir. Biz başqa ölkələrin, vaxtilə futbolun o qədər də inkişaf etmədiyi ölkələrin təcrübəsindən bilirik ki, bir neçə il - 5 il, 10 il lazımdır ki, milli komanda yüksək səviyyəyə çatsın.

Biz bütün işləri daha da sürətlə aparırıq. Mən ümid edirəm ki, görüləcək bütün tədbirlər nəticəsində Azərbaycan futbolu dirçəlməlidir. Yəni demək istəyirəm ki, böyük olimpiya futbol stadionunun tikintisinə ehtiyac vardır. Artıq müvafiq göstərişlər verilibdir. Bunun layihəsi ilə bağlı işlər, demək olar, başlayıb və biz bunu etməliyik.

Bildiyiniz kimi, idman infrastrukturunun möhkəmlənməsi üçün bölgələrdə dünya miqyaslı infrastruktur yaradılır. Mingəçevir avarçəkmə bazası yeniləşir, demək olar, yenidən tikilir. Biz bu məsələ ilə uzun illərdir məşğul olurduq. Hətta mənim yadımdadır, Beynəlxalq Olimpiya Komitəsinə müraciət etmişdik ki, bizə kömək göstərsin. Ancaq axırda gördük ki, bunu özümüz etməliyik. Layihə hazırlandı və işlərə başlanmışdır və Mingəçevirdə çox müasir, gözəl avarçəkmə bazası tikilir. Eyni zamanda, orada beynəlxalq yarışların keçirilməsi də nəzərdə tutulur.

Bu, həm Azərbaycanda avarçəkmənin inkişafına təkan olacaq, həm də Mingəçevir şəhərinin inkişafına böyük təkan verəcəkdir. Çünki Şərqi Avropa ölkələrindən, keçmiş Sovet İttifaqı, MDB məkanından çoxlu müraciətlər vardır. Vaxtilə bu, sovet məkanında yeganə baza idi ki, orada ilboyu avarçəkmə ilə məşğul olmaq mümkün idi, bütün bazalar qışda donur. Biz bütün bu işləri bundan sonra da görəcəyik və əlbəttə, Azərbaycanda güclü idman infrastrukturunun yaradılması həm idmana xidmət edir, həm də ölkənin ümumi inkişafının göstəricisidir.

Gələn ilə az vaxt, bir neçə gün qalıbdır. Gələn il Olimpiya oyunları ilidir. Biz ciddi hazırlaşırıq. Hələlik beynəlxalq lisenziya turnirlərində ilk lisenziyalar əldə edilibdir. 2008-ci il həlledici il olacaqdır. Pekin Olimpiya oyunları başqa Olimpiya oyunlarından son dərəcə fərqlənəcəkdir. Orada rəqabət daha da güclü olacaqdır. Bildiyiniz kimi, Çin milli komandası həmişə dünya reytinqində qabaqcıl yerlərdədir və şübhəsiz, onlar çalışacaqlar ki, doğma vətəndə daha da böyük nailiyyətlərə çatsınlar. Ona görə rəqabət daha da güclənəcəkdir. Biz də bu rəqabətə hazır olmalıyıq, gözəl praktikanı, gözəl ənənəni davam etdirməliyik. Müstəqil Azərbaycan dövləti həm Sidney, həm də Afina Olimpiya oyunlarında çox ləyaqətlə təmsil olunmuşdu. İdmançıların çıxışları, medalların sayı, bütövlükdə, hazırlıq səviyyəsi çox yüksək idi. Mən əminəm ki, 2008-ci ildə də bizim idmançılarımız Olimpiya oyunlarında bütün Azərbaycan xalqını sevindirəcəklər.

Bildiyiniz kimi, biz idmanın bütün aspektləri ilə çox ciddi məşğul oluruq. Mən bu məsələlərlə mütəmadi qaydada məşğul oluram. İdmançılarla il ərzində bir neçə dəfə görüşmüşük. Bir daha demək istəyirəm ki, ilin sonundakı bu görüşlərimiz gözəl ənənədir. Bir daha bir-birimizi görürük, görüşürük, mən öz fikirlərimi, ürək sözlərimi sizə deyirəm, idmançıları mükafatlandırırıq. Bir qədər bundan əvvəl Milli Olimpiya Komitəsi tərəfindən idmançılara pul mükafatları verilibdir. İdmançıların məşqçilərinin, idman veteranlarının sosial məsələlərinə diqqət göstəririk. Veteranlar daim diqqət hiss etməlidirlər. Çünki idmançının idmandakı ömrü uzun deyildir. O, bütün bacarığını, imkanlarını, hətta bəzi hallarda öz sağlamlığını ölkənin idman şöhrətinə sərf edir. Onun idman ömrü sona çatanda bəzi hallarda biz görürük ki, həm iş problemi yaranır, həm məişət problemləri çoxalır, həm də bəzən idmançılar bir növ təcrid olunmuş vəziyyətə düşürlər.

Ona görə biz bu məsələdə çox diqqətli olmalıyıq. Öz doğma xalqı, ölkəsi üçün çalışan, böyük nailiyyətlər qazanan idmançılar sonrakı həyatda daim dövlətin qayğısını hiss etməlidirlər. Bu qayğı sadəcə olaraq, xoş sözlərlə məhdudlaşmamalıdır. Halbuki bu da çox lazımdır və mütləq olmalıdır. Bu qayğı hərtərəfli olmalıdır. Biz istəyirik ki, idmanla məşğul olanlar – idmançılar, idmanın inkişafında böyük xidməti olan insanlar, peşəkarlar, idman mütəxəssisləri, veteranlar lazımi məişət şəraiti ilə təmin edilsinlər. Hər il biz bu məsələyə baxırıq, həll edirik. Bu il də istisna deyil və bu gün bir qrup idmançı və idman mütəxəssisi yeni mənzillərlə mükafatlandırılacaqlar. Deyə bilərəm ki, bu praktikanı MDB məkanında ilk dəfə Azərbaycan Milli Olimpiya Komitəsi tətbiq etmişdir. Başqa sahələrdə də bizim təşəbbüslərimiz digər ölkələr

üçün də örnək olmuşdur. Biz federasiyalara ölkədə tanınmış insanları gətirdik və dərhal gördük ki, federasiyaların işi daha da sürətlə getməyə başlamışdır. İdmançılar bunu çox yaxşı bilirlər, izah etməyə ehtiyac yoxdur. Özləri hiss edirlər. Federasiyalara yeni, daha da məsuliyyətli, daha da hərtərəfli insanlar gələndən sonra işlər daha da sürətlə gedir. Azərbaycanın idmanı bax, bu cür inkişaf edəcəkdir.

Milli Olimpiya Komitəsinin, İdman və Gənclər Nazirliyinin, federasiyaların, idman cəmiyyətlərinin, klubların və idman ictimaiyyətinin birgə səyləri nəticəsində Azərbaycanın idmanı daha da inkişaf edəcək və bundan sonra da böyük qələbələrə çatacağıq.

Mən sizin hamınızı qarşıdan gələn bayramlar - Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, cansağlığı arzulayıram. İdmançılara 2008-ci ildə qələbələr arzulayıram. Sağ olun.

Dövlət başçısının nitqi böyük diqqətlə dinlənildi və hərarətli alqışlarla qarşılandı.

Sonra Azərbaycanda idmanın inkişafında böyük rolu olmuş idmançıların, məşqçilərin, idman mütəxəssislərinin mükafatlandırılması oldu. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirdi ki, ilin yekunlarına görə idmançılara pul mükafatları təqdim edilmişdir. İndi isə yeni mənzillərin orderləri veriləcəkdir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev sərbəst güləş üzrə dünya kubokunun sahibi, veteran Telman Paşayevə, pauerliftinq üzrə dünya çempionu Rüfət Ağayevə, Mərkəzi Ordu İdman Klubunun rəisi Natiq Əliyevə, şahmat üzrə beynəlxalq qrossmeystr Vüqar Həşimova, boks üzrə əməkdar məşqçi Zakir Əliyevə, bədii gimnastika üzrə qrup baş məşqçisi Natalya Nərimanovaya, basketbol üzrə baş məşqçi Elxan Əliyevə, idman veteranları Cabir Əliyevə, Valiyə Sadıxovaya, keçmiş dünya çempionu Samir İbrahimova, güləş üzrə gənclərdən ibarət yığma komandanın baş məşqçisi Ağalar Aslanova, cüdo üzrə Avropa çempionu Elnur Məmmədlinin məşqçisi Yaşar Allahverdiyevə, yüngül atletika üzrə veteran məşqçi Hacıbaba Zeynalova, kik-boksinq üzrə dəfələrlə dünya çempionu Araz Musayevə, veteran həndbolçu İradə Qocayevaya, taekvondo üzrə iki dəfə dünya çempionu Zahid Məmmədova, veteran futbolçu Kazbek Tuayevə, şahmat üzrə beynəlxalq dərəcəli hakim Faiq Həsənova yeni mənzillərin orderlərini təqdim etdi.

MOK-un İcraiyyə Komitəsinin üzvü Zərifə Salahova dövlət başçısını doğum günü münasibətilə idmançılar adından təbrik edərək, ona uzun ömür, cansağlığı arzuladı və xatirə hədiyyəsi təqdim etdi.

MOK-un vitse-prezidenti **Çingiz Hüseynzadə** Prezident İlham Əliyevə müraciətlə dedi:

- Möhtərəm cənab Prezident, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsi "Olimpiya" ordeni təsis etmişdir. İcraiyyə Komitəsinin qərarı ilə bir nömrəli orden Sizə təqdim olunur.

"Olimpiya" ordeni Prezident İlham Əliyevə təqdim edildi.

Dövlət başçısı bu mükafata görə minnətdarlığını bildirdi, idmançıları, veteranları qarşıdan gələn bayramlar münasibətilə bir daha təbrik etdi, onların hər birinə xoşbəxtlik, cansağlığı arzuladı.

Prezident İlham Əliyev sonra Respublika Olimpiya Mərkəzində aparılmış təmir işləri ilə tanış oldu.

Gənclər və idman naziri Azad Rəhimov məlumat verdi ki, əvvəllər yüngül atletika maneji kimi tanınmış bu qurğu əsaslı təmir edilmişdir. İdmançılar iki aydan çoxdur burada məşqlərə başlamışlar. Qurğu demək olar ki, tamamilə yeniləşmiş, təzə avadanlıq, o cümlədən fotofiniş avadanlığı alınmışdır.

Dövlət başçısı görülən işləri yüksək qiymətləndirdi, idmançıların yetişməsində bu qurğunun əhəmiyyətli rol oynadığını söylədi, onun istiliklə təmin edilməsi barədə müvafiq tapşırıqlar verdi.

Belarus Milli Olimpiya Komitəsinin ali mükafatı

2007-ci il oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Belarus Milli Olimpiya Komitəsinin ali mükafatı təqdim edilmişdir.

Ali mükafat Prezident İlham Əliyevə Milli Olimpiya Komitəsinin 15 illik yubileyində iştirak edən bir sıra ölkələrin milli olimpiya komitələrinin və idman federasiyalarının rəhbərləri və nümayəndələri ilə görüşündə təqdim olunmuşdur.

Prezident **İlham Əliyev** qonaqlara müraciətlə dedi:

- Mən qonaqlarımızın hamısını Azərbaycanda salamlayıram. Çox şadam ki, bizim dəvətimizi qəbul etmisiniz və yubiley tədbirində iştirak edirsiniz.

Olimpiya Komitəsinin 15 illiyi – ölkəmizin həyatında çox mühüm hadisədir. Olimpiya Komitəsinin yaşı təxminən bizim müstəqil dövlətimizin yaşı qədərdir. Çox şadıq ki, bu illər ərzində həm bizim beynəlxalq əlaqələrimiz möhkəmlənmişdir, həm də Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı çox sürətlə gedir.

Azərbaycanla sizin təmsil etdiyiniz ölkələr arasında çox yaxşı münasibətlər yaranmışdır, o cümlədən idmanın, olimpiya hərəkatının inkişafı sahəsində yaxşı əlaqələr qurulmuşdur. Biz müxtəlif tədbirlərdə vaxtaşırı görüşürük. Bakı artıq iri beynəlxalq idman yarışlarının keçirildiyi şəhərə çevrilməkdədir. Bu da, əlbəttə, idmanın, olimpiya hərəkatının və ümumiyyətlə ölkələrimiz arasında, idmançılar arasında, idmanın inkişafında iştirak edən bütün insanlar arasında münasibətlərin inkişafına kömək edir. Ümidvaram ki, Bakıya səfəriniz sizin üçün xoş olacaqdır. Əminəm ki, yaxşı proqram tərtib edilmişdir ki, siz bizim idman obyektləri və şəhərimizlə tanış ola biləsiniz. Təəssüf ki, sizin başqa şəhərlərə getməyə imkanınız olmayacaqdır, indi biz həmin şəhərlərdə çoxlu idman obyektləri tikmişik. Son vaxtlarda 13 iri olimpiya idman kompleksi tikilmişdir və belə komplekslər hələ çox tikiləcəkdir. Lakin Bakıda da sizin üçün kifayət qədər maraqlı olacaqdır. Bir daha xoş gəlmisiniz. Sizə ən xoş arzularımı bildirir, uğurlar diləyirəm. Arzum budur ki, bizim şəhərdə olmağınız yadınızda qalsın. Mənə belə gəlir ki, sizlərdən bəziləri Bakıya ilk dəfə gəlmişdir, bəziləri isə burada dəfələrlə olmuşdur. Lakin şəhər dəyişir, ona görə də hətta əvvəllər burada olanlar da indi nə isə yeniliklər görəcəklər. Bir daha xoş gəlmisiniz.

Polşa Milli Olimpiya Komitəsinin prezidenti **Pyotp Nurovski** Azərbaycan ilə Polşa arasında dostluq və əməkdaşlıq münasibətlərinin genişlənməsinin idman sahəsində də əlaqələrin inkişafına təsir göstərdiyini bildirərək dedi:

- Hörmətli cənab Prezident!

Əvvələn, dəvət üçün çox sağ olun. Azərbaycan Olimpiya Komitəsinin 15 illiyi ilə əlaqədar tədbirlərdə iştirak etmək böyük şərəfdir. Polşa Olimpiya Komitəsi adından Sizi bu əlamətdar yubiley münasibətilə təbrik etmək istəyirəm. Biz çox şadıq ki, Azərbaycanda idman, ilk növbədə, olimpiya idmanı dinamik inkişaf edir. Sizə gələcəkdə, birinci növbədə, Pekində keçiriləcək Olimpiya oyunlarında böyük uğurlar arzulayırıq.

Mən Bakıya ilk dəfədir ki, gəlmişəm və ölkənizin paytaxtında tikinti işlərinin miqyası, ən əvvəl, gözəl idman kompleksi mənə çox güclü təsir bağışlamışdır. Bizim səfərimizdən və yubileyinizdən xatirə kimi Sizə Polşa Olimpiya Komitəsindən rəmzi hədiyyələr vermək istəyirəm.

Rusiya Federasiyası Olimpiya Komitəsinin vitse-prezidenti **Vladimir Vasin** Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandıqları uğurları Prezident İlham Əliyevin ölkədə olimpiya hərəkatına böyük diqqət ayırması ilə əlaqələndirərək dedi:

- Əvvələn, icazə verin, bu təntənələrdə iştirak etməyə dəvət olunduğum üçün Sizə təşəkkürümü bildirim. Doğrudan da, ilk baxışdan 15 il hələ yetkinlik yaşı demək deyildir, lakin idman üçün bu, istedadların üzə çıxdığı yaşdır. Bu yaşda gənclər idman ustası, beynəlxalq dərəcəli idman ustası olur, gələcək üçün böyük imkanlar açılır. İndi respublikanızda idman sahəsində baş verən hadisələrə fikir verdikcə düşünürəm ki, Azərbaycan idmanının böyük gələcəyi var. Biz böyük idmanın nədən başlandığını xatırlayırıq. Sizin idmançılar ilk Olimpiadada bir medal qazanmışdı, indi isə bu medalların sayı artıq 5-ə çatmışdır. Tamamilə əminəm ki, Pekində medalların sayı on olacaqdır.

Rusiya Olimpiya Komitəsinin prezidenti Leonid Vasilyeviç Tyaqaçov öz ürək sözlərini yazmış və məndən xahiş etmişdir ki, imkan olsa, onları oxuyum:

"Azərbaycan Respublikasının Prezidentinə,
Azərbaycan MOK-un prezidentinə

Əziz İlham Heydər oğlu!

Sizi və respublikanızın idman ictimaiyyətinin bütün nümayəndələrini Milli Olimpiya Komitəsinin yaradılmasının 15 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Bu illər ərzində Azərbaycanda olimpiya hərəkatı xeyli möhkəmlənmişdir. Azərbaycan idmançıları Sovet İttifaqının seçmə komandalarının heyətlərində ən yüksək

beynəlxalq səviyyəli yarışlarda sanballı uğurlar qazanmış sələflərinin şanlı ənənələrini davam etdirirlər. Bizim xalqlarımızın müştərək idman qəhrəmanları var, biz onlarla fəxr edirik. Biz bilirik ki, Azərbaycan Respublikasının rəhbərliyi səmərəli sosial siyasət yeridir və bunun sayəsində getdikcə daha çox insan böyük idman yolunu seçir, böyük idman isə perspektivli dəstələr hesabına möhkəmlənir.

Azərbaycan dövlətinin liderinin həm də ölkənin Milli Olimpiya Komitəsinə başçılıq etməsinin rəmzi mənası var. Biz qardaş ölkənin idmançılarının uğurlarına ürəkdən sevinirik. Qarşılıqlı münasibətlərimiz etibarlı münasibətlər kimi qalır və biz bir-birimizə kömək etməklə bu münasibətləri daim möhkəmləndirəcəyik. Sizə ən xoş arzularımı bildirirəm.

Dərin hörmətlə, Sizin Leonid Tyaqaçov".

Gürcüstan Milli Olimpiya Komitəsinin prezidenti **Qoqi Topadze** Azərbaycanın sürətli iqtisadi tərəqqisini, eləcə də respublikada idmanın inkişafını təkcə Qafqaz regionu üçün deyil, dünyanın bir çox ölkəsi üçün də örnək kimi qiymətləndirərək dedi:

- Cənab Prezident, mənə Gürcüstan Olimpiya Komitəsi və bizim olimpiyaçılar adından Sizi bu yubiley münasibətilə təbrik etmək şərəfi nəsib olmuşdur. Demək istəyirəm ki, Azərbaycanda idman infrastrukturunun coşqun inkişafı bizi çox sevindirir. Rusiya nümayəndəsinin dediyi kimi, biz əminik ki, gələcək Olimpiya oyunlarında idmançılarınız 5 yox, 10, 15 medal qazanacaqlar. Biz sizin idmançılara azarkeşlik edəcəyik, xüsusən ona görə ki, 2016-cı ilin yay Olimpiya oyunları Bakıda keçirilə bilər. Azərbaycan Prezidentinin eyni zamanda Olimpiya Komitəsinin prezidenti olmasını, müdrik və dahi Heydər Əliyevin oğlu olmasını nəzərə alsaq, bu məqsədə nail olacaqsınız. Biz belə hesab edirik və ümidvarıq ki, Olimpiya oyunları ilk dəfə Qafqazda, Cənubi Qafqazda keçiriləcəkdir. Dəvət üçün çox sağ olun. Sizi təbrik etməyimə çox şad oldum. Sizə böyük uğurlar arzulayıram.

Türkiyə Milli Olimpiya Komitəsinin vitse-prezidenti **Ərdoğan Arpınar** Azərbaycan Milli Olimpiya Komitəsinin 15 ildə qazandığı uğurların qardaş Türkiyədə doğurduğu qürurdan söhbət açaraq dedi:

- Özümüzü kiçik qardaşımızın doğum gününə gəldiyimiz kimi hiss edirik. MOK 15 yaşına çatdı. Çox uzun danışmaq istəmirəm, atanızı rəhmətlə anarkən, onun söylədiyi sözləri hər zaman xatırlayırıq: "Biz bir millət, iki dövlətik". Türkiyə bunu belə bilir. İnşallah, gördüyünüz böyük işlərlə, idmana verdiyiniz böyük önəmlə qarşıdakı Olimpiya oyunlarında Azərbaycanın bayrağı şərəflə

yüksələcəkdir. İndi isə bu gözəl hədiyyəni Türkiyə Milli Olimpiya Komitəsi adından Sizə təqdim etmək istəyirəm.

Azərbaycan idmançılarının bundan sonra da yeni zirvələr fəth edəcəyinə əmin olduğunu bildirən Latviya Milli Olimpiya Komitəsinin prezidenti **Aldonis Vrublevskis** Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim edərək dedi:

- Siz çox iş görürsünüz, lakin hələ görüləsi işlər daha çoxdur. Biz bu yubileyi payızda qeyd edirik, payızda isə, adətən, məhsul yığırlar. Ona görə də mən Sizə məhsul yığmaq üçün kiçik bir anbar modeli bağışlamağı özümə şərəf sayıram. Burada üzərində milli latış naxışları olan əl işi - kəmər var. O, Kosmos ilə Yerin birləşməsinin, ailənin, dostluğun rəmzidir. Bu hədiyyəni Latviya Olimpiya Komitəsi adından Sizə bağışlayır və ümidvar olduğumu bildirmək istəyirəm ki, Olimpiya hərəkatının, idman hərəkatının vəhdəti, xalqlarımızın dostluğu bundan sonra da təraqqi edəcəkdir.

Litva Olimpiya Komitəsi adından çıxış edən səfir **Kestutis Kudzmanas** Bakıda diplomatik fəaliyyətlə məşğul olduğu yarım il ərzində aldığı təəssüratını bölüşərək dedi:

- Cənab Prezident, mənim bəxtimə burada səfir olmaq və bizim Litva Olimpiya Komitəsi ilə bilavasitə bağlı olmaq şərəfi düşmüşdür. Mən Litva Olimpiya Komitəsinin təsisçisi, Baş Assambleyanın üzvü olmuşam. Bizim Olimpiya Komitəsinin prezidenti cənab Arturas Povilyunas xahiş etmişdir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin 15 illik yubileyi münasibətilə onun təbriklərini şəxsən Sizə çatdırım. Şəxsən mən son yarım ildə Sizin ölkənizin idman uğurlarını müşahidə edirəm, ölkənizdə tikilmiş olimpiya kompleksləri mənə güclü təsir bağışlamışdır. Onlar Pekin Olimpiya oyunlarında qələbələr qazanmaq və 2016-cı ilin yay Olimpiya oyunlarının Bakıda keçirilməsi üçün həqiqətən gözəl zəmindir. İcazə verin, Sizə Litva Olimpiya Komitəsi adından təbrikləri yetirim, Litva ilə Azərbaycanın dostluğunun rəmzi olan suveniri təqdim edim.

Dördqat olimpiya çempionu, Belarus Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunun rektoru **Yelena Belova** Azərbaycan MOK-un 15 illik yubileyi münsibətilə Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycan Prezidenti İlham Əliyevə təbriklərini çatdırdı və öz ölkəsinin Milli Olimpiya Komitəsinin ali mükafatını təqdim etdi.

Ukrayna Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü **Vadim Qutsayt** Prezident İlham Əliyevin idmana göstərdiyi xüsusi diqqəti ölkə əhalisinin sağlamlığına və fiziki kamilliyinə qayğı kimi qiymətləndirərək dedi:

- Mən Sizi Ukrayna Milli Olimpiya Komitəsi adından salamlayıram. Mən qılıncoynatma üzrə Olimpiya çempionuyam. Çox sevinirəm, bilirəm ki, Siz idmanın bu növünü sevirsiniz. Bu növdə ölkənizin mövqeləri çox möhkəmdir. Mən Sizi Afina Olimpiya oyunlarında görmüşəm. Sizin öz ölkənizin yığma komandasına necə azarkeşlik etdiyinizi görmüşəm. Ölkə Prezidentinin həm də Milli Olimpiya Komitəsinin prezidenti olması, idmanı sevməsi çox gözəl haldır. Ukrayna Olimpiya Komitəsinin prezidenti Sergey Bubkanın təbrikini Sizə çatdırmaq istərdim:

"Hörmətli Prezident, əziz həmkarlar!

Ukrayna Olimpiya Komitəsi adından Sizi Milli Olimpiya Komitəsinin yaradılmasının 15 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan həmişə özünün gözəl idman ənənələri və bacarıqlı atletləri ilə ad çıxarmışdır. Çox yaxşı haldır ki, Siz bu ənənələrə hörmət bəsləməklə yanaşı, onları daha da artırırsınız. Son illərdə Sizin rəhbərlik etdiyiniz Milli Olimpiya Komitəsi ölkənizdə Olimpiya hərəkatının inkişafında və olimpiya ideyalarının populyarlaşdırılmasında irəliyə doğru böyük addım atmışdır. İnanıram ki, biz idmanın inkişafı naminə, xeyirxahlıq, əmin-amanlıq və idman qələbələri naminə bundan sonra da Sizinlə səmərəli əməkdaşlıq edəcəyik.

Hörmətlə,

Ukrayna Milli Olimpiya Komitəsinin prezidenti, olimpiya çempionu Sergey Bubka"

Arzu edirəm ki, bizim dövlətlərimiz arasında – Azərbaycan və Ukrayna arasında sülh və dostluq həmişə təraqqi etsin.

Moldova Milli Olimpiya Komitəsinin vitse-prezidenti **Vyaçeslav Malunay** Azərbaycanın dinamik inkişafının ona xoş təsir bağışladığını vurğulayaraq dedi:

- Hələ 5 gün bundan əvvəl mən Azərbaycana gələcəyimi bilmirdim. Buraya gələndən sonra mən xəcalət çəkdim ki, 50 il ərzində bir dəfə də Azərbaycanda olmamışam. Əlbəttə, burada gördüklərim məni heyrətləndirdi. Burada güclü, yaxşı dinamika var. Moldova Respublikasının Olimpiya Komitəsi, Təhsil və Gənclər Nazirliyi adından Sizi əlamətdar tarix, Milli Olimpiya Komitəsinin 15 illiyi münasibətilə təbrik etmək istəyirəm. Bu 15 ildə Siz çox iş görmüsünüz. Azərbaycanın olimpiadalardakı qələbələrinin dinamikası bunu bir daha təsdiq edir: 1996-cı ildə bir medal, 2000-ci ildə üç medal, 2004-cü ildə beş medal qazanmısınız. Sizi əmin etmək istəyirəm ki, Moldova xalqı idmançılarınızın uğur qazanmasını Azərbaycan xalqı ilə birlikdə gözləyəcəkdir.

Prezident **İlham Əliyev** səmimi sözlərə görə qonaqlara təşəkkür edərək dedi:

- Həqiqətən, idman elə bir sahədir ki, orada bütün xalqlar birləşir. İdmançılar da yarışlarda bir-biri ilə ünsiyyət saxlayır, dostlaşırlar, idman mübarizəsində qarşılaşdıqda onların hər biri qalib gəlməyə çalışır, sonra isə qucaqlaşaraq bir-birini təbrik edirlər. Bunlar insani dəyərlərdir. İdman hər bir ölkənin ictimai həyatında ən mühüm amillərdən biridir. Ölkələr də özlərini dünyaya idman vasitəsilə təqdim edirlər. Bu, xüsusən gənc ölkələrə, yaxın vaxtlarda müstəqillik əldə etmiş, dünyada çoxlarının, bəlkə də, heç tanımadığı ölkələrə daha çox aiddir. Ölkənin bayrağı qaldırılanda və onun himni səslənəndə həmin ölkə idman vasitəsilə özünü dünyaya tanıdır. Hamımızın bildiyi kimi, bu baxımdan Olimpiya oyunları heç bir başqa şeylə müqayisə edilə bilməyəcək hadisədir. Olimpiya hərəkatı həm idman hərəkatı, həm ictimai hərəkat, həm də bütövlükdə xeyirxahlıq və dostluq kimi dəyərlər təlqin edən bir hərəkatdır. Buna görə də mən çox şadam ki, artıq 10 ildir olimpiya hərəkatı ilə bağlıyam. Məhz bu il mənim Olimpiya Komitəsinə rəhbərlik etməyə başlamağımın 10 ili tamam olmuşdur. Bu müddətdə çox şeyə nail ola bilmişik – həm qazanılan medallara görə, həm infrastrukturun yaradılmasına görə. Ən başlıcası isə, idmançılar və idman bölmələrində məşğul olan uşaqlar əsl vətənpərvər və fiziki cəhətdən sağlam insanlar kimi böyüyür. Onlar idmanla məşğul olanda, təbii ki, narkomaniyadan, alkoqolizmdən və digər zərərli vərdişlərdən uzaq olurlar. Hər bir dövlət güclü olduqda özünə arxayın olduğu kimi, fiziki cəhətdən güclü insan da həmişə özünə arxayın olur. Yəni idman insanlara bu inamı verir. Digər tərəfdən, əgər insan fiziki cəhətdən güclüdürsə o, bir qayda olaraq, heç kəsi incitməz, əksinə, başqalarının incitdiyi adamı müdafiə edər. Deməli, idman xeyirxahlıq amilidir. Biz də idmana məhz bu kontekstdən yanaşırıq. Bu, sadəcə, ölkənin nüfuzu, medal və ya hər hansı çempionatın keçirilməsi demək deyildir. İdman ölkədə cərəyan edən bütün ictimai proseslərə son dərəcə geniş təsir göstərir. Biz də Azərbaycanda həm idmançılara kömək etməyə, həm sosial problemləri həll etməyə, həm də idman infrastrukturu yaratmağa çalışırıq. İndi biz hər bir rayonda beynəlxalq yarışlar keçirmək mümkün olan iri olimpiya mərkəzləri yaradırıq. Yeri gəlmişkən, bu, təkcə Bakıya aid deyil. Məsələn, iki il bundan əvvəl Qubada voleybol üzrə qran-pri yarışları keçirilmişdi. Həmin turnirdə qadınlardan ibarət 8 aparıcı voleybol komandası iştirak edirdi. Özü də bu şəhər Bakıdan 200 kilometr aralıda yerləşir. Ölkəmizdə idman kompleksləri, mehmanxanalar tikilir, hər cür şərait yaradılır. Biz çalışırıq ki, beynəlxalq yarışları hər yerdə keçirmək mümkün olsun. İndi bütün şəhərlərdə üzgüçülük hovuzları tikirik. Sizə deyə bilərəm ki, oraya təkcə idmançılar deyil, sağlam olmaq istəyən hər kəs gedir.

Əlbəttə, biz beynəlxalq əlaqələri də inkişaf etdiririk. Çünki idman insanları birləşdirir. Elə ölkələr var ki, bir-biri ilə yaxşı münasibətdədir. Elələri də var ki, münasibətləri o qədər də yaxşı deyil. Lakin bunun idmana aidiyyəti yoxdur, əksinə, idman ölkələri bir-birinə yaxınlaşdıran amildir. Ona görə də ölkəmizdə idmanın necə inkişaf etməsi məni çox sevindirir, beynəlxalq əlaqələrimiz məni sevindirir.

Bizim dəvətimizi qəbul edib gəldiyinizə görə sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu əlaqələri daim davam etdirmək lazımdır ki, xalqlarımız bir-birinə yaxınlaşsınlar.

Beynəlxalq Hərbi İdman Şurasının "Böyük Kordon" Şərəf ordeni

2005-ci il mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Beynəlxalq Hərbi İdman Şurasının ən yüksək mükafatı olan "Böyük Kordon" Şərəf ordeni təqdim edilmişdir.

Bu münasibətlə Azərbaycanın dövlət başçısı Beynəlxalq Hərbi İdman Şurasının prezidenti, briqada generalı Cianni Qolanı qəbul etmişdir.

Prezident İlham Əliyev iki gün öncə, mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsinin çox əlamətdar hadisə olduğunu bildirdi.

Son illər Azərbaycanın həyatının bütün sahələrində böyük uğurlar qazanıldığını nəzərə çarpdıran Prezident İlham Əliyev

respublikada hərbi idman sahəsində də böyük işlər görüldüyünü, çox əhəmiyyətli yarışların keçirildiyini və idmanın inkişafına daim diqqət və qayğı göstərildiyini vurğuladı. Azərbaycan dövlətinin başçısı dedi ki, idmanın inkişafı ölkədə həm ümumi inkişafa, həm də gənclərin fiziki, mənəvi hazırlığının daha da möhkəmləndirilməsi işinə xidmət edir.

Cənab Cianni Qolan 127 ölkəni əhatə edən Beynəlxalq Hərbi İdman Şurası adından Azərbaycan Prezidenti ilə görüşdən şərəf duyduğunu bildirdi və 28 May - Respublika günü münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. Qonaq onun başçılıq etdiyi nümayəndə heyəti üzvlərinin Beynəlxalq Hərbi İdman Şurası adından Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və şəhidlərin məzarlarını ehtiramla ziyarət etdiklərini söylədi.

Azərbaycanın qədim tarixə malik olduğunu xatırladan general Cianni Qolan ölkədə çox güclü fiziki hazırlığa malik olan gənc idmançıların yetişdiyini vurğuladı. Azərbaycanın Beynəlxalq Hərbi İdman Şurasında fəal iştirakından məmnun olduğunu bildirdi. Azərbaycanda çox böyük əhəmiyyətli idman tədbirlərinin keçirildiyini söyləyən qonaq ölkə idmançılarının Afina Olimpiadasında böyük uğurlar qazandıqlarını vurğuladı və bütün bu nailiyyətləri Prezident İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının nəticəsi kimi qiymətləndirdi. O, idmanda qazanılan uğurlara, böyük inkişafa və bu sahəyə göstərdiyi dəstəyə görə şəxsən Prezident İlham Əliyevə Beynəlxalq Hərbi İdman Şurasının ehtiramını çatdırdı.

Cənab Cianni Qolan məlumat verdi ki, Beynəlxalq Hərbi İdman Şurası İcraiyyə və Direktorlar Şuraşının toplantısında bu təşkilatın inkişafına göstərdiyi xidmətlərə görə Azərbaycan Prezidenti, ölkənin Silahlı Qüvvələrinin Ali baş komandanı İlham Heydər oğlu Əliyev həmin təşkilatın ən yüksək mükafatı olan "Böyük Kordon" Şərəf ordeni ilə təltif olunmuşdur. Qonaq yüksək mükafatı Prezident İlham Əliyevə təqdim etdi.

Bu yüksək mükafata görə minnətdarlığını bildirən Prezident İlham Əliyev bundan sonra da ölkədə və regionda idmanın inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini vurğuladı.

Beynəlxalq Güləş Federasiyasının (FİLA) "İdman əfsanəsi" medalı

2007-ci il sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Beynəlxalq Güləş Federasiyasının (FİLA) "İdman əfsanəsi" medalı təqdim edilmişdir.

Medal Prezident İlham Əliyevə Heydər Əliyev adına İdman-Konsert Kompleksində Yunan-Roma güləşi və sərbəst güləş üzrə dünya çempionatının rəsmi açılışı mərasimində təqdim olunmuşdur.

Mərasimə toplaşanlar Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı gurultulu alqışlarla qarşıladılar.

Azərbaycanın dövlət himni səsləndi.

İncəsənət xadimlərinin, rəqs kollektivlərinin iştirakı ilə konsert proqramı təqdim edildi.

Açılış mərasimində gənclər və idman naziri **Azad Rəhimov** çıxış edərək dedi:

- Bu gün biz Azərbaycanın idman həyatında daha bir əlamətdar hadisənin – Yunan-Roma güləşi və sərbəst güləş üzrə dünya çempionatının açılışının şahidi olduq. Güləş Azərbaycanda ən populyar idman növlərindən biridir və onun qədim ənənələri vardır. Ölkəmizin idmançıları müxtəlif beynəlxalq yarışlarda, o cümlədən Olimpiya oyunlarında da həmişə yüksək mükafatlar qazanırlar. Bütün bunlar, eləcə də idmançılarımızın idmanın başqa növlərində qazandığı çoxsaylı qələbələr idmanın və bədən tərbiyəsinin inkişafına olan, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət qayğısına sübutdur. Hazırda bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son on ildə ölkəmizdə 120-dən çox dünya və Avropa çempionatının, müxtəlif beynəlxalq yarışların keçirilməsi, bir sıra başqa faktlar Azərbaycanın idman dövlətinə çevrildiyini deməyə tam əsas verir.

Sonra mərasimdə Beynəlxalq Birləşmiş Güləş Növləri Federasiyasının (FİLA) prezidenti Rafael Martinetti çıxış edərək dedi ki, budəfəki, çempionat öz zəngin ənənələri və tarixi ilə dünyada məşhur olan bir ölkədə keçirilir. FİLA rəhbəri Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin, Azərbaycan Güləş Federasiyasının və bir sıra dövlət qurumlarının dünya çempionatının təşkili, bu yarışların bütün iştirakçıların idman karyerasında silinməz iz qoyması üçün gördüyü böyük işi vurğuladı. Cənab **Rafael Martinetti** dedi:

- FİLA bütün dünya güləşçilərinin arzusu olan dünya çempionatının sülh şəraitində keçirilməsinə töhfə vermiş şəxslərə təşəkkürünü bildirir.

Həmçinin ümidvar olduğumu bildirirəm ki, ədalətli mübarizə və dopinqlərdən imtina edilməsi bütün iştirakçılar üçün əsas meyar olacaqdır.

Rafael Martinetti Azərbaycan dövlətinin başçısı İlham Əliyevə FİLA-nın ali mükafatını – "İdman əfsanəsi" medalını təqdim etdi.

Sonra çıxış edən Azərbaycan Güləş Federasiyasının prezidenti **Fazil Məmmədov** dedi:

- Zəngin idman ənənələri olan Azərbaycanın olimpiya hərəkatında mütəşəkkil iştirakı, idmançıların göstərdiyi yüksək nəticələr respublikamızın idman sahəsində potensial imkanlarını



FILA

nümayiş etdirməklə bərabər, həm də ölkəmizdə idmana dövlət qayğısının təzahürüdür. Respublikamızda idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. O, idmanı və bədən tərbiyəsini həmişə dəstəkləyir, idmançıların problemlərinin həlli məsələlərinə həssaslıqla yanaşırdı. Hazırda bu siyasət Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Hər bir azərbaycanlı idmançı, haqlı olaraq, onu özünün böyük dostu hesab edir.

İndi Azərbaycan təkcə idman sahəsində uğurları ilə deyil, həm də mühüm idman yarışlarının təşkilində nailiyyətləri ilə məşhurdur. Bir sıra beynəlxalq idman qurumları dünya səviyyəli idman yarışlarının bizim ölkədə keçirilməsinə tərəddüdsüz razılıq verir. Bu onu göstərir ki, həmin qurumlar Azərbaycanı etibarlı tərəfdaş hesab edirlər.

Azərbaycanda güləşin zəngin tarixi ənənələri var. Güləşçilərimiz dünyanın yarış meydanlarında ölkəmizi həmişə ləyaqətlə təmsil edirlər. Təsadüfi deyil ki, idman aləmində ən nüfuzlu yarışlar olan Olimpiya oyunlarına ən çox lisenziya qazanmış Azərbaycan idmançıları məhz güləşçilərdir. 1996-cı ildə Atlantada keçirilən Olimpiya oyunlarında 8 güləşçimiz, 2000-ci ildə Sidney olimpiadasında 9 nəfər, 2004-cü ildə Afina Olimpiadasında 8 güləşçimiz iştirak etmiş, onlar 3 qızıl və 1 gümüş medal qazanmışlar.

Əmin olduğumu bildirirəm ki, Azərbaycan güləşçiləri budəfəki çempionatda da yüksək nəticələr göstərəcək və Pekin Olimpiya oyunlarına lisenziyalar qazanacaqlar.

Federasiyanın prezidenti yarışların iştirakçılarına uğurlar arzulayaraq çempionatı açıq elan etdi.

Beynəlxalq Güləş Federasiyasının (FİLA) xüsusi mükafatı

2004-cü il aprelin 3-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində sərbəst güləş üzrə Dünya kuboku yarışının təntənəli açılışı mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Beynəlxalq Güləş Federasiyasının (FİLA) xüsusi mükafatı təqdim edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak edirdilər. Kompleksə toplaşanlar dövlət başçısını alqışlarla qarşıladılar.

Azərbaycan xalqının ümummilli lideri Prezident Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq bir dəqiqəlik sükut elan edildi.

İştirakçı komandalar idman marşının sədaları altında salona daxil oldular.

Mərasimi Azərbaycan Güləş Federasiyasının prezidenti Abbas Abbasov açdı.

Azərbaycan Güləş Federasiyasinin prezidenti Abbas Abbasovun çıxışı

- Zati-alilәri, hörmətli cənab Prezident!

Beynəlxalq Güləş Federasiyasının hörmətli prezidenti cənab Rafael Martinetti!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İcazə verin, Bakıda sərbəst güləş üzrə Dünya kuboku yarışının keçirilməsi münasibətilə bütün idmançıları və idmansevərləri təşkilat komitəsi və Azərbaycan Güləş Federasiyası adından təbrik edim, hamıya uğurlar arzulayım.

Bu bir həqiqətdir ki, möhtərəm cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra Azərbaycanda idmanın sürətli inkişafı ilə bərabər, ölkəmiz həm də beynəlxalq yarışlar meydanına çevrilmişdir. Bu baxımdan Beynəlxalq Güləş Federasiyasının bizə göstərdiyi yüksək etimadı xüsusi qeyd etmək istəyirəm.

Dünya kuboku kimi bir yarışın Azərbaycanda keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin gərgin əməyi nəticəsində ölkəmizdə yaranmış ictimai-siyasi sabitliyin nəticəsidir.

Xatırlatmaq istərdim ki, Dünya kuboku kimi çox mötəbər bir yarışın keçirildiyi bu idman konsert-kompleksi unudulmaz rəhbərimiz Heydər Əliyevin təşəbbüsü ilə ucaldılmış və bu yaxınlarda komplekse ümummilli liderimizin adı verilmişdir. Biz bu qərarı səmimi qəlbdən alqışlayırıq.

İdmanın bütün növləri üzrə Azərbaycan idmançılarının şanlı keçmişi vardır. Respublikanın rəhbərliyi də, idmançılar da bilirlər ki, ölkəni dünyaya tanıtdıran onun mədəniyyəti ilə bərabər, həm də idmanıdır. Məhz idmandakı qələbə zamanı dövlətimizin himni səslənir, bayrağımız yüksəyə qaldırılır. Bu, Vətənini sevən hər bir vətəndaş üçün şərəf işidir. Belə duyğularla köklənmiş Azərbaycan güləşçilərinin qələbə sorağını xalqımız həmişə eşitmiş və onların uğurları ilə fəxr etmişdir. Bu gün də xalqımızın gözü Azərbaycan güləşçilərindədir. Fərəhli haldır ki, növbəti olimpiadaya güləşçilərimiz 8 lisenziya qazanmışlar.

Hörmətli qonaqlar və idmansevərlər, sizi bir daha salamlayır, hamınıza möhkəm cansağlığı və uğurlar arzulayıram.

Sonra Beynəlxalq Güləş Federasiyasının (FİLA) prezidenti Rafael Martinetti çıxış etdi.

Beynəlxalq Güləş Federasiyasının prezidenti Rafael Martinettinin çıxışı

- Çox hörmətli cənab Prezident İlham Əliyev!

Hörmətli xanımlar və cənablar!

Azərbaycanın paytaxtında ilk dəfədir ki, sərbəst güləş üzrə Dünya kuboku kimi mötəbər bir yarış keçirilir. Bakıya belə bir hüququn verilməsi Azərbaycanda son vaxtlar güclü idmançıların

yetişməsi və bu ölkədə milli güləşin ənənələri ilə bağlıdır.

Demək lazımdır ki, neft paytaxtı kimi tanınan Bakı getdikcə idman mərkəzi kimi də şöhrətlənir və Beynəlxalq Güləş Federasiyası Azərbaycanda yarış iştirakçıları üçün əla şərait yaradıldığını yüksək qiymətləndirir. İnanırıq ki, iki il öncə keçirilmiş 45-ci Avropa çempionatı kimi, Dünya kuboku yarışı da idmansevərlər üçün əsl bayrama çevriləcəkdir.

Azərbaycanda idmanın bütün sahələrinə, o cümlədən güləş növlərinə ildən-ilə daha çox diqqət yetirildiyini xüsusi vurğulamaq istəyirəm. Məndə belə bir inam yaranır ki, Beynəlxalq Güləş Federasiyası Bakıda müntəzəm olaraq, ən müxtəlif səpkili yarışların, o cümlədən dünya çempionatının keçirilməsini Azərbaycan Güləş Federasiyasına etibar edə bilər. Bunun əsas səbəbi ölkə Prezidenti Zati-alilləri cənab İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğıdır.

Fürsətdən istifadə edərək, Azərbaycan Güləş Federasiyasının prezidenti Abbas Abbasovu FİLA-nın idarə heyətinin büro üzvü seçilməsi ilə əlaqədar təbrik edirəm.

Mən yarış iştirakçılarını bir daha salamlayır və onlara uğurlar arzulayıram. Qoy, güclülər qalib gəlsinlər!

Sonra Azərbaycanın gənclər, idman və turizm naziri Əbülfəz Qarayevə söz verildi.

Gənclər, idman və turizm naziri
Əbülfəz Qarayevin çıxışı

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, ölkəmizdə keçirilən sərbəst güləş üzrə Dünya kuboku yarışlarının bütün iştirakçılarını və qonaqlarını Gənclər, İdman və Turizm Nazirliyi və Milli Olimpiya Komitəsi adından salamlayım və "Azərbaycana xoş gəlmisiniz!" deyim.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin ölkəmizdə idmana daim göstərdiyi qayğı və diqqət sayəsində və xüsusilə 1997-ci ildə hörmətli cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra beynəlxalq idman təşkilatları ilə qurulmuş işgüzar əlaqələr nəticəsində Azərbaycan bir çox beynəlxalq yarışların mərkəzinə çevrilmişdir. Bu yarışların təşkili və yüksək səviyyədə keçirilməsi iştirakçılar tərəfindən yüksək qiymətləndirilmişdir.

Bu gün isə Azərbaycanda ilk dəfə güləş üzrə Dünya kuboku yarışlarının keçirilməsi ilə bizə böyük etimad göstərilmişdir. Fürsətdən istifadə edərək, bu etimada görə Beynəlxalq Güləş Federasiyasına təşəkkürümüzü bildirir və əmin edirik ki, Azərbaycanda keçirilən bütün beynəlxalq yarışlar kimi bu Dünya kuboku yarışları da yüksək təşkilati səviyyəsinə görə seçiləcəkdir. Dünya kuboku yarışlarının keçirilməsində iştirak edən bütün təşkilatlara və xüsusilə Azərbaycan Güləş Federasiyasına dərin minnətdarlığımızı bildiririk. Yarış iştirakçılarını bir daha salamlayır və idmançılara qələbə sevinci arzulayıram.

Beynəlxalq Güləş Federasiyasının prezidenti Rafael Martinetti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə FİLA-nın təsis etdiyi xüsusi mükafatı təqdim etdi.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

İştirakçı ölkələrin xalqlarının milli rəqsləri ifa olundu.

Avropa Həvəskar Boks Assosisiyasının xüsusi mükafatı

2004-cü il mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Avropa Həvəskar Boks Assosiasiyasının xüsusi mükafatı təqdim edilmişdir.

Xüsusi mükafat Prezident İlham Əliyevə Bakı İdman Sarayında Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti, professor Ənvər Çoudrinin şərəfinə keçirilən boks üzrə lisenziya turnirinin yarımfinal görüşləri zamanı təqdim olunmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi alqışlarla qarşıladılar.

Avropa Həvəskar Boks Assosiasiyasının prezidenti Emil Jeçev idmanın inkişafında böyük xidmətlərinə görə Assosiasiya adından Azərbaycan Prezidenti İlham Əliyevə təşkilatın xüsusi mükafatını təqdim etdi. Dövlət başçısı mükafata görə minnətdarlığını bildirdi.

Görüşlər başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev rinqə qalxaraq Afina Olimpiadasına lisenziya qazanmış boksçularımız Ceyhun Əbiyevi, Fuad Aslanovu, Ağası Məmmədovu, Şahin İmranovu, Rövşən Hüseynovu, Ruslan Xairovu, Cavid Tağıyevi, Əli İsmayılovu və Vüqar Ələkbərovu, habelə onların məşqçilərini - baş məşqçi Məmməd Eyvazovu, məşqçilər Vaqif Kazımovu və Əsgər Eyvazovu bu böyük nailiyyət münasibətilə təbrik etdi, idmançılarla xatirə şəkli çəkdirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sonra Türkiyənin TRT-1 televiziya kanalının, Türkiyə Qəzetçilər Cəmiyyəti İdarə heyətinin rəhbəri, "Tərcüman" qəzetinin yazarı Orxan Ayxana məxsusi müsahibə verdi.

Sual: Cənab Prezident, Sizin idmana olan marağınız bizi çox sevindirir. Biz Sizi uzun illərdir tanıyırıq, Milli Olimpiya Komitəsinin rəhbərisiniz. Milli boks komandamız da çox yaxşı nailiyyətlər qazandı. Artıq komandanız yox, komandamız deyirəm. Çünki Türkiyə və Azərbaycan boksçuları rinqə çıxdıqları zaman salonda davamlı alqış sədaları eşidilirdi.

Cənab Prezident, biz bu proqramı mayın 10-da - türk dünyasının görkəmli oğlu, rəhmətlik atanızın doğum günündə yayımlayacağıq. Sizi idmana bu qədər bağlayan səbəblər nədir?

Cavab: Mən idmana gənc yaşlarımdan bağlıyam. Özüm də idmanla çox fəal məşğul olmuşam və bilirəm ki, idman insanın sağlamlığı, fiziki, mənəvi sağlamlığı üçün böyük bir vasitədir, bu işdə böyük rol oynayır. Eyni zamanda 1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidentiyəm. Bu, mənim vəzifəmdir. Çox şadam ki, bu illər ərzində Azərbaycanda idman sahəsində böyük uğurlar, nailiyyətlər var. İdmançılarımız Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında böyük uğurlar, qızıl medallar qazanırlar.

Eyni zamanda Azərbaycanda idmanın kütləviliyi geniş vüsət alıbdır. Azərbaycanın müxtəlif yerlərində yeni müasir idman salonları tikilir, idmançılara verilir. Görülən bütün bu işlər bizə imkan verir ki, belə gözəl turnirlər Azərbaycanda keçirilsin.

Sizə deyə bilərəm ki, Olimpiya oyunlarına hazırlıq proqramı çərçivəsində Azərbaycanda üç idman növü - boks, voleybol və taekvondo üzrə təsnifat turniri keçirilibdir. Bu, Azərbaycan üçün böyük hadisədir, o deməkdir ki, bir növ Olimpiya oyunlarının tədbirləri burada keçirilir. Görürsünüz ki, insanlarımız buna nə qədər sevinirlər. Yəni bu, ölkənin imici üçün, tanınması üçün də böyük əhəmiyyət kəsb edir.

Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı

2009-cu il mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı təqdim edilmişdir.

Nişan Prezident İlham Əliyevə Avropa Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsinin nümayəndə heyəti ilə görüşündə təqdim olunmuşdur.

Dövlət başçısı, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev Azərbaycanın regiondakı rolu və idmanın inkişafı barədə qonaqlara məlumat verərək bildirdi ki, Azərbaycanda Milli Olimpiya Hərəkatı uğurla davam edir. Bunun sayəsində Azərbaycan idmançıları Olimpiya oyunlarında və digər beynəlxalq idman yarışlarında yüksək nəticələr əldə edirlər.

Ölkədə idmanın inkişafı üçün yaradılan infrastruktur barədə danışan Prezident İlham Əliyev dedi ki, indi Azərbaycanın hər yerində beynəlxalq standartlara cavab verən idman qurğuları tikilib və dünyada hökm sürən böhrana baxmayaraq bu proses bu gün də davam etdirilir.

Dövlət başçısı qeyd etdi ki, 2016-cı il Olimpiya oyunlarının Bakıda keçirilməsi barədə müraciətimiz müsbət həll olunmasa da bu, bizi ruhdan salmır. Çünki, bu, bizim ilk cəhdimiz idi. Təcrübə göstərir ki, dünyanın heç bir ölkəsi ilk cəhddən buna nail ola bilməmişdir.

İdmanın Azərbaycanın ictimai həyatının mühüm amilinə çevrildiyini diqqətə çatdıran Prezident İlham Əliyev bu sahədə beynəlxalq qurumlarla əlaqələrə böyük əhəmiyyət verildiyini söylədi. Dövlət başçısı bu baxımdan Avropa Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsinin nümayəndə heyətinin Azərbaycana səfərinin də əməkdaşlığı genişləndirmək baxımından faydalı olacağını dedi.

Avropa Ədalətli Oyunlar Hərəkatının prezidenti Karlos Qonsalves nümayəndə heyətinin üzvlərini Azərbaycan Prezidentinə təqdim etdi. Qonaq 1974-cü ildən qeyri-hökumət idman təşkilatı kimi İsveçrədə yaranan və 40 idman ailəsini özündə birləşdirən Avropa Ədalətli Oyunlar Hərəkatı İcraçı Komitəsi adından dövlət başçısına səmimi qəbula görə təşəkkür etdi.

Azərbaycan Milli Olimpiya Komitəsinin yarandığı vaxtdan bəri keçdiyi inkişaf yolundan və qazandığı uğurlardan xəbərdar olduqlarını söyləyən Karlos Qonsalves, Azərbaycanın Avropanın Ədalətli Oyunlar Hərəkatına verdiyi dəstəyi və onun fəaliyyətində yaxından iştirakını nəzərə alaraq Avropanın Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsinin ötən ilin mayında Nikosiya şəhərindəki iclasında qurumun 15-ci konqresinin bu ilin oktyabrında Bakıda keçiriləcəyinə dair yekdilliklə qərar qəbul edildiyini bildirdi.

Əsas mövzusunun ədalətli oyunların mədəniyyətlərarası dialoqda rolundan ibarət olacaq konqresdə Avropanın 30-a yaxın milli ədalətli oyunlar təşkilatının mütəxəssisləri iştirak edəcəklər.

Son illərdə Azərbaycanın idmanda qazandığı böyük nailiyyətlərdən danışan **Karlos Qonsalves** Prezident İlham Əliyevin bu sahədə xidmətlərindən xəbərdar olduqlarını söyləyərək dedi:

- Zati-aliləri, idman fəaliyyətlərinizdə və gündəlik həyatınızda olimpiya tərbiyəsinin, ədalətli oyunlar dəyərlərinin və prinsiplərinin vacibliyinə yönələn bütün təşəbbüslərə verdiyiniz hərtərəfli dəstəyi də bilirik. Buna görə də Olimpiya Ədalətli Oyunlar Hərəkatının İcraçı Komitəsi təşkilatın tarixində ilk dəfə olaraq Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı ilə təltif edilməyinizə dair qərar qəbul etmişdir. Bu, ümumi məqsədlərimizə nail olmaq üçün verdiyiniz böyük töhfələrə görə bizim Sizə dərin minnətdarlığımızın ifadəsidir.

Səmimi qəbula görə Sizə bir daha minnətdarlığımızı bildiririk. Zati-aliləri, icazə verin Avropa Ədalətli Oyunlar ictimaiyyəti adından Azərbaycan xalqına ən xoş arzularımızı, sülh və əmin-amanlıq diləklərimizi çatdırım. Zati-aliləri, bir daha təşəkkür edirəm.

Sonra Avropa Ədalətli Oyunlar Hərəkatının vitse-prezidenti **Ərdoğan Arpınar** çıxış etdi:

- Möhtərəm Prezident, Azərbaycan xalqının yüzdə yüz çoxluğu ilə Sizi təkrar bu ali vəzifəyə gətirdiyi üçün təbrik edirik. Türkiyə buna görə çox məmnundur. Şərəfli vəzifənizə layiq olduğunuzu hər bir işdə göstərdiniz.

Xatırlayırsınızsa, Azərbaycan Milli Olimpiya Komitəsinin 15-ci ildönümü tədbirində mən də iştirak edirdim. Orada Xəzər və Çingiz müəllimlə birlikdə bizə deyildi ki, toplantını keçirin və söz verildi. Bu toplantı ona görə həyata keçirilir. Göründüyü kimi, Azərbaycan Prezidenti nə söz verirsə, o sözün üstündə durur.

Ərdoğan Arpınar Azərbaycanın idman ictimaiyyətinin də qurumun fəaliyyətinə verdiyi dəstəkdən razılığını bildirdi və Bakıdan başlanan bu estafetin digər ölkələrə də örnək olacağını söylədi.

Sonra Karlos Qonsalves və Ərdoğan Arpınar Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanını Azərbaycanın dövlət başçısına təqdim etdilər.

Prezident **İlham Əliyev** yüksək mükafata görə təşəkkürünü bildirərək dedi:

- Bu mükafatı Azərbaycanda həyata keçirilən bütün işlərə dəstəyin əlaməti hesab edirəm. Bizim Azərbaycanda idmanın inkişafına münasibətimiz çox genişdir. Bu, təkcə beynəlxalq standartlara cavab verən yeni idman qurğularının yaradılması ilə deyil, həmçinin idmanın və Olimpiya hərəkatının Azərbaycanda geniş vüsət alması ilə ölçülür. Bu, idmançılara, idman veteranlarına olan böyük dəstəyin və hörmətin, ölkədə gənc nəsil arasında idmanın inkişaf etdirilməsinə yönələn səylərin əlamətidir. Təbii ki, bir istiqamətdə əldə olunan nailiyyət digər istiqamətdə öz töhfəsini verir. Gənc idmançılarımız Olimpiya oyunlarının qalibi olanda biz dərhal uşaqlar arasında idmana marağın artmasının şahidi olduq. İdmançılar cəmiyyətimizdə çox hörmətli şəxslərə çevriləndə bu, gənc nəsli öz bacarıqlarını sınamağa sövq edir. İndi bizim çox müasir idman infrastrukturumuz var və idmanda bacarıqları sınamaq üçün hamıya yaxşı şərait yaradılmışdır.

Dövlət başçısı Avropa Ədalətli Oyunlar Hərəkatının idman-etik normalarının bərqərar olunmasında və bütövlükdə dünyada Olimpiya hərəkatındakı rolunu yüksək qiymətləndirdi və qurumun

fəaliyyətinin Olimpiya ideyalarına, yəni dostluğa, əməkdaşlığa, bütün müxtəlif etnik və dini mənsubiyyətli insanlar arasında ünsiyyətə əsaslandığını vurğuladı.

Prezident İlham Əliyev idmanın təkcə nəticə, qələbə və ya uğurdan ibarət olmadığını, onun həm də sülhün bərqərar olunmasında, təhlükəsizliyin təmin edilməsində, mədəniyyətlər və dinlər arasında dialoqun yaradılmasında çox mühüm bir vasitə olduğunu dedi.

Azərbaycan Prezidenti ölkədə bütün beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırdı və oktyabrda Avropa Ədalətli Oyunlar Hərəkatının konqresinin də Bakıda uğurla keçəcəyinə əminliyini bildirdi.

Qurumun gördüyü işlərə dəstəyini əsirgəməyəcəyini söyləyən dövlət başçısı Azərbaycanın Cənubi Qafqazda və Mərkəzi Asiyada təkcə coğrafi mövqeyi və iqtisadi potensialı ilə deyil, həm də idman sahəsində nailiyyətləri ilə fərqləndiyini vurğuladı.

Prezident İlham Əliyev dövlət başçısı olmaqla yanaşı, Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyini də söylədi və bildirdi ki, ölkə həyatının bütün sahələri kimi, idmanın inkişafına da qayğı daim diqqətdədir.

Dövlət başçısı Avropa Ədalətli Oyunlar Hərəkatının nümayəndələrinə uğurlar arzuladı.

Görüşdən sonra xatirə şəkli çəkdirildi.

MDB Ölkələri İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının Fərqlənmə nişanı

2005-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə MDB Ölkələri İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının Fərqlənmə nişanı təqdim edilmişdir.

Fərqlənmə nişanı Prezident İlham Əliyevə MDB-yə üzv olan ölkələrin V Beynəlxalq İdman Oyunlarının baş hakimi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, kosmonavt Aleksey Leonov ilə görüşündə təqdim olunmuşdur.

Dövlət başçısı Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrin V Beynəlxalq İdman Oyunlarının Azərbaycanda keçirilməsinin əlamətdar hadisə olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə Aleksey Leonov arasında 1975-ci ilin oktyabrında keçirilmiş görüşdə iştirakını məmnunluqla xatırladı.

Aleksey Leonov Azərbaycana gəlməyindən böyük məmnunluq duyduğunu bildirdi, 1975-ci ildə ümummilli lider Heydər Əliyev ilə keçirdiyi görüşün indiyədək təsiri altında olduğunu söylədi. Kosmonavt dedi ki, Heydər Əliyev keçmiş Sovetlər İttifaqında çox yüksək vəzifə tutmasına baxmayaraq, adi insanların həyatı ilə daim maraqlanır, onların irili-xırdalı bütün problemlərinin dərhal həlli barədə göstərişlər verir və buna şəxsən nəzarət edirdi.

Aleksey Leonov idman təşkilatlarına və idmançılara göstərdiyi böyük dəstəyə görə Prezident İlham Əliyevin MDB Ölkələri İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının Fərqlənmə nişanı ilə təltif olunduğunu bildirdi və Fərqlənmə nişanını Azərbaycanın dövlət başçısına təqdim etdi.

БЛАГОДАРНОСТЬ

Dünya Taekvondo Federasiyasının 6-cı Dan Qara kəməri və sertifikatı

2003-cü il oktyabrın 10-da Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevə taekvondo üzrə 6-cı Dan Qara kəməri və sertifikat, idman geyimi təqdim edilmişdir.

Mükafatlar Baş nazir İlham Əliyevə Dünya Taekvondo Federasiyasının prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Un Yonq Kim ilə görüşündə təqdim olunmuşdur.

Qonağı səmimiyyətlə salamlayan Baş nazir İlham Əliyev onun səfərinin Azərbaycanda taekvondo idman növünün inkişafına təkan verəcəyini söylədi. O, habelə Un Yonq Kimin dünyada idmanın inkişafındakı xidmətlərini yüksək qiymətləndirdi.

Səmimi qəbula görə təşəkkürünü bildirən qonaq, Azərbaycanda bir neçə il əvvəl olduğunu, bu illər ərzində ölkədə idman sahəsində böyük tərəqqi əldə etdiyini söylədi, xüsusilə taekvondo idman növünün inkişafını və daha çox populyarlıq qazandığını vurğuladı.

Cənab Un Yonq Kim taekvondonun inkişafına göstərilən diqqət və qayğıya görə Baş nazir İlham Əliyevə təşəkkürünü bildirdi.

Baş nazir İlham Əliyev xatırlatdı ki, Azərbaycanda taekvondo və boks idman növləri üzrə son illər böyük nailiyyətlər qazanılmışdır. Digər idman növləri də sürətlə inkişaf edir və artıq Azərbaycan idmançıları beynəlxalq turnirlərdə ölkəmizi layiqincə təmsil edirlər.

O, idmanın inkişafını, xüsusilə olimpiya oyunlarında qazanılmış uğurları Azərbaycanda iqtisadi-sosial sahədə əldə olunmuş tərəqqinin nəticəsi kimi dəyərləndirdi, idmançılara göstərilən qayğı və diqqətdən söhbət açaraq dedi ki, məhz bunun nəticəsində gənclər və yeniyetmələr idmana daha çox həvəs göstərirlər.

Dünya Federasiyasının başçısı açılışında iştirak etdiyi idman sarayının ən yüksək dünya standartlarına cavab verdiyini vurğuladı, bu cür idman obyektinin istifadəyə verilməsinin Azərbaycanda idmana göstərilən diqqət və qayğının bariz nümunəsi olduğunu söylədi.

Dünya Taekvondo Federasiyasının prezidenti, BOK-un vitse-prezidenti Azərbaycan idmanının, o cümlədən taekvondonun inkişafında xidmətlərinə görə Baş nazir İlham Əliyevə taekvondo üzrə 6-cı dan Qara kəmər və sertifikat, idman geyimi təqdim etdi.

Ümumdünya Karate Federasiyasının Fəxri 9-cu Dan dərəcəsinin diplomu

2008-ci il martın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Ümumdünya Karate Federasiyasının fəxri 9-cu Dan dərəcəsinin diplomu təqdim edilmişdir.

Diplom Prezident İlham Əliyevə Ümumdünya Karate Federasiyasının prezidenti Antonio Espinos ilə görüşündə təqdim olunmuşdur.

Antonio Espinos dövlət başçısı ilə Milli Olimpiya Komitəsinin prezidenti kimi görüşünü məmnunluqla xatırladı. O, ilk dəfə 2003-cü ildə ölkəmizə səfər etdiyini və ötən dövr ərzində bütün sahələrdə, o cümlədən idman sahəsində də böyük nailiyyətlər əldə edildiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanda idmanın sürətlə inkişaf etdiyini, digər idman sahələrinə olduğu kimi, gənc nəslin karateyə də çox böyük maraq göstərdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan idmanının beynəlxalq aləmdə layiqincə təmsil olunduğunu və idmançılarımızın böyük uğurlar qazandığını söylədi. Dövlət başçısı Ümumdünya Karate Federasiyası ilə Azərbaycanın müvafiq idman strukturu arasında əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Sonra Antonio Espinos Azərbaycanda idmanın inkişafındakı yüksək xidmətlərinə görə Ümumdünya Karate Federasiyasının fəxri 9-cu Dan dərəcəsinin diplomunu Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Adlar göstəricisi

Abacıoğlu, Kamuran - 255,256
Abbasov, Əli - 320
Abdullah II, ibn Hüseyn - 160,168
Abdımanapov, Sarsenqali - 132,137
Abdraimov, Baxitjan - 223
Abdullayev, Çingiz - 239
Abdullayev, Fərhad - 7-9
Abdullayev, Mikayıl - 93
Ablameyko, Sergey - 224
Ağan, Əli - 320
Ağayev, Əhməd bəy - 215
Ağayev, Mirşahin - 304
Aleksi II - 65-68
Allahverdiyev - 218
Allahverdiyev, Yaşar - 366
Aleksandr - 117
Al Səud, Fəhd bin Əbdüləziz - 23-25
Amaşov, Əflatun - 320-321
Anar - 239
Anodina, Tatyana - 87-88
Antoşkin, Nikolay - 53
Araslı, Həmid - 215
Arınç, Bülənd - 263,265,270
Arpınar, Ərdoğan - 372-374,398
Aslanov, Ağalar - 366
Aslanov, Elnur - 319
Aslanov, Fuad - 392
Atalar, Abdullah - 139
Atalay, Tamer - 243
Atatürk, Mustafa Kamal - 222,243,282, 287,293
Ayxan, Orxan - 392
Balanu, Dimitru - 238-239
Balasaqunlu, Yunus - 132
Barrozu, Xose Manuel - 331,337
Bayandır, İsmət İsmayıl - 243-244
Baybakov, Nikolay - 53-56
Belova, Yelena - 374
Bendek, Yozef - 103-104
Berdiməhəmmədov, Qurbanqulu Məlikquliyeviç - 204,206,297,298
Beriş, Sali - 331
Besesku, Trayan - 19
Beyker, Ceremi - 250,253
Bəhlulzadə, Səttar - 93,100
Boqdanov, Vsevolod - 56
Borisov, Borislav - 145
Bubka, Sergey - 374
Buribayev, Askar - 286,299,303
Buzek, Yeji - 331
Bülbüloğlu, Polad - 185
Cavanşir, Behbud xan - 215
Cəfərova, Marina - 355
Çay, Əbdülxalıq - 283-286
Çobanzadə, Bəkir - 215
Çou, İnvon - 152,153
Çu, Çanq Von - 158
Dane, Mişel - 81,84
Davudoğlu, Əhməd - 270
De Popa, İoan Pop - 238
Dəmirəl, Süleyman - 286
Doğramacı, Aysel - 142
Doğramacı, Əli - 139
Doğramacı, İhsan - 139,140,142
Dumor, Hani - 159-160,168
Durlu, Təhsin Nuri - 138
Dvorkoviç, Arkadi - 317
Eldarov, Ömər - 93
Ernst, Konstantin - 317
Espinos, Antonio - 407
Eyvazov, Əsgər - 392
Eyvazov, Məmməd - 392
Eyyubov, Yaqub - 144
Əbiyev, Ceyhun - 392
Əfəndiyev, Elçin - 239
Ələkbərli, Məmmədkərim - 215
Ələkbərov, Vüqar - 392
Əliyev, Baba - 93
Əliyev, Cabir - 366
Əliyev, Elxan - 366
Əliyev, Heydər Əlirza oğlu - 7,9,10,11, 25,27,29,53,56,59,61,62,63,66,81,87, 93,97,116,117,119,125,126,130,136, 140,142,144,156,178,181,185,187,190, 211,214,215,217,218,222,223,237,239, 243,244,245,246,253,254,257,262,272, 282,287,292,293,305,308,320,321,341, 347,381,387,389
Əliyev, Hosən - 215
Əliyev, Hüseyn - 93
Əliyev, Musa - 215
Əliyev, Natiq - 366
Əliyev, Tələt - 271,283
Əliyev, Ülfət - 185-186
Əliyev, Zakir - 366
Əliyeva, Leyla - 178
Əliyeva, Mehriban Arif qızı 27,73,116, 122,123,142,145,169,178,210,213,223, 330,331,381,387
Əliyeva, Zərifə - 93,119
Əl-Tüveycri, Əbdüləziz bin Osman - 246-247,331,333
Ərdoğan, Rəcəb Tayyib - 263,265,270, 282,283,286,291-295,299,303
Əsgərov, Mirzə - 193
Əs-Sabah, Nəvvaf əl-Əhməd - 41
Əs-Sabah, Sabah əl-Əhməd əl-Cabir - 41
Əzimzadə, Əzim - 93
Əziz, Şövkət - 263,265,270
Fekete, Vladimir - 117
Françuk, İrina - 355
Gəncəvi, Nizami - 185
Gül, Abdullah - 256
Hacıyev, Cəfər Xəndan - 215
Haller, Bruno - 234
Harniş, Rino - 250
Heydərov, Kəmaləddin - 84
Həsənbəyov, Balabəy - 215
Həsənov, Eldar - 243
Həsənov, Faiq - 366
Həsənov, Mirhəsən - 237
Həşimov, Vüqar - 366
Hisarciklioğlu, Rifat - 270
Hüseynov, Heydər - 215
Hüseynov, Rövşən - 392
Hüseynzadə, Çingiz - 359,366,398
Xairov, Ruslan - 392
Xalıqov, Qəzənfər - 93
Xəlilov, Fərhad - 93,96,100
Xəlilov, Zahid - 215,218
Xəzər - 398
Xoyski, Fətəli xan - 215
Xubua, Giorgi - 222
İbrahimov, Nazim - 282-283
İbrahimov, Samir- 366
İhsanoğlu, Ekmələddin - 263,270
İxilov, Semyon - 117
İqnatenko, Vitali - 79
İmanquliyev, Nəsir - 215
İmranov, Şahin - 392
İliyesku, İon - 13,239,245
İsgəndərov, Elşad - 263,270
İsmayılov, Əli - 392
İsmayılov, Şahin - 319
Jeçev, Emil - 392
Jerixov, Aleksandr - 81
Kaçinski, Lex - 31-35
Kamil, Şeyx Salch - 270
Karteron, Jan Pol - 330,333,341
Kazımov, Vaqif - 392
Kim, Un Yonq - 406
Kirill - 71-73,117
Kiş, Norbert - 169,171,177
Kizyun, Nikolay - 56
Kobzon, İosif - 317
Koçak, Hikmət - 222
Kotlobovski, İqor Borisoviç 184-185
Kudzamanas, Kestutis - 374
Qarayev, Abdulla - 215
Qarayev, Əbülfəz - 389
Qasımov, Nadir - 93
Qasımzadə, Feyzulla - 215
Qaşqari, Mahmud - 132
Qaşqay, Mirəli - 215
Qazi, Ərtoğrul - 282
Qəniyev, Sərvər 142
Qocayeva, İradə - 366
Qolan, Cianni - 376,379
Qonsalves, Karlos - 398
Qref, German - 317
Quberski, Leonid - 194
Qumilyov, Lev Nikolayeviç - 132
Qutsayt, Vadim - 374
Lavrov, Sergey - 317
Leonov, Aleksey - 402
Li, Yan Tsun - 158
Lukaşenko, Aleksandr Qriqoryeviç-225
Lunin, Valeri - 181,184,222
Lyubimov, Yuri -317
Maqdiç, Edita Stanislavovna - 193
Maqsudov - 218
Malunay, Vyaçeslav - 374-375
Malyutin, Qleb - 237
Martinetti, Rafael - 381,387-389
Mehdiyev, Ramiz - 319
Mehdiyev, Şəfayət - 215
Mesaroş, Tamaş - 169,171
Məhərrəmov, Abel Məmmədəli oğlu - 181,210,213-217,222
Məmmədəliyev, Yusif Heydər oğlu - 215
Məmmədli, Elnur - 366
Məmmədov, Ağası - 392
Məmmədov, Fazil - 381-385
Məmmədov, Maqsud - 215
Məmmədov, Zahid - 366
Mərdanov, Misir - 319
Miller, Aleksey - 317
Moğol, Hasan - 254
Mosbeyker, Rob - 250
Musa, Əmr - 278,279
Mustafayev, Çingiz - 304,305,308,309, 315
Mustafayev, Fuad Çingiz oğlu - 308
Mustafayev, Vahid - 304-308
Nac, Yanoş - 81
Nağıyev, Murtuza - 215
Napaleon - 27
Nazarbayev, Nursultan Abişeviç - 132, 136,137
Nəbiyeva, Reyhan - 355
Nərimanova, Natalya - 366
Nəvai, Əlişir - 282
Ntzami Gəncəvi - 185
Nurovski, Pyotr - 369
Oppenbrinq, Martin - 272
Osmonaliyev, Kanıbek - 286,299
Ottinger - 331,337
Özatay, Şərəf - 255-256
Pan, Pyon Si - 152
Paşayev, Hafiz - 250
Paşayev, Mircəlal - 215
Paşayev, Telman - 366
Paşazadə, Allahşükür - 59-63,66,113-117,118,119
Pırvanov, Georgi - 49-50
Pinçuk, Semyon - 79
Pojivanov, Mixail - 271
Polidor, Pol - 244
Puşkin, Aleksandr Sergeyeviç - 123
Putin, Vladimir Vladimiroviç - 81,123, 126
Radonejski, Sergi - 68
Razumovski, Vasili İvanoviç - 214
Reynders, Didier - 330
Rəhimov, Azad - 319,366,381
Rəsulov - 218
Rəsulzadə, Məmməd Əmin - 215
Roqqe, Jak - 349

Rompey, Herman Van - 331
Rostovani, Jolt - 169
Rzaquliyev, Ələkbər - 93
Sadıxova, Valiyə - 366
Sadovniçi, Viktor Antonoviç - 178-181, 184,185,186,191,193,217-222
Salahova, Zərifə - 366
Salamzadə, Salam - 93
Saparlıyev, Xıdır - 286
Sarıkaya, Əli - 263
Səmədova, Vəcihə - 93
Simeonova,Y - 343
Siufas, Dimitris - 109,110
Skaretski, Fiorentin - 243
Smirnov, Vitali Georgiyeviç - 347, 349,355
Solana, Xavyer - 169
Şahbazi, Tağı - 215
Şaxtaxtinskaya, Elmira - 93
Şoxin, Aleksandr - 317
Şider, Piter - 234,235,236
Şirak, Bernadet - 27
Şirak, Jak - 27-29
Şvimmer, Valter - 234
Tağıyev, Cavid - 392
Tağıyev, Hacı Zeynalabdin - 95
Tağıyev, Mahmud - 93
Tağıyev, Tağı -93
Temmar, Həmid - 331
Tələt, Mehmet Əli - 282,286,295-297, 303
Topadze, Qoqi - 372
Topçubaşov, Əlimərdan bəy - 215
Topbaş, Kadir - 263,270
Toran, Yan Lui - 117
Torkunov, Anatoli Vasilyeviç - 91,122 -123, 131
Tretyak, Vladislav - 317
Tuayev, Kazbek - 366
Tugiyev, Çaryad - 209
Türkeş, Alparslan - 282,286,292
Tyaqaçov, Leonid Vasilyeviç - 369-372
Ulmanu, Vlad - 144
Vahabzadə, Bəxtiyar - 215,239
Vasin, Vladimir - 369
Verhoygen, Günter - 297
Vişnevskaya, Qalina - 317
Vrublevskis, Aldonis - 374
Yakunin, Vladimir - 317
Yəsəvi, Əhməd - 282
Yusifbəyli, Nəsib bəy - 215
Yuşşenko, Viktor - 37
Zaxarov, Mark- 223,317
Zanqham, Nəsrətollah
Zatlers, Valdis - 45
Zefirov, Nikolay Serafimoviç - 222
Zelinski, Nikolay Dmitriyeviç - 184
Zeynalov, Hacıbaba - 366
Zukkov, Mixael - 272,273,275,277

Mündəricat

Ordenlər

Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeni 6
Rumıniyanın "Rumıniya Ulduzu" ordeni....12
Rumıniyanın "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqı 18
Səudiyyə Ərəbistanı Krallığının "Kral Əbdüləziz" ordeni....22
Fransa Respublikasının "Fəxri Legionun Böyük Xaç Komandoru" ordeni 26
Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Xaç ordeni 30
Ukraynanın I dərəcəli Knyaz Yaroslav Mudrı ordeni 36
Küveyt Dövlətinin "Mübarək əl-Kəbir" ordeni 40
Latviya Respublikasının "Üç Ulduz" ordeninin "Böyük Xaç Kavaleri" dərəcəsi 44
Bolqarıstan Respublikasının "Stara Planina" ordeni 48
Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının I dərəcəli Aleksandr Nevski ordeni 52
Qafqaz Müsəlmanları İdarəsinin Şeyxülislam ordeni....58
Rus Pravoslav Kilsəsinin I dərəcəli Müqəddəs Serqi Radonejski ordeni 64
Rus Pravoslav Kilsəsinin "I dərəcəli Şöhrət və Şərəf" ordeni 70

Medallar və fəxri nişanlar

Ümumdünya Rus Mətbuatı Assosiasiyasının fəxri nişanı....78
Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin "Gömrükdə beynəlxalq əməkdaşlığa görə" döş nişanı....80
Dövlətlərarası Aviasiya Komitəsinin qızıl medalı və fəxri diplomu....86
Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) medalı və Məzunlar Assosiasiyasının qızıl nişanı....90
Azərbaycan Rəssamlar İttifaqının qızıl medalı....92
Misir Ərəb Respublikası Xalq Məclisinin xüsusi qızıl medalı....101
Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfransın "Qızıl Ulduz" medalı....102
Yunanıstan Respublikası parlamentinin "Şərəf" medalı....108
Rus Pravoslav Kilsəsinin "Müqəddəs Apostol Varfolomey" qızıl medalı....112

Fəxri elmi adlar

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) fəxri doktoru 122
Lev Qumilyov adına Qazaxıstan Dövlət Avrasiya Universitetinin fəxri professoru
və "Qızıl döyüşçü" medalı 132
Türkiyənin Kırıkqala Universitetinin fəxri doktoru 138
Türkiyənin Bilkənd Universitetinin fəxri doktoru və İhsan Doğramacı adına Dünya sülh mükafatı 139
Rumıniyanın Ployeşti Neft-Qaz Universitetinin fəxri doktoru 144
Bolqarıstan Milli və Dünya Təsərrüfatı Universitetinin fəxri professoru 145
Cənubi Koreyanın Kyunq He Universitetinin fəxri doktoru 152
İordaniya Universitetinin fəxri doktoru 159
Macarıstanın Korvinus Universitetinin fəxri doktoru 169
Moskva Dövlət Universitetinin fəxri professoru 178
Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru 194
Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin fəxri professoru 204
Bakı Dövlət Universitetinin fəxri doktoru 210
Belarus Dövlət Universitetinin fəxri professoru 224

Fəxri adlar və mükafatlar

Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü və medalı 234
"Çernobıl İttifaqı" beynəlxalq təşkilatının fəxri üzvü 237
Rumıniyanın İnsan Hüquqları təşkilatının mükafatı və "Pol Polidor" Mədəniyyət Fondunun fəxri üzvü 238
İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) baş mükafatı 246
Amerika-Azərbaycan Ticarət Palatasının "Görkəmli rəhbərlik" xüsusi mükafatı 250
Türkiyənin İpək Yolu Vəqfinin fəxri üzvü 254
Türkiyənin İpək Yolu Vəqfinin "2004-cü ilin siyasətçisi" mükafatı 254
Türkiyənin "Ekovitrin" jurnalının "Avrasiyada ilin siyasət adamı" mükafatı 255
İslam Konfransı Təşkilatının Dialoq Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mükafatı 263
Ukrayna Ümummilli Proqramının Ali Akademik Şurasının "2006-cı ilin adamı" mükafatı 271
Almaniyanın Mixael Zukkov Fondunun ali mükafatı 272
Ərəb Dövlətləri Cəmiyyətinin mükafatı 278
Türkdilli Dövlətlərin və Cəmiyyətlərin Dostluq, Qardaşlıq və Əməkdaşlıq
Fondunun "Orxon-Yenisey" mükafatı 282
ANS Şirkətlər Qrupu və Çingiz Mustafayev adına Fondun "2007-ci ilin adamı" mükafatı 304
Kanadanın türkdilli diasporları forumunun "İlin adamı" fəxri adı 316

Rusiyanın RBK informasiya agentliyinin "İlin adamı-2009" Qran-pri mükafatı 317
Rumıniyanın "Balkanlar və Avropa" jurnalının "2010-cu ilin adamı" mükafatı 318
Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının "Azərbaycan tələbələrinin dostu" mükafatı 319
"RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin "Jurnalistlərin dostu" mükafatı 320
Krans Montana Forumunun "Prix De La Fondation" ali mükafatı 330
Həştərxan şəhərinin fəxri vətəndaşı 343

İdman təşkilatlarının mükafatları

Beynəlxalq Olimpiya Komitəsinin "Olimpiya" ordeni 346
Azərbaycan Milli Olimpiya Komitəsinin "Olimpiya" ordeni 358
Belarus Milli Olimpiya Komitəsinin ali mükafatı 368
Beynəlxalq Hərbi İdman Şurasının "Böyük Kordon" Şərəf ordeni 376
Beynəlxalq Güləş Federasiyasının (FİLA) "İdman əfsanəsi" medalı 380
Beynəlxalq Güləş Federasiyasının (FİLA) xüsusi mükafatı 386
Avropa Həvəskar Boks Assosiasiyasının xüsusi mükafatı 392
Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı 396
MDB Ölkələri İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının Fərqlənmə nişanı 402
Dünya Taekvondo Federasiyasının 6-cı Dan Qara kəməri və sertifikatı 406
Ümumdünya Karate Federasiyasının Fəxri 9-cu Dan dərəcəsinin diplomu 407

Kitab Azərbaycan Respublikası
Prezidentinin Katibliyi tərəfindən hazırlanmışdır.

Kitabın hazırlanmasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəxsi arxivinin və AzərTac-ın materiallarından istifadə olunmuşdur.